# BOYAQÇILAR KÜÇƏSİ

**Qələmə alan: Rahilə Səburi**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:..........................Boyaqçılar küçəsi**
**Qələmə alan:................................Rahilə Səburi**
**Tərcümə edən:..................Zeynəb Hüseynzadə**
**Çap tarixi:...................................................2021**
**Çap növbəsi:............................................Birinci**
**Tiraj:............................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 33-29-024519-29

## Mündəricat


Birinci fəsil....................................................................4

İkinci fəsil....................................................................17

Üçüncü fəsil....................................................................34

Dördüncü fəsil....................................................................50

Beşinci fəsil....................................................................75

Altıncı fəsil....................................................................105

Yeddinci fəsil....................................................................149

Səkkizinci fəsil....................................................................163

Doqquzuncu fəsil....................................................................178

Onuncu fəsil....................................................................206

On birinci fəsil....................................................................235

On ikinci fəsil....................................................................247

On üçüncü fəsil....................................................................271

On dördüncü fəsil....................................................................294

On beşinci fəsil....................................................................340

On altıncı fəsil....................................................................412

# Birinci fəsil

Mən Tehranın Parovoz stansiyası məhəlləsində, Səffari prospekti ilə Xorasan prospektinin arasındakı Boyaqçılar küçəsində dünyaya gəlmişəm. Atam Seyid Əbuturab Kazimi Təbatəbai Məxmərpapaqlılar tayfasındandır. O, cavanlığını İsfahanın yaxınlığında yerləşən Zəvvarə şəhərində keçirmiş, bütün qohumları əkinçi olmuşdu. Zəvvarə əhalisinin çoxu seyid idi. Eşitdiyimə görə, atam Zəvvarədə və ətraf bölgələrdə mərhəməti, əliaçıqlığı ilə tanınırmış. O, dindar, səxavətli və qonaqpərvər adam olmuş, süfrəsi dəvətli-dəvətsiz hər kəsə açıq olmuşdu.

Bir neçə ildən sonra müəyyən səbəblərə görə yoldaşını Zəvvarədə qoyur, artıq böyümüş üç oğlu ilə Tehrana gedib karvansara işlətməyə başlayır. Şah Əbdüləzimin məqbərəsinin yaxınlığında yerləşən karvansaranın torpağı İbadi adlı bir şəxsin imiş.

Anamın ailəsi də Zəvvarədə yaşayırdı, onlar lap əvvəldən atamı tanıyırmışlar. Anam varlı qızı olmuşdu, lakin dünya onlarla tərslik edib bütün var-dövlətlərini

əllərindən aldıqdan sonra üç qardaşı ilə doğulduğu yeri tərk etmiş, daha yaxşı həyat ümidi ilə Tehrana getmişdi.

Qardaşı Seyid Abbas atamı tanıdığı üçün İbadi karvansarasına gedib atamın yanında işə başlayır. Günlərin bir günü atam bir iş üçün anamın yaşadığı evin önünə gedir, anamı görüb ona aşiq olur və aralarında 30 il yaş fərqinin olmasına baxmayaraq, bu evlilik baş tutur. O vaxt anam yeniyetmə qız, atam isə iki oğul atası olan ortayaşlı kişi idi. Zənnimcə, anam qardaşlarına görə özünü qurban vermişdi.

Bundan sonra atam Boyaqçılar məhəlləsində bir ev alıb bütün ailəsini oraya aparmışdı. Mən də həmin evdə dünyaya gəlmişəm.

Mən ailəmizin yeddi uşağının beşincisiyəm. Dünyaya gəldiyim 1956-cı ildə anam xəstəxanada yatırdı. O zaman atam evimizin bir otağını bir qadına vermişdi. Onda kimin evində artıq otaq vardısa, təmənnasız olaraq, yaxşı bir ailəyə verirdi, onlar bəzən uzun illər həmin evdə ev sahibi ilə bir ailə kimi yaşayırdılar.

Qadının adı Məsumə Aynadar idi, lakin evdə onu "Pəri" çağırırdılar. O bizim evə gəlməzdən öncə əri Məşhədi Bəhramla karvansara sahiblərindən birinin evində işləyirmiş. Pəri xanım 42-43 yaşlı, uca boylu, mömin, cəld və zirək qadın idi. Anam xəstələndiyinə görə mən ona bağlandım, o mənim ikinci anam, Allahın yetirdiyi dayəm oldu. Bir qədər böyüdükdən sonra ona "Pəri nənə" deyir, gecələr onun nağılları ilə yatırdım.

Deyilənlərə görə, Pəri nənə məni hər gün bələkdə xəstəxanaya ana südü içməyə aparar, günortadan öncə geri qaytararmış. Uşağı olmadığına görə məni çox sevirmiş. Üç-dörd yaşımda qucağında oturdub mənə Həmd surəsi ilə Ayətül-kürsini öyrətdi. Hamısını səhvsiz danışanda ləbləbi

və kişmiş verərdi. Namaz qılanda canamazının yanına bir möhür qoyardı ki, mən də onunla birgə oturub-qalxım, namaz qılım.

Nənəyə o qədər bağlanmışdım ki, günorta və axşam yeməklərimi də onun otağında yeyirdim. Nə vaxt bozbaş bişirsəydi, qazanın içinə bir tikə quyruqla ət atardı, ətin sümüklərini ayırıb mənə yedirərdi. Mən ətlə quyruğu çox sevirdim.

Bir dəfə günorta yeməyində çox sevincək idim, bozbaşın ətrafında o qədər fırlandım ki, axırda ayağım qabın içinə girib yandı.

Məşhədi Bəhram da zəhmətkeş insan idi, heç nəyini məndən əsirgəməzdi. Axşamlar işdən qayıdanda qazandığı pulları xalçaya tökər, mən də cəld böyük pulları köynəyimin önünə yığar, bir tümən almayınca qaytarmazdım.

Nənə hər dəfə ziyarətə gedəndə məni də özü ilə aparardı. İbn Babuyə və Əbdüləzim ziyarətgahlarına getmək ovaxtkı əyləncələrimizdən idi.

Ətrafı çala-çuxurla dolu olduğuna görə məhəlləmizə Çuxurlu meydan da deyirdilər. Həmin məhəllə sonralar bar və kazinolarla doldu.

O zaman insanları soyadla deyil, ləqəblə tanıyırdılar. Bu xüsusən tehranlılar arasında çox məşhur idi. Biri uzunbığ və ya keçəl idisə, adının yanına mütləq belə bir ləqəb artırırdılar.

Mən nə qədər çalışsam da parovoza minə bilmədim. Onunla Şuş meydanından Şah Əbdüləzim ziyarətgahına gedirdilər. Bu ziyarətgah o zaman şəhərdən kənardaydı.

Bir müddət sonra parovoz dəbdən düşdü, onu camaatın tamaşa etməsi üçün parkın ortasına qoydular. Onun

yaxınlığındakı evlərdə yaşayan uşaqları “Parovoz uşağı” çağırırdılar.

Bir gün nənə ilə birgə Xorasan prospektinin başındakı parovoz stansiyasında üçatlı arabaya minib Seyid Məlik xatuna getdik. Ora Toğrul şahın arvadı Məlik xatunun dəfn edildiyi yer idi. O, seyid deyildi, amma hörmətli və ləyaqətli qadın olub Rey əhalisinə çox yardım etdiyi üçün belə adlandırmış, məzarını ziyarətgaha çevirmişdilər.

Araba toz-torpaqlı bir yolla tarap-turupla gedirdi. Mən nənənin aldığı dondurmanı yalayıb həzz alırdım. Amma dondurma bitməmiş dişimdə şiddətli ağrı başladı. Var-gücümlə bağırır, başımı nənənin dizinin üstünə qoyub qışqırırdım. Nənə başımı sığallayıb qulağıma nəsə oxudu, dişimin ağrısı dayandı. Paltarımın qolu ilə burnumu və gözlərimi silib nənədən soruşdum:

-Nə etdin ki, dişim sağaldı?

-Heç nə, nənə qurban, bir “Qulhuvallah” oxuyub üzünə üfürdüm.

Pəri nənə imanlı qadın idi. Allah şahiddir ki, onun ağzından bir dəfə də yalan eşitməmişəm. Daim təsbeh çevirər, sakitcə zikr söyləyərdi. Nənə davranışı ilə qəlbimə iman və mənəviyyat toxumları səpirdi. Bişirdiyi yeməkləri, kömür samovarı və neft lampası bir qadın qənaətçiliyinin zirvəsini göstərirdi.

İnsan hansı yaşda olursa-olsun, həmişə bir yolgöstərənə ehtiyac duyur. Bəzi adamlar kamillik əldə etmək üçün ömür boyu arif axtarır, ətraflarındakı mənəvi gözəllikləri göstərən insanları isə görmürlər. Onların bildiklərini heç bir kitabda, heç bir məktəbdə tapmaq mümkün deyil.

Nənə bizə yorulmadan, təmənnasız qulluq edirdi. O vaxtlar qaz xətti çəkilməmişdi, suqızdıran cihazlar yox idi; nənə hovuzda paltar yuyur, balon qazı ilə yemək bişirirdi.

Yaxşı yadımdadır, biz uşaqkən hovuzda o qədər pal-paltar yuyurdular ki, bir həftəyə suyu palçığa dönür, bir az da qalanda qurd və bitlə dolurdu. Elə olanda hovuzdakı qırmızı balıqlar da tələf olurdu. Bu kimi hallarda Məhəmmədə işimiz düşürdü. O, şalvarının balaqlarını çırmayıb hovuzun suyunu boşaldırdı.

Məhəmməd gələndə mənim əyləncəm başlayırdı. Küçənin ortasındakı kanalın yanında otururdum, hovuzun suyunu vedrələrə doldurub kanala boşaldanda mən də qolumu dirsəyədək suyun içinə salıb balaca qırmızı balıqları tutur, onlarla oynayırdım. Çirkli su ilə o qədər oynayırdım ki, axırda nənə qolumdan tutub sürüyə-sürüyə otağına aparırdı.

Pəri nənə ev işləri ilə yanaşı balaca bacı-qardaşlarımı da saxlayırdı. Bununla da yavaş-yavaş anamın əl-qolu açıldı, məhəllədə və Boyaqçılar küçəsində ondan yüzlərlə xeyir iş yadigar qaldı. Atamın əliaçıqlığına görə qohum-qonşuda hamı anama hörmət edirdi. Qonşular təzə gəlinlərə ağ şal tikmək istəyəndə anamın yanına gəlib qayçını əlinə verir, “Seyid xanımın əli yüngüldür” deyirdilər.

Anam təhsilsiz olsa da, şair və ədəbiyyatçı ailənin qızı idi. Hafizlə Sədinin şeirlərini əzbərdən oxuyanda universitet bitirdiyini zənn edərdin! Ondan bir söz soruşanda və ya onunla məsləhətləşəndə sözünü şeirlə bitirərdi. Bir dəfə ondan soruşdum:

-Sənin təhsilin yoxdur, bu qədər şeiri necə öyrənmisən?

-Şair Mirzə Hidayət atamın qohumu idi. Mən uşaqkən bizə gələrdi, axşamlar bir yerə toplaşardıq. Mirzə saz çalıb Hafizlə Sədinin şeirlərindən oxuyar, mən də əzbərləyərdim, - deyə cavab verdi.

Anam çox qonaqpərvər qadın idi, həmişə deyirdi: “Mərd adamın qapısı həmişə açıq olmalıdır. Camaat evinə gülər üzün üçün yığışar, uzun süfrən üçün deyil”. O, atamın hər gün gələn qonaqlarıyla gözəl davranır, özü də hər ayın 11-i rövzə məclisi qurub ehsan verirdi.

O, atamın xasiyyətinə hamıdan çox bələd idi. Atam hər gün günorta çağı bir neçə dostuyla qonaq otağına söhbətləşməyə keçəndə anam onları elə səmimi qarşılayardı ki, heç vaxt getmək istəməzdilər.

Evimiz ikimərtəbəli idi, beş otağı vardı. Qonaq otağı hamısından böyük və təmiz idi. O qədər insana yemək bişirmək də asan deyildi. Qonaqların sayı çox olanda atam anama və oğlu karvansarada gözətçi işləyən köməkçisi Şirin xanıma nə qədər yemək bişirəcəklərini deyirdi.

Atam səhər tezdən Şirin xanıma deyərdi: “On nəfərlik yemək bişir, günortaya hazır olsun”.

Biz Şirin xanımı “Şirin bibi” çağırırdıq. Kirmanşahlı olduğundan oranın ləhcəsi ilə danışırdı. Çox səliqəli, zirək, nəzakətli xanım idi, yeməklərinə söz ola bilməzdi. Əlli qonağı təkbaşına yola salırdı. Qonaqlar gedəndən sonra anamla uşaqlar atamı dövrəyə alardılar.

Bu qədər ildən sonra indi də arabir qapının çərçivəsində atamı görürəm. Ucaboy, iri cüssəli idi. Elə zəhmi vardı ki, adam onun sözündən çıxa bilmirdi. Əgər bir oğlanla qızın ailə qurmasını məsləhət bilsəydi, bir salavatla mövzunu bağlayardı, heç kim də sözünün üstünə söz deməzdi. Qohumlar arasında küsülük olanda da barışdıran atam olurdu. Çoxları deyir ki, Seyid Turab problemlərin açarı idi. Mən onu doyunca görmədən bu dünyanı tərk etdi. Hətta qədim Tehranın görünüşündən də təxmini şeylər xatırlayıram, nə bilirəmsə, hamısını anamdan eşitmişəm. Yalnız bunu bilirəm ki, Tehran qədimdən işləyib pul

qazanmaq üçün əlverişli şəhər olub. Zərrə qədər fərasəti olan bir adam Tehrana gəlsə, bir il ötmədən yaxşı pul qazanıb həyatını tamam dəyişərmiş. Məhz buna görə dillərə düşmüşdü ki, Tehranın küçələrində yol yeriməklə də pul qazana bilərsən.

Atam Zəvvarədən köçəndə Tehranda hər birinin gözətçisi olan altı darvaza varmış. Qürub çağı darvazalar bağlanır, kim bundan sonra Tehrana çatsaydı, səhərə kimi gözləməli olurmuş.

Sonralar Nasirəddin şahın vaxtında darvazaların sayı on ikiyə çatdı. Tehranın ətrafında bir neçə çala da qazıb torpağıyla bina tikdilər. Həmin çala get-gedə narkoman, oğru və borcluların yuvasına çevrildi. Rza xan hakimiyyətə gələndən və Tehran böyüyəndən sonra onlardan əsər-əlamət qalmadı.

Darvazaların yaxınlığında karvansaralar tikilmişdi. Biri Sahibcəm xiyabanında idi. Dəvələrin yükünü orada boşaltdıqlarına görə həmin məhəllə Şotordaran adı ilə məşhurlaşmışdı. Dəvələri şəhərə buraxmırdılar, yüklərini orada boşaldıb arabalarla aparırdılar.

O zaman palçıq və ya kərpicdən böyüklü-kiçikli çoxlu karvansara tikilmişdi. Onların təxminən hamısında bir ortaq cəhət vardı: bütün ətrafı palçıqdan tikilmiş otaqlardan və yerdən bir qədər hündürdə olan eyvanlardan ibarət idi. Eyvanların yuxarısı mehrab şəklində olurdu; ya isti-soyuğu cəzb etməsinə, ya da gözəlliyinə görə belə edirdilər. Bəlkə də başqa cür tikə bilmirdilər. Saman və buğda anbarı, heyvanların axuru da onun bir tərəfində yerləşirdi.

Karvansaranın digər tərəfində dükanı olan bütün dəmirçilər, nalçılar və təkər düzəldənlər səhər tezdən işə

başlayırdılar. Onlar karvansaranın otaqlarından istifadə etdiklərinə görə ağaya kirayə ödəyirdilər.

Karvanlar və tacirlər də mallarını boşaltmaq, habelə at və qatır saxlamaq üçün pul ödəyirdilər. O zaman karvansara işlətmək çətin iş idi, həm xüsusi bacarıq, həm də etimad tələb edirdi.

Karvansara işi önəmli və pullu işlərdən idi. Hər yoldan ötən adam tacirlərin etimadını qazana bilməzdi. Buna görə atam Tehranda da hörmət qazandı, işində düzgünlüyünə və imanına görə məhəllə adamlarının və tacirlərin sevimlisinə çevrildi.

Yadımdadır, bir gün atamla karvansaraya gedirdim. Yolda bir nəfərin başını aşağı salıb bir divarın yanında oturduğunu gördük. Atam həmişə yanında olub işlərini yerbəyer edən fəhləsini göndərib dedi ki, get, gör ona nə olub.

Fəhlə qayıdıb dedi: "Heç nə, ağa, vərəmdir. Xəstəxanaya getməlidir, amma pulu yoxdur".

Atam dərhal əlini pencəyinin qoltuq cibinə salıb ona pul verdi, qulağına da nəsə pıçıldadı.

Atamın bizdən öncə ailəsi olduğunu eşitmişdim. Öz aləmimdə fikirləşirdim ki, həmin vərəm kişi yəqin, bizim ögey qardaşımız və ya qohumumuz olduğuna görə atam belə gözübağlı pul verir. Ancaq sonralar bildim ki, o, yad adam imiş. Mən mərhəmət və alicənablığın Bismillahını onda öyrəndim.

Bu səxavətinə, yoxsullara yardımına görə kiçik və böyüklər, qoca və gənclər atama hörmət edir, qarşısında baş əyirdilər. İşi çətinə düşmüş hər bir hörmətli insan atamın qapısını döyürdü, bilirdi ki, əliboş qayıtmayacaq. Onun xarakteri belə idi: Çətin durumda olan adamın pis, yoxsa yaxşı olduğuna baxmazdı, problemini həll etməyə

çalışardı. Keçmişi ilə də işi olmazdı. Onun üçün quldurun, narkomanın, məhbusun və fərarinin adi adamla fərqi yox idi; kim ağız açırdısa, əlindən gələni etməyə çalışırdı.

İyirmi arabaçısı vardı. Bir qismi meyvə və göyərti yükləyib şəhərə satmağa və ya bazar adamlarına verməyə aparırdı, bir qismi də sərnişin daşıyırdı. Onlar səhər tezdən işə başlayır, axşamlar araba və faytonlarını gözətçilərin yanına qoyurdular.

Mən karvansaranın hər bir dəlik-deşiyinə baş çəkir, dəmirçi və nalçılara tamaşa etməkdən həzz alırdım. Mənə hər şey maraqlı gəlirdi. Arabir at və qatırlara daş və çubuq atır, onlarla oynayırdım.

Atam hər gün günorta çağı Məşədi Əlinin karvansaranın qarşısındakı qəhvəxanasına gedirdi. Qəhvəçi ona balış gətirir, hörmət edirdi. Atam çubuq çəkə-çəkə o dövrün aktual söhbətlərindən edirdi. İşi olan-olmayan hər kəs atamla söhbətləşir, dərdləşirdi.

O zaman kəndlərdə xaşxaş əkirdilər, yaşlıların çoxu tiryək çəkirdi. Bu nəinki eyib deyildi, hətta dəb halına düşmüşdü. Bəlkə də onlara bir növ əzəmət verir, prestij əlaməti sayılırdı.

Ayaq və ya bel ağrısından ömür boyu şikayətlənənlər də vardı. Bu zaman cənab həkimbaşı onları tiryəkə yönəldirdi.

O vaxtlar deyirdilər: "Yanmış tiryək şirəsinə heç nə çata bilməz. Adi tiryək onun yanında ota bənzəyir".

Bir gün Məşədi Əlinin qəhvəxanasında bir nəfər atamın yanına gəlib deyir: "Ağa Seyid Turab, əlim boşdur". Atam heç bir söz demədən əlini cibinə salıb ona iki tümən verir. O gedəndən sonra bir nəfər atama deyir: "Ağa, pul vermə, o, narkomandır".

Atam deyir:

– Hardan bilirsən?
– Bütün məhəllə bilir.
– Onda get, onu çağır.

Narkoman gələndə atam ona deyir: "Sənin narkoman olduğunu bilmirdim. Al bu iki tüməni, narkotikə xərclə, əvvəl verdiklərimi də ailənə".

Atam barəsində çoxlu belə xatirə eşitmişik. Şahidlərin bir qismi hələ həyatdadır. 1950-1960-cı illərdə Zəvvarədən və ətraf kəndlərdən Tehrana kim gəlirdisə, Seyid Turabın karvansarasını axtarırdı və çox keçmədən atamın sayəsində iş və dükan sahibi olurdu.

Atam günbatan çağı pulları toplayıb evə gəlir, pencəyini divardan asıb əlini dizinin üstünə qoyur, təsbeh çevirib zikr deyirdi.

Anam deyirdi: "Ağa, sən gündə yeddi-səkkiz tümən qazanırsan. Məkkə bizə vacibdir".

Atam deyirdi: "Məkkə palçıq evdir, daş nişandır. Bir adamın qəlbini sevindirə, ya da onu rüsvaylıqdan qurtara bilsən, elə bil, min dəfə Məkkəyə getmisən".

Mən uşaqlıqda atamın yanında, ya da dizinin üstündə oturub ona və yaşlı qohumlara qulaq asırdım. Atamın sarı səndəlus təsbehi gözümü qamaşdırırdı. Ona işıq düşəndə parıldayırdı. O vaxtdan onun təsbehindən və əqiq üzüyündən arzulayırdım.

Bir gün günorta çağı atamla karvansaraya gedirdim. Fəhlələr yuxarı eyvanda bozbaş bişirmişdilər. Atam birdən qazana yaxınlaşıb qapağını qaldırdı, sonra üzünü bir fəhləyə tutub dedi: "Böyük Oman limonlarını hardan gətirmisiz?"

Fəhlə cavab verdi: "Limon kisələrindən biri cırıldı, limonlar yerə dağıldı. Mən də üç-dördünü götürüb qazana atdım..”.

Hələ fəhlənin sözü bitməmiş atam hirslə ona yaxınlaşdı, gözlənilmədən qazana möhkəm bir təpik vurdu. Qazan eyvanın üstündən karvansaranın həyatinə düşdü, noxud və lobyalar ətrafa səpələndi.

Zavallı fəhlə qorxudan tərpənə bilmirdi, yerində qurumuşdu. Atam ona bir neçə söyüş verdi, sonra mənim əlimdən tutub karvansaradan çıxdı.

Yerin sahibi olan İbadi atamın ardınca qaçıb dedi: "Ağa Seyid Turab, fəhlədir, bilməyib, nadanlıq edib..”.

Ancaq atam onu dinləmir, tez-tez yeriyib deyirdi: "Əgər adam qəbrin və qiyamətin olduğunu bilsə, camaatın malına əl vurmaz. Mən bunların haramxorluğuna şərik ola bilmərəm".

Bundan sonra atam İbadinin karvansarasından həmişəlik getdi. Bir müddətdən sonra Kor Maşallah kimi tanınan bir adamla müqavilə bağladı. Müqaviləyə əsasən, karvansara atamın ixtiyarında olacaq və bütün qazancı yarı bölünəcəkdi.

Kor Maşallahın karvansarası Şuş meydanının və Arıxana çalasının yaxınlığında yerləşirdi. Uzun Hüseynin karvansarası da ondan yuxarıda idi. Tehranın əksər dərə və çalaları kimi ora da evsiz-eşiksizlərin, oğruların, yolkəsənlərin və tüstü dərvişlərinin yuvası olmuşdu. Ətrafda otaq edilmiş dəlikləri çox olduğuna görə Arıxana çalası adlanırdı; yəni hər bir evi bir arı yuvası boydadır!

Şuş meydanından enli bir torpaq prospekt başlayırdı. Prospektin iki tərəfi də saman, buğda anbarları və tövlələrlə dolu idi. Həmin yer indi Tehranın büllur bazarıdır. Atam malları karvansaradan bazara göndərmək üçün həmin il International markalı bir yük maşını aldı və maddi vəziyyəti daha da yaxşılaşdı. Maşının sürücüsü Əkbər idi.

Atam qohumcanlı idi, əmilərini, əmisi uşaqlarını və daha uzaq qohumlarını ziyarət etmək, onlar üçün qonaqlıq vermək həmişəki adəti idi. Həmin il baharın on üçüncü günündə əksərinin yük maşını olan 45 ailə bir yerə toplaşdıq, maşınlara minib Məşhəd yoluna piknikə getdik. Orada çoxlu ağaclar, gözəl və yaşıl düzlər vardı. Uşaqların oynaması, böyüklərin istirahət etməsi üçün çox münasib yer idi. Kişilər ələk-dülək, aşıq-aşıq və futbol oynayır, ciddi yarışa girirdilər. Uzaq qohumlarımızdan olan Hacı Məhəmməd Rəhmətinin biləkləri çox güclü idi, çubuğu vuranda yetmiş metr uzağa düşürdü. Bölüşəndə hamı Hacı Məhəmmədin komandasından olmağa can atırdı.

Gülməkdən və digərlərini güldürməkdən ötrü sinov gedən Həsənxan Amiri qadınların yanında oturur, hər bir çaydandan çay içir, zarafat edə-edə kişi və qadınları gülməkdən uğundururdu.

Hamı bir-birinə sonsuz dərəcədə yaxın idi, heç kim özünü digərindən üstün tutmurdu. Qadınlar qaval və dümbək çalanda mahir oyunçular dairə qurub rəqsə başlayırdılar. Axırda kim nə bişirib gətirmişdisə, ortaya qoyurdu və hamı yeməyə başlayırdı.

Qohum və tanışlar arasında bəziləri dünyasını dəyişmişlər. Ruhları şad olsun! Onlardan bir dəfə də qeybət, böhtan və digər dil günahı eşitmədik. Hamı Allahın nemətlərinə şükür edirdi.

Digər əyləncələrimizdən biri də hər il yayda gözəl ab-havası olan Həsənbəy kəndinə yaylağa getmək idi. Bu kənd Vəraminin yaxınlığında yerləşirdi, kəndxudası atamın uzaq qohumlarından olan Hüseyn idi. O, çox ağır danışırdı, bir cümləni söyləyincə bir saat çəkirdi, amma həqiqətən mömin və əliaçıq kişi idi. Bağının meyvəsindən

həmişə digərlərinə verirdi, bizə yeşiklərlə yaqut üzümü, alma və armud verir və ya göndərirdi.

Hüseynin qızı şəhərə təhsil almağa gələndə anam evimizin bir otağını ona verdi. O, uzun müddət bizə qonaq oldu. Biz onunla bacı-qardaş kimi səmimi idik.

# İkinci fəsil

Altı yaşımda Dirəxşəndə prospektində yerləşən Cəmşid orta məktəbinə getdim. Hər gün bir şahı verib fırfıra və turş alça alır, yeyə-yeyə evə gəlirdim. Bəzi günlər bəxt qutusuna bir şahı salırdım. Hərdən bəxtim gətirirdi, bir Quran udurdum, hərdən də on şahı salırdım, amma heç nə çıxmırdı.

Kitab-dəftərlərim Pəri nənənin otağında qalırdı. Tapşırıqları onun yanında yazıb tez küçəyə qaçır, hava qaralana qədər futbol, ilan və pilləkən və digər oyunlar oynayırdım.

Dördüncü sinfə qədər dərsim yaxşı idi. Bəzi müəllimlər mehriban idi, bəzisi isə uşaqları şunur və şlanqla vururdu.

Məktəbimizin bufetçisi Nərgizian soyadlı xəsis və kobud bir qoca kişi idi. Heç bir uşağın onu görməyə gözü yox idi. Yayda çərəz və dondurma, qışda da məktəbin həyətinə bir tabaq qoyub paxla və çuğundur qaynamışı satırdı.

Məktəbin həyətinin ortasında uzun dördbucaqlı bir hovuz vardı. Novruz bayramı yaxınlaşanda Nərgizian

onun suyunu dəyişdirirdi. Hovzun yeri beton idi və bir çökəyi vardı. Nərgizian kreativlik edib həmin çökəyə bir kasa qoyur, bizə deyirdi: "Kim bu kasanın içinə bir şahı sala bilsə, iki tümən mükafatı var".

Mən dördüncü sinifdə oxuyana qədər heç kim kasaya pul sala bilməmişdi; salmışdısa da, iki tümənin üzünü görməmişdi. Nərgizian hər dəfə bir bəhanə ilə mükafatı verməkdən boyun qaçırırdı. Bu ona yaxşı peşə olmuşdu. Uşaqlar hər gün kasaya onlarla metal pul atırdılar, hamısı da ona çatırdı. Bəzi uşaqlar pullu idilər, bir qran atırdılar, amma əllərinə heç bir şey keçmirdi.

Onun yaxşı bir cavab almasının vaxtı çatmışdı. Bir axşam evdə məsələni böyük qardaşlarım Seyid Mehdi ilə Seyid Baqirə danışdım. Seyid Mehdi Seyid Baqirdən kiçik olsa da, çox istedadlı olduğuna görə onunla bir sinifdə oxuyurdu. O, arıq, zirək və güclü uşaq idi, məhəllədə ona “Çıqqılı Mehdi" deyirdilər. Özü boyda üç-dörd nəfəri götürüb böyüklərlə dalaşırdı. Qorxusu yox idi. Futbol oynamağı çox yaxşı bacarırdı; mərclə oynayır və həmişə udurdu.

Mehdi pulu mismarla deşib ona sap bağladı, mənə verib dedi: "Belə at, yüz faiz girəcək".

Ertəsi gün məktəbdə hovuza yaxınlaşdım, diqqətlə nişan alıb pulu atdım, o tərəfə düşmək istəyəndə ipi çəkdim və pul düz kasanın ortasına düşdü. Ətrafıma toplaşmış uşaqlar əl çalıb, "ura" dedilər. Nərgizian hirslənib şikayətləndi, ancaq direktor müavini ona dedi: "Bu dəfə canını qurtara bilməyəcəksən, iki tümən verməlisən!"

Ertəsi gündən bütün uşaqlar pullarına sap bağlayıb hovuzun yanında sıraya düzüldülər. Bundan sonra Nərgizian işini dayandırdı və mənimlə tərs düşdü.

Qardaşlarımın adını çəkdiyimə görə Seyid Baqirdən də danışsam, pis olmaz. Seyid Baqir evin birinci uşağı idi. Anam deyirdi: "Seyid Baqir xaraktercə atasına daha çox bənzəyir".

Anam doğru deyirdi. Seyid Baqir dəliqanlı və əliaçıq idi, məhəllədə zirəkliyi ilə məşhurlaşmışdı. Bu xüsusiyyətinə görə anam onu çox sevirdi. O, bir qədər davakar idi, heç kimdən söz götürmürdü. Camaatın xidmətçisi, qohumcanlı idi və həmişə anamın qulluğunda dururdu. Həm də çox zarafatcıl idi. Çənəsi qızışanda hamı başına yığışırdı. Ən önəmlisi budur ki, tək yeyən deyildi, beş tüməni olsaydı, beş nəfərlə bölüşərdi.

Seyid Baqirin 70-80 göyərçini vardı, hamısı qəşəng idi və yaxşı uçurdu. Quşbazlıqda misli yox idi. Mən küçədə onun göyərçinləri ilə öyünürdüm, onun kimi bu işdə peşəkar olmaq istəyirdim. Hər gün dama çıxıb yuvanın yanında oturur, Seyid Baqirin quşbazlığına tamaşa edirdim. Ancaq heç vaxt bu işdə ona çata bilmədim. O, göyərçinlərini qeyri-adi tərzdə sevir, bir-birinə bənzəsələr də hər birinin adını bilirdi.

Tehranlıların mədəniyyətində bu işin dərin kökü var. Xüsusən də şəhərin cənubunda əksər evlərin damında göyərçin yuvası var. Tehranlılar düşünürlər ki, evdə canlı saxlamaq bəlaları uzaqlaşdırır; yaxşı göyərçinin nəslini artırsaq, sanki yaxşı insanların nəslini artırmışıq; pis göyərçinlərin başını üzsək, sanki pis adamları azaltmışıq.

Dolab və Qiyasi bölgələrində Mahmud Ahəngər, Əsğər Samovarsaz, İrəc Zaği, Məhəmməd Murği və Maşallah Suri kimi çox peşəkar və məşhur quşbazlar vardı. Həmid Fəxrianın həm futbolu əla idi, həm də quşbazlığı. Hər kəs vəziyyətinə görə bacardığı qədər göyərçin saxlayırdı.

Bəziləri sarıbülbül, ispinoz və xoruz da saxlayırdı. Ancaq bunların heç biri göyərçinin yerini tutmurdu.

Hər quş saxlayan quşbaz olmur. Əsl quşbaz – eşqbaz olandır. Aşiq isə eşqindən ötrü başını da verər. Seyid Baqir deyirdi: "Aşiqin üzü günəşdən yanıb qaralmalıdır. O, canından maya qoymasa, ailəsindən, həyatından təcrid olunmasa, aşiq deyil".

Mən dama çıxanda ovcumu buğda ilə doldurub deyirdi: "Buğda şirindir; göyərçin yeyəndə cəld olur". Mən buğdaları yerə səpəndə Sərvər, Düyübaş, Tuqi, Zaği və çoxlu qaraquyruq quqquldaya-quqquldaya ətrafıma toplaşırdı.

Gözəl bir göyərçinim vardı. Adı Sərvər idi. Qızılı rəngdə idi, qara xətləri vardı. Onu dünyaya dəyişməzdim. O qədər sevimli idi ki, uçanda vəcdə gəlirdim. Sübh saat 5-də oyanıb dama çıxır, ona dən verirdim.

Göyərçinin bəzi xüsusiyyətləri nəslinə bağlıdır; necə ki, insanların da birinin kökü yaxşıdır, birinin pis.

Bizim sərvərlərimiz göyçək və yaxşı uçan nəsildən idilər: Alov sərvər, Pomadalı sərvər, Sarı sərvər, Zəfərani sərvər. Məhəllənin bütün quşbazları onların yumurtasını istəyirdilər. Seyid Baqir onlara “yox” deyə bilmədiyi üçün iynənin ucu ilə yumurtanı dəlirdi ki, hava çəksin və bala çıxmasın.

Seyid Baqir onları uşaq kimi qucaqlayır, qanadlarını açır, gözlərini yoxlayırdı ki, çəpgöz olub digər göyərçinlərin nəslini korlamasın. Yaxşı göyərçinin gözləri iri, dimdiyi iti olmalıdır.

Seyid Baqir yaxşıları pislərdən ayırırdı, hansıları cütləyib bala artırmalı olduğunu bilirdi.

O göyərçin yaxşıdır ki, bala vaxtı uçanda yolunu azmış və ya acmışsa, nanəciblik etməmiş, qonşunun damına getməmiş, o qədər axtarıb, axırda evi tapmış olsun.

Tehranda çoxları bekarlıqdan quşbazlıq edirdi. Bəzi pullular da göyərçin saxlamaq üçün quşbaz tuturdular. Ancaq daha bunun adı eşqbazlıq olmurdu. Bəziləri də göyərçini alıb-satmaqla pul qazanırdı.

Balalar yumurtadan çıxanda eşqbazlıq da başlayırdı. Novruz bayramına iki ay qalmış balalar bir-bir qanad çıxarmağa başlayırdı. Sonra onları evi tanıyan köhnə bir göyərçinə qoşurduq. Köhnə göyərçin balaları havaya aparır, bir dövrə vurub qaytarırdı. Yerə oturandan sonra qanadlarından bir qədərini qayçılayırdıq. Belə etməsəydik, göydə çoxlu mayallaq aşacaq, axırda azacaqdılar.

Seyid Baqir başı ağ olan qəhvəyi göyərçinlərini daha çox sevirdi. Günəş altında yanmış adam kimi qaralmış göyərçinlər cəsur, ancaq təhlükəsiz olurdu.

Seyid Baqir işinin ustası idi. Bəlkə də çoxları bunun adını vaxt öldürmək qoyurlar, amma Seyid Baqir onlarla yaşayırdı. O zaman da çoxları məscidə qeybət etməyə, insanların eyiblərindən danışmağa gedirdi. Seyid Baqir məscid adamı olmasa da, mərdimazar da deyildi, nəyi vardısa, hamı ilə paylaşırdı. Ancaq bizim məmləkətimizdə paxıllıq insanların axırına çıxıb. Kim zirək, göyçək və bacarıqlıdırsa, gec-tez məhv edilməlidir! Seyid Baqiri də dostları məhv etdi. O, çox zirək və yaraşıqlı idi. Axırda işini buraxıb narkotikə qurşandı və 1997-ci ildə infarkt oldu. Allah ona rəhmət eləsin! İndi də adı çəkiləndə anam ağlamağa başlayır.

Keçək başqa mətləbə:

Birinci sinifdə oxuyurdum. Bir gün qışda Pəri nənənin kürsü sobasının altında yatmışdım. Birdən anamın qışqırıq

səsinə yuxudan oyanıb tez onun otağına qaçdım. Gördüm ki, atam otağın ortasında üstüaçıq uzanıb. Anam ağlaya-ağlaya onun gözlərini bağlayırdı. Yuxulu idim, nə baş verdiyini anlamırdım.

Qapının ağzında dizi üstə oturub atama tamaşa etməyə başladım. Axırda Pəri nənə gəldi, məni öz otağına aparıb yatırtdı. O da ağlayırdı. Üzü qızarmışdı.

Səhər çağı həmişəki kimi geyinib məktəbə getdim. Sanki gecə heç bir hadisə baş verməmişdi. Evə sükut çökmüşdü, heç kimdən səs çıxmırdı.

İkinci dərs qurtarandan sonra direktor müavini məni çağırdı. Mən müavinin kabinetinə girəndə anam ona belə deyirdi: "Atası ölüb. Bu gün dəfnidir. Əbəlfəzi aparmaq istəyirəm..”.

Direktor müavini iki ayağını bir başmağa dirəyib deyirdi: "Bu uşaq ata ölümünün nə olduğunu hardan bilir?! Sən uşağı dərsdən saxlamaq istəyirsən. Divarın bir kərpicini götürsən, uçar, əyilər..”.

Mən kərpicdən, palçıqdan bir şey anlamırdım, bütün diqqətim anamda idi. Anam nə qədər israr etdisə, direktor müavini başa düşmədi ki, düşmədi. Axırda atamın dəfninə gedə bilmədim. Üçündə, ya da yeddisində əynimə qara köynək geyindirdilər, hamılıqla məzar başına getdik. Atamı İmamzadə Abdullah məzarlığında dəfn etmişdilər.

Anam ağlaya-ağlaya atamın yaxşılıqlarından, insanlara yardımından, mehribanlığından danışırdı. Bu yalnız anamın sözü deyildi, qohumlar indi də bundan danışırlar. Bugünkü məşhur iş adamlarının bir çoxu şəxsən iddia edir ki, atamın şagirdi olmuş, ondan alicənablıq və mərdlik öyrənmişlər.

Rəhmətlik Seyid Həsən Xudayian həmişə deyərdi: "Əsrlər ötməlidir ki, dünya Seyid Turab kimisini dünyaya

gətirə bilsin. Seyid Turab kimsəsizlərin kimsəsi idi, səssiz-səmirsiz yüzlərlə düyünü açırdı. O, məhəlləyə və qohumlara bir nemət idi".

Atam Haqqın rəhmətinə qovuşdu və dünya yavaş-yavaş bizə o biri üzünü göstərməyə başladı. Artıq əvvəlki kimi rifah içində yaşamırdıq, gündəlik qonaqlıqlardan xəbər-ətər yox idi. Şirin bibi bizə yalnız qonaqlığa və baş çəkməyə gəlirdi.

Anam deyir: "Evin böyüyü təsbehin ipinə bənzəyir. İp qırılanda ailə səpələnir, milyonluq şah maqsud dənələri bir qəpiyə dəymir".

Kor Maşallah mərdliyindən qalmayıb böyük ögey qardaşımla müqavilə bağlamışdı ki, o, karvansaranı idarə etsin və qazancının yarısını anama versin. Ögey qardaşım da sağ olsun, hər ay minnətlə anama yeddi yetim uşağın quru çörəyinə də yetməyən azca pul verirdi.

Ailəmizin xərci daha çox Seyid Abbas dayımın boynuna düşürdü. Allah həzrət Zəhra (ə) hörmətinə, onu həmişə başıuca eləsin! O, heç bir minnət qoymadan, şikayət etmədən xərcimizi ödəyirdi. Atamın karvansarasında işləməyə başlayandan sonra onun maddi durumu yaxşılaşmışdı. Edam meydanında bir anbarı vardı, içi düyü, yağ və dənli bitkilərlə dolu idi. Anam ayda bir-iki dəfə məni ora göndərirdi. Dayım məni görən kimi yavaşca kürəyimə vurub deyirdi: "Məşdi, niyə qaşqabağını sallamısan?"

Sonra üçtəkərli yük motosikletinə bir kisə düyü, bir qab yağ və bir neçə kilo dənli bitki yükləyir, anam üçün bir qədər pul da verirdi. O zaman böyük pul sayılan 50 tümən də mənə verib evə yollayırdı.

Buna baxmayaraq, daim özümə iş tapmaq barədə düşünürdüm. Yay fəsillərində bazardan qarğıdalı və quru

alça alıb məhəllədə satırdım. Alıb-satmağı öyrənəndən və qazancın həzzini dadandan sonra Mustafadan bir araba və bir qutu dondurma alıb günortadan sonra küçənin başında birini bir şahıya satırdım. Bir neçə aydan sonra məndən kiçik olan məhəllə uşaqlarından ikisini köməkçi götürdüm. Hərəsinə bir araba verib məhəllənin bir başına qoydum, özüm də başqa bir tərəfdə satmağa başladım.

Gündə bir tümən qazanırdım. İki köməkçimin hərəsinə bir şahı verirdim. Gündə beş rial da Pəri nənəyə verirdim ki, mənimçün yığsın. Nənəm məni həvəsləndirməkdən ötrü cümələr omlet bişirir, yanına da bir qazlı içki qoyurdu. O omletlərin dadı heç vaxt yadımdan çıxmaz. Nənə deyirdi: "Bu yemək çox qiymətlidir, Əbəlfəz, çünki pulunu özün qazanmısan".

Nənə bir gün günorta çağı mənə hicab qadağasından danışdı:

– Rza şahın məmurları küçədə hansı qadını görürdülərsə, hücum edib çadrasını başından açır, parça-parça edib tapdayırdılar. Buna görə evdən bayıra çıxmağa qorxurduq. Biz yalnız axşamlar harasa gedirdik. Kişilər küçənin başında keşik çəkirdilər, biz də bir evdən çıxıb qaça-qaça başqa bir evə girirdik.

Atam dünyasını dəyişəndə Seyid Əli dayım ailə qurub yanımızdan getmişdi, ancaq rövzə məclisinə gedəndə məni də aparırdı. Dayımla çox səmimi idik, onu atam qədər sevir, tez-tez yanına gedirdim. Onun heybəti mənə atamı xatırladırdı. Onun kimi mərd adam idi. Dayımla ilk dəfə Nalçı Qasımın evində keçirilən rövzə məclisinə getmişdik.

Bəzi axşamlar dostu Bığlı Qasımın əza heyətinə gedirdik. Onun başı keçəl idi, ancaq istədiyin qədər bığı vardı. O, 30 il keçmişi olan və həmin dövrün ən məşhur dini qruplarından sayılan bir heyətin rəhbəri idi.

Qəssab Həsənin, Şeyx Tağının və Dülgər Abbasın heyətləri, habelə Həsəniyyun heyəti də məşhur heyətlərdən idi.

Rəhmətlik Hacı Həsən Qeydani 50 il təmənnasız xidmət etdi. O, hər cümə səhər çağı məsciddə Sahibəzzaman heyətinin məclisini keçirirdi.

Hacı Süleymani, Qəssab Əmrullah, Hacı Qəfuri, Hacı Hüseyn Baqiri, Hacı Qulam Şatirian, Hacı Məhəmməd Nurtac və Hacı Maşallah Abdullahi də məhəlləmizdə heyət rəhbəri idilər. Üç ev rövzə məclislərinin mərkəzi idi; Seyid Qəssab, Hacı Əkbər Xalidi və Hacı Əkbər Səllax yoldaşı Bətul Sərdarla birgə illərlə çadır qurub əza məclisi keçirmişdilər. Seyid Qəssab vəfat edəndən sonra rövzə məclisləri də dayandı, amma Hacı Əkbər Xalidi ilə Hacı Əkbər Səllaxın övladları hələ də məclisləri davam etdirirlər. Rizvan qardaşları Tehranın məşhur xeyriyyəçilərindəndir, bir qaraj tikmişlər, axşamlar evsiz-eşiksizlərə yer verirlər. Onlar həqiqətən də dövrün Lotu Teyyubudurlar.

Seyid Əli dayım Bığlı Qasımın heyətində miyandar idi. Miyandarlıq adamın təbiətində olmalıdır, onu məktəbdə və ya zavodda öyrətmirlər. Məzlumkeş sinəzənləri idarə edir, dəstələri nizam-intizama salır, bəzən ucadan dediyi dualarla və qısa cümlələrlə sinəzənləri həvəsləndirir.

Dayım ucaboy, enlikürək idi. Əzadarların ortasında gedəndə uzaqdan görünürdü. O, İmam Hüseyn (ə) aşiqi idi, pak qəlbi, ağlar gözü vardı, Bığlı Qasımın heyətində şalımı belimə bağlayırdı, özü də köynəyini çıxarırdı və birlikdə sinə vurmağa başlayırdıq. Onun qol və çiyinləri güclü idi, qolunda iki döydürmə vardı.

Heyətə qoşulduğum, əza məclislərinə gedib-gəlməyə başladığım ildə küçəmizdə İmam Hüseyn (ə) çadırı

quruldu. Seyid Əli dayım dəstənin ortasında gedib ələmi nə vaxt gətirməli, nə vaxt qaldırmalı və nə vaxt salam verməli olduqlarını söyləyirdi.

Şah Hüseyn, Əkbər Nazim, Əhməd Şəmşiri, Mürşid Baqir, Mürşid Əsmal, ağa Abbas, Seyid Kamal Hüseyni və Həsən Zülfüqari o dövrün məşhur mürşidləri idilər. Onlar stulun üstünə çıxıb məddahlıq edəndə, mərsiyə oxuyanda hamı ağlayırdı, sözləri ilə insanları Allaha doğru aparırdılar.

Camaat arasında belə bir adət vardı ki, müalicəsi olmayan xəstələrin və ya hər hansı diləyi olanların köynəyini sinə vuranların ayaqlarının altına sərirdilər. Deyirdilər ki, sinə vuranın ayağı və göz yaşı şəfa verir, düyünləri açır.

Əza heyətlərində çoxlu qayda-qanunlar vardı. Bəziləri hələ də qalıb, bir çoxu isə yaddan çıxıb. Məhəlləmizdə Seyid Əli və Seyid Həbib dayım kimilər çox idi. Onların yaxşı adətləri mənim kimilərə dərs olurdu.

Dayım Seyid Həbib də məhəlləmizdə əhaliyə yardım edənlərdən idi. O bir növ atamın yetirməsi idi, onun xarakterlərindən təsirlənmişdi, onun kimi insanlara yardım etmək istəyirdi. Atamın keçmişdəki yaxşılıqlarına görə insanlar dayılarıma da o gözlə baxırdılar, onlardan da gözləntiləri vardı.

Dayım Zəvvarədən gəldiyi illərdə Meyvə-tərəvəz meydanında bir dükan aldı və o vaxtdan bu işlə məşğul olmağa başladı. Dayım mənə deyirdi: "Qədimdə Cəhruma və Cirofta meyvə gətirməyə gedəndə bəzən pulumuz çatmırdı. Bu zaman bığımızdan bir tük qoparıb satıcının yanında əmanət qoyur, deyirdik: "Bu, səndə əmanət, mallar da məndə. Nə vaxt satsam, pulunu gətirəcəm". Satıcı da razılaşırdı. Çünki kişinin sözü söz idi. Sən də kişi

olmaq istəyirsənsə, gərək sözünün üstündə durasan, canın bahasına olsa da, sözündən qaçmayasan. Bir əxlaqlı və yardımsevər adam gərək sözünün üstündə dursun".

Seyid Əli və Seyid Həbib dayılarımın məhəllədə çoxlu dostları vardı, hamı ilə səmimi münasibət qururdular. Məhəllədə geniş yayılmış bəzi yaxşı adətlər bu əlaqələri rövnəqləndirirdi. Misal üçün, məhəllənin bütün tacirləri, xüsusən də zorxana idmançıları səhər saat 6-da hamılıqla Qəriban küçəsindəki zorxanaya gedib idman edir, halal ticarətlə məşğul olsunlar deyə oradan came məscidinə yollanıb ticarət fiqhini öyrənirdilər. Səhər saat 8-də də dükanlarını açırdılar.

Məhəmməd Baqirian Seyid Həbib dayımla çox yaxın dost idi, həmişə bir yerdə olurdular. O qədər göyçək və yaraşıqlı idi ki, məhəllədə ona "Yaraşıqlı Məhəmməd" deyirdilər. Bizim küçədən keçəndə dayanıb boy-buxununa, güclü qollarına, əzələli bədəninə baxırdıq. İri gözləri, qıvrım saçı vardı, çox mətanətlə yeriyirdi, ağır addımları hamının diqqətini cəlb edirdi. O, Həbib dayımla məscidə və əzadarlığa gedir, hər dəfə məni görəndə təbəssüm edirdi.

Mənim ayağım çox tezliklə küçəyə açıldı. Səhər erkəndən qonşu uşaqlarla oynamağa başlayırdım, kimin gəlib-getdiyini, hansı hadisənin baş verdiyini ən birinci bilənlərdən idim. Başımız o qədər qarışırdı ki, nə vaxt axşam olduğunu bilmirdik. Axşamlar da daha çox məsciddə və əza məclisində olurduq. Dini və əxlaqi dərslərlə yanaşı əza məclisləri də çoxlu dostlar tapmağıma, digər uşaqlarla tanış olmağıma səbəb oldu. Bütün bunların yanında dost davaları, dalaşmalar da olurdu. Dostun tərəfini saxlamaq, dosta arxa çevirməmək birinci qayda sayılırdı.

Küçədə baş verən hadisələrdən biri 1963-cü ilin iyun ayına aiddir. İsti günəş altında futbol oynayırdıq. Oradan, yəni Buğda anbarı prospektinin başından Meyvə-tərəvəz meydanı görünürdü. Meyvə və göyərti daşıyan yük maşınlarını və arabaları yaxşı görürdük. Satıcı köməkçiləri səhərdən-axşama qədər boğazlarını cırır, müştəri çağırırdılar. Bir-birimizə pas ötürdüyümüz yerdə birdən bir dəstə adam əlində çomaq qışqıra-qışqıra meydandan çıxmağa başladı. Çomaqları bel sapı kimi qalın idi, güman ki, Sahibcəm prospektindən almışdılar. Onlar ağa Xomeyniyə dəstək şüarları verirdilər: "Ey əziz Xomeyni! De, canımı verim sənə!"; "Ya ölüm, ya Xomeyni!" Meydanda oturub tamaşa edənlər də onları alqışlayırdılar.

Onlar Şah meydanına tərəf gedirdilər. Bir neçə dəqiqədən sonra polis maşını gəldi, tökülüşüb adamları vurmağa və atəş açmağa başladılar. Biz yerimizdə quruyub qalmışdıq, yaxınlaşmağa qorxurduq. Həmin gün nümayişçilər arasında Yaraşıqlı Məhəmmədi də gördüm; qaça-qaça şüar deyirdi. Bir neçə gündən sonra Seyid Həbib dayımdan eşitdim ki, Məhəmməd və aksiyanın təşkilatçılarından başqa bir neçə nəfər həbs olunublar. Mən ağa Xomeyninin adını ilk dəfə onda eşitdim. 1963-cü ilin iyununda şah əleyhinə qiyam oradan başladı. Buna görə Şah meydanının adını Qiyam meydanı qoydular və bu, İslam inqilabına giriş oldu.

Yaraşıqlı Məhəmmədi çox istədiyimə görə həmin hadisə ilə ətraflı maraqlandım və bu, aramızda yaxın dostluğun yaranmasına səbəb oldu. Bu baxımdan, Yaraşıqlı Məhəmmədin başına gələnləri burada söyləmək istəyirəm.

1977-ci ildə Seyid Həbib dayımdan Yaraşıqlı Məhəmmədin 13 illik məhbus həyatının bitdiyini eşitdim.

Bir gün onu görməyə getdim. Həmin günlərdə şaha qarşı mübarizə qızışmışdı, şahın zindanını görmüş onun kimilərin deməyə çoxlu sözü vardı. Məhəmməd ağa keçmişdə olduğu kimi, yenə göyçək və yaraşıqlı idi, ancaq bir az arıqlamışdı. Onunla bir neçə saat söhbətləşdim. O deyirdi:

– Mən həbsxanada olanda bir neçə ruhanini də ora gətirdilər, onları incitmək üçün bir neçə oğru və quldur onlarla bir kameraya saldılar. O zaman həbsxanada oğruların öz adətləri vardı, kim zirəklik etmək istəsəydi, gününü qara edirdilər. Onlar belə bir qanun çıxarmışdılar ki, iki adama aramızda yer yoxdur: biri satqın, biri də başqalarının namusuna sataşan. Ancaq özləri bu qanuna əməl etmirdilər.

Ona dedim:

– Siz Meyvə-tərəvəz meydanından aksiyaya başlayanda mən uşaqlarla küçədə oynayırdım. Sonra nə baş verdiyini bilməyi çox istəyirəm.

– Polislər və təhlükəsizlik məmurları tökülüşüb bizi bölməyə apardılar. Hacı İsmayıl Rzayi, Hacı Hüseyn Şimşad, Hüseyn Kardi, Abbas Kardi, Hacı Təvəssüli, Hacı Əli Nuri, Hacı Əli Heydəri və Mürtəza Tari də bizimlə idi. Onların hamısı meydanın satıcıları idi, ağa Xomeyniyə görə aksiyaya qoşulub şüar deyirdilər. Ancaq hamısının başçısı Teyyub idi. Bizdən bir neçə saat sonra Teyyub Hacırzayini[1] qolları bağlı bizim həbsxanaya gətirdilər.

---

[1] Teyyub Hacırzayi Tehranın məşhur tacirlərindən idi, Əminüssultan meydanında dükanı vardı. O, əsil-nəsəbcə qəzvinli idi, amma Tehranda böyümüşdü. Atası Hüseyn Qaraquni də tacir olmuşdu. Teyyub hərbi xidmətdən sonra Kirmanşahda bir davada həbs olunmuş, ondan sonra oğru dünyasına qoşulub məşhurlaşmışdı. Bir dəfə adam öldürməkdən tutulub 3 il Bəndər-Abbasa sürgün edilmişdi.

Şah bağı zindanında olanda Teyyub da yanımızda idi. Ətrafında həmişə bir dəstə quldur olduğuna görə onunla işim yox idi. Özü də Tehranın qoçularından və şah tərəfdarı olmuşdu. Fərəh Pəhləvinin birinci oğlu Rza Pəhləvi dünyaya gələndə küçəni və məhəlləni bəzətmişdi. Buna görə onu görəndə məhəl qoymayıb arxamı çevirdim. Qolları qandallı idi. Mənə salam verib dedi: "Məhəmməd ağa, biz namərd dost deyilik". Ona cavab vermədim. Bilirdim ki, SAVAK Teyyubun ağa Xomeyniyə hörmətindən sui-istifadə etmək istəyir. O zaman Teyyub Şəbanla kəllə-kəlləyə gəlmişdi. Onların hər ikisi şəhərin cənubunun birinci lotuları sayılırdı, sözlərini eşidən çox idi. Şəban şah tərəfdarı olan idmançı idi, Teyyub isə insanlara yardım və yetimlərə himayədarlıq edən bir tacir. Teyyubun şah fədaisi olduğunu həmişə eşitmişdik, ancaq o birdən-birə dəyişib şahın əleyhdarı olmuşdu. Allah bilir, daxilində hansı inqilab baş vermişdi.

Ölkə başçıları iclas keçirib qərara gəlmişdilər ki, Teyyubu İmam Xomeyninin əleyhinə ifadə verməyə məcbur etsinlər. O deməli idi ki, Xomeyni tacirləri yürüşə çıxarmaq üçün mənə pul verib. Ancaq Teyyub məhkəmədə üzünü polkovnik Nəsiriyə tutub demişdi:

---

Günahsızlığı sübuta yetiriləndən sonra azad olunmuş, dava-dalaşlardan uzaqlaşıb ticarətə başlamış, xeyriyyəçi və yardımsevər insan kimi ömrünü xalqa xidmətdə keçirmişdi. O, Kəhrizək qocalar evinə, Qəsr məhbuslarına və kimsəsiz yetimlərə kömək edirdi, heç vaxt özünü göstərmir, riyakarlıq etmirdi. O, İmam Hüseyni (ə) və Əhli-beyti çox sevirdi. Teyyubun əza heyəti məhərrəmlikdə Tehranın ən böyük heyəti olurdu. Deyirdilər ki, dəstəsinin bir başı Buğda anbarı prospektində, bir başı da Şah meydanında, Sirus dördyolunda olurmuş. Teyyub məclisini Hacı Əli Nurinin mağazasında keçirir, rövzə oxutdururdu. 15 Xordad (5 İyun) qiyamı onun taleyini dəyişdirdi.

"Sizin sözləriniz öz yerində, amma bizim də qanunlarımız var. Biz həzrət Zəhranın (ə) balaları ilə vuruşmarıq. Mən bu seyidi tanımıram, amma onunla işim ola bilməz".

Nəhayət, şah məhkəməsi İsmayıl Hacırzaya, Teyyub Hacırzaya, mənə və Hacı Əli Nuriyə edam hökmü, Kardi qardaşlarına, Şimşada və digərlərinə də 10 ildən 15 illədək həbs hökmü çıxardı. Bizi həbsxanadan kameralarımıza apardılar. Gecənin yarısı bir nəzarətçi gəlib kameranın qapısını döydü və dedi: "Məhəmməd Baqiri və Hacı Əli Nuri! Əlahəzrət humanistlik göstərərək sizi əfv edib". Bunu Teyyuba görə deyirdilər; istəyirdilər ki, ölüm qorxusundan sözünü geri götürsün, onu ağa Xomeyninin təhrik etdiyini söyləsin. Teyyub başqa kamerada idi, nəzarətçinin sözlərini eşidirdi. Ucadan dedi: "Bu sözləri nənənə deyərsən! Bir dəfə dedim, yenə deyirəm: Mən Zəhra (ə) balasına şər ata bilmərəm!"

Ertəsi gün axşam vaxtı Teyyubun kamerasından səs gəldi. Bildim ki, onu edam etməyə aparırlar. Gedəndə mənim kameramın milinə vurub dedi: "Məhəmməd ağa, əgər bir gün Xomeynini görsən, ona məndən salam söylə, de ki, çoxları səni görüb aldılar, bizsə görmədən aldıq".[1] Yarım saatdan sonra atəş səsi gəldi. Teyyub mərdliyə sadiq qaldı və aqibəti xeyirli oldu. Mən hələ də Teyyubun bu işinə heyranam.

Məhəmməd ağa hər dəfə bu əhvalatı danışanda göz yaşlarından bütün üzü islanırdı. O deyirdi: "Həmin axşam yadıma düşəndə darıxıram. Şahdan əfv diləsin deyə Teyyubu çox incitdilər, amma Allah birini almaq

---

[1] İnqilabdan sonra Məhəmməd ağa bəzi inqilabçılarla birgə imamla görüşüb yadigar şəkil çəkdirdi. O, Teyyubun mesajını çatdıranda imam buyurmuşdu: "Teyyub başqa bir Hürr idi".

istəyəndə alır. Teyyub və İsmayıl Hacırzayilərin adı qiyamətə qədər yaşayacaq".

Həmin gün Məhəmməd ağanın sözlərini diqqətlə dinlədim. Həmişə fikirləşirdim ki, bu Xomeyni kim olub ki, Teyyub ondan ötrü canını qurban verib. Məhəmməd ağanın gözəl sözləri məni həvəsləndirdi. Ondan sonra onu daha tez-tez görməyə gedirdim.

Məhəmməd ağa inqilabdan ötrü çox əziyyət çəkdi, gəncliyini Qızıl qala, Bəndər-Abbas və Seyrcan həbsxanalarında keçirdi. 1963-cü ilin iyun aksiyasının öncüllərindən bir çoxu Haqqın rəhmətinə qovuşub, adları da qəribdir.

1984-cü ildə yaralananda Məhəmməd ağa ziyarətimə gəlib məni çox utandırdı. O, çox iddiasız idi, heç vaxt çəkdiyi əziyyətlərlə, yatdığı həbsxanalarla öyünmür, heç kimə minnət qoymur, demirdi ki, bu qədər həbsxanada yatdığıma görə bütün inqilab mənimdir. O, gözləntisiz, başıaşağı və yüksək mənəviyyatlı insan idi.

1993-cü ildə cənab Rza Təla Prezident Rəfsəncaninin Yaraşıqlı Məhəmmədi görmək istədiyini bildirdi. Mən Rza Təlanın köməyi ilə görüşün zamanını razılaşdırdım və Məhəmməd ağanı cənab Rəfsəncaninin yanına apardım. Rəfsəncani Məhəmmədi görəndə gözləri yaşardı, onu qucaqladı və görməyinə çox sevindi. Həmin gün ağa Rəfsəncani dedi: "Məhəmməd ağanı kiçik saymayın. O, böyük insandır. Mən Natiq Nuri və başqa bir neçə ruhani ilə birgə həbsxanada olanda şah bizi incitmək üçün bir neçə oğru və quldurunu yanımıza salmışdı. Orada Məhəmməd ağa mərdlik etdi, öz nüfuzu ilə hər yerdə onların qarşısını aldı, bizə problem yaratmalarına imkan vermədi. Onun bizim boynumuzda haqqı var".

Sonra Məhəmməd ağaya dedi: "İndi hardasan? Nə işlə məşğulsan?"

Məhəmməd ağa dedi: "Tərəvəz meydanında dükanım var".

– Dükan özünündür?

– Bəli.

Mən dedim: "Yox, ağa, kirayədir".

Ağa Rəfsəncani orada bir məktub yazıb əmr etdi ki, Məhəmməd ağaya dükan versinlər. Amma dövrün haqsızlığından o, dükan almaq üçün evini satmağa məcbur oldu, tamaşaçıların sarayda oturduğu bir vaxtda onun mömin xanımı evsiz qaldı və qəlbi sındı. Həmin dükanı çox müsibətdən sonra ona verdilər, ancaq Məhəmməd ağa 1997-ci ildə infarkt olub bir il xəstə yatdı. Mən tez-tez onu görməyə gedirdim. Nəhayət, dünyasını dəyişdi. Allah ona rəhmət eləsin!

Bəli, bu, fələyin ironiyasıdır. Ancaq şairin dediyi kimi, bu dünyada elə yaşa ki, öləndə "öldü" deməsinlər!

# Üçüncü fəsil

On iki yaşımda Cahan liseyinə getdim. Səhərlər dərs oxuyur, günortadan sonralar da Seyid Əli dayımın qəhvəxanasında işləyirdim. Lotuluğun əlifbasını təzə öyrənmişdim və həyatım üçün qərar qəbul edirdim. Seyid Əli dayımın qəhvəxanası Parovoz stansiyası prospektinin başında gözəl yerdə idi. Nisbətən kiçik bir bağçadan ibarət idi, içində, bir qədər də ətrafında kiçik çardaqlar qurulmuşdu.

Gündə bir tümən pul alırdım. Ağır işlər görmürdüm. Dayımın iki çayçısı vardı, işlərin çoxu onların üzərinə düşürdü. Dayım da yalnız kassada oturub pul alırdı.

Günorta çağı müştərilər gəlirdi. Lotular, yolkəsənlər, Əlidəsmallılar, Məxmərpapaqlılar, məşdilər və əbalılar çay içə-içə söhbət edirdilər. Yoxsul və varlılar, hərə bir yerdən, xüsusən də evdə arvad-uşağın deyinməsindən yorulanlar dayımın qəhvəxanasına rahat nəfəs almağa gəlirdilər.

O zaman Kəlkətə və Lahican çayları çox yayılmışdı. Çayçı iyirmi ədəd armudu stəkanı dirsəyinə qədər xüsusi

məharətlə düzüb biri on şahıdan müştərilərə paylayırdı. Çay rəngsiz, tünd və ya qaynamış olsaydı, müştəri stəkanı nəlbəkiyə çevirirdi. Bu, çayçı üçün yüz namus söyüşündən də pis idi. Tez qaçıb çayı dəyişdirirdi.

Hər kəsə qəlyan verilmirdi. Yalnız pullular məşhur Xansar tənbəkisi ilə qəlyan çəkirdilər.

Günorta saat on ikidən ikinin yarısına qədər piti verirdik. Dayımın daş pitilərinin ətri bütün məhəlləni başına alırdı. Həm piti yeyən, həm də üstündən tiryək çəkənlər bayırdakı çardaqlarda otururdular.

Müştərilər gedəndən sonra çayçı qabları yığışdırıb yuyur və qurumaq üçün başıaşağı düzürdü. Sonra imkansızların pulsuz piti yemək növbəsi çatırdı. Lur İbrahim, Yeddirəngli Qulam, Şil Əli, Ramazan, Bərat və Girinc Əmir günortaya bir saat qalmışdan qəhvəxananın yanında dayanıb nahar növbələrini gözləyirdilər.

Çardaqları bir-birinə birləşdirib uzun süfrə sərirdik. Hamı başına toplaşıb havayı yemək yeyirdi. Gomuş Məhəmməd də gəlib onlara qoşulurdu. O da havayı yeyirdi, amma Mercedes-Benz avtomobili vardı.

İmkansızlar yeməklərini yeyəndən sonra Gomuş Məhəmmədin maşınına doluşub Əli bulağına yuyunmağa gedirdilər. Bu onların gündəlik işi idi.

Dayımın qəhvəxanasının yanında dərzi dükanı olan Abbas həmişə bunun üstündə dayımla mübahisə edirdi. O deyirdi: "Bu qədər müftəxoru niyə toplayırsan? Adam imkansızdırsa, bəs maşını necə alıb?!"

Dayım da cavab verirdi: "Hirslənmə, dünyanın dəyəri yoxdur. Bizdən kim aparıbsa, əslində, biz aparmışıq..”.

İmkansızların və nisbətən müftəxorların arasında Lur İbrahim hamıdan peşəkar idi. Onun bir neçə qazanc yeri vardı, cırıq paltarları, ağzı açılmış ayaqqabısı ilə hər kəsin

ürəyini yumşaldırdı. Bəlkə də sadəliyinə, dili bir qədər topuq vurduğuna və sözünü çəkinmədən dediyinə görə ona Lur ləqəbi vermişdilər.

İbrahimin hər gün getdiyi yerlərdən biri də Əbülqasimin hamamı idi. Mən Əli dayımla həftədə bir dəfə ora gedirdim. Ora zirzəmi kimi sərin idi, soyunma otağı on pillə aşağıda yerləşirdi.

İbrahim hamamın dəlik-deşiklərində gizlənirdi, bir müştəri kassaya yaxınlaşıb pulunu vermək istəyəndə peyda olub yanında dayanırdı. Müştərinin yazığı gəlib ona deyirdi: "İbrahim dadaş, nə almışdın?"

İbrahim da deyirdi: "Bi... bi... bir... ss... ssu və... sa... sa... sabun".

Zavallı müştəri əlini cibinə salıb Lur İbrahimin hamam pulunu verirdi. Beləliklə, gündə yeddi-səkkiz nəfər onun getmədiyi hamamın pulunu ödəyirdi. Axşamüstü hamamçı öz haqqını götürüb qalanını İbrahimə verirdi.

Digər yoldaşları kimi o da belə həyata alışmışdı. Əgər şah da olsaydı, hər gün hamamda müştəri gözləyəcək, dilənçi kimi yaşayacaqdı. Onun xisləti belə idi.

İllər sonra dayım qəhvəxananı bağlayıb peşə məktəbinin bufetini kirayə etdi. Bəlkə də əliaçıqlığına görə qəhvəxananı idarə edə bilməyib bağlamağa məcbur qalmışdı.

Dayım peşə məktəbinə gələndən sonra mən tənəffüs zənglərində kassa arxasına keçib işləyir, gündə beş tümən pul alırdım.

Peşə məktəbində qız və oğlanlar bir yerdə təhsil alırdılar. Bizim sinfimizdə iki qız vardı. Mən onlara qarışmırdım. Əza heyətinə gedib-gəlirdim, buna yaxşı baxmırdım.

Dayım həmişə deyirdi: "Əsl məşdi camaatın namusunu öz namusu bilər, onlara qarşı da eyni şəkildə qeyrət göstərər".

1967-ci ildə məhəlləmizdə "Hacətlər qapısının yeniyetmələri" adlı bir əza dəstəsi də yaradıldı. Ora daha çox Boyaqçılar küçəsinin və onun arxasındakı küçənin uşaqları toplaşırdı: Məhəmməd Məşhədi Baqir, Əmir Ətri, Hüseyn Mahmudi, Davud Niyazi, Rza Təla, Mürtəza Ərəbzadə, Nasir Kəlhür, Hacı Əli Cəmşidi və ən kiçikləri olan mən. Digərləri məndən iki yaş böyük idilər, əzadarlıq və sinə vurmaq işində iki köynək artıq cırmışdılar.

Bu heyətin qurucusu və rəhbəri qardaşım Seyid Mehdi ilə çox yaxın dost olan Əbülqasim Kazim Dehbaşi idi. O, ucaboy, yaraşıqlı və gülərüz gənc idi. Məndən bir neçə yaş böyük idi. Səmimiliyinə və gözəl əxlaqına görə çox tezliklə bütün məhəllə uşaqlarının sevimlisinə çevrilmişdi. İlk görüşdən hər cür adam ona cəzb olunurdu, onunla dostlaşmaq istəyirdi. O, Seyid Mehdinin və digər qonşu uşaqlarının köməyi ilə məhəllənin Əvamir adlı futbol komandasını da yaratdı. Seyid Mehdi məni onun əza məclislərinə və futbol komandasına aparırdı. Onlar uşaqlara məşq keçir, məhəllə yarışları təşkil edirdilər. Sonralar bildim ki, Qasim bizi öz başına toplamaqdan ötrü futbolu bəhanə edirmiş. O, gündüzlər bizimlə futbol oynayır, axşamlar da əxlaq və Quran dərsi keçir, şəriət hökmlərinə dair Adidas idman forması, kubok və ket kimi mükafatları olan müsabiqələr keçirirdi. O, bu işlərlə gəncləri dini məsələlərə bağlamaq, o dövrün çirkin mühitindən uzaq saxlamaq istəyirdi.

Futbolun adını çəkən kimi arxasınca yola düşürdük. Qasim məktəblərin bölgə yarışlarında məhəlləmizin uşaqlarından ibarət Kavə adlı bir komanda da yaratdı.

Köhnə futbolçulardan və İstiqlal komandasının müdafiəçisi olan İzzət Canməliki məşq proqramlarını təşkil edirdi. Onda da bəziləri qırmızının, bəziləri göyün azarkeşi idi. Qasim qırmızılara azarkeşlik edirdi. O, həftədə bir dəfə bir mikroavtobus tutub bizi Əmcədiyyə stadionuna futbola baxmağa və ya məşq etməyə aparırdı.

Bir dəfə başqa bir məhəllənin futbol komandası ilə yarışımız vardı. Mənim futbolum çox da yaxşı deyildi, amma Hacı Qasimi çox istədiyimə görə bütün məşq və yarışlarda iştirak edirdim. Həmin yarışda rəqibimizi 2: 1 hesabı ilə udduq. Qasim komandanın kapitanını çağırıb dedi: "Biz bunların qonağıyıq, uduzmaları yaxşı deyil. Çalışın, oyun bərabər hesabla qurtarsın, pərt olmasınlar".

O zaman məhəlləmizdə yalnız Kazimpurlar ailəsinin televizoru vardı. Onlar da dövrün məşdilərindən idilər: qorxmaz, xeyriyyəçi və yardımsevər. Onların bir xalçayuma şirkəti vardı. O qədər güclü idilər ki, Gərşasb ləqəbi ilə məşhurlaşmışdılar. Əli bulağı həftədə bir dəfə onların mərkəzinə çevrilirdi. Biz də onlara qoşulub çimməyə gedirdik. Meksikada keçirilən dünya çempionatının oyunları gedəndə günbatan çağı 40 nəfər qapılarının önünə toplaşırdıq. Qapı açılan kimi içəri doluşur, gecəyə qədər deyib-gülürdük. Evin xanımı bir dəfə də bizə üz-gözünü turşutmazdı. Çox ürəyiaçıq insanlar idilər. Məhəmməd və Mehdi Kazimpurların və valideynlərinin ruhları Həzrət Haqqa qonaq olsun!

Hacı Qasimlə dostlaşandan sonra axşamlar onunla məscidə gedir, yolda söhbətləşirdik. Qasim gözəl əxlaqı və özünəməxsus mülayim səsi ilə mənə nəsihət verirdi. Qonşu uşaqlarını, dostlarımı pislədiyini, məni onlardan ayırmaq istədiyini xatırlamıram. Bilirdi ki, dostlarım

üzərində həssasam. O hətta ən dalaşqan olanını da gözümdən sala bilməzdi və salmaq istəmirdi.

Qasim inqilab etməyə gəlmişdi. O, gənclərinin çoxu araq içən, qumar oynayan bir məhəlləyə gəlmişdi, amma heç vaxt kiminsə cibinə əlini salıb nə olduğunu yoxlamadı, bizə əxlaq dərsi deyəndə qumarla vuruşmağa gəldiyini söyləmədi. Hamı deyirdi ki, bu işləri görməyin, pisdir, Qasim isə hansı işləri görməyin yaxşı olduğunu deməyə gəlmişdi. O vaxta qədər məhəlləmizdə belə bir hadisə baş verməmişdi.

Qasim həmişə deyirdi: "Adam bir iş bacarmayanda qumar oynayır. Qumarın qazancı da zərərdir, ömrü tələf etməkdən və vaxt öldürməkdən başqa bir xeyri yoxdur".

O bu davranışları ilə bizim daxilimizdə inqilab edirdi. Allah ona elə əzəmət vermişdi ki, içki içənlər və yol kəsənlər də çox tezliklə ona cəzb olunur, onu doğruçu və imanlı bir şəxs bilirdilər. O zaman bu, kiçik məsələ deyildi.

Çoxları Qasimin bu xüsusiyyətini bəyənmir, deyirdilər ki, nə üçün həmişə yolkəsən uşaqları məscidə gətirir, niyə onlarla belə səmimi davranır?

Mən o vaxt təcrübəsiz gənc idim, hər bir səhvi edə bilərdim. Yaşadığım mühitdə buna şərait vardı. Lakin Qasim yolumu dəyişdirdi, məni özünüislah və mənəviyyat səmtinə apardı.

Qasimlə birlikdə məscidə gedəndə daha qumardan, zərdən danışılmırdı. Onu çox istədiyimizə görə Allah evinin hörmətini saxlayırdıq. Qasimin gözəl əxlaqı və şəxsiyyətinin əzəməti bizi hər yerdə ram edirdi. Gəncliyin min bir dolanbacı var. Adam gənclikdə qorxmur, təhlükəyə atılır. Bir yolgöstərən olmalı, yolu aydın göstərməlidir. Mənim gəncliyim “Baba Şəmil” kimi

filmlərdən təsirlənirdi. Mühit məni özünə qərq edirdi. Heyrət dövrü idi və mənim axtardığım bir şey vardı. Ya gərək oğru dünyasına qoşulub başıma çarə qılaydım, quldurluq edib heç kimin qarşısında əyilməyəydim, ya da əlaltı olaydım, digərləri başıma çıxaydılar.

O zaman Nasir Məlikmütii kimi adamlar namuspərəst rolunu oynayırdılar, dostundan ötrü canından keçməyə hazır olan Bəhruz Vüsuqi kimilər lotulara örnək olurdular.

Mən zirək və qorxmaz adamlar axtarırdım, qorxaqlardan acığım gəlirdi. Həmin dövrdə Əhməd Urənd adlı bir can dostu tapmışdım.

Əhməd qonşumuz idi, bir nömrəli macəraçı sayılırdı. O, Bəhruz Vüsuqini çox sevirdi. “Qeysər” filmindən sonra bütün hərəkətləri Qeysər kimi olmuşdu; onun ayaqqabısından geyinib dabanını yatırdır, saçını onun kimi qısaldır, onun kimi yeriyirdi. Beləliklə, yavaş-yavaş “Qeysər Əhməd” kimi məşhurlaşdı.

Hamı deyirdi ki, Əhməd şərdir, ondan uzaq gəzmək lazımdır. Ancaq onun qəlbində məzhəb, din kökləri vardı. Hamıdan çox onunla dostluq etdiyimə görə buna əmin idim. O, həm də quşbaz və peşəkar qumarbaz idi. Qumarda heç kim qarşısına çıxa bilmirdi. Hər dəfə zər atanda altı qoşa çıxırdı. Başqa məhəllələrdən onun qarşısına çıxmağa oyunçu gətirirdilər.

Bir dəfə soruşdum: "Əhməd, sən bu qədər kələyi hardan bilirsən və necə olur ki, həmişə altı qoşa atırsan?"

- Əgər hamıya desəm, daha bu işin ustası olmaram. Bunun çoxu bəxtə bağlıdır, bəzisini isə öyrənmək lazımdır. Necə deyərlər, zər yaxşı olsa, hamı nərd ustası olar! – deyə cavab verdi.

Onunla dostluq etdiyim müddətdə çoxlu oyunlar öyrəndim. Oynayanda bildiyim hər bir kələkdən istifadə

edir, bəzi oyunları gözübağlı udurdum. Bəzən Əhmədin yanında oturub necə məharətlə rəqibinin əlini oxuduğuna baxırdım. Hərdən mərcləşib kartları açırdıq. Onların arasında Tuz birinci və axırıncı sözü deyirdi, kimdə çıxsaydı, oyunu udurdu.

Mənim kələklərimdən biri Tuzun kənarını dırnağımla sıxıb xətt salmaq idi. Əlimlə toxunanda Tuz olduğunu bilir və oyunu udurdum.

Mahir qumarbazların barmağında güzgülü üzük olurdu, onunla rəqibin əlini görürdülər. Digər kələklər də vardı, indi xatırlamıram.

Qasim gələndən sonra Qeysər Əhməd də məscidə gəlməyə başladı. O da Qasimin əxlaqına vuruldu, xarakterləri birdən-birə dəyişdi və başqa bir Əhməd oldu.

Bəziləri Badə Əhmədin Rey prospektinin əvvəlindəki kafesinə və ya Tovuz ayı barına gedib sərxoş olanda Qasim məni çəkindirib deyirdi: "Bunların ardınca düşmə. Bunlar oyundur, bataqlıqdır. Ehtiyatlı ol, bu bataqlıqlara düşmə".

Sonra birlikdə Rey prospektinə gedib “7Up” və ya limon şirəsi içir, söhbətləşirdik. Qasim deyirdi: "Əhmədin daxili pakdır, amma yoluna işıq lazımdır. Mən əminəm ki, onun aqibəti xeyirli olacaq. Bu dünyada hərə bir cür oyun yoldaşı axtarır; biri bara gedir, biri məscidə; biri quşbazdır, biri insanların problemlərini həll edir".

Bu gün etiraf edirəm ki, Qasim qarşıma çıxmasaydı və ya mən onun arxasınca getməsəydim, Allah bilir, taleyim necə olacaqdı. Yeniyetmə çağımda Qasim kimi bir adamla rastlaşmağım, dindar mühitlərə gedib-gəlməyim, küçəyə və qumara az vaxtımın qalması bəxtimdən olmuşdu.

Qasimin sözləri ürəyimə oturdu, o məni əxlaq və irfan müəllimlərinə yönəltdi. Bəzən Hacətlər qapısı heyətinin

uşaqlarından olan Hüseyn Mahmudi ilə birgə əxlaq müəllimlərindən olan Hacı ağa Haqşünasın[1] yanına gedirdik. Hüseynin atası Hacı Məhəmməd onunla dost idi. Onların hər ikisi arif və övliya idi, çoxlu müridləri vardı, adama mənəvi qida verir, xüsusən də gənclərin susuz ruhunu doyururdular.

Bir gün Hüseynlə birgə ağa Haqşünasın yanında oturmuşduq. O, əqiq daşı barədə danışdı. Mən üzüyü və təsbehi çox sevirdim. Oradan Hüseynin atasının yanına getdik və mən əqiq barədə eşitdiyimi Hacı Məhəmmədə söylədim. Hacı ağa məni evinin zirzəmisinə apardı, sandıqdan bir üzük çıxarıb verdi və dedi: "Bu məndən sənə yadigar, seyid, işinə yarayar, gözünə işıq gətirər".

Üzük həqiqətən də göz oxşayırdı. Qaşı nar rəngində idi, adamın gözünü qamaşdırırdı. Halqası gümüşdən idi, üzərində qara qələmlə naxışlar çəkilmişdi. Həmişə arzuladığım üzük idi.

Axşam Əminüddövlə məscidinin uşaqları barmağımda üzüyü görüb dedilər: "Bu gözəl üzüyü hardan tapmısan? Elə bil, ruhu var, adamla danışır. Yalnız seyidlərin əlinə yaraşar".

Məhəlləmizdə qeyd etdiklərimdən başqa da dindar və məşhur ailələr yaşayırdı. Boyaqçılar küçəsinin 60-dan artıq yaşı var.

Abbas kakanın zorxanası vardı. Hacı Qəfur Xəyyat məscidimizin pişnamazı idi. O, ruhani olmasa da, mənəviyyatlı insan idi, məhəllə adamları üçün ruhani kimi

---

[1] 1919-cu ildə Tehranda doğulmuş Mirzə Əbdülkərim Haqşünas müharibə zamanı döyüşçülər tərəfindən də çox sevilirdi. Uşaqlar onun əxlaq və irfan dərslərindən çox bəhrələnirdilər. O, 2007-ci ildə dünyasını dəyişdi.

bir şəxs idi. Hacı Hüseyn Təla Xaksar dərvişlərindən idi. O, İmam Hüseynin (ə) doğum gününün axşamı ocaq qalayıb çoxlu yemək bişirir, 300 adama ehsan verirdi. Həmin ehsanın bərəkətinə hamı heyran qalırdı. Şənbə gecələrində də evində "Nadi-Əli" zikri üçün məclis keçirirdi. Hacı Qeysər və Hacı Həsən Səfəvi kimilər də imanlı və xeyriyyəçi insanlar idilər. Onlar Julidə Neyşaburinin köməyi ilə məhəllədə Müsəlman Şairlər Birliyi yaratmışdılar; məclis keçirir, deyişirdilər. Onlar 60-70 il idi Boyaqçılar küçəsində yaşayırdılar. Onların iman və mənəviyyat dolu nəfəsləri küçə sakinlərini mənən qidalandırırdı. Şeiri, şairliyi və əza dəstəsini çox sevdiyimə görə Hacı Kamal Hüseyninin sayəsində mən də onlara gedib-gəlməyə başladım. Yaşım az olsa da, buna istedadım vardı. Çox tezliklə qəzəl, qəsidə, rübai, vəzn və qafiyəni öyrəndim, dini şeirlər yazmağa başladım. Mərsiyə yazır, axşamlar əzadarlıq zamanı məddahlara verirdim.

Bir axşam Hacətlər qapısı heyətinin məclisi Hacı Əkbər İqbalfərin evinə düşdü. Hacı Əkbərin qarğa kimi iri gözləri vardı. Buna görə ona Əkbər Qarğalı deyirdilər.[1] O, Əminüssultan meydanının tacirlərindən idi, 1963-cü ilin iyun qiyamında həbs olunmuşdu. Sonralar həbsdən qaçıb Məşhədə getdi, ortalıq sakitləşəndən sonra yenə peyda oldu. Bilmirəm, bəlkə gizli fəaliyyət göstərirmiş.

Həmin axşam Əkbər Qarğalının evində taxçanın üstünə qoyulmuş bir şəkil diqqətimi cəlb elədi. Ruhani moizəyə başlamaq istəyəndə şəkli görüb dedi: "Ağa, bu şəkli götürün".

---

[1] Hacı Əkbər İqbalfərin oğlu Hadi İqbalfər sonralar müharibədə şəhid oldu.

Mən Hacı Qasimdən soruşdum ki, məgər bu ağa kimdir? Qasim dedi: "Bu, İslam dünyasının böyük müctəhidlərindən olan ağa Xomeynidir. İndi sürgündədir, Nəcəfdə yaşayır".

Əkbərdə imamın şəriət risaləsi də vardı. İmamın üzünü ilk dəfə onda gördüm, amma yaşım az olduğuna görə kimliyi ilə bundan artıq maraqlanmadım.

Mən onda bazarda kağız sexində işləyirdim. Hacı Qasimin bazarda çoxlu tanışları vardı, məni onların birinin yanında işə düzəltmişdi.

İşlədiyim sex kababçı Mürşidin dükanının yaxınlığında yerləşirdi. Mən bir neçə dəfə Mürşiddən kabab-çörək alıb yemək səadətinə nail olmuşam. Mürşid Allah övliyalarından idi, ilahi nəfəsi vardı. Onun sadə həyat tərzi və insanlara yardımı hamıya nümunə idi. Dükanı came məscidinin arxasında, ondan təxminən 50 metr aralıda idi, divarına belə yazılmışdı: "Dəstəmazsız yol yeriməyin, yer küsər".

Mürşid təxminən 65 yaşlı arıq adam idi, ağ qısa saqqalı, təbəssümlü və nurlu üzü vardı. Deyirdilər ki, hətta dükanın yanındakı pişiklərin də ruzisini düşünür. Yemək hazır olan kimi əyninə ağ xalat geyinir, dükanın önünə bir Ələddin lampası və alüminium kasa qoyub kababları qaşıqla doğrayır, usta şagirdlərinə və yoxsullara verirdi ki, dadına baxsınlar. Dükanın qapısının üstünə də belə yazmışdı: "İmkan daxilində nisyə verilir".

Günortalar yemək vaxtı arabir bir kasa yağ qızdırırdı. Onun xüsusi ətri vardı. Müştərilərin stollarına yaxınlaşır, istəyənlərin xörəklərinin üstünə bir qaşıq yağ tökür və bir beyt şeir oxuyurdu. Sonralar təkbeytli şeirləri divana çevrildi. Onun təxəllüsü Sai idi. Təkbeytli şeirlərindən birinin məzmunu belədir: "Kərbəla torpağı Eşq

Hüseynabadı deməkdir. Oranın sakinlərinin hamısı bir köynəklə yatmışlar!"

Qasim 1967-ci ildə hərbi xidmətə getdi. Hərbi hava qüvvələrinə düşmüşdü, çörək anbarının rəisi idi. Hər gün axşamüstü bir qucaq isti çörək gətirib bütün qapıları döyürdü. Çoxları hər gün onun gəlişini gözləyirdi. Mən dostlarımın birindən öyrəndim ki, Qasimin pullu adamlarla, tacirlərlə əlaqəsi var, onların köməyi ilə yoxsul ailələrə yardım edir. O, ağa Şəcuninin şagirdi idi, ondan istiqamət alırdı. Mənə məlum olmayan səbəblərdən birdən-birə Kərəcə getdi. Tehranlı idi, bütün qohumları Tehranda yaşayırdı, ancaq Kərəcə gedib orada ailə qurdu, “Səyyarə” şadlıq evində təmtəraqlı toy etdi. Məni və məhəllə uşaqlarımızdan bir neçəsini də çağırmışdı.

Qasimin vasitəsilə tanış olduğum və Qasim olmayanda onu əvəz edən müəllimlərdən biri də, məhəllənin böyüyü olan Maşallah Abdullahi idi. O, boy-buxunlu, enlikürək, göyçək kişi idi, insanların problemlərini həll etməyə çalışırdı. Çoxlarının Tovuz ayı barına yeyib-içməyə getdiyi bir zamanda Hacı Maşallah məscid tikməkdən, xeyirxah işlər görməkdən ötrü çox əziyyət çəkirdi.

Hacı Maşallahla Cəfər Səllax zorxana rəhbərləri və pəhləvan idilər. Məni Şahmərdan zorxanasına o apardı. Çox vaxt paytaxt çempionu Hacı İsmayıl Qurbani ilə bir yerdə olurdu. Abbas Zəndi, Mustafa Tusi, Abbas Həriri və Qulamrza Təxti də onun dostlarından idilər.

O zaman pəhləvanın xalq arasında xüsusi hörməti vardı, məhəllənin ağsaqqalı sayılırdı, ruhanidən sonra ən çox onun sözü keçirdi. Hacı Maşallah zorxanaya və məscidə eşq bəsləyirdi. Bir dəfə onunla zorxanaya gedəndə mənə dedi: "Zorxana üçüncü məsciddir, o qədər hörmətli yerdir ki, ora dəstəmazsız girməməlisən.

Zorxanada İmam Əlinin (ə) adı çəkilir, xəstə şəfa tapır. Qeybət və haram tikə zorxananın hörmətini sındırır. Əgər səni bir zorxana ilə tanıyırlarsa, gərək gözündən və dilindən ehtiyatlı olasan. Sadə adam ol, amma namusa, halal-haram məsələlərinə diqqət elə. Gərək Allah yolu ilə gedəsən və bu yol Onun bəndələrinə yaxşılıq etməkdən keçir".

Şahmərdan zorxanası Rey prospektində yerləşirdi. İki mərtəbəsi vardı, girişi qısa idi. Birinci mərtəbədə zorxana çalası yerləşirdi. İkinci mərtəbədə bir eyvan vardı, üstünə döşək sərilmişdi. Pəhləvanlar güləşməzdən öncə orada məşq edir, bədənlərini qızışdırırdılar. Sonralar zorxananı söküb yerində yaşıllıq saldılar.

Mən orada ən azyaşlılardan idim. Adətə görə, adamın bığı çıxmayınca, öz sözləri ilə desəm, çiyni saqqalına ilişməyincə zorxanaya girə bilməzdi. Girsəydi də, gərək bir müddət şagird qalaydı, pəhləvanlıq idmanının fəndlərini öyrənəydi, sonra zorxanaçılara qoşula bilərdi.

Mənim şalımı belimə Hacı Maşallah düyünlədi. Bunun xüsusi tərzi var, ancaq peşəkarlar bilirlər. Özü bir köynək və enli şortik geyinir, üstündən şal bağlayırdı. Şalı hamı eyni rəngdə olsun deyə bağlayırdılar. Zorxanada şahla dilənçinin heç bir fərqi yox idi. Zorxananın xüsusiyyəti belədir. Sonralar şortikləri dar tikdilər, ölçüsünü də dizin yuxarısına qaldırdılar. Zorxanada heç kim var-dövləti, ad-sanı ilə öyünmürdü, əsas məsələ iman və sədaqət idi. Zorxananın qapısını ona görə qısa edirdilər ki, içəri girənlər birinci gündən başlarını əysinlər, qürur və təkəbbürlərini kənara qoysunlar. Pəhləvanlığın birinci dərsi təvazökarlıqdır. Buna görə zorxanada çala olur.

İdmana başlamazdan öncə Hacı Maşallah bizə bir hədis söyləyib deyirdi: "Hədis napaklığın sizə təsir etməsinin qarşısını alır".

Sonra xüsusi yerdə oturmuş rəhbər hərəni öz dərəcəsinə uyğun yerinə yönəldir və xoşgəldin deyirdi. Misal üçün, təzə gəlmiş yeniyetmələrə yalnız əl yelləyib "Xoş gəlmisiniz" deməklə kifayətlənirdi. Köhnə idmançılar üçün zəngi vurub salavat deyir, pəhləvanlar üçün isə zəngdən sonra deyirdi: "Pəhləvanın qədəmləri mübarək!" Seyid və böyüklər üçün zəngdən sonra gur salavat deyirdi və sair. Hər kəsi öz yerində oturdandan sonra İmam Əlinin (ə) mədhinə başlayırdı. Allahdan, Əmirəlmöminindən danışır, zərbi ilə adamı vəcdə gətirirdi. Bu zaman adamda rəqsə bənzər bir hal yaranırdı, ruhu ilə bədəni eyni hissləri keçirirdi. Pəhləvanlar daş götürüb 30-40 dəfə hərəkət edir, deyirdilər: "Bir - Bəndəsini sevən Allah! İki deyil çarələri verən Allah!.. Qırx - peyğəmbərlərə salavat!"

Zorxanada bütün diqqətimiz Allaha yönəlməlidir; ibadətdə olduğu kimi. Milləri qılınc və gürz üzündən düzəldiblər ki, qollar güclənsin, pəhləvanın güclü biləyi olsun və dövrün zülmünə qarşı vuruşa bilsin.

Zorxanada qalxana bənzəyən daşlar götürürlər. Bu daşlar 10-30 kq arasında dəyişir. Gözəl görünsün deyə başını mehrab kimi düzəltmişlər. Və yenə mürşid oxuyur: "Bir və bir! İki və iki!.”.

Miyandarın duası ilə idman bitir: "Şimrə lənət! Yezidə lənət! İlahi! Məhəmməd və ali Məhəmməd hörmətinə, bizi Əlini sevənlərdən et..”.

Zorxanada görülən yaxşı işlərdən biri də ehtiyaclıların problemlərini həll etməkdir. Belə ki, miyandar bir idman hərəkəti edib şalı gəzdirə-gəzdirə deyir: "Allah ömrünüzün işığını söndürməsin! Xəstələnməyəsən! Zalım əlinə

keçməyəsən! Ailə-uşaq yanında xəcalətli olmayasan! Həbib ibn Məzahir duaçın olsun!.”.

Bu zaman kim nə qədər istəyirsə, şala pul salır; əlini şalın içinə salır, nə qədər verdiyi bilinmir, riyakarlıq da olmur.

O zaman çox ad-san qazanmış pəhləvanlardan biri də Şəban Cəfəri idi. Yadımdadır, şahın doğum günündə özünün Parkşəhrdə yerləşən idman klubunda böyük bayram tədbiri keçirmişdi. Bütün idmançıları və pəhləvanları çağırmışdı, amma Hacı Maşallah bizi hətta tamaşaya getməyə də qoymayıb dedi: "Şəban dindar deyil, şaha və saraya bağlıdır. Ona pəhləvan demək olmaz".

Şəban bəlkə də zorxana adamı idi, amma ona bələdçilik edəcək yol işığı yox idi. Onda eşitdim ki, xanəndə və rəqqasələri də zorxanaya çağırır. Pəhləvanlar və köhnə idmançılar isə bunu bəyənmirdilər.

1974-cü ildə Əbu Müslim güləş klubuna yazıldım. Müəllimimiz ağa Qudərzi idi. Orada yaxşı güləşçi olan yeni dostlar tapdım: Cəfər Cəngruy, İbrahim Hadi, Əsğər Rəncbəran və s. Onlar məndən bir-iki yaş böyük və təcrübəli idilər, ancaq get-gedə səmimi dostlara çevrildik. Bir müddətdən sonra ora güclü bədəni olan bir gənc də gəldi. Qarabuğdayı idi, qara göz və qaşları vardı, çox əzəmətli görünürdü. Çox tezliklə adı dillərə düşdü: Əhməd Mütəvəssilian.

İlk baxışdan davakar adama oxşayırdı. Ona "Qara Əhməd" deyirdilər. Danışırdılar ki, tələbədir, az-çox siyasi işlər də görür. O, boksla məşğul olurdu, mənsə güləşlə. Aramızda yalnız salam-kəlam vardı. Təxminən həftədə bir dəfə görüşürdük. Yavaş-yavaş daha yaxından tanış olduq. O, Qiyam meydanı tərəfdən idi. O zaman zorxanaya və

əza dəstəsinə çox marağım vardı, hələ siyasətə qarışmırdım. Odur ki, Hacı Əhmədin dalınca düşmədim.

1975-ci ilin məhərrəmliyində aşura xeyməgahı bizim evimizə düşdü. Anamla dayılarım könüllü şəkildə bunu istəmişdilər. O zaman da müxtəlif bəhanələrlə evlərində əzadarlıq keçirilməsini istəməyən qadınlar vardı. Əza dəstəsini qəbul etmək asan iş deyildi. Bundan ötrü polis bölməsinə gedib icazə almalıydıq, yoxsa polislər tökülüşüb imkan verməyəcəkdilər. Həmin il polisdən əza heyətinin qurucusu kimi məni çağırdılar. Hicabsız bir qadın stol arxasında oturub sual-cavab edirdi. Mənə bir kağız verib dedi: "Dəstənin nəzarətçisinin, qurucusunun, rövzəxan və mərsiyəxanının adını yaz".

Bütün dediklərini yazıb imzaladım. Ondan sonra heyətin miyandarı oldum. Çünki xəmirim belə yoğrulmuşdu, bu iş qanımda vardı.

Dəstə yürüşə başlayanda kənardan bir polis də yeriyir və göz qoyurdu ki, məsələ siyasiləşməsin.

Bir dəfə ağa Sazeqara bizim dəstəmizə siyasi duzu olan bir növhə verdi. Şeir belə idi: "İmanın qalması bizim iradəmizdən asılıdır. Yaşasın ölməz Quran hakimiyyəti!"

Xəbərçilər sözü çatdırdılar, polislər tökülüşüb Nasir Kəlhorla ağa Sazeqaranı bölməyə apardılar. SAVAK-da və polis bölməsində tanınan Həsən Qəssab zəng vurandan sonra onları azad etdilər.

# Dördüncü fəsil

1977-ci ilin əvvəllərində hərbi xidmətə yollandım, Hərbi Hava Qüvvələrinə düşüb Təbrizə təlim keçməyə göndərildim. Mənim kimi dikbaş bir tehranlı Təbrizdə nə edəcəkdi?! Üstəlik, saçımı qırxdırmalı idim. Bu isə əsla xoşuma gəlmirdi.

Təlim mərkəzi Təbriz şəhərindən bəlkə də 15-16 km uzaqda idi. Təbrizin qışı sərt olur. Daşı çatladan bir soyuq vardı. Təlim mərkəzi də, düzənliyin ortasında yerləşirdi, şəhərdən oraya qədər heç bir kənd yox idi. Birinci günü birtəhər başa vurub ikinci gün hərbi hissədən qaçdım, çox əziyyətlə və maşınları dəyişə-dəyişə Tehrana qayıtdım. Evə çatanda anam mənim gedişim münasibətilə ehsan aşı bişirirdi. Məni görüb dedi: "Əbülfəz, niyə qayıtdın? Məgər sən əsgərlikdə deyildin?!"

Bir neçə gün məhəllədə gəzişib yenə Təbrizə qayıtdım. Ancaq təlim mərkəzində qala bilməyib bir həftədən sonra. yenə qaçdım və bu dəfə qonşu uşaqlarımızdan birinin Təbrizdə yaşayan atası Mahmud Kəlhorun yanına getdim. Mahmud ağa qoluma gips bağladı, rəislərlə danışdı, axırda

məni Hərbi Hava Qüvvələrinin Tehrandakı təlim mərkəzinə göndərdilər.

Birinci gün səhər yoxlanışı zamanı gizir Xatəmi gəlib dedi: "Cəld düzülün".

Sıraya düzülən kimi başımıza qışqırıb dedi: "Bir it oğlu gəlib mənə deyir ki, ağa, sizin hesabınıza necə pul köçürə bilərik? Ayda nə qədər pul köçürək ki, səhərlər bir qədər gec gələk? Gözləyir, məsələn, mən də deyim ki, Milli bankın Jalə şöbəsi... Elə bilirsiz, dörd maşın təkəri gətirməklə məni aldada biləcəksiz?!"

Gizir yarım saat qışqıra-qışqıra danışdı. Mən tehranlı idim, o saat əlini oxuyub nəkarə olduğunu bildim. Yaramaz bizə öyrədirdi ki, ona pul verək. Pulu və ya adamı olanlar xidmət bölməsinə düşür, rayon uşaqları, yəni tehranlı olmayanlar isə qarovul çəkməyə gedirdilər.

Ertəsi gün yenə bizi sıraya düzüb bağıra-bağıra dedi: "Xidmət bölməsinə 120 nəfər lazımdır. Bir, iki, üç..., yüz on doqquz. Ay səni, yenə bir nəfər çatmır!"

Yenə saymağa başladı. Mən bu dəfə tez öz cərgəmdən çıxıb 119-cu əsgərin önündə dayandım və həmin kolon 120 nəfər oldu.

Gizir də ağıllı idi, yerimi dəyişdiyimi anladı. Mənə baxıb dedi: "Bura gəl, görüm, sən kimin uşağısan?"

Əvvəl qorxub başımı aşağı saldım. Beynimdən cürbəcür adlar keçdi, sonra özümdən asılı olmadan dedim: "Polkovnik Hüveydanın qohumlarındanam".

Polkovnik Hüveyda yüksək vəzifəli hərbçilərdən idi, yalnız adını eşitmişdim.

Bəxtim gətirdi və fəndim baş tutdu. Məni “Firuzə qəsri” qarnizonunun xidmət bölməsinə göndərdi və birinci gün məzuniyyət alıb evə getdim.

O zaman bir Mini-Honda motosikletim vardı, onunla hərbi hissəyə gedirdim. Bir gün yolda gördüm ki, hərbi hissənin yanında yarımçıq bir xəstəxana var, orada bir neçə kürd fəhlə işləyir.

Motosikleti bir kənara qoyub yaxınlaşdım, fəhlələrlə salamlaşdım. Bir kiloluq bir çay qutusu almışdım, onlara verdim və çox tezliklə dostlaşdıq.

Ertəsi gündən motosikleti həmin tikiliyə qoyub fəhlələrin otağındakı hərbi formamı geyinir və hərbi hissənin kəsik məftil torundan içəri girirdim. Səhər düzülüşündən sonra saat 10-11-ə qədər işlərimi yerbəyer edib aradan çıxırdım.

Bir neçə gündən sonra məni qarovul bölməsinə apardılar. Hərbi forma geyinib süngü götürdüyüm birinci gün hərbi hissənin ətrafında gəzişmək həvəsinə düşdüm. Hərbi hissənin arxasında hərbçilərə ev tikirdilər. Orada heç kim yaşamırdı. Daydayı olanlar orada qarovul çəkirdilər. İki-üçü dəmirləri rəngləyirdi, ikisi də sürücü idi. Ora düşən hər bir əsgər bir gün qarovula çıxır, bir gün də istirahət edirdi.

Gizir Mirraşidlə danışıb dedim ki, rəngsazlığım yaxşıdır. O da leytenant Behmənişə məktub yazdı. Bilmirəm bəxtimdən idi, ya da başqa bir şeydən, hər halda, bu da alındı.

Fələyin gərdişindən Boyaqçılar küçəsinin uşağı hərbi hissənin divarlarının boyaqçısı oldu. Səhər çağı səliqəli mülki geyimdə və saçlı halda gəlib dəmirləri boyayır, günorta yeməyimi yeyəndən sonra evə gedirdim.

Hər gün nahar çağı bütün binanı tiryək qoxusu bürüyürdü. General Məhəmmədi namazqılan adam idi, amma tiryək çəkirdi. Hər gün öz briqadasından bir neçə nəfərlə toplaşıb manqal yandırırdı. Yavaş-yavaş onunla da

tanış oldum. General səmimi adam idi. Eyibləri ilə işim yoxdur, çünki mənə pisliyi toxunmayıb.

Bir gün məni çağırıb dedi: "Maşın sürə bilirsən?"

– Bəli, ağa.

– Evdən icazə al, birlikdə gedək şimala.

Ertəsi gün onunla evinə getdik. Bir Aria avtomobili vardı. Mən sükanın arxasına keçdim. Yoldaşı və iki qızı da maşına oturdu. Babülsərə getdik. Böyük bir villaları vardı. Bütün general və polkovniklər oraya toplaşmışdılar. Onlarla yoldaşlıq yaxşı təcrübə idi.

Generalın qızları gənc idilər, hicabsız gəzirdilər. Mən dindar idim, onlara bacı kimi baxırdım. Buna görə general mənə etimad edirdi. O məni özü ilə hər yerə aparır, hətta yoldaşını və qızlarını mənə tapşırırdı. Yoldaşı namazlarını ilk vaxtda qılan adam idi. O zaman və o mühitdə belə bir şey mənə çox qəribə gəlirdi.

Bir gün bir nəfər yarımçıq tikilinin dördüncü mərtəbəsindən yıxılıb öldü. Bu səbəbdən bizdən beş nəfəri hərbi hissənin xidmət bölməsinə göndərib dedilər: "On-on beş gün burda qalın, sizi qaytaracağıq".

O bölmədə biz beş nəfərdən başqa Vəramindən bir gizir də vardı. Adı Kəlləkuhi idi, bizə başçılıq edirdi.

Kəlləkuhi ikinci gün səhər düzülüşündə məni çağırıb dedi: "Gəl bura, anası..., nə üçün saçını qırxdırmamısan?"

Mən tehranlı və özümə görə cəsur idim. Səsimi qalınlaşdırıb, "Ağzının danışığını bil" – dedim və cavab gözləməyib burnunun üstündən bir kəllə vurdum. Kəlləkuhinin burnu sındı, üzü qana bələşdi.

Tökülüşüb məni tutdular və Hərbi Hava Qüvvələrinin hauptvaxtına saldılar.

Orada iki sutka qaldım. Məndən başqa beş-altı nəfər də vardı, intizamsızlığa və dalaşmaya görə ora salınmışdılar.

Biri siyasi adam idi, ondan silah tapmışdılar. O tez-tez İmam Xomeynidən danışırdı. O zaman şah əleyhinə mitinq və yürüş təşkilatçılarını çox tuturdular. Bir də görürdün ki, bütün divarlara "Şaha ölüm" yazılıb. İnqilab ətri gəlirdi.

Hauptvaxtdan çıxandan sonra, uşaqların biri dedi: "Kəlləkuhinin səninlə işi var".

Onun yanına getdim. Mənə dedi: "Uşaq, nə üçün belə etdin?"

Burnuna baxdım. Hələ şişi yatmamışdı. Sonra gözlərimi gözlərinə dikib dedim: "Bəs sən nə üçün ana söyüşü verdin?"

Bir qədər mübahisə etdik. Mənim necə biri olduğumu anlamışdı.

Evdə hadisəni Seyid Baqirə danışdım. Seyid Baqir qorxmaz idi. Ertəsi gün onunla və dostlarından Hüseyn Kaşi adlı bir nəfərlə birgə Vəraminə, öz sözü ilə desəm, Vəraminin lotusunun yanına getdik. Adı Mürtəza Pələngdəreyi idi. Başınızı ağrıtmayım, bir qətl üstündə doqquz il yatandan sonra həbsdən çıxmışdı. Bizə kabab bişirdi. Seyid Baqir mənim gizirlə dalaşdığımı ona söylədi.

Pələngdəreyi gizirin xüsusiyyətlərini öyrənəndən sonra dedi: "Aha, Abbas Kəlləkuhi! Onu tanıyıram".

Sonra maşına minib Kəlləkuhinin evinə getdik. Dedilər ki, evdə yoxdur, Cəlilabad kəndinə gedib.

Cəlilabada getdik. Kəndin lotularından birinin qapısını döydük. Gördük ki, bir qrup adam toplaşıb yeyib-içirlər.

Kəlləkuhi ev sahibi və başqa bir neçə nəfərlə manqalın ətrafında idi. Söhbəti öyrənəndən sonra, hamı narahat olub ciddi görkəm aldı. Az sonra aralarından biri hiyləgərcəsinə gülüb qışqırdı: "Ağa, qoyunu gətir".

Görüşüb-öpüşmə başlandı və mən Kəlləkuhi ilə dostlaşdım. O, da vəziyyəti başa düşdü, ertəsi gün məni idarə bölməsinə saldı. Ondan sonra səhərlər motosikletlə və uzun saçla kürdlərin yanında paltarımı dəyişdirib hərbi hissəyə girir, günorta çağı da kəsilmiş məftil torunun arasından çıxıb mülki geyimdə evə qayıdırdım.

Bu hadisələr inqilab çəkişmələri ilə bir zamana təsadüf edirdi. İmam Xomeyninin adı dillər əzbəri olmuşdu, bəyanatları əlbəəl gəzirdi. Nəhayət, 1978-ci ilin təxminən 8-9 dekabrında imam əmr etdi ki, əsgərlər hərbi hissələri boşaltsınlar. Biz də hərbi hissədən qaçan əsgərlərə qoşulub evə gəldik. O vaxt hələ siyasətə qoşulmamışdım. Halbuki tutatut vardı, xalq küçələrə çıxıb şah əleyhinə sərt şüarlar verirdi.

Həmin günlərdə bir dəfə küçənin başında dayanmışdım. Bir neçə küçə o tərəfdə bir xanım ağ çadrada Mercedes avtomobilindən düşdü. Uzaqdan çox yaxşı görünürdü, amma üzü bilinmirdi. Görkəmindən o tərəflərin adamlarına bənzəmirdi. Həm də maşın sürürdü və o günlərdə o məhəllələrdə az qadın sürücülüyü bacarırdı.

Xanım maşından enib aptekə girdi, bir neçə dəqiqədən sonra yenə maşınına minib yola düşdü.

Get-gedə Qasimin və dostlarının vasitəsi ilə siyasət aləminə qoşuldum. İnqilab hadisələri yavaş-yavaş qızışdı və mən o hadisələrin içinə düşdüm. O qadını da tamam yadımdan çıxardım.

Qasim Kərəcdə yaşayırdı. Mən küçəmizin başında ətir dükanı olan Hacı Qulamın - mən onun zəhmətlərinə çox borcluyam - telefonu ilə onunla əlaqə saxlayırdım. Hacı Qasimin dost və əməkdaşlarından gizli mesajlar da alırdım.

Qasim Kərəcə köçəndən sonra, onunla görüşümüz çox azalmışdı, yalnız cümə axşamı və cümə günləri idman bəhanəsi ilə Çalus yolunda görüşürdük.

Qasimin xətrini o qədər istəyirdim ki, əgər daha uzaq bir şəhərə də desəydi, gedərdim. Qasim mənim üçün adi bir müəllim, qonşu və ya dost deyildi, bunlardan çox yüksəkdə dururdu. O, Quran və əxlaq dərsləri ilə məni şaha qarşı mübarizəyə həvəsləndirdi, mənə inqilabi sözlər öyrətdi və həyatımı dəyişdirdi. O, şah rejiminin əməllərindən, həbslərindən, zülm və ədalətsizliyindən danışırdı. Biz dəliqanlı gənc olduğumuza, Qasimin sözləri də məntiqli olduğuna görə hamısını ürəkdən qəbul edirdik.

Təxminən hər həftə Hüseyn Mahmudi ilə Çalus yoluna gedirdim. Qasim də ora asanlıqla gələ bilirdi. Vaxt təyin edib bir yerə toplaşırdıq.

Bir cümə günü əza dəstəsinin uşaqlarından 13-14 nəfərlə Çalus yoluna getdik. Sisi adlı böyük bir bağda görüş təyin etmişdik. Bağ Çalus yolunun kənarında yerləşirdi, çox gözəl və ağacla dolu idi.

Hacı Qasim gələndə dedi: "Burada boş oturmayaq, bir az gəzişək".

Həmin gün zirvə və yamaclarda təxminən 12 km yol gedib hündür bir yerdə dayandıq. Qasim durbin gətirmişdi. Oradan Çaluc şəhəri və yolu görünürdü. Bir qədər aralıda qaranlıq girişi olan mağara kimi bir yer vardı. Nə qədər dərin olduğu bilinmirdi, amma şübhəsiz, iki-üç adam yerləşərdi. Qasim oraya girib 15-20 dəqiqədən sonra torpaq dolu bir kisə ilə çıxdı. Kisəni yerə boşaldanda önümüzə beş “Kolt” tapançası və bir qədər patron töküldü.

Hacı dedi: "Götürün. Bu gün atıcılıq məşqimiz var. Bunları özüm bura qoymuşam. Hələlik maraqlanmayın, vaxtı çatanda hər şeyi biləcəksiz".

Sonra şaha qarşı mübarizə və bunun məqsədləri barədə danışa-danışa silahı söküb-yığmağı öyrətdi. Sonra uzandığımız və oturduğumuz yerdə hərəmiz 7-8 dəfə atəş açdıq. Hədəf ətrafımızdakı daşlar idi. Mən hərbi xidmətdə silahla təlim keçmişdim, amma tapança mənə tanış deyildi, əlim titrəyirdi. Hacı dedi: "Əliniz əsməməlidir. Əvvəlcə hədəfi təyin edin, sonra diqqətlə atəş açın".

Atəş səsləri dağda əks-səda verirdi.

Bir-iki saatdan sonra, Qasim tapançaları toplayıb kisəyə tökdü və dedi: "Gərək bunların yerini dəyişdirək. Həmişə bir yerdə qalsa, bilərlər".

Hava tam qaralandan sonra, Sisi bağına qayıtdıq, Qasimlə sağollaşıb Tehrana döndük.

Bir-iki gündən sonra, Hacı Qulam Əttar yenə məni çağırıb dedi: "Hacı Qasim zəng vurub, səninlə işi var".

Hacı dedi: "Sabah səhər tezdən təkbaşına Kərəcə gəl".

Bir saatdan sonra küçənin başında Hüseyn Mahmudini gördüm. Dedi ki, sabah Kərəcə gedəcəyəm. Bir-birimizə bizi Hacı Qasimin çağırdığını söyləməyə cürət etmədik.

Ertəsi gün Hüseyn Mahmudi, Əmir Ətri, Hüseyn Şəfii, Məhəmməd Məşhədi Baqir və Hacı Davud Niyazi də Sisi bağında idi. Qasim şaha və onun hökumətinə qarşı mübarizədən danışıb dedi: "Mübarizə ilk və son vəzifənizdir. Bu rejimin qarşısında sakit oturmamalısız..".

Sonra bir neçə bəyanat gətirib dedi: "Bunlar ağa Xomeyninin bəyanatlarıdır. Xomeyni bu mübarizənin rəhbəridir. Biz ondan tapşırıq alırıq. Bilməlisiz ki, əza heyəti yalnız namaz qılmaqdan, sinə vurmaqdan ibarət deyil. Heyət zülmə və fəsada qarşı mübarizə mərkəzidir. Bu mübarizənin birinci şərti budur ki, hamımız bir yerdə and içək. And içək ki, sirlərimiz özümüzdə qalacaq, məqsədimizə sadiq olacaq, mübarizə qaydalarına əməl

edəcəyik. Kim nə iş görmək istəyirsə, mənimlə məsləhətləşsin. Əgər məni qəbul edirsinizsə, yalnız mənə deyin, məndən soruşun ki, işlər yaxşı getsin".

Mən o zaman hacının hansı qrupa bağlı olduğunu bilmirdim. Bunu heç vaxt soruşmadım da. Mübarizəni çox sevirdim və məni hacının ardınca aparan bu idi.

Axırda bizə dedi: "Bir iş görmək lazımdır. Bu mübarizədə hər birinizin bir tapşırığı olacaq, gərək işin bir qulpundan yapışasınız. Yadda saxlayın ki, tapşırığınızı yalnız özünüz bilməli, ələ keçsəniz, digərlərini satmamalısız".

Sağollaşanda Hacı Qasim Məhəmməd Məşhədi Baqirə dedi: "Sən bu buruq saçınla tez tanınırsan. Saçını qısaltman lazımdır".

Hacı Qasimin komandası silahlı mübarizə məsələsi üzərində çox dayanırdı. Uzunmüddətli məqsədləri vardı, daha böyük təşkilatlarla birləşmişdilər, işləri planla gedirdi. Mən Qasimi sevdiyimə görə qrupa qoşulmuşdum, təşkilat işlərinə görə yox. Şüar vermək, şüar hazırlamaq və camaata qoşulmaq mənə kifayət edirdi. O zaman mübarizədə adətən bu işlər görülürdü.

Bir nəfərin həqiqətən SAVAK-a bağlı olduğuna əmin olanda evinin yanına bir adam qoyurdular. O, küçənin başında o qədər dayanırdı ki, nənəsinin ayaqqabısının ölçüsünü də öyrənməyincə əl çəkmirdi. Evlərinin formasını, məhəllənin planını çəkirdi. Onun hər kəsini, işlərini, gediş-gəliş vaxtlarını nəzarətə götürür, sonra onu inqilabi şəkildə edam etmək qərarına gəlirdilər. Bu işlərdən ötrü heç kimə hesabat vermirdilər. Bu, mübarizənin bir hissəsi, mübarizə və təmizləmə qaydalarından idi. İnqilaba az qalmış bu üsullarla SAVAK

məmurlarının gününü qara etdilər, çoxları qorxub işdən çıxdı.

Hacı Qasimin əksər işləri məxfi idi. Biz hamımız onun qonşusu və müridi idik, amma heç birimiz işlərindən baş açmırdıq. Misal üçün, Hüseyn Şəfii ilə böyük qardaşı kustar bomba düzəltməkdə usta idilər. Hacı Qasim bombaları düzəltmək və gizlətmək üçün onları yerlə təmin edirdi. Hacı deyirdi: "Bombaları filan yerə aparın, orda sizi gözləyirlər". Elə şərait yaratmışdı ki, sözü saxlaya bilirdik. Sözlərinin yanında həmişə bir-iki hədis deyirdi ki, şübhəmiz qalmasın.

Qonşu uşaqlarımızdan olan Əli Təvəkküli bir dəfə Türkmənsəhrada bir komanda ilə tanış oldu. Onlar biri 500 tüməndən "Kolt" tapançaları satırdılar. Uşaqlar Əlinin vasitəsi ilə məhəlləyə müxtəlif silahlar gətirib yaydılar. Yavaş-yavaş hamı silahlandı. Mənim də bir "Kolt"um vardı, amma yalnız ehtiyat üçün üstümdə olurdu.

Mürtəza Ərəbzadə, Nəbi Ruhullahi, İsmayıl Yədullahi, Rza Təla və Əli Bəradəran mübarizə fədailəri idilər.

Günlər ötürdü. Hacı bizim harada toplaşmalı olduğumuzu, hansı şüarı söyləməli olduğumuzu deyirdi. Xalq şah rejiminin devrilməsini istəyirdi və biz də onun bir parçası idik.

Bir gün qərara gəldik ki, axşamüstü saat 5-də Şah Əbdüləzim ziyarətgahına gedək. Hacı Qasim sübh çağı Kərəcdən məhəlləyə gəldi, uşaqların bir qrupu ilə oradan Rey şəhərinə getdik.

Biz ziyarətgaha çatanda bir qrup adam məqbərənin həyətində şüar deyirdi: "Bütün İranı Vyetnam edək! Yaşasın Çe Gevara!"

Hacı dərhal camaata sarı qaçdı. Hovuzun üstünə çıxmaq istəyəndə ayağı sürüşdü, şalvarı islandı. Özünü

toparlayıb yenə yuxarı qalxdı, əlini qaldırıb ucadan dedi: "Qulaq as! Qulaq as! Bu, azdırıcı şüardır. Biz burda şaha qarşı mübarizə aparırıq və Əhli-beyt tərəfdarıyıq. Odur ki, belə deməliyik: "İranı Kərbəla edərik! Yaşasın İmam Hüseyn!"

Hamıdan əvvəl özümüz bu şüarı təkrarladıq, camaat da bizə qoşuldu.

Günorta çağı məhəlləyə qayıdıb birbaş Seyid Həsən Səfəvigilə getdik. O, Qeysər İsfahani kimi məşhurlaşmışdı, Əhli-beyt şairi Səğir İsfahaninin bacısı oğlu idi.

Hacı dedi: "Həsən ağa, şeir yazıb Çe Gevaranı tərifləyirlər. Axı camaat nə bilir ki, Gevara kimdir, nəçi olub. Eləcə təkrarlayırlar".

Oturub Həsən ağanın məsləhəti ilə dini şüarlar hazırladıq. Bəzi parçaları yadımda qalıb:

Bu bədənim məhv olsa da, Xomeynidən əl çəkmərəm!

Hərəkat hüseynçi, rəhbər Xomeyni, varmı mübariz?

And olsun canına, Fatimə! Yox məndə ölümdən vahimə!

Surətçıxarma aparatı olmadığına görə şeirləri kiçik kağızlar üzərində yazdıq, ertəsi gün hərəmdə camaat arasında yaydıq və çox razılıqla qarşılandı.

Bir gün Hacı Qasim məni Dəyalimə prospektində bir evə apardı. Ev Ələvi mədrəsəsinin arxasında yerləşirdi. Bir neçə dəqiqə qapının arxasında dayandıq. Hacı mənə bir açar verib dedi: "Bundan sonra nə vaxt vədələşsək, bura yığışarıq. Biz bu evə "yuva" deyirik. Nə vaxt "Yuvaya gəlin" desəm, bu evə gələrsiz".

Bir gün Qasim xəbər yolladı və biz həmin evə toplaşdıq. Şeyx Mahmud Qəffari də gəldi. Onun əsl adı Məhəmməd Qaragözlü idi.[1] O, şaha qarşı ciddi mübarizlərdən idi. Bizə dedi: "İndi vəziyyət elə olub ki, dini təbliğat işləri silahlı mübarizədən daha yaxşı effekt verir".

Sonra qələmini çıxarıb bir neçə prospektin şəklini çəkdi və dedi: "Gərək sabah camaatı bu prospektlərə toplayıb yürüş keçirək".

Ondan sonra harada yürüş və mitinq keçirirdiksə, Şeyx Mahmud gəlir, əmmaməsini torbasından çıxarıb başına qoyur və hündür bir yerə çıxıb şahı kəskin tənqid edirdi. Axırda kimsə "Şah qvardiyası gəldi" deyən kimi Şeyx Mahmud ucadan, "De ki, şaha ölüm! De ki, şaha ölüm!" qışqırır, əmmaməsini torbaya qoyub camaatın arasında itirdi.

Rey və Sahibcəm prospektində hər gün, hər axşam aksiya və atışma olurdu. Şəhərin mərkəzi və cənubu şah məmurları ilə xalqın qarşıdurma mərkəzinə çevrilmişdi.

Mən göyərçinlərin yuvasında bir səsucaldan gizlətmişdim. Bəzi axşamlar uşaqlar söhbətləşmək və plan qurmaq üçün bizim evə toplaşırdılar. Mürtəza Ərəbzadə səsucaldanla şahı və onun rejimini söyürdü, səsi bütün məhəlləyə yayılırdı. Qvardiya silahlıları küçəyə tökülüşür, amma səsin hansı evdən gəldiyini bilmirdilər. Axırda havaya bir neçə atəş açıb qayıdırdılar.

Fevralın əvvəllərində camaat Soltanabad qarnizonunu ələ keçirəndə mən də küçədə idim. Uşaqların bir neçəsi ilə birgə Soltanabad prospektinə getdik. Polislər havaya atəş açırdılar, vəziyyət çox qarışmışdı. Hər atəş açılanda yüz

---

[1] O, Bazideraz əməliyyatında şəhadətə qovuşdu.

nəfər yerə uzanırdı. Çünki inqilab zamanına qədər camaat müharibə, atışma, ölüm və qan görməmişdi, başları işlərinə qarışmışdı. Bir nəfərə güllə dəyəndə xalq qiyamət qoparırdı, qadınlar qışqırırdı. Hətta bəzi kişilər də ağlayırdı. Yara və qan onlar üçün yeni bir şey idi.

Həmin gün camaat arasında peşəkar güləşçilərdən olan Əhməd Urəndi və dostu Cavad Ardanini gördüm. Həyəcanla qarnizona tərəf qaçırdılar. Arxadan onlara baxdığım yerdə birdən Əhmədə güllə dəydi, yerə yıxıldı. Vəziyyət o qədər pis idi ki, yaxınlaşıb kömək edə bilmədim. Camaat Əhmədi qolları üstə qaldırdı. Əhmədin cəsədi camaatın başı üstə yellənə-yellənə gedirdi.

Allah ona rəhmət eləsin! Oyunda yaxşı kələkləri olardı. Pak qəlbi vardı, mərd adam idi. Mən uzun müddətdən sonra anladım ki, toxan dursun deyə aşığın içinə qurğuşun tökürmüş.

Həmin gün Əhmədlə Cavaddan başqa məhəllə uşaqlarımızdan bir neçəsi də şəhid oldu.

Bir yağışlı gecədə yenə qonşu uşaqları ilə birgə Rey prospektinə çıxıb şüar verməyə başladıq. Birdən qvardiya silahlıları gəldilər və biz dar küçələrə üz qoyduq. Bir qrupa rəhbərlik etdiyimi anlamış qvardiyaçılar məni təqib edirdilər. Mən qaçırdım, camaat da arxamca gəlirdi. Qaranlıq bir dalana girdim. Hərə bir tərəfə qaçmışdı, yanımda cəmi beş-altı nəfər vardı.

Bir anlığa dönüb gördüm ki, bir xanım həyəcanla qaçır və daldalanmağa yer axtarır. Çarəsiz qalıb hər ikimiz köhnə bir evin kandarına sığındıq. Qaranlıqda qapı və divarlara yapışıb nəfəsimizi saxladıq.

Qvardiyaçılar dalana girəndə biz daha da qaranlığa girdik. Dalanın ortasına qədər gəldilər, 15-20 dəqiqə

gəzdilər, havaya atəş açdılar. Axırda bir şey tapmayıb qayıtdılar.

Boylanıb baxdım, getdiklərinə əmin olandan sonra xanıma dedim: "Hacı xanım, getdilər".

Hər ikimiz sığınacaqdan çıxdıq. Qaranlıqda xanımın üzü görünmürdü, yalnız çadrası ağarırdı. Yavaş-yavaş küçənin ortasına qədər gəldik. Birdən gözlərim qadının ayaqlarına sataşdı. Ayaqqabısı yox idi, ayaqyalın gedirdi. Dedim:

– Xanım, sən niyə ayaqyalınsan?

– Qaçanda ayağımdan çıxdı, qayıdıb götürməyə imkan olmadı.

Tez ayaqqabılarımı çıxarıb qarşısında cütlədim.

– Sən geyin. Belə getmən düzgün deyil.

Əvvəlcə qəbul etmirdi. Mənim israrımdan sonra, utana-utana geyindi, sonra da birlikdə küçənin başına getdik.

Hava soyuq, küçə boş idi. Yürüş edənlərdən də əsər-əlamət qalmamışdı. İşığın altında qadının üzü göründü, onda bildim ki, o, bir müddət öncə aptekin önündə Mersedes avtomobilindən düşən xanımdır.

Dedim:

– Bu sizsiz?! Burda nə edirsiz?

– Gördüm ki, camaat şüar deyir, onlara qoşuldum. Qvardiya gələndə də qaçmağa məcbur oldum. Qaçanda sənin hamıdan bacarıqlı olduğunu görüb arxanca gəldim.

Həmin axşam onu evlərinə apardım. Yolda onunla söhbət etdik və bu, tanışlığımızın Bismillahı oldu. Adı Fatimə idi. Mənə çox nəcabətli gəldi. Fikirləşdim ki, bu xanım necə də qorxmazdır, gecənin bu vaxtı təkbaşına qarşıdurmanın içinə girib.

Növbəti dəfə uşaqlarla 8 sentyabr səhər saat 9-a Jalə meydanına aksiya təyin etdik. Mən oraya uşaqlardan

Abbasla birgə motosikletlə getdim. Biz çatanda Əllamə Nurinin çıxışı təzə bitmişdi. Bu zaman birdən yer-göydən başımıza atəş yağmağa başladı. Şahbaz prospektindən Jalə meydanına doğru getdiyimiz yerdə izdiham üstümüzə gəlməyə başladı və biz yenə Şahbaz prospektinə qayıtdıq. Hər kəs qışqıra-qışqıra bir tərəfə qaçdı. Bəziləri əl-ayaq altda qalıb əzildi, bəziləri də güllədən şəhid oldu.

Qonşu uşaqlarından Seyid Rəsul Şəfii camaatın arasında yaralanıb yerə yıxılmışdı. O, məhəlləmizdə aptekdə işləyirdi. Bir neçə dəqiqədən sonra qonşumuz Mürtəza Kazimpur gəldi. Onunla və Abbasla birlikdə Rəsula tərəf qaçıb yerdən qaldırdıq, motosikletin tərkinə qoyub 3 Şəban xəstəxanasına apardıq.

Xəstəxanada qələbəlik idi. Rəsulu dəhlizdə yerə qoyduq, dizi üstə oturub başını qaldırdım. O vaxta qədər ölüb-ölmədiyinə baxa bilməmişdim. O yaşayırdı; sızlayıb su istəyirdi. Dodağı qurumuşdu, üzü qanlı idi. Güllənin harasına dəydiyini bilmirdim. Bütün bədəni qana boyanmışdı. Bir dəsmalı isladıb dodağına qoydum. Bir neçə dəqiqədən sonra həkim gəlib nəbzinə baxandan sonra dedi: "Tapşırıb".

O qədər həyəcanlı idim ki, şəhid olduğunu bilməmişdim, tez-tez dəsmal isladıb dodaqlarına qoyur, ona təskinlik verirdim.

Rəsulun cəsədini götürüb qışqıra-qışqıra, təkbir deyə-deyə xəstəxanadan çıxdıq. Hələ əsas prospektə çatmamış qvardiyaçılar xəstəxananın önünə tökülüşüb atəş açmağa başladılar. Təbii ki, əsasən havaya atırdılar, yoxsa biz də vurulardıq. Vəziyyətin çox ağırlaşdığını görüb Rəsulun cəsədini yerə qoyduq və xəstəxanaya qaçdıq. Qvardiya hərbçiləri də ardımızca gəldilər. 10-12 nəfər idik. Dəhlizlərdə qaça-qaça sığınacaq axtarırdıq. Pilləkəndən

yuxarı çıxdıq. Hamı bizə yol açırdı. Xəstəxananı bir-birinə vurduq. Bir neçə mərtəbə qalxıb ən başa çatdıq. Bir nəfər nərdivan gətirdi, dama çıxdıq və nərdivanı yuxarı çəkib bacanı bağladıq. Axşamüstü saat 4-5 radələrində aşağıdan bizi çağırıb dedilər: "Hərbçilər getdilər. Gəlin".

Ertəsi gün Behişti-Zəhra (ə) məzarlığına çoxlu şəhid gətirmişdilər. Camaatın arasında bir nəfər mənə salam verdi. Dönüb gördüm ki, Fatimə xanımdır. Dedi: "Gəldim ki, görüm məhəllə uşaqlarımızdan kimi öldürüblər".

Behişti-Zəhrada (ə) birlikdə olduq. Sonra maşına minib məhəlləyə qayıtdıq. Qardaşım Seyid Baqirin BMW avtomobili məndə idi. Yolda söhbətləşib daha yaxından tanış olduq.

Ondan sonra görüşlərimiz çoxaldı, demək olar ki, hər gün bir-birimizi görürdük. Fatimə barədə Hacı Qasimə danışanda dedi: "Necə adamdır?" Dedim: "İsti-soyuq görüb, naz-qəmzəsi yoxdur". Qasim dedi: "Onunla danış, günaha düşməyəsən".

Ertəsi gün namaz vaxtı Lurzadə məscidinin önünə görüş təyin etdik. Namazdan sonra məhrəmlik və nikah məsələsini söylədim, o da razılaşdı.

Pəri nənə ilə və anamla da danışdım. Anam dedi ki, əgər istəyirsənsə, ya Əli! O, xarakterlərimə bələd idi, bilirdi ki, sözümdən dönən deyiləm.

Fatimə ailəsinə bir söz demədi. Anası onun həyatına çox qarışırdı, pullu bir adamla ailə qurmasını istəyirdi. Axırda Cahanpənah prospektindəki nikah şöbəsində rəsmən evləndik. Sonra Dəyalimə prospektində bir ev kirayə etdim və toysuz-şənliksiz müştərək həyatımıza başladıq.

Bir gün motosikletlə Fərəhzad və İmamzadə Davud ziyarətgahına gedirdik. İmamzadənin yolu torpaq və

döngə dolu idi. Danışa-danışa getdiyimiz yerdə birdən diqqətim yayındı, motosikletin sükanı əlimdən çıxdı və yolun torpaq çiyninə çırpıldıq. Mənim əlimin içi yaralandı, Fatiməyə isə heç nə olmadı. Məcbur qalıb motosikleti bir kənara qoyduq, eşşək kirayə edib yolun qalanını onunla getdik. Fatimə eşşəyə mindi, mən də yanında gedirdim. Torpaq hündürlükdən keçib Salam təpəsinə çatdıq. Oradan məqbərənin günbəzi görünürdü. Üç gün orada qaldıq. Gözəl günlər idi. Səhərlər qatır, toyuq, xoruz, keçi səsinə yuxudan oyanırdıq, kəndə məxsus səhər yeməyi yeyib məqbərəyə gedir, ziyarətdən sonra günorta yeməyinə reyhanla kabab-çörək yeyirdik.

1979-cu ilin əvvəllərində imamın gəlişi barədə söhbətlər çoxaldı. İnsanlarda qəribə coşqu vardı. Bütün günü aksiyalarda olur, axşamlar da çox vaxt məscidə toplaşırdıq.

Şəhərdə xaos vardı, təxminən yarımtətil vəziyyətində idi. Bəzən bir sutka evə getmirdik. Daim aksiyalar keçirilirdi.

Fevralın 1-də Suzuki motosikletimin üstündə 24 İsfənd meydanı ilə universitetin arasında, üzü Vəliəsr prospektinə doğru dayanmışdım. Tapançam pencəyimin cibində idi. Toxunma köynək və enli şalvar geyinmişdim. Hacı Qasim demişdi ki, hamımız motosikletdə olmalıyıq.

İmamı qarşılama işinə ağa Məhəmməd Bürucerdi rəhbərlik edirdi. Mən onu bir neçə dəfə yaxından görmüşdüm. Dəyərli insan idi. İllərlə Livanda Doktor Çəmranın rəhbərliyi altında partizan təlimləri keçmişdi, İranda da silahlı qrupla şaha qarşı mübarizə aparırdı. O zaman onu Ağamirzə ləqəbi ilə çağırırdılar. Məhəmməd Bürucerdi hava limanına gedən prospektləri məsafələrə bölüb hərəsinə bir silahlı qoydu. Çünki silahlı hücum ola

və ya imamın yoluna bomba atıla bilərdi. Ölkənin vəziyyəti çox gərgin idi. Hər kəs istədiyini edirdi. Mücahidlərin və kommunistlərin də fəaliyyətləri vardı, amma əsas rəhbərlik İmam Xomeyninin əlində idi. Hamı bilirdi ki, qalmalı olan imam və inqilabdır.

Bizim komandamız hava limanının yaxınlığına yerləşmişdi. İmamın maşını İnqilab meydanından keçəndə motosikletimə minib yavaşca camaatın arasında gəzməyə başladım.

Behişti-Zəhradakı çıxışından sonra dedilər ki, imam Təxtxab xəstəxanasına inqilab yaralılarını ziyarət etməyə gedəcək. Amma gedib-getmədiyini bilmədim.

Hacı Qasim fevralın 4-də, ya da 5-də dedi ki, hazır olun, imam Şah Əbdüləzimə ziyarətə gedir.

Bir neçə komanda şəklində Şah Əbdüləzim bölgəsinə yollanıb məqbərəyə və ətrafdakı küçələrə yerləşdik. Orada bütün sutka ərzində get-gəl vardı, adam dolu idi, amma hələ çoxları inqilab ab-havasında deyildi.

İmam Xomeyni gecənin yarısı Hacı Mehdi İraqi ilə məqbərəyə gəldi. Onu orada bir daha gördüm. Bəziləri imamın orada olduğuna inanmırdılar. Əgər bilsəydilər, tökülüşüb onu öpmək istəyərdilər.

1980-ci ilin novruz bayramı ərəfəsində İslam Respublikasına müxalif siyasi partiyalar inqilabda yerləri olmadığını görüb Günbəd-Kavus və Bəndər-Türkmən şəhərlərinə getdilər, xalqı inqilaba qarşı qaldırmağa başladılar. Onlar mövcud problemləri böyüdüb həmin şəhərlərin yoxsul əhalisinə pul, müstəqillik və azadlıq vədi verdilər, Günbəd şəhərinin mərkəzi polis idarəsini mühasirəyə aldılar. İnqilabçı qüvvələr gəlib şəhərlə tanış olana qədər camaatın evinə və özlərinin komanda mərkəzlərinə yerləşdilər.

Mən oraya Hacı Qasimin komandasında getdim. Küçə döyüşləri və evbəev təmizləmə əməliyyatları başladı. Axırda ağa Xalxali gəlib bir neçə əks-inqilabçını cəzalandırdı, onlar da inqilabın belə məsələlərdə ciddi olduğunu anladılar. Ara sakitləşəndən sonra Tehrana qayıtdıq.

O döyüşlərdə bir tapançam vardı, amma ondan az istifadə edirdim. Boşuna atəş açmaq istəmirdim. Düşünürdüm ki, bununla ruhum inadkar və tərs olar. Ancaq döyüşün içində olmaq istəyirdim. O şəhərlərin əhalisi yoxsul idi, qiyamlar da yalnız bundan irəli gəlirdi.

Həmişə ağa Xalxalinin yanında olan şəxslərdən biri də Əsğər Vüsali idi. Mən o döyüşlərdə onunla daha yaxından tanış olmaq səadətinə nail oldum. Əsğər Dolab bölgəsindən, Şiva və Kirman prospektlərindən idi. Qısa boyu, amma dünya qədər böyük qəlbi vardı, çox qorxmaz və cəsarətli adam idi. Onu Qarşılama komitəsində çox görmüşdüm. Çox aktiv, zəhmətkeş və Məhəmməd Bürucerdinin yaxınlarından idi. Günbəd qarşıdurmalarında çox əziyyət çəkdi və münafiqlərin dərsini verdi.

Əsğər köhnə inqilabçılardan idi, şahın zindanında yatmışdı. Bir dəfə dostlarından biri mənə dedi ki, Evin zindanında Məsud Rəcəvi ilə mübahisə etmiş, ona bir kəllə vurubmuş.

Əks-inqilabçı liderlər onu şahın həbsxanasından yaxşı tanıyırdılar. O, zorxana pəhləvanı idi, qədimdə Qara Kərimin zorxanasının, mən də Şahmərdan və Hacı Həsən Təvəkkülün zorxanasının şagirdi olmuşdum. Zorxanada idman edəndə bir-birimizi görür, salamlaşırdıq. Atası Həsən də məşhur pəhləvan olmuşdu. Əsğər az danışar, çox işləyərdi.

İnqilab qələbə çalandan sonra məhəllə uşaqlarının hər biri bir işin ardınca getdilər. Əmir Ətri, Davud Niyazi, Məhəmməd Məşhədi Baqir və Seyid Məhəmməd Kəşfi İslam İnqilabının Keşikçiləri Korpusuna yazıldı, Hüseyn Mahmudi isə sərbəst peşə ilə məşğul olmağa başladı.

Ağa Rəcayi Baş nazir olanda Hacı Qasim oraya getdi, mənə də orada iş təklif etdi. Razılaşdım. Çünki həm hacının xətrini çox istəyirdim, onunla birlikdə işləmək imkanı əldə edəcəkdim, həm də yaxşı bir iş tapıb fəaliyyətə başlamağın zamanı idi.

Hacı Qasim məni ağa Rəcayi ilə tanış etdi. O, təvazökar, arif məsləkli bir adam idi, sadə geyimi və görkəmi vardı. Məni gülərüzlə qəbul etdi və mən ayda 2800 tümən maaşla Nazirlər Kabinetində işləməyə başladım.

O zaman ağa Rəcayi Nazirlər Kabinetində "Əlavə və Lazımsız Əmlakı Müsadirə" adlı bir şöbə yaratmışdı. Şöbəyə Hacı Qasimin qohumu olan ağa Çəhpur rəhbərlik edirdi. O, iyirmi dörd işçi götürmüşdü, biri də mən idim. Bizimlə bir iclas keçirib dövlət və şah əmlakının köçürülməsi işinin mərhələlərini başa saldı. Aldığım ilk tapşırıq dəbdəbəli şah əmlakını müsadirə etmək oldu. Biz on iki ikinəfərlik komandaya böləndük. Mən ağa Musəvi ilə bir komandaya düşdüm. Bizim tapşırıq vərəqəmizə beş yerin adı yazılmışdı: Şahənşah klubu, Azadlıq stadionu, Atçılıq mərkəzi, Tac idman klubu[1] və adını xatırlamadığım başqa bir yer.

Yoxlamaya getdiyim ilk yer atçılıq mərkəzi oldu. İlk dəfə idi elə yer görürdüm. Bir saat ancaq tamaşa etdim. Müxtəlif tiplərdə saray qadınları at sürməyə gəlirdilər.

---

[1] Bu klubun adı sonralar İstiqlal oldu.

Peşəkar idmançı görkəmində idilər. Hərəsi əyninə dar manto geyinib xüsusi papaqlar qoymuşdu.

Birinci gün meydanın kənarında dayanıb gördüklərimi yazırdım. Bu zaman hicabsız ucaboy bir xanım atçı geyimində mənə yaxınlaşıb dedi: "Siz dövlət əmlakını qeydə alırsız?"

– Bəli.

– Mənə qulaq asın. Bu atı görürsüz?! Adı Rəxşədir. Yoldaşım bunu 500 min tümənə alıb. Onu Londonda axta ediblər ki, balası olmasın. Dünyada bu atın bənzəri yoxdur. Bu, dövlətinizin işinə yaramaz. Sabah günorta yeməyinə gəlin, daha ətraflı danışaq.

– Yaxşı.

Qadın evinin ünvanını verib getdi.

Ertəsi gün günorta çağı Musəvi ilə birlikdə Kamraniyyə prospektindəki evə getdik. Qapının zəngini vurduq. Bir nəfər dedi: "Buyurun içəri".

İçəri girəndə həmin atçı xanım adi bir köynəklə bizi qarşılayıb salam verdi. İşində mahir idi, bizi də özü kimi rəngləyəcəyini sanırdı. Ancaq bilmirdi ki, özümüz bir ömür rəngsaz olmuşuq, Boyaqçılar küçəsindənik, özümüzə görə bacarıqlıyıq. Üzümüzü turşudub dedik: "İçəri girmirik, sözünüzü deyin".

Xanım gedib həmin dar mantolardan geyindi və bizi içəri dəvət etdi. Əri də gəldi, amma daha çox xanım danışırdı. Birlikdə böyük və təmtəraqlı bir zala girdik. Mən Musəviyə nisbətən çoxdanışan olduğuma görə bu əmlakı nə üçün müsadirə etdiyimizi başa saldım.

Qadın dedi: "Bunlar nə etdiklərini bilmirlər, bu atların dəyərindən xəbərləri yoxdur. Bir neçə gün öncə Kürdüstandan at istəmişdilər. Bir dəstə adam tökülüşüb bu atların beşini ora yük daşımağa göndərdi. Ancaq bu atlar

yük daşımaq üçün deyil, çox qiymətlidir. Bunların hər birindən dünyada cəmi bir-iki dənə var. Siz bizə bir yaxşılıq edin: ya qoyun atlarımızı xarici ölkələrə aparaq, ya da icazə verin, burda məşq edə biləк. Bizim atçılıq məşqlərimizə qadağa qoymayın".

Biz heç nə demədik; yəni deyə bilməzdik, vəzifəmizi yerinə yetirirdik.

Sonra önümüzə iki hədiyyə qutusu qoyub dedi: "Bunlar sizindir". Dedim ki, xeyr, qəbul edə bilmərik.

Ayağa qalxıb sağollaşdıq. Onu sayıb sözünü dinlədiyimizə görə çox sevinirdi.

Günortadan sonra mərkəzin Xəzanə sakinlərindən olan yeni rəhbəri Hacı Əhmədinin yanına getdim, atçı xanımla görüşümüz barədə məlumat verdim. Hacı Əhmədi məni qapısına plomb vurulmuş bir zala apardı. Qapını açdı, içəri girdik. Ətrafa baxanda ağzım açıq qaldı! Hər tərəfdə müxtəlif qiymətli yəhərlər və atçılıq alətləri vardı. Meksika padşahının şaha hədiyyə verdiyi yəhər də orada idi. Üzərinə qızıl, gümüş və qiymətli daşla bəzəklər vurmuş yəhərlər vardı. Divara bir at bədəninin yuxarı yarısı vurulmuşdu. Mən elə bildim ki, süni bir heykəldir. Yaxınlaşıb əl vurdum. Həqiqi at idi, iri və çox gözəl gözləri, şəffaf dərisi vardı. Əhmədi dedi: "Şah bu atı çox sevirmiş. Onun üçün bir neçə min dollar pul ödəyib. O qədər sevirmiş ki, qocalmağa qoymayıb, qurudub divara vurub".

Mərkəz sədrinin köməyi ilə dəqiq məlumatları qeydə aldım. Axşam mərkəz barədə Tofiq məscidinin mədəni-tərbiyəvi işlər üzrə məsul şəxsinə danışdım. O dedi: "Əgər imkan olsa, icazə al, həftədə bir dəfə uşaqları at sürməyə aparaq".

Ertəsi gün bir mikroavtobus tutdum, məhəllə uşaqlarını mindirib atçılıq mərkəzinə apardıq. Uşaqlar çox sevindilər. Müəllim uşaqları bir-bir ata mindirib həyətdə gəzdirirdi. Klubdakılar isə deyinib deyirdilər: "Şuş meydanından ömürlərində at görməmiş kasıbları gətirib bir saat içində atçı etmək istəyirsiz?! Özü də bir neçə min dollarlıq saray atları ilə!"

Növbəti həftə mərkəzin sədri Xəzanə uşaqlarını at sürməyə apardı.

Bir gün də Azadlıq stadionuna getdik, oradakı şah əmlakını qeydə alıb dövlət reyestrinə keçirdik.

Bir gün Şahənşah klubuna getdik. Klubun rəhbəri bizi binanın aşağısındakı bir anbara apardı. Anbar tavana qədər Çexoslovakiya istehsalı olan orijinal şərab rumkaları və xrustallarla dolu idi. Yalan olmasın, bəlkə də iki min ədəd olardı. Onları qeydə almaq üç gün çəkdi.

Çəhpurla birgə ağa Rəcayinin yanına məruzə etməyə gedəndə rumkalar barədə də məlumat verdim. Zavallı Rəcayi təəccüblənib dedi: "Bu qədər rumka bizim nə işimizə yarayar?! Onları nə edək? Məhv edək, yoxsa hərraca qoyaq? Geri qaytara da bilmərik, çünki xərci çox olacaq".

Mən ağa Rəcayiyə dedim: "İndi pullular maşınlarını çıxarmağa qorxurlar ki, camaat parça-parça edər. Belə bir şəraitdə bu qədər rumka və xrustalı kim alar?!"

Güman ki, onları hərraca qoyub pulunu dövlət büdcəsinə keçirdilər.

Müsadirə şöbəsindəki işim bir neçə həftə çəkdi. Hər gün səhər tezdən ağa Musəvi ilə yoxlamaya gedir, günorta çağı yeməyə Nazirlər Kabinetinə qayıdırdıq.

Nazirlər Kabinetinin binası ikimərtəbəli idi, zirzəmisini yeməkxana etmişdilər. Günortalar növbəyə dayanıb 25

riala bir porsiya yemək alırdıq. Ağa Rəcayi də bizim kimi növbəyə dayanır, yemək alır, boş bir yer tapıb otururdu. O, kimin müdir, kimin çayçı olmasına baxmırdı, hamı ilə səmimi dost idi.

Bir gün ağa Rəcayi ilə birgə Sənəndəc şəhərinə getdik. Onda bəzi şəhərlər və əsas yollar əks-inqilabçı qüvvələrdən təmizlənməmişdi. Buna görə də, cümə axşamı iki-üç komandaya bölündük, patrul və təcili yardım maşını ilə Sənəndəcə yola düşdük ki, əks-inqilabçı qüvvələrin pusqusuna düşməyək.

Cümə günü təxminən səhər saat 10-da Sənəndəcə çatdıq. Ağa Rəcayi həmin gün cümə namazında çıxış edəcəkdi. Şəhərə girəndə bir su kranının yanında saxlayıb əl-üzümüzü yuduq. Bu zaman bir nəfər stəkana su doldurub ağa Rəcayiyə verdi, sonra kürd ləhcəsi ilə dedi: "Siz ağa Rəcayiyə necə də oxşayırsız!"

Ağa Rəcayi gülüb dedi: "Uzaq qohumlarındanam".

Kişi dedi: "Onun nəyisiz?"

Mən dedim: "Atasının əmisi oğludur".

Ağa Rəcayi dedi: "Yox, ağa can, mən Rəcayinin özüyəm, sizin qulluğunuzdayam".

Adam yerində donub qaldı, sonra mızıldadı. Deyəsən, inanmadı, gülümsəyib, "Yaxşı, ağa, salamat qalın" – dedi və işinin ardınca getdi.

Ağa Rəcayi cümə namazından öncə iyirmi dəqiqə çıxış etdi. Cümə namazından sonra bir nəfər qışqıra-qışqıra camaatı itələyir, kürsüyə doğru gəlirdi. Su kranının yanındakı adam idi. O deyirdi: "Mən ağanı görmək istəyirəm... Mən ağanı görmək istəyirəm..”.

Sənəndəcdən qayıdandan sonra bir axşam ağa Rəcayini məhəlləmizin əza heyətinə çıxış etməyə çağırdıq. Həmin axşam hamı məclisə toplaşdı. Axşam saat 9-u keçdi, amma

ağa Rəcayi gəlmədi. Nazirlər Kabinetinə zəng vurub məsələni soruşdum. Dedilər ki, ağa Rəcayi çoxdan çıxıb, indiyə çatmış olmalıdır.

Narahat halda fikirləşdiyim yerdə bir nəfər yaxınlaşıb qulağıma pıçıldadı: "Mənim yanımda bir nəfər oturub, eynilə ağa Rəcayinin özüdür".

Gedib gördüm ki, bəli, odur, camaatın arasında oturub, səsini çıxarmır. Yaxınlaşıb dedim: "Ağa, salam. Siz burdasız?! İki saatdır sizə görə narahatam. Mühafizə komandasını neylədiz?"

- Mühafizə istəmirəm. Taksiyə minib gəldim, - deyə cavab verdi.

# Beşinci fəsil

İslam inqilabından sonra tanış olduğum böyük şəxsiyyətlərdən biri də Doktor Mustafa Çəmrandır. O, inqilaba və xalqa həqiqətən də böyük xidmətlər etmişdir. O zaman onun varlığı bir nemət idi. İnqilabdan sonrakı günlərdə onu bir neçə dəfə Nazirlər Kabinetinin binasında "Uşanka" rus papağı və eynəkdə görmüşdüm, salamlaşıb hal-əhval tutmuşduq. O, çox təvazökar idi, Nazirlər Kabinetinin bütün uşaqları ilə, hətta ən aşağı vəzifədə çalışanlarla da çox səmimi görüşürdü. O, Baş nazirin müavini və çox tanınmış adam idi, Amerikada təhsil almışdı, uzun müddət Livanda İsrailə qarşı partizan müharibəsi aparmış və digər işlər görmüşdü. Ümumilikdə sakit və azdanışan adam idi, daxili aləmi və xarakterləri ilə tanış olmaqdan ötrü ona çox yaxınlaşmaq lazım gəlirdi.

İnqilabın ilk günlərində əks-inqilabçı partiyaların müxtəlif şəhərlərdə təxribatları artırdı. Xüsusən də Kürdüstanda belə qiyamlara inqilabdan qabaqkı illərdən zəmin yaranmışdı. İnqilabın qələbəsi əks-inqilabçı qüvvələrə Kürdüstan əhalisindən öz məqsədləri üçün

maksimum istifadə etmək, müstəqillik, rifah və azadlıq bəhanəsi ilə şəhərlərdə iğtişaşlar törətmək, adam öldürmək imkanı verirdi.

Kürdüstanın sərhəd şəhərlərindən hər gün pis xəbərlər gəlirdi. Mən Nazirlər Kabinetində işlədiyimə görə bu barədə hamıdan tez xəbər tuturdum.

O zaman İslam İnqilabının Keşikçiləri Korpusu yaranmağa başlayırdı, Məhəmməd Bürucerdi, Əsğər Vüsali, Duzduzani, Əbu Şərif, Cavad Mənsuri və Mürtəza Rzayi kimi böyük şəxsiyyətlər xidmətləri ilə ad çıxarmışdılar. Əks-inqilabçı qüvvələr onları özlərinə böyük təhlükə bilirdilər, birinci məqsədləri korpusu məhv etmək idi. Harada pasdar geyimində bir adam görürdülərsə, kimin pasdar olduğunu hiss edirdilərsə, dərhal öldürürdülər.

Əks-inqilabçılar 1979-cu ilin iyun ayının sonlarında Kürdüstana getməzdən öncə Mərivanda 25 pasdarın başını kəsmiş, bunun adını "Ölüm bayramı" qoymuşdular. Onlar həmçinin Sərdəşt qarnizonunu mühasirəyə alıb silah-sursatlarını oğurlamış, çoxlu şəhər və kəndlərə girib pasdarları və hərbçiləri öldürmüşdülər. Onlar hətta Kürdüstanın yerli əhalisinə də rəhm eləmir, kiminsə dövlətlə əməkdaşlıq etdiyini və ya İslam Respublikasının tərəfdarı olduğunu azacıq ehtimal edirdilərsə, yerindəcə qətlə yetirirdilər.

Onlar bildirmişdilər ki, tezliklə Pavəni mühasirəyə alıb özlərinə paytaxt edəcəklər. Partizan döyüşlərinin ustası olan Doktor Çəmran iyulun ortalarında Nasir Fərəcullah və Rəhim Səfəvi ilə birlikdə Kürdüstana getdi. Ağa Rəhim onda çox gənc idi, Kürdüstanda əks-inqilabçıların nəfəsini kəsmişdi. Çox cəsarətli və qorxmaz adam idi. Heç bir yerə

sığınmaz, həmişə hündürlükdə dayanıb vuruşardı. Buna görə ona "Təpəçi Rəhim" deyirdilər.

Qasimlə planımız həmişə hadisələrin içində olmaq olduğuna görə biz də iyulun ortalarında Nazirlər Kabinetində işləyən uşaqlardan üç-dörd nəfərlə birgə Kürdüstana yollandıq.

Günortadan sonra Bicara çatdıq. Bicar kabablarının tərifini çox eşitmişdik. Buna görə bir kababçilov yeyib qarnımızı doyurduq. O günlərin aktual məsələsi əks-inqilabçılar və onların hər zaman, hər yerdə qəfil hücumları və pusquları idi. Kimi tuturdularsa, ya yerindəcə güllələyir, ya da aparıb öldürürdülər. Bu vəziyyəti nəzərə alıb gecə vaxtı yolda olmağı məsləhət bilmədik. Gecəni Divandərə komitəsində yatdıq.

Səhər çağı Divandərə komitəsinin uşaqlarından olan yerli kürd bələdçimiz söz verdi ki, bizi heç kimin bilmədiyi bir yolla Pavəyə aparacaq. Divandərədən iki maşınla yola düşdük. Maşınların arxasında iki ədəd 50 mm çaplı pulemyot, üç mərmi, bir neçə tapança, bir neçə J3 avtomatı və əl qumbarası gizlətmişdik.

Axşam azanına yaxın Sənəndəcə çatdıq. Sənəndəc çox qarışmışdı, elə müharibə ab-havası vardı ki, hər an bizi vuracaqlarını gözləyirdik. Bir dəstə silahlı küçələrə tökülüşüb spirtli içkilər, silahlar, əxlaqsız və siyasi qəzetlər satırdı. Çoxunun əynində kürd paltarı vardı, çiyinlərindən patron kəmərləri aşırmışdılar. Qadınlar qəzet və jurnal satırdılar. Bəziləri Fədayi partizanları,[1] bəziləri

---

[1] Fədai Partizanlar Təşkilatı 1971-ci ildə yaradılmışdı, İranın ən böyük solçu partizan təşkilatı idi. Onların ideologiyası Marksizm-Leninizmdən ibarət idi, silahlı mübarizəni vacib sayırdılar. Şah rejiminə qarşı yeddi il vuruşdular, inqilabdan sonra parçalanıb İslam

hörgütü[1] təbliğ edir, bəziləri də mücahidlərin[2] bayraqlarını yellədirdi. Biz Sənəndəcdə qalmağa gəlməmişdik. Odur ki, diqqət çəkmədən yanlarından keçib şəhərdən çıxdıq.

Kürdüstanın qəribə təbiəti var. Onda yay fəsli, meşələr gözəl və yamyaşıl idi. Bizim yolumuz da dağın içindən, qayaların arasından keçirdi. Yollar dolanbac və təhlükəli olduğuna görə yerli sürücüyə ehtiyac vardı.

Axşam qaranlıqda Pavə şəhərinə çatdıq. Şəhərdə sakitlik idi; əhali ya yatmışdı, ya da işıqlarını söndürmüşdü.

Pavə dağların arasında yerləşən kiçik, amma strateji baxımdan mühüm bir şəhər idi. Dairəvi şəkildə idi, bütün ətrafını dağ və təpələr sarmışdı. Buna görə onu nəzarətdə saxlamaq asan idi. Qərbdən İraqla həmsərhəd olması əks-inqilabçı qüvvələr üçün çox yaxşı imkan yaradırdı. Bu

---

Respublikasına qarşı mübarizə və təxribatlara başladılar, nəhayət, 1983-cü ildə tamamilə məhv edildilər.

[1] Hörgüt kürd bölgələrinin ilk siyasi təşkilatı idi, İraqın Süleymaniyyə şəhərinin kürdləri tərəfindən millətçilik və separatizm əsasında yaradılmışdı. Onun əsas təsisçisi iraqlı kürd fəallardan olan Mahmud Cövdət idi. Bu təşkilat sonralar dövrün şəraitinə görə Demokrat partiyasına çevrildi, daxildə və xaricdə İslam inqilabına qarşı mübarizəyə başladı.

[2] İran Xalq Mücahidləri təşkilatını Azadlıq hərəkatının üzvlərindən olmuş üç nəfər 1965-ci ilin sentyabrında yaratmışdı. Təşkilatın Mərkəzi Komitəsi 1975-ci ildə bir bəyanatla ideologiyasının İslamdan Marksizmə dəyişdiyini elan etdi. Ondan sonra təşkilat fəaliyyətini iki Marksist və Müsəlman qolları ilə davam etdirdi. Onun müsəlman qolu Mücahidlər təşkilatı adı altında İranın daxilində və xaricində terrorçuluqla, kitab və broşür yaymaqla məşğul olurdu. Məsud Rəcəvi onu Milli Mücahidlər Hərəkatı adı ilə genişləndirdi və İslam inqilabının qələbəsindən sonra yüzlərlə insanı qətlə yetirdi. Bu təşkilat terrorçu fəaliyyətlərini indi də davam etdirir.

xüsusiyyətlərinə görə oranı paytaxt etmək həvəsinə düşmüşdülər; müstəqil Kürdüstanın paytaxtı!

Evlər birmərtəbəli idi. Bir qədər küçələrdə gəzişib yoldan keçən bir adamdan Doktor Çəmranın yerləşdiyi yeri soruşduq. Qəliz kürd ləhcəsi ilə dedi: "Tibb məntəqəsi və jandarmeriya".

Doktoru evlərin birində tapdıq. Kürdüstan əhalisi inqilab tərəfdarı idi, evlərini könüllü şəkildə pasdarlara verirdilər. Belə evlər Pasdar evi adlanırdı.

Doktor Çəmran bizi çox səmimi şəkildə, gülərüzlə qarşıladı. O, çox istiqanlı və mehriban adam idi. Yüksək dövlət məmuru olsa da, onda zərrə qədər də təkəbbürlülük görməmişəm. Eynilə bizdən biri olmuşdu. Bu təvazökarlığına görə hamımızın qəlbində özünə yer açmış, bizi özünə mürid etmişdi. Bizi görəndə bir-bir hamımızı qucaqlayıb dedi: "Var olasınız! Haqq sizi qorusun!"

Bizim istədiyimiz kimi çox alicənab və düşüncəli insan idi.

Uşaqların biri dedi: "Hələ girişləri bağlamayıblar. Amma deyiblər ki, bu günlərdə şəhəri mühasirəyə alacağıq".

Başqa biri dedi: "Əks-inqilabçı qüvvələr Quruculuq cihadı tərəfindən gətirilən bütün silah-sursatı və qida maddələrini alıb, təşkilatın uşaqlarını öldürüb. İcra hakimi ailəsi ilə birgə şəhərdən çıxanda tutub ölümünə döyüblər..”.

Doktor Çəmran dedi: "Görün bu kürdlərin bəzisi məmləkətə nələr ediblər! Bunlarda günah yoxdur; yoxsuldurlar, bəhanə axtarırlar. Macəraçı xüsusiyyətləri də var".

Ertəsi gün yerlilərdən təxminən yüz nəfər bizə sığındı, amma bir sutka keçməmiş yarısı qayıtdı və daha tapılmadı.

Bu, xalqın çaş-baş qaldığını göstərir; həm canlarından və mallarından qorxurdular, həm də inqilab tərəfdarı idilər.

Həmin günlərdə Məhəmməd Bürucerdi ilə Əsğər Vüsali Kürdüstanda əks-inqilabçı qüvvələrin amanını kəsmişdi. Vüsali bizdən bir neçə gün öncə pasdarlarından altmış nəfərlə Pavəyə gəlib şəhərin mərkəzindəki korpus qərargahına yerləşmişdi. Onun necə cəsarətli olduğunu eşitmişdim. O, boyunlarına qırmızı dəsmal bağlayan batalyonun komandiri idi. Onlar düşüncəli, alicənab, qorxmaz və İmam Xomeyniyə sadiq uşaqlar idilər, "Qırmızıdəsmallılar" kimi məşhurlaşmışdılar. Devizləri bu idi ki, boyunlarındakı dəsmal qanlarına boyanmalı və şəhadət məqamına ucalmalıdırlar.

Əsğərin batalyonu gələndən sonra sayımız 130-a çatdı.

Bizim bir neçə adamımız vardı, əks-inqilabçı qüvvələrdən xəbər gətirirdilər. Onlar dedilər ki, şəhəri mühasirəyə almağa hazırlaşırlar. Bu zaman Doktor Çəmranla Əsğər Vüsali arasında fikir ayrılığı yarandı. Hər ikisinin məqsədi əks-inqilabçı qüvvələrin kökünü kəsmək idi. Ancaq Doktor Çəmran itkinin az olmasına çalışır, daha çox sülhlə, mədəni-təbliğat işləri ilə mübarizə aparmaq istəyirdi, Əsğər Vüsali isə razılaşmırdı, vuruşub əks-inqilabçıları azaltmaq istəyirdi.

Doktor dedi: "Mən bilmirəm müstəqillikdən dəm vuran əks-inqilabçılar bu sözün mənasını bilirlər, yoxsa yox. Çox istəyirəm ki, onların böyüklərindən birini görüb bunun mənasını soruşum".

Həmin gün Rza Əsgəri ilə Mehdi Müqəddəmnejad pusqu qurub onlardan ikisini ələ keçirdilər və qolubağlı doktorun yanına gətirdilər.

Ağa Çəmran onlardan soruşdu: "Siz nə üçün vuruşursuz? Bizim sizinlə davamız yoxdur. Bizim bir şeyə yiyələnmək fikrimiz yoxdur".

Əks-inqilabçı kürd dedi: "Biz müstəqillik istəyirik".

Doktor soruşdu: "Müstəqil olub nə edəcəksən?"

Cavab verdi: "İstəyirik ağaclarımızı dərmanlayaq, əkinçiliklə məşğul olaq".

Doktor təəssüf əlaməti olaraq, başını yelləyib dedi: "Təxmin edirdim ki, bunu deyəcəklər. İnqilaba qarşı vuruşmağın birinci növbədə özlərinə ziyan vurduğunu bilmirlər, həm özlərinə, həm də ailə-uşaqlarına zülm edirlər".

Şəhərin mühasirəyə alınacağını eşidəndən sonra hər an bir hadisə baş verəcəyini gözləyirdik. Doktorun əmri ilə bütün kisələri gətirib küçələrdə barrikada qurduq. Bir neçə evi sahiblərinin razılığı ilə qərargaha çevirdik. Onlara dedik ki, əks-inqilabçılar sizi tutsalar, deyin ki, evinizə zorla girmişik.

Qasimlə mən hərəmiz on beş nəfərlik bir komandanın başçısı təyin olunduq, Novsud magistralının iki tərəfinə yerləşdik. Uşaqlar və yerli pasdarlar çox fədakarlıq etdilər. Qasim Tahiri ilə Hüseyn Mahmudi mənimlə idi. Tahiri inqilabın qədim mübarizlərindən idi. O, inqilabdan öncə Şah qvardiyasında olmuşdu, sonra yolunu tapıb inqilabçılara qoşuldu və aqibəti xeyirli oldu. Əlbəttə, Pavəyə Tehran, Həmədan və İsfahandan çoxlu uşaq gəlmişdi, adları yadımdan çıxıb. Qəfurla İmad da çox əziyyət çəkdilər. Onlar peşmərgə kürdlərindən idilər.

Əməliyyatlara Doktor Çəmran rəhbərlik edirdi. O, mənəvi təsəllidən əlavə, hərbi taktikaları da öyrədirdi. Məsələn, deyirdi: “Əmin olmayınca atəş açmayın. Əvvəlcə yerinizi möhkəmlədin, sonra atəş açın”.

Doktorun rəftarı və xarakterləri arifcəsinə idi, hər bir işi bizə dərs idi. Çox vaxt sakit qalardı, bir cümlə deyəndə də ibrətli olurdu. O gərgin günlərdə hirsləndiyini, söyüş verdiyini və ya kiminsə başına qışqırdığını görmədim.

Doktor Çəmran həmin gün pələng dərisi rəngli partizan forması geyinmişdi. "Uşanka" papağı və həmişə çiynində olan kalaşnikov avtomatı ilə çox əzəmətli görünürdü. Təxminən 30 əl qumbarasını qatar kimi çiyin kəmərindən asmışdı. Biz onu saxlayıb dedik: "Ağa, əgər noxud boyda bir qəlpə dəysə, işiniz bitər".

O isə bizə qulaq asmadı. Fikirləşirdim ki, elə qorxulu və vahiməli bir şəraitdə necə soyuqqanlı ola bilir! Bizi ölüm gözləyirdi, o isə bəzən gülümsəyirdi də.

Mən özümü qoçaq hesab edirdim, amma ürəyimdə tufan idi, başımıza nə gələcəyini bilmirdim. Əks-inqilabçı qüvvələrin sayı və silah-sursatı çox-çox idi. O vaxta qədər digər şəhərlərdən və ordudan kömək də gəlməmişdi. Sanki dünyada heç kim bilmirdi ki, biz də varıq və inqilab düşmənlərinə əsir düşmüşük. Düzdür, öz istəyimizlə getmişdik, amma onların öhdəsindən gəlmək üçün köməkçi qüvvələrə ehtiyacımız vardı. Zavallı Pavə əhalisinin də canına qorxu düşmüşdü. Hamı evə girib qapı-pəncərəsini möhkəm bağlamışdı. Heç kimdən səs çıxmırdı.

Mən xaki hərbi forma geyindim, çiyin kəmərimi bərkitdim. Üstündən üç-dörd əl qumbarası düzdüm. Dörd darağı yapışqan lentlə bir-birinə yapışdırdım ki, döyüş zamanı patronum qurtarmasın. Dəbilqə qoymağı isə sevmirdim.

Günbatan çağı əks-inqilabçı qüvvələr hətta bir güllə də atmadan şəhəri tam mühasirəyə aldılar. Bir neçə min silahlı şəhərin bütün ətrafındakı yüksəkliklərə toplaşdı,

jandarmeriya tərəfdən gələn atəş səslərini eşidəndə bildik ki, döyüş oradan başlayıb. Jandarmeriya Novsud magistralının qarşısında yerləşirdi, atəş səsləri bizə yaxın idi. Biz əlimizi silaha aparanda filmlərdə olduğu kimi dağlardan atəş yağışı yağmağa başladı. Biz də cavab atəşi açırdıq, amma yerlərini dəqiq bilmirdik. Hər yer dağ-daş idi, yalnız güllələrdən harada olduqlarını bilirdik.

Dodaqaltı kəlmeyi-şəhadətimi deyib Allahı yadıma saldım. Ətrafımıza bir neçə qumbaraatan və minaatan mərmisi düşdü, sonra jandarmeriya səmtindən bir nəfər səsucaldanla dedi: "Bu gün xəyanətlər üzə çıxacaq. Ey camaat! Ey yerli pasdarlar! Bizim sizinlə işimiz yoxdur. Bizim işimiz Çəmranla, Əsğər Vüsali ilə və gəlmə pasdarlarladır. Biz yalnız onların başlarını istəyirik, digərləri ilə işimiz yoxdur".

Hədə-qorxulardan sonra atəş azaldı və qaranlığa görə təxminən dayandı. Bizim istiqamətimizdə heç kim vurulmadı, amma əks-inqilabçıların təhdidlərindən zarafat etmədiklərini bilib özümüzü toparladıq. Onlar bizi qorxudub təslim etdirmək istəyirdilər.

Gecənin sonlarına yaxın şəhərin müxtəlif yerlərindən atışma səsi gəldi. Mən uşaqları səngərə qoyub Hacı Qasimin yanına getdim. Vəziyyətini öyrənmək istəyirdim. Onu bir cığırda səcdə halında görüb böyük ruhuna heyran qaldım. Olumla ölüm arasında çarpışdığımız zaman gecə namazı qılırdı, belə bir vaxtda da Allahı yaddan çıxarmırdı. Ona baxıb namazını qurtarmasını gözlədiyim yerdə yenə səs gəldi:

"Biz yalnız Çəmranın başını istəyirik. Özünüz Çəmranı verin, iş bitsin. Çəmranla əməkdaşlıq edənlərin hamısını sabah şəhərin meydanında dar ağacından asacağıq!"

Adam həqiqətən, vahiməyə düşürdü. Özümdən asılı olmadan bir neçə dəfə "Bilin ki, qəlblər yalnız Allahı yada salmaqla aramlıq tapar" ayəsini zümzümə etdim. Allahdan istədim ki, namərd hörgütün əli ilə öləcəyəmsə, heç olmasa, ürəyim möhkəm olsun, başıdik ölüm. Min gecəyə bərabər bir gecə idi! Sanki səhər də açılmaq istəmirdi.

Ayaqda qalmaq üçün qorxumu yenməli idim. Hər an gözləyirdim ki, tökülüşüb qəssab bıçaqları ilə başımı kəsəcək, ya da bir güllə ilə işimi bitirəcəklər. Yoldaşlarımızı dəfələrlə belə öldürmüşdülər. Əks-inqilabçı qüvvələr barədə təsəvvürüm belə idi, onlardan yalnız bunu görmüşdüm. Onlar daşürəkliklə adam öldürürdülər, ürəklərində zərrə qədər də mərhəmət yox idi.

Hacı Qasim namaz üstə ikən sübh azanı verildi. Tək-tük bəzi evlərdən "Allahu-əkbər" səsi gəldi. Təhdidlərdən sonra bizə bir qurtum su və ya bir tikə çörək vermək istəyənlər də geri çəkilmişdilər, evlərindən bayıra çıxmağa cürət etmirdilər.

Qasim namazını bitirəndən sonra əlini üzünə çəkib dedi: "Allah zikrini yaddan çıxarmamısan ki, seyid? Burda yalnız Allah zikri və salavat adama əl tutur. On iki dəfə "Ya həyyu, ya qəyyum" de ki, ürəyin sakit olsun".

O zaman Qasimin hər bir halda belə zikrlərlə məşğul olduğuna təəccüblənir, düşmənin qarşısına çıxmaq üçün silah, patron və digər imkanlar axtarırdım, iman xəncərinin daha kəsərli olduğunu bilmirdim.

Hava işıqlanandan sonra birlikdə jandarmeriyaya yola düşdük. Jandarmeriya binasının yanına yerli kürdlərdən və pasdarlardan bir neçəsinin cəsədi düşmüşdü. Onları heç kim götürə bilmirdi, yəni yeri deyildi.

Çəmran jandarmeriya binasında idi, qoluna güllə dəymişdi, sarıqla bağlamışdılar, amma üz vurmurdu. Bizi

görüb dedi: "O dağa çıxıb yalandan döyüş vəziyyəti yaradın ki, helikopter yerə yemək və silah-sursat töksün".

Onun əmrinə uyğun olaraq, şəhərə baxan yüksəkliyə qalxdıq. Ancaq əks-inqilabçılara qarşı nə qədər atəş açırdıqsa, heç bir cavab gəlmirdi. Sanki yenə axşamın düşməsini gözləyirdilər. Gecənin qaranlığında da bir növ xof var, onlar daha asanlıqla və daha sərbəst şəkildə hücum edə bilirdilər.

Təxminən səhər saat 11-də bir ordu helikopteri gəldi, Quru Qoşunların komandanı general Fəllahi və başqa bir neçə hərbçi yerə endi. Helikopterdən bir neçə qutu və sursat da atdılar. Doktorun tərəfindən bir nəfər bir vərəq gətirib generala verdi. General əlyazmanı oxudu, helikopterə minib getdi.

Təxminən günorta saat 3-də iki helikopter gəlib şəhərin üstündə bir dövrə vurdu, xəstəxananın arxasında yerə qondu. Köməkçi qüvvə gətirmişdilər. Helikopterlərin biri qalxanda yanmağa başladı. Biz onu gördük. Pilot özünü yerə atdı, amma taleyinin nə olduğunu bilmədim. Onda Doktor Çəmran Əsğər Vüsaliyə deyirdi: "Yaxşı olar ki, siz də şəhərə baxan təpəyə qalxıb əks-inqilabçılardan mövqe alasınız".

Əsğər Vüsalinin döyüşçülərindən bir neçəsi həmin gün yaralanmış, bir neçəsi şəhid olmuşdu. Onların danışdığı yerdə bir nəfər gəlib dedi ki, əks-inqilabçıların bir qrupu jandarmeriya postuna gəlib ağ bayraq qaldırıb, təslim olmaq istəyirlər. Çəmran cəsarətli və ləyaqətli insan olan və orada qəhrəmanlıq edən jandarmeriya komandiri Ayət Şəbaniyə dedi: "Aldanmayın. Bu, tələdir. Bunlar sülh edən deyillər".

Şəbani qərar qəbul edincə döyüşçülər əks-inqilabçıları əsir tutmaq ümidi ilə onlara yaxınlaşdılar. Ancaq onların

getməsi ilə namərd əks-inqilabçıların atəş açması bir oldu, jandarmeriyanın ən yaxşı döyüşçülərindən bir neçəsi öldürüldü. Lakin Ayət Şəbani leytenant Yusifinin köməyi ilə vəziyyətə nəzarət edə bildi, ərazini fədakarcasına əks-inqilabçıların mühasirəsindən çıxardı.

Həmin günlərdə su, elektrik və rabitə xətləri kəsilmişdi, şəhərin digər yerləri ilə əlaqə yox idi. Xəbər və tapşırıqları da çaparlardan, ya da ağızdan-ağıza eşidirdik.

Yavaş-yavaş sursatımız və yeməyimiz də bitdi, suyu qənaətlə işlətməyə məcbur olduq. Susayanda yalnız dodaqlarımızı isladırdıq. Bütün gecə və gündüzü həyəcanla keçirirdik. Ümidimiz yalnız Allahın köməyinə idi.

Səhv etməsəm, mühasirənin üçüncü axşamında uşaqlardan iki-üç nəfərlə birgə səngərdən çıxıb pasdar evinə sursat gətirməyə getdim. Gördüm ki, iclasdır, Doktor Çəmran, Əhməd Eslimi, Rza Müqəddəm, Hacı Qasim və Əsğər Vüsali ciddi görkəmdə oturublar. Biri deyirdi ki, gərək vuruşaq, biri deyirdi ki, sülh və müzakirə daha yaxşıdır. İclasın ortasında xəbər gəldi ki, şəhər xəstəxanasına hücum ediblər.

Doktor Çəmranla birgə hamımız oraya getdik. Xəstəxananın bütün divarlarını qumbaraatanla dağıtmışdılar. Ora Pavə şəhərinin yeganə xəstəxanası idi, ancaq daha çox kiçik poliklinikaya bənzəyirdi.

Səhnə doğrudan da ürəkağrıdan idi. Xəstələri həyətə çıxarıb bədənlərini parça-parça etmiş, başlarını kəsmişdilər. Binanın içində bir neçə yaralı vardı, qan içində zarıyırdılar. Güman ki, tibb bacısı olan gənc bir qızın böyrünə güllə dəymişdi, güclü qanaxması vardı. O da bir tərəfdə qalmışdı. Bir əsgər İsfahan ləhcəsi ilə kömək

istəyir, qışqırırdı. Əsl qiyamət idi. Yazıq əhali də onlara heyrət və qorxu içində tamaşa edirdi.

Uşaqlar qızın və isfahanlı əsgərin yaralarını bağladılar, sonra onları həyətə çıxardılar. Doktor Çəmran sonsuz dərəcədə narahat idi. Onların başı üstə gəlib dedi: "Nə olursa-olsun, bunları şəhərdən aparacağıq. Cəsədləri də tez dəfn edin, uşaqlar ruhdan düşməsinlər".

Biz doktorun sözünü o zaman yerinə yetirə bilmədik. Oranın pərişan durumu buna imkan vermədi.

Günortadan sonra bir ordu helikopteri gəldi. Heç bir köməkçi gətirməmişdi. Bilmirəm nə üçün gəlmişdi. Ən azı, təzə nəfəsli 40 döyüşçü gətirə bilərdi.

Ucaboy pilot helikopterdən endi. Camaatın köməyi ilə yaralıları qaldırıb helikopterə qoydular. İki kürd qadın da yaralı qızı helikopterə qoydu. Camaat o qədər qorxmuşdu ki, helikopter qalxmaq istəyəndə bir neçə nəfər qaçıb ayağından asıldı. Bəziləri doktorun əl-ayağına düşüb yalvarırdı ki, qoyun gedək, bu axşam hörgüt bizi öldürəcək. Bəziləri də ona ağır sözlər deyir, ağlayır, qışqırırdılar. Yazıqların psixoloji durumları yaxşı deyildi.

Pasdarlar onları helikopterdən uzaqlaşdırdılar. Helikopter yerdən qalxan kimi uzaqdan ona atəş açmağa başladılar. Şüşəsinə bir neçə güllə dəydi, dəlik-deşik oldu, amma düşmədi. Bir qədər irəlidə bir pəri qayaya dəydi, əyri vəziyyətdə uçmağa davam etdi. Deyəsən, pilot vurulmuşdu, helikopteri idarə edə bilmirdi. Böyrü üstə bir yüksəkliyə yaxınlaşdı, pəri yerindən qopdu və oradaca bir yerli pasdarın başını uçurdu. Bir neçə dəqiqədən sonra təpənin başına oturdu, sonra yenə havaya qalxdı. Güllə yağışı altında sağa doğru getdi, xəstəxanadan 100 metr aralıda bir təpəyə çırpılıb möhkəm gurultu ilə yerə düşdü.

Cəld helikopterin yanına qaçdıq. Pilot, pilot köməkçisi və içindəki bütün yaralılar şəhid olmuşdu. Gənc qızın cəsədi helikopterin pəncərəsindən sallanır, uzun sarışın saçı oyan-buyana gedirdi. Cəsədləri helikopterdən çıxardıq, xəstəxanadan təxminən 200 metr aralıda yerli əhalinin köməyi ilə qəbir qazıb qüsl-kəfənsiz dəfn etdik. Jandarmeriyanın işçilərindən biri ad və xüsusiyyətlərini yazdı ki, kim olduqları bilinsin.

Zavallı Pavə əhalisinin başına bəla ardınca bəla gəlirdi. Axşam uşaqlarla Novsud magistralındakı səngərimizə qayıdanda yolda bir neçə kürd cəsədi gördük. Bilmirəm bizimkilərdən idilər, yoxsa əks-inqilabçılardan. Ancaq məlum idi ki, şəhəri tam ələ keçirməkdən ötrü ciddi hücuma keçiblər. Hər halda, silahları, daraqları və bir RPG qumbaraatanı o şəraitdə yaxşı qənimət idi. Hələ yerimizə çatmamış bir kürd gənc qaça-qaça özünü bizə yetirib dedi: "Qayıdın. Hacı Əsğər pasdar evindədir, sizinlə işi var".

Biz yenidən Hacı Əsğərin yerləşdiyi evə qayıtdıq. O dedi: "Hava işıqlaşanda vuracaqlar; özü də pis vuracaqlar. Gərək bunları qabaqlayıb özümüzə yaxşı mövqe seçək. Gedin, yerləşin. Kim bir addım irəli keçə bilsə, bu da qənimətdir".

Sübh namazımızı qıldıq, sonra bütün komandalar bir neçə tərəfdən atəş aça-aça şəhərin bayırına doğru yola düşdü. Dayanmadan avtomat atəşləri gəldiyi yerdə uşaqlarımızdan biri vurulub yıxıldı. Onu sürüyə-sürüyə geri aparmağa başladıq, amma yolun ortasında şəhid oldu. Hacı Əsğərin planı yaxşı idi, əks-inqilabçı qüvvələr bildilər ki, biz bir-iki nəfər deyilik, sayımız çoxdur.

Ertəsi gün vəziyyətimiz çox pisləşdi, sursatımız azaldı. Tək-tək atəş açırdıq ki, bizim orada olduğumuzu bilsinlər. Susuzluq, aclıq və yorğunluq bizi çox incidirdi.

Günorta çağı Hacı Qasimin yanına getdim, yorğun-arğın oturub yavaşca zikr deyirdi. Məni görüb dedi: "Bu gün bir şey gördüm: əks-inqilabçı qadınlar silah götürüb atəş açırdılar. Gör bunlar bizə qarşı nə edirlər!"

– Hə, gördüm. Bəzilərinin əynində kürd paltarı vardı. Adamın öz həmvətənləri ilə vuruşması çox pisdir.

Hər ikimiz yorulmuşduq, toz-torpağın içində idik, Allah-Taalanın lütfündən başqa heç bir şeyə ümidimiz yox idi. Digər uşaqlar da eyni vəziyyətdə idilər. Gecəyə qədər Qasimin yanında qaldım. Biz partizan döyüşlərində əks-inqilabçılara möhkəm zərbə endirmişdik, amma fikirləşirdik ki, görəsən, ordu nə üçün köməyə gəlmir; Məgər ölkənin ordusu yoxdur?! Qorxu ilə ümid arasında çabalayırdıq. Nə o qədər canlı qüvvəmiz, silah-sursatımız vardı ki, qalıb vuruşaq, nə də buraxıb qaçmağı qeyrətimiz qəbul edirdi. Nəhayət, Allahın lütfü ilə səhər çağı səs maneəsinin yarıldığını eşitdik. Başımızı qaldırıb gördük ki, Pavənin səmasında dörd “Fantom” qırıcısı dövrə vurur. Aşağı enib yuxarı qalxdılar, yenə səs maneəsini yardılar. Bununla bir zamanda Pavənin küçə və prospektlərində "Allahu-əkbər" səsi dolaşdı. Camaat deyirdi: "İmam Xomeyni müraciət edib ki, əgər Pavə məsələsi 24 saata həll olunmasa, özüm oraya gedəcəyəm". Sevincdən gözlərim yaşla doldu. Axır ki, bir nəfər bu məzlum insanları yada salmışdı. Sevindiyimdən oradaca şükür səcdəsi etdim.

Təyyarələrin biri üçüncü dəfə şığıyıb dağa bir raket endirdi. Yarım saat keçməmiş dağlarda quş da uçmurdu. Hamısı qaçıb yox olmuşdu. Hacı Əsğər dedi: "Elan edin ki, camaat evlərindən çıxmasın. Yarım saatdan sonra təyyarələr yenə bombardmana gələcəklər".

Əlbəttə, bu söz doğru deyildi, Hacı Əsğər bunu əks-inqilabçıların qəlbinə vahimə salmaq üçün demişdi.

Axşamüstü təxminən saat 6-da xəstəxana tərəfdə yenə atışma başlandı və uşaqlarımızdan bir neçəsi vuruldu. Əks-inqilabçılar hələ müqavimət göstərir, əl çəkmək bilmirdilər.

Biz artıq şəhərə bələd olduğumuzdan yeni gələn döyüşçüləri mövqelərə yerləşdirir, təhlükəsiz, mühüm və strateji yerləri göstərirdik.

Axşamüstü Sənəndəc magistralı təmizləndi, korpus və ordunun piyada qüvvələri şəhərə girdi, evbəev təmizləmə əməliyyatları başlandı.

Doktor Çəmran gecənin sonlarında sağ qalmış partizanları və yerli qüvvələri toplayıb dedi: "Əgər ordunu gözləsək, qalan əks-inqilabçılar qaçacaqlar. İndi Pavə təmizlənib, amma onlar şübhəsiz ki, Novsuda doğru gedirlər".

Döyüşün dördüncü günü gecənin yarısı nə qədər silah-sursatımız qalmışdısa, götürüb helikopterə mindik, Novsuda yola düşdük. Novsud yolu uzun və dolanbac idi, maşınla gedə bilməzdik. Novsuda çatanda şəhərdə təxminən sakitlik idi. Küçələrə tökülüşüb evbəev təmizləmə əməliyyatına başladıq.

Əhali bizi görüb sevindi. Bəziləri təkbir deyir, bəziləri ağlayır, əl çalırdı. Bütün əhali bizim tərəfimizdə idi və bu, qələbənin yarısı demək idi.

Əlbəttə, bəzi evlərdən bizə atəş açılır, əl qumbarası atılırdı. Bəziləri son ana qədər vuruşur, sursatları bitəndə təslim olurdu. Bəziləri də ölənəcən vuruşdu. Əks-inqilabçı qüvvələrin üsulu belə idi.

Günorta çağı hər tayfadan bir neçə nəfər gəlib öz adamlarının cəsədlərini apardılar.

Novsuddakı ikinci günümüzdə Doktor Çəmrandan ayrıldıq.

Mən Qasimlə və uşaqların bir neçəsi ilə birgə bir furqonla Kirmanşaha getdim. Ordunun Banəyə və Sərdəştə göndərəcəyi karvana qoşulmaq istəyirdik. Elə də oldu. Təxminən iyirmi nəfər idik, müstəqil şəkildə Sərdəştə doğru yola düşdük. Hərəkətdən öncə dedilər ki, Sərdəşt şəhəri təxminən mühasirədədir. Şəhərin cəmi bir girişi vardı, o da əks-inqilabçıların nəzarətində idi.

Sentyabrın əvvəlləri idi. Hava yavaş-yavaş soyuyurdu. Gecənin yarısı Sərdəşt şəhərinin girişinə çatdıq. Əbuzər qarnizonuna getmək istəyirdik. Doktor Çəmran və digər yoldaşları orada idilər. Ancaq qarnizon tam mühasirədə idi, maşınla getmək mümkün deyildi; ya helikopterlə getməli idik, ya da piyada. Odur ki, maşını qarnizonun 2 km-liyində saxlayıb atəşə hazır vəziyyətdə yavaşca yola düşdük. Əks-inqilabçı qüvvələrin qarnizondan 150 metr aralıda pusqu qurduğunu da bilirdik.

Gedib qarnizonun yaxınlığındakı bədən tərbiyəsi binasına girdik. Bir saatdan sonra helikopter binanın arxasına gəlib bizi qarnizona apardı.

Gecə saat 1-də qarnizona daxil olduq. Doktor Çəmran pələng dərisi rəngində olan hərbi formasında silahsız bizi qarşılamağa gəldi. Bu adam həmişə dağ kimi möhkəm idi. Birlikdə içəri girdik. Əsgərlərin bir neçəsi maykada istirahət edirdi. Çəmran mühasirənin tez yarılmasını istəyirdi, bunun yollarını axtarırdı. O, Hacı Qasimlə səmimi dost idi. Onunla danışır, fikrini öyrənirdi. Mən onların hər ikisindən kiçik olduğuma görə daha çox dinləyir və əməl edirdim.

Çəmranın danışdığı yerdə birdən bir neçə güclü partlayış səsi binanı titrətdi. Dərhal yerə uzanıb əllərimizi

başlarımıza qoyduq. Qumbaraatan mərmiləri və pulemyot güllələri dayanmadan qapı və divarlara dəyir, şüşələr sınıb ətrafa səpələnirdi.

Doktor sürünə-sürünə silahını götürdü, sonra giriş qapısına doğru getdi. Biz də sürünə-sürünə onun ardınca irəlilədik. Qalxsaydıq, başımız uçardı. Əsgərlər də ardımızca gəlib hərəsi bir tərəfə sığındı. Onların iki-üçünə elə əvvəldə güllə dəydi. Atəş o qədər güclü idi ki, çaxmağı çəkməyə də macal vermirdi.

Doktor dedi: "Əl çəkən deyillər. Gərək birtəhər döyüşü bayıra çıxraq. Yoxsa səhərə qədər vurub binanı başımıza uçuracaqlar. Gərək təşəbbüsü ələ alaq".

Əvvəlcə özü bir qədər qalxıb qaça-qaça binadan çıxdı, sonra qarnizonun girişinə doğru qaçmağa başladı. Arxasınca mən, Hacı Qasim və başqa iki nəfər də qaçdıq. Güllələr əl-ayaqlarımızın arasından keçirdi, ziqzaq şəklində irəliləyirdik. Allahın köməyi ilə salamat keçdik. Ehtiyatla qarnizonun məftil hasarına çatdıq. Sürətlə qapıdan çıxmaq istəyəndə birdən bir neçə ordu pikapının sürətlə qarnizona gəldiyini gördük. Birinin işığı yanırdı. Birincisi hələ qapıya çatmamış böyrünə bir qumbaraatan mərmisi dəydi. Maşın çevrildi, aşa-aşa bir neçə metr aralıda başıaşağı qaldı.

Çoxlu toz-torpaq qalxdı, sərnişinlərin hərəsi bir tərəfə düşdü. Biz yavaş-yavaş, irəli-gerini yoxlaya-yoxlaya onlara yaxınlaşdıq. Əsgərlərin iki-üçü yaralanmışdı. General Fəllahi də orada idi, partlayış dalğasına düşmüşdü, beyni dumanlı idi.

Sübhə qədər tək-tük atəş açdıq. Hava işıqlaşana yaxın nədənsə əks-inqilabçılar dayandılar. Bəlkə də bizim qarnizondan çıxdığımıza və təşəbbüsü ələ aldığımıza görə sayımızın çox olduğunu düşünüb geri çəkilmişdilər. Göz-

gözü görməyən və qarnizona aparmaq üçün yaralıların qollarına girdiyimiz o gərgin anlarda ordu zabiti olan Səyyad Şirazi leytenant Abidi və başqa bir neçə zabitlə helikopterlə gəlib həyətə endi.

Bir neçə dəqiqədən sonra yerli adamımız xəbər gətirdi ki, əks-inqilabçıların Şindera kəndinin 23 km-liyində böyük bir sursat anbarları var.

Hava işıqlaşanda Doktor Çəmran dedi: "Gərək anbara baxaq. Bəlkə də əlimizə yaxşı qənimət keçdi və bu yolla onlara zərbə vura bildik".

Səfa Rəstqari, Səyyad Şirazi və leytenant Abidi ilə birgə helikopterə minib kəndə doğru yola düşdük.

Helikopter Şinderanın yaxınlığında bir təpənin başında oturdu. Ətrafda ev görünmürdü, nəzərdə tutulmuş kəndlə bəlkə də 2-3 km məsafəmiz vardı. Leytenant Abidi, pilot, Səyyad Şirazi və ordu hərbçilərindən biri yerə enib anbarın yerini bilən bələdçini tapmaqdan ötrü öndən getdilər. Deyəsən, bizi gözləyirdi. Bir hərbçi ilə mən də çaxmağı çəkib diqqətlə arxalarınca yola düşdük. Bir qədər irəlidə bir qoca kişi ilə qoca arvad bizə qoşuldu. Səyyad kişiyə dedi: "Əminsiniz ki, bura silah anbarıdır? Əgər doğru desəniz, biz də xəcalətinizdən çıxarıq".

Hələ sözü bitməmiş başımıza güllə yağmağa başladı. Haradan atıldığını bilmirdik. Biz dərədə idik, təpənin üstünü görmürdük. Görünür, qocanın anbarın yerini göstərəcəyini bilib atəş açmışdılar. Ağa Səyyad tapançasını çıxarıb bir neçə dəfə atəş açdı və dedi: "Yetərincə sursatımız yoxdur, çalışın daşların arxasına sığının və kömək gələnə qədər tək-tək atəş açın".

Biz daşların arxasına keçdik, amma heç kimi görmürdük, gülləri daşlara vururduq.

Bizimlə gəlmiş iki hərbçi vurulub qocaların daxmasının önünə yıxıldı. Leytenant Abidi ratsiyadan xəbər vermək üçün helikopterə qaçdı.

Qayıdanda qoluna güllə dəydi, o biri əli ilə qolunu tutub qaça-qaça yanımıza gəldi və biz dərənin içində qaldıq. Bir neçə dəqiqədən sonra helikopter səsi gəldi. Biri öndən, ikisi də arxadan gəlirdi. Bir saat öncə bizim oturduğumuz yerə oturdular. Onlarla təxminən 500 metr məsafəmiz vardı. Çəmran, Hacı Qasim və Rəhim Səfəvi helikopterdən enib əvvəlcə bir qədər söhbətləşdilər. Elə bildik ki, bizə köməyə gəliblər. Ancaq sonra minib getdilər.

Onların bu qəribə hərəkətlərinə təəccüblə dərədən çıxdıq, iki yaralını qaldırıb atəş altında helikopterə qoyduq və geri göndərdik. Sonra yenə anbara doğru yola düşdük. Leytenant Abidi yaralı olsa da, bizimlə gəldi. Digər iki helikopter də bizə fikir vermədən qalxıb getdi. Vəziyyət bu qədər qarışıq idi. Görünür, bizi xilas etməyə gəlməmişdilər. Ağa Səyyad da başıaşağı qalmışdı, heç bir reaksiya vermirdi. Mən indi də bilmirəm ki, onlar nə üçün bizi orada qoyub getdilər.

Günbatan çağı qocalar nə fikirləşdilərsə, heç bir söz demədən işlərinin ardınca getdilər və biz İmad adlı bir kürd bələdçi ilə piyada Sərdəştə yola düşdük. Səyyad təhsilli və peşəkar hərbçi olduğuna görə öndən gedirdi. Arxasınca bələdçi, sonra mən, axırda da leytenant Abidi sıra ilə gedirdik.

Bələdçi kürd və fars dillərini qarışdırıb Səyyada silahları anbardan necə çıxarmalı və hansı yolla qayıtmalı olduğumuzu söylədi.

Səyyad dedi: "Biz ki, hələ silah görməmişik".

Beş saata yaxın dayanmadan yol getdik, hər cür təbii maneələri aşdıq: çay, iri və xırda qayalar, daşlar, dərələr. Nəhayət, uzaqdan Sərdəşt şəhərinin işıqlarının işartısı göründü. Sərdəşt təpə kimi hündür bir yerdə idi və biz yamacda gedirdik. Sərdəştin yaxınlığında yerləşən və şəhərin girişi sayılan Kəltə körpüsünə çatdıq. Orada post vardı. Jandarmeriya patrulu "Dayan" əmri verib parolu soruşdu. Biz parol bilmirdik. Polis düşmən olduğumuzu zənn edib bizi tuta bilərdi. O günlərdə xəbərçi və beşinci kolon üzvü o qədər çoxalmışdı ki, adam öz gözlərinə də inana bilmirdi.

Səyyad ağıllı və istedadlı idi. Bizə dedi: "Bir-birinizi adınızla çağırmayın. Bu məmurların özləri də xəbərçi olub öndən bizə pusqu qura bilərlər".

Biz postdan təxminən 2 km aralıda dayandıq. Səyyad gedib polislə danışdı və bir neçə dəqiqədən sonra postdan keçə bildik.

Təxminən axşam saat 11-də qarnizona çatdıq. Ancaq özümüzün, yoxsa əks-inqilabçıların hərbi mərkəzində olduğumuzu bilmirdik. Bir anlığa fikirləşdik ki, bəlkə biz olmayanda tökülüşüb hamısını öldürmüş və mərkəzi ələ keçirmişlər.

Mərkəzin məftil hasarının arxasında dayandıq. Məftil torunu kəlbətinlə kəsib bizə yol açması üçün bələdçini göndərdik. Bir qədər sonra qayıdıb bizi içəri apardı.

Təxminən iki həftə orada əks-inqilabçıların mühasirəsində qaldıq. Şəxsi heyət gəlirdi, ancaq get-gəl yalnız helikopterlə baş tuturdu. Elə güclü nəzarətdə idik ki, bayıra bir ayaqqabı tayı atanda da hər tərəfdən vurulurdu. Bir neçə "Kalaşnikov" avtomatı və əl qumbarası ilə xirtdəyə qədər silahlanmış min nəfərə qarşı vuruşmaq lazım idi. Həyata ümidimiz hər gün azalırdı.

Gecələr gözümüzə yuxu getmirdi. Gəzişib bayıra baxır, keşik çəkirdik. Bayırla rabitə əlaqəmiz yalnız ratsiya ilə baş tuturdu.

Biz orada Doktor Çəmranın qədrini daha çox bildik. Doktor bizə böyük qardaş, müəllim və bələdçi idi. O qərib bölgədə ona ümid bəsləyirdik. Hərçənd aramızda həmişə hörmət pərdəsi vardı. Doktor münacatı, danışığı, sükutu və soyuqqanlılığı ilə bizə kamil arif nümunəsi idi.

Əks-inqilabçılarla vuruşmaq zarafat deyildi. Soyuq və sərt dağlar, aclıq, yorğunluq və yuxusuzluq adamı zərrə-zərrə əridirdi. Üstəlik, hər an ölümlə əlbəyaxa olurduq. Doktor elə şəraitə alışmış bir arif idi. Hamının yerə yapışıb tərpənə bilmədiyi vaxtlarda ayağa qalxıb irəli gedir, hamını hərəkətə vadar edirdi. Doktorun ruhiyyəsi belə idi. Sərt Kürdüstan da yalnız bunu tələb edirdi.

Mühasirəmizin ikinci həftəsində uşaqların biri xəbər gətirdi ki, əks-inqilabçılar Banədə ölüm bayramı keçirəcəklər. Bu o demək idi ki, bir neçə pasdarı əsir tutublar, bir sürü adam toplaşıb atılıb-düşəcək, oynaya-oynaya uşaqların bağrını yaracaqlar. Lakin Allahın lütfü ilə Səyyad Şirazinin və Rəhim Səfəvinin başçılıq etdiyi ordu və korpus birləşmələri bir neçə gün idi yola çıxmışdı. Onlar söz vermişdilər ki, Sərdəştdən Banəyə gələcəklər. Elə də oldu. Gəlib münafiqlərin və əks-inqilabçıların kökünü kəsdilər, qarnizonu mühasirədən çıxarıb bizi xilas etdilər.

Ağa Çəmran dedi ki, biz də bu karvanla Banəyə getməliyik.

Əbuzər qarnizonundan hərəkət edəndə Əkbər Şirudi ilə tanış oldum.[1] Şirudi helikopter pilotu idi, canlı qüvvə və silah-sursat daşıyırdı. O, ucaboy, enlikürək və göyçək idi. Bilirdim ki, adamların zahiri görkəminin dindarlıqla əlaqəsi yoxdur. Ancaq o elə ulduzlardan idi ki, həm güclü bədəni vardı, həm də güclü imanı.

Salamlaşıb Kürdüstan mövzusuna keçdik, yavaş-yavaş Hafizin divanından söz düşdü və mən bir neçə qəzəlin şahbeytini oxudum. Əkbər məndən üzük və təsbeh barədə soruşdu. Ona əxlaq müəllimi ağa Haqşünasın sözünü dedim. Əkbərin əlində yaxşı bir təsbeh vardı. Soruşdum ki, bu təsbeh nədəndir?

– Şah Maqsuddur, - deyə cavab verib təsbehi mənə uzatdı. Alıb dedim:

– Yox, bu, səndəlusdur, özü də aşağı dərəcəsindən. Mən bir neçə il bunlarla maraqlanmışam. Orijinal Şah Maqsud xətli və şəffaf olmalıdır; gecə suya qoyanda daha da şəffaf olur. Şah Maqsudla səndəlusun yağla arası yoxdur; yağ toxunsa, tez xarab olar.

– Orijinalını çox axtardım. İndi də orijinal bir Şah Maqsud təsbehi axtarıram. Eşitmişəm ki, Şah Maqsud səndəlusdan da qiymətlidir, ən bahalı təsbehdir.

– Orijinal Şah Maqsud buğdayı, qora və ya açıq sidr rəngindədir, kökü Hindistan və Pakistandandır. Bu işlərdə saxtakarlıq çox olur. Yaşıl şüşəni eynilə zümrüd kimi yonub qaş edirlər.

---

[1] Əli Əkbər Şirudi 1955-ci ildə Mazandaran vilayətinin Şirud kəndində doğulmuşdu. O, Quru Qoşunların Aviasiya xidmətinin komandiri idi, hərbi fəaliyyətinə Kürdüstandan başlamışdı. Müharibə başlayanda Sərpol-Zəhabın və Əbuzər qarnizonunun işğalının qarşısını almış, fədakarcasına vuruşmuşdu. O, 1981-ci ilin mayında Bazideraz əməliyyatında şəhadətə qovuşdu.

– Bu işlər təcrübə istəyir.

– Tehranda bir dostum var, bu sahənin ustasıdır. Sənə bir orijinal təsbeh alaram, harda görüş nəsib olsa, verərəm.

Sonra orijinal və birinci dərəcəli Şah Maqsud təsbehimi ona göstərdim, müvəqqəti olaraq, təsbehlərimizi dəyişdirdik.

Əkbər sevinib dedi: "Ağa seyid, əgər şəhid olsam, bu təsbehə görə sənə şəfaət edəcəm".

Ondan sonra onu bir neçə dəfə gördüm, təsbehim əlində idi.

Biz ordunun minnəfərlik karvanının sonuncu qrupu olaraq, yola düşdük. Canlı qüvvəni yük maşınları ilə aparırdılar. Hər beş yük maşınını bir pulemyotlu zirehli maşın müşayiət edirdi. Bütün karvan beş kiçik qrupa bölünüb 500 metrlik məsafələrlə hərəkət edir, hər bir döngə və dolanbacın başında dayanıb əks-inqilabçıların pusqusunun olmadığına əmin olandan sonra yola davam edirdilər.

Yolda ətrafdakı meşələrdən bir-iki dəfə bizə atəş açıldı. Uyğun əmr verilmədiyinə görə cavab atəşi açmadıq, ancaq ordunun snayperləri atəş açırdı.

Üç gün yol getdik. Üçüncü gün qürub çağı bir neçə təhlükəli döngəsi olan Xan dolanbacına çatdıq. Orada dayanmaq əmri verildi. İlk olaraq, ətrafa göz qoymaq üçün bir neçə qarovul qoyduq və hər dörd saatdan bir onları dəyişdirdik. Hacı Qasimlə mən də növbə ilə qarovul çıxdıq.

Ordu hərbçiləri helikopterlə dağın başına canlı qüvvə endirdi, sonra bütün yüksəkliklərdə dövrə vurub nəzarət etdi. Bu, ağıllı iş idi. Əgər əks-inqilabçılar yuxarıda olsaydılar, mütləq karvana atəş açardılar. Ordu bir növ təşəbbüsü ələ alırdı.

Axşam azanından bir qədər keçirdi. Payız fəsli idi, hava tez qaralırdı. Karvanın yarısı Xan dolanbacının arxasına çatmışdı. Döngə onları bizdən ayırırdı, onları görmürdük, xəbərlər ağızdan-ağıza gəlirdi. Doktor Çəmranla Səyyad Şirazi bizə, "Gecəni burda qalacaq, sübhə yaxın yola düşəcəyik" - deyib önə getdilər.

Gecə saat 1-i ötürdü. Biz yuxu ilə çarpışdığımız yerdə birdən ağacların arasından pulemyot və qumbaraatanlardan atəş açmağa başladılar. Uzun sözün qısası, sübh açılana qədər onlar vurdular, biz vurduq. İş o yerə çatdı ki, yoldan çıxıb meşənin içinə girməyə məcbur qaldıq. Qarşı-qarşıya döyüş başlandı, özü də göz-gözü görməyən bir qaranlıqda. Uşaqlarımız çox yaxşı döyüşdülər. Xüsusən də isfahanlı Seyid Əliəkbər Mustəfəvi həmin gecə qiyamət qopardı. Çox cəsur idi. Mərmini dizinin üstünə qoyub təkbaşına atəş açırdı. Əks-inqilabçıların neçə nəfər olduqlarını, harada pusqu qurduqlarını, silahlarının nə qədər olduğunu bilmirdik. Nə qədər patron və mərmimiz vardısa, atdıq. Ancaq mühasirəyə düşdüyümüzdən xəbərsiz idik.

Karvanın qalan hissəsindən xəbərimiz yox idi. Yalnız uzaqdan gələn atəş səslərindən bilirdik ki, ordu da vuruşur. Lakin təşəbbüs əks-inqilabçılarda idi.

Gecənin sonlarına yaxın mühasirəni daraltdılar. Bu həngamədə uşaqların biri dedi: "Öndəkilər getdilər, biz qaldıq".

Bunu eşidəndən sonra məsələni başa düşdük. Artıq bizimlə yolun kənarındakı yüksəklikdə vuruşan uşaqların arasında da məsafə yaranmışdı. Uşaqların cəsədləri ağacların arasına düşmüşdü, yaralılara kömək edə bilmirdik. Atəş yağışı altında çarəsiz qaldıq, əllərimizi başlarımıza qoyub təslim olduq. Tökülüşüb bizi on-on

ayırdılar, qollarımızı iplə bağladılar. Rza Müqəddəm qoçaqlıq edib onların arasından qaçdı və ağacların arasında itdi. Rza gedəndən sonra biz də qaçmaq üçün bəxtimizi sınamaq həvəsinə düşdük. Ancaq tərpənmək istəyən kimi təpiklə və silahların qundağı ilə vurmağa başladılar.

Bir qədər sonra bizi önə keçirdilər, özləri silahla arxamızdan gəldilər. Günortaya qədər dərələrdən və torpaq yollardan keçdik. Tanımadığımız qəribə bir yerdə on dörd nəfərimizi ayırdılar. Mən də onlardan idim. Bizi qolları bağlı tövləyə bənzəyən bir otağa saldılar. Ora bomboş idi, hətta döşənəcəyi və işığı da yox idi. İki kiçik pəncərəsi vardı, oradan azca işıq düşürdü.

Bir neçə dəqiqədən sonra gözlərimiz qaranlığa alışdı. Bir silahlı içməyə bir kanistr su və tualet üçün bir dəmir vedrə gətirdi. Təslim olandan bəri bizimlə çox az danışmışdılar. Bir-birinə kürdcə bir neçə cümlə deyir, bizə sözlərini silahların qundağı ilə başa salırdılar.

Bir neçə dəqiqədən sonra başqa birisi gəlib qollarımızı açdı. Mən uşaqların içində dilli idim, bir az təcrübəm də vardı. Onlara təskinlik verib dedim: "Narahat olmayın, Allah böyükdür. Qismətimiz nədirsə, o da olacaq".

Sonra dedim ki, maykalarınızı çıxarın. Hamımız maykalarımızı çıxarıb bir-birinə düyünlədik və tualet üçün pərdə düzəltdik.

Maykamı çıxardığıma görə əynimdə tozlu bir paltar qaldı. Axşam kəskin soyuq vardı. Soyuqda və bərk yerdə nə qədər etdimsə, yata bilmədim. Bütün uşaqlar eyni vəziyyətdə idilər.

Əlbəttə, orada başqa “rifah” imkanları da vardı. Misal üçün, bizi gündə iki dəfə tək-tək qolları bağlı vəziyyətdə bayıra çıxarıb sorğu-sual edirdilər: "Hara gedirdiniz? Neçə

nəfər idiniz? Nə üçün gedirdiniz?" İnandırıcı cavab verməyəndə də yumruq-təpiklərə və silah qundaqlarına qonaq edirdilər!

Bəzən dindirənlər qadın olurdu - silahlı və yerli paltarda. İri cüssələri vardı, bizi vurub aşıra da bilirdilər. Bəzilərinin əynində hərbi forma vardı, patronları çiyinlərindən aşırmışdılar.

Bizə gündə əl boyda quru çörək və bir vedrə su verirdilər. Uşaqlar təngə gəlmişdilər, qaçmağa yol axtarırdılar. Onlara dedim ki, səbir edin, bizi buraxacaqlar.

Üçüncü gün məni dindirən qadına dedim: "Əgər yaxşı məlumat istəyirsənsə, gərək bir yaşıl işıq göstərəsən".

Qadın kürd və fars dillərini bir-birinə qarışdırıb dedi: "Nə istəyirsən?"

Dedim: "Yer verin, namaz qılaq".

Qadın işarə ilə bir nəfəri köhnə bir palaz gətirməyə göndərdi. Palazı tövlənin bayırında yerə sərdi. İki-iki qollarımızı açdılar, namazlarımızı qıldıq, sonra yenə tövləyə atdılar.

Namazdan sonra qadın məni bayıra çıxarıb dedi: "İndi de, görüm hansı informasiyan var". Mən bu işlərdə təcrübəli idim. Dedim: "Korpus Kürdüstana 50 min döyüşçü göndərib..”.

Uşaqlara demişdim: "Gərək sözümüz bir olsun. Bizdən nəçi olduğumuzu soruşsalar, gərək deyək ki, müəllimik, Quruculuq cihadı tərəfindən dərs deməyə gəlmişik".

Bir gün səhər çağı gəlib dedilər ki, edam hökmünüz gəlib, güllələnməyə hazır olun. Uşaqlara dedim: "Əgər bizi öldürəcəklərsə, elə edək ki, bunların qarşısında zəif görünməyək, möhkəm dayanaq". Uşaqlar sözümü dinləyib zikr deməyə başladılar.

Yarım saatdan sonra iki nəfər gəlib qollarımızı və gözlərimizi bağladı. Bizi bayıra çıxarıb cərgə ilə yerə oturtdular, özləri arxamızda çaxmağı çəkib silahların lüləsini başımıza tuşladılar.

Kəlməyi-şəhadətimizi deyib vurmalarını gözlədik. Artıq ölümü gözlərimiz önündə görürdük. O anda özümü bivecliyə vurub bir neçə dəfə kəlmeyi-şəhadət oxudum. Onlar da kürdcə bir-biri ilə danışırdılar. Deyəsən, biri ratsiya ilə danışırdı. Uşaqlarımızın biri az-çox kürdcə bilirdi, amma onun sözlərindən baş açmırdı. Onlar kodla danışırdılar.

Bir neçə dəqiqədən sonra dedilər ki, bəxtiniz gətirib, sizə bir gün də möhlət verəcəyik. Bizim dostlarımızdan bir neçəsi sizinkilərin əlindədir. Onları buraxsalar, biz də sizi azad edəcəyik.

Bizi yenə tövlə zindanına apardılar və ertəsi gün hava qaralana qədər yoxa çıxdılar. Bütün gecəni qorxu içində qaldıq, zikr və dua ilə özümüzü sakitləşdirdik. Bizi o qədər əzabda saxladılar ki, yerimizdə kim olsaydı, ürəyi partlayardı.

Günbatan çağı yenə gəlib bizi əli və gözü bağlı bayıra çıxardılar. Bir saat keçəndən sonra qollarımızı açıb dedilər ki, oturun. Əlbəttə, fikirlərini daha çox silahın qundağı ilə çatdırırdılar. Bizi yerə oturdub özləri arxamızda dayandılar, sonra dedilər: "Biz sizə baxırıq. Hər kəs qarşıdakından tutsun, 10 dəqiqədən sonra gözlərinizi aça bilərsiz".

Biz 10-15 dəqiqə hərəkət etmədik. Sonra gözlərimizi açdıq. Dönüb gördük ki, dərə kimi bir yerdəyik, həmin kürdlərdən əsər-əlamət yoxdur.

Aramızdakı kürd əsilli oğlan dedi: "Biz Qaran dolanbacındayıq, Qaranın şimalında Saqqız yerləşir. Ora qədər üçsaatlıq yolumuz var".

Gecənin yarısı onun arxasınca düşdük, səhərə yaxın Saqqıza çatıb qarnizonda dostlarımızı tapdıq. Yuyunub namaz qıldıq, bir qədər özümüzə gəldik. Dostlar əsirlikdən soruşdular, biz də danışdıq. Orada bildik ki, fədai böyüklərindən yeddi nəfər korpusda əsir imiş. Onları biz on dörd nəfərlə dəyişdiriblər. Bizim bəxtimiz onda gətirmişdi ki, bölgü zamanı fədailərə düşmüşdük. Əgər bizi hörgüt aparsaydı, sağ qoymaz, mütləq güllələyərdi.

O zaman fədai partizanlar az idilər. Bu nəticəyə gəlmişdilər ki, silahı yerə qoyub mədəni-ideoloji işlər görsünlər. Onlar hörgütlə yollarını təxminən ayırmışdılar. Həmin gün hörgütün əlinə keçən iyirmi nəfər isə güllələnmişdi.

Günortadan sonra Tehrana zəng vurub Hacı Qasimi tapdım. Qasim dedi: "Biz elə bildik ki, sizi öldürüblər. Sizi çox axtardıq. İş bitib, Banə də təmizlənib. Sən də tez gəl, evdə narahatdırlar".

Yol təhlükəli olduğuna görə gecəni Saqqızda qalmağa məcbur olduq. Dedilər ki, səhər saat 8-dən günorta 3-ə qədər jandarmeriya və ordu yollarda hər 3 km-dən bir qarovul çəkir və təhlükəsizliyi müəyyən həddə təmin edir. Saat 4-dən sonra isə maşınla gedib-gəlmək mümkün deyil. Yoxuşlarda maşının sürəti azalanda böyrünə bir güllə vurub dayandırır, maşından endirirlər. Qoçaqlıq etmək istəyənləri də bir güllə ilə bitirirlər.

Saqqız qarnizonunun uşaqlarından biri dedi ki, bir gün ordunun maşını postlardakı uşaqları gətirməyə gedəndə əks-inqilabçı qüvvələr qarşısını kəsir, sürücünü və yanındakı mühafizəçini tutub yerinə ordu forması

geyinmiş öz döyüşçülərini oturdurlar. Beləcə yolda gedə-gedə qarovul uşaqlarını toplayıb aparır və öldürürlər. Uşaqlar axşam qarovulların postlardan qayıtmadıqlarını bilirlər. Bir neçə gündən sonra cəsədlərini bir-bir yolun ətrafından və dərələrdən tapırlar.

Buna görə gecəni qaldıq, səhər çağı mikroavtobusla Tehrana getdik.

# Altıncı fəsil

Özümə söz verdim ki, bir müddət evin kişisi olum, həyatımla maraqlanım. Bir neçə ay idi rahat yata bilmir, düz-əməlli bir şey yemirdim. Hətta rahat bir namaz üzü də görməmişdim. Hər dəfə səcdədən qalxanda qəfil bir güllə ilə vurulacağımı gözləyirdim. Ev üçün həqiqətən darıxmışdım.

Fatimə xanımın bişir-düşürünə söz ola bilməzdi. Xüsusən dəm xörəkləri çox əla idi. Heç bir yemək ev yeməyinə çata bilməz!

Bir gün günorta yeməyində dedi: "Qadın bərbəri kursuna getmək istəyirəm".

– Niyə?

– İstəyirəm ki, maddi vəziyyəti yaxşı olmayan gəlinləri pulsuz bəzəyim, beləliklə, yoxsul ailələrə kömək edim. Çoxlarının buna da imkanı çatmır.

– Eybi yoxdur. Mənim fikrimcə, qadın dülgərliyi də bacarmalıdır. Hər şey bilməlidir ki, kiməsə möhtac olmasın. Ancaq alət olmamalıdır. Qadının cəmiyyətdə hörməti var...

Onu həqiqətən tanıdığıma, bacarıqlı və cəsarətli olduğunu bildiyimə görə bunları dedim. Bir neçə gündən sonra bir kursa yazıldı və çox tezliklə sertifikatını aldı. O, qərara gəldiyi hər bir işin axırınacan gedirdi. İşində uğursuzluq ola bilməzdi. Hətta dindarlıqda və mənəviyyatda da məndən öndə idi. Mən heç vaxt ona çata bilmədim. Çox vaxt oruc tutur, bekar olanda Quran oxuyurdu. Məscid imamının köməyi ilə məhəllənin qadınlarını ekskursiyaya aparır, xeyir işlərdə önə keçirdi. Məhəllə sakinləri ona inanır, xeyriyyə üçün pul verirdilər. O, pullu ailədən gəlmişdi, gözütox idi, həmişə deyirdi: "O tərəfi görmüşəm, nə olduğundan xəbərim var. Hamısı puç, mənasız şeylərdir".

Bilmirəm nə hikmət idisə, biz iki fərqli dünyadan çıxıb bir-birimizə rast gəlmişdik və o mənim əxlaq və irfan müəllimim olmuşdu.

19 sentyabr 1980-ci ildə Nazirlər Kabinetində oturmuşdum. Radiodan elan olundu ki, iraqlılar sərhədi keçib bir neçə şəhəri tutublar, Mehrabad hava limanını bombalayıblar və müharibə başlayıb. Əvvəlcə inanmadım, çox təəccübləndim. Cəmi bir neçə ay idi evə qayıtmışdım.

Ertəsi gün bütün uşaqlar dilxor idilər. Hacı Qasim məni çağırıb dedi: "Xəbərləri eşitdin?"

– Hə.

– Biz Əhvaza gedirik. Sən də gəlirsənsə, tez hazırlaş.

– Doktor Çəmran necə? O da gəlir?

– Onlar səhər tezdən getdilər.

– Mən də varam. Amma gərək əvvəlcə evə zəng vurub xəbər verim.

– Zəng nədir, seyid?! Yoldan zəng vurarıq.

Sözünün üstünə söz deyə bilməzdim. Hacı həmişə bir cümlə ilə adamın həyatını alt-üst edirdi. Bilirdim ki, ailəyə bağlılığımızı azaltmaqdan ötrü bu sözləri deyir.

Günortaya yaxın Hacı Qasimlə və Nazirlər Kabinetində işləyən uşaqlardan on-iyirmi nəfərlə birgə heç bir hazırlıq görmədən üç maşına doluşub əliboş Əhvaza yola düşdük.

Yolda adını xatırlamadığım bir şəhərdə dayandıq. O zaman evdə telefonumuz yox idi. Rza Təlagilə zəng vurdum. Bizim yan qonşumuz idilər. Anası dəstəyi götürdü. Xahiş etdim ki, anamı çağırsın. Bir neçə dəqiqədən sonra yenə zəng vurdum. Dedi: "Anan yoxdur. İndicə qapının önündə idi, bilmirəm hara getdi. Əgər imkan olsa, bir saatdan sonra zəng vur".

Yolumuza davam edib günortadan sonra Xürrəmabada çatdıq. Orada çox əziyyətlə bir poçt tapdım və yenə Rzagilə zəng vurdum. Bu dəfə dəstəyi anam götürdü. Salamlaşandan sonra dedim: "İraq məsələsidir. Dördnala çapırlar. Mən işdən Əhvaza gedirəm. Dedim ki, sizə xəbər verim".

– Kimlərlə gedirsən?

– Hacı Qasimlə və Nazirlər Kabinetinin işçiləri ilə.

– Sənin də payın var, gərək gedəsən. Allah yar olsun!

Sağollaşdıq. Fatimə və Pəri nənə ilə danışmağa imkan olmadı. Uşaqlar gözləyirdilər.

Ertəsi gün günorta çağı Əhvaza çatdıq. Günəş adamın gözünü çıxarırdı. Hava çox isti idi. Cənubun istisinin heç kimlə zarafatı yoxdur. Bu tərəfdən gedən yolda tək-tük maşın vardı, o tərəfdən isə sanki sel gəlirdi; əşyaları, hətta toyuq-cücələri kiçik və böyük yük maşınlarına yığıb şəhəri boşaldırdılar. Maşın tapa bilməyənlər piyada gəlirdi. Qadın, uşaq və qocalar gücləri çatan hər bir şeyi götürüb

gedirdilər. Hara getdiklərini özləri də bilmirdilər; başqa bir şəhər, təhlükəsiz bir yer axtarırdılar.

Şəhərdə bütün mağazalar bağlanmışdı, tək-tük açıq yerlərdə çay verirdilər. Şəhər qəribə tərzdə sakit idi. Bəzi evlər uçmuş, yerində torpaq təpəsi qalmışdı.

İki-üç küçədən keçib qaraj kimi bir əraziyə çatdıq. Qasim dedi ki, bura Tehrandan gələn qüvvələrin yeridir.

Yorğun olduğumuza görə gecəni həmin qarajda yatdıq. Səhər tezdən Karun çayının arxasında yerləşən və Çəmranın başçılıq etdiyi şəxsi heyətin qərargahına çevrilən Əhvaz valiliyinə getdik.

Valiliyin qapısının ağzında Nasir Fərəcullahı gördüm. Qonşumuz idi, Çəmranın adyutantı olmuşdu. Ucaboy, enlikürək, yaraşıqlı və sonsuz dərəcədə ürəkli idi. Hər bir işi bacardığına görə Doktor Çəmran ona Fransız açarı deyirdi.

Onunla salamlaşdıq. Bir saat həyətdə dost, tanış və qonşu ardınca gəzişdik. Axırda Nasir bizi çağırdı, 10-15 nəfərlə birgə Doktor Çəmranın otağına toplaşdıq.

Hacı Qasim doktorun yanında oturmuşdu, otağın ortasına bir xəritə sərilmişdi. Doktor bizi görüb ayağa qalxdı, çox səmimi şəkildə salamlaşdıq, əhvalımızı soruşdu və dedi: "İraqlılar başlarını aşağı salıb Xürrəmşəhr tərəfdən Əhvaza doğru gəlirlər. Jandarmeriya onların qarşısını ala bilməyib. Hələlik əlimizdən gələn yalnız partizan müharibəsidir. Onlara zərbə vurub irəliləmələrinə mane olmalıyıq".

Bir nəfər soruşdu: "İndi hardadırlar? Bizdən nə qədər uzaqdadırlar?"

Doktor dedi: "Həmidiyyənin 2-3 kilometrliyindədirlər. Hər cür silahları var. Biz onların hədəfindəyik. Siz hər şeydən öncə maşınları örtməlisiz. Onları başdan-ayağa

palçığa bələşdirin ki, düşmən görə bilməsin. Hər bir işi qrup komandirinizlə razılaşdırın. Kəşfiyyat aparmadan düşmən mövqelərinə girməyin. Əgər 1 metr də irəliləmək istəyirsinizsə, öncədən gedib əraziyə baxın, məlumatlı şəkildə hərəkət edin ki, az itki verəsiniz.

Soruşdum: "Bəs ordu nə edir?"

- Mən 92 saylı zirehli diviziyanın komandiri ilə danışdım. Onlar iraqlıların qarşısını almağa çalışırlar, ancaq İraq ordusu çox hazırlıqlı və güclüdür. Digər tərəfdən, bizim ordumuz Bəni-Sədrin əmrindədir. Görək o nə qərara gələcək. Onun fikri budur ki, iraqlıları buraxaq, gəlsinlər, sonra mühasirəyə alıb qayçılayaq.

- Hər yeri vurub-dağıdandan, camaatın arvad-uşağını öldürəndən sonra mühasirənin nə faydası?! Məgər onları belə asanlıqla çıxarmaq olacaq?

Bir saat söhbət getdi, fikir mübadiləsi apardıq. Doktor Çəmranın otağından çıxanda uşaqlar gedib torpaq gətirdilər. Mən də qollarımı çırmayıb onlara qoşuldum. Torpağın üstünə su töküb duru bir palçıq hazırladıq, maşınların üstünə və yanlarına sürtdük.

Təxminən səhər saat 10-da Nasir bizi çağırıb dedi: "Doktor deyir ki, hazır olun, Həmidiyyəyə kəşfiyyata gedirik".

Əhvazdan Həmidiyyəyə yalnız bir yol vardı, Süsəngird və Hüveyzədən keçirdi. Kənd əhalisinin sadə palçıq evləri yerlə-yeksan olmuşdu, tarlaları və xurmalıqları yanmışdı. Əhalinin çoxu piyada şəkildə bölgəni tərk edir və ya sığınacaq axtarırdı.

Maşınları Həmidiyyənin yaxınlığında düşmənin hədəfində olmayan bir yerə qoyub 100 metr irəlidəki alçaq təpənin başına çıxdıq. Həmidiyyə oradan görünürdü.

Doktor durbini götürüb ətrafa baxdı, sonra bxmaq üçün bir-bir hamımıza verdi.

Durbin mənim əlimə keçən kimi gözlərimə qoyub baxmağa başladım. Gözünüz pis gün görməsin! Bizdən 6-7 km aralıda sıx-sıx tanklar dayanmışdı; eynilə oyuncaq tanklar kimi. Sanki manevrə baxmağa getmişdik. Bir neçə dəqiqə hamımız sakit qaldıq. Tankların lüləsi bizə doğru baxırdı. Onlarla nə edəcəyimizi, vəzifəmizin nə olduğunu bilmirdik. Son sözü Doktor Çəmran deməli idi. Biz belə bir müharibə görməmişdik; əlimiz boş, önümüz tankla dolu idi.

Doktor görkəmimizdən hisslərimizi anladı, durbini alıb dedi: "Görün hardan harayacan tank düzüblər! Bizimçün bir dəmir divar hörüblər. Onlar heç nədən qorxmurlar. Səddam deyib ki, üç günə Əhvazdayıq. Yəni sabah Əhvazda olmalıdırlar. Üstəlik, sərhəd bölgələrdə yaşayan ərəblərin bir qismi iraqlılarla qohumdur, qız alıb, qız vermişlər. Onlardan bir şey gözləmək olmaz. Bizim buldozerimiz olmalı, möhkəm torpaq istehkamlar qurub tankların yolunu kəsməliyik. Dövlət də elan edib ki, kim bacarırsa, gəlib vuruşsun, ötən illərdə hərbi xidməti başa vuranlar yenidən qayıtsınlar".

Bunu deyən kimi qulaqlarımı şəklədim. Mən hərbi xidmətdən qaçmışdım, amma döyüş bölgəsində olduğuma görə bu baxımdan arxayın idim.

Bir-iki saatdan sonra valiliyə qayıtdıq.

O qədər tankı, uçqunu və xalqın didərginliyini gördüyümüz üçün hamımız böyük qəm-kədər içində idik.

Valiliyin önündə bir neçə avtobus dayanmışdı. Könüllü qüvvələr gəlmişdi. Şapur komitəsinin uşaqlarından biri də avtobusun önündə dayanıb uşaqları yerbəyer edirdi. Uca

boyu vardı, belinə yaşıl şal bağlamış, başına yaşıl papaq qoymuşdu. Görünür, seyid idi.

Çəmran yaxınlaşıb onun kürəyindən vurdu və dedi: "Yorulmayasız! Siz uşaqlarınızı götürüb Abadan və Hüveyzə səmtinə gedin. İslam fədailəri ordadırlar, köməkçi qüvvələrə daha çox ehtiyacları var".

Bu zaman Əhvaz korpusunun uşaqlarından bir neçəsi Həmidiyyə qarnizonundan gəldi. Hamısı yerli idi; Əhvazın özündən və Hüveyzənin ətrafındakı şəhərlərdən. Doktor Çəmran onlara dedi: "Gedin, daşın altından da olsa, buldozer tapın. Buldozer olmasa, heç bir iş görə bilmərik".

Bir gənc Əhvaz ləhcəsi ilə dedi: "Biz adi maşın tapa bilmirik, o ki qala buldozerə!"

Doktor dedi: "Mən inqilab müavini ilə danışdım, dedim ki, nə qədər maşın varsa, gətirin".

Ertəsi gün Hacı Qasim başçıların bir neçəsini Kərəcə könüllü qüvvə gətirməyə göndərdi. Həmin gün axşamüstü təxminən 100 nəfər gəldi. Doktor onları görüb çox sevindi.

Hacı Qasim hamımızı valiliyin həyətinə toplayıb dedi: "Özünüz komandalara bölünün və aranızdan bir nəfəri komandir seçin".

Hər biri 33 nəfərlik üç komandaya bölündük. O vaxt komandir olmaq poqona, rütbəyə və ya savada görə deyildi, kim daha dilli, daha cəsur idisə, komandir olurdu.

Doktor xəritəni açıb mövqeləri başa saldı. Dubb-Hərdan, Şimriyyə, Dehlaviyyə, Tərrah və Kərxəkur İraq sərhədinə ən yaxın bölgələr idi. Oralar gündə min mərmi və raketlə vurulurdu.

Üçüncü və dördüncü gündən Hacı Qasimlə birlikdə Zülfüqariyyə istiqamətinə getdik. Orada yenidən ərazini böldük və mən daha kiçik bir komandanın başçısı olub Fərəsiyyə istiqamətinə getdim. Hüseyn Mahmudi ilə

Məhəmməd Nəcəfi də mənimlə idilər. Hüseyn Mahmudi iri və kök idi, uşaqlar ona "Toppuş Hüseyn" deyirdilər. Orada səngər qazmaq, qarovul çıxmaq və ətrafı müşahidə etmək lazım idi. Fərəsiyyə Dubb-Hərdanın önündən 2 km aralıda idi, bir tərəfi Əhvaz-Xürrəmşəhr magistralına, bir tərəfi də Kut-Abdullaha gedirdi.

Biz həmişə hədəfdə idik. İraq tərəfi oranı gecə-gündüz vururdu və biz onları görürdük.

Səddam ilk bir neçə gündə Əhvazı almaqdan ötrü çox çabaladı. O, bütün gücünü Əhvaz-Süsəngird və Əhvaz-Abadan magistrallarına səfərbər etmişdi. Axırda onların bəzi hissələrini aldı. Onlar yalnız qumluqlarda zəif idilər, manevr edə bilmirdilər. Qəzvinin 16 saylı zirehli diviziyası da oraya gəlib yaxşı kömək etdi. Kərxəkur istiqamətinə Seyid Məhəmməd Müqəddəmpur başçılıq edirdi. Orada digər yerlərdən daha qızğın döyüş gedirdi. Süsəngird-Dehlaviyyə istiqaməti mayor İrəc Rüstəminin nəzarətində idi. O, cəsur zabitlərdən və Doktor Çəmranın inandığı şəxslərdən idi. Texnika baxımından iki minaatanımız vardı, hər istiqamətə iki pulemyot qoymuşduq. Onları bizə ordu vermişdi. Doktor buldozerə tapşırmışdı ki, Zülfüqariyyədən və Abadanın yeddinci stansiyasından Fəyyaziyyəyə və Kut-Seyid Salehdən Dubb-Hərdana, Kərxəkura və Həmidiyyəyə qədər möhkəm torpaq istehkam qursunlar. Bununla düşmənin Əhvaza doğru yolu təxminən kəsiləcək, əl-qolu müəyyən həddə bağlanacaqdı.

Mən təxminən hər gün doktoru görürdüm. O, istiqamətlərə və uşaqların səngərlərinə baş çəkirdi. Bəzən də mən valiliyə gedirdim, orada görüşürdük. Doktor vaxtının çoxunu Kərxəkur istiqamətində və ətraf kəndlərdə keçirirdi. İraq da oranı güclü atəşə tuturdu.

Bir gün valiliyə getdim. Doktor məni görüb soruşdu ki, seyid, vəziyyət necədir?

– Tankları vurmağa çalışırıq, - deyə cavab verdim.

– İndi problem tanklardır. İstiqamət və məsafələr elədir ki, onları asanlıqla vura bilmirik. Sayları da hər gün artır. Bu gün beynimə bir fikir gəldi.

– Nə fikri, ağa?

– Bizim bir neçə yarış motosikletimiz və peşəkar motosikletçimiz olsa, tankları vura bilərik.

Mənim də beynimə bir fikir gəldi. İstədim ki, söyləyim və ömrümdə ilk dəfə Hacı Qasimi arxa plana keçirim. Doktora dedim: "Ağa, mənim də bir fikrim var, sizə deyərəm".

Onunla sağollaşıb aşağı endim və sözümü söyləmək üçün ətrafının boşalmasını gözlədim. Pilləkənin yanında dayanmışdım. Hacı Qasim məni çağırıb dedi: "Mən də razıyam, seyid can".

Təəccüblə dedim: "Nə ilə?"

– Doktora demək istədiyin fikirlə.

– Əgər razısansa, onda sən söylə.

– Yox, gəl, birlikdə gedək.

Bir neçə dəqiqədən sonra birlikdə Doktor Çəmranın otağına getdik. Qasim doktora dedi: "Dediyiniz motosikletçiləri seyid tanıyır, ancaq hamısı oğrular, yolkəsənlərdir".

Doktor mənə baxıb dedi: "Hə, seyid? Qasim düz deyir?"

Dedim: "Bəli, ağa, tanıyıram".

Doktor dedi: "Elə mənə də hır-zır bilməyən adam lazımdır. Bu gün Tehrana get. Hələlik bu iş hər şeydən vacibdir. Görüm nə edirsən! Allah köməyin olsun!"

Həmin gün Məhəmməd Nəcəfinin idarə etdiyi maşınla məhəlləyə, birbaş Cəlil Nəqqadın yanına getdim. O, qonşumuz idi. Yaşı az, özü arıq, amma çox çevik idi, məhəllədə hörməti vardı. O, "Ayağıqısa Cəlil" kimi məşhurlaşmışdı. Qardaşı Xalq Mücahidləri Təşkilatından olmuşdu, özü isə imanlı və əxlaqlı idi, motosiklet sürməyi çox sevirdi. Köhnə motosikletləri təmir edib satırdı. Bütün həyatı motosikletlə idi. Bir göz qırpımında motosikletin bütün içalatını çıxarır, sonra bir-bir yığırdı. Özünün də böyük bir yarış motosikleti vardı. Mən göyərçinlərimi sevdiyim kimi o da motosikletini sevirdi.

Həmin gün salamlaşıb hal-əhval tutandan sonra tank ovu barədə məlumat verdim, onu cəbhəyə getməyə razı saldım. Sonra motosikletinin tərkinə oturdum, birlikdə Mövləvi məhəlləsinə dostlarının yanına getdik. Onları toplayıb dedim ki, sabah səhər saat 8-də Nazirlər Kabinetinin binasına gəlin. Sonra evə getdim.

Ertəsi gün səhər tezdən Nazirlər Kabinetinə yollandım. Hamısının yarış motosikleti olan əlli nəfər gəlmişdi. Nazirlər Kabinetinin Müharibəyə ezam şöbəsinin müdiri uşaqların görkəmini süzüb dedi: "Bunlar müharibəyə yaramırlar. Bunlar kimdir ki, toplayıb gətirmisən?! Məgər cəbhə “Qeysər” ayaqqabısının yeridir?!"

Çox hirsləndim. Yaxasından yapışmaq istədim, amma özümü saxladım. Dalaşmaq yeri deyildi. Əhvaz valiliyinə zəng vurub məsələni olduğu kimi Hacı Qasimə danışdım. Hacı zəng vurub problemi həll edənə qədər bir saat keçdi. Dəmir yol vağzalı da motosikleti sərnişin qatarında Əhvaza aparmağa razılıq verdi.

Ertəsi gün Əhvaza çatdıq. Motosikletləri pikaplara qoyub valiliyə apardıq.

Doktor Çəmran uşaqları bir-bir qucaqladı, hamısı ilə özləri kimi, öz jarqonları ilə salamlaşdı. Uşaqlar ilk görüşdən onu çox sevdilər və sözlərini dinləməyə başladılar.

Doktor mənə dedi: "Necə igidlər gətirmisən, seyid! Bərəkallah sənə!" Sonra motosikletçilərə dedi: "Biz motosikletlərizin tərkinə bir qumbaraatan oturdacağıq. Düşmənin içinə girəcək, imkan daxilində tanklara yaxınlaşacaqsız. Münasib bir yerdə motosikleti saxlayırsız, qumbaraatan tankı vurub çox cəld motosikletə minir və geri qayıdırsız. Bundan ötrü çox sürət və diqqət lazımdır".

İclasdan sonra motosikletçiləri Qasimə tapşırdım. Özüm Fərəsiyyə istiqamətinə getmək istəyirdim. Binanın qapısından çıxanda doktor məni çağırıb dedi: "Seyid can, əllərinə sağlıq! Allah kömək etsə, müdafiə vəziyyətimiz çox yaxşı olacaq. Partizan döyüşlərində ümidimiz xalqadır".

Dedim: "Ağa, bunların görkəminə baxmayın, hər biri on iraqlıya cavab verər. Həm qəlbləri pakdır, həm də cəsurdurlar".

– Bilirəm nə demək istəyirsən. Bunlar ləl-cəvahiratdırlar - palçığa düşmüş cəvahirat. Hamısının qəlbi pakdır, kökləri var, amma kök salmaları üçün bir yer lazımdır.

– Bilirsiz, ağa, bir şey var, sizə deməyə üzüm gəlmir. Bu uşaqların yarısı cinayətkar məhəllələrdəndir, oğru və yolkəsəndirlər, amma bizim sözümüzü eşitdilər.

– Biz döyüş adamı istəyirik, vəssalam!

Ağa Çəmranla sağollaşıb Fərəsiyyəyə qayıtdım.

Könüllü qüvvələr arasında iyirmi-otuz livanlı da vardı. Doktorun döyüş yoldaşı olmuş, onunla birgə İrana

gəlmişdilər. Hamısı peşəkar döyüşçülər idi; həm vuruşurdular, həm könüllü qüvvələrə tank vurmaq və digər döyüş təlimləri keçirdilər. Doktor kimi onların da əynində pələng dərisi rəngində hərbi forma vardı, bəzisi boynuna çəfiyə şalı da atmışdı. O zaman hələ çəfiyə geniş yayılmamışdı, yalnız livanlılar və yerli ərəb döyüşçülər istifadə edirdilər.

Səhv etməsəm, müharibənin üçüncü günündə livanlıların üç şəhid verdiyini və iki tank vurduğunu eşitdim.

Livanlıların birinin adı Əliabbas idi, yaxşı tank vururdu. Çəmrana hamıdan yaxın idi, farsca da çox yaxşı danışırdı. Bizimlə səmimi dost olmuşdu. Özümüzdə peşəkar döyüşçü az olmasa da, qərara alındı ki, motosikletçilərə tank vurmağı Əliabbas öyrətsin.

Bir həftə idi müharibə başlamışdı, cəbhə adamla dolu idi. Hələ nizam-intizam yaradılmamışdı. Yeni gələnləri bir-iki gün saxlayırdılar ki, özünə gəlib bölgə ilə tanış olsun. Həmin günlərdə Əhvazdakı məktəbləri boşaldıb könüllü xalq qüvvələrini yerləşdirdilər. Sonra dedilər ki, istiqamət komandirləri geridəki düşərgələrini özləri təyin etsinlər. Hər bir istiqamət komandiri könüllü qüvvələrini öz mərkəzinə aparmalıydı. Mən məhəlləmizdən gəlmiş və tanıdığım uşaqları Mehrayin məktəbinə yerləşdirdim.

Hərbi forma və silah olanda verirdim. Hər gün sübh namazından sonra onları döyüş yerinə aparır, yaralıları və hər hansı kömək istəyənləri özümlə gətirirdim. O zaman silah və hərbi forma yetərincə deyildi, daha çox torpaq rəngli kürd şalvarı verirdilər. Silahlar əsasən J3, M1, "Kalaşnikov" və əl qumbarasından ibarət idi. Bəziləri hərbi forma geyinmədən silah götürüb gedirdi. Mən özüm çox vaxt xaki kürd şalvarı geyinir, ayağıma parça

ayaqqabı keçirirdim. Başıma dəbilqə qoymağım isə qeyri-mümkün idi.

Bir gün səhər çağı Hacı Qasim məni çağırıb dedi: "Bu məktubu Doktor Çəmran yazıb. Tez 92 saylı zirehli diviziyaya get, bir neçə RPG qumbaraatanı borc al".

Uşaqların biri ilə furqona minib diviziyaya getdik. Günorta saat 12-yə qədər Silah-sursat şöbəsinin sədrinin otağının önündə gözlədik, sonra bir otaqdan o birinə getdik, ona-buna dedik. Kim qumbaraatan istədiyimizi eşidirdisə, gülüb gedirdi.

Günorta azanı verildi. Günorta yeməyinə rizə küftə vardı. Bizim də hərəmizə bir metal boşqab verdilər. Bir ağacın altında oturub yedik. Günortadan sonra nəhayət, bir əsgər bir qumbaraatan kisəsi ilə gəldi, amma mərmi yox idi.

Dedim: "Bəs mərmisi hanı? Mərmi olmasa, nə işə yarayar?!"

Əhvaz ləhcəsi ilə dedi: "Sənə nə?"

Dedim: "Mən bunları apara bilmərəm, dadaş. Hara aparım?! Məgər ağlım çatmır?!"

Mən dedim, əhvazlı dedi, axırda qumbaraatanları furqonun arxasına qoyub qayıtdıq.

Günbatan çağı valiliyə çatdıq. Mərmi məsələsini Hacı Qasimə söyləyəndə gülüb dedi: "Eybi yox. Mərmisini də iraqlılardan alarıq".

Ağa Xamenei o zaman İmam Xomeyninin nümayəndəsi idi, bəzən cəbhəyə döyüşçülərə baş çəkməyə gəlirdi. Bir axşam ağanın Riqabiyyə istiqamətinə gəldiyini eşitdim. Mən də onu görmək istəyirdim. Riqabiyyəyə gedib gördüm ki, əynində hərbi forma səngərləri gəzir, uşaqlarla söhbət edir. O, arıq, ucaboy, şuxtəb və gülərüz idi. Uşaqlarla zarafat edir, onları güldürürdü.

Sonra ağa Çəmranla, Nasir Fərəcullahla və Qasimlə birlikdə bir səngərdə oturdular. Hərbi iclas deyildi, səmimi söhbət idi. Onların təklifi ilə mən də bir tərəfdə oturdum.

Ağa şeir adamı idi. Bizə Hafizdən bir neçə qəzəl oxudu. Mən də Hafizi sevirdim, amma divanından oxuyurdum. Cibimdə həmişə kiçik bir divanı olardı, darıxanda açıb oxuyardım.

Həmin axşam da Hafizdən iki-üç qəzəl oxuduq, gecəyə qədər ağa ilə söhbətləşdik. Bu toplantılar və ağanın döyüşçülərin yanına gəlməsi bizi ruhlandırırdı, o vəziyyətdə uşaqlar üçün çox dəyərli idi.

Sübh namazını ağa Xameneiyə iqtida etdik, namazdan sonra iki-üç saat yatdıq. Həmin gün günorta yeməyini də valilikdə yedim. Mən istiqamət komandiri idim, min cür işim vardı, amma ağadan ayrılıb gedə bilmirdim. İstəyirdim ki, nə qədər bacarıramsa, yanında qalım və ondan bəhrələnim.

Günorta yeməyinə toyuq qızartmışdılar. Hər iki nəfərə bir qızarmış toyuq verdilər. Mən yeyimcil idim, özümə korluq vermədim.

Doktor Çəmran həmişə bizə deyirdi: "Bilirəm ki, gəncsiniz, bədəniniz çox yemək tələb edir. Amma az yemək özünüislahın birinci dərsidir. Nahar və şam vaxtı yemək ardınca qaçmayın, deməyin ki, mənim yeməyim nə oldu. Əgər bir gün nahar yeməsəniz və ya yemək çatmasa, bunu özünüislah və bədən riyazəti sayın. Çalışın, yeməklə məşhurlaşmayın, mənəviyyatla məşhur olun".

Ancaq bu, mümkün idimi?! Bizim arifliyimiz aclıqla uyğun gəlmirdi. Müharibə idi, bədən dözmürdü. Bəzən 3 km piyada getmək lazım olurdu. Vuruşmaq üçün də gərək canımız olaydı.

Çoxları düşünürdü ki, müharibə çox çəksə, iki-üç ay çəkər. Əvvəldə çayxana və restoranlar pulsuz fəaliyyət göstərirdi. Ancaq zaman keçdikcə iş daha çox düyünə düşürdü. Sonralar Restoran İşçiləri Həmkarlar İttifaqı ilə razılaşdırıldı, restoranlar yemək bişirmək üçün üçaylıq ezamiyyətə gəlməyə başladılar.

Günortalar adətən plovla isti xörəklər verilirdi, axşam isə quru yeməklər. Çayı odun ocağı üzərində hazırlayırdıq. Yüznəfərlik termoslar və böyük qazanlar gələnə qədər uzun müddət keçdi. Çadır və səngərlər əvvəldə qısa və ikinəfərlik idi, canlı qüvvə gələndən sonra yavaş-yavaş çadırlar böyüdü, səngərlər genişləndi, səyyar bərbər gəldi və səhra hamamı işə başladı.

Bir gün uşaqlar yeri dörd-beş metr qazandan sonra su çıxdı. Göz yaşı kimi dupduru su idi. Buna görə deyirlər ki, Xuzistanın torpağı qızıldır. Uşaqlar onun ətrafını torpaqla dolu kisələrlə örtdülər, ora bir ipli vedrə qoyub hamam düzəltdilər. Bu işlər uşaqların öz kreativliyi ilə görülürdü. Bəzən şəhər hamamına da gedirdik. Sonralar konteyner və duş gətirdilər, hamamları şəxsi heyətin yerləşdiyi düşərgələrdə düzəltdilər ki, hamamdan ötrü uzağa getməyə məcbur olmasınlar.

İraqlıların işğal olunmuş şəhər və kəndlərdə, xüsusən də Hüveyzədə törətdiyi cinayətlər ağız-ağız dolaşır, adamın qanını coşdururdu. Hüveyzə, Süsəngird və kəndlərinin əhalisi müharibənin ilk günlərində çox əzab çəkdi.

Bombardmanlar və insanların qırğını bir tərəfə, Bəni-Sədrin xəyali qayçı əməliyyatı bir tərəfə! Bu məsələ hamını yormuşdu. Bu tərəfdən insanlar dəstə-dəstə öldürülür, bombardman altında tələf olurdu, o tərəfdən də bəziləri əllərini əllərinin üstünə qoyub baxırdı.

Müharibənin ilk bir-iki ayında düşmən tərəfi ürəyi istədiyini etdi.

Uşaqlar hər axşam kəşfiyyata gedir, iraqlıların yatdığı, atəşlərinin səngidiyi zamanda irəliləyib məlumat öyrənirdilər.

Bir axşam Hacı Qasimlə və iki-üç nəfərlə birgə Riqabiyyə istiqamətinə bir növ kəşfiyyata yollandıq. İraqlılar səngərlərinin yaxınlığına bir tank qoymuşdular. İlk baxışdan boş görünürdü. Uşaqların biri ona yaxınlaşıb keşik çəkdi və biz yavaşca yanından keçdik. Təxminən yarım saat qaranlıqda getdik. Hava işıqlaşmağa başlayanda Hacı Qasim dedi: "Qayıdaq. İndi bizi görüb mövqeyi alt-üst edəcəklər".

Qayıdanda iki “Kalaşnikov” avtomatı və beş qumbaraatan mərmisi tapdıq. Çox sevindik. Qənimətləri qoltuğumuza vurub öz səngərimizə doğru yola düşdük. Hələ iki metr uzaqlaşmamış birdən tankın içindəki iraqlılar bizi görüb atəş açmağa başladılar. Başqa bir neçə nəfər də peyda oldu və bir göz qırpımında ortalıq qarışdı. Götürdüyümüz qənimətlərlə tez ziqzaq şəklində geri qaçmağa başladıq. Güllələr yaxınlığımızdan keçirdi. Pis mənğənəyə keçmişdik. Məsələdən xəbərdar olub düşmənə cavab atəşi açan öz uşaqlarımız az qala bizi həlak edəcəkdilər. İraqlılar da dayanmır, əclafcasına vururdular. Onların bir qismi tələsik oyan-buyana qaçır, ərəbcə üyüdürdülər.

Onların mövqelərindən bir neçə metr uzaqlaşandan sonra uşaqların birinin ayağına güllə dəydi. Hacı Qasimlə mən bir əlimizlə qumbaraatan mərmilərindən yapışdıq, o biri əlimizlə o qardaşın qoltuqlarının altına girib sürüyə-sürüyə geri gətirdik. Uşaqların biri ortada dayanıb biz tam uzaqlaşana qədər iraqlılara avtomatdan atəş açmağa

başladı. Allahın lütfündən həmin gecə nə öldük, nə də iraqlıların əlinə keçdik.

Öz istehkamımıza çatanda hava tam işıqlaşmışdı. Yorğunluqdan yerə sərildik. Hacı Qasim dedi: "Əcəb kəşfiyyat oldu ha! İndi bu mərmiləri atmaq lazımdır, amma kilo-kilo yox. Yavaş-yavaş öyrənəcəksiz. Gərək hədəfin yaxınlaşmasını gözləyib sonra vurasız. Belə qəbul edin ki, hər mərmi yalnız bir tankdan ötrüdür".

Doktor Çəmranla Hacı Qasim bizi cəsarətləndirir, həmişə deyirdilər: "Sizin hər biriniz bir diviziya qədər güclüsünüz". Onlar istəyirdilər ki, özümüzə inanaq, düşmən qarşısında zəif çıxış etməyək. Ancaq hər bir ağıllı adam bilirdi ki, İraq tərəfi hər baxımdan bizdən öndədir, bizim yalnız iradə və imanımız onlardan güclüdür.

Ondan sonra hər iki-üç axşamdan bir kəşfiyyata gedir, ya da pusqu qurub düşmənə zərbə endirirdik. Başa düşmüşdük ki, bizim qılıncımız gecələr kəsir. İraqlılar yuxuda olanda onlara hücum edə bilirdik. Doktor da bizi həvəsləndirib deyirdi: "Yuxunu onlara haram edin!"

Biz gənc idik, qəhrəmanlıq edib dillərə düşmək istəyirdik. İstəyirdik hamı desin ki, filan istiqamətin uşaqları tank ovçularıdır. Kəşfiyyata getdiyimiz bir neçə gecədə iki tank vurduq, bir dəfə də uşaqlar bir əsir tutdular. O zavallı iraqlı qərib məmləkətdə o qədər sağa-sola getdi ki, axırda uşaqlarımızın postuna çatdı. Uşaqlar ərəbcə bilmirdilər, çoxu tehranlı və isfahanlı idi. Onlar yalnız inkir-minkir sualını verirdilər: "Mən Rəbbuk?" (Rəbbin kimdir?) Bunu da livanlılardan öyrənmişdilər.

Dindirmək üçün əsiri livanlılara təhvil verdilər. Ertəsi gün hər yerdə xəbər dolaşdı ki, Tərrah istiqamətinin uşaqları bir iraqlı mayoru əsir tutublar. Ancaq sonra bilindi ki, o bədbəxt yolunu azmış veyil əsgər imiş.

Noyabrın əvvəllərində Süsəngirddə vəziyyət çox ağırlaşdı. Bu şəhər müharibənin birinci ayında iki dəfə işğal və azad edilmişdi. Bir dəfə Qəyurəsli və şəxsi heyəti yerli qüvvələrdən olan tank ovçularının köməyi ilə azad etmişdilər.

İraq tərəfi bir dəfə də Süsəngirdə üç tərəfdən hücuma keçdi. Doktor Çəmran Süsəngirdin işğalını Əhvaz üçün təhlükəli bilirdi. Buna görə uşaqların bir qismini şəhərin müdafiəsinə apardı. Mən də onların arasında idim.

Əks-hücum sözünün mənasını onda tam anladım. İraqlılar T-52 tankları, minaatan və toplarla şəhəri atəşə tuturdu. Şəhərin xarabasından da əl çəkmirdilər. Tank mərmisinin adamı necə parçaladığını orada gördüm. Tankla insan döyüşü gedirdi. Mən orada RPG ustası oldum. O qədər mərmi atdım ki, qulaqlarımdan qan gəlirdi. Qan yaxamda qurumuşdu, başım gicəllənirdi, ancaq tanklar göbələk kimi hər yerdən çıxır, bitmək bilmirdi.

Hara əlimiz çatdısa, kisələrlə səngər düzəltdik. Ev və küçə qalmamışdı, şəhərin hər yeri səngər kimi idi. Xarabalıqların arxasına sığınıb cavab atəşi açırdıq. Ancaq bizim atəşimiz hara, onların atəşi hara!

Döyüşün ikinci günündə iraqlılar mühasirəni daraltdılar. Hava soyuq və yağışlı, yer yaş və palçıqlı idi, ayaqlarımız batırdı. Soyuqda və yağışda vuruşmaq yüz qat çətindir. Doktor ratsiyadan silah-sursat istədi. Ona dedilər: "Sursat var, amma mühasirəni yarıb gətirməyə heç kim yoxdur".

Doktor məni çağırıb dedi: "Bu, Abbasın işidir. Seyid, qaç, ratsiyadan de ki, Abbas gətirsin".

– Qarğaçı Abbas?

– Hə, o gətirə bilər.

– Ağa, düşmən bizi dövrəyə alıb, tanklar arxamızdan gəlirlər.

– Abbası çağır, seyid, vaxtımız yoxdur.

Ratsiyadan Abbası çağırdım. Doktorun özü də onunla danışdı, nə etməli olduğunu söylədi.

Abbas qonşumuz idi, iri yaşıl gözləri vardı, son dərəcə cəsarətli idi.

Bir saatdan sonra bir "Toyota" avtomobili toz-torpaq qopara-qopara tüstü və alovun içindən çıxdı. Siqnal verə-verə sürətlə irəliləyirdi. Baxıb gördük ki, Abbasdır, bir maşın sursat, yemək və su gətirib. Uşaqlar qaçıb silah-sursatı boşaltdılar və partlamasın deyə uçmuş bir divarın dibinə qoydular. Sonra hər dəstəyə 25 qumbaraatan mərmisi və patron lentləri verdik. 60 mm çaplı bir neçə minaatan da vardı, onları da payladıq. Doktor dedi: "Uşaqlar, necə bacarırsızsa, vurun, ancaq önlərini kəsin".

Hərbi düzülüş yox idi, hərə özünə görə bir cür komandir idi. Doktorun özü gah qumbaraatandan atəş açır, gah "Kalaşnikov" götürürdü. Bu işlərlə uşaqları ruhlandırırdı. Onun dağ kimi möhkəm dayandığını görəndə cana gəlirdik.

Üçüncü gün gecənin yarısı artıq düşmənin silahı gicgahımızda idi. Atəş bir an da səngimirdi. Çoxlu cəsəd vardı; həm öz uşaqlarımızın, həm də Süsəngird əhalisinin. Artıq şəhərlərini müdafiə etməyə adam da qalmamışdı.

Sübh çağı düşmən geri çəkildi. Səbəbini bilmirdim. Şəhərdən 3 km aralıda at nalı şəklində bir torpaq istehkam qurdu. Şəhərə yağdırdıqları o qədər atəşdən sonra geri çəkilmələri başadüşülən deyildi.

Biz də mövqe seçib əmr gözləməyə başladıq. Ortalıq sakitləşəndən sonra bir-iki maşın su, yemək və patron gətirdilər. Ancaq bundan çox yuxuya ehtiyacım vardı. Bir

neçə sutka idi yatmamışdım, çox yorğun idim. Bir neçə şəhidi orada qoyub bir yolla mühasirəni yarmağa və şəhərdən çıxmağa məcbur olduq. O istiqamətin komandiri Rəhim Kiloyi idi. Doktor onu şəhərin müdafiəsi üçün qoydu, özü Nasir Fərəcullah, mayor İrəc Rüstəmi və Hacı Qasimlə birgə Tərrah istiqamətinə getdi. Mən də onlarla getdim. Yolda dağılmış bir evin yanında Qarğaçı Abbasın maşınını gördük. Tankla vurulmuş, yanmışdı. Abbasın cəsədi maşının içindi idi, beldən yuxarısı parçalanmışdı. Biz yalnız baxırdıq. Onu geri aparmağa vaxt və imkan yox idi. O, həqiqətən də şəhidliyə layiq idi.

Geri çəkiləndə sağ qoluma bir qəlpə dəydi. Noxud boyda qəlpə idi, heç bir ağrısı yox idi. Yüngül göynərtisi vardı, üstünü ipək dəsmalla bağlayandan sonra o da dayandı.

Bir neçə saatdan sonra tibb məntəqəsinə getdim. Orada yaranı tikib bağladılar, qəlpə də içində qaldı.

Mən Süsəngirdə qayıdanda korpusdan köməkçi qüvvələr gəlmişdi. Onlar ordunun yaxşı əməkdaşlığı ilə şəhərin işğalının qarşısını aldılar.

Səhər çağı tanklar Dehlaviyyə kəndini və onun ətrafını vurmağa başladı. Bu, axırıncı müqavimət idi. Doktor da əks-hücum olacağını söyləmişdi. Buna görə motosikletçiləri hazırlamışdı ki, qumbaraatanları aparıb tankları ovlasınlar.

On iki motosikletçi mənim tabeliyimdə idi. Təxminən səhər saat 9-da düşmən güclü atəş yağdırdı, sonra tankların və zirehli maşınların arasından gələn dəstə-dəstə piyada düşmən qüvvələri şəhərə axışmağa başladı. Motosikletçilər düşmənin öncədən şəhərin bayırında saldığı kanalların arxasında idilər. Mən onları ətrafa yaymışdım, uşaqlara da tapşırmışdım ki, pulemyotla onları

qorusunlar. Pulemyotlar atəşə başladı, motosikletçilər yola düşüb düşmənə yaxınlaşdılar. Motosikletləri yerə qoyub qumbaraatandan atəş açdılar. Bir neçə dəqiqə ötmədən düzənlik yanıb tüstülənən düşmən tankları ilə doldu. Uşaqlar salavat deyib əl çaldılar.

Qayıdanda motosikletçilərin birinə tankdan atəş açıldı, adam parça-parça oldu. Həmin gün tankların təxminən dörddə birini motosikletçilər vurdular. Onlar motosikletin hər bir kələyini bilirdilər, elə edirdilər ki, səsi boğulsun və iraqlılar onların gəldiyini duymasınlar.

Bu əməliyyatda tank ovçularının başçısı Cəlil Nəqqad da qəlpədən yaralandı.[1]

Günorta çağı tanklar geri çəkildi. Bu zaman buldozer gəlib torpaq istehkamları bərkitdi.

Süsəngirdin şərq və qərb bucaqları düşmənin əlində idi. Döyüşçülərin bir qismi ilə Süsəngirdin qalxanı sayılan Dehlaviyyə kəndində səngər düzəltdik. Dehlaviyyənin evləri palçıqdan idi, hər bir atəşlə başımıza uçurdu. Şəhərin girişlərində at nalı şəklində torpaq istehkamlar qurduq, kənarlarında şalbanla möhkəm səngərlər düzəltdik, təxminən 150 döyüşçünü at nalı şəklində üç torpaq istehkamdakı səngərlərin arasına yerləşdirdik.

Tank ovunun nəticələrindən biri də ilk dəfə DŞK pulemyotu əldə etməmiz oldu. O vaxta qədər onun yalnız güllələrini görmüşdük; hər biri avtomat gülləsindən iki dəfə böyük idi. Bu güllələr dəyəndə əli və ayağı qopara bilirdi, qarına dəyəndə bu tərəfdən girib, o tərəfdən əl boyda yer açır, qarını və bağırsaqları parçalayırdı.

---

[1] Hal-hazırda bədəni ortadan iflicdir, danışa bilmir, amma özünü yatağa yıxmayıb, motosiklet təmiri mərkəzində işləyir və məişətini təmin edir.

Süsəngirdin müdafiəsinin ikinci günündə doktorun ayağına güllə dəydi. O, olduqca möhkəm idi. Bizim bir yoldaşımıza güllə dəyəndə hirslənib iraqlıları söyürdük, amma o heç vaxt hirslənmir, özündən çıxmırdı.

Həmin gün uşaqların birindən eşitdim ki, Hacı Qasim Kərxəkur istiqamətində uşaqlara məlumat verəndə DŞK gülləsi dəymiş, çiynini və böyrünü ağır yaralamışdır. İki gün idi ondan xəbərsiz idim, çünki mənim istiqamətim Dehlaviyyədə idi. Xəbəri eşidib çox pis oldum, orada qala bilmədim. Çox həyəcanlı idim. Hacı Qasim mənim mürşidim idi. İşləri uşaqlara tapşırıb bir motosikletlə valiliyə getdim. Doktor xanımıyla oturmuşdu, televiziyaya müsahibəsi vardı. Kameralar, aparatlar da hazır idi. Doktorun ayağına bağlanmış ağ sarğı qana boyanmışdı.

Orada oturub nəfəsimi dərdim, müsahibə bitəndən sonra doktora yaxınlaşdım. O, ayağa qalxdı, kürəyimə vurub dedi: "Haqq sənə yar olsun, seyid! Yorulmayasan! Qasimin yaralandığını eşitdim. Onu geri aparıblar".

– Tibb məntəqəsinə getmək istəyirəm, amma ürəyim mövqedəki uşaqlarda qalıb. Bilmirəm gedim, yoxsa getməyim.

– Mövqeyinə qayıtsan, yaxşıdır. Uşaqlar orada dərbədər olarlar. Qasim üçün sənin əlindən bir şey gəlməz.

Elə də etdim; öz mövqeyimizə uşaqların yanına qayıtdım. Ertəsi gün əks-hücum olmadı. Minaatandan tək-tük atəş açdılar, amma döyüş getmədi. Deyəsən, ağılları başlarına gəlmişdi.

Doktor həmin gün xəbər yolladı ki, valiliyə gedim. Ancaq mən axşama qədər orada qaldım və saat 12-ə yaxın getdim. Doktor oyaq idi, tək oturmuşdu. Salam verib yanında oturdum.

İstiqamətlərin vəziyyətini və uşaqları soruşdu. Mən də vəziyyətin sakitləşdiyini söylədim. O, bir nəfərin məruzəsi ilə kifayətlənmirdi, hamıdan soruşurdu. O deyirdi ki, hərənin bir fikri var, məsələni bir cür görür. Doktor dedi: "Seyid, sən bu motosikletçiləri gətirməklə böyük iş görmüsən. Çox istəyirəm ki, indi həbsxanalarda olan qorxmaz oğru və quldurlardan bir batalyon düzəldim. Qu tükündən döşək üzərində yatan tiplər bu işə yaramırlar".

– Bəli, ağa, bunlar ölümdən qorxmurlar. Döyüşmək üçün də bu, kifayətdir.

– Bunlar təhsilli adamlarla fərqlənirlər. Biz tank ovlamaq üçün kitabxanalardan 50 səliqəli adam gətirə bilməzdik. Mən özüm Dəmirçilər bazarındanam, hamısını tanıyıram, hansı ruhiyyədə olduqlarını bilirəm. Bu oğlanı – Qarğaçı Abbası gördün?! On iraqlıya cavab verirdi. Kitab oxuyan deyildi, amma yaxşı vuruşurdu. Axırıncı dəfə ata-anamı görməyə gedəndə gördüm ki, küçədə oturub, nəşəlidir, mürgüləyir. Dedim ki, yadımdadır, bir gün kişi idin, gözəl halda idin. Mənə baxıb başını aşağı saldı. Evə girdim, ata-anamı görüb evdən çıxdım. Gördüm ki, küçənin başında dayanıb. Məni çağırıb dedi: "Ağa, mən müharibəyə getmək istəyirəm". Ertəsi gün Nazirlər Kabinetinə gəldi. Vəziyyətini soruşdum. Dedi ki, gündə üç dəfə tiryək şirəsi çəkməsəm, qala bilmərəm. Dedim ki, ver, məndə qalsın, səndə olsa, alarlar. Utana-utana dedi: "Axı üzüm gəlmir". Dedim: "Ver mənə, arxayın ol. Utanmağa da ehtiyac yoxdur". Bununla yavaş-yavaş şirədən uzaqlaşdı, onu tərk etdi. Bir gün öz gözünün qabağında hamısını çaya tökdüm.

Doktor axırda əlini qoltuq cibinə salıb bir kağız çıxardı, mənə verib dedi: "Tehrana get, bunu Hacı Qasimə ver".

Sevinib sağollaşdım. Qatarla getmək istəyirdim, amma valiliyin önündə Şuş meydanından olan Abdullahzadəni gördüm. “Toyota” avtomobili ilə Tehrana gedirdi.

Sübh saat 5-də Tehrana çatdıq. Qərara gəldik ki, Əhvaza qayıdanda məni də aparsın. Evinin telefon nömrəsini alıb ondan ayrıldım.

Həmin gün əynimdə enli bir kürd şalvarı vardı. Üst-başım toz-torpağın içində idi, saqqalım uzanmışdı. Onda hələ saçım tökülməmişdi.

Anam məni görüb təəccübləndi. Bir neçə saniyə mənə baxdı, sonra dedi: "Əbəlfəz, sənsən?"

Evdə üç-dörd saatdan artıq qalmadım. Heç hamama da girmədim. Tələsik səhər yeməyimi yedim, qarşıdurmalar barədə Fatiməyə, Pəri nənəyə və anama bəzi şeylər söylədim. Çox pis durumlardan danışmadım. Onları narahat etmək istəmirdim. Müharibənin adı bir dünya qəm-qüssəyə bərabər idi.

Səhər saat 10-da Tofiq məscidinə getdim, Hüseyn Mahmudiyə dedim ki, gərək mənimlə cəbhəyə gedəsən. Günorta namazımı orada qılandan sonra Hacı Qasimi ziyarət etməyə yollandım.

Hacı Müiri xəstəxanasında yatırdı. Onu görəndə kövrəldim. Yaxınlaşıb əlini öpdüm. O da ağladı. Halsız idi, arıqlayıb zəifləmişdi. Qolundan ağırlıq asmışdılar. Çiyni və böyrünün bir tərəfi tamam parçalanmışdı. DŞK gülləsinin nə olduğunu onda anladım. Ona bir DŞK gülləsi dəymişdi, amma böyrü elə açılmışdı ki, elə bil, tank mərmisi dəyib.

Salamlaşıb doktorun məktubunu verdim. Ona baxdı və yenə özümə qaytarıb dedi: "Qurban olum, özün oxu, mənim halım yaxşı deyil".

Doktorun gözəl xətlə yazdığı gözəl sözlər onun necə böyük ruhu olduğunu, döyüşçülərinə görə necə narahat olduğunu və Hacı Qasimi necə sevdiyini göstərirdi. Məktubu oxuyanda hər ikimizi ağlamaq tutdu. Axşamüstünə qədər onun yanında qaldım, sonra evə qayıtdım.

Ertəsi gün yenə onu görməyə getdim. Günorta yeməyinə kabab-çörək vardı. Ona bir tikə düzəldib verdim. Hacı dedi: "Sən seyidsən, əlin bərəkətlidir. Sənin əlindən loğma alsam, tez sağalaram".

Qasim doktora cavab olaraq, bir neçə cümlə dedi, mən də yazdım. Günortadan sonra onunla sağollaşdım və Abdullahzadəyə zəng vurub Şuş meydanında görüş təyin etdim.

Sübh saat 5-də arxası könüllü qüvvələrlə dolu olan pikapa mindim. Öndəki oturacağı mənimçün saxlamışdılar.

Günbatan çağı Əhvaza çatdıq. Valiliyin ərazisində qələbəlik idi. Yeni qüvvələr gəlmişdi. Nasir Fərəcullah məni doktorun yanına apardı. Doktorla xanımı oturmuşdular.

Salam verdim. Doktor narahat halda başını qaldırıb dedi: "Salam, seyid can, yaxşı gəldin. Gəl otur, bizə Hafizdən bir şeir oxu".

Oturdum. Cibimdən Hafizin divanını çıxarıb açdım. Bu beyt gəldi:

Gecə vaxtı bülbül səba yelinə dedi:

"Gördünmü gülün qəmi mənə neylədi?"

Doktor dedi: "Ardını oxuma. Bu qəzəlin hekayəsini bilirəm. Öz ürəyimin sözüdür".

Narahatlığının səbəbini soruşmağa üzüm gəlmədi. Doktorun xanımı da sakit oturmuşdu, bir söz demirdi. Bir

neçə saniyə sükutdan sonra doktor dilləndi: "Hacı Qasimdən nə xəbər?"

Divanı bağlayıb cibimə qoydum, Qasimin qeydini verib dedim: "Çoxlu salam söylədi. Şükür Allaha, halı yaxşılaşır".

Doktor əməliyyat barədə heç bir söz demədi, başqa ab-havada idi.

Bir aydan sonra, yəni 1981-ci ilin yanvarında ordu, korpus və partizan qüvvələri böyük və mənim fikrimcə, yarımdiversant bir əməliyyat həyata keçirdilər. İmam xəttinin davamçısı olan tələbələr də Hüseyn Ələmülhüdanın başçılığı altında əməliyyatda iştirak etdilər. Plana görə, Həmid qarnizonu azad edilməli, Xürrəmşəhrə, hətta Bəsrə sərhədinə doğru irəliləməli idik. Orada Hüveyzəyə və Həmid qarnizonuna gedən komandanın tərkibində idim.

Həmin günlərdə Əhvaza hamama getdim. Evə zəng vurub hal-əhval tutdum. Anam dedi: "Dünən Allah sənə bir oğul verdi".

– Mübarəkdir! Adını nə qoydunuz?

– Səid.

Əməliyyata az qaldığına görə evə gedə bilmədim. Əməliyyatın əvvəlində həqiqətən yaxşı irəlilədik, iraqlılar böyük itkilər verdilər, çoxlu əsir tutduq. Ancaq canlı qüvvə hələ bir-biri ilə dostlaşmamışdı, vahid müdiriyyət yox idi. Buna görə irəli gedər-getməz geri çəkilməyə məcbur olduq.

Qayıdanda sağ budumun arxasına bir güllə, ya da qəlpə dəydi. Qaça bilmədiyimə görə uşaqların düşməndən alıb geri apardığı zirehli maşına atıldım. Zirehli maşın çala-çuxurlarda atılıb-düşdüyünə görə özümü saxlaya bilmədim, axırda maşının üstündən yerə çırpıldım. Əl

barmağımdan güclü ağrı başladı, elə bildim sınıb. Tez birtəhər maşına qalxdım və bir tərəfdən möhkəm yapışdım. Əhvazda tibb məntəqəsinə çatanda yaramı çox üzdən yuyub bağladılar, oradan təcili yardım maşını ilə Əhvaz hava limanına, sonra təyyarə ilə Tehrana göndərdilər. Hava limanında məhəllə uşaqlarımızdan Hüseyn Tahirini gördüm. Korpusa yazılmışdı, hava limanında işləyirdi. Tez işlərimlə maraqlandı və məni təcili yardım maşını ilə Tehran Milli bank xəstəxanasına göndərdilər.

Orada təxminən yeddi gün yatdım. Barmağımı gipsə qoyub bağladılar. Ayağımı iki dəfə əməliyyat etdilər, bir neçə dəfə rentgenə saldılar, amma içindəkini çıxara bilmədilər. Həkimlər dedilər ki, güllə əzələnin dərinliyində, sümüyün yanındadır, onu çıxarmaqdan ötrü əti çox yarmalıyıq. Bu zaman da gərək altı ay yatasan. Əgər incitmirsə, qalsın.

Razılaşdım və daha ayağımla işim olmadı. İkinci cərrahiyyə əməliyyatından bir həftə sonra məni evə buraxdılar.

Bir axşam Nazirlər Kabinetinin uşaqları xəbər verdilər ki, Nasir Fərəcullah şəhid olub, doktor Tehrana onun dəfninə gəlib. Doktor Nasiri olduqca çox istəyirdi. Bilirdim ki, Nasirin şəhadəti ona çox ağır gəlib. Ertəsi gün axsaya-axsaya Nazirlər Kabinetinə getdim. Həm doktoru görmək, həm də uşaqların vəziyyətindən xəbər tutmaq istəyirdim.

Doktor çox narahat idi, üz-gözündən qəm-kədər yağırdı. Həmin gün onunla birlikdə Qasimə baş çəkməyə getdim.

Doktor Çəmran Qasimi görən kimi qucaqlayıb öpdü. O, Qasimi də çox sevirdi. Özü böyük şəxsiyyət olsa, bütün ölkədə tanınsa da, çox tezliklə hamı ilə dostlaşırdı.

Xəstəxananın işçiləri doktorun başına toplaşıb onunla salamlaşdılar. Günbatan çağı hacını doktorla tək qoyub məhəlləyə qayıtdım.

Ertəsi gün Əbəlfəz məscidində Nasir Fərəcullah üçün məclis keçirdik. Doktor Çəmran, mühəndis Bazərqan və nazirlərin bir neçəsi gəlmişdi. Doktor Nasirin məclisində çıxış etdi. O, xanımıyla gəlmişdi. Xanımı Fatimə ilə çox səmimi idi. Əzəmətli qadın idi, əza dəstəsinə və xeyriyyə işlərinə kömək edirdi. O, doktora həm də dost idi, onunla hər yerə gedirdi.

1981-ci ilin novruzunda evə qonaq oldum. Telefonla hacının vəziyyətini soruşurdum. Nə vaxt cəbhəyə qayıtmalı olduğumuzu söyləməsini gözləyirdim. O mənə mənəvi qida verirdi. Onsuz sanki yarımçıq idim. Cəbhədəki bütün uşaqlar Hacı Qasimə qarşı eyni hissi bəsləyirdilər. Hacı mehriban idi, heybətli olsa da, özünə göz işığı ayırmırdı, hamını çox sevirdi. O, heç vaxt kimisə utandırmadı, heç vaxt demədi ki, filankəs, sən cəbhəyə gəlmisən, bəs qızıl boyunbağı nədir, niyə cibində bıçaq gəzdirirsən, Yəzd dəsmalı nə üçündür və s.

Qasim deyirdi: "Cəbhənin torpağı müqəddəsdir, adama hörmət gətirir. Ən pis adamın ayağı da bura dəysə, tam başqa bir adama çevrilir. Burada yalnız sənsən və Allah, arada heç bir vasitə yoxdur. Torpaq rəngli bu forma sənə çərçivə təyin edir, ürəyin istədiyin kimi olmana imkan vermir..”.

Heç bir şeylə işi yox idi, yalnız bunu deyirdi: "Ehtiyat! Ehtiyat!" Hər yerdə, hər bir halda dodaqları zikr deyirdi; yalnız ariflərin bildiyi mənəvi zikr halında olurdu.

Bəzən səngərdə tək olanda deyirdi: "Paltarlarından ehtiyatlı olduğun kimi, gözündən, qəlbindən, dilindən, yoldaşlarından da ehtiyatlı ol. Bədənlə ruh birdir; hansı məhv olsa, o birini də məhv edər".

Uşaqların səbir daşı idi; kimin nə dərdi vardısa, dinləyirdi.

Mayda yenə cəbhəyə yollanıb Tərrah istiqamətinə getdim. Oradakı əksər döyüşçülərlə tanış idim. Ayağım yaxşılaşmışdı, amma azca axsayırdım, çox ağırlıq sala bilmirdim.

İyirmi gündən sonra uşaqların biri ratsiyadan xəbər verdi ki, Hacı Qasim gəlib, Əhvaz valiliyindədir.

Motosikletə minib tez valiliyə getdim. Hələ tam sağalmamışdı, qolu boynundan asılmışdı. Onu motosikletə mindirdim, birlikdə Tərraha getdik. Ondan sonra hacının ardınca düşdüm. Hara gedirdisə, onunla gedirdim ki, çətinlik çəkməsin. Hacının problemlərindən biri ayaqyolu məsələsi idi. Səhra tualetində isə nə su vardı, nə şlanq. Aftafanı çox uzaqdan doldurub tualetə aparmalı idin.

Hacı Qasimə təklif etdim ki, qolun sağalana qədər valilikdə qal, idarə işləri ilə məşğul ol. O isə razılaşmayıb dedi: "Bacarmaram. Gərək ön xətdə uşaqların yanında olum".

Bir gün zavallı gəlib dedi: "Seyid, nə edim?! Daha bacarmıram!" Dedim ki, gəl, səni valiliyə aparım.

Minaatandan güclü atəş açırdılar, hər addıma bir mərmi düşürdü. Düşmən torpaq istehkamları hər gün şumlayıb alt-üst edir, biz yenidən qururduq.

Motosikletə minib birlikdə valiliyə getdik. Valiliyin hər yerini alt-üst etdim, amma tualetə çəkmək üçün bir qədər şlanq tapmadım. Sonra yenə hacını motosikletə mindirib ön xəttə apardım.

Mayda təxminən sakitlik oldu. İraq tərəfi atəş açırdı, amma əvvəlki kimi yox. Mövqedə sakitlik olanda bir yerə toplaşıb söhbət etməyə daha çox vaxt tapırdıq. Bir gün dedilər ki, Əhməd Xomeyni Doktor Çəmrana zəng vurub, deyib ki, imam səninçün darıxıb, səni görmək istəyir. Doktor həmin gün helikopterlə imamın yanına getdi. Qayıdanda onu dövrəyə alıb imamın vəziyyətini soruşduq.

Doktor dedi: "İmamla görüşəndə bir neçə saniyə gözlərini mənim üzümə dikdi, sonra dedi: "Mustafa, sən sənətkarsan. Sənətkar gərək bir rəngdə olsun. Ən qiymətli xalçaya bax; rəngarəng olduğuna görə ayaqlar altındadır. Ancaq səmaya bax, hamıdan yuxarıdadır. Nə üçün? Çünki bir rəngdədir. Bir rəngdə olmaq və sədaqət eşqin qanunudur".

Doktor bizim üçün həqiqətən eşq və irfan hekayəsi idi. İmam Xomeyni onu qəbul edirdi, çox dəyərli bilirdi. Bu polad adam boş əllə düşmənin önündə dayanmışdı. Biz onun mənəviyyatına və güclü iradəsinə vurulmuşduq. Onu heç bir şey saxlaya bilmirdi.

Həmin günlərdə doktor düşmənin qarşısını almaqdan ötrü bir plan düşünürdü. O, 20-30 buldozer gətirdi, tapşırdı ki, Əhvazın qərbində, Əhvaz-Süsəngird magistralı tərəfdə böyük bir kanal qazsınlar. O, Karunun suyundan istifadə edib iraqlıların yolunu bağlamaq üçün süni bir göl əmələ gətirdi. Kanal istehkamın bir başı Kərxəkurun yaxınlığına, bir başı da Fərəsiyyənin, Riqabiyyənin və Şimriyyənin aşağısına qədər uzanırdı. Suyu kanallara buraxanda Susəngirdlə Hüveyzənin arasındakı bütün düzənliyi su basdı. Kut-Seyid Nəimin yuxarısında da bir kanal iraqlıların önünə axdı və onlar çayın arxasına qədər geri çəkilməyə məcbur oldular. Sonra Kərxə çayından kanal çəkib suyu Cəlaliyyəyə və Kuta yönəltdi. Düşmən sonralar

Ramazan əməliyyatında doktorun bu planından istifadə etdi.

İraq tərəfi Süsəngirddə qələbə çalmadığını görüb geri çəkildi, canlı qüvvəni Allahu-əkbər təpələrinə doğru apardı. Doktor düşmənin qumluqda zəif olduğunu bilirdi. Düşməni Süsəngirddən tam uzaqlaşdırmaqdan ötrü Allahu-əkbər təpələrinin azadlığı üçün plan hazırladı.

İyunun 10-da Allahu-əkbər təpələrində İmam Əli (ə) adlı bir əməliyyat baş tutdu. Əhvazın 92 saylı zirehli diviziyası və korpus da bizimlə idi.

Bu, Nizamsız döyüşlər qərargahının ilk rəsmi əməliyyatı idi. O vaxta qədər işimiz düşmənin hücumlarını dəf etməkdən və ona zərbə endirməkdən ibarət olmuşdu. Bu dəfə İraq təpənin başında idi, biz hücum edib oranı ələ keçirməli idik. Mən istiqamətlərin birinə komandirlik edirdim.

Döyüşdən öncə düşmən mövqelərini öyrənmək üçün kəşfiyyata iki-üç komanda göndərdim. Bir dəfə özüm də onlarla getdim və ömrümdə ilk dəfə minalanmış sahə gördüm. Salxım və valmara minalarının sıx-sıx düzüldüyü bir ərazi idi. Uşaqlar süngüləri ilə minaları tapır, ehtiyatla zərərsizləşdirirdilər. Keçid açılandan sonra digər uşaqlar ayaqlarını minaçının ayağının yerinə qoyub keçirdilər. Bu əməliyyat çox sürətlə baş tutdu. Razılaşdırma və planlaşdırması da yaxşı olmuşdu. Saat 12 olmamış Allahu-əkbər təpələrini ələ keçirdik. Düşmən 6 km geri çəkildi, təxminən 30-40 cəsədi yerdə qaldı. Doktorun razılığı ilə böyük qəbirlər qazıb düşmən cəsədlərini təpələrin başında dəfn etdik. Bu əməliyyat bir gündən çox çəkmədi. Doktor 150 nəfərə təpələrin müdafiəsini tapşırdı. Mən orada da müdafiə istiqamətlərindən birinə rəhbər təyin olundum.

Doktor birinə vəzifə verəndə bütün işləri ona tapşırırdı, “O işi gör, bu işi görmə” demirdi. Yalnız nəzarət edir və yol göstərirdi. Orada da bütün işlərə rəhbərlik öz üzərimə düşürdü. Mən özümü orada tapdım. Çalışdım ki, beynimi işlədib özümü göstərim. Şəxsi heyət də məni sayıb sözümü dinləyirdi.

Doktor həmişə deyirdi: "Tabe olmaq bir məsələdir, düşüncə müstəqilliyi başqa məsələ".

O günlərdə motosikletçilərə qumbaraatanla tank ovlamağı öyrədən livanlı Əliabbas şəhid oldu. Onun cəsədini Tehrana göndərdilər. Dəfndə iştirak etmək üçün doktor da Tehrana getdi.

Doktor olmayanda Dehlaviyyədə bir döyüş oldu və onun cəsur köməkçilərindən olan mayor İrəc Rüstəmi şəhadətə qovuşdu. Bunu doktora xəbər verəndə təyyarə ilə Əhvaza qayıtdı.

Mən Tərrah istiqamətində idim. Doktor sürücüsü Həddadi, ağa Mehdi Çəmran və iki-üç başqa şəxslə həyəcanla gəldi.

Tərrah istiqamətinin komandiri Seyid Mehdi Müqəddəmpur idi. Orada bir iclas keçirib qərara gəldilər ki, Müqəddəmpuru Dehlaviyyəyə mayor Rüstəminin yerinə göndərsinlər.

Doktor Hacı Qasimi Tərrah istiqamətinin komandiri təyin etdi. Hacı Qasimin qolu yaralı olduğuna görə praktik olaraq, istiqamət komandiri mən oldum. Ancaq doktora dedim ki, sizinlə gəlmək istəyirəm.

İsti iyun havasında günortadan sonra hamımız maşına minib Dehlaviyyəyə yola düşdük. Günbatan çağı üz-başımıza su vurub istirahət etmək üçün Süsəngirdin yaxınlığında dayandıq. Hamımız maşından endik, bir qədər su içdik. Doktor mayor Rüstəmidən ötrü çox narahat

idi. Daim fikirli idi, əsla danışmırdı. Mənim gözüm onda idi. O, bizdən təxminən 100 metr aralıda yanmış bir “Toyota”ya tərəf getdi. Maşının təkcə kuzovu qalmışdı, kapotu da əzilib yığılmışdı.

Doktor yavaş-yavaş maşına yaxınlaşdı, kapotunun üstünə əyildi. Biz onun yanmış maşınla nə işi olduğunu bilmək istədik.

Qollarını çırmayıb maşının radiatoru ilə əlləşirdi. Bir anlığa bir quş cikkiltisi eşitdim. Doktor məni açar dalınca göndərdi. Gətirəndən sonra radiatorun canına düşdü. Quşun cikkiltisi dayanmırdı. Bir neçə dəqiqədən sonra doktorun əlində balaca bir sərçə gördük. Yazıq quş istidə susayıb maşının radiatorundan su içməyə getmiş, qanadı pərlərə ilişib qalmışdı. Yazıq çox qorxurdu; islanmışdı, ürəyi bərk döyünürdü.

Doktor sərçəni göyə tutdu, kədərli halda dedi: "Mən səni azad edirəm. Get. İlahi! Səni bu quşun azadlığına and verirəm, mənim canımı da azad elə, daha yoruldum".

O darıxdırıcı qürub çağı doktorun belə arifanə halı hamımızı kədərləndirdi. Boğazımı qəhər tutdu. Mən gənc idim, doktorun nədən əzab çəkdiyini bilmirdim. O, öz ayağı ilə, israr və məcburiyyət olmadan gəlmişdi. Bəs nədən yorulmuşdu? Bəlkə bütün bu müharibə səfərlərindən yorulubmuş! Bəlkə həmişə silahlı olmaqdan, döyüş paltarında səngər arxasında yatmadan, istirahət etmədən yaşamaqdan, Livanda İsrailə, Kürdüstanda əks-inqilabçılara, Xuzistanda da İraq işğalçılarına qarşı vuruşmaqdan yorulubmuş!

Doktor bizim üçün müqavimət simvolu idi. Ancaq sanki təngə gəlmişdi. Onu heç vaxt elə yorğun, qəmli və narahat görməmişdim. O bizi özünə sirdaş bilir, bizimlə danışır, dərdləşirdi. Biz də yorulanda onunla danışıb

ruhlanırdıq. Lakin həmin gün öz aləmində idi. Yolda da mənəvi halda bəzən xəttatlıq edirdi, bəzən şeir söyləyirdi, bəzən də çox gözəl münacatlar edirdi. Həmin gün o sakit düzənlikdə isə üzü qürubun qırmızı günəşinə doğru dayanıb dedi: "İlahi! Qocayam, qəlbim sınıb. Yorğunam, heç bir arzum yoxdur. Dünya mənə dardır. Yalnız Səninlə tək qalmaq istəyirəm!"

Bir müddət hamımız heyrət içində dualarına tamaşa etdik, sonra maşınlara minib yola düşdük.

Dehlaviyyəyə çatanda təxminən hava qaralmışdı. Doktor mayor Rüstəmiyə görə çox ağladı. Deyirdi ki, Rüstəmi bu müharibə üçün çox əziyyət çəkib.

Sonra Mehdi Müqəddəmpuru qucaqladı, hər ikisi ağladı. Doktor bütün döyüşçülərlə görüşdü, Şəhid Rüstəmi ilə aşiqcəsinə vidalaşdı. Sonra hamımız bir yerə toplaşdıq. Bir nəfər albalı şirəsi açıb hamıya təklif etdi.

Doktor üzünü mənə tutub dedi: "Seyid, Hafizin divanı yanındadır?"

Cib divanımı açdım. Bu beyt gəldi:

Mən heç vaxt özgələrdən şikayət etmərəm.

Mənə nə etdisə, o tanış etdi.

Həmin axşam Mehdi Müqəddəmpuru mayor Rüstəminin yerinə təqdim etdi. Mehdi Dehlaviyyə cəbhəsi ilə tanış olmadığına görə həmin axşam onu təlimatlandırmaq istəyirdi.

Doktor gecənin yarısı qalxıb dedi: "Uşaqlar gözləyirlər, mən tez getməliyəm. Qasim can, haqqını halal elə. Əgər görüşə bilməsək, inşallah, qiyamətdə görüşərik".

Sonra mənə dedi: "Seyid can, dualarında bizi unutma. Bəlkə bir də görüşə bilmədik".

Dedim: "Bu nə sözdür?! Allah sizi qorusun!"

Doktor Seyid Mehdi Müqəddəmpurla getdi. Mən də Hacı Qasimlə maşına minib Tərraha qayıtdım.

Hacı Qasim yolda dedi: "Seyid, sənə bir söz deyimmi? Məncə, doktor daha qayıtmayacaq".

Bu sözdən sonra bütün dünyanın qəm-kədəri qəlbimə çökdü. Dedim: "Sən belə düşünürsən?" Dedi: "Mən onu tanıyıram. Artıq gedəsidir".

Sübh çağı Tərraha çatdıq, axşamüstünə qədər mövqeləri gəzdim. Məndə böyük həyəcan vardı. Bir yerdə qərar tuta bilmirdim. Qərara gəldik ki, mən Kərxəkur istiqamətinə gedim, Qasim də Tərraha. Ancaq heç birimiz heç bir yerə getmədik.

Ertəsi gün - 21 iyunda axşamüstü ratsiyadan doktorun dünyadan köçdüyünü söylədilər. Deyəsən, Dehlaviyyənin ətrafında uşaqları təlimatlandırdığı zaman səssiz-səmirsiz gəlib partlayan namərd mərmilərdən üçü yaxınlığına düşüb, Seyid Mehdi Müqəddəmpur və Həddadi ilə birlikdə şəhadətə qovuşub.

Bu xəbəri eşidib çox narahat oldum. On-iyirmi nəfərlə "Toyota" avtomobilinə minib Dehlaviyyəyə yola düşdük. Yolda doktorun cəsədini aparan uşaqlarla rastlaşdıq. Hamımız pərişan və ağlar halda ətrafına toplaşıb eşq müəllimimizlə vidalaşdıq.

Səhər çağı doktorun cəsədini Tehrana apardılar. Hacı Qasim də Tehrana getdi və mən Tərrah istiqamətinə qayıtdım. Hamımız mövqeyi boşalda bilməzdik.

Doktorun şəhadətindən sonra uşaqlarda qeyri-ixtiyari bir məyusluq yarandı. Bilmirəm, bəlkə də insanın xisləti belədir ki, hər yerdə bir dayağa ehtiyacı var.

Biz doktoru çox sevirdik. O həm müharibənin komandiri idi, həm də qəlblərimizin. Sanki onsuz heç bir iş görə bilməyəcəkdik. Atası ölmüş uşaq kimi pərişan

olmuşduq. O müddətdə yalnız bir dəfə Tehrana qayıtdım, məhəllə uşaqlarından iyirmi nəfəri toplayıb Tərraha gətirdim ki, mövqe boş qalmasın.

Biz Tərrah istiqamətində müdafiə mövqeyində idik. Nəhayət, bir gün məhərrəmlikdə Hacı Qasim məni çağırıb dedi: "Beynimə bir fikir gəlib. Çəmranın hörməti öz yerində, amma biz gərək özümüzü göstərək".

– Yəni nə edək?

– Biz yavaş-yavaş düşmən mövqelərini öyrənə bilərik. Məsələn, siz bu axşam bir komanda götürüb Tərrah səmtindən kəşfiyyata gedin.

– Yaxşı, gedərik.

Doktor Tərrah istiqamətində Kərxəkur çayının üzərində bir körpü və bənd qurub çayı bağlamışdı. Körpünün yanından şərqə doğru bizim mövqelərimiz başlayırdı; torpaq istehkam qurub mövqeyi bərkitmişdik. Qərb tərəfdə iraqlılar müşahidə səngəri qurmuşdular. Körpüdən cənuba doğru ərazilər də ordunun müdafiə mövqeyi idi.

Cəfər Məhəmmədi, Hüseyn Mahmudi, Cəfər İbrahimi, Məhəmməd Fərəci, Əli Vaizi, Əkbər Xoşabi, Mənsur Kərimi, Mehdi Tahiri, Əli Bəradəran və Abbas Rzapur kimi bacarıqlı uşaqları ayırdım, iki-üç gecə hər dəfə bir komanda ilə körpüyə sarı kəşfiyyata getdik.

Çay yatağındakı adam uzunluğunda otların arasından, sonra da düşmən tanklarının və səngərlərinin yanından keçib ətrafı öyrənirdik. Bizim mövqelərimizə doğru iki tank qoymuşdular; biri ordunun mövqeyinə doğru, biri də bizim. Körpünün arxasında da iki səngər vardı, təxminən həmişə boş idi. Sanki körpünün bu tərəfinə keçməyəcəyimizdən arxayın idilər.

Biz həmişə günəşin batmasına az qalmış yola çıxır, gecənin sonunda öz səngərlərimizə əzadarlığa qayıdırdıq.

Hacı Qasimin yaxşı səsi vardı. O, növhə oxuyurdu, biz sinə vururduq. Onda hələ cəbhədə rövzəxanlıq yayılmamışdı. Hacı məddahlıq edirdi, amma pişnamaz dayanmırdı, qolunu bəhanə edib deyirdi: "Mənim qolum yaralıdır, pişnamaz dura bilmərəm. Başqa birinə iqtida edin".

Qasimin ruhu böyük idi. Uşaqlar qollarını bir-birinin boynuna salıb yadigar şəkil çəkdirəndə o, fotoaparatdan qaçırdı. O həmişə məndən bir addım öndə idi, işlərinin hikmətini anlamaqdan ötrü qaçmalı olurdum.

Tasua axşamı Kərəcdən Abbas Rzapur, Mehdi Tahiri, Qəfur Dilavər və Hacı Qasimin uşaqlarından iki-üç nəfərlə birgə körpüyə, düşmən mövqelərinə doğru yola düşdük. Qərara gəlmişdik ki, bu dəfə tanklardan bir qədər irəli gedək və imkan olsa, tankların işini bitirək.

Həmin gecə göydə ay görünmürdü. Hər yer sakit və çox qaranlıq idi. Əmin idik ki, heç bir təhlükə ilə rastlaşmadan çayın o tərəfinə keçə biləcəyik. Amma bədbəxtlikdən hələ çayın ortasına çatmamış iraqlıların qəhqəhə səsləri gəldi. Allah bilir, nə baş vermişdi. Öz-özümə dedim ki, bunlar haradan peyda oldular?

Uşaqları otların arasında oturdub özüm İraq səngərlərinə yaxınlaşdım. Gülüş səsləri gəlirdi. Səngərlər adamla dolu idi. Elə bil, bayrama gəlmişdilər.

Mən gedib-qayıdınca çox çəkdi. Sübh namazını çay yatağında qıldıq. Hava işıqlanırdı. Bilmədim vuraq, yoxsa vurmayaq. Uşaqlara dedim: "Biz göz önündəyik. Hava da işıqlaşıb. Əgər vursaq, həm özümüzü ələ vermiş olacağıq, həm də mövqeyi həssas edəcəyik. Yaxşısı budur qayıdaq".

Hələ sözüm bitməmiş yer-göyü atəş seli bürüdü, arxasınca minaatan mərmiləri yağmağa başladı. Silahlarımızı götürməyə də macal tapmadıq, üzü üstə

uzanıb yerə yapışdıq. Uşaqlara dedim: "Təşəbbüs onlardadır. Heç nə edə bilməyəcəyik. Gərək qayıdaq".

Qatlanan qundaqlı avtomatı götürüb sinəmə möhkəm yapışdırdım və bir-birimizin arxasınca sürünə-sürünə geri qayıtdıq. Sürünəndə əlimin içi və dirsəklərim daş-kəsəklərə sürtünüb ağrıdırdı, amma qalxa bilmirdim. Qalxsaydım, başım qopardı.

Qumbaraatan köməkçisi Mehdi Tahiri bir qədər geridə, "Ağa seyid, Abbasın böyrünə güllə dəyib, orda qalıb" – dedi və əli ilə arxanı göstərdi. Hirslə dedim: "İndi deyərlər?!"

Uşaqları geri göndərdim. Bir neçə metr getsəydilər, öz istehkamımıza çatacaqdılar. Özüm Qəfurla birlikdə iraqlılara tərəf qayıtdım. Bu dəfə artıq sürünmürdük, əyilə-əyilə gedirdik. Abbas sübh namazını qıldığımız yerdə qanın içində qalmışdı. Qolu dirsəkdən kəsilmiş, qarnı və bağırsaqları bayıra tökülmüşdü. O qədər həyəcanlanmışdıq ki, yanına mərmi düşdüyünü bilməmişdik.

Əlimi başının altına qoyub dedim: "Abbas! Abbas, nə olub?"

Heç nə demədi.

Yəzd dəsmalı, ya da çəfiyə şalı ilə qolunu bazusuna bağladıq ki, düşməsin. Sonra köynəklərimizi çıxardıq, avtomatlarımızın qundağını açıb lülələrini köynəklərimizin qollarına keçirdik və tələsik bir xərək düzəltdik.

Abbası onun üzərinə qoyduq. Tasua günü idi, dayanmadan İmam Hüseyni (ə) çağırırdım. 3 km yolu əyilə-əyilə, bəzən də dizi üstə qayıtdıq. İraqlılar otların tərpəndiyini görən kimi mərmi atırdılar.

Öz istehkamımızın yaxınlığında xərəyi yerə qoyub uzandıq. Nəfəsimiz kəsilirdi. Bir neçə dəqiqədən sonra

Hüseyn Mahmudini çağırdım. Hüseyn təcili yardıma xəbər verdi. Yarım saatdan sonra dedilər ki, maşın xarabdır. Bir furqonlu maşın gəldi, Abbası ona qoyduq. Mən də mindim. Kərəcli uşaqlardan Əmir Səfəri də bizimlə gəldi. Abbas qonşumuz idi, uşaqlıqda bir yerdə oynamışdıq, tək getməsinə ürəyim gəlmədi.

Biz yola düşəndən yağış yağmağa başladı. Bir üçyol ağzında qumlu yer vardı, islanıb palçıq olmuşdu. Maşının təkəri orada ilişdi və irəli gedə bilmədi. Təkərlərə baxmaq üçün yerə enəndə gördüm ki, minalanmış sahənin ortasındayıq. İki tərəfimiz mina ilə doluydu, palçığın içindən başları görünürdü. Bilmədim ki, gedək, yoxsa getməyək. Ancaq Allah-Taalanın böyüklüyündən sürücüyə dedim: "Qardaş, yandan yavaş-yavaş get".

Təsbehimi götürüb Qədr surəsini oxumağa, salavat deməyə başladım. Sürücü dedi: "Ağa, sən ananın canı, getməyək. Başımıza bir iş gələr!"

Tibb məntəqəsi Kutdakı düşərgədə idi. Orada Abbasın yaralarını bağlayıb təcili yardım maşını ilə Əhvazın Şəriəti xəstəxanasına göndərdilər.

Abbası dərhal əməliyyata apardılar. Mən də şəhərin ümumi hamamına getdim. Paltarlarım qana bələşmişdi. Hamamçıdan yuyucu tozu alıb yudum. Hava soyuq idi, yağış yağırdı. Paltarlarımı sobanın üstünə sərdim. Qan izləri qalırdı.

Günortadan sonra xəstəxanaya qayıtdım. Əməliyyat otağının önündə yadıma düşdü ki, Şah Maqsud təsbehimi hamamda unutmuşam. Ancaq bu zaman Abbası əməliyyat otağından çıxardılar. Sağ qolunu kəsmişdilər. Tibb bacısına dedim: "Heç bir yolu yox idi? Kəsməyə bilməzdilər?"

Dedi: "Təkcə dərisi qalmışdı. Heç bir iş görə bilməzdik".

Qarnını da bağlamışdılar. Halı yaxşı deyildi, amma mən onun sağ qaldığına görə şükür edirdim. Narkozdan ayılanda rahat nəfəs aldım, Tehrana zəng vurub Hüseyn Tahiriyə onun yaralandığını söylədim. Hüseyn onu təyyarə ilə Tehrana göndərmək işlərini razılaşdırdı. Gecəni xəstəxanada Abbasın yanında qaldım, ertəsi gün səhər çağı onu Əhvazın hava limanına yola salıb özüm Tərrah istiqamətinə qayıtdım.

Tərrah istiqamətində işimiz mövqeyi qorumaqdan ibarət idi. Doktor Çəmrandan sonra iş ləngimişdi, Nizamsız döyüşlər qərargahı yavaş-yavaş bağlanırdı. İşlərə rəhbərlik edəcək bir adam yox idi. Yalnız Qasim kimilər qalmışdı, az-çox uşaqları vuruşmağa həvəsləndirirdilər. Qasim bizi iki-üç nəfərlik komandalara bölüb hər gecə kəşfiyyata göndərirdi.

Həmin günlərdə dağların qəhrəmanı Əsğər Vüsalinin şəhid olduğunu eşitdim. Əsğər mənimçün cəsarət və mərdlik nümunəsi idi. Ancaq o da getməli idi. Aşura günü şəhid olmağa layiq idi.

Bir dəfə kəşfiyyata gedəndə özümlə qumbaraatan götürdüm. Onda xam idim, bilmirdim ki, kəşfiyyata gedən qumbaraatan və pulemyot kimi ağır silah götürməməlidir. Çünki düşmən mövqelərinə girəndə silah əl-ayağına dolaşır, dəqiq kəşfiyyata mane olur. Həmin gecə İraq mövqelərinin yaxınlığına qədər getdik, amma kəşfiyyat baş tutmadı. Düşmən mövqeyinə 1 km qalmış elə atəş yağdırdılar ki, tərpənə bilmədik. Mən qumbaraatandan bir neçə dəfə atəş açdım, amma yenə də geri qayıtmağa məcbur olduq.

Uşaqlardan Qulam adlı biri o qədər həyəcanlandı ki, iraqlılara atəş açmaq yerinə qumbaraatanın mərmisini göyə atdı. O vəziyyətdə bizi gülmək tutdu ki, görəsən, Qulam haranı vurmaq istəyir. Uşaqlar dedilər: "Qulam ayın işığını söndürdü". Ondan sonra Qulama "Aysöndürən Qulam" deməyə başladılar.

Doktor Çəmranla Müqəddəmpurun yadigarı olan Dehlaviyyənin azadlığından sonra istiqamət komandirlərini bir yerə topladılar. Bostan və Çəzzabənin azadlığından ötrü korpusun nəzarəti altında böyük bir əməliyyat baş tutacaqdı. Düşməni sərhədə qədər geri qovmaq ehtimalı da vardı. Bəziləri deyirdilər ki, Doktor Çəmranın şərəfinə Dehlaviyyədə bir diversiya əməliyyatı həyata keçirmək istəyirik.

Nizamsız döyüşlər qərargahının taleyinin nə olduğunu hamı bilmək istəyirdi. İmam Xomeyni ümumi səfərbərlik elan etdi, yeni yaradılmış orqan olan korpus da rəsmi döyüşçü götürməyə başladı. Orada bir idarə kimi işləyir, maaş alırdılar. Ancaq mən belə yetişməmişdim, həmişə azad olmuşdum, onun-bunun əmri altında yaşaya bilməzdim. Buna görə də, Doktor Çəmranın xatirəsi və onun heç vaxt qəlbimdən çıxmayan eşqi ilə Dehlaviyyəyə getdim.

Dehlaviyyədə ciddi döyüş getmirdi. Mən də bu aşa bir qədər duz səpdim. Dedilər ki, bu döyüş Qüds yolu əməliyyatına hazırlıq üçündür.

O ərəfədə bir gün Hacı Qasimlə Tehrana qayıtdıq. Nə üçün getdiyimizi xatırlamıram, amma avqustun 30-da səhər çağı Nazirlər Kabinetinə getdik. Günorta yeməyini aldığımız yerdə birdən dəhşətli bir gurultu qopdu. Münafiqlərin öncədən binaya yerləşdirdikləri bomba partlamışdı. Partlayış güclü olmuş, səsi ətrafdakı evləri də

titrətmişdi. Tez binadan çıxdıq. Küçədən yanğına baxırdıq. Alov şölələri pəncərələrdən bayıra çıxırdı. Baxdığım yerdə birdən yanan bir adam özünü pəncərədən yerə atdı, bədəni tappıltı ilə yaxınlığımıza düşdü. Camaat həyəcanla toplaşdı. Sonralar bildik ki, o, ağa Kolahduz imiş. Ağa Rəcayi ilə Bahünər də diri-diri yanmışdılar. Yanğın o qədər güclü idi ki, yanğınsöndürənlər söndürə bilmirdilər. Yanğın dayanandan sonra içəri girdik. Hacı Çəhpur məni görən kimi həyəcanla çağırıb dedi: "Seyid, bu otağın qabağında dayan. Ehtiyatlı ol... Bu otaqda bir qədər qızıl var. İndi camaat bura tökülüşəcək".

Acı hadisə idi. Ağa Rəcayinin şəhadəti ölkəyə ağır zərbə oldu. Bir müddət onun yanında yaşadığımıza, işlədiyimizə görə isə bizim üçün olduqca ağır və üzücü idi. Ağa Rəcayi elə yanmışdı ki, xanımı onu dişlərindən tanımışdı.

Sonralar məlum oldu ki, yalançı saqqalları ilə pişnamazlıq edən və etimad bəslənən iddialılar əks-inqilabçı və təxribatçı çıxmışdılar. Biz xain Kəşmiri kimilərin arxasında namaz qılmışdıq. Mən Nazirlər Kabinetində çoxları ilə tanış oldum, amma onu heç vaxt tanımadım. Onda bütün otaqların açarı vardı. Kimin binanın içində olacağını, kimin cibinin yoxlanmalı olduğunu o söyləyirdi. O, bombanı çox arxayın şəkildə iclas masasının altına qoymuşdu. O zaman ölkənin vəziyyəti belə idi. Kim hansı rolu istəyirdisə, oynayırdı, hər bir cildə girirdi, hamı da inanırdı. Sonralar eşitdim ki, dostları Kəşmirini xaricdə öldürüblər. Terrorçu və təxribatçı mafiyaların adəti belədir. Hər halda, bir zamanlar Baş nazir kimi müəllimimiz olmuş ağa Rəcayinin şəhadəti həyatımın ən acı xatirələrindən biri

oldu. O bu ölkədən ötrü çox əziyyət çəkmişdi, gördüyü xidmətlərin təsiri bu günədək qalır.

Cəbhəyə qayıdandan sonra yenə partizan döyüşlərini davam etdirdim. Hacı Qasim Kərəcə qayıtdı, bəzi səbəblərdən cəbhədə rolu azaldı. O zaman onun bir qızı, bir oğlu vardı. O, müharibəyə xidmət üçün başqa bir plan düşünürdü. Deyəsən, mənim kimi o da korpus çərçivəsində işləyə bilmir, azad olmaq istəyirdi.

O müddətdə məhəllə uşaqlarımızdan və könüllü qüvvələrdən bir qrupla daha çox Azadeqan düzünün şimalındakı qumlu bölgələrdə, Qüds yolu əməliyyatının bir hissəsində işlədim. Bu əməliyyatda tədricən kəşfiyyat, diversiya və keçid açmaqda gücləndik, öz-özünə minaçı dəstələr formalaşdı.

Yadımdadır, bir əməliyyatda Həmədandan təxminən 100 eşşək gətirmişdilər. Əvvəlcə dişi erkəyi minalanmış sahəyə buraxdılar, erkək eşşəklər də onun eşqi ilə girib uşaqlara yol açmağa başladılar. Ancaq dişi eşşək minaya düşüb partlayanda digərləri də qorxub dayandı. Zəncir və iplə nə qədər vurub itələdiksə, tərpənmədilər. Mən orada uşaqlara məhəlləmizdəki Məşdi Əlinin əhvalatını danışdım:

- Məşdi Əlinin bir qatırı vardı. Hər gün şəhərin bayırından ona qum və gəç yükləyib gətirir, məhəllədə satırdı. Sadə və təmiz qəlbli bir qoca idi, halal ruzisini qazanırdı. Bir gün gördüm ki, çox hirslidir. Arxın bu tərəfində dayanıb yazıq heyvanı vurur, qışqırırdı ki, get, it oğlu! Dedim ki, Məşdi Əli, nə olub? Dedi: "Bir neçə gün qabaq bu it oğlunun ayağı arxın millərinə ilişib. İndi keçməyə qorxur, yerindən tərpənmir".

Uşaqların biri gülüb dedi: "Biz bu eşşəklərdən də pisik. Yüz dəfə ayağımız ilişsə də, əl çəkmirik".

Başqa biri soruşdu: "Axırı Məşdi Əlinin qatırı keçdi, ya yox?"

Dedim: "Çubuq və zəncir gücünə keçdi".

Eşşəklər işə yaramayanda qərara alındı ki, yüngül uşaqlar minalanmış sahədə uzansınlar, digərləri onların üzərindən keçsinlər. O dövrdə hələ peşəkar minaçı qruplar yaradılmamışdı, bəzi qüvvələr çarəsiz qalanda və əməliyyat təhlükəyə düşəndə belə fədakarlıq edirdilər. Komandirlər yolu açmaq üçün döyüşçüləri seçəndə məhəllə uşaqlarımızdan 15 yaşlı Əmir Məzahiri bölük komandirinə yaxınlaşıb əvvəlcə xahişlə, sonra ağlayıb yalvara-yalvara dedi: "Nə üçün məni minalanmış sahədə uzanmağa seçmədilər? Mən də orada olmaq istəyirəm".

Həmin gecənin macərası uzundur. Mən vəzifəmlə bağlı orada qalmayıb Əmirin axırını görə bilməsəm də, əməliyyatın ertəsi günü eşitdim ki, onunla döyüş yoldaşının ağırlığı həddindən artıq olub və mina gözlənilmədən partlayıb. Əmirin dabanı qopmuşdu. Bir müddətdən sonra Baharlı xəstəxanasına gedib onu ziyarət etdim.

Nizamsız döyüşlərdə yoldaşımlarımdan biri də Şəhid Əbülfəz Meyvəçi idi. O da Boyaqçılar küçəsindən idi, müharibənin ilk şəhidlərindən olmuşdu. Sonralar küçəmizin adını Əbülfəz Meyvəçi küçəsi qoydular. Allah ona rəhmət eləsin!

Mən Qüds yolu əməliyyatının ikinci mərhələsində iştirak etmədim, 1981-ci ilin dekabrının ortalarında Tehrana qayıtdım.

# Yeddinci fəsil

Bir-iki gün evdə istirahət etdim. Tehranın böyük alimlərindən olan Ayətullah Cavad Ələmülhüdanın nəzarəti altında Ziba prospektində fəaliyyət göstərən Yetimlər cəmiyyətinə baş çəkdim. Tehranın tacirləri bu cəmiyyətə yardım edirdilər. Fatimə xanım bir müddət idi orada işləyir, cümə axşamı günləri yetim ailələrinə ərzaq paylayırdı. O, ömründən istifadə edir, keçən günlərin də əvəzini çıxırdı. Çoxları dünyaya əsir olmuşdu, amma dünya Fatimə xanımın əsiri idi. Hacı Hüseyn Cabiri həftədə bir neçə qoyun kəsirdi və hər ailə siyahı üzrə payını alırdı.

Doğrudan da maraqlı və həssas dünyadır, Allahın yaratdıqlarına xidmət etmək səadəti hər kəsə nəsib olmur. Kamil arif olan Hacı Haqşünas buyururdu: "Məşuqa qovuşmağın ən yaxşı və ən etimadlı yolu Allahın yaratdıqlarına xidmət etməkdir".

O günlərdən illər ötür, Hacı Hüseyn Cabiriyə, Fatimə xanıma və digər xeyriyyəçilərə indi də dua edir, ruhlarına salavat deyir, ehsan verirlər. Mən də həmişə Allahdan

istəyirdim ki, vuruşmağım və güllə atmağım Onun razılığından ötrü olsun.

Hər halda, bir qədər istirahət edib həyatın ləzzətini dadan kimi ətirsatanımız Hacı Qulam çağırıb dedi: "Hacı Qasim zəng vurub, səninlə işi var".

Getdim. Hacı dedi:

– Seyid, komanda toplaya bilərsən?

– Hara üçün?

– Qərbdə vəziyyət pisdir. Vəlfəcr-hazırlıq əməliyyatı olub, indi müdafiə üçün uşaqların köməyə ehtiyacları var.

– Görüm necə olur.

Axşam Tofiq məscidində cəbhənin köməkçi istədiyini elan etdim. Nizamsız döyüşlər qərargahında birlikdə vuruşduğumuz uşaqların yarısı hazırlığını bildirdi. Hacı Abbas Zeynəlabidin də onlara əlavə olundu.

Abbas Zeynəlabidin 50 yaşlı, 130 kilolu mənəviyyatlı bir kişi idi, bazarda dəmirçi dükanı vardı, qapı, pəncərə və kiçik yük maşınlarına baqaj kabini düzəldirdi. Vaxtilə Tehranın pullu adamlarından olmuş, sonra iflas etmişdi.

Abbas sadə insan idi, mənəvi paklığına görə cəbhəyə gedib xidmət etmək istəyirdi. Bişir-düşürü yaxşı idi, amma ilk dəfəsi olduğuna görə, yolunu bilmirdi.

Ertəsi gün dekabrın 22-i idi. İyirmi nəfər biz idik, iyirmi nəfər də Hacı Qasimin məhəlləsindən. Bir avtobus tutub içinə doluşduq. Yolda mərsiyə oxuyub sinə vurduq, günbatan çağı Gilanqərb korpusunun düşərgəsinə çatdıq.

Bizi iki-üç çadıra yerləşdirib dedilər ki, bu gecəni burada qalın.

Gecənin yarısı yatdığım yerdə bir nəfər məni çağırdı: "Seyid... Seyid..”.

Yuxudan ayıldım. Qonşumuz Abbas Zeynəlabidin idi. Narahat idi, əlini qarnına qoymuşdu.

– Nə olub, ağa Abbas?

– Seyid, gəl... Sən Allah, gəl.

Qalxıb lampanı götürdüm, çadırdan bayıra çıxdıq. Hava soyuq idi, uşaqlar yatmışdılar. Dedim ki, nə olub? Dedi:

– Tualetə getmişdim. Ancaq aftafadakı benzin idisə, nə idisə, məni yandırdı.

– İndi mən nə edim, ağa Abbas? Gecənin yarısı kimə deyim? Tibb məntəqəsinə getsək, onlara nə deyim?

Bir aftafanı su ilə doldurub ona verdim:

– Hələlik özünü bununla yu, səhər tezdən tibb məntəqəsinə gedərik.

Cəbhədə yaşlılar üçün belə problemlər yaranırdı: soyuq, isti, yuxusuzluq və digər çətinliklər. Çoxları gənclərdən də yaxşı dözüb səslərini çıxarmırdı, üstəlik, uşaqlara atalıq da edirdi.

Səhər çağı Abbas yaxşılaşmışdı. Onu diviziyanın dəmirçi sexinə aparıb təqdim etdim, özüm yenə çadırlara qayıtdım.

Həmin gün yenə bir neçə Toyota avtomobilinə mindik. Hara getdiyimizi bilmirdik. Yağış yağırdı, yer islanıb palçıq olmuşdu, maşın yavaş gedirdi. Bir saatdan sonra bir dərənin yaxınlığında maşından endik. Bizimlə bir neçə bələdçi də vardı. Önə keçdilər, biz də arxalarınca sıra ilə yola düşdük. Bir yerdə dayanıb dedilər: "Bura Banseyran bölgəsidir, sizin müdafiə mövqeyiniz. Gərək bu təpələrə çıxasınız”.

Təcrübəmə və yaşıma görə avtomatik olaraq qırx nəfərin komandiri oldum. Çox hündür olmayan təpəyə də qalxdıq. Bələdçi dedi: "Bir neçə gün qabaq Şiyakuh yüksəkliyində Vəlfəcr-hazırlıq əməliyyatı baş tutub, birinci mərhələ bitib. Banseyran üç yanbayan təpədən ibarətdir. Siz ən kiçiyi olan ortadakının başında müdafiə

mövqeyi seçəcəksiniz. Döyüşlər sol istiqamətinizdə gedir, sizə aidiyyəti yoxdur. Uşaqlar bu yüksəklikdən, habelə 1150 və 1100 saylı təpələrdən çoxlu əsir tutublar. Bu əməliyyatı korpus uşaqları həyata keçirdilər, ancaq düşmən yüksəkdə olduğuna və helikopterlə canlı qüvvə daşıdığına görə yüksəkliyi yenidən aldı".

Əməliyyat barədə xəbərlər ağız-ağız dolaşırdı. Kəşfiyyat komandiri və müharibə qəhrəmanı olan İbrahim Hadi yaralanmışdı. Onun və digərlərinin rəşadət hekayələri bizi heyrətə salırdı.

Cəsur mücahid Şeyx Mahmud Qəffarinin şəhid olduğunu da orada eşitdim. O, müşahidə zamanı şəhadətə qovuşmuşdu. Böyük ruhu vardı. Allah rəhmət eləsin!

Yolda bələdçi bizə deyirdi:

- Əməliyyatın birinci axşamı gecə saat 11-də uşaqlar yamaclardan bu təpəyə qalxanda heç bir düşmənlə rastlaşmamış, döyüşə girməmişdilər. İraqlılar ya yolda imişlər, ya da hardasa işləri düyünə düşübmüş. Allah bilir! Döyüş ertəsi gün olmuşdu; üz-üzə və əl qumbaraları ilə. Günortaya yaxın düşmən geri çəkilmişdi. İbrahim Hadi namaz vaxtı həmişə azan verirmiş. O, azan verəndə düşmən snayperi düz boğazından vurub və o yıxılıb.

Əməliyyatda iştirak edən ordu qüvvələri etiraz ediblər ki, bu bizi ələ verir, məgər əməliyyatda azan verərlər?! İyirmi dəqiqədən sonra isə o tərəfdən eşidirlər: "Dəxil Xomeyni! Dəxil Xomeyni!" Bir neçə yüz iraqlı öz ayaqları ilə gəlib təslim olub. Ərəbcə bilən bir nəfər soruşub ki, nə üçün təslim oldunuz? Onlar deyiblər: "Biz elə bilirdik ki, siz atəşpərəst və məcusisiniz. Azan səsini eşidəndə bildik ki, bizim kimi müsəlmansınız. Buna görə təslim olduq".

Bu əməliyyatda iraqlılar zirvəni ələ keçirəndən sonra bizim şəhid və yaralılarımızı oradan dərəyə atırmışlar.

Uşaqların cəsədləri aşağı çatana qədər parça-parça olurmuş, bir yerə toplamaq çətinləşirmiş. Mürtəza Zöhrəvənd orada çox qəhrəmancasına vuruşmuşdu. Onun uca boyu, böyük və güclü qolları vardı. Korpusun dördüncü batalyonundan idi. Bu adam həmişə ayaqyalın yeriməyə vərdiş edibmiş. Hər gecə saat 2-də gecə namazını qılandan sonra təkbaşına və ayaqyalın dağlara, yamaclara qaçır, dərə-təpələrdən cəsədləri belinə qoyub 1700 metrlik yolu gətirirmiş ki, şəhidin cəsədi sağlam qalsın. Hava işıqlaşanda görürmüşlər ki, yerdə şəhid cəsədləri var. Hər gecə bu işi görürmüş.

Bu xatirələrdən, qəhrəmanlıqlardan o qədər danışıb-dinlədik ki, müdafiə səngərlərinə çatdıq. Bölgə barədə məlumatımız yox idi. Daha yüksəkliklərə yerləşmiş iraqlılar bizi tank və minaatanla vura bilərdilər.

Müdafiə mövqeyimizə çatanda iraqlıların diqqətini cəlb etmədən sakitcə hazır səngərlərə yerləşməyə çalışdıq. İkinci gün səngərimizin yanına bir mərmi düşdü, noxud boyda bir qəlpəsi qoluma girdi. Nə qədər etdimsə, qanı dayanmadı. Dəsmalla möhkəm bağladım, yenə dayanmadı. Çarəsiz qalıb tibb məntəqəsinə getdim. Həkim dedi ki, qəlpə damara dəyib, gərək tikilsin.

Məni təcili yardım maşını ilə Eyvan şəhərinə xəstəxanaya göndərdilər. Orada bir göz qırpımında yaramı tikib bağladılar və xüsusi problemim olmadığına görə həmin gün də buraxdılar.

Pəhləvan Abbasa baş çəkmək və gecəni qalmaq üçün Eyvandan Gilanqərbin kənarındakı düşərgəyə getdim. Əşya və ərzaq xidmətinə gedib dedim: "Mən Tehrandanam. Biz srağagün gəlmişik. Bir dəmirçi dostum var, bura kömək etməyə gəlib".

– Məzuniyyətə gedib.

– Srağagün gəlib, nə tez getdi?

Şəhərdə bir telefon tapıb Abbasgilə zəng vurdum. Oğlu dəstəyi götürüb dedi: "Atam evdədir. Onun üçün yolasalma ehsanı bişirirdik, bir də gördük ki, gəldi".

Abbasın niyyəti xeyir idi, amma cəbhədə bir gündən artıq qala bilməmişdi.

Müdafiə səngərlərindəki uşaqların yanına qayıtdım. İşlər plan üzrə görülməyə başladı. Birinci iş təpənin ortasında qarovul səngəri qurmaq və hava dumanlı olanda yolu itirməyək deyə ağ lent çəkmək idi. Orada duman olanda bir addımlığımızı da görə bilmirdik.

Yerləşdiyimiz səngərlər bizdən qabaq urmiyalı uşaqların olmuşdu. Təpənin döşündə alçaq tavanlı yarımmetrlik səngərlər vardı, tərpənməyə yer yox idi. Uşaqlara dedim ki, səngərləri dərinləşdirin, içində əyilə-əyilə gəzməyə məcbur olmayaq.

Tualet üçün də dərəyə enirdilər. Biz heyət üzvü olmuşduq, belə tualetlər bizim yolumuzla, əxlaqımızla uyğun gəlmirdi. Yaxşı bir tualet düzəltməli idik.

Əvvəlcə təpənin döşündə 2 metr dərinliyində və 2 metr diaqonal ölçülü bir çala qazdıq, üstünü piltə və sellofanla örtdük. Bir tərəfinə uzun soba borusu və bir əymə qoyduq, bir qədər aralıda kiçik bir çala qazıb həmin boruya birləşdirdik və ayaq yeri düzəltdik. Yerə dörd bağlı boru qoyub kisə və çadırla örtdük. Əla bir tualet əmələ gəldi.

Banseyranın aşağısında bir bulaq vardı. Uşaqlar növbə ilə gedib kanistrləri su ilə doldurur, çiyinlərinə atıb gətirirdilər. Gördüm ki, belə olmaz, uşaqların enerjisi hədər gedir.

Bir gün diviziyanın anbarına gedib bir çən aldım, bir axşam maşının arxasına qoyub ehtiyatla yuxarı qaldırdım. İraq tərəfi Orta Banseyran istiqamətinə bir tank qoymuşdu,

keçənləri vururdu. Biz maşının işıqlarını söndürüb qalxdıq və çəni salamat çatdıra bildik.

Düşmənin hədəfində olmayan təhlükəsiz bir yeri qazıb çəni oraya qoyduq, üstünü kisələrlə örtdük. Uşaqlara başa saldım ki, suyu israf etməsinlər. Çənin yanına palçıq dolu bir kasa qoydum ki, qabları əvvəlcə sürtsünlər, sonra suya çəksinlər.

Bir neçə gündən sonra beynimə bir fikir gəldi. Düşündüm ki, bir hüseyniyyə düzəltsək, yaxşı olar. Hüseyn Mahmudi ilə gedib yerini tapdıq və qazmağa başladıq. Bərk daşa çatanda əl qumbarası ilə partladırdıq. Təxminən 4 metr enində və 15 metr uzununda bir yer əmələ gəldi. Kisələri torpaqla doldurub üst-üstə düzdük. Ancaq iki cərgə qalxan kimi kisələr tökülürdü. Uşaqların biri mahir bənnalardan idi. Kisələri səliqə ilə düzüb bir-birinə bağladı.

Tavandan ötrü taxtaya ehtiyacımız vardı. Ordunun bizim solumuzda yerləşən düşərgəsinə gedib dedim: "Taxta varınızdır?"

Bir nəfər dedi: "Yox. Əgər olsaydı da, verməzdik".

Həmin axşam özüm gedib icazə almadan taxtaları gətirdim, kisələrin üstünə atıb üstünə list dəmirlər döşədik.

Hüseyniyyə düzəldi. Bütün namazları orada cəm halda qılır, Təvəssül duası oxuyur, əzadarlıq edirdik. Hüseyniyyəyə məsul şəxs Əmir Məzahiri idi. Oranı həmişə təmiz saxlayırdı.

Höccət Şəmsianla Əli Bəradəran anbarda işləyirdilər. İki qatırları vardı, həftədə bir dəfə gedib diviziyanın anbarından lazım olanları gətirirdilər. O zaman əsas xörək balıq konservi idi, isti xörək yemirdik. Pendir və qatıqla quru çörək də yeyirdik. Çox dadlı olurdu. Onu daha çox Məlayirin köçəri əhalisi göndərirdi.

Hər səkkiz nəfərin bir yemək paylayıcısı vardı; ərzağı alır, süfrəni sərib yığışdırır, əvəzində qarovul çıxmırdı.

Bir gün Höccət Şəmsian anbardan qayıdanda çox narahat görünürdü. Dedim ki, nə olub?

– Bir yaralımız var, - deyə cavab verdi.

– Doğrudan?! Kim?

– Gələndə mərmi düşdü, iki qəlpəsi qatırımın qarnına girdi.

– İndi hardadır?

– Orda qalıb, qarnından qan axır, – deyib yamacı göstərdi.

– Get, onu vur. Yazığın əzab çəkməsi yaxşı deyil.

– Mən vura bilmərəm. Mənim işim deyil.

İki nəfəri göndərdim, qatırı sürüyə-sürüyə aparıb təpənin başından yerə atdılar.

İraqlılar Pələng dərəsində naryadda olan uşaqlarımızdan birini oğurladılar. Qarovul oğurlayıb məlumatlarını öyrənmək müharibədə geniş yayılmış bir üsul idi. Çünki onlar həmişə tək olurdular. Oğurlanan qarovulun adı yadımda deyil, taleyindən də xəbərim olmadı.

Uşaqlarımızın arasında Əmir adlı arıq bir oğlan vardı. Ona "Pələng Əmir" deyirdik. Səmimi və bir qədər səliqəsiz idi.

Düşmən bizim koordinatlarımızı öyrənmək üçün bəzi gecələr tüstü bombası atırdı. Bu zaman Əmir yerə uzanırdı ki, qəlpə dəyməsin. Çox deyirdik ki, bunlar yalnız tüstü buraxır, təhlükəsizdir, o isə qulaq asmırdı.

Bir gün o qədər oyan-buyana atıldı ki, silahının qundağı sındı. Silahı aparıb anbara təhvil verdim. Müdafiə mövqeyində olduğumuz axırıncı gün əşyaları təhvil alanda

silah üzrə məsul şəxs dedi: "Ağa seyid, uşaqlarınızdan biri silahının qundağını sındırıb. Cavabdeh sizsiz?"

Əmiri ələ verməməkdən ötrü dedim: "Kəşfiyyata getmişdik. Uşaq orda yıxıldı, silahının qundağı sındı. Onun günahı deyil".

– O uşağın adı nədir?

– Pələng Əmir.

– Onu görə bilərik?

Əmir gələndə həmin şəxs dedi: "Əşi, bu ki pişik də deyil, adını niyə Pələng qoymusuz?"

Axırda silahı qəbul etdi və problem həllini tapdı.

Yerimizi tərk etməzdən öncə bir gün Gilanqərb düşərgəsinə getdim. İbrahim Hadi xəstəxanadan təzə çıxmışdı. Dedi ki, Dokuhəyə getmək istəyirik, siz də uşaqlarınızla gəlin.

Tez gedib məsələni uşaqlara söylədim. Həmin gecə uşaqların bir qismi ilə əşyalarımızı təhvil verib bir mikroavtobusla Tehrana qayıtdıq. 1982-ci ilin mart ayı idi, novruza az qalırdı.

Bir gecə Tehranda qaldım, ertəsi gün təkbaşına qatara mindim. Biletim də yox idi. Sərnişinlərin arasına girib Dokuhəyə getdim. Hələ oranı tanımırdım, adını ilk dəfə idi eşidirdim. Ancaq bilirdim ki, qatar Əndimeşkə gedir və mən ondan iki stansiya öndə düşməliyəm.

Dokuhə binaları uzaqdan görünürdü. İdarə evlərinə oxşayırdı, bloklar yan-yana düzülmüşdü. Qatardan endim, bir qədər piyada gedib düşərgəyə çatdım. O zaman Hacı Əhməd Mütəvəssilianın komandirliyi ilə "Məhəmməd rəsulullah (s)" briqadasının yaradılması haqda söhbət gedirdi. Hacı Əhməd Kürdüstanda parlamışdı. Mənim kimi çoxları onun eşqi ilə gəlmişdi, onun əmri altında

vuruşmaq istəyirdi. Məhz buna görə düşərgədə qiyamət idi, döyüşçü əlindən yer yox idi.

Bir qədər həyətdə gəzişib Mürtəza Zöhrəvəndi gördüm. Vəhidiyyə uşaqlarından idi, onunla salam-kəlamımız vardı. Soruşdum ki, sən hansı batalyona gedirsən: Dedi: "Gəl, gedək dördüncü batalyona. Komandiri Əsğər Rəncbərandır, tehranlı uşaqların çoxu ordadır".

– Nə edəcəyimi bilmirəm. Mən azad döyüşçüyəm, amma sənə görə gələrəm. Ertəsi gün yaxınlaşıb özümüzü təqdim edərik.

Ertəsi gün batalyona getmək vaxtı Mürtəza sözündən dönüb dedi: "Mən gəlmirəm".

– Nə üçün? Mən sənə görə dördüncü batalyona gedirəm.

– Amma mən Allah üçün gəlmişəm, dostluq əsiri olmaq istəmirəm. Bir batalyona qoşulub tanınmaz halda döyüşə gedəcəm.

Bu sözündən sonra dilxor oldum, dördüncü batalyonun xeyrindən keçdim. Mən də Mürtəza kimi tanınmaz halda döyüşə getmək istəyirdim, amma tale məni Həbib batalyonunun bayrağı altına saldı.

Həbib batalyonunun komandiri döyüş qəhrəmanlarından olan Möhsün Vəzvayi idi. Mən Abbas Vəraminінin başçılıq etdiyi ikinci bölüyə düşdüm və onun ikinci müavini oldum. Birinci bölüyün komandiri Məcid Ramazan, ikinci bölüyün komandiri də İmran Posti idi. Bütün batalyonda 1200 nəfər vardı.

1982-ci il, martın sonlarında Fəthülmübin əməliyyatı başlandı. Əməliyyat parolu "Ya Zəhra" idi, Həbib batalyonu əməliyyatın ikinci mərhələsinə qoşulacaqdı.

Özümü diviziyanın düşərgəsinə yetirdim. Həbib batalyonu yola düşdü. Abbas düzündə qaranlıqda 17 km

piyada gedəndən sonra hücum nöqtəsinə çatdıq. Vəziyyət bir qədər şübhəli idi. Mən ikinci bölüyün kolonunun bayırında gedirdim, Abbas Vəramini kolonun başında idi. Hələ heç kimlə dostlaşmamışdım, yalnız məsul şəxsləri tanıyırdım. Bölüklərin arasında bir neçə metr məsafə vardı, uşaqlar ayaqlarını öndəkilərin ayaqlarının yerinə qoyurdular. Kolonun nizam-intizamını pozmaq qadağan idi.

Düzənlikdə sakitlik idi. Geniş düzənlik sükuta qərq olmuşdu, heç bir istehkam və sığınacaq görünmürdü. Yeganə işıq arabir uzaqlarda atılan fişənglərdən gəlirdi.

Saatımız yox idi, ancaq bilirəm ki, gecə 12-dən sonra dayanmaq əmri verildi. Su dolu bir çaya çatmışdıq. Silahlarımızı başımız üstə tutub suya girdik. Su belimizə çatırdı, axın nisbətən güclü idi. O tərəfdən çıxanda başdan-ayağa islanmışdıq. Yüz metr irəlidə yenə dayanmaq əmri verdilər. Abbas Vəramini dedi: "Bura Tank təpəsidir".

Şəxsi heyət istirahət etmək üçün oturdu, mənsə batalyon kolonunun başına getdim. Möhsün ratsiyadan Hacı Əhmədlə danışırdı. Deyirdi ki, yolu itirmişik, bələdçi heç nə bilmir.

Hacı Əhməd deyirdi: "Onlar əl görüşdülər. Sən nə üçün görüşmədin?"

– Biz çaş-baş qalmışıq. Çobanlar... Çobanlar...

Orada bildik ki, yolu azmışıq. Uşaqların arasına pıçapıç düşdü. Bütün gözlər Möhsünə dikilmişdi. Bu kor düyünü necə açacağını bilmirdik.

Birdən ayağa qalxıb batalyondan uzaqlaşdı. Qaraltısını görürdük, kənarda namaz qılırdı.

Uşaqlar kolondan çıxıb dedilər: "Əgər namaz vaxtıdırsa, deyin, biz də iqtida edək".

Həmin gün Möhsünün nələr çəkdiyini bir Allah bilər. 15-20 dəqiqədən sonra qalxıb çox əmin şəkildə bizə yaxınlaşdı və dedi: "Qardaşlar, qalxın, hərəkət edin". Bələdçi dedi: "Hara? Əgər irəli getsəniz, daha çox azacaqsınız. Bu çöllüyün əvvəli-axırı məlum deyil. Hava işıqlansa, mühasirəyə düşərsiniz".

Möhsün ona məhəl qoymayıb dedi: "Qardaşlar, yola düşün".

Elə davranırdı ki, elə bil, əlli ildir oranı tanıyır. Sıra ilə yola düşdük. 500 metr gedəndən sonra dedi: "Sübh namazıdır. Yeriyə-yeriyə namazlarınızı qılın".

Uşaqlar təyəmmüm alıb kolonun içində yavaşca namazlarını qıldılar. Bəziləri sözə baxmayıb sıradan çıxdılar, dayanıb namazlarını qıldılar. Sonralar bildim ki, ora Eynxoş-Əndimeşk asfalt magistralının yaxınlığı imiş.

Yarım saat keçməmiş uzaqdan artilleriya atəşinin səsi gəldi. Bildik ki, sağ və solumuzdakı batalyonlar döyüşə başlayıblar. Uşaqların biri dedi: "Onlara bax, Əli Girehzəd təpələrindədirlər".

Mən ikinci bölüyün yanına qayıtdım. Möhsün iki bölüyü təpələrin sağ-soluna göndərdi ki, döyüş başlansa, orta kolonu qorusunlar. Sonra bir dərəyə girib yamacdan qalxmağa başladıq. Səhərin ala-toranlığında təpələrin qaraltısı yaxşı görünürdü. Bir neçə dəqiqədən sonra hündürlükdə idik. Bir də gördük ki, dərənin içində 70-80 top yan-yana düzülüb. İraqlılar dağın döşündə dayaz yerlər qazıb topları yerləşdirmişdilər.

Möhsün dedi: "Bu topların mərmiləri dezfulluların payı imiş. Yavaşca onları mühasirəyə alın".

Uşaqlar təpənin başına və yamacına səpələndilər.

Əli Müvəhhid havaya bir atəş açdı. Güllənin səsi gecənin sükutunu pozdu, bunun arxasınca topların

arasında və səngərlərin içində yatmış iraqlılar əllərini başlarına qoyub mat-məəttəl bayıra çıxdılar və yenə "Dəxil Xomeyni! Dəxil Xomeyni!" səsləri ucaldı.

Tapşırığımızı uğurla yerinə yetirmişdik. Hamımız bu böyük qənimətə sevinib təkbir dedik. Əməliyyat İslam döyüşçülərinin xeyrinə gedirdi. Bir tərəfində Möhsünün pak qəlbinin və uşaqların imanının, digər tərəfində də işğalçı düşmənin və 94 topun olduğu oyun birtərəfli olmuşdu.

Əmin olduq ki, Allah-Taala bizə lütf edib. Əkstəqdirdə, bir batalyon bu qədər yolu necə sakitcə düşmənin başı üstə gələ bilərdi!

Həmin gün günortaya qədər dəstə-dəstə əsir endirdik. Onların arasında bir düşmən generalı da vardı. Qumqumalarını doldurub hamısını geri göndərdik.

Günəş çıxandan sonra Əlirza Nahidi, Möhsün Nurayi və Yusif Kabuli toplardan istifadə tərzini öyrənmək üçün bir iraqlı əsiri gətirdilər. Korpusun ilk dəfə onda topu oldu. O vaxta qədər əsas texnika orduda olurdu.

Düşmənin qarşısını almaq üçün topları Riqabiyyə yüksəkliyinin arxasına apardılar. Uşaqlar dedilər: "Nişan alıb Riqabiyyənin döşündəkiləri vuracağıq. Bəəsçilərin atalarını yandıracağıq!"

Bu əməliyyat martın sonuna qədər bitdi və Möhsün Vəzvayi orada yaralandı.

Mürtəza Zöhrəvəndi axırıncı dəfə orada gördüm. Qarnına güllə dəymişdi, ancaq o vəziyyətdə yeriyirdi. Bədəni güclü idi. Bir əlini qarnına qoymuşdu, o birində də çamadan vardı. Soruşdum ki, bu nədir? Dedi: "İraqlıların səngərlərində tapdım. İçi pulla doludur. Diviziyaya təhvil verməyə aparıram".

Bir neçə gündən sonra eşitdim ki, döyüşlərin birində şəhadətə qovuşub.

Topları qənimət götürəndən sonra vəziyyət bizim xeyrimizə çox dəyişdi. İraq tərəfi xüsusi bir iş görmürdü, ağlı başına gəlmişdi.

Hər halda, aprelin əvvəllərində Tehrana qayıtdım. Bəzi dostlarımızın şəhid olması, bəzilərinin də yaralanması bizi Tehranda məşğul etdi. Hər gün uşaqlarla birlikdə yaralı dostlarımızı ziyarət etməyə gedirdik. O günlərdə şəhər ilahi rəngə boyanmışdı, insanlar bir-birinə qarşı mehriban idilər, qohum ziyarəti, ehsan, yaxşılıq və xidmət geniş yayılmışdı. Məhəlləmizdə Xeyrullahın və iki qohumunun Nissan markalı kiçik yük maşınları vardı, göyərti satmaqla halal çörək qazanırdılar. Bizi məhəllənin məscidindən şəhid evlərinə və ya xəstəxanalara aparırdılar, maşınları eşq karvanına dönmüşdü.

Fatimə xanım həftədə bir dəfə ziyarət proqramlarını xəstəxanalarla razılaşdırırdı.

Məhəllənin xanımları Seyid Əmir Bətayinin, Mehdi Münfəridin və Ərəbzadənin zəhmətləri sayəsində aprel və may aylarında həftədə iki dəfə ekskursiyaya gedirdilər.

Dostların hamısı yekdilliklə döyüşə hazır idi. Məsih, Canfərsa, Kaşani, Kazimi, Məzahiri, Ruhullahi, Fərəci və Xoşabi o zaman məhəlləmizin ilahi nəğmə qrupunun üzvləri idilər. Sonralar onların bir qismi şəhid oldu, bir qismi yaralandı.

# Səkkizinci fəsil

1982-ci il, may ayının əvvəllərində bir gün ağa Fəxrəddin Hicazinin qardaşı oğlu Xəlil Hicazini gördüm. Dedi ki, böyük bir əməliyyat olacaq, sabah cəbhəyə gedirəm.

Ertəsi gün səhər çağı Əmir Bəradəran, Mustafa Kaşani, Məhəmmədrza Bəqayi və Əli Vaizi ilə birlikdə Xəlil Hicazi ilə görüşdük, qatarın kupesinə doluşub günbatan çağı Əndimeşkə çatdıq, oradan Toyota avtomobili ilə Dokuhəyə getdik. Xəlil Hicazi uşaqlar arasında böyük hörməti olan əmisinə görə batalyonların yerini soruşdu. Bildik ki, canlı qüvvə Əhvazdan 70 km aralıda yerləşən Atom Elektrik Mərkəzinin binasına yerləşmişlər.

Yolüstü Əhvazda dayandıq. Şəhərdə bir qədər gəzib oranın böyük otellərindən olmuş və müharibədən sonra xəstəxanaya çevrilmiş Mayami otelində qaldıq.

Ertəsi gün uşaqlar dedilər ki, Beytülmüqəddəs əməliyyatının birinci mərhələsi başa çatıb. Həbib və Malik batalyonları birinci gecə mövqeyi yarıb Karundan keçmiş, Əhvaz-Xürrəmşəhr magistralına çatmışdılar. Xürrəmşəhri

azad etmək və düşməni sərhədə qədər qovmaq istəyirdilər. İş Hacı Əhmədin əlində idi, biz də onunla birlikdə olmaq istəyirdik.

Həmin gün axşama qədər elektrik mərkəzində qaldıq. O qədər canlı qüvvə gəlmişdi ki, saxlamağa yer tapılmırdı. Uşaqların qərarını gözləməyib günbatan çağı təkbaşına Əhvaz-Xürrəmşəhr magistralına və ön xəttə yola düşdüm. Həbib batalyonunu axtarırdım, Möhsün Vəzvayinin yanında vuruşmaq istəyirdim.

Yolda Möhsünün çaparı olan qonşumuz Hüseyn Tahirini gördüm, motosikletinə minib Həbib batalyonunun mövqeyinin yaxınlığına qədər getdim. Orada arxası silah-sursatla dolu olan təcili yardım maşınına mindim. Maşın Həbibin istehkamına qədər getdi. Silah-sursatı təhvil verib yaralıları geri gətirəcəkdi.

Mövqedə sakitlik idi, tək-tük top mərmiləri atılırdı. Əsas iş bitmişdi. Orada Əli Müvəhhidi görüb salamlaşdım. Əli dedi: "Biz axşam hücuma keçdik. Siz hardaydınız?"

– Tehranda idim, məhəllə uşaqları ilə gəldim.

– Yüngül döyüş oldu.

– Niyə yüngül? Məgər əməliyyatın birinci günü deyildi?

– Ehtimal verirəm ki, iraqlılar bizi qayçılamaq istəyirlər. Buna görə yolu açıblar. Geri çəkilmələri ağlıma batmır. Hər halda, bizi dinləyirlər, bu tərəfdə adamları var.

– İndi nə olacaq?

– Sabah axşam Salman və Meysəm batalyonları gəlib bizdən önə keçəcəklər, biz onların dəstək qüvvəsi olacağıq.

Gecənin yarısına qədər Həbib batalyonunun istehkamında qaldım. Sübhə yaxın azca atışma oldu. Ertəsi

gün axşama qədər də istehkamı qorumaqdan ötrü arabir atışmağa məcbur olduq.

Qürub çağı Meysəm batalyonu və Abbas Şəəfin döyüşçüləri ilə rastlaşdım. Batalyonun komandir müavini Kazim Rəstqarla tanış olduğuma görə kolonlarına girib irəlilədim. Cəbhədə adət belə idi ki, bir-iki nəfəri tanısaydın, batalyonun əzizi olurdun.

Bir qədər piyada getdik. Yolda uşaqlarla danışıb tanışlıq verirdim. Meysəm uşaqlarından bəzisi mənimlə tez səmimiləşdilər.

Mayın ortaları idi, günəş gec batırdı. Şam namazını gedə-gedə qıldıq. Saat 12 radələrində sağ və sol istiqamətlərimizdən atışma və partlayış səsləri gəldi. Səs yaxında deyildi, amma Malik və Salman batalyonlarının ağır döyüşə girdikləri bilinirdi. Onlar biz çatmadan döyüşə başlamamalı idilər. Malik batalyonu solumuzda, Salman da sağımızda idi. Hər üç batalyon eyni zamanda başlayacaqdı, amma deyəsən, problem yaranmışdı.

Döyüş başlayandan bir neçə dəqiqə sonra ratsiyadan anladım ki, Salman batalyonunun işi çətinə düşüb. Batalyonun komandiri müəyyən qədər tanıdığım Hüseyn Qəceyi idi. O, isfahanlı güləşçi, həm komandirliyi, həm də cəsurluğu misilsiz olan kadrlardan idi.

Həmin əsnada eşitdim ki, məhəlləmizin ağsaqqallarından bir neçəsi Bostana gəlib diviziyalar üçün yemək bişirir. Onları görmək istədim. Azad döyüşçü olduğuma görə icazəyə ehtiyac yox idi, ürəyim istəyəndə gedirdim. Odur ki, Meysəm batalyonunun uşaqlarından iki-üçü ilə ayrılıb Hüveyzəyə, Həmid qarnizonuna doğru getdik. Soruşa-soruşa diviziyanın yeməkxanasını tapdıq.

Gecənin yarısı idi, amma yeməkxanada yatan yox idi. Şıdırğı iş gedirdi. Bir gün qabaq bir inəyin yanına mərmi

düşmüşdü. Tez başını kəsmişdilər. Xaşını bişirdikləri yerdə biz çatdıq. Məhərrəmliyin ilk on günündə məhəllədə əlli qazan xörək bişirən bütün peşəkar aşpazlarımız orada idi: Abbas Zeynəlabidin, Hacı Məhəmməd Nurtac, Hacı Qeydani, Hacı Qulam Şatirian, Hüseyn Baqiri və s.

Hələ günəş çıxmamış xaş hazır idi. Səhər yeməyində dedilər ki, Əhvazın bir kəndində danışan quş peyda olub. O belə deyir: "Vay! Hüseyn öldürüldü!" Əvvəlcə güldük, sonra dedik ki, gərək gedib o quşu görək. Səhər saat 10-da bir maşınla Əhvaza yola düşdük.

Camaatdan quşun yerini soruşduq. Onu hamı tanıyırdı. Bir açıq ərazini göstərib dedilər ki, orada uçur, gözləyin, gələcək. Sonra bir quşu göstərib dedilər ki, budur, yaxşı qulaq asın, belə deyir: “Vay! Hüseyn öldürüldü!”

Şanapipiyə oxşayırdı; oxuyur, zikr deyirdi. Bəli, bütün quşlar Allahı zikr edirlər!

Qulaqlarımızı şəkləyib bir neçə dəqiqə qulaq asdıq. Bilmirəm, bəlkə də təhtəlşüurumuzdan belə səs gəlirdi: "Vay! Hüseyn öldürüldü!" Ancaq həqiqət bu idi ki, digər quşlar kimi onun da xüsusi səsi vardı. Bizi gülmək tutdu. Mən nə "Hə" dedim, nə də "Yox". Çünki camaat o quşa hörmət edirdi, etiqad bəsləyirdi. Hər halda, Hüseyn eşqi insanlarda belə bir hiss yaratmışdı.

Günortadan sonra quşu öz halına buraxıb Taktika qərargahına qayıtdıq. Orada hələ də Salman batalyonundan və Hüseyn Qəceyinin döyüşündən söhbət gedirdi. Hacı Əhməd ratsiyadan danışırdı. Üzündən bilinirdi ki, çox narahatdır. Bir nəfərə deyirdi: "Hüseynlə uşaqları mühasirədədirlər. Onlara nə qədər deyiriksə, geri qayıtmırlar..”. Məni görən kimi dedi: "Seyid, Allah köməyin olsun, get Hüseynin yanına, bir neçə nəfəri də apar, onu zorla da olsa, geri gətirin".

Dərhal uşaqların birinin motosikletinin tərkinə oturub Salman batalyonuna doğru getdim.

Salman batalyonu At nalı istiqamətinin üzərində mövqe seçmişdi. Uşaqlar atəşin güclülüyündən istehkamın döşünə toplaşmışdılar, hər iki tərəf boş idi. İraqlılar tərəfdə düşmənlə bizimkilərin cəsədləri və yaralılar bir-birinə qarışmışdı. Yaralılar qışqırırdılar, amma heç kim o tərəfə keçməyə cürət etmirdi. İş çox çətin düyünə düşmüşdü.

Döyüş uzananda şəxsi heyətin əsəbləri korlanır. Ancaq Hüseyn orada dağ kimi möhkəm dayanmışdı, üzündə zərrə qədər də qorxu yox idi.

Axşam iraqlılar bizi yarımdairə şəklində dövrəyə aldılar. Gördük ki, yavaş-yavaş mühasirəyə düşürük. Bir köməkçi batalyon gələcəkdi, amma gecənin yarısına qədər gəlib çıxmamışdı.

Sübhə yaxın tanklar Əhvaz-Xürrəmşəhr magistralı tərəfdən bizə doğru gəlməyə başladı. Sanki təzə cana gəlmişdilər. Sübh olar-olmaz elə güclü atəş yağdırırdılar ki, yer-göy titrəyir, torpaq istehkam irəli-geri gedirdi. Üstəlik, artilleriyadan da atəş açırdılar. Çox tezliklə sol tərəfimizə yerləşmiş Malik batalyonundan bir qədər yer alıb yerlərini bərkitdilər. Oradan bizə güclü atəş yağırdı. Uzaq atəşləri o qədər ağır idi ki, piyadaları bekar qalmışdı. Uşaqlar deyirdilər ki, onları təmizləmə əməliyyatına saxlayıblar.

Mən yaralı uşaqlardan birinin silahını götürdüm. Darağı dolu idi. İstehkamın döşünə yapışdım.

Yazıq yaralılar əllərinə keçən hər bir şeylə yaralarını bağlayırdılar. Yaralı o qədər çox idi ki, tibb işçiləri çatdıra bilmirdilər. Çoxlu qan itirəndən sonra susayır, su qablarını götürüb birnəfəsə içir, bir neçə dəqiqədən sonra da şəhid olurdular.

Sanki qiyamət idi. Orada hər şey görmək olardı: əli-ayağı kəsilmiş adam, başsız dost və s. Lakin bir şey görmək mümkün deyildi, o da ölüm qorxusu idi. Oradakıların hamısı bilirdi ki, geriyə yol yoxdur. Bu batalyon-o batalyon söhbəti də yox idi, hamı yekdil idi. Bu tərəf haqq qoşunu idi, o tərəf batil qoşunu. Gərək vuruşaydıq. Hərə bir işin qulpundan yapışmışdı, Hüseyn də rəhbərlik edirdi. Onun idarəçilik qabiliyyəti həqiqətən yüksək idi. O, həm də mahir güləşçi idi. Sükutu da yerindəydi, nərəsi də.

Uşaqları bölüb hər bir neçəsini istehkamın bir tərəfinə qoydu. Dedi ki, qumbaraatanları götürüb tankları vurun, güllə atmağın mənası yoxdur.

Mənim silahımı uşaqların birinə verdi, onun qumbaraatanını da mənə. Heç bir söz demədən dərhal mərmini qoyub nişan aldım və atəş açdım. Mərmi tanka dəydi, amma partlamadı, rezin top kimi kənara düşdü. Bir neçə mərmi də atdım, hamısı təsirsiz oldu. Yarım saatdan sonra bildim ki, gərək tırtılını və ya lüləsini nişan alım. T-62 və T-72 tankları idi, RPG qumbaraatanı partlada bilmirdi. Gövdəsi 40 sm-lik bərk poladdan idi, dəlmək olmurdu.

Döyüşün qızğın yerində Hacı Himmətlə Hacı Əli Mirkiyani gəldi. Məsələ yenə Hüseynin qayıtması, israr və inkardan ibarət idi. Hüseyn uşaqların cəsədini göstərib deyirdi: "Uşaqlarımı qoyub necə qayıda bilərəm?!"

Bir saatdan sonra Hacı Himmətlə Mirkiyani geri qayıtdılar.

Tankların kələyini öyrənəndən sonra üç-dörd nəfəri topladım, tank ovlayan bir komanda olduq. Tək-tək vururduq, uşaqlar da təkbir deyirdilər.

Hüseyn dedi: "Tüstü bombası atın, artilleriyamız vurmağa başlasın. Bizim burda olduğumuz yadlarından çıxıb".

Ancaq artilleriyamızın atəşi zəif idi, 15 km-dən irəlini vura bilmirdi.

Döyüşün ortasında 106 mm çaplı toplar gətirdilər. Pikapın üstünə qoymuşdular, peşəkar uşaqlar atəş açırdılar.

Bir neçə saat keçdi, amma tankların sayı azalmadı. Çox yorulmuşdum, başım gicəllənirdi. Qumbaraatandan o qədər atəş açmışdım ki, qulaqlarımdan qan gəlirdi.

Mərmilər bitəndən sonra istehkama söykənib bir nəfəri mərmi gətirməyə göndərdim. Bir neçə dəqiqədən sonra bir neçə mərmi ilə qayıdıb dedi: "Solu tutdular, hamı geri çəkilir".

Mərmiləri alıb dedim: "Sən get, dadaş, biz hələ burdayıq".

Vay o gündən ki, müharibədə şəxsi heyətin canına qorxu düşə! Bir nəfər geri çəkilsə, bir milyon canlı qüvvə də olsa, geri çəkilmək istəyəcək.

İstehkamın üstünə çıxıb gördüm ki, bəli, tanklar sol tərəfi tamam tutublar. O tərəfdə tək-tük adam qalmışdı.

Hüseynin bir əlində qumbaraatan, o biri əlində ratsiya vardı. Ona yaxınlaşdım. Ratsiyadan deyirdi: "Əgər geri gələ bilsəydim, mühasirəni yarıb irəli gedərdim!"

Bir neçə dəqiqə sakit qaldı, sonra dedi: "Vilayət məsələsi deyil. Vilayət də desə, qəbul etmərəm. Mən hamını azad qoymuşam; kim istəyirsə, qayıtsın".

Məni görüb dedi: "Seyid, sən azad döyüşçüsən, mənə baxma, kimi bacarırsansa, götür, geri apar. Mən demirəm ki, geri gedənlərin hamısı qorxaqdır..”.

Dedim: "Bu, eşqdir, dadaş Hüseyn. Mən yarımçıq yoldaş deyiləm. Lotular deyirlər ki, cəhənnəmə də getsən, kişi kimi get. Mən kimə "Ya Əli" demişəmsə, ölümə qədər onunla varam. Mənim yolum budur. Ancaq dadaş Hüseyn, bu cəhd boşunadır. Məsələ qorxu məsələsi deyil, qorxu hanı?! Bu adamlar qorxsaydılar, bura gəlməzdilər, evlərində qalardılar. İndi günəş çıxacaq, uşaqların başlarına atəş yağacaq. Gəl, qayıdaq".

Hüseyn dedi: "Axı mən hara gedim, seyid? Bu qədər yaralını görmürsən?! Əclaflar gəlib hamısını öldürəcəklər. Geri qayıdıb xilas olacağamsa, qoy elə burda xilas olum. Uşaqları qoyub gedə bilmərəm".

Dedim: "Sən haqlısan, cəsursan, ürəklisən. Amma idarəçiliyin özü də bir cür cəsarətdir. On nəfəri də xilas etsən, böyük işdir".

Sözlərim Hüseynə batmadı. Günortaya yaxın suyumuz azaldı. Bir-birimizin qumqumasını alıb dodaqlarımızı isladırdıq. Xuzistan günəşinin heç kimlə zarafatı yoxdur, yandırıb-yaxır.

Hüseynlə danışmağın xeyri yox idi. O, istehkamın üstünə çıxıb qumbaraatandan atəş açır, yenə aşağı hoppanırdı.

Bilmirəm Allahdan ötrü idi, yoxsa yekəxanalıqdan. Hər nə idisə, onu tək qoya bilmirdim. Kiçik uşaqlar yalvarırdılar: "Sən ananın canı, bizi apar"; "Bizi burda qoymayın". Ürəyim od tutub yanırdı. Danışmağa taqəti olmayanlar da gözləri ilə yalvarıb kömək istəyirdilər. Onlar gül kimi yerə tökülmüşdülər. Geri qayıtsaydım, hamı deyərdi ki, o qədər iddialı idi, amma qaçdı. Hamı mənə baxırdı. Yaşım onlardan çox idi.

Günortaya qədər istehkamı şumladılar. Daha əlimizin altında bir şey qalmamışdı; nə güllə, nə də başqa bir şey.

Ölüm bir addımlığımızda idi. Bir salavatımız qalmışdı, bir də zikrimiz.

Bir dəfə ratsiyanın arxasına keçib Hacı Əhmədlə danışdım. Dedim ki, hacı, dadımıza çat. Narahat halda dedi: "Uşaqları göndərdim ki, böyrü üstə uzanıb tankları vursunlar. Sağınızda nə qədər tank vurulsa, bilin ki, bizik. Bekar oturmamışıq, nə qədər qumbaraatan göndərmişik!"

Hacı oraya canlı qüvvə yeritmək istəyirdi, ancaq o vəziyyətdə əli-qolu bağlı idi. Əgər min nəfər də gəlsəydi, xeyri yox idi. Ətlə dəmirin döyüşünün nəticəsi bəllidir.

Hacının səsi məni ürəkləndirdi. O həmişə aktiv idi, şəxsi heyəti yaxşı başa düşürdü.

Hüseyn günortadan sonra atəş altında istehkamın başına çıxdı. RPG qumbaraatanı ilə tankları nişan aldı, amma hələ atəş açmamış tankdan açılan atəş nəticəsində mükafatını aldı. İstehkamın üstünə düşdü, oradan da aşağı diyirləndi və şəhadətə qovuşdu. Ondan bir neçə metr aralıda idim. Qalxıb onun yanına qaçdım. Bu zaman birdən qolumun arxası göynədi. Oturub qolumu çırmadım. Qəlpə dəymişdi.

Yaramı dəsmalla bərk bağladım. Təxminən bir saat orada oturdum. Sonra uşaqlar hansısa yolla mühasirəni yarıb gəldilər. Əvvəlcə tibb işçiləri gəldi, sonra Hacı Əhməd. Mən yorğun və toz-torpaq içində idim. Ayağa qalxmağa taqətim qalmamışdı. Hacı Əhməd Hüseynin başı üstə oturub ağladı.

Yaralıları apardılar. Şəhidlərin cəsədi isə istehkamın o tərəfində qalmışdı.

Hava qaralmağa başlayanda düşmən atəşi də səngidi. Həmişə belə idilər; gündüzlər atəş yağdırır, gecələr sakit qalırdılar. Gecələr özünü göstərmək növbəsi bizə çatırdı. Həmzə və Əbuzər batalyonları gəlib yanımızdan keçdilər.

Havanın ala-toranlığında mən də qalxıb birtəhər geri getdim. Səyyar məntəqədə ayaqüstü yaramı bağladılar, sonra bir maşınla Atom Elektrik Mərkəzinə yola düşüb gecənin yarısı çatdım.

Ertəsi gün sübh çağı Hacı Əhmədi təcili yardım maşını ilə gətirdilər. O da ayağından yaralanmışdı. Yarasını bağlamışdılar, çəliklə gəzirdi.

Yaxınlaşıb onu qucaqladım, günortadan sonraya qədər yanında qaldım. Hacı hamı ilə dostlaşır, səmimiləşirdi. Həmin gün Hüseyndən və mühasirədən soruşdu. Mən də görüb-eşitdiklərimi söylədim.

Hacı dedi: "Hüseyn kişi idi, mərdlik etdi, amma geri də gələ bilərdi. Mən ona nə qədər israr etdim! Axı sizin solunuzda Meysəm vardı, işləri düyünə düşmüşdü. Möhsün Vəzvayini göndərdim ki, onlarla maraqlansın, işlərini yerbəyer etsin. Ancaq elə əvvəldə bir top mərmisi düşdü və Möhsün ilk mərhələdə şəhadətə qovuşdu.

Çox narahat oldum.

– Necə?! Möhsün də şəhid oldu?

– Hə. Amma Xürrəmşəhr məsələsi də hazırdır. Səddamın ordusunun kökünü kəsdik.

Möhsünlə Hüseynə görə bir qədər ağladım. Hər ikisi şəhadətə layiq qəhrəman idi.

Günbatan çağı Hacı Əhmədlə sağollaşdım. Gecəni orada qaldım. Səhər çağı mən oyananda hacı getmişdi. Daha tez oyanıb onu görə bilmədiyimə görə çox dilxor oldum.

Həmin gün döyüş yerindən yeni qayıdanlardan vəziyyəti soruşanda dedilər: "Biz sol istiqamətdə idik. İmam Hüseyn (ə) diviziyası indi Xürrəmşəhrin yaxınlığındadır".

Oradaca maşına minib kəşfiyyatçı uşaqların yanına getdim. Abbas Kərimi ilə Meysəm Bəhrami kəşfiyyatçıların böyükləri idilər. Dedilər ki, bu axşam hücuma keçəcəyik.

Axşamüstü dördnəfərlik komandanın tərkibində ön xəttə yola düşdük. Mən İsmayılxani, Qasim Allahverdi və Müctəba Hüseyni ilə birgə bir torpaq istehkamdan keçdim. Durbinlə ətrafa baxdıq. Tanklar Xürrəmşəhr körpüsünün o tərəfində qatar kimi düzülmüşdü. Yaşı hamıdan az olan Qasim Allahverdi tankların sayını və mövqeyini kağız üzərinə qeyd etdi.

Plana görə, axşam döyüşü Xürrəmşəhrin küçələrinə çəkib işi bitirəcəkdilər. Mən Həmzə batalyonunda Rza Çırağinin kolonuna yerləşdim. Bu, Beytülmüqəddəs əməliyyatının dördüncü mərhələsi idi.

Abbas Kərimi şəxsi heyəti təlimatlandırıb deyirdi: "Həmzə və Həbib batalyonları öndən getməlidirlər".

Mən İsmayılxani ilə birlikdə Həmzə batalyonunun bələdçisi kimi yola düşdüm. O bölgəni müəyyən qədər tanıyırdım. Bir saat yarım yol gedəndən sonra dayandıq. Rza Çırağı şəxsi heyətə “Azad” komandası verib dedi: "Düşmənin yaxınlığında, hücum nöqtəsindəyik".

Zülmət qaranlıqda görüşüb-öpüşmələr, halallıq istəmələr başladı. Gecə saat 12 radələrində hücum əmri verildi. Kəşfiyyatçı olduğumuza görə şəxsi heyət hücum yerinə çatan kimi geri qayıtmalı idik. Amma yerə baxıb bir silah tapdım.

Əməliyyat başlayandan bir neçə dəqiqə sonra uşaqlar önə keçib irəliləməyə başladılar. Kimin silahı düşürdüsə, yoldaşı götürürdü. Mən daha çox tank ovlamağı sevirdim. Həmin gecə iki tank vurduq və səhərə qədər vuruşduq.

Uşaqların biri dedi: "Maşallah! Maşallah! Xürrəmşəhrin açarı əlimizdədir".

Bizimlə bir zamanda İmam Hüseyn (ə) diviziyası da Xürrəmşəhr körpüsünün üstündə vuruşurdu. Onlar da yaxşı irəliləyirdilər. Biz onların arxasınca gedib işlərini tamamlayırdıq. Nəcəf-əşrəf briqadası ilə İmam Hüseyn (ə) briqadası şəhərin küçələrinə tökülüşdülər. Bu isə döyüşün uzanmasına və evbəev davam etməsinə səbəb oldu. Mən Xürrəmşəhrin küçə və prospektlərini yaxşı tanımırdım, şəhərdə təmizləmə əməliyyatını bilmirdim. Vəliəsr diviziyasından olan və ərəbcə bir az bilən bir qrup döyüşçü gəlib küçə döyüşlərini davam etdirdilər.

Günorta çağı şəhərin xarabalıqlarında bir divardan aşıb o birinə keçəndə birdən bir nəfər qışqırdı: "Xürrəmşəhr azad oldu! Xürrəmşəhr azad oldu!"

Allah şahiddir ki, oradaca quruyub qaldım. Elə bildim ki, məni qara basır. Ancaq başqa bir neçə nəfər də eyni sözü qışqırdı. O anda hansı hissləri keçirdiyimi söyləyə bilmərəm; bir gözüm ağlayır, bir gözüm gülürdü. Uşaqların çoxu hələ vuruşur, düşmən şəhəri atəşə tuturdu.

Xürrəmşəhrin azad olunduğunu eşidəndən sonra uşaqların bir neçəsi ilə came məscidinə getdim. Məsciddə qələbəlik idi. Mülki əhali və döyüşçülər toplaşıb sevinclərindən ağlayırdılar.

Hacı Əhməd gəldi. Qoltuğunun altında bir çəlik vardı, axsayırdı. Dərhal başına toplaşdıq.

Tək-tük minaatan səsi də gəlirdi. İraq tərəfi oyunu uduzduğunu qəbul etmək istəmirdi.

Hacı Əhməd dedi: "Hamıya təşəkkür edirəm. Çöllükdə susuz can verən uşaqlara Allah rəhmət eləsin! Xürrəmşəhri onlar azad etdilər. Möhsün Vəzvayi, Hüseyn Qəceyi kimilər fədakarcasına vuruşdular. Gərək onların

qədrini bilək. Yaşları az olduğuna görə qardaşlarının pasportu ilə döyüşə gəlmiş uşaqların qədrini bilək. Kimsə onların adlarını çəkmədi, qəribcəsinə getdilər".

Xürrəmşəhr azad olundu və müharibə orada qıfıllandı. Hamı elə bilirdi ki, bundan sonra müharibə bitəcək. Ancaq İran tərəfi üstünlük qazanmağa çalışırdı ki, sülh mövzusu gündəmə gəlsə, əlidolu olsun və qüdrətli mövqedən çıxış etsin. İran özünü tapmış, dünyada ad çıxarmışdı. Hər yerdə söhbət gedirdi ki, İran İraqı diz çökdürüb.

Əməliyyatdan sonra Tehrana qayıtdım. Düşünürdüm ki, müharibə dayanıb və daha mənlik bir iş yoxdur.

O günlərdə Livanın cənubunda döyüş başlandı, İsrail oraya hücuma keçdi. Söhbət gəzdi ki, korpusun bir diviziyası Hacı Əhməd Mütəvəssilianın rəhbərliyi altında Livana gedib İsraillə vuruşacaq.

Livana gedəcək uşaqların hamısı korpusdan idi. Hacı o günlərdə döyüşçü seçirdi. Mən də çox həvəslənmişdim. Xislətim məni rahat buraxmırdı. İstəyirdim ki, nə yolla olursa-olsun, Livana gedim. Hara getdimsə, qəbul etmədilər. Çünki korpusun rəsmi üzvü deyildim. Nazirlər Kabinetində üç gün qapı-qapı gəzdim, onu-bunu gördüm ki, Xarici İşlər Nazirliyindən İranın Dəməşqdəki səfirliyinə üçaylıq ezam olunum.

Bütün arzum Hacı Əhmədlə və müharibə qəhrəmanları ilə bir yerdə olmaq, döyüş olsa, iştirak etmək idi. Hacı Əhmədin Livanda vuruşduğu zaman Tehranda istirahət etməyi özümə ayıb bilirdim. Əsğər Ərsəncani, Həsən Bəhməni, Əli Müvəhhid, Hüseyn Tahiri və digər döyüş qəhrəmanları onunla gedirdilər. O zaman hələ Əsğər Ərsəncani ilə dost deyildim, aramızda sadəcə salam və hörmət vardı.

Mən uşaqlardan iki-üç gün sonra Suriyaya getdim. Ziyarət etdim, əzadarlıqda iştirak etdim. Əsğər Ərsəncani ilə Rza Qəzəlinin yaxşı səsləri vardı. Axşamlar həzrət Zeynəbin məqbərəsində mərsiyə oxuyurdular, biz də sinə vururduq.

Bir neçə gün Suriyada qalandan sonra dedilər ki, İrana qayıtmalıyıq və indi əsas məsələ İraqla müharibədir. İmamın fikri bu idi ki, cəbhələri zəiflətsək, iraqlılara məğlub olarıq.

Tehrana qayıtmağımıza az qalırdı. Mən səfirlikdə idim. Axşam canlı qüvvənin düşərgəsindən əlaqə saxladılar ki, Hacı Əhməd qayıtmayıb. Onlar elə bilirdilər ki, səfirlikdədir, biz də elə bilirdik ki, düşərgədədir. Bir komanda səfirlikdən, bir komanda da uşaqlardan yaradıldı və Hacı Əhmədi axtarmağa başladıq. Axırda məlum oldu ki, onu oğurlayıblar.

Gecə ikən səfirlikdə iclas keçirildi, telefon zəngləri başlandı, diplomatik yollar axtarıldı. Ertəsi gün bəlli oldu ki, onları girov götürüblər. Ancaq kimin və nə üçün girov götürdüyü bəlli deyildi. Bir neçə saatdan sonra dedilər ki, yox, girov götürməyiblər, bir neçə sual verib buraxıblar.

Hacı Əhməd iki gün sonra da gəlmədi. Tehrandan əmr gəldi ki, bütün şəxsi heyət təcili İrana qayıtmalıdır.

İyulun 13-də İranın Dəməşqdəki səfirliyində təhvil-təslim edib Tehrana qayıtdım; özü də ağlar gözlə və pərişan halda. Bəzi uşaqlar o qədər narahat idilər ki, komandirsiz qayıtmaq istəmir, qalıb onu tapmağı düşünürdülər. Ancaq Hacı Əhmədin oğurlanması kor düyünə çevrilmişdi, bir-iki nəfərin əli ilə açılan deyildi. Heç kim heç bir iş görə bilmirdi. Elə qayda-qanunsuz yarımhərbi bir ölkədə onu haradan tapa bilərdik?!

Mən evə çatanda Fatimə dedi: "Kaş Suriyada qalaydın, biz də ziyarətə gələydik".

Hacı Əhmədin əsir düşdüyünü söyləyəndə anam ağladı. O, hacını görmüşdü, tanıyırdı. Hacı Əhməd asanlıqla itiriləsi adam deyildi.

# Doqquzuncu fəsil

İyulun 14-də yenə qatara minib Atom Elektrik Mərkəzinə getdim. Həm döyüş bölgəsində, ön xətdə olmaq, həm də Hacı Əhməddən xəbər öyrənmək istəyirdim. Bütün yolboyu onu fikirləşmişdim. Onun əzəmətli görkəmi gözlərim önünə gəlir, yadımdan çıxmırdı.

Hər şey çox sürətlə baş verdi. Yoldaşlıqdan, dostluqdan dəm vuranların hamısı heç bir hadisə baş verməmiş kimi sükut etdi. Xürrəmşəhrin fatehini, böyük müharibə komandirini tutmuşdular, ancaq heç kim dinmirdi. Onun sözlərini və işlərini xatırladım. Ondan bir şey soruşanda, ona "Niyə" sualını verəndə xoşu gəlir, deyirdi: "Mürəbbə kimi həmişə "Baş üstə" deməyin, sual verin, qışqırın, haqqınızı istəyin".

Hacı həqiqətən mərd insan, döyüşçülərinin dayağı, haqq və həqiqət adamı idi. Ratsiyadan onunla danışanda ürəyim sakitləşir, çətinliklər yadımdan çıxırdı.

Səsi xırıltılı və qalın idi. Qərargahda oturub ratsiyadan danışanda sanki qüdrətli bir əl işləri idarə edirdi, heç bir iş

axsamırdı. Harada olsaydı, lazım olanda özünü atəşin içinə, şəxsi heyətin başı üstünə yetirirdi, qərargahda ətrafına hasar hörüb şəxsi heyəti tək qoymurdu.

Gecənin yarısı mərkəzə çatdım. Dedilər ki, Ramazan əməliyyatının birinci mərhələsi bitib, uşaqlar mövqeyi ələ keçiriblər. Bu əməliyyatın kəşfiyyat işlərini Səid Qasiminin komandası görmüşdü. Hacı Əhmədin seçmə komandası Livanda olanda Hacı Məhəmməd İbrahim Himmət "Məhəmməd rəsulullah (s)" briqadasına komandir təyin olunmuşdu. Ramazan əməliyyatını korpusla ordu birlikdə həyata keçirirdi. Ordu klassik şəkildə, müəyyən çərçivədə vuruşurdu, korpusun da özünəməxsus taktikaları vardı.

Düzgün, yoxsa yanlış olduğunu bilmirəm, amma fikirləşdim ki, əvvəlki kimi vuruşmaq yaxşıdır; gündüz bir batalyonla əməliyyata gedəcəyəm, axşam da başqa bir batalyonla. Daha geridə qalıb gözləməyə məcbur olmayacağam. Nə vaxt imkan olsa, kolona girib ön xəttə gedəcəyəm, üstəlik, daha çox təcrübə toplayacağam.

Ertəsi gün səhər saat 10-da uşaqların birinin motosikletini alıb Beşbucaqlı düşərgəsinə getdim. Bölgə ilə bir qədər tanış idim.

Ramazan əməliyyat bölgəsi geniş, açıq idi; əngin bir düzənlik şimaldan Kuşk və Təlaiyyə ilə, cənubdan da Şələmçə və Ərvəndrudla həmsərhəd idi. Əməliyyatın məqsədi olaraq, Bəsrəni mühasirəyə almaq nəzərdə tutulmuşdu. İraq tərəfi də bilirdi ki, biz Bəsrəni istəyirik. Odur ki, bütün qüvvəsini Bəsrənin müdafiəsinə səfərbər eləmişdi. Fikirləşirdilər ki, biz Xürrəmşəhri onları aldatmaq üçün almışıq. Odur ki, qüvvələrini Şələmçəyə çəkdilər, sonra da təbliğata başlayıb dedilər: "Biz dünyaya

İran torpağını istəmədiyimizi göstərmək üçün Xürrəmşəhri boşaltdıq".

Düzənlikdə Meysəm batalyonunun uşaqlarını tapdım, motosikleti yerə qoyub onların istehkamına getdim. Çoxlarını tanımırdım, komandirləri Muxtar Süleymani və bəzi qədim döyüşçülərlə tanış idim.

Uşaqlar çox yorulmuşdular. Mərmilərin yüzü birdən gəlib istehkamı titrədirdi. Tanklardan da atəş açılırdı. İstehkamın o tərəfinə bir neçə düşmən cəsədi düşmüşdü. Məlum idi ki, uşaqlar irəli getmiş, sonra geri çəkilmişlər. Uşaqlar dedilər ki, axşamdan indiyə qədər iyirmi tank vurmuşuq, günlərini qara etmişik.

Günəş batana qədər onların yanında qalıb bir az vuruşdum. Məndə silah və qumbara yox idi, uşaqların silahından istifadə edirdim. Günbatan çağı geri çəkilmə əmri verildi. Mən də onlarla birgə qayıtdım. Geri çəkiləndə sağ bazuma noxud boyda bir qəlpə dəydi. Bir qədər qan gəldi və bir saatdan sonra dayandı. Qəlpə isti olduğuna görə özü yaranı dezinfeksiya edir, ancaq buna baxmayaraq, adamın canını alır, əldən salır.[1]

İki-üç saatdan sonra halım yaxşılaşanda döyüş yerinə qayıtdım. Yolda Həbib batalyonunun uşaqlarını görüb onlara qoşuldum. Bizi bir yerdə saxlayıb ayaqüstü təlimatlandırdılar. Dedilər ki, gərək Zeyd zastavasının aşağısından gölməçəyə tərəf gedəsiniz. Ancaq hansı gölməçəyə və nə ilə getməli olduğumuzu söyləmədilər. Çünki orada hər yerdə gölməçə vardı. Palçığı da Tehran palçığı kimi deyildi, çox yapışqan idi. Hara getməli olduğunu heç kim bilmirdi. O düzənlikdə mahir

---

[1] Sonralar yara irinlədi, qəlpənin başı irinlə bayıra çıxdı. Ucundan tutub çıxardım.

kəşfiyyatçılar da azardılar, o ki qala ayağı ilk dəfə dəyən piyada.

Bu zaman kəşfiyyatçılardan bir qrupu irəli getdi. On beş dəqiqədən sonra gəlib dedilər: "Tanklar pərakəndədir. Gözləyək, hava işıqlansın, vuraq". Sonra dedilər ki, qoy sol və sağımızdakı batalyonlar birləşsinlər, ondan sonra vurarıq.

Kolonun başına getdim. Deyəsən, ratsiyadan Hacı Himmətlə danışırdılar. Rabitəçi dedi: "Fişəng atın, sizi tapsınlar".

Bir saatdan sonra qumbaraatanlardan ibarət bir komanda yaranıb irəli getdi. Təxminən gecə saat 12-də iki qumbaraatan mərmisi atdılar və biz irəliləməyə başladıq. Mən addım-addım gedib atəş açırdım. İranlı və iraqlılar bir-birinə qarışmışdı, onları ayırd edə bilmirdim.

Gecənin sonlarına qədər vuruşduq. Qarşımızdakı bəndin yuxarısında tanklar düzülmüşdü. Onlara o qədər yaxınlaşmışdıq ki, qumbaraatan işə yaramırdı, əlimizə nə keçirdisə, onunla vururduq.

Adam orada Hacı Əhmədin qədrini bilir. Əgər olsaydı, nə etməli olduğumuzu deyərdi.

İraq tərəfi ertəsi gün günorta çağı atəş aça-aça bəndin arxasına çəkilib mövqeyini möhkəmlətdi. Mən heç birini tanımadığım yeddi-səkkiz uşaqla bəndin sağındakı dərədən Beşbucaqlının yuxarısına tərəf getdim. Hava qızmışdı, günəş yavaş-yavaş adamın gözünü çıxarırdı. Biz yarısı qurumuş bir bataqlıq kimi ərazidə gedirdik. Bir qədər gedəndən sonra aramızdan biri "Dayan" əmri verib dedi:

– Siz kimsiz?

– Həbib batalyonundanıq.

Bir neçə dəqiqədən sonra Həmzə batalyonunun komandiri Nüsrət Qərib gəldi. Məni tanıyırdı. Salamlaşandan sonra dedi: "Harda idiniz?"

– Dünən axşam İsmayıl Məhəmmədinin uşaqlarının yanında idik, - deyə cavab verdim.

– Onlar bizə birləşməli idilər. Niyə gəlmədilər?

– Bir mövqe geri çəkilməyə məcbur oldular. Taqətləri qalmamışdı. Atəş çox güclü idi.

Narahat oldu.

– Niyə?! Axı belə olmaz!

Ratsiyaya yaxınlaşdı. Deyəsən, Hacı Himmətlə əlaqə saxlayıb dedi: "Həbib geri çəkilib, bizə birləşə bilməyib. Vəzifəmiz nədir?"

Mən uşaqları topladım və geri qayıtdıq.

Avqustun əvvəllərində əməliyyatın beşinci mərhələsi üçün Miqdad batalyonu ilə ön xəttə yola düşdüm. Batalyonun komandiri Bəhmən Nəcəfi idi. O dedi: "Qabaqkı təcrübələrdən istifadə etmək istəyirik. Kəşfiyyat işləri görmədən bir addım da atmayacağıq”.

Miqdad batalyonunun kəşfiyyat bölüyünə İsmayılxani və Qasim Allahverdi rəhbərlik edirdi. Əməliyyatdan öncə günbatan çağı Bəhmən Nəcəfi, İsmayılxani, Allahverdi və digər üç kəşfiyyatçı ilə maşına minib Kutsəvari bölgəsinə yola düşdük.

Maşını təhlükəsiz bir yerdə saxlayıb balıq kanalının cənubuna doğru getdik. Axşam namazlarımızı qılandan sonra yeməyimizi yedik. Kakao və püstəni döyüş şokoladı kimi bərkitmişdilər. Onu əl boyda lavaş çörəyi ilə yeyib üstündən su içdik və cəld yola düşdük.

Bəhmən çox peşəkar kəşfiyyatçı idi; nə deyirdisə, gözübağlı əməl edirdik. Mən onun arxasından gedirdim. Tez-tez tapşırırdı ki, ayaqlarımızı qarşıdakının ayağının

yerinə qoyaq və yavaşca danışaq. İki kəşfiyyat komandiri də hamıdan öndə gedirdi.

Gözlərimiz qaranlığa adət edəndən sonra Ərvənd çayının önündə qurulmuş gözəl ikiqat torpaq istehkamı gördük. Bəlkə də 20-30 km-dən çox uzunluğu vardı. Qaranlıqda hamısı görünmürdü. İçində su vardı. Əmin idik ki, mina, tikanlı məftil və digər maneələr də düzüblər.

Bir yerdə oturduq. Qasim gecə durbini ilə ətrafa baxıb bizi məlumatlandırdı. Yavaşca danışırdı. Dedi: "Bura öncədən açdığımız birinci keçiddir. Bu, balıq kanalıdır, o başı da cənubu. Kanalın eni təxminən 1 km olar. Ətrafında müxtəlif pusqu, səngər və pulemyotlar var".

Qayıdanda yolu itirməmək üçün çəkdikləri ağ lenti də bizə göstərdi. Durbinlə iraqlıların Bubian adasındakı müşahidə səngərlərinə baxdıq. DŞK səngərlərini gördük. Uşaqlar bir kanalın yanında torpağın altından 2-3 metrlik iki alüminium boru çıxardılar. Yanındakı torbada çoxlu bolt-qayka vardı. Onları bir-birinə bağlayıb nərdivan düzəltdilər. Kanalın üstünə qoyub bir-bir keçdik, nisbətən qısa bir istehkamın arxasında oturduq. Oradan tank kolonu və birinci üçbucaq görünürdü. Üçbucaq istehkamların hündürlüyü 3 metr, hər tərəfdən uzunluğu da 2 km idi. Hər üç tərəfdə istehkamların üstünə üç-üç tanklar düzmüşdülər, hərəsinin lüləsi bir tərəfə tuşlanmışdı. Üçbucaqdan 50-100 metr irəlidə ikiqat bir kanal da vardı. Gecənin o saatında hətta bir iraqlı da görmədik. Hər yer qaranlıq və boş idi.

Gecənin sonları yaxınlaşdıqca geriyə qayıtmaqdan söhbət düşürdü. Bəhmən ratsiya ilə əlaqə saxlayıb dedi: "Biz gəlmişik. İstirahət edirik".

Sonra üzünü bizə tutub dedi: "Mən magistralı görməliyəm. Hələ bu üçbucaqla nə etməli olduğumuzu bilmirəm".

Kəşfiyyatçıların biri ilə getdi. Biz digər uşaqlarla istehkamın arxasında oturub söhbət etməyə başladıq.

Bəhmən günbatan çağı qayıtdı. Hamımız birlikdə yola düşüb gecənin yarısı öz mövqeyimizə çatdıq.

Ertəsi gün günəş batmazdan öncə Miqdad batalyonu ilə balıq kanalına doğru yola düşdük. Əməliyyat zamanı idi, hücumçu qüvvələr hazır vəziyyətdə idilər. Tənumənin şərq və qərb magistralında mövqeyi möhkəmlətməli idik. Bəhmən deyirdi ki, Tənumə Bəsrənin açarıdır.

Həmin axşam Zeyd zastavasının cənubundan Tənuməyə doğru hərəkətə başladıq. Əvvəlcə Qala adlandırdığımız beton səngərlərdən keçdik, üstünə tank düzülmüş bir yola çatdıq. Tankları görəndə kolonun başına gedib Bəhmənə dedim: "Dünən bunlar yox idi". Bəhmən dedi: "Düşmən bizi dinləyir. Bunları bu gecə gətiriblər. Məlumdur ki, bizim əməliyyata hazırlaşdığımızı bilirlər".

İki-üç saat piyada gedəndən sonra dayanmaq əmri verildi. Yerə oturduq. Bəhmən bir qumbaraatan komandası ayırdı. Mən də onlardan idim. Onunla birlikdə bir qədər irəliləyib ətrafa baxdıq və yenə uşaqların yanına qayıtdıq.

Yorğun idim, gözlərim ağırlaşmışdı. Üçüncü gecə idi yatmırdım. Kəşfiyyatdan birbaş əməliyyata gəlmişdik. Əməliyyatın başlanmasına az qalmış məndə ibadət halı yarandı. Bir tərəfdə oturub bir az bəndəlik etdim, Həzrət Haqqın adlarını söyləyib sakitləşdim.

Bilmirəm bu, müharibənin pis xüsusiyyətidir, yoxsa yaxşı, amma adamın ölümünü tezləşdirir. Adam cəbhədə bunu bilib qürurdan, özünü göstərməkdən uzaqlaşır,

doğruçu olur. Yalnız o günlərdə namaz vaxtı beynimə pul və ticarət fikirləri gəlmirdi.

Uşaqların çoxu Allahla raz-niyaz edir, bir-birilə vidalaşırdı. Hamısından halallıq istədim, "Eyvallah" dedilər. Hər birinin üzündən öpdüm. Fikirləşdim ki, bəlkə də onları bir də görməyəcəyəm.

Uşaqlar bir-birinə deyirdilər: "Əgər şəhid olsan, bizə də şəfaət elə! Haqqını halal elə!"

Lakin bir şey mənim və bəlkə də köhnə döyüşçülərin çoxunun ürəyini yandırırdı: Hacı Əhməd Mütəvəssilianın yoxluğu.

Bir nəfər məndən soruşdu: "Siz köhnə döyüşçülərdənsiz, bilmirsiz Hacı Əhməd nə vaxt gələcək?"

Son saatlarda onu ruhlandırmaq üçün dedim: "Təzə xəbər var: hacı gəlməlidir".

– Kim deyib?

– Xarici işlər naziri deyib ki, növbəti uçuşla gələcək.

Təxminən gecə saat 1-də Bəhmənlə və kəşfiyyatçı uşaqların biri ilə irəli gedib ətrafa göz qoyduq və yenə qayıtdıq. Kolonu tərpədib istehkamı keçdik. Öncədən keçid açdıqları minalanmış sahəni də arxada qoyduq. Bəhmən dedi: "Tanklar bizim sağımızdadır. Yalnız qumbaraatan işə yarayar, nə pulemyot, nə də əl qumbarası..".

Bəhmən sözünü bitirməmiş kolonun yanına bir mərmi düşdü, uşaqlar yerə uzandılar və döyüş başlandı.

Bəhmən dedi: "Seyid, sən birinci vur, əlin yüngüldür".

Tank ovundan bir qədər başım çıxırdı. Nişan alıb atəş açdım. Lüləsinə dəyib partladı. Uşaqlar "Allahu-əkbər" deyib hücuma keçdilər.

Vuruşa-vuruşa düşməni arxada qoyduq, onlara qarışmadıq. Yarım saatdan sonra uşaqların bir qrupunu topladım, qışqıra-qışqıra birinci kanalın arxasına, ikiqat kanalla üçbucaq istehkamın arasına gətirib dedim: "Gərək hər üç tərəflə vuruşasınız. Hamısından vururlar".

Orada adamın canına vəlvələ düşürdü. Hər tərəfdən vurulurduq.

Bəhmənin yanına getdim. O, qumbaraatandan atəş açırdı. Əsla qorxmur, oyan-buyana qaçıb uşaqları idarə edirdi. O, peşəkar idi, amma mənə hörmət edib fikrimi soruşurdu. Kiçiklər də sözümü eşidirdilər.

Ürəyimiz istəyən qədər vurub-vurulduq, zərbə endirdik. Qızğın döyüş gedirdi. Bəhmən səhərə yaxın gördü ki, daha döyüşçülərdə taqət qalmayıb. Dedi: "Seyid, kimi bacarırsansa, topla, bəndin arxasına apar".

Qışqırıb uşaqlara xəbər verincə İraq tərəfi nasosxananı işə saldı, ikiqat kanalın içindən suyu düzənliyə buraxdı. Bir neçə dəqiqə ərzində hər yeri su basdı. O qədər qışqırdım ki, boğazım cırılırdı. İstəyirdim ki, uşaqların xəbəri olsun, qəfil yaxalanmasınlar. Amma onları toplaya bilmirdim. Yaralılar yerdə qalmışdı. Bir neçə dəfə onları bəndə tərəf yönəltdim, oraya gedib yenə uşaqların yanına qayıtdım.

Zavallı uşaqlar güclü atəş altında arxamca qaçırdılar. Tank və pulemyot atəşləri bizi yola salırdı. Çox çətinliklə bəndin arxasına keçdik, ancaq cansızları su apardı. Sağ qalanlar da bəndin arxasına gəldilər.

Günorta çağı bir neçə nəfər könüllü şəkildə yaralıları gətirmək istədi. Yaralılara doğru qaçdıqları yerdə üçü vurulub yıxıldı, ikisi bir nəfərin qol və ayaqlarından tutub qaça-qaça istehkamın arxasına qayıtdı. Ratsiya vasitəsilə

arxa ilə əlaqə saxladıq. Dedilər ki, sağlam uşaqları yaralıları gətirməyə göndərsəniz, itkiniz daha çox olacaq.

Bir saatdan sonra yaralıların bir neçəsi susuz və cansız halda özlərini bəndin arxasına yetirdilər.

İraqlılar çox itki verdilər, bir neçə yüz düşmən cəsədi öz bataqlıqlarında qalmışdı.

Günortadan sonra yorğun halda bəndin torpaq çiyninə söykəndim. Bir maşınla günorta yeməyi gətirdilər. Yavaşca bəndin üstündən keçə-keçə yeməkləri bəndin arxasındakı uşaqlara atırdılar, uşaqlar da göydə tuturdular. Plastik qablarda ətli plov idi. Sonra suları atdılar. Uşaqlar suyu qumqumalarına tökdülər. Mənim qumqumam yox idi, susuz olanda yanımdakından alıb bir qurtum içirdim. İsrafil adlı azyaşlı və gülərüz bir oğlan vardı. Maşının sürücüsünə dedi: "Dadaş, arxaya gedirsənsə, bizim cəsədimizi də apar".

Yemək ağzımızda qaldı, bizi gülmək tutdu.

Maşın bəndin axırına qədər gedib yemək payladı, sonra dövrə vurub qayıdanda İsrafilin yanına mərmi düşdü. Yeməyimi kənara tullayıb yerə uzandım, amma tez qalxdım. Toz-torpaq arasında İsrafilin yanına qaçdım. Şah damarına qəlpə dəymiş, yerindəcə tapşırmışdı. Yanında bir neçə nəfər də yaralanmışdı, qan içində idilər. İsrafilin cəsədini və yaralıları həmin maşına qoyub geri göndərdik. Onun qanının torpağa qarışdığı yerə qayıtdım. Yer islanmışdı. Yemək boğazımdan keçmədi, bir tərəfə qoyub istehkama söykəndim.

Günortadan sonra düşmənin atəşi gücləndi. Bəhmənin yanına da bir mərmi düşdü, başqa iki-üç nəfər də partlayış dalğasına düşüb kənara atıldılar. Bir təcili yardım maşını gəlib onları apardı.

Həmin gün günortadan sonra ancaq bəndin arxasında olduq. Atəş o qədər güclü idi ki, başımızı qaldıra bilmirdik. İraq tərəfi silah baxımından bizdən yüz qat üstün idi. Yer də bizim ata mülkümüz deyildi, özününkü idi, əlinin içi kimi tanıyırdı. Üçüncü korpusunu gətirib şimaldan cənuba qədər hər yeri bərkitmişdi. Bizim üstünlüyümüz yalnız uşaqların imanından ibarət idi. Uşaqların güclü imanı və ruh yüksəkliyi onları irəli aparırdı.

Günbatan çağı idi. Düşmənin atəşi dayanmırdı. Bir anlığa yerimi dəyişmək üçün ayağa qalxdım. Sol buduma bir güllə və ya qəlpə dəydi. Əvvəlcə ağrısı yox idi, bir qədər göynədirdi. Əlimi vuranda qana boyandı. Nəfəsimi dərmək üçün oturdum. Uşaqlar hələ vuruşurdular. Bədənim soyudu, yorğunluğum çoxaldı və yavaş-yavaş ağrı başladı. Ayağa qalxmaq istədim, bacarmadım. Bu zaman iki tibb işçisi gəldi, amma vəziyyəti ağır olan yaralılara baxırdılar. Bir qədər qalxıb getdim, sonra əllərimi dizlərimə qoyub qalxdım. Belimi zorla düzəltdim, bir ayağımı sürüyə-sürüyə geri qayıtdım.

Öz mövqelərimizə doğru bir qədər gedəndən sonra bir Toyota avtomobili saxladı. Məni də maşına qoydular. Yeddi-səkkiz nəfər idik, bizi yük kimi bir-birimizin üstünə atdılar, birinin qolu o birinə balış oldu. Taqım komandiri Cavad Sərrafın qoluna qəlpə dəymişdi, çəfiyə ilə bağlamışdı. Maşın çala-çuxurlarda atılıb-düşür, uşaqlar qışqırırdı.

Biz səhra xəstəxanasına çatanda hava qaralmışdı. Məni bir tərəfdə uzatdılar. Yorğunluqdan yatdım. Sonra yarımyuxulu vəziyyətdə qaldırıb çarpayıya qoydular. Hiss elədim ki, kimsə şalvarımı qayçılayır. Başımı qaldırıb dedim: "Olmaz ki, qayçılamayasan, çıxarasan?"

Dedi: "Bundan bir şey qalmayıb, nəyini çıxarım?"

Şalvarımı bud hissədən qayçıladı, köynəyimi də çıxardı. Yaranı yuyub bağladılar, sonra bir neçə yaralı ilə birgə təcili yardım maşınına mindirib Əhvaza göndərdilər.

Bir saatdan bir qədər artıq yol gedib xəstəxanaya çatdıq. Əslində, xəstəxana deyildi, idman zalını xəstəxana etmişdilər. Üstü bağlı idi, hündür tavanı vardı. Çarpayıları yanbayan düzmüşdülər. Bizi isə yerə uzatdılar. Yarım saatdan sonra bir-bir dostlar peyda oldu. Bir neçə qonşumuz da gəldi, zal yaralı ilə doldu. Qollarına noxud boyda qəlpə dəyənlər pilləkənin üstündə oturmuşdular. Narahat və pərişan olduqları üzlərindən bilinirdi. Öz adları yadlarından çıxmışdı, dostlarını düşünürdülər. Qollarından yaralananlar bayıra çıxıb siqaret yandırdılar. Ayağa qalxa bilməyənlər bir qullab siqaret axtarır, birini bir neçə nəfərə çəkirdilər.

Həkimlər əli-ayağı kəsilənlərlə, vəziyyəti ağır olanlarla məşğul idilər. Mənim kimilər ən yaxşılar sayılırdı. Ertəsi gün günortadan sonraya qədər orada qaldım. Günortadan sonra yemək yerinə hərəyə iki meyvə şirəsi və bir keks verdilər. Uşaqlar "Bəs yemək hanı?" - deyə etiraz edəndə dedilər: "Əgər yemək yesəniz, mədəniz işləyər, özünüz əziyyətə düşərsiniz".

Axşama qədər heç kimin mənimlə işi olmadı, hətta bir serum da qoşmadılar. Günbatan çağı hər on iki nəfəri bir təcili yardım maşınına qoyub Əhvazın hava limanına göndərdilər. Orada iki saat gözləyəndən sonra bizi təyyarəyə mindirdilər. Təyyarə bir saat uçub yerə oturdu. Adamların "amu-amu" demələrindən bildik ki, İsfahandayıq. Bir nəfərə dedim: "Amu, biz tehranlıyıq, bizi Tehrana göndər, burda nə işimiz var?!"

İsfahan ləhcəsi ilə dedi: "Tehranda yer yoxdur, amu, sonra".

İsfahanda bir xəstəxanada yatdım. Kimlik nişanımı və Yəzd dəsmalımı aldılar. Başqa bir şeyim yox idi. Sonra ayağımın şəklini çəkib məni əməliyyat otağına apardılar.

Ertəsi gün səhər çağı tam ayıldım. Halım yaxşı idi. Həkim məni müayinə edəndə soruşdum: "Doktor, ayağımın nəyi vardı?"

– Nə idisə, çıxara bilmədik. Əzələnin dərinliyində, sümüyün yanındadır. Onu çıxarmaqdan ötrü çox yarmalıyıq. Bu zaman da gərək altı ay yatasan.

İkinci gün evə zəng vurub xəbər vermək istəyirdim, amma qürurum icazə vermədi. Onları əziyyətə salmaq istəmirdim.

Üçüncü gün məni təcili yardım maşını ilə hava limanına apardılar, oradan Tehrana uçdum. Tehranın Milli bank xəstəxanasında yatdım. İki gündən sonra məni buraxdılar və təcili yardım maşını evimizə apardı.

Qapını döymədim, xırda daş götürüb yuxarıdakı otağın pəncərəsinə vurdum. Fatimə xanım qapını açdı, məni görən kimi təəccüblənib dedi: "Niyə xəbər vermədin? Yaralanmışdın?"

Üç-dörd aydan sonra yaram yavaş-yavaş birləşdi. Gülləni və ya qəlpəni hiss etmirdim, ancaq tez-tez yeriyə bilmirdim. Ayağıma ağırlıq salanda da ağrıyırdı.

Bir gün Hüseyn Mahmudi, Əli Bəradəran və Şeyx Mahmud Xudakərəmlə avtobusa minib Kirmanşaha kəşfiyyatçı uşaqların yanına yollandıq. O vaxt Hüseyn Allahkərəm kəşfiyyat rəisi idi.

Günortadan sonra uşaqların yanına çatdıq. Hüseyn dedi: "Dünən Salmankoştə və Bonərig yüksəkliklərində əməliyyat olub. Salman batalyonunun komandiri

yaralanıb, şəxsi heyəti pərən-pərən olub. Yaxşı vaxtda gəlmisiz. Gedin, onlara baş çəkin".

Həmin gün axşamüstü ünvanı soruşa-soruşa batalyonu tapdıq. Gördüm ki, yenə dostların lotuluqları tutub, çayın yanında çadır qurublar. Səksən nəfər suda çimirdi. Açıq yer idi, sığınacaq yox idi, təyyarədən vura bilərdilər. Təəccübləndim, amma heç nə demədim. Gecəni onların yanında yatdım.

Ertəsi gün günorta çağı Hacı Himmət, Rza Dəstvarə və Hüseyn Allahkərəm gəlib yeni təyinatları söylədilər. Ağa Zöhrabi batalyon komandiri oldu, Həmid Mirzayi, Əmir Nuri və mən bölük komandiri. Əli Bəradəran əşya və ərzaq xidməti rəisi, Hüseyn Mahmudi bölük komandirinin müavini, Şeyx Mahmud da azad döyüşçü.

Təxminən günorta saat 3-də bizə 200 yeni döyüşçü verdilər. Hamısı Meysəm batalyonundan idi.

Şəxsi heyəti bölüklərə böldük və qərara gəldik ki, axşam Pirəli və Salmankoştə bölgələrində əməliyyata başlayaq. Əməliyyatın adı Müslim ibn Əqil idi.

Günortadan sonra əza məclisi keçirdik, bir nəfər mərsiyə oxudu. Bölük komandirləri batalyon komandiri ağa Zöhrabi ilə uşaqların çadırından 30-40 metr aralıdakı çadıra toplaşdılar, iclas keçirdik. Əvvəllər Sumarda olduğuma görə bölgəni bir qədər tanıyırdım. Bildiklərimi onlara söylədim.

İclasın ortasında təyyarə gurultusuna bənzər səs gəldi. Bayıra çıxıb bir qədər uşaqların çadırının yanında dayandım. Sinə vururdular, onun səsi idi. Yenə komandir çadırına qayıtdım. Razılaşmaları yekunlaşdırıb uşaqlara dedik ki, hərəkətə hazır olun.

Uşaqlar bayıra çıxıb silahlarını götürdülər, kəmərlərini bərkitdilər. Bəziləri çayın kənarında oturub söhbətləşirdi.

Mənim əynimdə enli bir hərbi köynək və kürd şalvarı vardı. Bir “Kalaşnikov” avtomatı və üç əlavə daraq götürdüm. Parça ayaqqabı yerinə bu dəfə ayaqlarımda qısa və yaraşıqlı dəri çəkmə vardı, dostların biri hədiyyə vermişdi. Onu hər yerə geyinirdim.

Havanın ala-toranlığında uzaqdan bir Toyota avtomobili göründü. Gəlib çadırın yanında dayandı. Sürücüsü ağsaqqal, nurani bir qoca idi, üzündən ruhaniyə oxşayırdı. Hərbi forma geyinmişdi, çox möhkəm addımlayırdı. Yaxınlaşanda salamlaşdıq. Dedi: "Ağa, mən gecə yuxuda gördüm ki, sizin batalyondayam, sizinlə əməliyyata gedirəm və başım bədənimdən ayrılır..”.

Sözlərinə qulaq asdığım yerdə təyyarə gurultusu qopdu, sonra isə nə baş verdiyini bilmədim. Ağzımda acı dad hiss edir, sanki buludların üstündə yeriyirdim. Yuxu ilə ayıqlıq arasında başımı qaldırıb gördüm ki, bədənimin sinədən aşağı hissəsi iflic olub, çayın suyu qan rəngindədir, kəsilmiş əl-ayaqlar suda üzür, ətrafıma da bir qədər cəsəd düşüb. Çətin günlərimin dostu olmuş qonşumuz Hüseyn Mahmudi məndən bir neçə metr kənarda qan içindəydi, həmin qocanın da başı bədənindən ayrılmış, təxminən başımın üstünə düşmüşdü.

Təyyarənin nə vaxt bomba atdığını, nə vaxt partlayış baş verdiyini bilmədim. Bir anın içində hər şey alt-üst oldu. Özümdən getdim. Bir dəstə adam gəlib mənim kimi sağ qalanları topladı və maşının arxasına qoydu. Məni qaldıranda ayağıma baxdım. Yarısı çəkmə qarışıq ortadan kəsilmişdi, bir dəridən sallanırdı.

Toyotanın arxasında sıxlıqdan boğulurdum. Uşaqların qanlı əl-ayaqları üz-başıma dəyir, nəfəsimi kəsirdi. Toyota çala-çuxurda atılıb-düşür, uşaqlar qışqırırdı. Birinin

ayağına qəlpə dəymişdi, birinin böyrünə, birinin qoluna. Biri huşunu itirmişdi, ya da özündə idi, amma tərpənmirdi.

Uzun müsibətdən sonra səhra xəstəxanasına çatdıq. Başımın altına bir adyal qoyub mənə serum qoşdular. Bütün bədənimi ağrı sarmışdı. O vəziyyətdə bir nəfər başım üstə oturub tez-tez deyirdi: "Qardaş, salavat de, salavat de..”.

Helikopter səsi gəldi. Tibb məntəqəsinin uşaqları danışırdılar ki, bunları helikopterlə göndərsək, havada vurarlar, təyyarə gəlincə də, üç-dörd saat çəkəcək.

Məni və mənim kimi vəziyyəti ağır, qanaxması güclü olan üç-dörd nəfəri helikopterə mindirdilər. Orada məni yuxu tutdu. Oyananda artıq uzun bir dəhlizdə yerə uzanmışdım. Bədənimin yarısını hiss etmirdim. Dəhlizin sonuna baxıb gördüm ki, qarşıdan hər iki ayağı kəsilmiş bir adamı gətirirlər. Ayaqlarının kəsildiyi yeri bağlamışdılar, qanın və toz-torpağın içindəydi.

İki nəfər gəlib məni yerdən götürdü. Yenə özümdən getdim. Bu dəfə özümə gələndə sakit və qaranlıq bir zalda idim. Soyuqdan yarpaq kimi əsirdim, amma tərpənməyə taqətim yox idi. Kürəyim ağrıyır, göynədirdi. Öz-özümə dedim: "Səhv etməsəm, bura şəhid məzarlığıdır. Özümdən getmişəm, elə biliblər ki, ölmüşəm".

Bir neçə dəqiqədən sonra bir dəstə adam gəldi. Kirmanşah ləhcəsi ilə tez-tez danışırdılar. Deyəsən, yaxınlarını axtarmağa gəlmişdilər.

Kirmanşahlılar mənim bir neçə addımlığıma çatdılar. Bütün gücümü toplayıb başımı qaldırdım. Məni görən kimi "Şəhid dirildi! Şəhid dirildi!" - qışqırıb zala tərəf qaçdılar.

Təxminim düz idi. Ora xəstəxananın morqu imiş. Bir neçə dəqiqədən sonra yenə bir neçə nəfər gəldi. Onlara sağ

olduğumu bildirməkdən ötrü əlimi qaldırdım. Biri fənəri üzümə saldı, nəbzimi yoxlayıb dedi: "Bu, huşunu itirib, elə biliblər şəhid olub. Qaldırın".

Məni qaldırıb təkərli çarpayıya qoydular. Xəstəxananın zalında bir nəfərdən soruşdum. Dedi ki, sübh 5-dir.

– Hardayıq?

– İlam vilayətində, Eyvan şəhərində.

Əməliyyat otağında buduma, dizimin altına və baldırıma keyitmə iynəsi vurdular. Yuxulu-yuxulu bilirdim ki, "Kəsək, yoxsa kəsməyək" - deyə fikirləşirlər. Axırda, "Hələlik qanaxmanın qarşısını alaq" - deyib ayağın qopmuş hissəsini yerinə tikdilər.

Məni əməliyyatdan çıxaranda hələ yarıbihuş halda idim. Özümə gəlib-gedirdim.

Bir-iki saatdan sonra bir az qarnım ağrıdı, ayaq ağrısına əlavə olub get-gedə gücləndi. Axırda ilan kimi yerimdə qıvrılmağa başladım. Balışı üzümə qoydum ki, qışqırsam, heç kim eşitməsin.

Bu zaman qonşumuz Şeyx Mahmud başım üstə gəldi. Allah ondan razı olsun! Vəziyyətimi görüb həkimə xəbər verdi. Həkim gəlib əlini qarnıma qoydu, ora-burasını sıxdı, mən də ağrıdan qışqırdım.

Tibb bacısına dedi: "Əməliyyat otağına aparın".

Qarnıma bir iynə vurdular, sonra huşumu itirdim.

Özümə gələndə şeyx hələ başım üstə idi. Qarnıma şlanq salmış, qoluma serum qoşmuşdular.

Şeyx dedi: "Seyid, necəsən?"

– Bilmirəm nə ağrısı idi. Dəli olmaq üzrəydim.

– Həkim dedi ki, ola bilsin, partlayış dalğasına görə bağırsaqların yarılıb.

Ertəsi gün məni təcili yardım maşını ilə Kirmanşaha göndərdilər. Bizdən bir neçə ev aralıda yaşayan qonşumuz

xanım Yari həmin gün Kirmanşaha qohumugilə gəlmişdi. Qohumların vasitəsilə mənim orada yatdığımı öyrənib yanıma gəldi. 130 kiloluq imanlı hacı xanım idi, bu qapını-o qapını döyüb seyidə qız vermək istəyən tayfalardan. Öz sözləri ilə desəm, seyidə qız verəndə Əmirəlmömininlə qohum olurdular!

Hacı xanım Yari gələndə həkimlər mənə su və çay içməyi qadağan etmişdilər. Mən çox susuz idim; dodağım quruyub çatlamış, dilim çubuq kimi olmuşdu. Razı idim ki, bütün dünyanı verim, mənə bir qurtum su versinlər. Daim xəyalımda su görür, sərin suyu birnəfəsə içirdim.

Hacı xanım başım üstə oturub ana kimi qayğıma qalmağa başladı. Dəsmalı isladıb dodaqlarımın üstünə qoyur, tərimi silirdi. Mənimlə Kirmanşah ləhcəsi ilə danışırdı. Qəlbi ilahi ətrə boyanmış, məhrəm-naməhrəm məsələsi də yadından çıxmışdı. Mən də hacı xanıma kələk gəlməkdən başqa yol görmədim. Susuzluğa dözə bilməyəndə dedim: "Hacı xanım, həkim səhər dedi ki, su içmə, amma çay içə bilərsən".

Zavallı mənə sevgi dolu nəzər salıb getdi, bir stəkan çay gətirdi, bir neçə dəfə stəkandan nəlbəkiyə, nəlbəkidən stəkana süzüb soyutdu, sonra ağzıma yaxınlaşdırdı. Dərhal böyük bir qurtum içdim. İkincini içmək istəyəndə tibb bacısı gəldi, hacı xanımın başına qışqırıb dedi: "Yekəpər, ona nə verirdin? Bu boyda bədənindən utanmırsan?.”.

Hacı xanım kənara çəkildi, özünü toparlayıb dedi: "Nə deyirsən, xanım? Bu, seyiddir!"

– Seyid olsun! Su içsə, öləcək.

– Kim deyib? Cəddi başı üstədir, onu qoruyar. Kərbəlada cəddinə su vermədiz, indi də belə. Məgər siz Yezidsiz?!

Mən südü dağıtmış pişik kimi özümü məzlumluğa vurub gözaltı onlara baxırdım.

Tibb bacısı ilə hacı xanım o qədər mübahisə etdilər ki, həkim xəbər tutub gəldi və hacı xanımı otaqdan çıxardı.

Çox xəcalət çəkdim. Hacı xanıma yazığım gəldi. Planı mən qurmuşdum, hacı xanım həqiqətən günahsız idi.

Həkim başım üstə gəlib dedi: "Su içsən, öləcəksən. Başa düşürsən?! Öləcəksən! Bir neçə gün qabaq bir nəfər burda su içdiyinə görə öldü. Niyə belə edirsiz?!"

Bir-iki gün belə susuz qaldım. Digər ağrılarıma bel ağrısı da əlavə olunmuşdu. Bütün vücudum ağrıyırdı: qarın, bel, kürək, ayaq. Ağrıkəsici təsir eləmirdi. Hiss edirdim ki, belim şişib, arxası üstə uzana bilmirəm. Böyrü üstə qalmışdım. Tez belimin şəklini çəkdilər. Həkim dedi: "Bu şəkil göstərir ki, belində irili-xırdalı 10-12 qəlpə var. Onurğa sütununun yanına da 1 sm-lik bir qəlpə girib. Bizim əlimizdən bir şey gəlmir, gərək daha imkanlı bir xəstəxanaya gedəsən".[1]

Ertəsi gün məni təcili yardım maşını ilə Kirmanşahın hava limanına apardılar. Orada yenə susadım. Ətrafıma baxdım, amma çarpayıdan enə bilmirdim. Oradan bir tibb bacısı keçirdi. Tez bir kələk hazırlayıb onu çağırdım, titrək səslə dedim: "Bacı, zəhmət olmasa, mənə bir qədər su verin, dərmanımı içim".

– Olmaz.

– Nə üçün?

---

[1] O qəlpələrdən çox da kiçik olmayan birisi ürəyimin yaxınlığına oturmuşdu. Bu çağırılmamış qonaq Allahın lütfü ilə bir neçə il problem yaratmadı, amma illər ötdükcə ürək qapaqlarından birinə yol tapdı. Bu zaman vaxtlı-vaxtsız ürək ağrılarım başladı, vəziyyətim pisləşdi. Nəhayət, uzun xəstəlikdən sonra 2009-cu ildə Sasan xəstəxanasında açıq cərrahiyyə əməliyyatı ilə çıxardılar.

– Bilirsən qovluğuna nə yazılıb?

– Yox.

– Yazılıb ki, o, yalan danışır, maye içmək ona qadağandır.

– Bacı, bu, beş gün öncəyə aiddir. İndi vəziyyətim yaxşıdır, arxayın ol...

Bu dəfə də kələyim baş tutdu, xanım gedib stəkanın dibində açıq rəngli çay gətirdi. Çayı içəndən sonra gözlərimə işıq gəldi.

Təyyarədə Meysəm Qəffarini gördüm. Yalnız salamlaşdıq. İsfahanın hava limanında yerə oturanda bir-birimizdən ayrıldıq. İsfahanda bir xəstəxanada yatdım. Qeydiyyata düşəndən sonra tibb bacılarının birinə Rza Təlanın telefon nömrəsini verdim ki, Fatiməyə xəbər versin.

Ertəsi gün günorta palatada tək idim. Birdən bir xanım tək-tənha içəri girib dedi: "Allah şəfa versin!" Qırmızı manto geyinmiş, başına qırmızı yaylıq atmışdı. Orta yaşlı və qıvraq idi, əlində iki paket alma şirəsi vardı.

Salam verib yaxınlaşdı və birdən alnımdan öpdü. Mən məscid uşağı idim, ürəyimdə dedim ki, bu nə deməkdir, niyə birdən-birə gəlib alnımdan öpür. Mən danışmaq istəyəndə stəkana meyvə şirəsi süzdü, bir əlini başımın altına qoyub şirəni ağzıma yaxınlaşdırdı. İki qurtum içib başımı çevirdim.

Xanım dedi: "Ağa seyid, necəsən? Halın yaxşılaşıb?"

O qədər mehriban və gülərüz idi ki, heç bir söz deyə bilmədim. Yalnız başımı yellətdim.

Bir neçə dəqiqədən sonra anam, Fatimə və Səid gəldi, o xanımla səmimi salamlaşdılar. Anamdan soruşdum ki, bu kimdir?

– Dayım oğlu Müşirinin xanımıdır. Biz gecəni onların evində qaldıq. Bizə həddən artıq hörmət etdilər.

Bir neçə dəqiqədən sonra anamla Səid xanım Müşiri ilə getdi, Fatimə isə yanımda qaldı.

Bir neçə həftə idi hamama getməmişdim, bədənim toz-torpaq içində idi. Mən kasıb məhəllə uşağıyam, kiməsə deyə bilərəm ki, mənə ləyən gətir və ya məni hamama apar. Mənim lüğətimdə belə sözlər yoxdur.

Ən pisi bu idi ki, yol yeriyə bilmirdim. Hər bir iş mənimçün can verməyə dönmüşdü.

Fatimə elə əvvəldə çarpayımın aşağısına bir ləyən qoydu, paltarlarımı çıxarıb su və sabunla başımı yudu. Başımda bir maşın toz-torpaq vardı. Onda saçım da çox idi.

Başım təmizlənəndən sonra yorğunluğum çıxdı. Özümü yaxşı hiss etdim, ağrılarım azaldı. Paltarlarımı geyinəndə bildim ki, tünd qırmızı qaşlı üzüyüm yoxdur.

Əyilib ayaqlarımın altını və mələfələrin arasını axtarmağa başladım. Çarpayının altına da baxdım, yox idi. Nə vaxt əlimdən düşdüyünü bilmirdim. Çox narahat oldum. O üzük Hüseyn Mahmudinin yadigarı idi. Hüseynin şəhadət səhnəsi və o çay gözlərim özünə gəldi. Mən Hüseynlə bir küçədən idim, uşaqlıqda Boyaqçılar küçəsində bir yerdə oynamışdıq. Nizamsız döyüşlər qərargahında da günlərimiz olmuşdu; birlikdə sevinmiş, birlikdə kədərlənmişdik. Başımı çevirib gördüm ki, Fatimə ağlayır. Dedim ki, niyə ağlayırsan?

– Əgər sən ölsən, mən nə edərəm?

– Ölüm Allahın əlindədir. Üstəlik, müharibədə belə şeylər olur. Bir gün varıq, bir gün də noxud boyda bir qəlpə ilə hər şey bitir. Gör şair nə deyir:

Gecə qaranlıq, yol incə və mən məstəm,

Badə əlimdən düşdü, amma sınmadı.
Saxlayan onu yaxşı saxladı, çünki
Düşmədən sınan yüz badə vardır.

Bir-iki gündən sonra anamgil avtobusla Tehrana qayıtdılar, məni isə təyyarə ilə göndərib Baharlı xəstəxanasında yatırtdılar. Ayağımı iki dəfə cərrahiyyə əməliyyatı etdilər, amma ayaq sinirləri kəsilmişdi, yara birləşmirdi. Bağırsaqlarım yırtıldığına görə sidik kisəsi və böyrəyim də xəsarət almışdı. Qarın ağrısı mənə əzab verirdi. Qarnımı ikinci dəfə əməliyyat edib dedilər: "Bağırsaqlarını birləşdirdik ki, sidik kisəsini sıxmasın".

Bir həftədən sonra qarnımı üçüncü dəfə əməliyyat edib dedilər: "Bağırsaqlarına bir tikə bağırsaq peyvənd etdik".

İt bağırsağı və ya başqa bir şey olduğunu bilmirdim, amma ağrı məndən əl çəkmirdi. Nə yeyirdimsə, qarnım ağrıyırdı. Yemək yeyə bilmirdim, iştaham küsmüşdü, arıqlamışdım.

O günlərdə yalnız Fatimə başım üstə olurdu. Həmin ərəfədə onun nə çəkdiyini söyləmək mümkün deyil. O, səhərdən günortaya qədər Yetimlər cəmiyyətində işləyir, günorta xəstəxanaya gəlib ertəsi gün səhərə qədər yanımda qalırdı. Yaram irinləyəndə və mən ağrıdan həddən artıq əzab çəkəndə səhərə qədər ayağımı ovurdu. Gözlərimə yuxu getmək istəyən kimi ağrım başlayırdı, Fatiməni çağırırdım:

– Fatimə, ayağımı o tərəfə qoy...

– Fatimə, ayağımın yerini dəyişdir, keyiyib...

Yazıq sevə-sevə mənə qulluq edirdi.

Gündüzlər məni ziyarətə gələnlər çox olurdu: adi insanlar, müəllimlər, tələbələr, tacirlər. Camaatın qəlbi Allahla idi.

Bir gün Hacı Qasim gəldi. Bir ildən çox idi onu görmürdüm. Axırıncı dəfə ağır yaralanandan sonra cəbhəyə az-az gəlir, xeyriyyə işləri ilə məşğul olurdu. Kərəcdə 15 Xordad fondu yaratmışdı, şəhid ailələrinə yardım edirdi. Cümə namazı komitəsində də fəal idi, bəzən cəbhəyə yardım gətirirdi. DŞK gülləsi dəyən əli daha işə yaramırdı.

Bir gün Seyid Əli dayım gəldi, bir yeşik portağal gətirib bütün yaralılara payladı.

Batalyonun uşaqları gələndə onlara dedim: "Bu dayım mahir aşpazdır. Bişirdiyi yeməyə söz ola bilməz. Onun pitilərindən heç bir yerdə tapa bilməzsiz".

Seyid Əli dayım həmin gün mənə dedi: "Qolumun döymələrini nə edim? Onları necə silə bilərəm?"

– Onlarla işin olmasın, çətin məsələdir. Gərək üstünə turşu məhlulu tökəsən.

Dayım israrla onları təmizləmək istəyirdi. Həmin gün uşaqlarla dostlaşdı və diviziyaya yemək bişirməyə getdi. Ondan sonra döyüşçülərdən oldu, aqibəti xeyirlə bitdi. Lakin bədbəxtlikdən 1988-ci ildə Lətyan bəndinin kənarında keçirilən təlim ekskursiyasında infarkt olub Allahın rəhmətinə qovuşdu. Ruhu şad olsun!

Bunu yalnız bilər Pərvərdigar,
Ki sabah sənlə nə edəcək ruzigar.

O dövrdə anam, Pəri nənə və oğlum Səid iki gündən bir məni görməyə gəlirdilər. Səid məni çox görməmişdi, amma çəkinmirdi. Tez-tez çarpayımın başına fırlanıb əlimdən tutur, mənimlə oynamaq istəyirdi. Ancaq çox pis bir adəti vardı; hirslənəndə qışqırır, söyüş verirdi.

Bir gün təkərli oturacaqda oturmuşdum. Səidlə Pəri nənə gəldi. Səid kostyum geyinmişdi, çox yaraşıqlı

olmuşdu. Gəlib ikiəlli oturacağımdan yapışdı; tez-tez danışır, şirindillik edirdi.

Görüş vaxtı bitəndən sonra tibb bacısı gəlib Səidə dedi: "Gəl, oğlum... Gedək, sənə hədiyyə verəcəm".

Səid qışqırıb yazıq tibb bacısını söydü, sonra da ikiəlli oturacağımdan tutub ağlamağa başladı. Tibb bacısı qorxub kəkələyə-kəkələyə dedi: "Vallah, mən ona heç nə eləmədim..”.

Pəri nənə gəlib Səidin əlindən tutdu, əvvəlcə şirin dillə aparmağa çalışdı, sonra dartışma başladı. Səid qışqıra-qışqıra oturacağı buraxıb özünü yerə yıxdı, ayaqlarını da yerə çırpıb deyirdi: "Mən atamın yanında qalmaq istəyirəm..”.

Səsi xəstəxananı başına almışdı. Kim nə deyirdisə, söyürdü. Axırda işçilər toplaşıb onu bayıra çıxardılar.

Ertəsi gün səhər tezdən küçəmizin başındakı dükançı Nasir Səidin əlindən tutub gəldi. Onları görən kimi dedim: "Nasir ağa, siz nə üçün zəhmət çəkmisiz?!"

– Səid dükana gəldi, dedi ki, atam deyib məni xəstəxanaya aparasan.

Səid qucağıma qaçdı. Fikirləşirdim ki, görəsən, heç vaxt məni görməyən uşaq nə üçün həmişə yanımda qalmaq istəyir.

Gəlib yanımda oturdu. Üz-başımı tumarlayır, mənimlə danışırdı.

Sağollaşanda yenə müsibət qopdu.

Bir gün oranın xəstələrindən bir kişi məni görməyə gəldi. Əynində xəstə geyimi vardı. Orta yaşlı idi, axsayırdı. Dedi:

– Salam, hacı. Harda yaralanmısan?

Düşünmədən dedim:

– Fəthülmübində.

– Doğrudan?! Biz də bir qədər o tərəfdə.

Həmin gün birtəhər yola verdim, getdi. Zəli tiplərdən idi. Ertəsi gün yenə gəlib dedi: "Hacı, salam. Çox tanış gəlirsən".

– Ya Əli.

– Harda yaralanmısan?

– Hardasa. Niyə soruşursan?

– Sən mənim canım, de görüm, harda yaralanmısan?

– Mən cəbhədə olmamışam.

– Bəs harda olmusan?

– Üfüq Təlayi kafesinə getdim, orda dava düşdü. Bir nəfər bıçaqla vurdu.

– Bəs səni nə üçün bura gətiriblər? Bura müharibə əlilləri üçündür.

– Bu xəstəxana bir qohumumundur. Sən də bıçaqlanmısan?

– Yox, hacı, yox. Qadan alım, xudahafiz.

Təəccübdən ağzı açıq qalmışdı, gedə-gedə mənə baxırdı. Gedib bütün xəstəxanada xəbər yaydı ki, bunu bıçaqlayıblar, amma Müharibə əlilləri şöbəsində müalicə olunur.

Bu da xəstəxana hekayəsi.

O müddətdə kürəyimdəki qəlpələri bir-bir çıxardılar, ancaq onurğanın yanındakına əl vurmadılar. Bir-ikisi də qan və irinlə bayıra çıxdı. Birinin ucu çıxmış, özü ətə ilişmişdi. Hər dəfə paltar geyinəndə ilişirdi.

Qərara alındı ki, şöbənin işçisi olan tanışım Cəfəri bir neçə gündən bir gəlib ayağımın yarasını yusun. Ancaq bunun o qədər ağrısı vardı ki, mən boyda adam Cəfərini görəndə özümü itirirdim. O gələndə Fatimə də narahat olurdu. Cəfəri qapını döyəndə Fatimə həyəcanla deyirdi: "Əbülfəz, gəldi..”.

Yaramı yuyandan sonra bir neçə saat özümə gələ bilmirdim. Həkim bu qədər ağrının nədən olduğunu bilmirdi.

Yavaş-yavaş ayağımdan pis qoxu gəlməyə başladı. Daha heç kim məni görməyə gəlmirdi. O vaxta qədər hər gün yanıma gələnlər bəhanə gətirirdilər ki, işimiz var. Yalnız Fatimə gəlib pis qoxuya dözürdü.

Bir cümə axşamı dostlar evimizdə Kumeyl duası oxudular. Ertəsi gün Cəfəri gəlib istehza ilə dedi: "Həzrət Rüqəyyəyə deyəydiniz sizə ağrıkəsici də verəydi. Biz nə qədər veririksə, kifayət etmir!"

Ayağımı oyan-buyana çevirir, öz sözünə gülürdü. Birdən yaranın ağzı açıldı, içindən qara maye çıxıb Cəfərinin ağ xalatına töküldü.

Cəfəri qorxdu. Gülüşü yadından çıxdı. Geri çəkilib dedi: "Vay-vay! Bu yara içəridən irinləyib qaralıbmış, yalnız üstü birləşibmiş".

Dedim: "Bax, yaranın açılması Əhli-beytin lütfüdür. İyirmi beş gündür ağrıdan ölürəm, heç kim qulaq asmır".

Həmin gün ayağımın şəklini çəkdilər. İrin baldırıma çatmışdı. “Bu ayaq kəsilməlidir" - deyib məni tez cərrahiyyə otağına apardılar. Doktor Tahiri – Allah onun xeyrini versin – dedi: "Allah səni istədiyindən yaranın ağzı açılıb”.

Sonra böyük bir şpris gətirdi. İynəsini taxmadan başını yaraya keçirib çirkini çəkdi. Özümdə idim, hamısını görürdüm. Artıq ətləri kəsdi, budumdan dəri götürüb ayağımın üstünə və altına peyvənd elədi. Həqiqətən yaxşı əməliyyat etdi, Allahın köməyi ilə iki-üç günə yaxşılaşdım.

Bir gün səhər yuxudan oyanıb gördüm ki, çox acam. Üç porsiya xörək yedim. Həkim dedi: "Gərək yavaş-yavaş

çəliklə gəzəsən ki, ayağının altındakı damarlara qan işləsin, siniri bərpa olsun".

Yara bitişəndən sonra ət əmələ gəldi və məni evə buraxdılar.

Həmin il aşurada təkərli oturacaqla gəzdim, günorta çağı əzadarların arasında başım gicəlləndi, özümdən getdim. Məni yenə Baharlı xəstəxanasına aparıb başgicəllənməyə görə bir neçə gün saxladılar. O qədər antibiotik qəbul etmişdim ki, bir dəri, bir sümük olmuşdum. Sanki iki taxtanı üst-üstə qoyub deyirsən ki, bu, adamdır! Bu qədər arıqlamışdım, ayaq üstə dura bilmirdim. Nəhayət, martda evə buraxıldım.

Bir gün Fatimə yerə bir neçə döşək sərdi, otağın bu başından o başına qədər də iki qalın ip bağladı. Təəccüblə soruşdum:

– Nə edirsən?

– Bu iplərdən tut və yavaş-yavaş ayaq üstə dayan. Əgər yıxılsan, döşəklərin üstünə düşəcəksən.

Ondan sonra hər gün yerimək məşqinə başladım. Yavaş-yavaş təkərli oturacaqdan qalxıb çəliklə gəzdim.

Gündüzlər çəliklə bayıra gedirdim, axşamlar məscid, əza heyəti, bəzən də mütaliə. İki dəfə İran prospektinə Şəhid Hüseyn Mahmudinin valideynlərini görməyə getdim. Çox mənəviyyatlı, klassik ev idi. Nasir Kəlhür, Davud Niyazi, Əli Cəmşidi və Ərəbzadə ilə birlikdə hacı xanımın süfrəsinə nə qədər qonaq olmuşuq! O, dağ kimi möhkəm və dözümlü qadın idi. İki bacısını, həyat yoldaşını, xalça satan və xeyriyyəçi tacirlərdən olan iki qardaşını və ən önəmlisi, oğlu Hüseyn Mahmudini itirmişdi, qəlbi sınmışdı, amma onun və digər şəhid analarının nəfəsi bu diyara rəhmət və bərəkət idi.

Hüseyn Mahmudinin şəhadəti məscid və heyət uşaqlarını heyrətə saldı. Hətta çətin günlərin adamı olan pişnamazımız Hacı Siddiqi də ona görə ağlayırdı.

# Onuncu fəsil

1983-cü ilin qış fəsli idi. Bir gün axsaya-axsaya məscidə getdim ki, dostları görüm və eynim açılsın. Dostlardan biri dedi: "Yaxın günlərdə mühüm bir əməliyyat keçiriləcək. Döyüşçülərə "hazırlaşın" komandası verilib. Pişnamaz bizə tapşırmışdı ki, sizə heç nə deməyək".

-Mən səngər həyatına öyrəşmişəm. Şəhər mənim üçün dözülməzdir, getməliyəm",-deyə cavab verdim.

Əslində evdən və şəhərdən çıxmaq üçün fürsət axtarırdım. Düşündüm ki, madam qoşunla birgə ön cəbhəyə gedə bilmirəm, əməliyyatın kəşfiyyat çadırına getsəm yaxşıdır. Üstəlik kəşfiyyat qüvvələri və İbrahim Hadi ilə də dostam. Orada bir iş götürüb nəsə edə bilərəm.

Soruşa-soruşa gedib Fəkkədəki kəşfiyyat qərargahına çıxdım. Kəşfiyyat komandiri İbrahim Hadi məni çox səmimi qarşıladı. O, ibtidai məktəb müəllimi, pəhləvan, idmançı və arif bir insan idi. İmkanlı olduğu halda sadə həyat tərzi keçirirdi. Şəhərdə ümumi nəqliyyatdan istifadə

edirdi. Gündüzlər bazara gedib yük daşıyan fəhlələrin yanında dayanırdı. Onlarla birgə yük daşıyırdı ki, cismini və ruhunu gücləndirməklə yanaşı, özündən təkəbbür və qüruru uzaqlaşdırsın. Kəşfiyyatçı idi və bu işdə məharətli olanları toplayıb güclü bir taqım təşkil etmişdi.

Döyüşçülər əməliyyata hazırlaşdığı həmin günlərdən birində, "Müslim" əməliyyatından öncə bombardman olunan və özümün də yaralandığım çayın kənarına getdim. Ümid edirdim ki, orada üzüyümün qaşını tapacağam. Gözüm hələ də onu axtarırdı. Düzənlikdə sakitlik idi, külək əsirdi. Hüseynin şəhid edildiyi səhnə bir daha gözümün önündə canlandı. Torpağı alt-üst etdim. Qamışlığın arasına baxdım. Amma üzüyümün qaşı tapılmadı. Axırda məyus halda çadıra qayıtdım. Əslində o qədər müddətdən sonra, balaca bir qaşı orada tapmaq qeyri-mümkün idi.

Bir gün 10 saylı "Seyyidüş-şühəda" qoşununun kəşfiyyat qüvvələrindən olan Məhəmməd Teymuri bizim çadıra gəldi. Biz səmimi dost idik, atası kimi o da imkanlı və əliaçıq adam idi.

Məhəmməd döyüşçülər arasında Camarani təxəllüsü ilə məşhurlaşmışdı. Çünki əliaçıq idi. Nə vaxt fürsət tapsaydı, döyüşçüləri toplayıb Əndimeşkə aparar və kabab qonaqlığı verərdi. Döyüşçülərlə səmimi olduğundan həmişə onlarla zarafatlaşardı. Bəzən mənimlə də zarafat edib belə deyərdi: "Siz şəhərin ac uşaqlarısız. Cəbhəyə gəlmisiz ki, bozbaş yeyəsiz".

Məhəmmədin ürəyi təmiz idi. Bunları deyirdi ki, döyüşçülərin başı qarışsın və bir az gülsünlər. Həmin günlərdə gülmək də, nemət idi və müharibənin çətinliklərini asanlaşdırırdı. Xüsusilə də, gənclərin heç bir əyləncəsi olmadıqlarından, çox vaxt qəmli və bikef

görünürdülər. Bir saat camaat namazı qılıb dua oxuyar, qalan saatlarda isə bir şey tapıb başımızı qatardıq.

Axşamlar kəşfiyyat taqımı məlumat toplayıb keçid açmaqdan ötrü düşmən mövqeyinə gedərdi. Biz də, bir arada oturub söhbətləşərdik. Bu arada Məhəmməd bizimlə olsaydı, mütləq bir şeylə bizi güldürərdi. Məhəmməd özündən bir hədis də qondarmışdı və onu hər yerdə deyərdi: "Şimiran şəhidləri, Tehran şəhidlərindən üstündür!" Ardınca da belə izahat verərdi: "Mənimlə sizin əcriniz Allah yanında eyni deyil. Çünki mən Şimiran uşağıyam, siz isə Tehran". Özündən o qədər belə hədislər çıxarmışdı ki, bizim çadırın yaxınlığındakı mövqedə yerləşən yəzdli və türk dilli döyüşçülər onun doğrudan da, ruhani olduğunu düşünürdülər.

Bir gün qərara gəldik ki, Məhəmməd pişnamaz dursun və biz ona iqtida edək. Hamımız çadırda sıra ilə dayandıq. Məhəmməd də bir döşək mələfəsini götürüb əmmamə kimi başına dolayıb qabaqda durdu. Namaza başlamazdan qabaq, xüsusi ahənglə sözə başlayıb dedi: "Bir şəri məsələ var, icazə verin fars dilində deyim ki, hamı başa düşsün! Hədislərin birində deyilir ki, hər kəs ardıcıl olaraq iyirmi gün bir kilo nar yesə, cənnətdəki zümrüd sarayı onun olacaqdır". Yəzdlilər sadə və imanlı olduqları üçün bu sözə inanmışdılar.

Ertəsi gün gördük ki, yəzdlilərin təminat bölməsi dörd qutu nar gətirib. Məhəmməd onlara hədisi xatırlayıb deyirdi: "Alimlərin bəziləri deyirlər ki, bu narların bir giləsi də yerə düşməməlidir".

Yəzdlilərin ondan çox xoşu gəlirdi. Hər yerdə deyirdilər ki, Məhəmməd çox sevimli və zarafatçıl adamdır!

Onun məzəli işləri bitib-tükənmirdi. Bəzən əllərini qaraldır və gizlən-tap oyununda hisli əllərini onu qovalayanın üzünə yaxıb dostları güldürürdü.

1983-cü ilin fevral ayının 4-də Fəkkənin qumlu səhrasında “Vəlfəcr” hazırlıq əməliyyatı keçirildi. Qumsal yerlərdə əməliyyatın özünəməxsus macərası olur. Addım atmaq olmurdu, hər şey qumun içində batırdı, hətta təcili yardım maşını və tanklar da! Dostlar yerə metal tor sərmişdilər ki, təcili yardım maşını gəlib yaralıları apara bilsin. Qum düşmən tərəfi üçün ən əlverişli təbii maneələrdən biri idi və hətta iraqlıların qarşımızda yaratdığı müxtəlif vasitələrdən də çətin sayılırdı. Qumsal yerlərdə çətinliklə üzləşdiyimiz zaman, İraq mediaları bağıraraq bizdən güclü olduqlarını isbat etməyə çalışırdılar.

Bir gün əməliyyat zamanı motosikleti götürüb ön cəbhəyə getmək istədim. Bir qədər irəlidə qum təpələrində ilişib qaldım. Bu əlil və axsaq ayaqla motosikleti qumun içindən hansı çətinliklə çıxarıb kəşfiyyat çadırına necə qayıtdığımı bir Allah bilir. Bir neçə gündən sonra eşitdim ki, Əsğər Ərsəncani bu əməliyyatda yaralanmışdır.

İbrahim Hadinin taqımına üzv olduğum həmin günlərdə döyüşçülər arasında qəribə işlər yaranmışdı. Bəzi qardaşlar öz xasiyyətlərinə uyğun olaraq qayda-qanunlara riayət etmirdilər.

Bəziləri kürd şalvarı və iti burunlu ayaqqabı geyinir, başlarına da o vaxtlarda “ilahi, qəlbim qapalıdır” adı ilə məşhurlaşan nazik papaq qoyurdular. Belə uşaqların çoxu tehranlı idi. Ayrı bölgələrdən olan dostlar da, onlara baxıb bu işləri təkrarlayırdılar. Qayda-qanun saymır, səhər proqramlarında iştirak etmir və palçıqlı paltar

geyinmirdilər. Bu özbaşınalıq nəticəsində döyüş zamanı problemlər yaranır və nizam-intizam pozulurdu.

Bunlarla yanaşı, elə qardaşlar da var idi ki, yanında qəhqəhə ilə gülsən, rəngi qızarar, dodağını dişləyərək "əstəğfurullah" deyərdi. Onların düşüncəsinə görə ucadan gülmək və zarafatlaşmaq böyük günah idi.

Bəziləri də heç nəyə əhəmiyyət vermirdi, çünki onlar yalnız döyüşməyə gəlmişdilər. Geyim-keçim, yemək-içmək və harda qalmaq onlar üçün önəmli deyildi.

Hacı Himmət isə bu döyüşçülərlə işləyib, hamısı ilə dost olmaq istəyirdi. O, Tehran qoşununun başçısı idi. Özü də, həqiqətən, ədəbli, hövsələli və savadlı komandir idi. Bu komandanlıq və idarəetmə bacarığı tələb edirdi ki, hamını yaxşı tanısın və hamı ilə özü kimi rəftar etsin. O, bu istedadı ilə qoşunun vəhdətini qoruyub inkişaf etdirməyi bacarırdı.

Hacı Himmət bir dəfə məni yanına çağırdı. Mən də aramızda ən lotu oğlu olan İbrahimlə birgə onun yanına getdim. Hacı qərargahda bizi gözləyirdi. Salamlaşıb oturduqdan sonra, sözə başlayıb dedi: "Sizdən bəzi şeylər öyrənmək istəyirəm. Hərəmiz bir sahədə təcrübəli və məharətliyik. Lotuluğun yol-yolağını mənə də öyrədin".

Həmişə hazır cavab olduğum üçün, ona bir əhvalat danışdım: "Tehranda bir nəfər vardı. Şəhərin ən mühüm pəhləvanlarından sayılırdı. Adı Mustafa idi, Əhli-beyti (ə) dəlicəsinə sevdiyi üçün ona dəli Mustafa deyirdilər. Gənc vaxtlarında lotu dostları ilə birgə Xala bağına əylənməyə gedərdi. Həmin gecə məşhur ruhanilərdən olan Seyid Mehdi Qəvvam da oraya gəlir. Seyidin tələbələri Mustafanı görüb ondan həmin gecə özünü yaxşı aparmasını istəyirlər. O, da lotulardan birinin yanına gedib bu gün nə baş verdiyini soruşur.

Seyid Mehdi Qəvvamın gəldiyini eşitdikdə, dərhal ayağa qalxıb onun yanına gedir və alnından öpüb deyir: “Biz seyidlərin nökəriyik”. Seyid Mehdi də ona mehribanlıq göstərib deyir ki, biz də sizin kimi lotu olmaq istəyirik. Öz qanunlarınızı bizə də öyrədərsiz? Mustafa əlini gözünün üstünə qoyub deyir:

-Qanunumuz budur ki, kiminlə duz-çörək kəssək, ömrümüzün axırına qədər o duz-çörəyin hörmətini saxlayarıq!

Seyid gülümsəyib cavab verir ki, bu, elə bizim qanunda da var. De görüm siz bunu təkcə dildə deyirsiz, yoxsa ona əməl də edirsiz? Əgər əməl edirsizsə, bəs nəyə görə Allahın duz-çörəyini yeyib Ona bəndəlik etmirsiz?!

Deyirlər ki, bu söz Mustafaya çox təsir edir və onun həyatında əsaslı dəyişikliyə səbəb olur. O, bundan sonra Seyid Mehdi ilə dostlaşır və ömrünün axırına kimi ona sadiq qalır. Tehranın Paçinar məhəlləsindəki “Muhibbane Zəhra” heyəti ondan yadigar qalmışdır. Qeyd etmək lazımdır ki, bu heyətin 50-dən çox üzvü İslam İnqilabında şəhid olmuşdur. Onlardan biri də general Abbas Vəramini idi. Lotuluğun qanunu budur, duz-çörəyin hörmətini saxlamalısan.

Bunları danışarkən hacı heç nə deməyib yalnız qulaq asır və dəftərinə nə isə yazırdı.

Qoşunda olan lotu və pəhləvanların xasiyyətləri barədə hacıya çox şey danışdım. Hacı Himmət elə böyük ruha malik idi ki, sözlərimin heç birini inkar etmədi. Ürəyində sözümü bəyənmədisə də, üz vurmayıb çox sakit və təvazökarlıqla davrandı. O, elə komandir idi ki, heç bir şəraitdə halı və rəftarı dəyişməzdi. Heç vaxt bizə demədi ki, mən komandirəm, siz mənim əmirlərimə sözsüz itaət etməlisiz!

Bu dahi insan yalnız xidmət etmək və qoşunun nizam-intizamını qorumaq istəyirdi. İstəyirdi ki, bütün döyüşçülər, fərqli məsləklərinə baxmayaraq, bir bayraq altında toplaşıb, bir məqsəd uğrunda döyüşsünlər.

Həmin gündən sonra, nə vaxt bizi görürdüsə, gülüb lotu ləhcəsi ilə deyərdi: “Qardaşları xoş gördük!”

Gülməyi haram bilənlərə də çatdıqda astadan və ədəblə deyərdi: “Səlamun aleykum və rəhmətullah!”

O macəradan sonra, çox hadisələr baş verdi. “2-ci Vəlfəcr” hazırlıq əməliyyatı ilə “1-ci Vəlfəcr” əməliyyatında Tehranın iki qoşunu çox sayda itki verdi və bu, qoşunların komandirlərinə böyük zərbə vurdu. Kəşfiyyatın igid başçısı İbrahim Hadinin şəhadət xəbəri bütün mücahidlərin qəlbinə od vurdu. Döyüşçülər bir növ ümidsiz və məyus olmuşdular. Bu da, növbəti əməliyyatların gedişatında çətinlik yaradırdı. Bəzi komandirlərin deyəcək sözləri vardı. Ötən əməliyyatlarda dəfələrlə gördük ki, igid döyüşçülərimiz İraq səhralarında amansız bombardmanlar altında pənahsız qaldılar. Odur ki, həmin şəraitdə döyüşçülərin söz-söhbəti itkiləri necə azaltmaq barədə idi.

Şəhidlərin mesajını bizə çatdıranlar Əli Müvəhhid, Kazim Rəstigar, Əsgər Rəncbəran, Mənsur Kuçək Möhsini, Səid Qasimi, Məhəmməd Cavanbəxt, Hüseynullah Kərəm, Hüseyn İskəndərli və Məcid Zadbud idi. Bu məsələ bütün döyüşçüləri hədsiz dərəcədə narahat etmişdi, amma az adam bunu deməyə cürət edirdi. Bu mənfi əhval-ruhiyyə nəticəsində müharibə düz üç ay səngidi. Uzun müddət yeni əməliyyatlardan xəbər-ətər olmadı. Halbuki o qanlı-qadalı günlərdə müharibə ən önəmli məsələ idi. Nəhayət, döyüşçülərdən də, çox narahat və pərişan olan komandirlər Tehranda toplaşıb

təcrübələrini bölüşdülər, ön cəbhədə qələbənin qarşısını alan problemlərə çarə yolu tapmaq üçün ortaq fikrə gəldilər.

Qərara alındı ki, müharibənin ağsaqqallarının başçılığı ilə tank hücumlarına qraşı insan sipərinin ədalətsiz döyüşünə kiçik bir etiraz edək. Həmişə bir nəfər qabağa düşüb sinəsini irəli verməli idi. Bu dəfə məğlub olmuş ələmdar Həsən Bəhməni könüllü oldu ki, komandirlərin dərdlərini və sözlərini ölkə başçılarına çatdırsın. Doğrudan da, o dövrdə heç kim Həsən qədər müharibənin həssaslığını dərk etməmişdi. O, dərin düşüncəli və peşəkar bir hərbçi idi. Müharibənin hiyləgərləyini bilir və döyüş üçün yeni həll yolu tapılmasını tövsiyə edirdi. İstəyirdi ki, müharibə düşüncə əsasında aparılsın, işlər mütaliə və plan üzrə həyata keçirilsin.

Həmin illərdə çox adam canından keçmişdi. Lakin Həsən gecə-gündüz müharibənin uğurlu aparılması üçün fikirləşir və bu işdə əlindən gələni əsirgəmirdi.

O mənim iyirmi illik dostum idi. İkimiz də, Cəmşid məktəbində oxumuşduq. O, 4-cü sinifdə olanda, mən 1-ci sinifdə oxuyurdum. İkimiz də eyni məhəllədən idik və bir yerdə oynayardıq. Lakin o, həmişə hər işdə məndən bir addım öndə idi. Çünki Həsən həm imkanlı, həm ali təhsilli, həm də istedadlı idi.

Attestatını aldıqdan sonra, eşitdim ki, universitetə qəbul olub. Lakin təhsildən imtina edib atasının yanında sürücülük kursunun müdiri olmağı tərcih edib. Universitetə getməyi ehtiyac duymamışdı, çünki özü mütaliə əhli və kifayət qədər məlumatlı bir şəxs idi. Özünü heç vaxt gözə soxmazdı. Ruhi gözəlliyə diqqət yetirməklə yanaşı, zahiri gözəlliyə də, fikir verirdi. Çox səliqəli geyinər və yaraşıqlı paltarlar seçərdi. Yeniyetməlik

dövründən həmişə ayaqqabısı ilə köynəyi və ya şalvarı eyni rəngdə olurdu. İnqilab başladıqda, etiraz aksiyalarında parladı və digər iranlı gənclər kimi xalq hərəkatında önəmli addımlar atdı. Korpusu təsis edən ilk şəxslərdən və onun əsas üzvlərindən idi. Mənim üçün korpusa üzv olub-olmamaq mühüm deyildi, daha çox sərbəst yaşamağa üstünlük verirdim. O isə düşünürdü ki, korpus olmasa, inqilabı qorumaq mümkün deyil.

Yadımdadır ki, bir vaxt hamı narkomanlarla dilənçiləri qovub cəmiyyətdən uzaqlaşdırmaq istəyirdi. O, isə belə şəxslərə pul verib deyərdi: "Bunlar xəstədir və ya belə pis bir şeyə adət ediblər, əsaslı tədbirlər görmək lazımdır".

Məhəllənin süpürgəçisi məşədi Qadiri görəndə, qucaqlayıb öpər və özünəməxsus mehribançılıqla cibinə pul qoyardı. Bunlar Həsənin mərifət və savab işlərə meyilli olan batini gözəlliyindən doğurdu. Onun daim təravətli olan insansevər işləri elə bir həddə idi ki, heç vaxt nümunəsini öz həmyaşıdlarımdan görməmişdim.

Həsən döyüş meydanında da, mövcud qaydaları bəyənmirdi. Düşünürdü ki, korpusla bəsic qüvvələrinin sayının çoxluğuna əsasən, elə vuruşmalıyıq ki, az itki verib, daha çox nəticə əldə edək.

Şəhid dostlarına yas tutanlar və itki verib batalyonunu əldən verən komandirlər, xüsusilə də, Tehranın böyük zərbə alan iki qoşunu, Həsənlə həmdərd idilər.

Bir gün səhər əvvəlcədən nəzərdə tutulmuş şəkildə digər döyüşçülərlə 10 saylı bölgədəki korpusun Vəliəsr bazasında toplaşdıq ki, sözlərimizi Həsənin vasitəsilə başçılara çatdıraq. Korpus tərəfindən də, Möhsin Rzayi Həsənin və digər döyüşçülərin suallarına cavab verməli idi.

Qərara alındı ki, iclas açıq fəzada və hamının gözü önündə keçirilsin ki, heç bir söz gizli qalmasın. Kazim Nəcəfi Rəstigar Həsənin səmimi dostu və iş yoldaşı idi. Mənsur Kuçək Möhsini, Səid Qasimi və Hüseynullah Kərəm də hərbi ekspert kimi orada nəzarətçi idilər.

Həmin gün Möhsin Rzayi döyüşçülərin yanına gəldikdə, hələ söhbətə başlamadan öncə, Həsənə dedi: "Sizcə, burada casus varmı?" Həsən "bəli" - deyə cavab verdi.

-Burada deyə bilməyəcəyim bəzi sözlər var. Özünüz bir neçə nəfəri seçin və onlarla birgə yuxarıya gəlin.

Həsən razılaşdı və Kazim Rəstigar, Səid Qasimi, Abbas Nəcəfabadi, Mənsur Kuçək Möhsini və Hüseynullah Kərəmlə birgə yuxarıya çıxdı. Digər tərəfdən də, Möhsin Rzayi, Məhəmməd Kosəri və Əkbər Nocavan gəldi.

Biz də bazanın həyətində və yemək zalında iclasın nəticəsini gözlədik. 2-3 saatdan sonra iclas iştirakçıları çölə çıxıb dedilər: "Nəticə sabah bilinəcək. Səhər saat 10-da bazada olun".

Nəticə xülasə olaraq belə idi. Komandanlıq bildirirdi ki, biz nə deyiriksə, siz "baş üstə" deməlisiz. Bizimkilər də, deyirdilər ki, komandirlər döyüşdən qabaq məntəqəni araşdırmalıdırlar ki, oranın əməliyyata uyğun olub-olmadığı müəyyənləşsin.

Əslində onlar məntiqli danışırdılar. Korpus komandiri Möhsin Rzayi isə israr edirdi ki, səhər İmamın yanına gedək, deyin ki, mənim yerimə başqa birini təyin etsin.

Həsən isə ona, biz sizi işdən çıxarıb, yerinizi almağa gəlməmişik deyirdi. Sizin döyüş üslubunuzla problemimiz var. Tankla canlı sipərin qeyri-bərabər döyüşünə etirazımız var. Biz itkilərin qarşısını almağa bir yol axtarırıq. Sözümüz budur ki, döyüşdən qabaq və əməliyyat

zamanı nəyə görə diqqətli deyilsiz?! Nəyə görə bir şey danışıb fikir söyləmək istədikdə, bizə susmağı əmr edirsiz?! Biz sizinlə ata malını bölüşmək üstə savaşmağa gəlməmişik! Bizim sözümüz 4 illik müharibənin xülasəsidir.

Nəhayət, son qərar bu oldu ki, bir neçə gündən sonra nəticəni bilmək üçün Vəliəsr bazasında toplaşaq və İmam Xomeyninin də nümayəndəsi gəlib son sözü elan etsin.

İmamın nümayəndəsi bir mesaj gətirmişdi, lakin həmin ismarıcın dəqiq mətni yadımda deyil. Məzmunu bu idi ki, bir qrup insan sizi ya aldatmaq istəyir, ya da mərhəmətli davranıb belə sözlər söyləyirlər. Məncə ikincisi düzdür. Mən bütün qüvvələrin baş komandanı olaraq əmr edirəm ki, komandirlərin əmri səhv olsa belə, onlara qulaq asıb itaət etmək lazımdır.

İmamın mesajı oxunduqdan sonra, döyüşçülər dağlışmağa başladılar. Etiraz edən döyüşçülərin başçısı Həsən idi və ona görə də son sözü o deməli idi. Həmin anda bir neçə nəfər qrupdan ayrılıb oradan uzaqlaşdılar. Digərlər də, Həsənin ardınca düşüb Vəliəsr bazasının zorxanasının önünə toplaşdılar.

Hamımız gözləyirdik ki, son sözü Həsən desin, gedib və ya qalmaq barədə öz fikrini bildirsin. Həm İmamın əmri vardı, həm də qürur və təəssübümüz sual altında idi; iki yol ayırıcında qalmışdıq. Həqiqətən də, çox pis vəziyyət yaranmışdı.

Birdən Əsğər Rəncbəran dilləndi:

-Həsən qardaş, bir söz de, danış. İndi nə edək? Gedək, yoxsa qalaq?

-Mən öz sözümü deyib etirazımı bildirdim. Buna baxmayaraq mən İmamın ardıcıllarındanam. İmam Xomeyni buyursa ki, Səddamın əlini öp, öpərəm, öl desə,

ölərəm! Sabah cəbhəyə gedəcəyəm, əgər döyüşməsək, ölkəmizin müstəqilliyi sual altına düşəcək. Mən vaxt və torpağı birgə qazanmaq üçün yol axtarırdım. İndi isə biz əraziləri alsaq da, vaxtı əldən veririk. Səddam bir ərazini geri qaytarırsa, ürəyi istədiyi qədər də itki alır. Mənim dediyim planı icra etsəydilər, bayrağımiz Bağdadda dalğalanacaqdı.

Bəziləri Həsənin sözünü qəbul etdi, bəziləri isə onunla barışmayıb yollarını ayırdı. Mən isə nə edəcəyimi bilirdim. Oradaca dostlarla sağollaşıb evə qayıtdım.

Tehranda olduğum müddətdə başıma maraqlı hadisə gəldi. Bir gün Fatimə və Səidlə birgə anamgilə qonaqlığa gedirdik. Qayıdarkən Piruzi meydanının önündə, qənd fabrikinin qarşısında gördüm ki, prospektdə izdiham var və bir neçə nəfəri əhatəyə alıblar.

Nə baş verdiyini bilmək istədim. Əvvəlcə avtomobil qəzası olduğunu düşündüm, buna görə motosikleti saxlayıb camaatın içinə girdim. Piruzi məhəlləsinin gənclərindən bir neçəsi məni tanıdı. O vaxtlar az da olsa, nüfuzum vardı və çoxları məndən çəkinirdi. Dostlar dərhal mənim üçün yol açdılar.

Gördüm ki, bir gəlin maşını dayanıb, bir nəfər də bəyin qalstukundan tutub onu maşından çölə çıxarır. Gəlin qorxudan ağlayırdı. Qarşı tərəf məni görən kimi bəyin qalstukunu buraxıb geri çəkildi.

Yaxınlaşıb, bəyi gəlin maşınına tərəf gətirdim və üzürxahlıq edərək dedim: “Bunlar çox böyük səhv ediblər, mən sizdən üzr istəyirəm. Xahiş edirəm bunları bağışlayasız”. Bəy dərindən nəfəs alıb danışmağa başladı və baş verən hadisəni izah etməyə çalışdı. Deyirdi ki, qalstuk taxmağın bu qədər qəbahət iş olduğunu bilmirdim. Dedim ki, burada heç bir qəbahət yoxdur, dostlar səhv

edib sizinlə belə davranıblar. Beləliklə, bəyin üzündən öpüb maşına mindirdim və onları mehribanlıqla yola saldım.

Onlar gedəndən sonra bəyin yaxasından yapışanın yanına gedib dedim: “Kişisənsə, sabah ön cəbhəyə gəl! Bu gəlinlə bəyin qiyamətədək bəsicidən zəhləsi gedəcək! Sənə kim icazə verib ki, insanlarla belə davranasan, ağlına gələn hər bir işi görəsən?!”

Həmin şəxs özünü toparlayıb cavabımı vermədən getdi. Yola düşmək istədikdə Fatiməyə dedim: “İnsanları yaxşılığa dəvət edib, pisliklərdən çəkindirmək yaxşıdır, amma..”. Fatimə sözümü tamamlamağa icazə verməyib dedi: “Yaxşıdır, amma özün günah əhli olmayasan və beləcə başqasını islah edəsən”.

Həmin günlərdə, korpus keşikçisi olan məhəllə dostum Seyid Məhəmməd Kəşfidən öyrəndim ki, əksinqilabçılar Kürdüstanda yenə fəallaşıb təxribatlar törədirlər. Buna görə də, korpusun başçılarından bir çoxu Saqqız rayonuna gedib onlara qarşı mübarizə aparırlar. Korpusun həmin rayonda mübarizə üsulu, qaydasız partizan döyüşləri idi. Odur ki, Möhsin Şəfəq, Saqqız korpusunun komandiri, Hüseyn Xaliqi isə onun müavini təyin edildi. Seyid Məhəmməd Kəşfi əməliyyatın təlim komandiri, mənsə şəhərin bədən tərbiyəsi işləri üzrə məsulu oldum. Bu günlərdə Qasimə də təklif etdim ki, bizimlə bu səfərə gəlsin. Evinə gedib bir yolla onu razı salıb özümlə Saqqıza aparmaq istəyirdim. Qasimin atası çox narahat və əsəbi idi, danışmaq istəyən kimi mənə də, müharibəyə də nifrinlər yağdırmağa başladı. O, istəyirdi ki, hacı heç bir yerə getməyib ailəsinin yanında olsun.

Deyinə-deyinə narahatçılığını mənimlə müharibənin üstünə tökdü. Narahatçılığının səbəbini bilirdim və

cavabını verməkistəyirdim. Lakin gördüm ki, Qasim başını aşağı salıb və heç nə demir. Mən də susmaq məcburiyyətində qaldım. Evdən çıxanda dözməyib dilləndim: “Niyə atanın cavabını vermirsən?”

-Bu, bir-iki günün söhbəti deyil. İyirmi ildir ki, mənə acıqlanır, ağır sözlər deyir. Mənsə heç vaxt cavab qaytarmıram. Qəlbim qırılan zaman, kababçı Mürşid yadıma düşür; o, nə qədər tənəli sözlər eşitdisə də, susub heç nə demədi... Cavab versəydi, daha kababçı Mürşid olmazdı ki.

-Amma o, düz danışmır.

-Nə edək, haqsız da olsa, atamdır. Hər bir adamın qarşısında bir vəzifəmiz var. Bəzən vəzifəmiz qışqırmaqdır, bəzən də susmaq.

Təbii ki, bu cavabdan sonra, bir söz tapa bilmədim. Axırda yalvar-yaxarla onu razı saldım ki, mənimlə birgə Saqqıza gəlsin. Nəhayət, bir gün səhər Seyid Qasim və Məşədibaqirlə birgə Saqqıza doğru yollandıq.

Divandərrə yaxınlığında günorta yeməyindən ötrü dayanıb bir yeməkxanaya girdik. Qarşımıza boyat və dadsız bir xörək qoydular. Nə qədər çalışsaq da, bir şey yeyə bilmədik. İşçilərdən biri vəziyyəti belə görüb dedi:

-Bu yeməyi yeyin, qalsa israf olacaq!

-Qalmağı sizə israfdırsa, yeyilməsi də bizim mədəmizə israfdır! Mədə bu yeməyi həzm edə bilməz. Yaralandıqdan sonra hər nə gəldi yeyə bilmirəm, əks təqdirdə, qarnımın ağrısından üzü qibləyə uzanmalıyam!

Oradan çıxıb “Sentez” kababxanasına getdik. Ora tanınmış yer olduğundan kababları keyfiyyətli və dadlı idi.

Qürub vaxtı Saqqıza çatdıq və keçmişdə Savak qərargahı olan binada qaldıq. Döyüşçülər şəhərin idman zalında qalırdılar və Hüseyn Xaliqi koordinator oldu.

Axşamlar korpusun baş qərargahının üzvləri bir tərəfdə, təlimə gələn döyüşçülər də digər tərəfdə olmaqla, voleybol yarışları keçirirdik. Bəzilərinin xoşuna gəlməsə də, hərdən qədim yerli oyunu olan torna oyununu da oynayırdıq.

Oyun belə idi ki, bir nəfəri qarşıya çıxarıb onu rəis təyin edirdik. O da kibritlə kimin şah, kimin cinayətkar, kimin şallaq vurulası olduğunu müəyyənləşdirirdi. Kim cinayətkar olsaydı, hökmən Əhli-beyti (ə) mədh edən bir şeir oxumalı idi. Bəzən dəsmalla yüngülvari döyülürdü və bu da oyunu maraqlı edirdi. Həmin oyunda yaşlılar və seyidlər döyülmürdülər. Hər halda, bu oyun qeybət və boş-boş söhbətlərdən min dəfə yaxşı idi.

İşin başlanğıcında qərara gəldik ki, iclas keçirib vəzifələri bölüşdürək, eləcə də, əksinqilabçılara qarşı mübarizədə vahid plan hazırlayaq. Dostlar Seyid Qasimə mühüm vəzifə verib, onun təcrübələrindən faydalanmaq istəyirdilər. O, isə iclasın ortasında ayağa qalxıb dedi: "Mən bayıra çıxıb dəstəmaz almaq istəyirəm, bağışlayın".

Bunu deyib çölə çıxdı, nə qədər gözləsək də, geri qayıtmadı. Ayağa qalxıb onun ardınca getdim. Nə qədər axtardımsa da, tapa bilmədim. Yerləşdiyimiz binanı, həyəti və ətraf yerləri gəzdim. Əlacsız qalıb axşama qədər gözlədim. Nəhayət axşam namazından sonra, Kərəcdəki evinə zəng etdim. Telefona özü cavab verdi. Ondan bizi tərk etdiynin səbəbini soruşdum.

-Bax! Maşına minmək istəyəndə niyyətimiz belə idi ki, mən sadə döyüşçü olam. Məni onlara niyə tanıtdırdın? Mənim cismim bu işə dözməz. Əksinqilabçıların öhdəsindən gələ bilmərəm. Bu yüksəkliklərə dırmaşmaq mənlik deyil. Sənin işlədiyin bu insanların hamısı yüksək rütbəli korpus keşikçiləridir. Deyəcəklər ki, sadə bir bəsici gəlib bizə başçı olur".

Bilirdim ki, Seyid Qasim bu məsuliyyəti qəbul etsə, ləyaqətli və peşəkar bir komandir olacaq. Lakin o, həmişə yüksək vəzifədən və məşhurlaşmaqdan qaçırdı. Bir söz demədim. O, həmişə bu kimi işlərlə gözümdə ucalır, ona qarşı imanım və inamım artırdı.

Bu macəradan sonra, yavaş-yavaş əksinqilabçı qruplar öz casusları vasitəsilə korpus keşikçilərinin Kürdüstana toplaşdığını öyrənə bildilər. Onlar Kürdüstanı ələ keçirib, oranı xalq respublikası və Saqqızı da özlərinə paytaxt elan etmək istəyirdilər. Bəsic qüvvələrimiz üç dəfə Saqqızda pusquya düşərək şəhid edilmişdilər. Kürdlər bu münasibətlə Bənövşə təpəsinin ətrafında şadlıq mərasimi keçirmiş, əsirləri dövrəyə alıb ətrafında rəqs etmiş, içki-kabab məclisi təşkil etmişdilər. Hətta bir neçə dəfə də, bəsic və korpus uşaqlarını diri-diri basdırmışdılar. Separatçılar əsirləri çiyinlərinədək torpağa basdırmış, yanlarında əsəbiləşdirdikləri bir pətək arını onların üstünə buraxmışdılar. Biz oraya çatdıqda, dostlarımızın üz-gözü şişib göyərmiş və hamısı şəhid olmuşdu.

Onlar bu kimi cinayətlərdən çox törətmişdilər. Bu hadisələr bizə Pavənin faciəli günlərini xatırlatdı və çalışdıq ki, o hadisələr bir daha təkrarlanmasın. Qərara gəldik ki, hərbi işlərlə yanaşı, mədəni-maarif və quruculuq işləri ilə də məşğul olaq.

Həmin müddətdə iki dəfə Tehrana gəlib-qayıtdım. Qardaşımla dostum Səid və Tofiqin köməyilə təxminən 20 tennis stolu alıb Kürdüstana gətirdik.

Hacı Hüseyn Rəhməti xeyirxah və sadə kişi idi. O, uzun illər qabaq Zəvvarə rayonundan gəlib atamın karvansarasında işə düzəlmişdi. Sonralar isə ticarətlə məşğul olmağa başlamışdı. Bu xeyirxah insan da, Saqqızın

bədən tərbiyəsi qərargahına bir elektrik mühərriki hədiyyə etdi.

Stolları camaata payladıq. Mənim təklifimlə güləş yarışları da, təşkil etdik. O yarışlarda çox adam iştirak edirdi. Bazarda bir zorxana idman zalı açdıq. Yerli xalq bu idman növünə rəğbət göstərib, onu çox yaxşı qarşıladılar. Onlar bizlərdən fərqli olaraq, qadınlara da zorxanaya gəlmələrinə icazə verirdilər. Onların bu işi bizə çox qəribə gəlirdi. Hər halda bu yadda qalan və hay-küylü günlər başa çatdı. Bu kimi tədbirlər müvəqqəti olsa da, hamıya sıxıntıları unutdururdu. Xüsusilə də, qürbətdə olan, canlarından keçən zastava əsgərləri və korpus keşikçiləri növbə ilə bu oyunlarda iştirak edir, vaxtlarını səmərəli keçirirdilər. Bu fəaliyyətlər silahlı mübarizədən daha faydalı nəticələr bəxş edirdi. Xüsusilə də, şəhər əhalisinin hədsiz marağına səbəb olmuşdu.

Əlbəttə, bir müddət sonra separatçılar yerimizi bilib gecə vaxtı idman zalına hücum çəkdilər. Gecə səhərə qədər binaya RPG mərmisi yağdırdılar.

Saqqızdakı dostlardan eşitdim ki, Gərmək bölgəsinin Pəncoyn yüksəkliklərində böyük bir əməliyyat keçiriləcək. Döyüşçülər də, Qalaca bölgəsinin şəhid Bürucerdi düşərgəsində idilər. Bu dəfə mən də, əməliyyat sövdasına düşüb Qalacaya yollandım.

Hava həddən artıq soyuq idi. Günorta olsa da, gün buludların arasında gizlənmişdi. Şəhid Bürucerdi düşərgəsini Qalaca dağının düz ortasında tikmişdilər. Orada yenə Əsğər Ərsəncanini gördüm. Onunla hələ də tam səmimi olmamışdıq. O, Əmmar briqadasının ikinci müavini və müharibənin mərd döyüşçülərindən idi.

Qalacadakı maraqlı adətlərdən biri düşərgədəki qədim idman növlərini dirçəltmək idi. Müharibənin ad-sanlı

döyüşçüsü və milli idman növlərinin tərəfdarı olan Əsğər Rəncbəran orada zorxana təşkil etdi. Şəhadətindən sonra, həmin zorxanaya onun adını qoydular. Bu idman zalı müharibə bölgəsində tikilən ilk zorxana idi. Sonralar başqa idman zalları da təsis edildi. Əsğər Rəncbəran güllə glizləri ilə mil düzəltmişdi. Səhərlər döyüşçülər zala toplanır, Hüseyn Dejban da peşəkar mürşid kimi uca və sevimli səslə zorxana cümlələrini təkrarlayaraq pəhləvanları idmana həvəsləndirirdi. Ayağımdan yaralandığım üçün lazımınca iştirak edə bilmirdim, geri qalmamaqdan ötrü əlimə yalnız mil götürürdüm. Orada olduğum müddətdə Tofiqi axtarmağa çalışdım. Əmmar briqadasında rəis müavini olan "dağ aslanı" ləqəbli Mehdi Xəndanla tanış olum. Bu ləqəbi ona Hacı Himmət vermişdi.

Öncədən onu dəfələrlə Kürdüstanda və digər əməliyyatlarda görmüş, barəsində çox şeylər eşitmişdim. Qalacada onunla dostlaşdım və getdikcə səmimiyyətimiz daha da artdı. Mehdini hərtərəfli şəxsiyyətini vəsf etmək üçün söz tapa bilmirəm. Onun barəsində bir kitab deyil, bir neçə kitab yazılmalıdır.

Mehdi Xəndan, ləvasanlı idi. O vaxtı 23-24 yaşı olardı. Korpusda rəsmi keşikçi vəzifəsində işləyirdi, amma inqilabdan öncə çox davakar və təhlükəli adam imiş. İndi isə, çox dəyişmiş, zarafatcıl, mehriban və haqq tərəfdarı olan bir şəxsiyyətə çevrilmişdi. Siqaretə çox alışmışdı, amma həmişə "əvvəl namaz, sonra siqaret",-deyərdi. O, eşq əhli idi, ilahi dərgaha özünəməxsus tərzdə aşiq olmuşdu. Tanıdığım adamlar arasında heç kimə bənzəmirdi. Bəzi şəxslər kimi mənəvi mühitə düşdükdə gecə namazı qılıb Təvəssül duası oxuyan, mühitini

dəyişdikdə isə müxtəlif təsirlərə qapanan adamlardan deyildi.

Biz onunla çox səmimi olmuşduq. Eyni məhəllədən olmasaq da, eyni düşüncə sahibi idik. Bir-birimizi gördükdə danışılacaq bir dünya sözümüz olurdu.

Bir gün çadırda oturmuşduq, qızğın söhbət gedirdi. Mehdiyə bir əhvalat danışdım, çox xoşuna gəldi. Həmin əhvalat belə idi: Bir gün camaat namaz üçün məscidə toplaşmışdılar. Hamı Mirzə Cavad Məlikini gözləyirdi. Bir nəfər bayıra çıxıb gördü ki, Mirzə həyətdə gəzişir. O, təəccüblə mərhum Məlikini qınayır ki, möminlər əyləşib sizi gözləyirlər, sizsə həyətdə gəzişirsiz. Mirzə Cavad cavab verib deyir ki, gedin namazlarınızı fərdi şəkildə qılın.

-Niyə?

-Çünki namaz qılmağa halım yoxumdur.

Bu sözü deyən kimi Mehdi ürəkdən gülüb dedi: "Hə valla, mən də siqaret çəkməyib çayımı içməsəm namaza halım olmur".

Cəbhə həyatı insanı həm islah etmək, həm də ruhunu pisliklərdən təmizləmək üçün yenilməz fürsət idi. Lakin Mehdinin bütün işləri özü kimi özünəməxsus idi. Hər gün günəş çıxmazdan bir qədər qabaq oyanır, qumqumasının suyu ilə dəstəmaz alıb namazını qılır və sonra adyalın altına girib deyirdi: "Hə əziz qardaşlar, mənim namazdan sonrakı zikrləri adyalın altında deməkdən xoşum gəlir!"

Onun bu kimi təkrarsız işləri bir çox adama qəribə gəlir və təəccübə səbəb olurdu. Amma bir çoxları da, onun məhz bu kimi riyasız işlərinə heyran qalmışdılar. Sanki Mehdi daimi olaraq komediya aləmində yaşayırdı. Ölüm də, həyat da, onun üçün bir zarafat idi. Bu zarafatçıl və mehriban insan hərbi işlərə həddən artıq ciddi yanaşırdı.

Deyirdi ki, bir tərəfli döyüş mənasızdır, hər şey planlı şəkildə həyata keçirilməlidir.

Qalaca yüksəkliklərinə getdikdə, "4-cü Vəlfəcr" əməliyyatının ilk mərhələsi Kanimanga yüksəkliklərində başa çatmışdı. Bu yüksəkliklər İraqın Pəncoyn bölgəsinin şimalındakı Qızılca çayının qərb hissəsində yerləşirdi. Bir neçə zirvəsi vardı, onların ən yüksəyi 1904 zirvəsi adlanırdı. Əməliyyatın əsas məqsədi bu zirvəni ələ keçirmək idi. Buradan İraqın Süleymaniyyə şəhərinin bütün əlaqə yollarına çıxmaq imkanı vardı. Düşmən də, bu məsələdən duyuq düşdüyü üçün, həddən artıq diqqətli idi. Ona görə də, qarşımızı almaq üçün oraya yüzlərlə desant endirib, müxtəlif mina meydanları və s. maneələr yaratdılar.

Kəşfiyyatdan sonra müəyyən olundu ki, yüksəkliyin arxasında düşmən qüvvələrindən əlavə, əksinqilabçılarla münafiqlər də yerləşiblər.

Meysəm batalyonu 1904 yüksəkliyində yerləşən bölüklərdən birinə hücum etməli idi. Azad döyüşçü kimi İbrahim Kəsayinin batalyonuna qoşuldum. O vaxt Əkbər Hacıpur briqadanın komandiri idi.

Əməliyyatın üçüncü mərhələsinin ikinci gecəsi Meysəm batalyonu işə başlamalı idi. 27 saylı qoşunun digər batalyonlarının əməliyyatlarından sonra, Gərmək yüksəkliklərində onların ön cəbhəsini qorumalı idik.

Yola düşməzdən qabaq qərargahla əlaqə saxlayıb dedik ki, ağır silah-sursatı yuxarı daşıya bilmərik. Məcbur qalıb 10-15 qatır gətirdilər və silah-sursatı onlara yükləyib yuxarı göndərdik. Yaralı ayaqla dağa dırmanmaq çox çətin idi. Lakin dostlardan geri qalmaq isə, bundan da ağır idi. Odur ki, canımı dişimə tutub, dostlarla birgə yola düşdük. İbrahim öndə gedib ratsiya ilə danışırdı və mən də onun

ardınca yavaş-yavaş gedirdim. O, dedi: “Bir taqım Gərmək və Konqorəyin sağ tərəfindən yuxarı çıxır”.

Yol gedərkən atdığımız hər addımla aşağı qum və daş qırıntıları tökülürdü. Yollar həm dar, həm də daş-qayalı idi. Daş-qaya, yamac və eniş-yoxuşlar cərgənin nizamını pozur və onların hərəkətini əngəlləyirdi.

Həmin günlərdə Əbuzər briqadasının müavini Əsgər Rəncbəranın oğlu dünyaya gəlmişdi. Adını Məhəmmədhüseyn qoymuşdular. Ratsiyada Əsgərin halını soruşmaq istədikdə deyirdik: “Salman, Salman... Məhəmmədhüseyn mövqeyi”. O, da cavabında: “Məhəmmədhüseyn filan mövqedədir”,-deyirdi.

Bir dəfə kimsə Əsgərə belə bir sual verdi: “Allah ilə Məhəmmədhüseyn arasında birini seçməli olsan, kimi seçərsən?” Əsgər də cavb verib dedi: “Məhəmmədhüseyni Allaha görə çox istəyirəm”.

İnamla irəliləyən mübarizlər cərgəsinin qəlbinə ilahi eşq hakim idi. İbrahimlə mən batalyonun cərgəsindən təxminən 30 metr irəlidə gedirdik. Həmin bölgə ötən gecə azad edildiyindən təhlükəli idi.

Bir yamaca çatdıqda İbrahim dilləndi: “Bu səssizlik çox şübhəli görünür”. Hücum nöqtəsi yaxındır, amma ondan öncə pusqu ilə qarşılaşa bilərik. Sağ və sol cinahlarda nə baş verdiyindən xəbərim yoxdur”.

İki-üç nəfəri cərgənin axırında dayandırıb dedi: “Arxanıza diqqət edin və silahınızı üzü arxaya tutun. Diqqət edin ki, arxadan hücuma məruz qalmayaq”.

Sonra kəşfiyyatçılara dedi: “Hamımız birgə yuxarı çıxmamalıyıq. Bir nəfəri siz və bir nəfəri də mən göndərirəm. 50 metr irəliyə gedib ratsiya ilə vəziyyətin necə olduğunu bizə bildirsinlər”.

Bizim batalyondan Mehdi Şərifi və kəşfiyyatçılardan da bir nəfər yuxarı çıxdı. 10 dəqiqə sonra ratsiya ilə bildirdilər ki, sakitlikdir və gələ bilərsiz.

Həmin gecə hətta bir güllə də atəş açmadan qüllənin yaxınlığınadək getdik. İbrahim yenə də, ətrafa hakim olan sakitlikdən şübhələnib dedi: "Əminəm ki, düşmənin bir planı var. Pusqu ilə yol açıb bizi mühasirəyə salmaq istəyirlər".

Bu vəziyyət gecə yarısınadək davam etdi. Biz İbrahimin əmri ilə yamaclarda oturduq. Bir qədər sonra, bir-biriləri ilə ərəbcə danışan iraqlıların səsi eşidildi.

İbrahim Hacı Himmətlə əlaqə saxlayıb dedi: "Biz hələ döyüşə başlamamışıq, nə etməliyik?"

Orada İbrahimin məharəti və işini necə də yaxşı bacarması məlum oldu. Düz deyirmiş. Bizim dırmandığımız cığırın mina meydanına çıxan bir yolu vardı. Qarşı tərəf ehtimal vermişdi ki, biz bu cığırdan yuxarı çıxacağıq. Ona görə də ətrafı müxtəlif minalarla doldurub pusqu səngərləri düzəltmişdilər. Səngərlər elə idi ki, buradan yolumuzu kəsə bilməsə də, ətrafdan bizi atəşə tutsunlar. Orada kəşfiyyat işləri lazımınca aparılmadığı üçün, insanın təcrübə və zəkası karına gəlirdi. Zənnimcə, günün çıxmağına az qalmışdı, mina təmizləyən qüvvələr keçid açmağa çalışırdı. Qəfildən atışma səsləri eşidildi və döyüş başladı.

Hava alatoranlıq idi, yerdən və göydən başımıza güllə yağışı yağırdı. Zirvəyə çatmağımıza isə hələ 400 metr qalmışdı.

Döyüşün əvvəlində birinci taqımın komandirinə güllə dəydi və yerə yıxıldı. Meysəm batalyonunun 4-5 ədəd qumbaraatanı vardı. Hər bir mərmisi səngəri partlatmaq gücündə idi. Dostlar bu silahlarla bir neçə İraq səngərini

məhv etdilər. Mənim əlimdə ilk öncə Kalaşnikov avtomatı vardı. Onu yerə qoyub qumbaraatanlardan birini götürdüm. Onunla İraq səngərlərinə bir neçə dəqiq atəş açdım.

İbrahim qərargahla əlaqə saxlayanda Hacı Himmət ona dedi:

-Sizin mövqe oradır. Oranı qoruyun ki, digər batalyonlar keçib gedə bilsin.

İbrahim belə cavab verdi:

-Biz döyüşü davam etdirə bilmərik. İtkimiz çoxdur.

Bundan sonra, özü aşağı getdi ki, hacı ilə üz-üzə danışsın. Orada Kəsayinin komandalığı və döyüşçülərin fədakarlığı özünü göstərmişdi. Mən onların eşq və fədakarlığını görüb həsrət çəkirdim ki, niyə onlar kimi ola bilmirəm?! Onlar misilsiz insanlar idilər. Heç vaxt özlərini nəzərə almırdılar. Cavad Təlayi, Mehdi Şərifi, Hacı Əhməd Xani, Qütbi, Seyid Əsgər Məsumi ilə yanaşı, bir çox dostlarımız canından keçdi ki, biz oradan ötüb keçə bilək.

İbrahim günorta qayıdıb dedi: "Hacı Himmətin fikri budur ki, axşamadək burada qalaq və təzə gələn qüvvələr bizi adlayıb keçsinlər". Axşamadək döyüşdük. Çoxlu sayda şəhid və yaralımız dağın ətəklərində düşüb qaldı. Nəhayət, İbrahim Məsuminin başçılığı ilə Kumeyl batalyonunun qüvvələri gəlib çatdı.

İbrahim Məsumi çatan kimi müavininə dedi: "Sən döyüşçülərin başı üstə qal, biz zirvəyə çıxırıq".

Kumeyl batalyonu sol cinahdan, Həbib batalyonu isə sağ cinahdan çıxıb yavaş-yavaş zirvəyə doğru hərəkətə başladı.

İbrahim Kəsayi ilə birlikdə Kumeyl batalyonuna qoşulub yuxarı çıxdıq. Atəş bir dəqiqə belə kəsilmirdi.

Qaranlıqda vəziyyətin dəyişməsini gözləsək də, faydası olmadı, əksinə bir qədər də gərginləşdi. Axşam saat 11-dən yüksəkliklərə və yamaclara yağdırılan top atəşi şiddətlənir, biz də tez-tenz yerə uzanır, beləcə itki verirdik. Bombardman səhərədək davam etdi. Atəş şiddətli olduğu üçün, çox zəif irəliləyirdik. Onlar yüksəklikdə olduqları üçün, rahat idilər, biz isə sabit bir hədəf kimi atəşə məruz qalırdıq. Çox çətinliklə özümüzü zirvənin yaxınlığına çatdırdıq. Zirvə təxminən əlimizdə idi ki, birdən səhər saat 5-də bizdən öncə oraya çatan Salman və Həbib batalyonunun qüvvələri geri çəkilməyə başladılar. Hamı yamaclardan aşağı enirdi. Zirvənin pis cəhətlərindən biri də ensiz olması idi, buna görə də döyüşçü yerini dəyişə bilmirdi. İraq öz xüsusi təyinatlılarını oraya endirmiş, artilleriya atəşi ilə döyüşçülərimizi oradan çıxarmışdı. Döyüşçülərimiz geri çəkildikdən sonra, düşmən zirvəni ələ keçirdi. Vəziyyət çox pis idi və mümkün olan hər bir yerdən aşağı enirdik. Bizim tərəfdən açılan atəşin düşmən səngərlərinə təsiri olmurdu. Zirvəylə səsafəmiz çox olduğundan, oranı vurmuq üçün münasib silahımız yox idi.

İbrahim Məsumi ilə İbrahim Kəsayi digər döyüşçülərdən qabaq zirvəyə çatmışdılar və mən aşağı enən döyüşçülərdən eşitdim ki, İbrahim Məsumi şəhid olmuşdur.

Ayağımda uzun rezin çəkmə vardı, özüm də bir gödəkçə geyinmişdim. Başımda papağım yox idi. Yamaclar sıldırım idi, səhər şehi daşların üzərində oturmuş və onları sürüşkən etmişdi. Mən də, sürüşə-sürüşə, yıxıla-yıxıla özümü aşağı çatdırdım və dostların köməyi ilə əvvəlki müdafiə mövqeyimizi bərkitdik.

Günortayadək mövqeyi qoruduq. Günortadan sonra, sağ qalan döyüşçülərlə qərargaha qayıtdıq. Eşitdik ki, İbrahim Kəsayi də yaralanmış və onu geriyə aparmışlar, İbrahim Məsumi isə şəhid olmuş və cənazəsi zirvədə qalmışdır.[1] Bir həftə sonra eşitdim ki, Əmmar batalyonu yenə zirvədə əməliyyat keçirmək istəyir. Özümü hazırladım ki, bu qüvvələrə qoşulub onlarla birgə gedim. Ürəyim istəyirdi ki, Mehdi Xəndanla bir yerdə olum və onun qrupunda döyüşüm. Həmin gecə əməliyyata rəhbərlik edən Mehdi, zəkalı və zirək hərəkət edir, döyüş zamanı çox cəsur davranırdı.

Həmin gecə qətiyyətli halda dedi: "Mən bir yol tapıb Kanimanganı mühasirəyə alacağam. Görəcəksiniz ki, 1904 zirvəsinə çıxıb onu necə ələ keçirəcəyəm!"

Əlbəttə, Mehdi heç vaxt boş söz danışmazdı. İndi də, belə danışmağının səbəbi vardı. Ağlında bir plan vardı və onu həyata keçirmək istəyirdi.

Həmin gecə soyuq olsa da, ay işığı hər tərəfi aydınlaşdırmışdı. Soyuq sümüklərimin iliyini də sızıldadırdı. Əmmar batalyonuna qoşuldum. Hacı Pərvazi də bizimlə idi. Həbib və Malik batalyonları sağ və sol cinahlardan irəliləyirdilər. Məqsəd 1866 nömrəli yüksəklik idi. Mehdi bizi ürəkləndirib deyirdi: "Dostlar, zirvəyə çıxırıq. Az qalıb, zirvə ovucumuzdadır".

Zirvəyə yaxın bir yerdə Mehdi mina təmizləyən döyüşçülərdən bir neçəsini ayırdı və onlarla birlikdə yol tapmağa getdi.

Sübh azanına bir saat qalmış, Mehdi gəlib dedi: "Bir çıxış yolu tapdım, amma düşmən qarşımızda çox pis mane

---

[1] 15 il sonra, şəhid cənazələrini axtararkən, oradan İbrahim Məsumiyə aid bir neçə sümük tapıb gətirdilər.

yaradıb; həm tikanlı məftillər, həm də mina meydanı var. Bir nəfər səssizcə keçid düzəltməlidir ki, digərləri də keçib getsinlər.

Mehdinin tam əmin olduğu plana əsasən Kanimanganı mühasirəyə alıb üzərinə çıxacaqdıq. Düşmən qüvvələri keçən dəfə istifadə etdiyimiz cığırlara diqqət yetirdiyi üçün, bu yollardan istifadə etməklə müvəffəqiyyət qazanmağımız mümkün idi.

Mehdi dedi: "Mina təmizləyənləri göndərsək, iş səhərədək uzanacaq və iraqlılar hərəkətimizin qarşısını alacaqdır".

Bir nəfər dərhal dilləndi: "Mehdi can, mən minanın üstündə uzanacağam, siz üstümdən adlayın".

Mehdi ondan soruşdu:

-Adın nədir?

-Kambiz Rəvanbəxş.

Həmin oğlan Mehdinin cavabını gözləməyib köynəyini soyundu. Mehdi ondan köynəyini çıxarmasının səbəbini soruşdu.

-Bu beytül-maldır, heyifdir ayrıları istifadə edə bilər.

Bu sözlə batalyon cuşa gəldi! Döyüşçülər hamısı mina meydanında uzanmaq istəyirdilər!

Bu azyaşlı oğlan minanın üstünə uzandı. Əvvəl Mehdi yavaşca və tək ayaqla keçdi. Ardınca döyüşçülər bir-bir adladılar. Taqımın az hissəsi keçmişdi ki, ağır çəkili biri keçərkən minaya uzananla birgə çəkiləri maksimum həddən çox oldu. Birdən mina partladı. İkisi də yerindəcə şəhid oldular və bununla da düşmən nə baş verdiyini anladı. Mən mina meydanından keçə bilmədim, çünki cərgənin axırında idim. Bu zaman dəhşətli səhnə yarandı. Düşmənin 4 lüləli silahları dayanmadan atəş yağdırırdı. Hamı yerindəcə quruyub qalmışdı.

Mehdi həyəcanla qışqıraraq dedi: “Kim mənimlə olmaq istəyirsə, gəlsin..”.

Əli adlı mina təmizləyən bir döyüşçü, məftil kəsən qayçını əlinə götürüb onun ardınca getdi. Həmin anda, düşmən qüvvələri Mehdini ardıcıl atəşə tutdular.[1] Mehdi tikanlı məftillərin üstünə yıxıldı və Əliyə öz işini davam etdirməsini əmr etdi.

Əli gülləbaran altında bir-bir məftilləri kəsdi. Mehdinin bədənini qucaqlayıb qaldırmaq istədikdə o, dedi: “Yox, yox. Döyüşçülərə de ki gəlib mənim üstümdən adlayıb keçsinlər”.

Əli məftilləri kəsərkən özü də yaralandı və oraya yıxıldı. Biz bir qədər aşağıda yerə yapışıb qalmışdıq. Onunla 20 metr məsafəmiz vardı. Amma nə yuxarı çıxa bilir, nə də geri qayıda bilirdik. 4 lüləli silahın səsindən az qala kar olacaqdım. Dəhşətli və vahiməli səsi vardı. Atəş elə şiddətli idi ki, döyüşçülərin canfəşanlıq və mübarizələrinə rəğmən, batalyonun nizamı pozuldu. Düşmən qüvvələri də zirvədə idilər. Məlum deyildi, əvvəlcədən orada idilər, yoxsa sonradan helikopterlərlə gəlib oraya düşmüşdülər.

Dostlarımızdan bəziləri şəhid, bəziləri yaralı, bəziləri də yamaclarda ilişib qalmışdılar! Cavad Əfrasiyabinin və eləcə də adlarını xatırlamadığım bir çox dostların cənazəsi orada qaldı. Beləliklə, “dağ aslanı” Mehdi Xəndanın da ömür kitabı o əməliyyatda sona çatdı. Mehdinin şücaəti ona, öz möminə anasından irs qalmışdı. O, elə bir qadın idi ki, onu hər şücaətli kişi ilə müqayisə etmək olmazdı. Heç vaxt görmədik ki, bir küncdə oturub Mehdi üçün

---

[1] 14 il sonra, axtarış qrupu ilə gedib Mehdi Xəndanın cənazəsindən qalan bir neçə sümük parçasını tapdıq.

ağlasın. Üstündən uzun illər keçməsinə baxmayaraq, Dalahu bölgəsində yaşayan tayfalar hələ də, öz uşaqlarına Mehdi adını qoyur və onun haqqında danışanda yalnız eşq, məhəbbət, şücaət və qəhrəmanlıq yada düşür.

Günorta radələrində iki nəfərlə birgə cığırla aşağı endik. Bəlkə də, biz geri çəkilən son insanlar idik, çünki yamaclarda sağ adam görmədik.

Aşağı çatdıq. Eşitdim ki, Əsgər Rəncbəran, Abbas Vəramini, Əkbər Hacıpur və Məcid Zadbud şəhid olmuşlar. Bu döyüşdə müharibə igidlərindən bir çoxlarını əldən verdik. Bu hadisə mücahidlər üçün böyük bir xəzinə itirmiş anlamını verirdi.

Dağlıq bölgədə döyüşdən sonra, ən çətin iş şəhid və yaralıları daşımaq idi. Buna görə də, İbrahim Hadi kimi gövdəli olmalı və onları kürəyimizə mindirib geri daşımalı idik. Yoxsa tək olsan, üzü aşağı və daş-qayalı yolla aşağıya sağ çatmaq mümkün deyildi, qaldı ki, kürəyində bir yaralı da ola!

Çox çətinliklə Qalaca düşərgəsinə gəlib çatdıq. Orada həyatımın ən acı anlarını yaşadım. Qəm-kədər ürəyimi sıxırdı. Dostlarımın boş qalmış yeri ürəyimə od vurub yandırırdı! Qalacanın boş düşərgəsinə baxdıqda, ürəyim qanla dolurdu. Çalışırdım ki, tez bir zamanda Tehrana gedib dostlarımın yas mərasiminə çata bilim. Həmin gün yola düşüb bir neçə maşın dəyişərək Tehrana çatdım.

Tehranda Behişti-Zəhra məzarlığında müsibət qopmuşdu. Dostlarımızdan bir çoxu məndən qabaq yorğun halda və toz-torpaq içində oraya gəlmişdilər. Qərara gəldik ki, Əlini Müvəhhidin yanında dəfn edək. Lakin Əsgərin məzarının yanında böyük bir daş parçası vardı. Qəbirqazan nə qədər çalışdısa da, daş yerindən tərpənmədi. Bu zaman

Həsən Bəhmən işə qoşuldu və bir hərəkəti ilə daşı yerindən qopardı.

Əsgərin məzarını qazmaq günortadan sonrayadək davam etdi. Axşamüstü dəfn mərasimindən sonra evə getdim. Evdə qala bilmirdim. Qəm-qüssə məni boğurdu. Çünki dostlarımız ulduz kimi bir-bir sönürdü. Heç bir əməliyyat bizdən "4 saylı Vəlfəcr" əməliyyatı qədər şəhid almamışdı. Tehran şəhəri bütünlüklə yasa batmışdı. Demək olar ki, hər məhəllə adlı-sanlı bir igid itirmişdi.

Sanki həmin günlərdə Allah insanları imtahana çəkirdi. Burada şəhid Çəmranın söylədiyi tarixi söz yada düşürdü: "Müharibə zəngi çalındıqda, mərd namərddən seçilər!"

Bir gün İmamla görüş üçün dəvətnamə gəldi. Səidi götürüb getdim. O vaxt Səidin 4 yaşı vardı. Anasının tikdiyi hərbi korpus paltarını geyinmişdi.

İmam Xomeyni Səidi gördükdə başına əl çəkib buyurdu: "İnşallah, korpus keşikçisi qalarsan". Bu, 1979-cu ildə qarşılama mərasimi və Şah Əbdüləzimdəki görüşlərdən sonra, İmamla üçüncü görüşüm idi. O ilahi şəxsiyyətin sözlərində bir dünya sirr vardı və insana rahatlıq bəxş edib qəlbini ümidlə doldururdu.

# On birinci fəsil

1984-cü ilin yanvar ayında əşyalarımı yığdım ki, Dokuhə bölgəsinə gedim. Bu səfərimə Fatimə də narazılıq etmirdi. O, həmin gün sağollaşarkən, çantama bir sellofan kisədə ovulmuş nabat qoyub dedi: "Mədə-bağırsağa çox faydalıdır. Nə vaxt mədən ağrısa, bir ovuc bundan ye, tez sağalacaqsan".

Doğurdan da, o uzaqgörən və canyandıran bir qadın idi. O vaxtlar mədəm çox narahat olduğundan nə yesəydim, qarnım pozulur və mədəm ağrıyırdı. Hər şey yeyə bilmirdim. Noxud, lobya və bu kimi dənli bitkiləri mənə qadağan etmişdilər. Bu da öz növbəsində mənə çətinliklər yaradırdı.

Fatimə nabatın yanında gözəl kül rəngli toxuma köynək də, qoyub dedi: "Bunu sənin üçün özüm toxumuşam. Hər iki tərəfdən düyməsi var; həm çiynindən, həm də böyründən. Belə tikdim ki, rahat geyinib çıxara biləsən. Bunu gödəkçənin altından geyin ki, soyuq böyrəklərinə və qarnındakı yaralara ziyan etməsin".

O, həmişə məhəbbət və uzaqgörənliyi ilə mənə xəcalət verirdi. Heç vaxt cəbhəyə getməyimdən və evdə olmamağımdan gileylənib şikayət etmədi. Mən onun yüksək ruhiyyəsinə doğrudan da, heyran idim. O, xeyriyyə cəmiyyətində məşğul olur, yetim uşaqlar, kimsəsiz qoca və əlillərə yardım edirdi. Allah bu iradəli və imanlı qadına bitib-tükənməyən enerji vermişdi. Tofiq məscidinin döyüşçüləri məzuniyyətdən cəbhəyə qayıtmaq istəyəndə, mütləq günorta yeməyinə Fatiməyə qonaq olardılar. Bu, bizim evin həmişəki proqramı idi, mən olsam da, olmasam da həyata keçirilirdi. Bu qadının ixlaslı və səmimi süfrəsinə qonaq olan həmin dostların çoxu şəhid oldular.

Fatimə həmişə deyərdi: "Əlimə silah götürüb döyüşə bilməsəm də, bu işlərlə bəsicilərin arasında olmağa çalışıram".

Bu günləri düşündükdə görürəm ki, o arifə qadının, irfanı özünəməxsus idi; bir az gizli, bir az qadınsayağı...

Ertəsi gün Dokuhəyə getdim və orada təsadüfən Əmir Ətrini gördüm. Əmir dedi: "Sənə bir xoş xəbər deyim, Seyid Qasim Dokuhədədir".

Sevinib binalara doğru getdim. Seyid Qasimi Həmzə batalyonunun döyüşçülərinin yanında tapdım. Yenə özünü təqdim etməmişdi. Onu çağırdım. Məni gördükdə ayağa qalxdı və birgə bazanın həyətinə getdik. Salamlaşıb hal-əhval tutduq.

-Niyə xəbərsiz getdin? Qalıb bir işlə məşğul olmalı idin.

-İndi də Əmirin israrı ilə gəldim, yoxsa Kərəcdə qalmaq istəyirdim. Mən vəzifə və məqam axtarmıram. Vəzifə al-ver kimidir, bizi insanlardan ayrı salır. Tanınmaq istəmirəm, camaatla birgə yaşayıb bəsici qalmaq istəyirəm.

-Amma hazırda ən önəmli şey müharibədir. Bizim müharibə qarşısında məsuliyyətimiz var.

-Müharibə də olsa, mən öz öhdəmə düşən vəzifəmi yerinə yetirirəm. Bəzən insanın vəzifəsi Allahın razılığı üçün başını aşağı salıb səssizcə bir tərəfdə işləməkdir. Mən bacardığım bir işi seçməliyəm ki, onun öhdəsindən gələ bilim. Axı işini düz əməlli bacarmayan komandir nəyə lazımdır?!

Heç nə deyə bilmədim. Seyid Qasim dünya görmüş təcrübəli insan idi. Nə etdiyini bilirdi. Etdiklərinə dəlil və sübutu vardı. Mən ona yol göstərə bilməzdim. Bir-iki saat söhbətdən sonra sağollaşdıq.

O vaxtlar düşüncəm fərqli idi. Baxmayaraq ki, həyatımda bir neçə önəmli şəxslərdən biri də, Seyid Qasim idi və qəlbimdə ona inam bəsləyirdim.

Dokuhədə azad döyüşçü olaraq Meysəm batalyonuna qoşuldum. Yaraları təzə sağalan İbrahim Kəsayi batalyonun komandiri idi. Mən çox vaxt Meysəm batalyonunun döyüşçüləri ilə oturub-durardım, çünki onlarla xasiyyətimiz düz gəlirdi. Hamımız eyni məhəllənin uşaqları idik və bir-birimizin söz-söhbətini yaxşı bilirdik. O vaxt belə idi ki, komandir öz briqadasının döyüşçülərini bir araya yığardı. Bu, nizam-intizam yaratmaq, işləri düzgün idarə etmək üçün əlverişli üsul idi. 27 saylı Məhəmməd Rəsuləllah (s) qoşununun Əbuzər batalyonu bizimlə dost və qardaş kimi olsalar da, mənim üçün Meysəm batalyonun yeri başqa idi.

İbrahim Kəsayi məni çağırıb dedi: “Seyid, bir iş var, öhdəsindən yalnız sən gələ bilərsən”.

-Nə iş?

-Bir neçə gün sonra, cənubda bir əməliyyat keçirmək istəyirlər. Kəşfiyyat işləri də başa çatıb. Yaxın günlərdə

komandirlərə əməliyyat planını izah edəcəklər. Amma sən məni tanıyırsan, hər şey barədə dəqiq məlumat əldə etməliyəm. Bu əməliyyatın harada olduğunu öyrənsəm də, komandir olduğum üçün oraya getməyə icazəm yoxdur”.

Həmin günü İbrahimin müavini olan Əhməd Hacıxani ilə birgə məlumat toplamaq üçün kəşfiyyat qüvvələrinin yanına getdik.

İbrahim dostum idi. Dəqiq bilmədiyi bir işi həyata keçirmək istəmirdi. İstəyi doğru bir şey olmasa da, yenə yox deməzdim. Onunla dostluğum hər şeydən üstün idi. Soruşa-soruşa Cüfeyr səhralığına gedib çıxdıq. Kəşfiyyat qüvvələri təpəni qazmış və içərisində bir səngər düzəltmişdilər. Səngər elə düzəlmişdi ki, qətiyyən atəşə tuş gəlmirdi. Orada yerləşən dostlar bir neçə qayığın döşəməsinə qır yaxmışdılar. Mən onların çoxunu tanıyırdım. Aydın idi ki, əməliyyat su olan bir bölgədə keçiriləcək, get-gəl qayıqla olacaq.

Yaxınlaşıb hal-əhval tutduqdan sonra, səngərin içinə girdik. Əhməd Ustadbaqir, Əhməd Kuçəki və Sərtipi əməliyyat planını hazırlayan kəşfiyyatçılardan idilər.

Onlarla oturub 4-5 saat söhbətləşdik. Dostlar dedilər: “Bu əməliyyatda motorlu qayıqlardan istifadə etmək məcburiyyətindəyik. Çünki döyüşçüləri daşımaq üçün adi qayıqlar yetərli deyil. Yaponiyadan bir neçə motorlu qayıq almışıq, amma sanksiyalara görə gətirib çıxara bilməmişik. Ona görə də, məcbur qalıb Dubaydan bir neçə dəllal tapmışıq, onların əli ilə baha qiymətə motorlar alıb gətirmişik.

Axşamüstü kəşfiyyat qüvvələri ilə sağollaşarkən xəbər verdilər ki, Möhsin Rzayi terrora məruz qalmışdır. Dokuhəyə qıytdıq. Orada da bu hadisə haqda danışırdılar. Bəziləri də deyirdilər ki, bu terror deyil, avtomobil qəzası

olmuşdur. Sonradan məlum oldu ki, Rzayinin başına gələn terror hadisəsi deyilmiş. İbrahimi tapıb dedim: “Əmin ol, əməliyyat Hur sularında keçiriləcəkdir”.

İbrahim dedi:

-Ola bilməz! Bunlar təlimat keçməmiş qüvvələri Hur sularına necə aparacaqlar? Axı bizim döyüşçülər dalğıclığı bacarmırlar!

-Doğrudan da, Hur sularında döyüşmək, düz yerdə döyüşməkdən fərqlidir. İnsan düzənlik bir yerdə itsə, bir təhər axtarıb yolu tapar. Amma suda azanların düzgün bir yerə gedib çıxması mümkün deyil. Hansı tərəfə dönsə, su yoludur, qamışlıq da uzundur, görməyə əngəl yaradır.

-Mən Hacı Himmətlə danışmalıyam.

-Məgər hacı bizim sözümüzlə oturub-durur?

-Gəl birgə yanına gedək.

Ertəsi gün dostlardan hacının harada olduğunu soruşduq. Hüseyniyyə stansiyasında olduğunu dedilər. Hüseyniyyə stansiyası Cüfeyrin yaxınlığında idi. Elə yardım qərargahı ilə döyüşçülərin ehsan bölüyü də onun içində yerləşirdi.

Günorta çağı yola düşdük. Fevral ayı olsa da, cənubda hava isti. Hüseyniyyə stansiyasında açıq havada 300 döyüşçü palçıqlı paltarla yerdə oturmuşdu, Hacı Himmət də onlar üçün söhbət edirdi. Onlara doğru getdik. İbrahimdən soruşdum:

-Bunlar hansı batalyonun qüvvələridir?

-Yeni gəlmiş bəsicilərdir. Əbuzər adlı yeni batalyon təşkil ediblər.

Onlara təxminən 200 addım qalmış birdən İraq təyyarələri peyda oldu və ardınca bir neçə partlayış baş verdi. Dərhal yerə uzandıq. Toz-torpaq çəkilən kimi, batalyonun qüvvələri bir araya toplaşdılar. Ayağa qalxıb

onlara tərəf qaçdıq. Allah rəhm etmişdi, bombalar bir qədər aralı düşmüş və yalnız bir neçə nəfər yaralanmışdı Hacı Himmət də partlayış dalğasına məruz qalıb bir tərəfə atılmışdı.

İbrahimlə köməkləşib yaralıları Toyotanın arxasına mindirərək geriyə göndərdik. Ertəsi gün Dokuhədə yenə hacı Himməti gördük. İbrahim onu səslədi. Hacı çox səmimi halda gəlib bizimlə salamlaşdı. İbrahim özünü bilməzliyə vurub dedi: “Hacı, əməliyyat etmək istədiyimiz yer sudurmu?”

-Su da, ola bilər.

Hacı Himmət zirək idi. Ağzından söz çıxmazdı. İbrahimdən soruşdu:

-Bunu sizə seyid dedi?

-Nə fərqi var kim dedi. Məqsədim budur ki, siz döyüşçülərə üzgüçülük və dalğıclıq təlimatı verməmisiz.

-Vaxtında təlimat da verəcəyik.

-Dokuhədə hovuz tikilsəydi, ən azından döyüşçülər üzməyi öyrənərdilər. Mən komandirəm, məsuliyyət daşıyıram. Öz döyüşçülərimə üzgüçülük öyrətmək istəyirəm.

-Harada?

-Onları Dezful-Əndimeşk yoluna aparacağam. Orada bədən tərbiyəsi bölüyünün bir hovuzu var. Orada üzgüçülük və dalğıclıq təlimatı keçəcəyəm.

-Razıyam, işinizi görün. Nəyi məsləhət bilirsinizsə, onu da edin.

İbrahim isə sözünə əməl edə bilmədi. Çünki döyüşçüləri üzgüçülük təlimatına aparacaq uyğun yer və fürsət olmadı.

Fevral ayının 19-da gecə döyüş hazırlığı başa çatdı. Batalyon, təlimatı başa vurub piyada yola çıxan günlərdə

mən ayaq ağrısına görə çadırda qalıb yarımçıq işləri tamamlayırdım. Məsələn, silahları təmizləyib daraqları doldururdum və s. Yavaş-yavaş məlum oldu ki, əməliyyatın adı "Xeybər"dir və Hur suları ilə şimal və cənub Məcnun adalarında keçiriləcəkdir. Əməliyyatdan məqsəd bu iki ada vasitəsi ilə Bəsrəni təhlükəyə salmaq idi.

Əməliyyat fevral ayının 20-də, "Ya Allah" rəmzi ilə başlandı. Ertəsi gün radiodan eşitdik ki, mücahidlər Dəclə çayının suyu ilə dəstəmaz almışlar. Əməliyyatın üçüncü gecəsi Meysəm batalyonunun növbəsi idi. 27 saylı qoşun "Mayilə" xəttini yarıb əməliyyatı Təlaiyə körpüsünə doğru aparmalı və 41 saylı Sarəllah qoşununa çatdırmalı idi. Odur ki, şimal və cənub Məcnun adaları mərkəz seçilmişdir. Bu da, əməliyyatın məsafəsini geniş, işini çətin edirdi. Əmmar və Əbuzər batalyonları da, bizimlə birgə olacaqdı. Həmin gecə saat 12-də Cüfeyrin arxasından Hur sularınadək cərgə ilə piyada getdik. Hava həddən artıq soyuq olduğundan şaxta daşı da çatladırdı. Mən palçıqlı paltarımın altından Fatimənin toxuduğu köynəyi geyinmişdim, üstündən də yaşıl bir gödəkçə. Həmişə paltarlarımın fərqli olması xoşuma gəlirdi. Döyüşçülərin çoxu həmin gecə gödəkçə geyinmədiyindən soyuq onlara daha çox təsir edirdi.

Suyun kənarında dayanan hər qayığa 7-8 nəfər minirdi. Həmin qırlı qayıqçı yolu yaxşı tanıyırdı, buna görə də qamışlıq və otluqların arasından səssiz-səmirsiz keçirdi. 2-3 saat sonra adanın sahilində yerə endik.

İbrahim cərgənin başında, biz də onun ardınca gedirdik. O, ucu-bucağı görünməyən bir gölün başında "durun" komandası verdi. Yerimizdəcə durub dərindən nəfəs aldıq. Yer yaş olduğundan ayaqqablarımız palçığa və lehməyə

batırdı. Havada kəskin neft qoxusu vardı. Mən İbrahimin yanında idim, döyüşçülər öz aralarında pıçıldaşırdılar. Oradaca təyəmmüm alıb iki rəkət namaz qıldım. Hamı yalnız Allahı düşünürdü. Həmin gecə ayrılıq və halallaşma gecəsi idi. Batalyonda bir neçə yeni azyaşlı döyüşçü vardı. Hamısını bir-bir öpdüm. Çox məsum və nurlu idilər. Qardaşlarla tək-tək danışıb halallaşdım.

Bir saat sonra, İbrahim "qalxın" komandası verdi və yola düşdük. Bir qədər aralıdan şiddətli atəş səsi gəldi. Ardınca da bir neçə fişəng adanın səmasını işıqlandırdı. İbrahim dedi: "Ratsiyada xəbər verdilər ki, döyüşçülər Əlqərnədən keçsələr də, hələ birinci mərhələnin işi tamamlanmamışdır. Siz hansı yolla olursa olsun, Təlaiyyə körpüsünə yol açmalısınız".

Biz nə edəcəyimizi bilmirdik. Son söz İbrahimin idi. İlk qərar bu idi ki, biz adanın ortasındakı yolda işə başlayaq, amma İraq o qədər istehkam düzəltmiş və qarışıq kanallar tikib tank gətirmişdi ki, insan çaşıb qalırdı və planı icra etmək mümkünsüz olurdu. Getdiyimiz bəndin yanında alçaq bir istehkam vardı. Yadımda saxladım ki, vəziyyət ağır olsa, döyüşçüləri onun arxasına aparım. Çünki bəndin özünün cəmi iyirmi santimetrlik bir qabarıqlığı vardı ki, dar idi və arxasında tərpənmək mümkün deyildi.

Bəndin uzununa doğru gedirdik. Birdən onun axırına düşən DŞK mərmisi partladı və bəndin üstünə düşdü. Bilirsiniz ki, DŞK kimsəyə rəhm etməz. Döyüşçüləri çağırdım. Onları yadımda saxladığım həmin istehkamın arxasına aparmaq istəyirdim. Amma bir az gec idi. Əmir Ətri ilə Əhməd Hacıxani həmin ilk anda şəhid olmuşdu. Beləliklə, uşaqları istehkamın arxasına doğru topladım.

-Seyid, DŞK-nı necə zərərsizləşdirə bilərik? Belə getsə tərpənməyə imkan verməyəcək.

-Sən Allah onu zərərsizləşdirməyə heç kimi göndərmə, boşuna itki verəcəyik,-deyə mən də cavab verdim.

-İndicə ratsiya ilə əlaqə saxladım, dedilər ki, onu zərərsizləşdirmək üçün dörd nəfəri suyun altı ilə göndərin.

-İstəyirsənsə, yoxla.

Həmin anda 4 nəfər suya hoppandı və üzərək suyun altı ilə üzə-üzə bəndin yaxınlığına getdi. Orada suyun altına girdilər. Amma digər tərəfdə başlarını Sudan çölə çıxaran kimi iraqlılar onları gülləbaran etdilər.

Ertəsi gün axşamçağına kimi DŞK amansızcasına atəş açdı və bizə yerimizdən tərpnəməyə imkan vermədi. Heç birimiz ona doğru bir addım belə ata bilmədik. Nə geriyə, nə də irəliyə yolumuz vardı. Helikopterlər pulemyotla yuxarıdan, bəndi alt-üst edirdi. Bir tərəfdə şəhidlərin cəsədi, digər tərəfdə yaralıların ah-naləsi ürəyimizi partladırdı.

Bu vəziyyətə dözə bilməyən qardaşlar sanki birdən-birə coşdular və iraqlılardan intiqam almağa başladılar. Qürub vaxtı məharətli mina təmizləyən Cəfər Cəhrutizadə işə başladı. O, DŞK-nı zərərsizləşdirmək üçün bir yol axtarırdı.

Axırda səhərin alatoranlığında adını bilmədiyim azyaşlı bir bəsici suya tullandı. Düşmən səngərinə doğru gedib oraya bir qumbara atdı. DŞK susdu, lakin həmin bəsici də oradaca şəhid oldu. Həmin anda İbrahim dedi: "Ratsiyada bildirdilər ki, sağ və sol cinahımızda olanlar Əbuzər batalyonun qüvvələridir".

Biz ilk öncə sevinib düşündük ki, bir qədər irəliləmişik və Əbuzər batalyonunun döyüşçüləri gəlib işi həll etmək istəyirlər. Amma elə onlar tərəfdən üzərimizə saysız-hesabsız mərmi yağdırılırdı! Əslində orada batalyon yox imiş! İraqlılar istehkama çıxaraq bəndin yanından öldürə-

öldürə gəlirdi! Bizə çatmalarına bir şey qalmamışdı. Çıxılmaz vəziyyət yaranmışdı. Daraqlarım boşalmışdı, qumbaralarımın da hamısını işlətmişdim. Tüstü, barıt və qan qoxusundan az qala boğulurdum. Orada geri qayıtmaq qərarına gəldim. Dostlardan 7-8 nəfəri çağırdım və qaça-qaça su kənarına getdik. Gördüm ki, onlar suya tullanmaq istəyirlər, onları çağırıb qayığa minmələrini tələb etdim.

Döyüşçülər özlərini itirmişdilər, mən də nə edəcəyimi bilmirdim. Ölüm gözümüzün önündə idi. Suyun ortasında, bir qarış adada mərmilər başımıza yağış kimi yağırdı. Geri çəkilmək lazım olduğu halda, bəziləri hələ də həmin cəhənnəmdə qalıb döyüşü davam etdirirdilər.

Döyüşçülərdən bəziləri naşılıq edib 10-15 nəfərlə birgə qayığa mindilər. Qayıq çəkilərinə dözməyib suyun ortasında çevrildi. Qəribə səhnə idi. Qardaşlardan iki nəfərin cənazəsi suyun üstündə üzür, çör-çöplər də bədənlərinə batırdı.

O anda hamı öz canının hayında idi. Bir qayığa minib geri qayıtdım. Yolda geri çəkilərkən qəribə iy hiss etdim. Anladım ki, kimyəmi bombaların nəticəsində zəhərlənmişəm. İraq həmin əməliyyatda ilk dəfə olaraq kimyəvi silahdan istifadə etdi. Bizim də, zəhərli qazlara qarşı nə əleyhqazımız vardı və nə də ki, əvvəlcədən bu barədə məlumatlandırılmışdıq.

Quraqlığa çatdıqda məlumat əldə etmək üçün, birbaşa qərargaha getdim. Abbas Kərimi, Rza Sutvarə, Hacı Himmət və İbrahim orada idi. İbrahimin geri qayıtdığından xəbərsiz idim, amma sağ olduğunu gördükdə hədsiz dərəcədə sevindim. Onlar hələ də, döyüş əhval-ruhiyyəsində idilər. Biz iraqlıları ağır itkilərə məruz qoymuşduq, özümüzdən də çoxlu sayda yaralı və şəhidlər

vardı. Bu komandirlər üçün ağır idi. Onlar pərişan idilər və durmadan mübahisə edirdilər. Abbas Kərimi dedi:

-Nəyə görə döyüşçülərimizi bu şəkildə əldən verməliyik?!

-Məgər biz qardaşlarımızı itirməkdən xoşumuz gəlir!? Bizim vəzifəmiz əmrə tabe olmaqdır,- deyə Hacı Himmət cavab verdi.

İbrahim isə, həddən artıq əsəbi halda deyirdi: “Axı ay qardaş! Bu uşaqların hamısı şücaətli, imanlı bəsici dostlarımızdır. Bir batalyon darmadağın oldu. Vilayətə qurban olum, amma daha heç nə etmə, batalyonu qırğına vermə”.

Himmət çox narahat idi. Çünki həmin anda əlindən heç nə gəlmirdi. Məsələ düşmənlə mübarizə aparmaq və əməliyyatı başa çatdırmaq idi. Bu yerdə emosional davranmaq düzgün deyildi.

Daha əməliyyat və qərargah mübahisəsinə hövsələm yox idi. Yorğun halda toz-torpaqlı və qanlı paltarla çölə çıxdım. Neft qoxusu hələ də, burnumda idi, hərdən öskürürdüm. Gec gələn və çoxu kimyəvi şüalanmaya məruz qalan döyüşçülər də, çox pis öskürüb qaytarırdılar. Həmin gecəni qərargahda qalıb, ertəsi gün Dokuhəyə və oradan da Tehrana qayıtdım.

Bir gün sonra eşitdim ki, Hacı Himmətlə Əkbər Zücaci adaya baxış keçirməyə getdikdə ikisi də, minaatan mərmisilə şəhid olmuşlar. Maat-məəttəl qaldım ki, Hacı Himmət adada nəyi görməyə getmişdi?! Zənnimcə, belə bir komandirin o nəhs və düşmən atəşi ilə alt-üst olan adaya getməsinə icazə verməməli idilər. Amma təəssüf ki, getdi və şəhid oldu. Sanki iraqlılar da bilirdi ki, iş Himmətin şəhadəti ilə dayanacaq və hər şey onun dəyərli varlığına bağlı imiş. Qərargahdakı mübahisələr göstərirdi

ki, bəziləri bir sıra məsələyə qarşı həssas olmuşdular. Hər halda “Xeybər” qəhrəmanı Hacı Himmət, ələmdarı Zücaci, Əhməd Hacıxani və Əmir Ətri kimi çox igid komandirləri əldən verdik. Hacı Himmət heç vaxt komandir olmasını dilə gətirmədi. Özünü tanıtmadan, yük maşınlarının arxasına minib cəbhə xəttinə gəldi. Həyat yoldaşını və ata-anasını uzun illər gözü yolda qoydu. Bu misilsiz komandiri vəsf etməyə sözün əsl mənasında acizəm.

Həmin günlərdə şəhidlərin dəfn və yas mərasimində iştirak etməklə, yaralılara baş çəkmək hər günkü işim idi. O vaxtlar ölkəmizin hər yerindən şəhidlik məqamı, qəhrəmanlıqlar, din-iman və vətənsevərlik ətri duyulurdu. Allahla razi-niyaz etmək, ilahi dərgaha üz tutub Ona tapınmaq, Əhli-beytə (ə) təvəssül edib ilahi şəxsiyyətlərə sığınmaq insanlarımızı nura qərq etmişdi. İnsansevərlik, humanitar yardımlar və ehtiyacı olanlara xidmət etmək möminlərin gündəlik tərk olunmayan işlərindən idi.

Bir gün Rza Purəhməd dedi: “Dostlar dini heyət təşkil ediblər. İstəsən bu axşam oraya gedək”.

Axşam birlikdə Paçinar məhəlləsinə getdik. Orada ilk dəfə Qulam Qəlyaf, Əsgər Ras, Müctəba Durudgər, Məcid Şeyxvənd, Seyid Möhsün Musəvi, Rza Ümidəli, Əli Rəməzani və digər igidlərin simasını görüb onlarla tanış oldum. Bu görüş mənim Meysəm batalyonu ilə Bədr əməliyyatında iştirak etməyimə səbəb oldu. Həmin günlərdə məhəlləmizdə yaşayan Seyid Məhəmməd Kəşfidən eşitdim ki, Meysəm batalyonu yenidən bərpa olmuş, Şimiran məhəlləsindən olan Əziz Rəhimi və Seyid Əsgər Məsumi ilə qədim dostum olan Seyid Əbülfəzl Muzdabadi Meysəm batalyonun başçıları və ələmdarları təyin edilmişlər.

# On ikinci fəsil

1985-ci il yanvar ayının 21-də, əməliyyatın yaxınlaşdığını duyub Dokuhəyə getdim. Əndimeşk stansiyasında Seyid Əbülfəzl Muzdabadi məni qarşılamağa gəlmişdi. O, Səid Məclisinin vasitəsilə cəbhəyə gələcəyimi öyrənmişdi. Odur ki, Abbas Purəhməd və Abbas Rzapurla dəmiryol stansiyasına gəlib məni qarşıladılar. Onlarla birgə Meysəm batalyonun qərargahına getdik.

Seyid Əbülfəzl Muzdabadi də müharibənin ləyaqətli və təcrübəli komandirlərindən idi. O, Əsgər Ərsəncani ilə eyni məhəllədən idilər. İnqilab günlərində onunla tanış olduğumdan, ləyaqət və bacarığına bütün vücudumla inanırdım. Şəhid Bürucerdi düşərgəsində hacı Əbdülməcid Himmət Əli, Müctəba Hadian, Höccət Əmir Sufi, Əli Rəməzani, Əkbər Poştekuhi, Səid Toqani ilə birlikdə məhəlləmizin və Tehranın qədim lotularından olan digər dostlarla səmimi və gözəl bir kollektiv təşkil etdik. Qismət belə imiş ki, doğrudan da, qorxmaz eşq əhli insanlar yığışıb Meysəm batalyonuna gəlirdilər. Həmin yığıncağın

özünəməxsus bir səfası vardı. Bu vaxta qədər heç yerdə belə bir mənəvi xeymə görməmişəm. Əlbəttə, bütün batalyonlar yaxşı idi; hamısı saf qəlbli və pak niyyətli idilər. Bütün qardaşlar canlarından keçərək cəbhə və şəhadət eşqilə gəlmişdilər. Meysəm batalyonunda olanların xasiyyətləri bir-biriləri ilə düz gəlməli idi ki, bir çadırda toplaşa bilsinlər. Onların çoxu Tehranın adlı-sanlı qoçu və lotularından idi. Heç biri vəzifə, şan-şöhrət ardınca deyildi. Odur ki, Mahmud Julidə kimi tanınmış məddahlar da, bu batalyona qoşuldular.

Mahmud mərifətli Əhli-beyt (ə) aşiqi, xoşxasiyyət və mehriban bir insan idi. Birlikdə Paçinar heyətinə gedərdik. Abbas Purəhməd, Rza Purəhməd, Əsgər Ərsəncani, Hüseyn Tahiri və Rza Mirkamali Meysəm batalyonunun məddahları idilər.

Birinci gün səhər proqramından sonra, döyüşçülər arasında vəlvələ düşmüşdü. Batalyona bir ruhani gəlmişdi. Şah Əbdüləzimli idi, ortayaşlı və bir az kök... Namaz vaxtı əmmaməsini başına qoyar, digər vaxtlarda isə, əsgər paltar geyərdi. Dostların yanında bir qədər hörmətli olduğumu görüb, yanıma gəlib soruşdu: "Seyid can, axı bu sözlər nədir, kim-kimə çatır deyir ki, nökərinəm, qulamınam!" Cavabında dedim ki, Hacı, Meysəm batalyonuna ruhanilik etmək istəyirsinizsə, onların adət-ənənlərini öyrənməlisiz. Bunlarla necə davranacağınızı bilməsəniz işiniz çətin olacaq.

-Bunların adət-ənənləri nədən ibarətdir?

-Onları qılığını tapmalısız, onlar kimi yaşamalısız. Tehran uşağı hər moizəni qəbul etməz. Tehranda alimlərimiz var, elm, eşq və irfandan baş açan dərviş və mürşidlərimiz var. Məsələn, Hacı Həqqşinas ağa və Seyid Əli Nəcəfi. Onlar Allah övliyaları və kəramətli

şəxslərdirlər. Bu ağalar bizlərə mənəvi qida verirlər, dərdlərimizin dərmanını bunlar bilirlər.

-Məgər sizin alimləriniz nə deyir və nə danışırlar ki, digərlərindən fərqli olsun?!

-Onlar danışıb moizə etmək istədikləri şeyə, öncədən özləri əməl edirdilər. Məsələn, Seyid Əli ağanın yanına gedib "bizə bir zikr öyrət ki, təkəbbürdən xilsa olaq" dedikdə, cavab verərdi ki, hər gün "yüz dəfə de ki, mən heç kim deyiləm, mən heç kim deyiləm!"

-İndi mən nə etməliyəm?

-İlk işiniz budur ki, səhər bizimlə zorxanaya gəlib idman edəsiz.

Ertəsi gün özüm dəsmalı həmin ruhaninin belinə düyünlədim və onu zorxananın ortasına çəkdim. Yavaş-yavaş tərpəndi və idman etməyə başladı. Hələ fiziki hazırlığı yetərincə deyildi. Mili əlinə verən kimi dizi üstə çöküb yerə oturdu. Sonra kənara çəkilib bizə tamşa etməyə başladı.

Səid Toqani kiçik pəhləvan və Abbas Dayiməlzuhur qədim idman və zərb ustası idi. Onlar növbə ilə zərb vurub idman edirdilər.

Mürşid "ya Əli" dedikdə, hamı zorxanaya məxsus bir hərəkət edib işi bitirmək üçün ayağa qalxdıq. Yəni bədənin isti qalması üçün yenə yavaş-yavaş idman etdik. İşin axırında da, adəti üzrə bir fənd göstərir, sonra salavat çəkib məşqi başa çatdırırdıq.

Getdikcə həmin ruhaninin bu işlərdən xoşu gəldi və bizimlə dostlaşdı. Səhərlər zorxanaya gəlib hamı ilə qaynayıb qarışırdı. Beləliklə, həmişəlik dostların məhəbbətini qazanıb onların sevimlisinə çevrildi.

Davud Abidi Meysəm batalyonunun digər hörmətli lotularından idi. O, əsil Tehran ləhcəsi ilə gözəl və uca

səslə rövzə oxuyub, dualar edirdi. Dostlar ona qəzəlçi Davud deyirdilər. O, İbrahim Hadini bir dəfə də olsun görməmişdi, amma onu dəlicəsinə sevirdi.

Məni də, nə vaxt görsəydi, İbrahimin pəhləvanlığı və rəftarı barədə danışmağımı, onun kimi olmağımı istəyirdi. Özü də, ucu iti ayaqqabı və kürd şalvarı geyinib başına nazik papaq qoyurdu. Doğrusu o, belə halda daha yaraşıqlı görünürdü. Davudun əla Səndəlos təsbehi vardı. Hər gün səhər özünəməxsus çubuğu ilə onu yağlayırdı ki, təmiz və şəffaf qalsın. O, "4 saylı Vəlfəcr" əməliyyatından sonra Meysəm batalyonuna gəlmişdi.

Artıq əməliyyat zümzüməsi eşidilirdi. Bu barədə izahat və kəşfiyyat işləri də çoxalmışdı. Sonradan məlum oldu ki, əməliyyatın adı "Bədr"dir və "Xeybər" əməliyyatına bənzəməklə yanaşı, onun davamıdır. "Xeybər"də iştirak edən döyüşçülər, əməliyyat yolunun izini yaxşı bilirdi və bu haqda yetərli məlumatları vardı. Cəbhə arxası ilə hücum nöqtəsini tanıyırdılar. İraq tərəfi isə, bölgədə öz həssaslığını artırmışdı. Bu dəfə necə davranacaqları da, məlum deyildi.

Mart ayının 5-də, gecə ikən minik maşını ilə Cüfeyrin cəbhə arxasına getdik. Səhərə yaxın çadırlar qurulan yerə çatdıq. Bizdən qabaq çadırlar qurulmuşdu, ön cəbhəyə yaxın olduğu üçün, artıq orada gecə döyüş hazırlığı və təlimat keçirilmirdi. Düşmən duyuq düşməsin deyə, namazı çadırda qılır, çöldə izdiham yaratmırdıq. Əşyaları təhvil verib qəbz almaq, vəsiyyətnamə yazmaq və bu kimi digər idari işlər batalyonlarda görülürdü. Bunların heç biri mənlik deyildi, döyüşçü olduğumdan şəxsi əşyam olmazdı. Üzərimdə gəzdirdiyim şey, döyüşçü kodum olan metal boyunbağım, ipək dəsmalım və üzüyüm idi ki, bu da, canım kimi həmişə mənimlə birgə olurdu.

Əməliyyatın ilk mərhələsi mart ayının 10-da başladı və düşmənin cəbhə xətti yarıldı. Artıq əməliyyatın ikinci gecəsi Meysəm batalyonunun hücuma keçmək növbəsi idi. Əməliyyatın ikinci gününün səhəri isə, Mahmud Julidə və Davud Abidi ilə birgə Əbuzər batalyonunun çadırına getdik. Əbuzər batalyonunun komandiri Məhəmməd Nurinejad idi. Onun qüvvələrinin də çoxu lotulardan təşkil olunmuşdu.

Həsən Bəhməni ilə Kazim Rəstigardan xəbər tutmağa getmişdik. Həmin gün Bəhmən Nəcəfi də gəldi. O, vaxtilə briqada komandiri olmuşdu. İndi isə mənim kimi sıravi döyüşçülərin arasına qatılmışdı. Bir arada oturduqda, Davud gözəl bir qəzəl oxudu və hamımız feyziyab olduq. Bəhməndən soruşdum ki, Həsən Bəhməni ilə Kazim Rəstigardan xəbəri varmı? Cavab verib dedi ki, Həsən Bəhməni, Kazim Rəstigar və Nasir Şiri bu gün burada idilər. Üçü də azad və sıravi döyüşçü olaraq Əbuzər batalyonuna gəliblər ki, Bədr əməliyyatında iştirak etsinlər.

Həmi gün axşamüstü, imam Hüseyn (ə) üçün rövzə və əza məclisi təşkil olundu. Mahmud Julidə ilə Davud Abidi rövzə oxudular. Hay-küy və sinə vurmaq əsnasında, bir nəfər məni səsləyib dedi: “Kazimi ilə Həsən Bəhməni çadırın arxasındadırlar, onları görmək istəyirsənsə, gəl”.

-Rövzənin bitməsini gözləməlisiz,-deyə cavab verdim.

Bir neçə dəqiqə sonra, mənəvi hal tapıb ağladıq. Ayağa qalxıb çölə çıxdım. Gördüm ki, Kazimi ilə Həsən harasa gedir, səsləyib geri çağırdım. Salamlaşdıqdan sonra, onları güclə çadıra gəlmələrinə razı saldım. Abbas Purəhməd bizə çay gətirdi. Həsən çox qəmli görünürdü. Soruşdum:

-Niyə azad döyüşçü olmusan? Sən məharətli və ləyaqətli komandir idin. İşlərimizin inkişafı üçün öz üzərinə məsuliyyət götürməlisən.

-Seyid can, biz məqam axtarmırdıq, heç indi də axtarmırıq. İmtiyaz_almaqdan ötrü kimsə ilə müamilə etməmişik. Bizə desələr ki, kimlərinsə ayaqqabısını təmizləyin, dərhal razı olacağıq. Eyni zamanda, desələr ki, komandir ol, qəbul edəcək, bir qədər sonra işdən çıx, deyə əmr etsələr, yenə razılaşacağıq. Təkcə istəyim budur ki, bizim vəziyyəti anlamadığımızı zənn etməsinlər! Biz döyüş kişiləriyik, vuruşmağa gəlmişik. Lakin döyüş tərzini, müharibənin bu şəkildə idarə olunmasını bəyənmirik. Təlimat işlərini genişləndirməlisiz, səngər tikmək və şəxsi müdafiə məsələlərinə diqqəti artırmalısız. Orta və ağır silahlardan istifadə qaydalarını öyrətmək lazımdır. Yarım saat beləcə söhbət edib dərdləşdik. Həsənin etirazları müharibə və əməliyyatların metodu barədə idi. Getmək istədikdə, bir-birimizi qucaqlayıb halallıq istədik. Həsən də, kədərli və gileyli halda getdi. Halı pis idi, ilahi dərgaha qovuşmaq dərdi çəkirdi. Artıq onun ruhu cisminə sığmırdı. O vaxtlar heç kim onu anlamadı və layiqincə tanımadı. Həsən elə bir vəziyyətdə idi ki, hər an şəhid olacağı və arzusuna qovuşacağı nurulu simasından məlum idi.

Həsən getdikdən sonra, dostların əzadarlıq etdiyi çadıra qayıtdım. Həmin axşam Davud həzrət Əbəlfəzl rövzəsi oxudu. Ön cəbhəyə yola düşənədək hamımız oyaq idik.

Əməliyyat vaxtı artıq, əlimdə ipək dəsmal və ya çəfiyənin olub-olmamasının fərqində deyildim. Çəkələk, ya çəkmə, nə tapsaydım geyinirdim. Heç nə vecimə deyildi. Yalnız hücum etmək istəyirdim.

Gecə yarısı yük maşınlarına mindik və səhərə yaxın sahilə çatdıq. Hazır vəziyyətdə olan qayıqlara minməzdən öncə, görüşüb-öpüşüb, halallaşdıq. Yaşıl gödəkçə, nazik papaq və rezin çəkmə geyinmişdim. Mavi gözlü, zorxana qəhrəmanı Meysəm Qəffari səssizcə bir küncdə dayanıb döyüşçülərə baxırdı.

Mindiyimiz qayıqlar həm avar, həm də motorla işləyirdi. Qayıqlarda 12 nəfərlik yer vardı, amma 8 nəfərlik qruplara bölündük. Hamımız dodaqaltı bu şeiri zümzümə edirdik:

***Hüseyni Allah etmişdir təhsin***
***O şahdır və dünya ona miskin.***
***Su, anasının mehriyyəsidir amma,***
***Fəratda susuz can verdi ki, ölməsin din.***

Sükut çökdü, yalnız döyüşçülərin zümzümə səsi eşidilirdi. Qaranlıqda yola düşdük, sahildən uzaqlaşmamışdıq ki, birdən naməlum istiqamətdən başımıza güllə yağmağa başladı. Deyəsən iraqlıların pusqu səngəri həmin ətrafda imiş, biz isə bunu anlamamışdıq. Bəxtimizdən güllələr qayıqların kənarından ötüb keçdi və itki vermədik. Getdiyimiz yol kəşfiyyat qüvvələrinin öncədən düzəltdiyi bir axar idi. Bu yoldan çıxsaydıq, minaya düşə bilərdik. Döyüşçüləri Məcnun adasının cənub sahilinə aparmaq ertəsi günün qürubunadək çəkdi. Sahilə çatdıqdan sonra, dedilər ki, hava qaralanadək gözləməlisiz. Bizdən öncə çatanlar sel bəndinin ortasında nizə başı ilə tülküvari səngər qazmış, içində mövqe tutmuşdular. Bəziləri yatmış, bəziləri də, astadan söhbət edib pıçıldayırdılar.

Bir istehkamın kənarında batalyonun hamamçısı Haşimin cənazəsi düşüb qalmışdı. Başına bir mərmi dəymişdi. Döyüşçülər gözləyirdilər ki, bir qayıq gəlib onun cənazəsini geri aparsın. Haşim, Təhqiyasi məhəlləsindən idi. Mehdipur da, yaralanmışdı. O, arxa cəbhəyə çatanadək dözüb, sonra isə şəhid olub.

Saat 11 olardı. Bir az gəzib, qamışlığa baxmaq istəyirdim. Sahilə getdim və birdən qamışlığın ortasında bir qayığın kölgəsini gördüm. İçində bir neçə nəfər vardı. Səssiz gəlir və arada sağa-sola fırlanırdı. Deyəsən yolunu azmışdı. Bizimlə 200 metr fasiləsi olardı. Bir yerdə fırlanırdı. Tikanlı məftillərə ilişdiyini təxmin etdim. Yaxınlaşdım astadan dedim: "Bir yerdə dayanın və tərpənməyin, ətrafda mina var. Tərpənsəniz partlayacaq".

Onlar da, sözümə qulaq asıb, öz yerlərində dayandılar. Gedib kəşfiyyat qüvvələrini çağırdım. Onların köməyilə ilişib qalan qayığı xilas etdik. Onlar Meysəm batalyonunun geri qalan döyüşçüləri idirlər.

Axşam saat 11.30-da Seyid Əbülfəzl Kazimi yanıma gəlib dedi:

-Seyid, səninlə işim var, gəl gedək. Sənə bir şey demək istəyirəm, amma utanıram.

–De, heç nə olmaz.

-Biz bir neçə kilometr yol getməliyik. Sən bizimlə ayaqlaşa bilməyəcəksən.

-Yox, gələcəyəm. Bu qədər yolu sizinlə birgə olmaq üçün gəlmişəm.

-Məndən deməkdir. Uzun yoldur, zarafat deyil.

Sonra da, digər dostların yanına qayıtdıq. Yarım saat sonra, hamını istehkamın arxasına topladıq. Birdən yavaşca kimsə məni çağırdığını eşitdim:

-Seyid Əbülfəzl, Seyid Əbülfəzl.

Qayıdıb gördüm ki, Davud Abididir.
-Eşidirəm, Davud can?
-Hücuma hansı zikrlə başlamağımızı istəyirsən?
-Sənin ürəyin nə istəyirsə, onu da söylə!
-Sən seyidsən, sizin dediyiniz bizə qanundur.
-Bu dəfə sən de.
-Ürəyim istəyir ki, Heydər zikrini deyim.
-Ya Əli, çox gözəl.
-Yanıma gəl, son anda sənin üçün anan Zəhra (ə) rövzəsi oxuyum.
Yavaş-yavaş oxumağa başladı. Dostlar bir-bir gəlib bizi dövrəyə aldılar. Hüseyn Əzizi, Əsgər Ərəs, Əsgər Kolahduz, Abbas Rzapur, Səid Toqani, Mahmud Ata, hacı Himmət Əli və s.
Seyid Əbülfəzl deyinə-deyinə bizə tərəf gəlib dedi:
-Ay bala, nə olub, nə edirsiz?! Bir az yavaş, düşməni duyuq salacaqsız.
Davud sonda belə oxudu:

***Sənin yanından qovsalar da, ey yar məni,***
***Yenə dönərəm gərçi istəməsələr məni.***
***Olmuşam ey yar, dərgahındakı it kimi,***
***Təki yarıma çatdırsaydılar məni.***

Bu şeirdən sonra hamı ağladı. Ürəyimə damdı ki, Davud şəhid olacaq. Üzü həddən artıq nurlanmışdı, simasından məlum idi. Üzünə baxdım. Darağını cibindən çıxarıb saqqalını daradı.
-Davud, görüşəmi gedirsən!-deyə soruşdum.
-Bu gecə haqqa qovuşmaq istəyirəm, seyid!
Saat 12 olardı, səssiz-səmirsiz sırayla yola düşdük. Bir yerdə Əsədullah Pazukini gördüm. İraqlılar kənardan onun

taqımına yaxınlaşmışdı, onlar da var-gücləriIə vuruşurdular. Hərdən kiməsə güllə dəyir və yerə yıxılırdı. Dostlar deyirdilər ki, iraqlılar kanalın içindədir və ətrafı gündüz kimi seyr edən gecə durbinləri var. Batalyonun ələmdarı Əziz Rəhimi öz müavini Seyid Əbülfəzl Kazimi ilə öndə, döyüşçülər də onların ardınca gedirdilər. Bir az yol getdikdən sonra, ayağım ağrımağa başladı və sıradan geri qaldım. Dostlar sürətlə yanımdan keçib gedirdilər. Atəş getdikcə şiddətlənir, dəhşət və vahimə artırdı. Biz at nalı şəklində olan bir istehkama doğru gedirdik. Qərara alınmışdı ki, Əmmar batalyonu su kənarında döyüşsün, Meysəm batalyonu at nalının sağ tərəfindən, Əbuzər batalyonu isə soldan hücum etsin. Düşmən öz istehkamından 100 metr irəlidə, bir sıra tank düzmüşdü. Ayağımın ağrısı o qədər gücləndi ki, hətta 3-cü taqımdan da geri qaldım və batalyonun axırına çatdım. Artıq ayaqlarım sözə qulaq asmırdı; sıra uzaqlaşırdı, mən də müvazinətimi itirirdim. Axsaya-axsaya da, olsa, dayanmırdım, yola davam edirdim. Bir az irəlidə gördüm ki, 2-3 nəfər kimisə dövrəyə alıb. Onlara tərəf getdim və gördüm ki, Səid Toqani yerə yıxılıb. Qarnına dəyən DŞK mərmisi kürəyindən iki qarış yer açmışdı. Qanaxması vardı, ağrının şiddətindən başını və sinəsini cırmaqlayır, ətini qopararaq “ya Hüseyn, ya Hüseyn”,-deyirdi.

-Səid can, heç nə olmayıb, indicə dostlar səni geriyə aparacaqlar”.

-Ya Hüseyn, ya Hüseyn, gördün ki, biz namərd deyilik?

Özündə deyildi, can verirdi. Xilasedici qüvvələr gəlib məni oradan uzaqlaşdıraraq dedilər: “Ayağa qalx, qardaş. Bu, artıq ölür”.

Sonuncu dəfə başını sığallayıb, üzündən öpdüm, ayağa qalxıb üzünə bir qədər də tamaşa etdim. Artıq taqəti

qalmamışdı. Son nəfəsini alırdı. Yeniyetmə və gənc çöhrəli olmasına baxmayaraq, bir pəhləvan kimi şəhid oldu. Bir neçə addım irəlidə, yenə də, dostların kimisə dövrəyə aldıqlarını gördüm. Yaxınlaşdım, yerə yıxılan Davud idi. DŞK mərmisi onun da qarnına dəymişdi. Paltarı al-qana boyanmışdı. Dostlar məni görən kimi, ona dedilər: "Davud, bax! Seyid Əbülfəzl gəlib!" Davud başını qaldıra bilməyib, yalnız bu sözləri dedi:

-Seyid Əbülfəzl, gördünmü, mən də qonaq gedirəm.

-Salamımı anam Fatiməyə (ə) çatdır, Davud can!

Dodaqaltı nə isə dedi. Yanında oturub əlimi çiyninə qoydum və qulağımı dodaqlarına yaxınlaşdırdım. Pıçıltıyla dedi:

-Seyid, orada səni gözləyəcəyəm!

Onu qucaqlayıb öpüb, ayağa qalxdım. Həmin anda böyrü üstə düşdü və öz Rəbbinə qovuşdu...

Dostlar getmişdilər, mən qəzəlçi Davuddan ayrılan son şəxs idim. Orada döyüşə başlamamalı və hücum nöqtəsinə çatmaq üçün adanın ortasınadək getməli idik. Balaca bir istehkamın yanından keçdim və tək-tənha irəliləməyə başladım. Qaranlıqda uzaqlaşan sıra ilə döyüşçülərin kölgəsi görünürdü. Yavaş-yavaş və əyilmiş vəziyyətdə yoluma davam etdim. Nəfəsim kəsilirdi, amma geri qalmaq istəmirdim. Nəhayət, döyüşçülərimizi tapdım və gördüm ki, bir istehkamın arxasında sakicə oturublar. Dostlardan biri məni astadan səsləyib dedi: "Bura gəl, düşmən pusqusu ilə 50 metr məsafəmiz var".

Digərləri işarə ilə ona susub oturmasını əmr etdilər. Yerə oturub dərindən nəfəs aldım. Bir qədər sonra, yenə ayağa qalxıb sıranın başına doğru gedikdə, qəfildən qaranlıqda 5-6 nəfər istehkamın arxasından aşağı hoppanıb

yoxa çıxdılar. Çox qorxduq, dil-dodağımız qurudu. Bunlar kim idi? Özümüzkülər, yoxsa iraqlılar?!

Gecənin qaranlığı yetərincə vahiməli idi. Boylanıb baxdıq, amma atəş açmaq icazəmiz olmadığına görə, silah götürmədik. Həmin 5-6 nəfərin kim olduğu hələ də, məni düşündürür.

Bir neçə dəqiqə sonra, dedilər ki, yola düşün. Əyilmiş vəziyyətdə asta-asta, gah oturaraq, gah da ayaq üstə yola davam etdik. Sürətim yavaş olduğundan, yenə də, sıranın axırıncı adamı oldum. Verilən əmrlər ağızdan-ağıza ötürülərək cərgənin sonuna çatırdı. Bir yerə çatdıq. Sol tərəfimizdə yan-yana düzülmüz alçaq istehkamlar vardı. Birinin arxasına tanklar düzülmüşdü. Həmin tank olan istehkamla 50 metr məsafəmiz vardı və iraqlıları aydın şəkildə görə bilirdik. Orada ratsiya vasitəsi ilə bildik ki, Əmmar batalyonu bizdən irəlidə şiddətli atəşə məruz qalıb. Sonradan məlum oldu ki, onlar başqa yerdə imiş, bizə yanlış məlumat veriblər. Yolumuzu dəyişərək tankların ətrafına fırlandıq. Əmr versəydilər ki, tankları vurun, ora onları ovlamaq üçün ən yaxşı yer, ən münasib fürsət idi. Amma dedilər ki, məqsəd tanklar deyil və öz yerimizə çatıb mövqe seçməliyik. Axırıncı istehkamın yanında dağılışdıq. Bir nəfər dedi: "Qardaş, zikr, salavat. Sübh namazıdır!"

Kim necə bacarırdısa, namazını qıldı. Bu, özümü sıranın başına çatdırmaq üçün yaxşı fürsət idi. Seyid Əbülfəzlin yanına getmək istəyirdim. Bir neçə addım atdıqdan sonra, tank tırtılının səsini eşitdim. Ardınca da, istehkamın üstündən çıxan tank lüləsi peyda oldu. Oradaca oturub istehkama yapışdım. Tank sürətlə istehkamın üstünə çıxıb döyüşçülərimizin arasına bir mərmi atdı və bununla da, arzulamadığımız bir şəkildə döyüş başladı.

Tanklar həm arxadan, həm də qabaqdan bizi əhatə etmişdi. İstehkamın üstünə çıxıb böyrü üstə dayandılar, eynilə başı üstə çevrilmək istəyən maşın kimi. Yuxarı aşağı gedib atəş edirdilər. Seyid Əbülfəzl dedi:

-Dostlar qalxın və bu istehkamın arxasına gəlin.

Ayağa qalxan kimi DŞK silahına tuş gəldik və dayanmadan bizə atəş açmağa başladı. Cərgənin başında olanlar, yəni Seyid Əbülfəzl ilə Rəmazani yerə yıxıldılar. Tanklara qarşı canlı sipər idik. Meydanda bir nəfər də piyada iraqlı tapa bilməzdin. Hara baxsaydın, tankla DŞK görərdin.

Zənnimcə, səhər saat 9-10 radələrinə kimi döyüşdük. Tanklar bizi ot kimi biçirdi. Biz də, əlimizə keçəni vururduq amma onların sayı-hesabı yox idi. Həmin anda, Şəhadət batalyonundan bir RPG qumbaraatanı gəldi. Bir dəqiqədə 2-3 tankı vurdu, bununla vəziyyət bir az yaxşılaşdı. Gün çıxdıqda, məlum oldu ki, tankların rahat şəkildə yuxarı çıxıb geri qayıtması üçün yol düzəldiblər. İstehkamların arasında 100 metr boş yer saxlamışdılar ki, bizim ətrafımızda fırlana bilsinlər. Atəş altında axtarıb RPG silahı ilə bir neçə mərmi tapdım və atmağa başladım. Əziz Rəhiminin yerə yıxıldığını gördüm. Halı da, yaxşı deyildi. Məni görən kimi dedi: “Seyid, hamını istehkamın arxasına apar”.

Silahımı götürüb, istehkamın üstünə qalxıb qışqırdım: “Dostlar, yaralı, ya da sağ, hamınız istehkamın arxasına keçin”. Atəş açmaq istədikdə, çiynimə bir güllə dəydi və silah əlimdən yerə düşdü. Özüm də, istehkamın ortasına yıxıldım. Bütün bədənimi ağrı bürüdü. Bir neçə dəqiqə halsız qaldım, nə baş verdiyini anlamadım. Ayağa qalxıb dəsmalla yaramı bağlamaq istədim, amma tək əlimlə düyünləyə bilmədim. Dəsmalı eləcə büküb yaramın üstünə

basdım. Nə bədənimi hiss edir, nə də əlimi tərpədə bilirdim. Dostlar da, yaralı və parça-parça olmuş halda ətrafıma düşmüşdülər. Güllə birinin əlinə, digərinin ayağına dəymişdi. Biri şəhid olmuş, digəri isə özündən getmiş vəziyyətdə nalə çəkərək deyirdi: “Səni and verirəm namusuna, sən ananın canı, məni buradan apar”.

Dostlardan bir neçəsi qaçaraq geri çəkildilər. Qara əmmaməli bir ruhani yerə yıxılmışdı. Mahmud Ətayi də tez-tez yerə yıxılmış cəsədlərin şəkilini çəkirdi. Özümü toparlayıb ayağa qalxdım ki, geri qayıdam. Həmin anda Hacı Həsəni yanıma gələrək əlimdən tutub dedi: “Seyid, nə olub?” Necə yaralandığımı izah edərkən, birdən - “Ay yandım!”,-dedi və yerə yıxılıb şəhid oldu. Onu tuta bilmədim. Ağır bədəni ayağımın önünə düşdü. Mərmi arxadan ürəyinə dəymişdi. Tək əllə heç nə edə bilməyəcəyim görüb, onu oradaca buraxıb bir neçə addım atdım. Qarşıda yenə də, Əziz Rəhimini gördüm. Məni gördükdə ipək dəsmalımı alıb yaramı bağladı. Dəsmal qan içində idi. O, astadan dilləndi: “Yaralıları geriyə aparmalıyıq. Şəhidlər qalsın sonraya”.

Həmin anda tibb işçiləri iki xərəklə gəlib yaralıların yanına getdilər. Mahmud Julidə yaralanmışdı. Hacı Himmət Əli də yorğun və toz-torpaq içində idi.

-Seyid gəl, yaralıları daşımağa yardım et,-deyə Əziz yenə məni səslədi. Getdik və bir əli sağ olan hər kəs xərəyin bir tərəfindən yapışdı. Hacı Himmət Əli ilə mən bir xərəkdən, Mahmud Julidə ilə başqa biri də, digər xərəkdən yapışdı və yola düşdük. Bir neçə yaralı da arxamızca gəlirdi. Biz addımlarımızı tez-tez atırdıq. Yol üstündə bir neçə şəhidlə də, qarşılaşdıq.

Təxminən, 500 metr getdikdən sonra, bir nəfər - tanklar, tanklar gəlir - deyə qışqırdı. Gücümüzü toplayıb

qaçmağa başladıq. Qaçarkən dönüb arxama baxanda gördüm ki, tanklar sürətlə dalğavarı şəkildə bizə doğru gəlir. Atəş hər tərəfi bürümüşdü. Bir az getdikdən sonra, bir kanala çatdıq. Guya zirəklik edib vaxtımızı kanalda hədər etmək istəmədik. Oranı adladıq. Qəfil bir qəlpə Hacı Himmət Əlinin ayağına dəydi. Xərəyi buraxıb dizi üstə çökdü. Amma sonra, yenə ayağa qalxdı. Ondan sonra, mənim də yaralı qoluma bir güllə dəydi. Dəhşətli ağrı və yanma hissi bütün qolumu bürüdü. Ağrının şiddətindən nəfəsim kəsilsə də, xərəyi buraxmırdım. Bir güllə də, Mahmudun qoluna dəydi. Mahmud da, xərəkdən möhkəm yapışmışdı. Xərəyin üstündəki yaralılar dəlik-deşik olmuşdular, amma başımızı elə itirmişdik ki, şəhid olduqlarını bilməyimizə rəğmən onları yerə qoymurduq.

Hacı Himmət Əli çətinliklə ayağını sürüyür, ağrı çəkərək bizimlə birgə gəlirdi. Bir az irəlidə xərəkləri yerə qoyduq. Tanklar kanaldan sonra bizdən əl çəkdilər. Onlardan xilas olsaq da, DŞK və pulemyot güllələri hər an bizi təhdid edirdi.

Bir istehkamın yanında oturduq. Yanımdakılar halsız vəziyyətdə yerə uzandılar. Bir nəfər gəlib çıxdı, qeybdən gəlmiş birisi kimi dadıma çatdı və qolumu çəfiyə ilə bağladı. Başımı qaldırdım, üzünü dumanlı görürdüm. Başım gicəlləndi və huşdan getdim. Yalnız mərmilərin səsi beynimdə əks-səda doğururdu. Yerdə nə qədər qaldığımı bilmirəm. Oyandıqda gördüm ki, dostlarım gedib tək qalmışam. Yanımda bir xərək və içində də, bir şəhid vardı. Şəhid qan içindəydi, tikə-tikə olmuşdu. Bəlkə də, məni orada qoymuşdular ki, yaralıları daşıyanlar gəlib aparsınlar. Bir neçə dəqiqə sonra, iki nəfər gəldi. Tələsik bir yaralını götürüb, mənim yanımdan ötüb keçdilər. Müsibətlə ayağa qalxıb, səngiyə-səngiyə sahilə doğru

addımladım. Abbas Kərimi də, oradaydı. Sahildə 2-3 qayıq qalmışdı. Deyəsən bunlar axırıncı qayıqlar idilər. Davud Abidinin cəsədi sahildə düşüb qalmışdı. Mən, Mahmud, Ərəs və başqa dörd nəfərlə birlikdə qayığa mindik. İki nəfər də, Davudun cəsədini sürüyüb qayığın içinə qoydular.

Qayıq həddən artıq çox yüklənmişdi, az qalırdı çevrilsin. Birdən bir nəfər qışqırdı: "Tez olun, tanklar arxadan gəlir!" Əziz Rəhimi Abbas Kərimi ilə tez-tez danışıb deyirdi: "Gəl gedək. Bax gəlirlər". Abbas da, başını yelləyərək, siz gedin deyirdi. Elə belə də oldu. Axırda tək qaldı və...

Əziz Rəhimi və rabitəçi bizim qayığa gəldilər. Digər qayıqlar dolub yola düşmüşdü. Vaxt yox idi, tanklar sahilə çatırdı. Yola düşmək istədikdə, bir nəfər dedi: "Qardaşlardan bir neçəsi düşsün. Qayıq indicə ağzı üstə çevriləcək və hamımız batacağıq". Heç kim yerindən tərpənmədi. İri cüssəli bir döyüşçü dedi:

-Əvvəl seyidlər getməlidir, yol onlarındır!

-Ay bala, sən özün üç adam boydasan!-deyə dilləndim.

Hamı mənim bu sözümə güldü. Bir az sonra, qayıq həmin vəziyyətdə yola düşdü. Bir neçə cəsəd suyun üstündə qaldığından, qayıqların ləpəsi onları yırğalayırdı. Dönüb sahilə baxdıqda, Abbas Kəriminin suyun kənarında dayandığını gördüm. Niyə gəlmədiyini anlamadım. Özlüyümdə fikirləşdim ki, şübhəsiz şəhid olacaq. Onu bir daha görmədim.

Hələ sahildən çox uzaqlaşmamışdıq ki, balaca bir helikopter gəlib suya bir neçə raket atıb getdi. Qayığın yerinə qısıldım ki, özümü qoruya bilim. Helikopter yenidən qayıdıb bir qədər də, aşağı enib pulemyotla qayıqları atəşə tutdu.

Əlimizi başımıza qoyub çömbəlmişdik. Qayıqdakılardan bir-iki nəfər yaralandı. İki güllə Davudun cənazəsinə, iki güllə də, qayığın yerinə dəydi. Başımı qaldıranda tankların bizi nişan aldığını gördüm. 2-3 mərmi suyun ortasına dəyib partladı. Qayıq yellənib, sağa-sola sürüşürdü. Ətrafımızda olan bir neçə qayıq başqa su yoluna girib gizləndilər. Qayıqçıya acıqlanıb dedim: “Sən ananın canı, tez ol, indicə hamımız məhv olacağıq”. Zavallı qayıqçı da, qorxmuşdu və qayığı sağa-sola sürüb dedi: “Onlar ratsiyanı görüb bizi komandalıq qayığı hesab edib üstümüzə düşüblər”.

Qamışlığa yaxınlaşdıq. Mən qayığa söykənib suyu sağ əlimlə ovcuma yığaraq çölə tökürdüm. Qayığın içinə dolan su getdikcə artmaqda idi. Dostlar da, kömək edib ovucları ilə suyu çölə boşaldırdılar. Qayığın suyu bitmək bilmirdi. Artıq batacağımızı düşünüb, kəlmeyi-şəhadətimizi oxuduq. Hamımızdan daha sağlam olan birisi, köynəyini çıxarıb qollarını bir-birinə düyünlədi və sellofan kisə kimi içini su ilə doldurub çölə tökməyə başladı. Bu işi bir neçə dəfə təkrarladıqdan sonra, köynəyin qolu yırtıldı və hamı qəh-qəhə ilə gülməyə başladı. O acınacaqlı vəziyyətdə gülməyimizin qarşısını ala bilmirdik. Bir nəfər narahat halda dedi: “Gülməyin, sakit olun. Bir düşmən qayığı arxamızca gəlir, pulemyotla bizi təqib edir. Dinsizlər bizdən başqa qamışlıqda heç kimin olmadığını anlayıb bizi öldürməyə gəlib”.

Qayıq bir neçə dəfə qamışlığa girib çıxdı. Sanki iraqlılarla gizlən-tap oyunu oynayırdıq. Bir yandan da, hamımız çoxlu qan itirmişdik və ağrılarımız başlamışdı. Başdan-ayağa su içindəydik, soyuqdan əsirdik. Halım pisləşir, tez-tez gözümün qarası gedirdi; dəhşətli dərəcədə susamışdım. Əlimi suya salıb bir ovuc Hur suyundan

içdim. Neft iyi verirdi. Dostlardan biri əlimi tutub dedi: "Su içmə bədbəxt! Ölərsən! Sənin qanaxman var". Yasin surəsini dodaqaltı oxuyaraq salavat çəkdim. Ölüm çətin olsa da, gözəldir. Lakin əsirlik ölümdən daha çətindir. Həmin anda, doğrudan da, ürəyim istəyirdi ki, öləm, amma iraqlıların əlinə düşməyəm. Bir nəfər dedi: "Əgər bizi yaxalasalar, əvvəl doyunca kötəkləyəcəklər! Bu saç-saqqal və cüssə ilə mühüm adam olduğumuzu düşünəcəklər, beləliklə, vəziyyətimiz çox ağır olacaq!"

Yarım saat tərpənmədən səssizcə qamışlıqda qaldıq. Axırda qayıqçı dedi: "Deyəsən bizi görməyiblər. Xəbər çıxmadı". Axşamüstü öz sahilimizə çatdıq. Gördük ki, qiyamət qopmuşdur. Bacaranlar qaçıb canını qurtarmışdı. Yaralılar can verən halda təcili tibbi yardım maşını gözləyir və dayanmadan nalə edirlər. Həmin anda bir nəfər uca səslə soruşdu: "Abbas Kərimi haradadır? Kimsənin xəbəri varmı?"

-Ondan əlini üz! Şəhid olmasına şəkk etməyin. Tankların onu mühasirəyə aldıqlarını öz gözümlə gördüm. Hacı Əkbər Nocavan əlimdən tutub qayıqdan enməyimə kömək etdi. Sonra isə, təcili tibbi yardım maşını gəlib bizi mindirdi və Cüfeyrin arxasındakı xəstəxanaya apardı.

Orada əlimin yarasını sarıdılar. Onlardan mənə ağrıkəsici iynə vurmalarını xahiş etdim. Yorğunluq və halsızlıqdan yuxu tutdu. Xəbərim olmadı ki, nə vaxt məni oradan çıxarıb maşına mindirmiş və Əhvazın İmam Hüseyn xəstəxanasına aparmışlar. Oyandıqda bir stadionda olduğumu gördüm. İşıqlardan anladım ki, həmin Əhvazdakı stadiondur, yəni Ramazan əməliyyatından sonra getdiyim yer.

Axşam yenə ağrılarım başladı. Bir neçə yaralı da, yanımda uzanıb inildəyirdi. Ayağa qalxıb həkimin yanına

gedib dedim: “Mənə bir ağrıkəsici iynə, ya da dərman ver, dözə bilmirəm”. İynə vurdular, amma yuxu tutmadı. Dostlarımdan ötrü nigaran idim: Mahmud Julidə, Hüseyn Tahiri, Qulam Qəlyaf, Tağı Qulamnejad, hacı Himmət Əli və digər məhəllə dostlarım...

Səhər Rza Təlanın evinə zəng elədim və Fatiməyə yaralandığımı xəbər verdim. Fatimə hər əməliyyatdan sonra, qorxurdu ki, ayağım kəsilsin. Buna görə də ilk sualı bu oldu:

-Ayağın kəsilib?

-Yox, ayağım kəsilməyib. Qoluma iki güllə dəyib.

-Eybi yoxdur, 1-2 güllə müharibənin dadı-duzudur. Amma düzünü de, ayağın yerindədir?

-Hə, arxayın ol.

-Nə vaxt gəlirsən?

-Bir-iki günə.

Sağollaşıb xudahafizləşdik. İkinci gecə məni təcili tibbi yardım maşını ilə Dezfula göndərdilər. Tehranlıları oraya yığmışdılar, görünür mən axırıncısı idim. Hamımızı hərbi təyyarəyə mindirib apardılar. Yaralıların sayı təxminən 300-400 nəfər olardı.

Bir saat sonra, təyyarə Tehran aeroportuna endi. Çox keçmədi ki, başqa bir təyyarə gəldi. Tibb işçiləri dedilər bu təyyarəyə minin, sizi Məşhədə aparacağıq.

Hamımız tehranlı olduğumuz üçün, eyni anda bir səslə dedik: “Halımız yaxşı deyil, ay bala! Düşmürük, bizi Tehrana aparın, Məşhəd istəmirik”.

Bir nəfər gəlib üstümüzə acıqlanıb dedi:

-Adam kimi başa düşürsüz, yoxsa sizinlə ayrı dildə danışım?

Tağı məzhəkə ilə dedi: “Yum ağzını, qatıq!” Hamımız güldük. Bizim bu davranışımıza qarşı tərəf əsəbiləşdi və

mübahisə yarandı. Dostlardan biri dedi: “Namərd, bunlar döyüşdən gəliblər. Hamısı müharibə əlilidir. Əgər tehranlıdılarsa, bəs niyə Məşhədə getməlidirlər?

Başqa birisi gəlib dedi: “Narahat olmayın. Mən hər şeyi yoluna qoyacağam. Hələlik təyyarədən düşün, aşağıda Məşhədə getmək istəmədiyinizi deyərsiz”.

30-40 nəfər təyyarədən enib oradaca uçuş xəttində yerə uzandıq. Bir saat keçdi. Hər gələn bir cür nəsihət edirdi. Bizim fikrimizsə qəti idi. Onlara sözümüzdən dönməyəcəyimizi və getmək istəmədiyimizi dedik. Yük maşını gətirib bizi mindirdilər və bir zala apardılar. Çay hazırlayıb pendir, çörək və şirin çay verdilər.

Bir neçə gün idi ki, çay içməmişdik, özü də olduqca ac idik. Yemək görəndə elə bil gözümüzə işıq gəldi. Bir azdan həkim gəldi və bizi qruplara bölmək istədiyini bildirdi. Bu arada, mübahisə etdiyimiz şəxs deyirdi ki, bunları ədəbləndir. Həkim də, birinci qrupun Kərəc yolundakı iki saylı xəstəxanaya getməsini tapşırdı. Bunu eşidəndə onun yanına gedib dedim: “Bax, əziz həkim! Mən bunların əvəzinə danışıram. Biz Kərəcə getməyəcəyik. Nə edəcəksən? Bizi Tehrana göndər. Mənim qardaşım Tehrandakı Şəfa xəstəxanasında həkimdir. Mən oraya getməliyəm”.

Həkim məni və 3-4 digər xəstəni Tehranın Şəfa xəstəxanasına göndərdi. Orada dostlardan ayrıldım. Səhər saat 10-da təcili tibbi yardım maşını ilə bizi Şəfa xəstəxanasına göndərdilər. Sağ tərəfdən qolumla sinəm şişib balış boyda olmuşdu. Müayinədən sonra, bir neçə aparatdan keçirib müxtəlif şəkillər çəkdilər. Günorta radələrində evə zəng etdim. Fatimə, heyət dostlarım olan Mahmud Kəlhor, Əli Cəmşidi və hacı Həsən Gəncizadə ilə xəstəxanaya gəldi.

Günortadan sonra, yenə 1-2 dəfə yoxlayıb dedilər ki, bədənində güllə və ya qəlpə görünmür. Çox güman ki, qolunun altından girib körpücük sümüyündən çıxmışdır. Güllənin izi qalıb, amma özü yoxdur. Bir deşik qolumun altında, bir deşik də, körpücük sümüyün üstündə görünürdü. Əməliyyatadək əlimi gipsə salıb boynuma bağladılar.

Həmin gün Davud Abidinin qohumlarından bir neçə nəfər görüşümə gəldi. Şəfa xəstəxanası bir tərəfdən şəhid Rəcainin evinə yapışmışdı. Qaldığım otağın pəncərəsindən şəhid Rəcainin evinin divarı görünürdü. O divara baxdıqda, Baş Nazirlik binasında Seyid Qasim və şəhid Rəcai ilə olan xatirələrim yadıma düşürdü. İkinci günün səhəri, xəstəxananın koridorundan qışqırıq səsləri eşitdim. Tibb bacısı deyirdi: "İndi görüş saatı deyil, vaxtında gəlin". Bir qədər sonra, Məcid Sibsorxi və Rza Purəhməd toz-torpaqlı paltarla içəri girdilər. Həddən artıq kədərli idilər, nə baş verdiyini soruşdum.

-Həsən Bəhməni hava bombardmanında şəhid olub. Həsənin yaxın dostları Kazim Rəstigarla Nasir Şiri də, yoxa çıxıblar, onlardan əsər-əlamət qalmayıb. Həm Abidinin yas mərasimidir, həm də, Həsənin cənazəsi Behişti Zəhra məzarlığındadır. Ürəyimə dammışdı ki, Həsən gedəsidir, həm də necə! Onun yas mərasimində iştirak etmək istəyirdim. Dostlara yalvarıb dedim ki, bunlar xəstəxanadan çıxmağıma icazə verməyəcəklər. Kömək edin buradan qaça bilim. Xəstəxana paltarı ilə ayağımı pəncərənin ağzına qoyub şəhid Rəcai küçəsinin divarının üstünə çıxdım. Divarın digər tərəfində metal su çəlləyi vardı. Digər ayağımı da, onun üstünə qoyub arxa küçəyə tullandım. Dostlar maşınla küçəyə gəlib məni mindirdilər. Öncə Naziabada, Davudun yas mərasiminə

getdik. Heyət uşaqlarının çoxu gəlmişdi. İzdihamlı mərasim idi. Davudu bir dünya həsrət və göz yaşı ilə torpağın qucağına verdik. Dəyərli bir dostu əldən verdiyimizdən ayrılığı qəlbimizə od vurub yandırırdı. Onun atası, hacı Abbas tək-tənha qaldı. Qardaşı Həmid və oğlu Əmirhüseyn də yetim böyüməli idilər. Əllahu-əkbər səsi ucalmışdı, iynə atsaydın yerə düşməzdi. Əzizlərinin cəsədi ön cəbhədə qalan ailələr, mənə tərəf gəldilər. Onların nəsə deməyini gözləməyib dilləndim: "Hamısı şəhid olub adada qaldılar. Yollarını gözləməyin".

Həsənin atası Hacı Cəmşid mərd kişilərdən idi. O, Həsənin məzarı üstə oturub deyirdi: "Biz heç bədənini də, istəmirdik. Bizi kəsilmiş başlamı qorxudursuz? Əgər qorxsaydıq, bu yolun adamı olmazdıq. Bunu da aparın. Niyə gətirmisiz?"

Çox qətiyyətli kişi idi!

Hacı Cəmşid məni görən kimi yaxınlaşıb qucaqladı. Sonra da, cəmiyyətə üz tutub dedi: "Bu Həsənin məhəllə yoldaşı və dostudur. Həsən haqda danışmaq istəyir". Mikrofonu əlimə verdilər, Həsənlə son vidalaşmamı danışıb şəhidləri yad etdim. Dəfn mərasimindən sonra, Məcidlə Rza məni xəstəxananın qapısı ağzına çatdırdılar. Xəstəxanaya girdikdə, tibb bacısı məni görüb təəccüblə harada olduğumu soruşdu:

-Həyətdə!

-Həkim səni müayinə etmək istəyir.

Həkim gəlib qoluma baxıb dedi:

-Ehtimal veririk ki, əsəb damarları və sümüklər zədələnməyib.

1984-cü ilin mart ayının 22-də, xəstəxanadan çıxdım və Novruz günləri başa çatanadək evdə qaldım. Meysəm batalyonundan sağ qalanlar da, bu müddətdə mənə baş

çəkdilər. Halım yaxşı deyildi. Qolum tamamilə hissiz idi, onu yalnız dirsəkdən aşağı tərpədə bilirdim.

Bayram tətilindən sonra, hər gün Şəfa xəstəxanasına gedir, qolumu fizioterapiya şöbəsində Kaşani adlı xanıma masaj etdirirdim. Orada kiçik su hovuzları vardı, içinə təziqlə su buraxılırdı. Bədənimin yarısını suya salırdım, suyun təziqi qolumu masaj edirdi. Xanım Kaşani mənim şeir həvəskarı olduğumu bilirdi. Odur ki, davamlı şəkildə mənə "Hafizdən oxu" deyərdi. Mən də, şeir aləmində qərq olub ona qəzəl oxuyurdum.

Müalicə almaqla yanaşı, məhəllə yoldaşlarımın yas mərasimlərində də iştirak edirdim. Çalışırdım ki, dostların köməyi ilə şəhidlərin işləri yerdə qalmasın. Amma, həm psixoloji baxımdan, həm də fiziki cəhətdən bərbad halda idim. Dostlarımın ölümü məni əldən salmışdı. Əli Rəməzani, Höccət Əmirsufi, Əkbər Poştekuhi, Abbas Dayimulzuhur, Səid Toqani, Mehdi Pursaleh, Haşim Həmami, Musəvi Cəzayiri, Davud Abidi və xüsusilə də Seyid Əbülfəzl Muzdabadi kimi igidlərin şəhadəti batalyon qüvvələrinin qəlbinə od vururdu. Bu misilsiz insanların qəm-qüssəsi bu günədək ürəyimizi dağlamaqdadır.

İki aydan sonra, yavaş-yavaş iki barmağımı tərpədə bildim. Bir gün sevincək halda evə gəlib Fatiməyə dedim: "Fatimə xanım bax! Barmağım tərpənir, əlimi də, qaldıra bilirəm". O, da əlimi qaldıra bildiyimə görə çox sevindi. 7-8 ay müalicə və həkimlərin əsiri olmuşdum. Səhərlər motosiklet gəlib məni fizioterapiyadan ötrü xəstəxanaya aparırdı. Bütün bu məşəqqətlərə dözdükdən sonra, nəhayət əlimi çiynimdən yuxarı qaldıra bildim.

Bir gün xəbər yayıldı ki, Vəliəsr bazasının zorxanasında şəhidlərin anım mərasimini təşkil etmək

istəyirlər. Birbaşa zorxanaya getdim. Qərara alınmışdı ki, Bədr əməliyyatı şəhidlərinin ailələrindən bəzilərini də, tədbirə dəvət etsinlər. Məsələn, şəhid Həsən Bəhməninin atası, şəhid Cabiri qardaşlarının ataları, şəhid Rəncbəranın atası, şəhid Abidi qardaşlarının ataları, şəhid Şahmuradinin atası və digər şəhid atalarını ki, məclisin bəzəyi və bərəkəti olsunlar.

Döyüşçü dostlarımızın çoxu gəlmişdi. Bir qədər idman etdik. Qardaşların israrı ilə mürşid paltarı geyindiyim üçün, duanı da, mən oxudum. Baxmayaraq ki, o dövrün ən güclü mürşidi və zorxana fəndlərini bilən hacı Məhəmməd Xoşcan və ustad Hüseyn Gil orada idi. O vaxtlar zorxana idman növü üçün çox zəhmətlər çəkildi, lakin zaman keçdikcə bu pəhləvanlıq idmanı unudulmağa başladı. Elə bir dövr gəlib çatdı ki, insanlar toxuma mili ilə zorxana milini səhv salırlar.

O qədər əziyyət çəkildi, amma səmərəsi hədər oldu...

# On üçüncü fəsil

Bədr əməliyyatında Əziz Rəhimi yaralandıqdan, Seyid Əbülfəzl Kazimi isə şəhid olduqdan sonra, Meysəm batalyonu təxminən dağılmış vəziyyətə gəlib çıxdı. Sağ qalanların çoxu yaralı idilər və yeni bir batalyon təşkil edə bilməzdilər. Odur ki, qalanlar Əhməd Nozad və Əli Cəzmaninin komandanlığı altında olan Miqdad batalyonuna daxil oldular. Lakin Meysəm batalyonunun dağılmasına baxmayaraq, eşqini və dostların xatirələrini qəlblərimizdə yaşadırdıq. Çox keçmədi ki, Meysəm batalyonunu yenidən bərpa etməyə israr edənlərdən 40 nəfər “Hürr” adlı bir taqım təşkil etdilər. Hüseynullah Kərəmin başçılıq etdiyi bu taqım əməliyyatın yalnız kəşfiyyat işlərini görürdü. Orada cəm olan dostların çoxunu tanıyırdım. Əksəri məhəlləmizin uşaqları olduğundan, düşüncələrimiz bir idi. Cənubda da bu taqıma bənzər “Nüsrət” adlı bir qərargah təşkil olundu. Bu qərargahın komandiri Əli Haşimi, idi. Hür bölgəsinin kəşfiyyat işləri ilə məşğul idilər. Bu qərargahı təşkil etmək ideyası Möhsin Rzayiyə məxsus idi. Mən də, dostlara xatir

“Hürr” taqımına qoşuldum. Hüseyni yaxşı tanıyırdım. Biz eyni küçənin uşaqları idik. Hüseyn zirək, həqiqi mömin, səfalı və tədbirli gənc idi. Yaşının azlığına baxmayaraq, tanınmış pəhləvanlardan sayılırdı, siması da ilk baxışdan diqqət çəkirdi. Həm zorxana idman növündə, həm də digər işlərdə hamıdan qabaqcıl idi. Heç kim onun gördüyü işləri təkrarlaya bilmirdi.

Hüseyn döyüş qəhrəmanı olmasaına baxmayaraq, kəşfiyyat işində məharətli olanları da ətrafına toplamışdı. Onlar İraq cəbhəsini yaxşı tanıyırdılar. Bunlarla yanaşı, Hüseynin rəftar və davranışında atasından öyrəndiyi xüsusi bir mənəviyyat da vardı. Məncə, Hüseyn siyasətə qarışmasaydı, dünyanın sonunadək müsəlmanlar üçün bir qəhrəman olaraq qalacaqdı.

Hüseynin atası Şövqəlişah pinəçi və Xaksar şəhərinin dərvişlərindən idi. Mən yeniyetməlik dövründə Seyid Əli dayı ilə dostlaşdıqdan sonra, givə ayaqqabısı geyinirdim. İrfan sahəsinə də daxil olduqda, Hüseynin vasitəsilə Şövqəlişahla tanış oldum. Şövqəlişahın sadə dükanı və yaşayış tərzi məni heyran etmişdi. Anamdan sonra, mən yalnız onun qarşısında diz çökürdüm. Axı, insan şagirdlik etməsə və ustadı olmasa, heç yerə çatmaz. Şövqəlişah digər əməkdaşları dərvişlərlə müqayisədə qadınları başına toplayıb cadu, tilsim kimi işlərlə məşğul olan adamlardan deyildi. Gözü də, ürəyi də təmiz idi. Qiyam meydanında kiçik iş yeri vardı və səhərdən axşama qədər tikişlə məşğul idi.

Yanında oturanda mənimlə çox təvazökarlıqla danışardı. Saatlarla yanından ayrılmayıb irfani sözlərinə qulaq asar, mənəviyyat dəryasına qərq olardım. Bir dəfə ondan soruşdum: “Özünə niyə şah ləqəbi vermişsən?” Cavab verib dedi:

-50 ildir ki, givə tikib öz əlimin zəhmətilə dolanıram. Heç vaxt icazə vermədim ki, müridlərim cibimə pul qoysunlar. İnsanlardan pul toplamaq dalınca deyiləm. Yalnız öz vücud məmləkətimin şahı olmaq istəyirəm. Öz iradəmə hakim, öz nəfsimə qənim kəsilmişəm. İstəyirəm ki, gözlərimin nəyi görüb, nəyi görməməsi öz əlimdə olsun. Qollarım və ayaqlarım öz əmrim altında hərəkət etsin. Vücudumun cilovu öz əlimdə olsun və onu istədiyim yola yönəldim.

Şövqəli məni Məlamətiyyə, Zəhabiyyə və Xaksar qrupları ilə tanış etdi. Ondan necə arif ola biləcəyimi soruşdum. O, da belə cavab verdi: “Arif ola bilmək üçün həm təriqət, həm şəriət, həm də həqiqəti bilməlisən. Təriqət yalnız irfan deyil, həm də ticarətdir. İrfanı iddia edirsənsə, dəyişməməlisən. Dondan-dona girməməlisən. Bir rəngdə olmaq ilk addımdır. Ucalıq istəyirsənsə, tək rəngli ol, xalçalar yüz rəngli olduğu üçün ayaqlar altındadır”.

Şövqəli, köhnə paltarlarla givənin altını düzəldirdi. Onları ayağın ölçüsündə kəsib çəkiclə üstünə o qədər vurardı ki, möhkəm olsun. Ardınca da, givəni onun üstünə tikərdi. Nə vaxt Şövqəlidən givə alsaydım, üstündə mənə bir kisə givə xəmiri[1] verib, ayaqqabılarımı onunla necə təmiz saxlaya biləcəyimi də öyrədirdi. Döyüş sahəsinə daxil olduqdan sonra, Şövqəlinin öyrətdiyi irfandan qırmızı irfana çatdım. O, mənə öyrətmişdi ki, irfan ümumilikdə nəzəri və praktiki bir şeydir. Nəzəri irfan

---

[1] Givə xəmiri üçün xalis meli xüsusi su ilə qarışdırıb yumşaq xəmir düzəldir, ardınca günün altına qoyub qurudurlar. Quruyub suyu çəkildikdə onu əzib yumşaq toza çevirirlər. Sonra bu tozu su ilə qarışdırıb givənin üstünə vururlar ki, təmiz və gözəl görünsün.

zahiri qorumaqdır, yəni Hafizi oxuyub imamları mədh etməlisən. Praktiki irfan isə, kamil insanın xüsusiyyətlərini özündə cəmləməkdir. Yəni, zikr əhli olan, azdanışan, əməl əhli, nəfsini cilovlayıb seyr-süluk edən şəxs. Bunlarla yanaşı, arifməsləklər və irfanı iddia edən şəxslər, müharibə işinə qatışmaz, vətənin müdafiəsi, din, namus və azadlıq uğrunda heç nə etməzdilər. Mən qırmızı irfanı cəbhədə gördüm. Praktiki və nəzəri üzünü mübarizlər arasında dərk etdim. O da, bu deməkdir ki, arif mərmilər altında Hafizi oxuyub, təhlükəli səngərdə "Nadi Əli" duası təşkil edə və atəş altında gecə namazı qılıb, ya Əli desin. Qırmızı irfan, yəni mənfi 40 dərəcə şaxtada müqavimət göstərib, şükür namazı qılasan.

O vaxtlar Hürr taqımının kəşfiyyat qərargahı İslamabad bazasının Ağdağ yüksəkliklərinin ətəyində idi. Kəşfiyyat qərargahında olduğum bir-iki həftə ərzində, xüsusi bir hadisə baş vermədi. İşlərin gedişatı da, normal idi. Taqımlar növbə ilə gecə vaxtı kəşfiyyata gedirdilər. Bir gün kəşfiyyat uşaqlarından Əli Xürrəmdil adlı bir döyüşçü şəhid oldu. O, Əli Rizqi ləqəbi ilə məşhurlaşmışdı. Yüksək ruhiyyəli mücahid və cəsur döyüşçü olmaqla yanaşı, həm də ədəbiyyatsevər idi. Onun şəhadət xəbərini eşitdikdə narahat oldum. Dostlarla qərara gəldik ki, kəşfiyyat qərargahında ona yas mərasimi təşkil edək. Cavad Kəbirinin vasitəsi ilə Seyid Əli Nəcəfini[1] qərargaha

---

[1] O, 1947-ci ildə Nəcəfdə dünyaya gəlmiş, Qum və Tehranda təhsil almışdır. Seyri-süluk baxımından mərhum Ayətullah Seyid İsmayıl Şəfiinin şagirdi idi. Ustad Şəfii onun ictihada çatdığını demişdi. Onun heyrətamiz işlərindən biri də, bu idi ki, namazdan doymazdı. Moizədən bir neçə dəqiqə öncə, gəlib çatsaydı xütbə başlayanadək namaz qılardı. Xütbənin ilk 20 dəqiqəsində ağır tövhid məsələlərini bəyan edərdi. O, deyirdi ki, söhbətimə tövhidsiz başlaya bilmirəm.

gətirtdim ki, Əlinin yas mərasimində minbərə çıxsın. Seyid Əli yeganə ruhani idi ki, ondan nə vaxt döyüşçülərə söhbət etməsini istəsəydim, yox deməz və razılığa gələrdi. Yadımdadır ki, 1981-ci ildə Hüseyn Mahmudi ilə irfan dərslərini öyrənmək üçün ustad axtaranda Hüseynin atasının vasitəsilə Cavad Kəbirinin evinin zirzəmisindəki dini heyətə getdik. Cavadın özü övliyalardan sayılırdı və pak insanlardan idi. Onun Sahibcəm prospektində sabun mağazası vardı. İlk dəfə olaraq həmin heyətdə, Seyid Əli Nəcəfi ilə tanış oldum və onun eşq xütbəsini dinlədim.

İrfan və aşiqlik onun peşəsi idi. Siyasətdən qətiyyən danışmazdı. Danışsaydı da, axırda sözü gətirib irfana çıxarardı. Xoşsöhbət və gözəl simalı ruhani idi. Gözəl iri gözləri, uzun saqqalı və cazibəli çöhrəsi vardı. Baxışları elə dərin idi ki, sanki insanın ürəyinin daxilini görür və oxuyur. İlk dəfə gözüm gözünə sataşdıqda, çaşıb qaldım; anlamadım ki, mənə baxır və ya gözlərimdə nəsə axtarır. Bir az kök olduğundan ağır yeriyirdi, amma o qədər mənəvi danışırdı ki, tanımayanlar onun məst olduğunu düşünərdi.

O, təhsilini Qumda almışdı. Gənclik çağında özünü Ayətullah Cəvadi Amolinin ətəyinə atmış və seyr-süluk pillələrini qalxmışdı.

Seyid Əli ağa müctəhid idi. Yəni o, hövzeye-elmiyyədə təhsilin ən yüksək məqamına çatmışdı və tələbələrə dərs

---

Mənim qəlbim o gözəl hissi tapmasa, sizə nəsə verə bilmərəm. Ən önəmli xüsusiyyətlərindən biri də, bu idi ki, moizə məclislərində camaatın sayını nəzərə almazdı. Dəfələrlə yalnız bir neçə nəfər üçün xütbə oxumuşdu. Bu halda da, iki min nəfərə necə moizə edirdisə, eləcə söhbət edərdi. Özü də buyurardı ki, əgər bizim məclisimiz elm yığıncağıdırsa, ora mələklər gələr. Mən danışdıqda bəzi məsələlər özümə də aydınlaşmağa başlayır.

verə bilərdi. Lakin bir dəfə yuxu görür və yuxudan sonra, qərara gəlir ki, gənclərlə işləsin. Ondan başqa heç bir ali təhsilli ruhani tanımıram ki, elm və məqam sahibi olmağına baxmayaraq, gənclərlə oturub-dursun. Mən Seyid Əlidə olan sədaqət və elmi heç kəsdə görmədim. O, çox gözəl danışır və çox gözəl misallar çəkirdi. Elə sadə və ürəkdən danışırdı ki, hamı onun sözünü dinləyir və anlayırdı. Yadımdadır ki, İmam Hüseyndən (ə) danışdıqda halı dəyişilərdi; sel kimi axan göz yaşları bizi heyrətləndirərdi.

Böyük şəxsiyyətlərdən biri deyirdi ki, mən bu Seyiddən, həzrət Əlinin (ə) ətrini duyuram. Doğrudan da, kamil bir arif idi. Gözəl rəftarlarından biri də, bu idi ki, döyüşçülər onu dəvət etdikdə təkəbbür etmədən razı olub məclislərində iştirak edərdi.

Seyid 7 gün kəşfiyyat qərargahında qonağımız oldu. Gündüzlər dağın ətəyində və Sumar şəhərində gəzişib, axşamlar isə döyüşçülər üçün eşq və irfandan danışardı.

Bir gecə söhbətlərinin birində dedi: "Vay qəlblərimizin halına! İçimizdə nələr var! Allah bizə rəhm etsin. Qəlbimiz televizor ekranı kimi olsaydı, qiyamət qopardı!"[1]

Mücahidlər onun irfani sözlərinə heyran olurdular. Moizəsinin axırında şeir oxuyar, Əhli-beyt dualarını təfsir edər, Quran və rövzə oxuyardı. Onu ilk dəfə görən hər bir döyüşçü, məftun olur, ondan ayrılmaq istəmirdi.

Cəbhə xəttində keçirdiyi bu bir neçə gündə, adı dillər əzbəri oldu. Şəhid qardaşı idi, müharibənin nə olduğunu çox gözəl dərk edirdi. Bir gün mənə dedi: "Seyid Əbülfəzl, çox şadam ki, döyüşçülər məni belə yerlərə

---

[1] Coşən kəbir duasının təfsiri.

dəvət edirlər və mən də şəhidlərin qarşısında üzüqaralıqdan qurtarıram".

Seyid Əli Nəcəfi Tehrana qayıtdıqdan sonra, bir gün Hüseynullah Kərəm məni çağırıb dedi: "Seyid, uzun müddətdir ki, burdasan. İndi, qoşunda özümüzə yer edə bilmək üçün ən yaxşı fürsətdir. Yaxşı olar ki, Meysəm batalyonunun qədim və peşəkar döyüşçüləri yenə bir araya yığışsın. Sən bunu bacararsan. Həm Meysəmin sabiq komandiri Seyid Əbülfəzl Kazimi ilə adaşsan, həm də, onunla eyni məhəllədənsən. Odur ki, döyüşçülər sözünü eşidəcəklər".

Həmin anda Hüseynə heç bir cavab vermədim. Ürəyimin dərinliyində Meysəm batalyonunun yenidən bərpa olmasına razı idim. Öhdəsindən gələcəyimə də, inanırdım. Seyid Əbülfəzl Kazimi ilə müştərək dostlarımız vardı və əmin idim ki, onlar da, gəlib Meysəmə yardımçı olacaqlar. Amma Hüseynin istəyinə qəti cavab vermədim, sanki, bu işdə yardım edəcək əsl adamı axtarırdım. Baxmayaraq ki, cəbhədə bir neçə il azad döyüşçü olmuşdum, amma Əhməd Mütəvəssilian, Hüseyn Qəcəyi, Həsən Bəhməni, İbrahim Kəsayi və Seyid Əbülfəzl Kazimi kimi qəhrəmanların komandanlığı altında döyüşmüşdüm. 20 illik inqilab və müharibə təcrübəm vardı və işimi yaxşı bacarırdım. Batalyon idarə etmək isə, çətin və məsuliyyətli bir iş idi. Bir qrup günahsız gəncin həyatı sənin əlində olur və bir gün cavabdeh olmalısan.

Bir neçə gün bu barədə düşündüm. Qardaşlar arasında bir nəfəri axtarırdım ki, Meysəm batalyonunun bayrağını onun əlinə verim. Ağlıma gələn yeganə şəxs Əsgər Ərsəncani idi. O, Təyyib prospektində, mən isə Boyaqçılar küçəsində böyümüşdüm. Düşüncə, etiqad və həyat tərzi baxımından eyni idik. Əsgər evin üçüncü uşağı idi. Ailəsi

də, Tehranın əsil nəcabətli sayılıb-seçilən ailələrindən sayılırdı. Anası imanlı, qonaqpərvər, mehriban gecə namazı qılıb insanlara yardım etməyi sevən bir qadın idi. Atası hacı Abbas da, mömin tacir, əliaçıq, halal-harama diqqət yetirən bir şəxs idi. O, övladlarına heç vaxt şübhəli tikə yedirtməyib, onları həmişə dindar fəzada böyüdən və evində daim rövzə və əzadarlıq təşkl edən Təyyib prospektinin mərd kişilərindən idi.

Əsgər məndən bir-iki yaş kiçik olardı, orta təhsilli idi, ingilis dilini də yaxşı bilirdi. O vaxtlarda çox az adam ingilis dilində danışmağı bacarırdı. Ümumiyyətlə, kimsə bu dilin marağında deyildi. İnqilab vaxtı aksiyalarda onu çox görürdüm. Gözəl simalı, gülərüz və yüksək ruhiyyəli, namazqılan bir gənc idi. İnqilabda və ondan sonra təlim-tərbiyə işlərində çox zəhmət çəkmişdi. Hər şeydən də, önəmli budur ki, qanında və damarında imam Hüseyn (ə) eşqi vardı. Məhz onun bu xüsusiyyəti dostluğumuzun əsas səbəbi olmuşdu.

Kürdüstan döyüşlərində onunla daha yaxından tanış oldum. Mərdlik xüsusiyyətlərini "Fəthül-Mübin", "Beytül-Müqəddəs" əməliyyatlarında və eləcə də, Livanda daha çox dərk etdim. Dokuhədə beş nəfər "Bəkkayin" ləqəbi ilə məşhurlaşmışdı; İmam Hüseynə (ə) çox ağlayanlar və bu eşqdə dəlilik dərəcəsinə çatanlar. Həmin beş nəfər Əsgər Ərsəncani, Əmir Tehrani, Mustafa Məliki, Həsən Şeyxazəri və Əli Rövzəyi[1] idi. Onların arasında ən önəmlisi Əsgər idi. O, hədsiz dərəcədə qorxmaz, şücaətli

---

[1] Ravi: Pəhləvan Həsən Şeyxazəri Fav müdafiəsində və Əli Rövzəyi Bədr əməliyyatında şəhid oldular. Xristianlar məhəlləsində yaşayan Əmir Tehrani şəhid olduqda bütün məsihilər onun üçün ağlayırdı. Mustafa Məliki də Ummul-risas adasında şəhid oldu.

və şəhadət aşiqi sayılırdı. Bu hədsiz-hesabsız eşqi onun bütün rəftarında görürdüm. Onunla uzun müddət idi ki, ayrı düşmüşdük. Mən azad döyüşçü idim, o, isə korpus üzvü. Hər dəfə onu görəndə əlində kitab olardı. Tarix, əxlaq və xüsusilə də, peyğəmbərlərin həyatı barədə çox oxuyardı.

Bir neçə dəfə ürəyəyatan gözəl səsini döyüşçülər arasında eşitmişdim. Əsgər məddahlığı Hacı Mahmud Albaluyidən öyrənmiş və bu sahədə olduqca hörmət qazanmışdı. Yeri gələndə susar, yeri gələndə zarafatları ilə insanı gülməkdən öldürərdi. Bununla belə, o, həm idmançı, həm də bacarıqlı hərbçi idi. Cəbhədə hamı onu sevirdi. O, Tehran lotularının ağsaqqalı olan Təyyib ilə eyni məhəllədə qalırdı. Daxilən pak və təmiz qəlbli insan idi.

Onun keçmişini, iştirak etdiyi döyüş və əməliyyatları düşündükcə, ona qarşı olan inamım daha da artırdı. O, mənim axtardığım həmin adam idi. Ondan başqa, heç kimi bu, vəzifəyə onun qədər layiqli birisini tanımırdım.

Amma uzun müddət idi ki, ondan xəbərsiz idim. O, Rəməzan əməliyyatında yaralandıqdan sonra, yenidən daha ağır və şiddətli bir şəkildə Bəmu yüksəkliklərində keçirilən “4 saylı Vəlfəcr” əməliyyatında yaralanmışdı. DŞK mərmisi ayağının sümüyünü sındırmışdı. Bu səbəbdən o, Şəfa xəstəxanasında 14 ay yatmmışdı. Meysəm batalyonunu bərpa etmək bais oldu ki, xəstəxanaya onun görüşünə gedim. Şöbənin tibb bacısı məni çağırıb dedi:

-Cənab, bu sizin dostunuzdur?

-Bəli, buyurun.

-13 aydır ki, burada yatır. Ayağını beş dəfə əməliyyat etmişik, bir dəfə "uff" deməyib. Davamlı olaraq dua oxuyur, zikr deyir, axı bu necə adamdır?

-Komandirdir.

-Məncə, arifdir. Yalnız ariflər bu qədər dözümlü olur. Müharibədə komandir olduğunu da, heç vaxt bizə deməyib.

Sonra məni Əsgərin yanına apardı. Əsgər yataqda uzanmışdı. Çəki daşını ayağından təzə açmışdılar. Rəngi-ruhu özünə gəlmiş və halı bir qədər yaxşılaşmışdı. Salamlaşıb, hal-əhval tutduqdan sonra dedim:

-Meysəm batalyonunu bərpa etmək istəyirəm. Hüseynullah Kərəm bu fikri irəli sürdü. Amma, mən bu işi tək həyata keçirə bilmərəm. Sən də, olmalısan. Mənə bir yoldaş lazımdır.

-Eybi yoxdur. Mən razıyam. Yaxın günlərdə tərxis olunub cəbhəyə qayıdacağam. Meysəmdən yaxşı nə ola bilər ki?! Amma bir şərtim var!

-Nə şərti?

-Şərtim budur ki, komandirin kim olduğu məlum olmasın. Sən seyidsən və mən seyidlərdən öndə getmərəm. Yanında duracaq və bütün çətinliklərdə səninlə olacağam.

-Əsgər qardaş, axı Məhəmməd Kövsəri səni tanıyır və sənə güvənir. Ümumiyyətlə bütün komandirlər səni tanıyır. Mən sənin mötəbərliyin hesabına bu işi başlayıram. Çox adamlar sənin eşqinə Meysəm batalyonuna qoşulacaqlar.

-Axı seyid can, Meysəmə komandanlıq etməyə məndən məharətliləri çoxdur. Bizim elə dostlarımız var ki, hər biri bir briqada komandiri kimidir və hər işi bacarırlar. Mən buraxılanadək bu macəranı Hacı Məhəmmədlə danışın.

Əsgərlə sağollaşıb xudahafizləşdim və Dokuhəyə qayıtdım. Orada Hürr briqadasının döyüşçülərindən iki nəfəri gördüm. Onlar dedilər:

-Cənubda bir əməliyyat keçiriləcək. Hacı Hüseyn bir qrupu əməliyyata göndərmişdir.

Onlardan soruşdum:

-Əməliyyat harada keçiriləcək?

-Bilmirik. Məlum olan budur ki, əməliyyatın komandir Hüseyn İskəndərlidir.

Onlardan ayrılıb Seyyidül-şühədə qoşununun qərargahına getdim. Əməliyyat haqda hər bir şeyi öyrənib, mümkün olsa, əməliyyatda iştirak etmək istəyirdim. 10 saylı qoşunun qərargahında müharibə qəhrəmanı və yaxın dostum Məhəmmədcəfər Cəngruyu gördüm. Bir neçə gün Məhəmmədcəfərin yanında qaldım.

Məhəmmədcəfər dedi: "Əməliyyat Ummul-risas adasındadır. Bədr və Xeybər döyüşləri uğurlu olmadığı üçün, yenə Hur sularında əməliyyat keçirmək istəyirlər. İraq da, boş dayanmayıb xurma ağaclarının hamısını kəsmiş və bölgəyə tam nəzarəti ələ almışdı. Onlar Hurun bir hissəsini qurudub, üstünə tank çıxarmış və sərhəd zastavası boyunca tələ qurmuşlar". Ondan soruşdum:

-Hurda kimlərin əməliyyat keçirəcəyini bilirsənmi?

-Əliəsgər batalyonu Ummul-risas adasında döyüşür.

-Hürr batalyonu və Hüseynin döyüşçüləri ilə bu əməliyyatda iştirak etmək istəyirəm.

Məhəmmədcəfərlə sağollaşdım və 10 saylı qoşunun qərargahına, Hüseyn İskəndərlinin yanına getdim. O, tehranlı idi. İmam Hüseyn (ə) bazasında hərbi təlim keçmişdi. İstedad və bacarığı dillər əzbəri idi. Onu İstiqbal komitəsindən tanıyırdım. Öncədən Züheyr və Salman batalyonlarının komandiri olmuşdu. Salamlaşıb halını

soruşduqdan sonra, dedim: “Mən də sizinlə Hura gəlmək istəyirəm”.

-Dostlarından 30-40 nəfər bu şəkildə gəlib bizə qoşulublar. Azad döyüşçü ingilis açarı kimidir. Harada iş düyünlənsə, o düyünü açar..”.

-Kimlər gəlib?

-Əli Nəsrullah, Rza Purəhməd, Məcid Sibsorxi və... Bəs sən haradan bildin ki, əməliyyat Hur sularında olacaqdır?

-Məhəmmədcəfər dedi.

-Bunu da bil ki, bu əməliyyat düşmənin diqqətini yayındırmaq üçün keçiriləcəkdir. Əsas əməliyyat bu tərəflərdə olacaq. Əsas məqsəd isə, Favdır. Bunu bir sirr olaraq saxla və heç kimə demə. Hura hücum çəkirik ki, iraqlıların diqqətini yayındıraq. İraq ərazilərinə girməməyəcəyik. Yalnız onları döyüşə cəlb edib başlarını qatacağıq.

Axşam dostların yanına getdim. O vaxt qeyd olunan aldadıcı əməliyyatdan ötrü ordu qüvvələrinin maşınlarının işıqlarını söndürüb Hura doğru apardılar. Arxa cəbhəni ön cəbhəyə yaxın bir yerdə yerləşdirmək əvəzinə, ön cəbhə ilə saat yarım məsafəsi olan bir yerdə təşkil etdilər.

Fevral ayının 4-ü idi, axşam arxa cəbhəyə getdim. Döyüşçülərə qoşulub Əliəsgər batalyonunda özümə yer etdim. Ay görünürdü, hava buludlu deyildi. Qayıqlar hazır vəziyyətdə suyun kənarında dayanmışdılar. Minib yola düşdük. Allahın izni ilə həmişə dalğalı və qaynayan Ərvənd suyu eynilə hovuz suyu kimi hərəkətsiz idi. Bir-birimizin ardınca Ərvəndin ortasından yola düşdük. Əliəsgər batalyonunun gözəl səsli məddahı, Sibsorxi qardaş həzin səsli bir şeir zümzümə edir və biz də təkrarlayırdıq.

Ummul-risasın yaxınlığında qayıqlardan biri çevrildi və döyüşçülər suya düşdülər. Amma hamısı üzərək özlərini digər qayıqlara çatdırdılar. Bədr və Xeybər əməliyyatlarındakı acı təcrübə səbəb olmuşdu ki, bu dəfə komandirlər gözüaçıq və diqqətli davransınlar.

Hüseynlə mən bir qayıqda idik və hamıdan qabaqda gedirdik. Bir saat sonra, adanın sahilində dayandıq. Yavaş-yavaş digər qayıqlar da gəlib çatdı. Səssizcə qayıqlardan endik. Ay hər tərəfi elə işıqlandırmışdı ki, hər yeri aydın görə bilirdik. Sanki gecə deyildi. Hüseyn dedi: “Atəş açmayın, yalnız ətrafa baxın və hazır vəziyyətdə olun”.

Ummul-risas adası Favla Hurul-əzim arasında yerləşən balaca bir ada idi. Ətrafı yalnız su ilə əhatə olunduğundan, qaçış yolu görünmürdü. Ada xurma ağacları və qamışlıqla örtülmüşdü. Bütün adaya sakitlik çökmüşdü. Nə qədər sırayla piyada getdiyimizi bilmirəm. İraqlılar təxminən adanın ortasına səngər və müxtəlif növlü maneələr yerləşdirmişdilər. Onlar bizim gəlişimizdən xəbərsizcə yatmışdılar. Hətta xatırlamıram, gecə saat neçə idi ki, “durun” əmri verildi və biz də dayandıq. Amma bir dəqiqə sonra, döyüşçülərdən biri RPG ilə atəş açdı, bunu eşidən iraqlılar da, duyuq düşüb döyüşə başladılar.

Müharibə və əməliyyatlar boyu ilk dəfə hiss etdim ki, biz hücum edərkən doğrudan da iraqlılar yatmış və qəfildən ayılıb bizi qarşılarında görmüşdülər. Onlar oyandıqdan sonra, üzərimizə çox ağır atəş yağdırmağa başladılar. Biz onların istehkamlarının arxasında mövqe seçmişdik və ilk atəşi də biz başladığımız üçün itkisiz irəliləyirdik. Həmişəki kimi iraqlılar adanı qorumaq üçün oraya ehtiyat qüvvələrini yerləşdirmişdilər. Onlar da, bir neçə itki verdikdən sonra, qayıqlara minib qaçdılar.

Onların ardınca getmədik. Çünki planımız yalnız onların başlarını qatmaq idi. Adanın ortasındaca müdafiə xətti yaratdıq. Səhərə yaxın, Hüseyn nə üçünsə qərargaha qayıtdı. Onlar əks-hücuma başladı, adada çox da döyüşçüsü olmadığı üçün, uzaq məsafəli artilleriyadan istifadə edirdilər. Bizim silahlarımız yüngül idi, ən ağır texnikamız pulemyotla RPG idi. Onlarsa bizə minaatanla atəş açırdılar. Deyirdilər ki, İraqın beşinci qoşununun komandiri Sultan Haşim, adaya gəlib onu geri almaq istəyir.

Səhər gün çıxdıqda, Hüseyn qayıtdı. Biz hələ də, müdafiə vəziyyətində gözləyirdik ki, Hüseyn geri çəkilmə əmri verib burada işimizin bitdiyini elan etsin. Dostlar soruşdular:

-Hacı Hüseyn, nə oldu? Qayıdaqmı?

-Yox, burada hələ işimiz var.

-Qayıqları işə salın!"

Hamımız mat-məəttəl Hüseynə baxırdıq. Axı biz bu balaca adada başımıza yağan atəşin altında nə vaxta qədər dözə bilərdik?!

-Qayıqlar boş qayıtsınlar!

Bir nəfər dedi:

-Hüseyn qardaş, de ki, 15 dəqiqə sonra qayıtsınlar.

Amma bu sözlər Hüseynin vecinə deyildi. Birdən sinəsini önə verib köynəyinin düymələrini açdı. Bizə baxıb qeyri-adi ahənglə bu şeiri oxudu:

***Aşiqliyə layiq deyil təkürəkli sadə sevgi,***
***Ya canını, ya cananı fəda edər olan eşqi***

Ardınca da dedi: "Bizim burada hələ işimiz var. Geri qayıtmaq üçün arxa cəbhədən əmr gəlməlidir. Siz burada

döyüşərkən, digərləri də Favda ölüm-dirim savaşına girişiblər. Biz burada qalıb iraqlıların başını qatmalıyıq".

Orada Hüseyn, öz mövlası Hüseynə (ə) çevrildi. RPG götürüb nişan aldı və rəftarı ilə bizə yol göstərib təkan verdi. Orada kim ürəkli və dönməz olsaydı, qalib gələrdi. Çünki qayıdış yolu yox idi və bu şücaətin zirvə nöqtəsi idi. Hüseyn öz zəkası ilə işi atəşdən daha irəliyə aparırdı. Boş əllə müdafiə olunan və ya hücum çəkən bir komandir idi. Beləliklə, əməliyyat Hüseynin əli ilə uğurla davam edirdi. O, dayanmadan fəryad edib deyirdi: "Onları yubadın, arxa cəbhədən xəbər gələnə kimi, nəfəslərini kəsin".

Həmin gün var-gücümüzlə döyüşdük. Düşməni ağır itkilərə məruz qoyduq, həm də onlardan çoxlu sayda əsir aldıq. Biz ölümünə döyüşərək, adanın ortasınadək getdikdə, iraqlılar əllərini başlarına qoyub təslim olurdular. Onların tankları və artilleriya gücü olsa da, davam gətirməyib özlərini itirirdilər.

İş axşamüstünə kimi davam etdi. Arxa cəbhədən xəbər gəldi ki, artıq döyüşçülərimiz Favın içərisinə nüfuz edib, orda özlərinə mövqe seçiblər. Hüseyn ratsiya ilə əlaqə saxlayıb qayıqların gəlməsini istədi. Bizim 2-3 şəhidimiz və bir neçə yaralımız vardı. Şəhidlərin biri Məhəmməd Vəli ləqəbi ilə məşhurlaşmış sinif yoldaşım Məhəmməd Əminul-Riaya idi. Döyüşçüləri qayıqla Bəhmənşirə göndərdik. Orada Hüseyn motosiklətlə qərargaha qayıdırdı, mən də tərikinə minib onunla getdim. Döyüşçülər arasında şayiə yayılmışdı ki, Cəfər Cəngruy, Yədullah Kəlhor və Hacı Əli Fəzli Favın sol istiqamətinə gedib döyüşçülərə izahat verərkən tank gülləsinə tuş gəlmiş və hər üçü şəhid olmuşdu. Hüseynlə birlikdə Cəfərdən xəbər tutmaq üçün, Toyotaya mindik və Kövsər bölgəsinin arxa cəbhəsinə gedib Fava daxil olduq.

Qərargahda dedilər ki, Əli Fəzli yaralanmış, Cəfərlə Yədullah isə şəhid olmuşlar. Bu arada hamının maraq göstərdiyi mövzu bu idi ki, 27 saylı qoşun duz fabrikinin arxasında iraqlılarla hələdə gərgin döyüşdədir.

Məhəmməd Kövsərini gördüm. Çox narahat və qəmli idi. Kəşfiyyat taqımı Favın Ummul-qəsr yolundan gəlmişdir. Hacı Məhəmmədə deyirdilər ki, İraq 200-300 tank gətirmiş və Ummul-qəsr yolunda hazır vəziyyətdə saxlamışdır. Belə olduqda, Hacı Məhəmməd dedi: "Əmmar batalyonu müdafiədədir. İşi Həmzə batalyonuna tapşırmaq istəyirik. Mahmud Əmini şam namazından sonra hücuma keçəcək".

Gecə yarısı Hüseynlə əməliyyat və plan otağına getdik. Oraya çatdıqda dedilər ki, Həmzə batalyonu hücuma keçmiş və çox kəskin müqavimətlə üzləşib qalmışlar.

Gecəni dostlarla əməliyyat otağında qaldıq. Səid Süleymani ilə Cəfər Tehrani əməliyyat-plan bölməsinin məsulları idilər. Onlar dedilər ki, Mahmud Əmini əlaqə saxlayıb dedi ki, tanklar döyüşçülərimizi tək-tək vururlar.

Səhərə yaxın ixtiyarımızda olan maşın və motosikletlərə minib ön cəbhəyə Mahmud Əminini görməyə getdik. Nə qədər getdiksə də, ön cəbhəyə çata bilmədik. Mahmud öz döyüşçüləri ilə təxminən 16-17 km İraq ərazisinə girmiş və Ummul-qəsr yolunda irəliləmişdilər.

Fav və Ummul-qəsr yoluna 1-2 km qalmış təcili tibbi yardım maşınları dəstə-dəstə yaralı gətirirdi. Ön cəbhə izdihamlı və qarışıq idi. Geri çəkilmə vəziyyəti yaranmışdı. Mahmudun batalyonu dağılmış, taqım başçısına güllə dəymişdi. Mahmud yalnız sağ qalanları toplayıb geri göndərməyə çalışırdı. Orada eşitdik ki,

Əlirza Məsih ilə Möhsin Kazimi də şəhid olmuş, məhəllə dostumuz Cavad Kaşaninin ayağı kəsilmişdir.

Həmzə batalyonundan sonra, Malik və Həbib batalyonları hücuma keçib təyyarələrin bombardmanına məruz qaldılar. Axşam düşdükdə, işimiz yüz qat çətinləşdi.

"8 saylı Vəlfəcr" əməliyyatı, ən çətin əməliyyatlardan biri idi. Əlbəttə, döyüşçülərimiz misilsiz qəhrəmanlıqlar göstərirdi. Onlar amansız Ərvənd çayını adlayıb, İraq darvazısına daxil olmuşdular. Bu iş o zaman üçün təsəvvürolunmaz bir müvəffəqiyyət idi.

Gün çıxdıqda Fav şəhərinə qayıtdıq. Lakin ön cəbhə şəhərdən daha təhlükəsiz idi. Düşmən qüvvələri arxa cəbhəni məhv edib, ön cəbhədə olanlarımızı qəfildən yaxalamaq istəyirdi.

Həmin gün qərargahda olan dostlar dedilər ki, 75 gündür Hacı Məhəmmədin övladı dünyaya gəlib. O, bu günə qədər uşağının üzünü görməyib, ailəsinə baş çəkməyə imkan tapmayıb. Dostları nə qədər israr etsələr də, o, ön cəbhəni buraxıb ailəsinə və yenicə dünyaya gəlmiş körpəsinə baş çəkməyə getmədi.

1986-cı ilin mart ayının axırlarınadək Favda qaldım. Həmin müddətdə xüsusi bir hadisə baş vermədi. Fav hələ də, İranın əlində idi, döyüşçülər də onu əzmlə qoruyurdular.

Həmin vaxtlarda bir nəfər dedi: "Əliəsgər batalyonu Fəkkədə əməliyyat keçirmək istəyir". Maşına minib Dokuhəyə getdik. Qərargahda gördüm ki, Hüseyn çox əsəbi halda bir yerdə əyləşmişdir. Nə baş verdiyini anlamadım. Qəfildən qışqıraraq dedi: "Heç kəs bu işi görməzdi, məni qammaz hesab etməyin! Mənə əmr

verildiyi üçün Ummul-risasa getdim, halbuki həmin adadan sağ qayıtmayacağımıza əmin idim!”

Qərar çıxarıldı ki, o, batalyonu ilə Fəkkəyə gedib əməliyyata başlasın. Hüseynlə bir əməliyyatda olmağı çox istəyirdim, amma qərargahın qarma-qarışıqlığına görə onunla nə sağollaşa, nə də Fəkkəyə gedə bildim. Çünki Hacı Məhəmməd dalımca adam göndərmişdi. O, həmin vaxtda 27 saylı Məhəmməd Rəsulullah qoşununun komandiri idi və mən onunla hələ də səmimi ola bilməmişdim. O, da mənim xasiyyətimə tam bələd deyildi.

1986-cı ilin iyun ayının 22-i idi. Hacı Məhəmməd komandanlıq otağında məni gözləyirdi. Yanına gedib salam verdim. Oturdum və sözə başlayan kimi Meysəm batalyonunu bərpa etmək istədiyimizi bildirdim.

-Biz dedikdə, özündən başqa kimi nəzərdə tutursan?

-Mən və Əsgər Ərsəncani.

Əsgərin adını çəkən kimi, başını razılıq əlaməti olaraq silkələyib dedi:

-Əsgərə bizim hörmətimiz var. Sən də, dəyərli insansan. Axı Əsgər hələ də xəstəxanadadır.

-Bir neçə gündür ki, gəlib. Ayağı axsayır, bir müddət əsa ilə yeriməlidir.

-Mən bu fikirlə razıyam, amma ağa Rəhimlə cənab Şəmxaninin də razılığını almalıyam. Siz hələlik əməliyyata gəlin, eyni zamanda Meysəmin kadr məsələsi haqda da fikirləşin.

-İki-üç günə kadr məsələsini hazırlamalıyamsa, zənnimcə alınmaz. Çünki öncə Hüseynullah Kərəmlə danışmalıyam. Meysəm batalyonuna gətirmək istədiyim qüvvələrin bir neçəsi onun taqımındadır.

-İndi vəziyyət qarışıqdır. Dostlar əməliyyatın kəşfiyyat işini yaxşı idarə edə bilmirlər. Bizim yaxşı kəşfiyyatçılara

ehtiyacımız var. Əsgərlə əl-ələ verib qüvvələrinizi Hürr batalyonundan ayırın. Bir neçə nəfər də, biz sizə verəcəyik. Keyfiyyətli kəşfiyyat taqımı təşkil edin.

-Mən Hüseynlə danışmalıyam. Təcrübəli qüvvələr Hüseynin əlindədir.

Həmin gün İslamabada getdim və Hacı Məhəmmədlə görüşümü Hüseynə danışdım. Hüseyn dedi: "Məndən sənə nəsihət, bu işi görmə. Biz yeni bir kəşfiyyat bölüyü təşkil etmək istəsəydik, bəs Hürr batalyonu nəyimizə lazım idi?! Bunu etsən, məqsədinə çata bilməyəcəksən. Əməliyyat gecəsi hücum çəkə bilməzsən. Heç bir işdə ixtiyarın olmayacaq. Döyüşçünü ön cəbhəyə aparıb, özüm arxa cəbhəyə qayıtmalıyam. Sən hələlik bu işlə məşğul olma. Bir müddət gözlə, görək nə olur".

Hüseynin sözü ilə bir neçə günlük məzuniyyət götürüb, ailəmi görməyə getdim. Eşitdim ki, əməliyyat keçiriləcək. Cavad Məclisi, Səid Məclisi və Mehdi Əmizadə ilə Hüseyn Sazurun maşınını alıb qərb bölgəsinə getdik. Maşını Əllahu-əkbər bazasında qoyub Toyota ilə Nəcəf qərargahına yollandıq. Orada bizim vasitəçimiz Həmid Mirzayi idi.

1986-cı ilin iyul ayının əvvəlləri idi. Dostlardan bir neçə nəfərlə Kanisəxt ətrafındakı yüksəkliklərdə olan Nəcəf qərargahına getdik. Hürr briqadasının qüvvələri yüksəkliklərin qarşısında Qavi çayının kənarında bir qərargah düzəltmişdilər. Bu çay hərbi baxımdan önəmli idi, hətta Dehloran-Mehran yolu oradan keçirdi.

Döyüşçülər Mehranı azad etmək üçün önəmli bir əməliyyata hazırlaşırdılar. Orada kəşfiyyat qüvvələri bir neçə nəfərlik taqımlara bölündü və qərara alındı ki, əməliyyatın müxtəlif mərhələlərində qüvvələri lazımi yerə aparsınlar.

“1 saylı Kərbəla” əməliyyatının birinci gecəsində qərar çıxarıldı ki, Mahmud Julidə, Mürtəza Behzadi, məhəllə yoldaşımız Əli Nəsrullah və Həsən Əsgəri 10 saylı Seyyidul-şühəda və 41 saylı Sarəllah qoşunlarını ön cəbhəyə aparsınlar. Yəni, Səngşikən və İmamzadə Salehi adlayıb Mehranın şimal-qərb hissəsindən 6 km məsafəsi olan Kanisəxt yüksəklikləri ilə əkin bağına getsinlər.

Mənim də, üzvü olduğum taqım Kirmanın 41 saylı Sarəllah qoşununun iki batalyonunu qum təpələrindən əkin bağına aparıb 10 saylı qoşuna birləşdirməli idi. Amma, biz əkin bağına çatmadan öncə, günortadan sonra, saat 2 radələrində Seyyidul-şühəda qərargahından ratsiya ilə əlaqə saxlayıb dedilər ki, iş ləngiyir. Əslində axşama planlaşdırılan döyüş, vaxtından əvvəl başlamışdı. İraqlılar ilk atəşdə əllərini başlarına qoyub təslim olmuşdular. Ona görə də, bizə ehtiyac olmadı və əmr gəldi ki, arxa cəbhəyə qayıdaq.

Biz çayın kənarına qayıtdıqda gördük ki, onlar 200-dən artıq əsir alıb, sahildə özlərindən razı vəziyyətdə əylənirlər. Suyun içinə qumbara atıb balıq tutur, kabab çəkirdilər. Təəccübləndim. Məgər bunlar əməliyyata başlamayacaqdılar?! Bu nə vəziyyətdir? Qərargahla əlaqə saxlayıb dedim: “Nə olub? Məgər əməliyyat keçirilməyəcək?”

Dedilər ki, iş əkin bağında yubanır.

-Mənim hesablamama əsasən 41 saylı Sarəllah qoşunu 10 saylı qoşunun arxasında olmalıdır.

-Onda iki batalyonunuzu götürüb onların yanına gedin.

Biz 41 saylı Sarəllah qoşununudan bir batalyon götürüb əkin bağının arxasından keçdik və yarım saat sonra 10 saylı qoşunun mövqeyinin arxasından çıxdıq. Birdən

gördük ki, bizimlə 10 saylı qoşunun arasından bir hərbi cərgə başını aşağı sallayıb gəlir.

Ətrafa diqqətlə baxıb yerimizdə oturduq. Əvvəlcə onların iranlı olduqlarını düşündük. Yaxınlaşanda gördük ki, xeyr, bunlar iraqlılardır. Döyüşçülərdən biri özündən asılı olmayaraq onlara tərəf güllə atdı. Onlar da, müqavimət göstərmədən əllərini başlarına qoyub təslim oldular. İraqlılar həmişəki kimi özlərini itirmişdilər. Qorxduqda da özlərini ələ ala bilmir, tez-tez ərəbcə danışıb yalvar-yaxar edirdilər. Təxminən 400 nəfər olardılar. Burada da bir iraqlı tayfanı əsir etdik, iş çox yaxşı irəlilədi.

Hacı Hüseynullah Kərəm ağa Rəhimlə Şəmxanini gətirmişdi ki, döyüşçülərin bu əməliyyatdakı uğurlarını və aldıqları əsirləri öz gözlərilə görsünlər.

Fərəc İsfahani əsirlərin nəzarətçisi idi. İraqlılar köynəklərini soyunub havada yellədir və "Ya Xomeyni... Ya Xomeyni" deyib imdad diləyirdilər. İsfahani ərəbcə bilirdi, buna görə də onlara öyrədirdi ki, desinlər: "Ya Əli Nəsrullah! Ya Əkbər Kolahduz!"

General Rəhim Səfəvi yaxınlaşdıqda, 400 əsir birdən dedi: "Ya Əli Nəsrullah! Ya Əkbər Kolahduz!" Ağa Rəhim həddən artıq təəccüblənib bunun nə olduğunu soruşdu.

İkinci gecə döyüş səngidi və bölgə nisbətən sakitləşdi. Mürtəza Behzadi məni bir kənara çəkib dedi: "Bu gecə elə bir yerə getmək istəyirik ki, Səddam prezident qvardiyasını oraya gətirib, özü də əməliyyatın səngiməsini gözləyir ki, hücum çəkib Mehranı geri alsın".

Bunu eşidəndə dedim: "Ay bala, əl çək! Mən əməliyyatın kəşfiyyat qüvvəsiyəm. İndi də aradan çıxıb Tehrana qayıtmaq istəyirəm".

Mürtəza getməyimə imkan vermədi. Gəlməsən, peşman olacaqsan deyib, məni zorla Mehranın azad olunmuş yüksəkliklərinə apardı.

Əli Nəsrullahla başqa iki nəfər də vardı. Biz yüksəkliyin başında, iraqlıların öncədən düzəltdikləri kanalın içində mövqe seçdik. Durbinlə ətrafa göz gəzdirib, hər yeri nəzarətdə saxlamağa çalışırdıq. Bu zaman Əli Nəsrullah dedi: "Mən gedib iraqlılardan bir nəfəri oğurlayıb gətirəcəyəm ki, görüm Yezid Səddam, doğrudan da, buraya öz qvardiyasını gətirib?" Əli ilə mübahisəyə başladım. Söhbətin ortasında birdən atəş səsi gəldi və Əlinin ağır cüssəsi üstümə düşdü. Mən də, böyrü üstə yıxıldım. Əlimi tez onun bədəninin altına keçirib qaldırdım. Güllə başına dəymişdi. Əli uca boylu olduğundan ayağa qalxanda başı kanaldan çölə çıxmış və iraqlı snayperçinin gülləsinə tuş gəlmişdi. Onun nə qədər qan itirdiyini Allah bilir. Kanalın yeri qana boyandı. Mən ipək dəsmalımla yaranı bağladım, amma qan yenə qaynayıb çölə fışqırırdı. O, huşdan getmişdi, şəhid olub-olmadığını bilmirdim.

Getdikcə vəziyyəti daha da ağırlaşırdı. Nə ayaq üstə qala bilirdim, nə də onu qaldırmağa imkan vardı. Axırda məcbur olub çəfiyələri qayışlara düyünlədik və kəndir kimi möhkəm bir şey düzəltdik. Bir başını Əlinin bədəninə bağladıq, digər başını da, üçümüz tutub kanalın içindən öz səngərlərimizə tərəf çəkməyə başladıq. Təxminən 2-3 km getdik. Nəfəsimiz kəsildikdə, onu yerə qoyub bir qədər dincəlir, yenidən yolumuza davam edirdik. Əli, Oşan-Fəşəm yaxınlığında olan İmamə adlı bir qəsəbədən idi. Dostlarla oraya bir neçə dəfə getmişdik. Çox səfalı və ab-havası gözəl olan bir yer idi. Onun atası Hacı Nəsrullah kişi də, o məntəqənin hörmətli şəxslərindən idi.

Hər halda Əli, 6 ay xəstəxanada yatdı. Həkim dedi ki, Əli fiziki cəhətdən çox dözümlü olduğu üçün, bu qədər tab gətirib. Sonralar bu igidin bədəninin yarısı iflic oldu. İraq da, heç vaxt Mehranı geri ala bilmədi. Doğrudan da, Əli bu ölkənin fəxridir.

# On dördüncü fəsil

1986-cı il avqust ayının 5-də Hacı Məhəmmədə qoşunun baş qərargah rəisindən xəbər yolladım ki, onu görmək istəyirəm. Bir-iki gün sonra, xəbər gəldi ki, Hacı Məhəmməd bizi görməyə hazırdır. Təyin olunmuş gün, Dokuhəyə gedib komandanlıq otağına daxil oldum. Hacı Məhəmməd məni gözləyirdi. Salam verib yanında əyləşdim. Soruşdu: “Meysəm batalyonunun işi nə yerdə qaldı, Əsgər necə oldu?”

-Yer məsələsini gözləyirəm, kadların hamısını müəyyənləşdirmişəm. Əsgər də, gələcək”.

-Kadrlarını topla, burada binalar dolu olduğu üçün, hələlik zabitlər klubu sizin olsun. Amma hər şeydən öncə, bir məsələni xatırlatmaq istəyirdim. Doğrusu deməyə utanıram..”.

-Buyurun, hacı.

-Həm sənin, həm də Əsgərin ayağı şikəstdir. Buna görə də, əməliyyat gecəsi döyüşçüləri müşayiət edə bilməyəcəksiz.

-Eybi yoxdur, Allahın köməyilə heç bir problem yaranmayacaq. İmam Hüseyn (ə) bazasının təlimat bölməsinin məsulu məhəllə dostlarımızdandır. Odur ki, batalyonun müşayiət və təlimat işlərini ona tapşıracam. Hüseyn təkliyində 10 komandirə bərabərdir.

-Mən razıyam.

-Əgər siz razısınızsa, mənim də iki şərtim var.

-De.

-Birincisi budur ki, batalyonun adı yalnız "Meysəm Təmmar" olmalıdır. İkincisi isə, Tehran qoşununda hər kəs köynəyini soyunub sinə vursa, ona irad tuturlar. Məsələn, Rza Purəhməd, Məhəmməd Tahiri, Mustafa Məliki və Məhəmməd Zamanini cəzalandırdılar. Nə üçün? Məgər Aşura günü soyunub sinə vurmağın nə qəbahəti var? Mən istəyirəm ki, döyüşçülərim necə istəyirlərsə, elə də yaşasınlar. Bu kimi məsələlərə görə, onları cəzalanrdırıb geri qaytarmaq yaxşı deyil. Siz razı olsanız, onları azad buraxmaq istəyirəm. Onlar döyüşmək üçün gəliblər, sağ qalıb-qalmayacaqları da, məlum deyil.

-Seyid can, bu dedikləriniz batalyonun komandirinə aid olan işlərdir. Hərbi məsələlərdə hamımız eyni yolu getməliyik. Məqsəd bir olmalıdır. Biz də, yuxarılardan əmr alıb icra edirik.

Təxminən bir saat müxtəlif məsələlər barədə söhbət etdik. Sonra, Hacı Məhəmməddən ayrılıb batalyonun qalacağı yeri görməyə getdim. Zabitlər klubu Dokuhənin ən son nöqtəsində, nəqliyyat binasının önündə idi. Yəni, arxası boş çöllük olan bir biyaban idi. Bir mərtəbəli yarımçıq tikilmiş bir zalı, 4 otağı və 2 ayaqyolusu vardı. Hər şeydən öncə, bir neçə nəfəri göndərdim ki, kanalzasiya düzəldib, 5 ayaqyolu tiksinlər, lazım olan işləri qaydaya salıb binaya əl gəzdirsinlər. Daha sonra, 10

saylı qoşunun qərargahına - İbrahim Kəsayi və Əziz Rəhimini görməyə getdim. İbrahim vaxtı ilə Meysəm batalyonunun komandiri idi. Hər ikisi təcrübəli döyüşçülər idi, müharibədən çox əzab-əziyyət çəkmişdilər.

Salamlaşdıqdan sonra, onlara Meysəm batalyonunun yenidən bərpa edilmə macərasını danışıb dedim:

-Sizdən icazə almağa gəlmişəm. Siz böyüksünüz, ağsaqqallara hörmət etmək lotuluğun qanunudur.

-Meysəm batalyonu, mənə doğma evim kimdir. Qoşunumun ən yaxşı döyüşçülərindən 200 nəfəri burada şəhid oldular.

Bir müddət başım batalyonu bərpa edib, döyüşçü cəlb etməyə qarışmışdı. Bu arada məddah Hüseyn Sazur da qərara gəldi ki, bizə qoşulsun. Özü də, məni görən kimi dedi ki, Rəcainin mənimlə işi var və ona zəng etməliyəm.

Bizim ailənin mərhum prezident şəhid Rəcainin həyat yoldaşı ilə yaxın tanışlığı var idi. Onlar nəcib və imanlı ailə idilər. Onların Kamal adlı 17 yaşlı oğulları da vardı. Şəhid Rəcai nə qədər sakit və başıaşağı idisə, oğlu əksinə, hədsiz dərəcədə dəcəl bir yeniyetmə idi. Xanım Rəcai Fatimə ilə kimsəsizlərə yardım müəssisəsində birlikdə çalışırdılar. O, da, şəhid Rəcai kimi xeyriyyə işlərində və imkansız ailələrə yardım məsələsində həddən artıq fəal idi.

Evlərinə zəng etdim. Telefonun dəstəyini xanım Rəcai götürdü.

-Salam xanım, sizi narahat edən Seyid Əbülfəzdir.

-Salam ağa Seyid! Yaxşı ki, zəng etdiniz. Sizə bir zəhmətim var. Kamalın 17 yaşı var, həddi-büluğa çatıb, ammma hələ də, öz dəcəlliyindən əl çəkmir. Səhər-axşam mənimlə mübahisə edir və motosiklet istəyir. Müharibə vəziyyətində ölkə bir-birinə dəyib, yaşı da azdır, şəhərdə qalmağını məsləhət görmürəm. Mümkünsə, Tehrana gəlib

onunla danışasız. Razı olsa, özünüzlə cəbhəyə aparın. Əlbəttə, bir müddət arxa cəbhədə saxlayın ki, təlimat keçib bir şey öyrənsin.

Rəcailər ailəsinə olan hörmətimdən dolayısı, ertəsi gün Tehrana qayıtdım və birbaşa onların evinə getdim. Kamalı götürüb məhəlləmizə apardım ki, bizim məscid və Bəsic təşkilatımızla yaxından tanış olsun. Bir qədər gəzib-dolandıqdan sonra dedim:

-Yaxşı bir motosikletim var. Mənimlə cəbhəyə gəlsən, onu sənə verəcəyəm ki, həmişə əlində olsun.

-Yaxşı gəlirəm,-deyə cavab verdi.

-Motosikleti qatarla Dokuhəyə aparaq, özümüz də qatarla gedək.

Kamal şıltaq olsa da, dindar bir uşaq idi. Özü də heç vaxt sözümdən çıxmazdı. Mənimlə cəbhəyə gəldi. Təzə bir motosikletimiz vardı, onu Kamala verdik. Motosiklet sürməyi dəlicəsinə sevən Kamal, o gündən batalyonun motosikletçisi oldu. Onun batalyona gəlişi döyüşçülərə yaxşı ruhiyyə verirdi. Dostlar prezidentin oğlunun cəbhəyə gəldiyini görüb tam gücləri ilə çalışırdılar.

Bir-iki gün sonra, Əsgər də, Dokuhəyə gəldi. Ayağı bir az axsayır və çətinliklə yeriyə bilirdi. Dabanı qopduğundan, həkimlər ona süni daban qoymuşdular. Həmin gündən Meysəm batalyonuna döyüşçü toplamağa başladıq. İlk həftə digər batalyonlardan və yeni gələn qüvvələrdən 120 nəfər bizə qoşuldu. Onları zabitlər klubuna yerləşdirdik. Səy göstərirdim ki, qoşunda yeni söz sahibi olum. İstəyirdim ki, bizim batalyonun işləri digər batalyonlarla fərqli olsun.

Bir gün səhər proqramında Əsgər qardaşla batalyonun yeni siyahısını yazıb taqımları müəyyənləşdirdik. Onun mənəvi sükutu vardı və təkəbbürsüz olduğu üçün, lazım

olan sözləri mən deyirdim, o isə nəzarət edirdi. Çox adam taqım başçısı seçildikdə halı dəyişilirdi, amma Əsgər bir dəfə də demədi ki, seyid icazə ver mən özüm danışım.

Qüvvələrin sayı çox olduğu üçün, texnika və təchizat qüvvələrindən bir taqım təşkil edib adını Kövsər qoyduq. Bu taqımı təşkil etdik ki, əməliyyat vaxtı ehtiyac olduqda, onu digərlərinin arasında bölək. Yeni siyahının üzvlərini təqdim etdikdən sonra. dedim: "Allahın lütfüdür ki, təlimat və taktika müəllimləri olan Hüseyn Tahiri, Cəfəri və Qudərzi kimi təcrübəli hərbçilər bizim batalyona gəlmişlər. Qoşuna olan hörmətimiz üçün həftədə 3 gün taktika təlimimiz olacaqdır. Bizim metod digərlərindən bir qədər fərqlidir. Yalnız şənbə günləri səhər proqramımız olacaq. Bazar günü, çərşənbə axşamı və cümə axşamı hərbi təlim keçiriləcək. Çərşənbə axşamı Təvəssül duası, cümə axşamı Kumeyl duası oxunacaq. Günortalar yata bilərsiz. Günortadan sonra, saat 4-də isə yarış keçirəcəyik, hamı komandasını müəyyənləşdirməlidir. Axşam namazına 45 dəqiqə qalmışa kimi oynayacağıq".

Bazar ertəsi səhərlər özüm əxlaq dərsləri təşkil etmiş və onu "igidlərin hekayəsi" adlandırmışdım. Bu dəfə çadırın üstündən bir lövhə asıb üstünə İbrahim Hadi sözlərini yazdım. Həmin gün, uşaqlara İbrahimin pəhləvanlıq, rəşadət və mərdliyidən danışıb onun əməliyyatlarda nələr etdiyini söylədim. Bunları ona görə danışırdım ki, gənclər belə qəhrəmanlardan ibrət alıb, igidlik dərsi öyrənsinlər. Axırda dedim: "Hacı Əsgər, son sözü sən de. Fərz et ki, əməliyyat gecəsidir, Bəhmənşirdəyik və bir saat sonra hücum başlayacaq..".

-Mən yalnız bir şeyi demək istəyirəm. Mərdlik tank partlatmaqla deyil. Mərdlik budur ki, qorxağın dadına çatıb, qorxudanın əzraili olasız.

Beləliklə, Əsgər döyüşçülərə keçmiş əməliyyatlardakı təcrübələrini öyrədirdi. Meysəm qüvvələrinin təlimat baxımdan güclü olmalarını istəyirdim. Ötən əməliyyatlarda batalyonların verdiyi itkilərdən məlum idi ki, təlimlər zəif keçirilmişdir. Mən həmişə qərar çıxarmazdan qabaq, Əsgərlə məsləhətləşirdim. Son sözü o, deyirdi, planları o, təsdiqləyirdi, mənsə həyata keçirirdim.

Bir gün Hacı Məhəmməd gəlib dedi: "Sizin işlərinizə təəccüb edirəm. Nəyə görə batalyona bu qədər təlimat və taktika mütəxəssisi gətirmisiz?"

-Bunların hamısı təlim keçmək üçün gəlməyib, əməliyyatda iştirak etmək istəyirlər. Üstəlik digər batalyonlar təlimatçı istəsələr, bunları göndərəcəyik ki, onlara da yardım etsinlər. Bizdə digər batalyonlarda olmayan yenilik və ideyalar vardı. Məsələn, həftədə iki dəfə batalyonun kadrları ilə iclas keçirirdik. Problemləri bir-bir araşdırıb həll edir, heç bir məsələnin mürəkkəbləşməyinə imkan vermirdik.

Yaralıların işləri ilə məşğul olmaq, Tehranda döyüşçülərə maddi baxımdan yardım etmək və arxa cəbhənin işlərini yoluna qoymaq Hacı Cavadın öhdəsinə qoyulmuşdu. O, Xorasan meydanı komitəsinin qədim qüvvələrindən sayılırdı. Buna görə də, azad döyüşçü olaraq Meysəm batalyonuna gəlmişdi. Müalicə baxımından mücahidlərə, yaralılar və xüsusilə də kimyəvi şüalanmaya məruz qalanlara vaxtında yardım edirdi. Kiminsə maddi problemi olsaydı, hacı Cavad heç kəsə demədən, sakitcə onu özü həll edərdi.

İşlər dediyimiz qayda ilə başlandı. Gecə namazı qılıb ibadət etmək, bütün döyüşçülərin adəti və cəbhə ənənəsi idi. Bu iş bütün batalyonlara aid olan ümumi tədbir idi. Meysəmin də, gecə namazı qılanları sübhər oyaq idilər.

Digərləri də, ürəkləri nə vaxt istəsəydi, o vaxt namaz qılırdılar. Bütün batalyonlar Aşura ziyarətini gecələr, Əkbər Sərpuşanın taqımı isə axşamüstü oxuyurdu. Onlar belə idilər. Biz də belə şeylərə görə problem yaratmırdıq. Əsas məsələ döyüş hazırlığı və müharibə idi. Qalan işlərə göz yummaq olurdu.

Fədək taqımında Hüseyn Başi adlı bir yeniyetmə vardı. Hər səhər yüksək səslə hamını salamlayıb deyərdi: "Ey Fədək taqımı, əssəlamu əleykum! Ey Bəqi taqımı, əssəlamu əleykum! Ey Seyid Əbülfəzl ağa, əssəlamu əleykum! Ey eşq əhli Hacı Əsgər, əssəlamu əleykum!"

Bizim batalyondan Əliovsət, Məhdəvi, atası hamamçı olan Qasim Həmami və Müctəba Cavadzadə, Sərçeşmə məhəlləsindən idilər. Müctəba əxlaqlı, abır-həyalı, mehriban və sadiq bir insan idi. Həmişə onunla zarafatlaşıb deyərdim: "Siz Höccətiyyə Əncümənindənsiniz?"

Müctəba da gülüb belə cavab verirdi: "Bizə hər iki tərəf söz atır. Məktəbdə bizə deyirdilər ki, siz vəzir-vəkil olacaqsız. Bu tərəfdəkilər də, deyirlər ki, siz ölmək üçün çox əlverişlisiz".

Hər gün axşamüstü futbol oynayırdıq. Əvvəlcə döyüşçülər özlərinə komanda seçirdilər. Əsgərlə mənim ayağım əlil olduğu üçün, hərdən özümüzü ortaya atır və topa bir təpik vururduq ki, dostların sevincinə şərik olaq. Əsgər çox gözəl voleybol oynayırdı. Boyu uca olduğu üçün, həmişə yaxşı zərbələr endirirdi.

Batalyonun zorxana idman növü ilə məşğul olan gənclərinə də, tam şərait yaratdıq. Hacı Himmət "hüseyniyyə"sinin yanında 3.5 metr dərinliyində yer qazdıq. İçərisini lazımi şəkildə düzəltdik. Kürd şalvarı da zorxananın idman forması oldu. Bəzən üstünə dəsmal da

bağlayırdıq. Hər gün idman etmək istəyənlər, buraya gəlib yetərincə məşq edirdilər. Mahmud Julidə, Əli Zakani, Hacı Hüseyn Sazur və digərləri bu zalın daimi üzvləri idilər. Beləliklə, o ucsuz-bucaqsız yerdə zorxana idmanını da təşkil etdik. Mən yalnız mil tuturdum, Hüseyn Sazur da fırlanmaqda məharətli idi.

Bir neçə gün olardı ki, Dokuhədə idik. Bir gün Hacı Məhəmməd yenə məni çağırıb dedi: "Qüvvələrini topla və beş gün müddətində Qalavizana gedib Mehranın müdafiəsində iştirak edin. Daha sonra, yerinizi Şəhadət batalyonu ilə dəyişin və növbəti əmri gözləyin. Sizə 200 nəfər də, yeni qüvvə verəcəyik".

Həmin gün minik maşınları tapıb Hüseyn Tahiri və Əsgərin köməyi ilə döyüşçüləri Qalavizan səngərlərinə apardıq. Mən Qalavizanın yolunu-izini, yüksəkliklərini yaxşı tanıyırdım və bu barədə kimsənin izah etməsinə ehtiyac duymurdum. Odur ki, Şəhadət batalyonunun qüvvələri tez bir zamanda oranı tərk etdilər.

Məhərrəmlik yaxınlaşırdı və mən bu fikirdə idim ki, İmam Hüseyn (ə) üçün ən gözəl əzadarlıq mərasimi təşkil edim.

Mehrandakı ikinci gündə, iki ədəd durbinimiz itdi. Nə qədər axtardıqsa, ondan-bundan soruşduqsa, heç nə əldə etmədik. Yadıma yeni gələnlərdən biri düşdü. Bu şəxs əvvəldən də, gözümə xoş dəymirdi. Qəribə adam idi! Bunun kimilərin necə insan olduqları o qədər aydındır ki, bunlara biz tərəfdə Neon işığı deyərlər!

Bu adam Qar meydanı məhəlləsindən idi, özü də peşəkar oğruluğu ilə seçilirdi. Buna görə də, dostları ona "qara Hüseyn" deyirdilər.

Bir gün təsadüfən Hacı Himmət "hüseyniyyə"sinə getdim. Gördüm ki, Hüseyn tək namaz qılır. Bu, onu

tanıyıb necə bir şəxs olduğunu müəyyənləşdirmək üçün uyğun fürsət idi.

-Əhsən qardaş, Allah qəbul etsin,-deyə sözə başladım.

-Ya Əli! Bizim özümüzü də qarət ediblər!

-Səni də qarət ediblər?! Necə?”

-Var-yoxumu talayıb aparıblar!

-Yəni sənin durbinini də oğurlayıblar?

-Yox, ürəyimi oğurlayıblar.

Təəccübləndim. Hüseyn açıq kartla oynamaq istəyirdi. O, bu sözlərlə mənə başa saldı ki, durbinlə əlaqədar ona ilişməməliyəm.

-Mən sizi tanıyıram, siz məni tanımırsız?

-Bəlkə də, haradasa səni görmüşəm.

-Siz seyid Baqirin qardaşı deyilsiz?!

-Niyə ki, qardaşımdır. Mənim qardaşım bir ayrı adamdır!

-Seyid can, siz ön cəbhə adamısız. Mənim qardaşım da şəhid olub. Kimdən soruşdum ki, hara getsəm, daha yaxşıdır? Meysəmə get, başqa yerdə səni başa düşməzlər dedilər.

-Ya Əli!

Bu mənimlə Hüseyn İsmayılın dostluğunun başlanğıcı idi. İki sadə cümləylə mənə göstərdi ki, qəlbi dərya kimidir. Görünüşündən döyüş adamı olduğu məlum idi. Gözlərində qorxu yox idi. Nə pis xasiyyəti də olsa, döyüş və təhlükə zamanı qətiyyən geri çəkilməzdi.

Bir neçə gün sonra, Hüseyn yenə yanıma gəlib dedi:

-Seyid, bir sözüm var.

-Eşidirəm, buyur.

-Mənim döyüşçülərlə hamama getməkdən xoşum gəlmir, ona görə də məni komandirlərlə hamama göndərin.

-Niyə?

-Niyəsini soruşma, özün sonra anlayacaqsan.

Cümə axşamı batalyonun böyükləri boxçalarını götürüb sahə hamamına getməyə hazırlaşırdılar. Mən də, Hüseyni çağırıb dedim: Gəl batalyonun məsulları ilə hamama get. Maraq yaranmışdı ki, onun ardınca gedim və komandirlərlə hamama getmək istəməsinin sirrini anlayım.

Bir nəfəri batalyona nəzarətçi təyin edib dostların ardınca hamama getdim. Hüseynin idmançı bədəni vardı. Paltarlarını geyinərkən ona baxdım. Çox təəccüblü idi. Bədəninin bir neçə yerində döydürmə yazılar vardı; "Ana eşqdir", "Eşq əsiri", "Dost giriftarı".

Düzdür, şəhərin cənubunda da belə adət var idi, lotular bədənlərinə döymə ilə nəsə yazdırıb nişanə qoyardılar, amma bu qədər də yox. Heç nə deməyib üzümü çevirdim.

Məhərrəmlik günlərində Hacı Məhəmməd döyüş bölgəmizi görmək və İmam Hüseyn (ə) əzadarlığında iştirak etməkdən ötrü bizim qaldığımız yerə gəldi. O, həmişə əzadarlıq heyətinə gedən, bu kimi yerlərdə xalisanə iştirak edən bir dindar idi. Bizim adət-ənənələri yaxşı bilirdi, batalyonumuzda İmam Hüseynə (ə) möhtəşəm əzadarlıq keçirəcəyimizdən xəbər tutmuşdu.

Biz Mehrana çatmamış Səngşikən bölgəsində arxa cəbhəni təşkil etmişdik. Orada su mühərriki vardı. Döyüşçülərin dincəlməsi üçün bir çadır da, biz qurduq. Havanın istiliyi dözülməz həddə çatdıqda, döyüşçüləri çimərliyə aparırdıq.

Həmişə bir taqımı cəbhə arxasında saxlayırdıq ki, əzadarlıqlarını etsinlər. İki taqımı isə, müdafiə xəttinə göndərirdik ki, ön cəbhə boş qalmasın. Əzadarlıqda hamının iştirak etməsi üçün, növbə ilə taqımların yerini dəyişirdik.

Həmin günlərdə eşitmişdik ki, Şəhadət batalyonu 17 şəhid verib. Müdafiə xəttində onların niyə bu qədər şəhid verdikləri məlum deyildi. Bir qədər sonra, anladıq ki, batalyonun komandiri kimi gözətçilik səngərinə göndərsə, iraqlılar həmin şəxsi snayperlə vururlarmış. Onların çox zirək snayperçiləri vardı, amma biz onlardan daha zirək və ağıllı idik!

İraq mövqelərini oradan nişan ala biləcək uyğun bir yer tapdıq. Gözətçilik səngəri düzəldib silahın üstünə dəmir papaq qoyaraq səngərin üstündə nümayiş etdirdik. Gündə bu papağa 50 güllə dəyirdi. Gözətçilər isə kisələrin arasında mövqe seçib özlərini qoruya bilirdilər. İraqlılar müdafiə bölgəsindəki yolları da aydın şəkildə görürdülər. Oradan bir Toyota və ya yük maşını keçsəydi, üzərinə yüzlərlə minaatan mərmisi yağdırardılar. Odur ki, oraya azuqəni motosikletlə daşıyırdıq.

Qoruyucu əməliyyatın 5-ci və ya 6-cı günündə gözətçi qüvvələrdən biri şübhəli şəkildə yoxa çıxdı. Ehtimal verdik ki, məlumat almaqdan ötrü onu iraqlılar oğurlayıblar. Çünki onlar bir-iki gecə sonra, qəfildən sağ cinahımızı atəşə tutdular. Biz qüvvələrlə birgə sağ cinaha gedib döyüşə başladıq. Onlarsa sol cinaha atəş yağdırmağı davam etdirdilər. Məqsədləri oraya yerləşmək idi. Deyəsən bizim mövqelərimizi yaxşıca öyrənmişdilər. Səhərədək döyüşdük. Bu atışmalarda itkimiz 3 yaralı, 1 şəhid və itən gözətçimiz oldu.

Bizimlə iraqlılar arasında bir təpə vardı. Gündüz vaxtı durbinlə baxanda gördük ki, təpənin üstünə bir iraqlı və iki-üç iranlı cənazəsi düşmüşdür. Özlüyümdə düşündüm ki, yəqin iraqlının cüssəsi ağır imiş, elə ona görə dostları onu apara bilməyiblər.

Növbəti gecə Hüseyn Tahiri və mina təmizləyən Hüseyn Babayi ilə birgə təpənin üstünə çıxdıq. Hüseyn Babayi minaları zərərsizləşdirib bir yol açdı və biz irəliləməyə başladıq. Cənazələri aydın şəkildə görürdük, amma ətrafdakı minalardan məlum idi ki, iraqlılar orada tələ qurublar. Əmin idik ki, onlara yaxınlaşsaq, mütləq ilişəcəyik. Ona görə Hüseyn narahat halda dedi:

-O, mənim dostumdur. Məcid Heydərnijad. Gedib onu gətirməliyəm.

-Hüseyn can, boş ver. Bu bir tələdir. Yaxınlaşsan, partlayış olacaq. İraqlılar da yuxarıdan görüb təpəni alt-üst edəcək, həyatımızı cəhənnəmə çevirəcəklər.

Çətinliklə onu bu işdən çəkindirməyə razı sala bildik. Məcburiyyət qarşısında dostlarımızın pak cəsədlərini orada buraxıb gəldik ki, sonra kəşfiyyat və dəqiq mühasibə ilə onları geri gətirək.

Qoruyucu xətdə təxminən iki həftə qaldıq. Sonradan əlaqə saxlayıb dedilər ki, "Malik" batalyonu gəlir, siz onlara lazımi məlumatları deyib, cəbhə xəttini təhvil verin". "Malik" batalyonu ilə yerdəyişmə hətta bir gün də çəkmədi. Qüvvələri Dokuhəyə aparıb təlimat və praktika işlərini davam etdirdik.

Dokuhədə olarkən bir gün hacı Məhəmməd gəlib dedi:

-Seyid sizin batalyonunuzda hər cürə adam var.

-Nə olub ki?

-Sizin qərargaha gələrkən Kərxə körpüsündə bir gənc gördüm. Boyu təxminən iki metr olardı. Kürəyinə də bir kisə atmışdı. Meysəm batalyonunun qüvvələrinə oxşadığı üçün onu maşınıma mindirdim. Yolda ondan adını soruşdum və Məhəmməd Zəif olduğunu öyrəndim. Soyadının nə boyuna, nə də idmançı cüssəsinə yaraşmadığını söylədim. Bir daha kürəyinə diqqət

yetirdikdə, kisəni taxmağının səbəbini soruşdum. O, da, səbəbinin Kərxə çayına balıq tutmaq üçün getdiyini söylədi.

Mat-məəttəl qaldım. Bu gənc oğlan balıq tutmaq üçün Kərxə çayına kimi 30 km yolu piyada gedəcəkdi. Əlbəttə, bu özü də bir növ bacarıqdır!

Həmin günlərdə Əsgərlə birgə bir iclasdan ötrü Tehrana yollandıq. Əsgər qardaş dedi: "Cəmi iki nəfərik və maşında yer var, Kamalı da özümüzlə aparaq".

Bu zaman nəqliyyat müdiri dilləndi:

-Yanacaq talonla olduğu üçün, özünüzlə bir neçə kanistr benzin aparın. Özümüzlə kifayət qədər benzin götürdük. Bir-iki gün sonra, geri qayıtmaq istədikdə, benzin çatışmazlığı ilə üzləşdik. Xanım Rəcainin yanına gedib dedim: Kamal ya qatarla getməlidir, ya da, bir neçə gün gözləməlidir ki, benzin əldə edək.

-Yox, yox! Bu gün hər bir parlament üzvünə 200 litr benzin kvotası verilib, parlamentin inzibati və maliyyə şöbəsinə gedin, bizim kvotanı alın, mən ümumi nəqliyyatla get-gəl edərəm".

Beləliklə, biz rahatlıqla benzin əldə edə bildik. Dokuhədə qoşunun baş qərargah komandiri Əlirza Nuri yanıma gəlib dedi: "Sabah məlumatlandırma iclası olacaq. "Kərbəla-1" və "Vəlfəcr-8" əməliyyatları barədə ümumi izahat veriləcək. Siz öz kadrlarınızla birgə orada olmalısız. Sabah tezdən bir mikroavtobus sizi aparmağa gələcək".

Səhər tezdən bir mikroavtobus Dokuhəyə gəldi və batalyon məsullarından 20 nəfəri ona mindi; taqımların başçıları, təchizat müdiri, səhiyyə nümayəndəsi, silah-sursat və təminat bölməsinin məsulları və s. Arxamızca toyota gəlsəydi, düşmən duyuq düşə bilərdi. Buna görə də, mikroavtobusla yola düşdük.

Əndimeşki adladıq. Dezfuldan sonra qardaşlar acdıqlarını söylədilər, mən də sürücüdən münasib bir yerdə saxlamasını xahiş etdim.

Maşın dayandı və hamımız aşağı endik. Bir neçə yeməkxana ilə çayxana açıq idi, onlardan birinə girdik. Yeməkxananın sahibinə 25 nəfər üçün qayğanaq sifariş verdim.

Çöldə düzülmüş taxtlarda və stullarda əyləşdik. Doyunca yemək yeyib, buz kimi qazlı içkilərdən meyl edib sonra da bir az deyib güldük. Səhər saat 9-da iclas yerinə çatdıq.

Toplantı böyük bir zalda keçirilirdi. Ərzaq və xalq yardımlarını orada saxlayırdılar. Biz zala girdikdə bir çox batalyonların komandirləri artıq orada idilər. Bəziləri bizi tanıyırdı, Meysəm batalyonunun lotulardan təşkil olduğunu bilirdilər. Çoxları isə, bizi ilk dəfə idi ki, görürdü. Komandir başda əyləşmişdi və kadrlar da onu əhatəyə almışdılar. Amma birdən hamı bizə tərəf çevrildi....

Hüseyn Tahiridən başqa heç birimiz düz-əməlli şalvar geyinməmişdik. Hamımızın şalvarları enli idi. Bığ-saqqalımız da, uzanmışdı. Hər birimizin köynəyinin arxasına bir şeir yazılmışdı. (Məsələn, “Biz aşiq, sərxoş və aləm yandıranıq, bizimlə dostluq etmə yoxsa bədnam olarsan”). Bundan başqa, hər birimiz sapla köynəyimizin sol tərəfindəki cibin yuxarısına, düz ürəyin üstünə “Ya Fatimətəz-Zəhra” sözünü tikmişdik.

Mən yaşıl hərbi şalvar geyinmişdim. Onu mənə bir nəfər hədiyyə etmişdi. Geyindiyim köynəyimin arxasına belə yazılmışdı: “Hamımız sənin lütfünə möhtacıq, ya Hüseyn, cismən sənin yolunda uduzsaq da, ruhən qələbə

çalmışıq”. Ayağımda ağ givə, bir əlimdə təsbeh, digər əlimdə kül rəngli ipək dəsmal vardı.

Əlirza Nuri qapının ağzında dayanmışdı. Məni görən kimi əsəbiləşib dedi:

-Yekə kişisən...!

-Utan! Bu hərəkətlər sənə yaraşmaz. Məni pərt etmək istəyirsənsə, başqa bir şey fikirləş! Döyüşçülərimin qarşısında deyil, başqa bir yerdə istədiyin hərəkəti et! Unutma ki, mən komandirəm.

-Nə olub ki?!

-Yaxşı maşını dostlarına, xarab maşını isə, bizə verib ayrıseçkilik salırsan.

-Necə yəni?

-Sənin canın üçün maşın Əndimeşkin ortasında söndü. Hacının canına and olsun ki, yarım saat qızmar günün altında ayaq üstə gözlədik.

-Vallah mən bilmirdim...

-Yox, qardaş, bu düz iş deyil...

Gəlib məni qucaqladı və üzümdən öpüb dedi:

-Qardaşlar, hamınızdan üzr istəyirəm. Bəs necə gəlib çıxdınız?

-Boş ver, qardaşımsan, olan oldu.

Biz ora çatanda Fəxrəddin Hicazi söhbət edirdi. O, müharibənin qızğın çağında ölkədə gedən proseslərə etiraz edib, futbol məsələsini  misal çəkdi. Deyirdi ki, hara gedirsən filan komanda belə etdi, nə bilim filan komanda belə etmədi. Filan oyunçu belə qol vurdu, filan qapıçı topu yaxşı tutmadı. İstiqlal komandası yaxşı oyun nümayiş etdirdi, perspolis tam hazırlıqlı deyildi... Vallah bilmirsən özlərini ələ salıblar, yoxsa camaatı.

Bu zaman Əsgər əlini arxadan çiynimə qoyub dedi: “Seyid indi cavabını ver, vaxtıdır”.

-Cənab Hicazi, İstiqlal komandasının azarkeşisənsə, kişi kimi de ki, mən istiqlalçıyam... Daha niyə perspolisi pisləyirsən? Çox şükür ki, hamımız perspolis tərəfdarıyıq. Məgər istiqlal sənə pul veribmi ki, havadarlıq edəsən, düzünü de. Bura cəbhədir, düz danış..".

Hamı gülüb əl çaldı, ardınca imamın nümayəndəsi ağa Meysəmi də çıxış etdi. Sonra, günorta namazını ona iqtida edib qıldıq.

Nahar vaxtı təminat bölməsinin işçiləri gəlib çox dadlı bir yemək bişirdilər. Eynilə qızardılmış toyuq zolağı kimi. Yanına çörək və şor xiyar da qoymuşdular.

Bir nəfər yeməyi paylamağa başladı. Axır ki növbə bizə - Şuş meydanının uşaqlarına çatdı. Onlar öz paylarını yesələr də, doymayıb yenə istədilər. Hər biri daha 3 tikə götürdülər və nəticədə 11 nəfərə yemək çatmadı.

Bu məsələ ağızdan-ağıza gəzib, söz-söhbət yaratdı. Hamı bizi barmaqla göstərib deyirdi: "Bunların hər biri 3 nəfərin yeməyini götürdülər". Bu zaman Əlirza Nuri dilləndi:

-Seyid can, zəhmət olmasa, bir dəqiqə buraya gəl.

-Buyur, hacı -deyə cavab verdim.

-Ay kişi! Biz deyirdik ki, siz pəhləvanlar batalyonusuz. 11 nəfərə yemək çatmadı, nə qədər adam ac qaldı!

-Kim?

-Bax, məgər onlar sizin uşaqlar deyillər?!

-Yox, bunlar bizimkilər deyil, Şəhadət batalyonunun qüvvələridir.

-Siz Allah bağışlayın, üzr istəyirəm, - deyə utandığından başını aşağı saldı.

-Bax Əli qardaş, bu neçənci dəfədir ki, üzr istəyirsən. Bir dəfə səhər məni pərt etdin, bir dəfə də indi...

Zavallı Əli utandığından yenə məni qucaqlayıb dedi: "Qurban olum, bağışla, üzr istəyirəm". Bunu deyib Şəhadət batalyonunun komandiri Cavad Sərrafın yanına getdi. Cavadı çağırıb nə dedisə, o, boynundan ataraq əsəbi halda cavab verdi: "Seyid yalan danışır. Bunlar onun adamlarıdır".

Uzaqdan Cavadın nə halda olduğunu görürdüm. Bıçaq vursaydın, qanı çıxmazdı. Özü də tez-tez nəsə danışır və məni göstərirdi. Birdən məni yanına çağırdı. Onların yanına çatanda dedi:

-Nuri can, burax onu... İşdir olub bitib. Gəncdirlər. Sən də Hacı Məhəmmədə heç nə demə. Bunlara pis olar.

-Yaxşı demərəm,-deyə razılığını bildirdi.

Cavad məni yağlı söyüşlərə qərq edib dedi: "Hər yerdə lotuluq etməlisiz? Adama 3 nəfərin payını yemisiz. Özünüzü də pəhləvan hesab edirsiz?!"

Başımı aşağı saldım, Cavadı ələ salıb mübahisə etmək yeri deyildi. Bu məsələ axşamadək bəzilərinin qanını qaraldıb, digərlərini güldürdü. Yemək çatmayanlara konserv verdilər. Axşam namazını qıldıq. Şam yeməyinə hamıya balıq konservi payladılar.

Namazdan sonra qoşunun qərargahında yenə iclas təşkil olundu. Bu "Kərbəla-4" əməliyyatının ilk məlumatlandırma iclası idi. Bu iclas əlamətdar bir gündə - səfər ayının 28-nə təsadüf edirdi. Qətiyyən hövsələm yox idi. İclasın binasına çatar-çatmaz çölə çıxıb həyətdə bir az gəzişdim. Həyətin ətrafı camaatın göndərdiyi azuqələrin saxlandığı anbarları idi. Yolda qoşunun bülbül səsli rövzəxanı Mustafa Fərəhzadini gördüm. Məni görən kimi dedi:

-Mən Hacı Mühəqqiqlə gəlmişəm.

-Mustafa, şəhadət gecəsidir, ürəyimə qəm çöküb... Nə edim?

Gəzərək qoşunun çörəkxanasının önündən keçdik. Deyəsən, çörəkçilər hələ də oyaq idilər.

Ani olaraq ağlıma bir fikir gəldi. Yaxınlaşıb çörəkçilərin pəncərələrinin şüşəsinə vurub dedim:

-Neçə nəfərsiz?

-30-40 nəfər.

-Rövzəxan Hacı Mustafa buradadır. Bu gecə şəhadət gecəsidir, istəyirsiz sizin üçün rövzə oxusun?

-Bəli, əlbəttə, çox gözəl olar.

Zalın içinə getdik. Çörəkçilər yığışdılar. Yataqları kənara çəkib işıqları söndürdük. Mustafa mərsiyə oxuyur, biz isə sinə vururduq. Bir azdan məclis qızışdı və çox gözəl tədbir alındı.

Rövzədən sonra, çölə çıxdım. Tər içində idim, amma yüngülləşmişdim. İmam Hüseyn (ə) üçün sinə vurmaq canımdakı bütün qəm-qüssələri aradan aparırdı.

Dedilər ki, Hacı Məhəmməd səni axtarır. Məni gördükdə dedi: “Harada idin? İclas qurtardı”.

-Çörəkçilərin otağında əzadarlıq edirdik.

-Seyid, sabah səhər çadırınızın önünə bir maşın gələcək. Tehrana getməlisiz. Həm İmam Xomeyni ilə görüş və həm də Haşimi Rəfsəncani ilə iclasımız var.

-Biz gəlmirik.

-Niyə?

-Sabah səfər ayının 28-dir, əzadarlıq etmək istəyirik.

-Məgər öz əlindədir? Sən hələ heç nə olmamış...

-Sən ki, bilirsən. Məni də tanıyırsan. Gəlməyəcəyimi dedimsə, deməli, gəlməyəcəyəm. Sabah Həzrət Peyğəmbərin (s) və İmam Həsənin (ə) şəhadət günüdür.

-Yüz dəfə demişəm ki, mənim sözüm üstə söz danışma. Qəti qərara gəlmişik, sabah hamı Tehranda olmalıdır.

Günortadan sonra, saat 2-də, qoşunun baş qərargahı itaətsizliyimizin əvəzini çıxdı və bizi Tehrana aparmaq üçün bir minik maşını göndərdi.

Hamını toplamaq saat yarım çəkdi. Meysəm batalyonunun kadrları 20-30 nəfər idi, Şəhadət batalyonundan isə 10-12 nəfər vardı. Tehrana sabahısı günün səhər çağı çatdıq. Birbaşa Şah Əbdüləzim ziyarətgahına getdik. Sübh namazını orada qıldıqdan sonra, Davudun Xorasan prospektindəki xaşxanasına getdik. Allah Davuda rəhmət etsin. Həm idmançı, həm də, pəhləvan idi. Xaşxanası da boynuyoğun zorxanaçıların yığıncaq məkanı idi. Həmin gün bizi gördükdə, şoka düşmüşdü, çünki onun yeməkxanasına 50 nəfər birgə daxil olmuşdu...

-Seyid, mən sizin öhdənizdən gələ bilmərəm.

Beş nəfərlik qruplara bölündük, növbə ilə içəri girib oturduq. Hər nəfərə bir qab xaş yeyib, ardınca kəllə qəndlə çay içib çölə çıxırdıq. Daha sonra, toplaşıb Vəliəsr bazasının önünə gəldik. Digər batalyonların kadrları Tehrana gecə çatıb səhərə qədər istirahət etmişdilər.

Orada olanda birdən ağlıma Mahmud Julidə gəldi. Düşündüm ki, Meysəm batalyonuna gəlsəydi, necə də yaxşı olardı. O, “Kərbəla-1” əməliyyatında çox ağır yaralanmışdı, xəstəxanada yatırdı. Amma sonra eşitdim ki, xəstəxanadan buraxılıb, evdə istirahət edir. Dostlardan birini onun yanına göndərib Vəliəsr bazasının önünə gətizdirdim. Bəzilərinin Mahmuddan xoşu gəlməsə də, mənim onunla çox gözəl münasibətim vardı. Doğrudan da, Meysəm batalyonunda onun yeri boş görünürdü...

Gələn kimi salamlaşıb hal-əhval tutduq və ona Meysəm batalyonunun yaranma macərasını danışdım. Nəhayət, uzun-uzadı söhbətdən sonra, onu razı salıb əyninə hərbi paltar geyindirdik. Cüssəsi balaca idi, yaralandıqdan sonra da bir az arıqlamışdı, buna görə də geyindiyi paltarın içində itib-batmışdı. Dostlarla əlbir olub, onu Əmir Bəradəranın yerinə, Neynəva taqımının başçısı təyin etdik.

Parlament binasının önünə gəldik. Ağa Kövsəri bizi görən kimi dedi: “Seyid, şəhadət günləridir. Bir qədər əzadarlıq edin”.

İki dəstəyə bölünüb əzadarlığa başladıq. Dostlardan biri mərsiyə oxudu. Zala girdikdə digər batalyonlar bizdən öncə çatmış və qabaq sıralarda oturmuşdular. Sanki teatr zalı idi. Bilmirəm utanırdılar və ya bizimlə sinə vurmağa pis baxırdılar. Mən ortada gedərkən sinə vura-vura dedim:

-Həzrətin hörmətinə hamı ayağa qalxsın!

Yazıqlar ayağa qalxıb bir addım geriyə çəkildilər. Ardınca da biz uca səslə - “Əbəlfəzl! Əbəlfəzl! Əbəlfəzl!” - deyə-deyə irəliləyərək gedib qabaq sırada oturduq.

Digər batalyonlar başa düşdülər ki, səhv ediblər. Onlar həm sinə vurmayıb əzadarlıqdan qaldılar, həm də öz yerlərini əldən verdilər. Bir az sonra, Məhəmməd Kövsəri, Haşimi Rəfsəncani və cangüdəni Əhməd Paryab gəldi. Hamımız salavatla yerimizdən qalxdıq. Əlirza Nuri dedi: “Seyid, mümkünsə, Mahmud mərsiyəsini əvvəldə oxusun. Cənab Haşimi danışmaq istədikdə, daha səs-küy salmasın”.

-Əvvəla, Mahmud 4 gündür ki, xəstəxanadan buraxılıb, halı yoxdur. Bundan əlavə, Haşimi Rəfsəncani nə danışacaq ki?! Bir də, ilişsən, Mahmud oxumuyacaq ha!

-Yaxşı, siz nə desəniz, elə də olsun.

Bir stul qoydular, Rəfsəncani oturdu. Önünə də qısa taxta masa qoydular. Hacı Məhəmməd, Haşiminin yanına gedib dedi: "Bunlar Tehran qoşununun qüvvələridir. Siz İmam Xomeyninin nümayəndəsi olmanızla yanaşı, Tehranın da cümə imamısız. Heç olmasa bir dəfə şəxsən qoşuna gəlib dostlarla yaxından görüşməlisiz".

Haşimi Rəfsəncani sözünə başlaması üçün hamı salavat çəkdi. Birdən özümü saxlaya bilməyib dedim: "Qardaşlar, bu gün şəhadət günüdür və ağa Julidə də xəstəxanadan təzə çıxıb. Kim Mahmudun mərsiyə oxumasını istəyirsə, salavat çəksin".

Dostlar uca salavat çəkdilər və Hacı Mahmud mikrofon arxasına keçdi. O, Davud Abidinin həmişə zümzümə etdiyi şeiri oxudu:

***Nə qədər yanından qovsalar məni,***
***Gələrəm yenə də, dəf etmə məni.***
***Olmuşam, ey dost, aşiqlər iti,***
***Bu ümidlə ki, sənə çatdırsın məni.***
***Meyxanənin qapısına vuraram başımı,***
***Axır eşq badəndən dadızdır məni***

Mahmudun şeiri məclisi daha da gözəlləşdirdi, ardınca da rövzə oxuyub dua etdi. Birdən Əsgər köynəyini soyunub lotuların adəti üzrə dedi: "Mərsiyə oxu. Seyid Əbülfəzl, icazənlə". Mən də "ya Əli",-deyib icazə verdim.

Hamımız yerimizdən qalxıb dayandıq. Köynəklərimizi soyunub bir-birimizlə üzbəüz dayandıq, çox səliqəli sinə vurub, mərsiyə oxuduq. Həmin əsnada belə şeyləri bəyənməyən bəzi dostlar dedilər ki, biz niyə Haşimi Rəfsəncaninin qarşısında soyunmuşuq və onun danışmasına imkan vermirik. Mahmud yenə zilə qalxdı və

sözünü İmam Hüseyndən (ə) oxuduğu dua ilə bitirdi. Ağa Haşimi onun bu mərsiyəsini bəyənib təriflədi.

Mən də qürrələnib dedim: "Gördünmü, ağa Kövsəri! Haşimi Rəfsəncani nə deməli idi? Ən önəmli məsələ müharibədir. Burda oturanlar 4 aydır ki, arvad-uşağını görmədən vuruşurlar..".

Ağa Rəfsəncani yenə müharibənin gündəmdə olan məsələləri barədə danışdı və hamıya təşəkkür etdi. İclasdan sonra Hacı Məhəmməd dedi:

-Hamı maşınlara minib bazaya qayıtsın. Qüvvələr gözləyirlər.

Mən dərhal Əkbər Sərpuşan və digər taqımların başçılarına dedim: "Hamını məzuniyyətə göndərin. Qərarımız sabah səhər saat 8-də Vəliəsr bazasının önündə olsun".

Sonra da, maşınların yanına gedib özümü eşitməzliyə vurdum. Hacı Məhəmməd niyə gəlmədiyimizi soruşdu.

–Haraya gəlmədik?-deyə cavab verdim.

-Hamıya dedim ki, Vəliəsr bazasına gedib cəbhəyə qayıtsınlar.

-A, nə vaxt dediniz? Mən eşitməmişəm. Hamını bir gecəlik məzuniyyətə göndərdim.

-Ay bala, axı sən niyə beləsən?! Onda heç kimə bir söz demə. Ayrıları xəbər tutmasınlar".

-Hacı, komandirə itaət etməyin nə olduğunu gözəl anlayıram. Amma bunlar Tehrana gəliblər, evlərinə gedib arvad-uşaqlarını görmək istəyirlər. Birbaşa cəbhəyə qayıtmaq nə deməkdir?!"

Hacı Məhəmmədlə sağollaşıb evə yollandım. Ertəsi gün səhər saat 8-də Vəliəsr bazasında toplandıq. Hər şeydən öncə xərclədiklərimizin siyahısını qoşunun təminat

bölməsinə verib dedik ki, 100 min tümən xərcləmişik, pulunu verin.

Dedilər: “Biz hər batalyona 50 min veririk. Siz niyə 100 min xərcləmisiz?”

Cavab verdim: “Şəhadət batalyonu da bizimlə idi”.

Pulu alıb getdim. Cavad Sərraf pulu almağa getdikdə təminat işçisi ona demişdi ki, pulunuzu Meysəm batalyonuna verdik. Bununla da qiyamət qopdu! İclasda təminat işçiləri həddən artıq çox narahat idilər. Hacı Məhəmmədi görən kimi dedilər:

-Bu Kaziminin hər işi qəribədir! Axı ay kişi, kim döyüşçüyə xaş alar, cücə kababı alar?!

-İki-üç nəfər dedi ki, məgər döyüşçünü sevindirmək pis işdir?!

Dokuhəyə qayıtdıq. Bir gün Əsgərlə həyətdə gəzərkən dedi:

-Seyid, gəl döyüşçülərə bir yaxşılıq edək.

-Məsələn nə edək?

-Seyid Əli Nəcəfini gətirək, axşamlar minbərə çıxsın.

-Sabah Tehrana gedib onu gətirərəm.

Səhər tezdən yola düşdüm, artıq qürub vaxtı seyid Əlinin hüzurunda idim. Seyid Əli o qədər təvazökar adam idi ki, onu görmək üçün öncədən vaxt almağa ehtiyac yox idi. Evinin qapısı həmişə döyüşçülərin üzünə açıq idi. Onu görər-görməz dedim:

-Meysəm batalyonunu bərpa etmişəm, indi sizin gəlmək vaxtınızdır.

-Ya Əli, sabah sübh namazından sonra yola düşək.

Həmin gün nazirliyə gedib Cavad Hökmünün vasitəsilə Seyid Əliyə ezamiyyət vərəqəsi aldım.

Tehranda olduğum həmin gün ön cəbhə qəhrəmanı və məhəllədə hamının hörmət etdiyi Seyid Xəzrayi evimizin önünə gəlib dedi:

-Seyid, ön cəbhəyə gəlmək istəyirəm.

-Sabah Malik Əştər bazasına get və özünə ezamiyyət vərəqəsi al.

Ertəsi gün Seyid Əli ağa ilə birgə Toyotaya minib Dokuhəyə doğru yola düşdük. O vaxtlarda elə bir ruhani tapmazdın ki, öz müridlərini, dəftərxanasını və ya minbərini tərk edib cəbhəyə gəlsin, döyüşçülərlə birgə daş, palçıq və çadırda yaşasın. Artıq ikinci dəfə idi ki seyid döyüşçülərin yanına gəlirdi.

Dokuhəyə çatdıq. Hamı seyidi əhatəyə aldı. Yeni gələnlər onu yaxından tanımaq, qədim döyüşçülər isə, yenidən bəhrələnmək istəyirdilər. Axşamlar seyidi minbərə çıxarırdıq. Ona dedim:

-Seyid, başqa batalyonlardan dost-tanış gəlsə...

-Yox, bizim icazəmiz seyidin əlindədir.

Həmin axşam seyid Əli möhtəşəm bir çıxış etdi! Batalyonda ayrı bir ab-hava yarandı. Yeni sözlər, eşq və irfan hamının düşüncəsini dəyişirdi. Yadımdadır, bir dəfə buyurdu: "Tövhidiniz güclü olmalıdır. Siyasət və müdiriyyət ikinci dərəcəli işlərdir. İkinci dərəcəli məsələlər kök və əsas etiqadların üzərində yüklənməlidir. Bu tavan hansı dirəyin üstündə dayanar? Dirək nədir? Buyurdu: Dirək, tövhiddir, ixlasdır və insanlara yardım etməkdir. Bunları yadınızda saxlayın, tövhidçi olun. Allah hamımızı hidayət etsin..".

Həmin axşam, gecə saat 12-yə kimi seyidi istirahət etməyə qoymadıq. Eşq məclisi bitdi. Heç kimin heç kimlə işi yox idi. Hər yerdə yalnız ilahi eşqdən söhbət gedirdi...

Bəzi gecələrdə tədbir qurtarandan sonra, seyid Əli mənə baxıb deyirdi: "Seyid Əbülfəzl, meyxanəyə getməyəcəyik?"

Nə demək istədiyini başa düşürdüm. Dərhal onu Toyotaya mindirib Dezfuldakı imamzadəyə aparırdıq. Seyid imamzadənin bir küncünə çəkilib öz aləminə qapılar, biz də ziyarət edirdik. İmamzadənin önündə bir çayxana vardı. Çayçının seyiddən xoşu gəlmişdi. O, bizi görən kimi, cəld gedib balış gətirir, seyidin yerini rahlayıb, çay dəsgahı hazırlayırdı.

Gecə yarısınadək orada qalardıq. Qayıdan zaman seyid Əli deyirdi: "İndi yatsaq, sübh namazına oyanmaq çətin olar!"

İmamzadədən qayıtdıq. Seyid dəstəmaz almağa getdi. Gördük ki, ayaqyolu sırasına düz 300 nəfər növbəyə dayanıb. Bunu görən Seyid təəccüblə dedi: "Nə xəbər var? Gecənin bu vaxtı bunlar kimdir? Biz haradayıq?"

Bəziləri üzlərini papaqla örtmüşdülər ki, tanınmasınlar. Seyidi görən kimi kənara çəkildilər. Seyid də onları görən kimi sözə başladı: "Yox atam, mən sıramı gözləyəcəyəm".

Yarım saat keçdi. Seyid ağır bədənli idi, ayaqları yorulub ağrıdı. Gördüm ki, yerində qala bilmir.

Nəhayət sübh namazını ona iqtida edib qıldıq. Seyid adəti üzrə, hər namazdan sonra Aşura ziyarəti oxuyardı. Yenə də oxumağa başlayan kimi, gözümüzdən sel kimi yaş axmağa başladı. Ziyarətnamədən sonra, gözüm seyidə sataşdı və gördüm ki, başı sağa-sola axır. Ayağa qalxıb yanına getdim. Çiynini yavaşca silkələyib yuxudan oyatdım. Başını qaldırıb dedi: "Ay seyid, bunlar necə adamdırlar? Aşura ziyarəti yarım saat olar, saat yarım yox!" Əlindən tutub qaldırdım. Damda bir yer düzəltdim, səhər saat 11-ə kimi yatdı.

Seyid riya əhli deyildi, sözünü də tam çılpaqlığı ilə söyləyərdi. Ruhanilik vəzifəsi ilə heç vaxt pul və qazanc əldə etməzdi.

Bəzən gedib döyüşçülərin yanında oturar, onlarla səmimi söhbət edərdi. Sözləri çox təsirli olardı. Onlara əl ilə yemək yeməyi tövsiyə etmişdi. O, deyərdi: "İnsanın barmağının ucunda elə bir maddə var ki, yeməyin həzminə yardım edir. Üstəlik yeməkdə daş və ya sümük olduqda, əl ilə yedikdə hiss etmək olur. Amma udsan, boğazında ilişəcək və ya daxili bir fəsad yaradacaq".

Bu öyüd-nəsihətlərlə gənclərin ürəyini ələ almışdı, özü də yaş fərqinə baxmayaraq bəziləri ilə elə səmimi idi ki, insanın paxıllığı tuturdu.

Bir gün Kərxə düşərgəsinə köçmək xəbəri yayıldı. Taktika öyrənmək, gecə təlimləri və çadırda yaşamaq haqqında söhbətlər başladı.

Biz də qoşunun bütün batalyonları kimi öz mövqeyimizi bildirən lövhə və ya nişanə təyin etməli idik ki, digərləri ərazimizin hara qədər olduğunu bilsinlər. Meysəm qüvvələrinin pəhləvansevərliyinə görə, cəbhə pəhləvanlarının ağası İbrahim Hadinin adını seçdik. Böyük bir metal lövhənin üzərinə iri hərflərlə belə yazdıq: "Ey Rəbbimiz, lotuların xar olmasına izin vermə!"

Kərxə düşərgəsindəki ilk günümüzdə seyid Xəzrayi də gəlib çatdı. Əli Bəradərana dedim: "Bu seyid çox boynuyoğun adamdır, qoy texnika və silah bölüyünün başçısı olsun".

Bir gün seyid Xəzrayi mənim yanıma gəlib soruşdu:

-Seyid, Allah yolunda nəyisə bir şey çırpışdırmaq olar?!

-Allah yolunda olsa, hə. Nə çırpışdırmaq istəyirsən?!

-Batalyonların hamısının DŞK silahı var, bizdə isə yoxdur. Təzəlikdə qoşunun anbarına 3 DŞK silahı təhvil

veriblər. Həm təzə, həm də düz-əməlli bir şeydirlər. Mənim xəbərim var. Bu təzə silahları götürmək istəyirəm.

Ertəsi gün Dezful bazasına getdi. Qürub vaxtı 3 DŞK silahı ilə geri qayıtdı. Necə götürdüyünü isə Allah bilir!

Meysəm qüvvələrinin çevik və cəld olması dillər əzəbri idi. Onlar bir neçə günün ərzində qoşunun silah, texnika və təminat anbarına yaxşıca əl gəzdirdilər. Silah-sursat bölüyündə bir tanışımız da vardı. Bizə 5 ədəd balaca şəxsi ratsiya verdi. Xüsusi dəstələrin başçılarının hərəsinə bir ratsiya təqdim etdim.

Cavad Hökmü texnika bölüyündən 4 ədəd təzə pikap maşını və bir ədəd balaca Toyota maşını aldı. Qabaqda iki, arxada isə 4 nəfərlik yeri vardı. Əsgərlə onlardan birini özümüzə götürdük. Bizim maşınımızın sürücüsü Hüseyn Sazur idi. Pikapların üçünü isə, təminat bölməsinin ixtiyarına verdik. Xülasə, təminat və silah-sursat baxımdan vəziyyətimiz bütün batalyonlardan yaxşı idi. Qüvvələrimizin sayı da hamısından çox olardı.

Lotular və özündən deyənlərin hamısı Meysəm batalyonuna gəlirdilər. Futbolsevərlər, əhli-kef və heç nəyi vecinə almayanlar hamısı Meysəmədə toplaşırdı. Çoxu yalnız Allah eşqinə deyil, mənim eşqimə və dostluğa görə də gəlirdilər. Niyə? Çünki Meysəm batalyonunda hərbi qanunlar deyil, eşq, səfa-səmimiyyət hakim idi. Müharibə od-alovu içərisində sarsılmaz dostluqlar və qırılmaz qardaşlıq münasibətləri yaranırdı.

Əsgər həmişə deyirdi: “Seyid, elə davranmalıyıq ki, müharibə bitdikdən sonra, döyüşçülər bizi görüb arxalarını çevirməsinlər. Elə davranaq ki, onlar həmişə Meysəmi yaxşı xatirələrlə yad etsinlər”. Odur ki, çalışırdıq, döyüşçülərimizlə dost və qardaş kimi davranaq. Məsələn, qərargahda olduğum vaxt, yalnız müharibə və döyüş

barəsində danışar, qüvvələrin yanına getdikdə isə, maraqlı söhbətlər edib, şənliklər keçirərdik. Arxa cəbhəyə qayıtdıqda, daim onları düşünər, heç bir şeydən ləzzət anlamazdım. Ürəyim onların yanında idi. Subay olduqda ev-eşiyə yığışmayan, evləndikdən sonra isə, daim ailəsini düşünən adam kimi olmuşdum.

İstəyirdim ki, böyüklər və ağsaqqallar mənimlə səmimi olub, sözümü dinləsinlər, yeniyetmə və cavanlar da, qorxmadan dərdlərini danışa bilsinlər.

Kimisə cəzalandırmaq lazım olsaydı, o işə Hüseyn Tahiri baxardı. Hüseyn lazımınca təlimat keçmiş və təhsil almış bir kadr idi. Kimsə sözə baxmadıqda və ya səhər proqramlarında iştirak etmədikdə, onun cəzalandırılması Hüseynin öhdəsinə düşürdü. Hər gün diqqətlə döyüşçülərə idman etdirib, qaçırdırdı ki, bədənləri güclü olsun.

Hüseyn öz işində məharətli idi. Özü də həm əxlaq, həm də hərbi dərslər keçirdi. Çox adam onun çətin üslubundan narahat olsa da, batalyonun intizamını qoruması üçün etdiyi səyləri gördükdə, ona dəstək olurdu. Hüseyn eyni zamanda, döyüşçülərlə dostluq edib, onlara məhəbbət göstərirdi. Hərbi tələbkarlıq və çətin davranışlar da öz yerində idi.

Yadımdadır, bir dəfə Tehrana gəldiyim zaman onun toyundan iki gün keçmişdi. Cəbhəyə yeni qüvvələr toplayıb aparmağa gəlmişdik. Axşam gördüm ki, Hüseyn küçənin başında oturub. Onu görən kimi dedim:

-Təzə bəy, burada niyə oturmusan?

-Siz gedin, mən on gün sonra gələcəyəm.

Amma ertəsi gün yeni gələn qüvvələri götürüb bizdən öncə cəbhəyə getmişdi. Hüseyn Tahirinin Tehranda hər bir şəraiti - yaxşı işi və normal yaşayışı vardı. O, Boyaqçılar küçəsində böyümüşdü. Özü də məhəllə komandasının

qapıçısı idi. Qasimin söhbətləri nəticəsində heyətlə tanış olub dəyişilmişdi. Əslində, əvvəldən də, buna hazırlığı vardı, çünki nəsilliklə dindar idilər. Korpus üzvü olduqdan sonra, 9 saylı batalyona gedib Baziderazda öz şücaətini göstərdi. Hərtərəfli bacarığına görə İmam Hüseyn (ə) bazasının təlimat bölməsinin məsulu oldu. Meysəm batalyonu bərpa edildikdən sonra, təlimat-hazırlıq işləri onun öhdəsinə buraxıldı.

Hüseyn bəzi məsələlərdə çox tələbkar idi, mənimlə tez-tez mübahisəsi olurdu. Mən istəyirdim ki, döyüşçülər həm rahat olub, azad yaşasınlar, həm də var-gücləri ilə döyüşsünlər. O, isə nizam-intizamın olmasını vacib sayırdı. Məsələn, siqaretə görə həmişə batalyonda problem yaranırdı. Bəziləri siqaretə çox bağlı idilər və heç bir yolla onu tərk edə bilmirdilər. Hüseyn isə, sərtlik edib bir gecədə siqaretin kökünü kəsmək istəyirdi. Elə bu məsələ baxımından da, ən çox Əkbər Sərpuşan ilə sözü olurdu.

Meysəm qüvvələrinin hər birinin özünəməxsus xasiyyəti və düşüncəsi vardı. Bəqi taqımı çox məsuliyyətli, Neynəva taqımı isə çox səhlənkar idi.

Mahmud Julidə Fədək taqımının çadırının arxasında bir xeymə qurmuş və adını da "tütün-tənbəki" çadırı qoymuşdu. Siqaret çəkənlər bu çadırda toplaşır və siqaretlərini çəkirdilər.

Bir dəfə onlar məni çadırlarına dəvət etdilər. İçəridə elə tüstü var idi ki, çadırın pərdəsini qaldırdıqda heç kimi görmədim.

Bir gün gördüm ki, Əkbər Sərpuşan narahatdır, qaş-qabağı yerlə gedir. Küsülü halda batalyondan uzaqlaşdığını görüb dedim:

-Əkbər qardaş, xeyirdimi, hara gedirsən?

-Mən daha bu Hüseynin rəftarlarına dözə bilmirəm, çox sərt adamdır. Bütün günü mənə sataşır. Onun əlindən gün ərzində bir dəfə siqaret çəkə bilmirəm. Axı bu nə vəziyyətdir?!

Qolumu boynuna salıb çadıra gətirdim. Bilirdim ki, bu sözləri dilucu deyir, o, Meysəm batalyonundan gedən deyil. Özü də bilirdi ki, Hüseyn Tahiri kişi adamdır və müharibəyə xidmət vəzifəsini yerinə yetirməkdən başqa heç nə etmir. Bəlkə də, mən və Əkbər Sərpuşan kimi düşünməyi bacarmır, ya da vicdanı buna yol vermirdi. Təlim, tərbiyə işlərinə batalyonun nizam-intizamına qarşı çox məsuliyyətli davranırdı. Qədim döyüşçülərdən örnək götürən azyaşlılara qarşı da, çox həssas idi. Özü də batalyonda hər işin görülməsinə imkan verə bilmirdi. Dəfələrlə görmüşdüm ki, özü əlinə süpürgə götürüb çadırların yerini süpürür və böyük qardaş kimi kiçiklərə məhəbbət göstərir. Belə etməsəydi, Meysəm batalyonu digər batalyonlardan seçilməzdi. Zaman keçdikcə anlayırdım ki, işi öz sahibinə tapşırmışam və Hüseyndən başqa heç kim Meysəm batalyonunun öhdəsindən gələ bilməzdi.

Kərxə düşərgəsində batalyon qüvvələrinin sayı 700-ə çatdı. Elə oldu ki, yer və çadır azlığı yarandı. Əsgərin təklifi ilə batalyonda ilk dəfə olaraq səhər, günorta və axşam yeməklərini hamı ilə birgə yeyirdik. Böyük və uzun bir süfrə sərir, 700 nəfər eyni zamanda süfrə arxasında oturub yemək yeyirdi. İşlər hər gün taqımların bir dəstəsinin öhdəsinə qoyulurdu. Onlar süfrəni sərir, yığır və qabları yuyurdular. Kim su istəsəydi, uca səslə "Ya Hüseyn" deyirdi. Bəziləri də bizi ələ salıb deyərdilər: "Ya Hüseyn yaxşıdır, ya Həsən də!"-deyin.

Bu gözəl fikirlər Əsgərin ideyaları idi. Məsələn, bir əmanət qutusu düzəltmişdik, həmişə Əsgərin əlində olurdu. Bu qutuya bir qədər pul qoyardıq, məzuniyyətə getmək istəyənlər, ondan yol pulunu və xərcliklərini götürərdilər.

Atədən, korpus keşikçilərini və ailəli döyüşçüləri cümə axşamı və cümə günləri məzuniyyətə göndərirdik. Bu iş hər cəhətdən çox faydalı idi. Həmin adamlar bu səfərdə öz ailələrinə baş çəkməklə yanaşı, Meysəm batalyonunu təbliğ etməklə yeni qüvvələr də toplayıb gətirirdilər. Cəbhədəki dostluq, fədakarlıq və mehribançılıq fəzası adamı heyran edirdi. Bura öyrəşdikdən sonra, şəhər həyatına dözmək olmurdu. Cəbhədə təkcə düşmənlə vuruşmurduq; həyata bağlılıqla öz nəfsimizlə də mübarizə aparırdıq. Ata-ana, arvad-uşaq və dost-tanışa qarşı olan sonsuz məhəbbətə göz yummalı idik.

Əsgər belə bir təklif irəli sürdü ki, taqımların başçıları öz döyüşçülərinin problemlərini həll etsinlər və hər xırda məsələ üçün bizə müraciət etməsinlər. Bu fikir də səbəb oldu ki, döyüşçülər taqım başçısının sözünə əhəmiyyət versinlər. Bu zaman həmin məsul şəxslər də, qayda-qanun və proqramla hərəkət edib, öz işlərini lazımınca sahmana salırdılar.

Bu tədbir, çox gözəl nəticələr verdi və döyüşçülər hər kiçik bir iş üçün batalyonun komandirinə müraciət etməməyi öyrənib, problemlərini taqım başçıları ilə həll etdilər.

Digər batalyonlarda döyüşçülər bir-birləri ilə qardaşlıq əqdi oxuyurdular. Əlbəttə çox zaman bu iş zahiri xarakter daşıyırdı. Meysəm batalyonunda isə, bu iş həqiqi mənada həyata keçirilirdi. Bizdə qardaşlıq, səfa-səmimiyyət bir qanun idi; bu qanun olmasaydı, Meysəm batalyonu da

olmazdı. Orada elə bir dostluqlar yarandı ki, müharibədən illər keçsə də, hələ də davam edir.

Meysəm qüvvələrinin çoxu pəhləvan və hərbi təlimi keçmiş şəxslər idilər. Onlar and içmişdilər ki, heç vaxt vəzifə, şan-şöhrət dalıyca qaçmasınlar. Onlar üçün məqam – yüksəliş deyil, Allah mühüm idi. Qeyd etmək lazımdır ki, idarə etmə qabiliyyəti insanın zatında olmalıdır. Bəzi döyüşçülər ali təhsilli şəxslər idi. Meysəm qüvvələrinin də çoxu şəhərdə müxtəlif vəzifələrdə çalışan təcrübəli kadrlar idilər. Şübhəsiz, onların hansı biri mənim yerimdə olsaydı, tez bir zamanda bacarıqlı komandir kimi ad çıxarardı.

Bir gün qoşunun baş qərargah iclasında Hacı Məhəmməd dedi:

-Seyid, siz buraya inqilab etmək üçün gəlmisiz? Nə etmisiz ki, cəbhəyə gələnlərin çoxu Meysəm batalyonuna qoşulmaq istəyir? Orada yer yoxdur deməyə cürət etmirik, narahat olurlar!

-Meysəmdə hər şeydən qabaq, dostluq və eşq hakimdir.

Təlimat bitdikdən sonra, əməliyyat zamanı yaxınlaşırdı. Bir gün qərargaha gedib 30 hesablaşma vərəqi aldım və hamısını imzaladım. Uzun müddət idi ki, bu məsələ zehnimi qarışdırmışdı. Bilirdim ki, bir neçə nəfər əməliyyat gecəsi bizimlə ola bilməz, ya da olmaq istəmir. Onlarla necə rəftar edəcəyimiz müəyyənləşməli idi. Əsgər də, mənimlə həmfikir idi, özü də həmişə belə deyirdi: "Əməliyyat gecəsi atəşin altında bir nəfər qorxub bir addım geri atsa, milyon nəfər döyüşçmüz olsa da, hamısı geri qayıtmaq fikrinə düşəcək. Döyüşçülər azad olmalı və əməliyyatda iştirak edib-etməmələri barədə özləri seçim etməlidirlər. Bu, çox ciddi məsələdir. Onlar qarşıda nələrin olacağını yaxşı bilməlidirlər".

Bir gün döyüşçüləri toplayıb dedim: “Kimsə hər hansı səbəbə görə əməliyyat gecəsi bizimlə ola bilməyəcəksə, axırda dayansın, onunla işim var. İmzalı hesablaşma kağızını verəcəyəm. Biz gedib qayıtmasaq, kağızı aparsın hesablaşma bölüyünə, sonra sakitcə şəhərə qayıtsın. Hamınız üçün yazmışam ki, 6 ay Meysəm batalyonunda qüsursuz xidmət etmisiz”.

Qüvvələrdən bir neçəsi söhbətin sonunda bir küncdə dayandılar. Onlardan biri gəlib dedi: “Seyid, əməliyyat gecəsi sizinlə birgə olmaq istəyirəm. Hətta mən məhz əməliyyat üçün gəlmişəm, amma anam..”.

-İzah etmək lazım deyil. Problemdirsə, eybi yoxdur. Gedə bilərsiz.

Hesablaşma kağızını əlinə verib yola saldım. Dekabr ayının axırları maşınlara minib Bəhmənşir çayının yanındakı düşərgəyə getdik. Oraya çatanda şiddətli yağış başladı. Xurma bağının palçığı çox pis olur, eynilə saqqız kimi. Çəkmələr palçığa batır və çıxarmaq olmur. Deyirdilər ki, bu yapışqanlıq xurma ağacının şirəsinə görədir.

Təminat bölməsinin məsulu Əli Bəradəran dedi: “Seyid, belə getsə maşınlar azuqə gətirə bilməyəcək. Yol bərbad vəziyyətdədir. Yadındadır, mənə etiraz edib, azuqə gətirməyə icazə vermədin? Amma mən sənin sözünə qulaq asmayıb, üç günlük yemək gətirmişəm. Kifayət qədər balıq konservi və 200 kisə çörəyim var”.

Bir saat sonra Cavad Sərraf xəbər yolladı: “Seyid, yol bağlıdır və biz burada yeməksiz qalmışıq. Bir çarə qıl”.

-Neçə nəfərsiz?-deyə soruşdum.

-290 nəfər.

-Bəxtiniz gətirib, gəl buradan bir-iki günlük azuqə apar.

-Özünüz ac qalmazsız?

-Bu, cəbhədə olmağın bərəkətidir. Bizim ruzimiz İmam Zaman (ə.f) süfrəsindən gələr.

Bu bəxşişdən Əli Bəradəran narahat oldu. Səbəbini soruşdum: "Onlar bizim yanımızdadırlar. Qərar olsa ki, yeməyək, birgə yeməyəcəyik. Kimin əlindən tutmağı bacarsan, tut. Sabah da o sənin əlindən tutar".

Şəhadət batalyonunun qüvvələri gəlib azuqə kisələrini apardılar. Birdən Əlirza Şahbazi gəlib dedi: "Seyid, sizə xoş xəbərim var! Xosrovabad yolu qərb tərəfimizdə yerləşir. Yol asfalt imiş, palçığa görə başa düşməmişik".

Həmin anda Hüseyn Sazur, Cavad Şirazi və başqa bir nəfəri arxa cəbhəyə göndərdim ki, gedib azuqə gətirsinlər. Onlar günorta gedib qürub vaxtı bir pikap dolusu çörək, balıq konservi və kompot gətirdilər.

Yol düzələnədək Əsgərlə qərargaha - qoşunun komandiri Hacı Məhəmməd Kövsərinin yanına getdik. Çatanda gördük ki, Abadanın yaxınlığında bir qəsəbədə əməliyyat barədə iclas təşkil olunub.

Qərargaha çatdıqda bütün batalyonların komandirləri gəlmişdilər; Mahmud Əmini, Həmzə batalyonun komandiri Rza Yəzdi, Əmmar batalyonunun komandiri Cəfər Möhtəşəm, Ənsarul-rəsul batalyonunun komandiri Nüsrət Əkbəri, Malik batalyonunun komandiri Əli Cəzmani ilə Əhməd Nozad, Miqdad batalyonunun komandiri və s.

Salam verib bir küncdə oturduq. İmam Xomeyninin nümayəndəsi olan bir ruhani də gəlmişdi. Deyəsən o, bu qoşunun əqidəvi işlər üzrə müavini sayılırdı. Gələnlərdən biri də, təminat işləri üzrə məsul Hacı İbadi idi. Amma o zaman onu müharibə inşaat işlərinin müdiri təyin etmişdilər.

Bir nəfər hacı Məhəmmədin yanında oturmuşdu. Əlində kiçik bir səs yazan cihaz vardı. O vaxtlar kimsə komandirlərin ardınca gəzib, bütün söhbətlərini yazardı. Bu şəxslər komandirləri yalnız ayaqyoluna getdikdə rahat buraxıb səs yazmaqdan vaz keçərdilər. Əlbəttə zaman keçdikcə anladım ki, bu çox yaxşı iş imiş. Əgər o sözlər qeyd edilməsəydi, hər şey unudular və əldən gedərdi. Biz çatdıqda hacı Məhəmməd deyirdi: "Bəli, bizim 60 ədəd təkərimiz var. Yenə də almalıyıq..".

15 dəqiqə keçdi. Mənim özüməməxsus səbirsizliyim vardı. Qısa zamanda əsas söhbəti bilmək istəyirdim, əlavə şeylərə hövsələm olmurdu. Yenə də dözməyib Hacı Məhəmmədə dedim:

-Hacı, iclası niyə başlamırsız?

-Yatmısan, seyid? Bəs bayaqdan nə danışırıq?

-Bağışlayın, amma baş qərargah nədən ötrüdür? Təkər və buna aid olan işlər batalyon komandirlərinə aid deyil?

-Mən danışırdım, siz niyə sözümü kəsdiz?!

-Mən də sual verirəm. Məgər bizim təminat bölüyümüz yoxdur? Bu barədə əlaqədar bölümlər söhbət etməlidirlər, batalyon komandirləri isə əməliyyat barədə danışmalıdırlar. Düz demirəm? Kim sözümü təsdiqləyirsə, əlini qaldırsın!

Komandirlərin hamısı əllərini qaldırdılar.

Hacı Məhəmməd dedi:

-Sən buraya mənimlə döyüşməyə gəlmisən, yoxsa iraqlılarla?!

-Ağa İbadi müharibənin ağsaqqalıdır. İcazə verin bu barədə o öz fikrini bildirsin.

Məni ilk dəfə görən cənab İbadi tərəddüdlə dilləndi:

-Aydındır ki, Hacı Məhəmmədə aid olan məsələdir.

-Qorxdun?

-Yox, nədən qorxacağam?

-Onda de görüm təkər işi kimə aiddir?

-Təminat bölməsinə.

-Qurtardı getdi. Seyid Müctəba, sən əməliyyatın kəşfiyyat komandirisən. Məgər bizim əməliyyat keçirməyimizi istəmirsən? Sən bizi bu bölgəyə aparıb məlumatlandırmalısan.

-Mən hələ bölgəni görməmişəm.

-Yaxşıdır da! İndi əqidə bölüyü bölgəni bizdən daha yaxşı tanıyır!

Batalyon komandirlərinin hamısı mat-məəttəl mənə baxırdılar. Mənim acıqlı və əsəbi sözlərim hamını təəccübləndirdi. Otağa sakitlik çökdü, Əsgər də heç nə demirdi. Hacı Məhəmməd isə mənim əlimdən çox əsəbi idi. Yenə üzünü mənə tutub dedi:

-Seyid! Burada iclas keçirilir. Siz icazə alıb sonra danışmalı idiniz.

-O hələ qanunları bilmir,-deyə Hacı İbadi dilləndi.

Cavab verdim:

-Hansı qanundan danışırsan, qaqaş? Mən sənin düşündüyün komandirlərdən deyiləm! Qoşunda da sizin nümayəndəniz deyiləm ki, əmrlərinizi yerinə yetirim. Mən öz döyüşçülərimin nümayəndəsiyəm. Sözlərini deməyə, döyüşçülərin dərdini açıqlamağa gəlmişəm!

Axırda yenə mübahisəni acıqlı sözlərlə bitirdim. Həqiqətdə, hacı ilə savaşmaq fikrində deyildim. O, məndən pis olan yüzlərlə insanın cavabını verməli idi. Bir qoşuna komandalıq etmək, əlbəttə, asan iş deyildi. Amma döyüşçülərin vəziyyəti və silah-sursat azlığı məni qıcıqlandırırdı. Problemləri deməyə fürsət axtarırdım...

Namaz vaxtı dostların yanına gedib dedim: “Cəbhələrin aslanı hacı Məhəmmədin sağlığına salavat..”.

Hamı salavat çəkdi. Hacının da narahatçılığı bir qədər azaldı. O, mülayim səslə dedi: “Qardaş, adamın sözü varsa, təklikdə deməlidir, hamının önündə deyil. Belə olmaz”.

-Mən “baş üstə komandir” deyənlərdən deyiləm. Böyüklərə itaət etmək öz yerində, döyüşçülərin haqqını əda etmək də öz yerində. Müharibəni istisna etsək, ömrümün axırınadək sənin nökərinəm. Amma bura cəbhədir, mən yararsız silah-sursatla əməliyyata getməyəcəyəm.

Günortadan sonra, yenə iclas başladı. İclasa gedib hacıdan icazə istədim.

-Hacı icazənizlə.

-Yenə nə istəyirsən?

-Kəşfiyyat komandiri bizə izahat verməlidir. Seyid Müctəba, niyə lal olmusan? İndi sən bizi məlumatlandırmalısan.

-Axı nə deyim? Bölgəni hələ yaxşı görməmişəm.

Hacı Məhəmməd özü əməliyyat ərazisini yaxşı tanıdığından, bizi xəritə üzərindən lazımınca məlumatlandırdı. Xəritəni yerə sərdi, mövqeləri göstərib dedi: “Bu ərazi Həmədan şəhərinin Ənsarul-Hüseyn batalyonunun mövqeyidir. Bu mövqe Şəttul-ərəbə kimi davam edir. İkinci mərhələdə 27 saylı qoşun gəlib bölgəni Ənsarul-Hüseyndən təhvil alacaq..”.

İclas qürub vaxtı başa çatdı və çölə çıxdıq. Hacı Məhəmmədə dedim:

-Hacı, özünü söyüb, danlayırsan hə?

-Yox, nə üçün?

-Məni komandir edib iclasa buraxdığın üçün.

-İndi bu sözlərin yeri deyil. Ardımca gəlin. Vaxtımız yoxdur.

-Hacı, başımızın tacısan, səni sevirəm...

Qərargahdan çıxdıq və səhərin alatoranlığında Toyotaya minib naməlum istiqamətə doğru yollandıq. Asfalt yolda bir qədər getdikdən sonra, torpaq yola girib biyabanlıqda uzun yol getdikdən sonra, bir yerdə dayandıq. Ətrafda heç bir şey görünmürdü. Hacı Məhəmmədə dedim: “Bura haradır hacı? Ciblərimizi boşaltmaq istəyirsən?”

Bizdən bir qədər aralı yerdən bir qapı açıldı. Tunel kimi idi, qaranlıqda aşağı doğru gedən pillələr görünürdü. Hacı Məhəmməd hamıdan qabaqda içəri girdi və pillələri aşağı düşdü, biz də onun ardınca. Üç əyri və dalğavari dəhlizdən keçib anbara bənzər böyük bir otağa girdik. Bir az sonra, üzümüzə başqa bir qapı açıldı. Hacı Məhəmməd dedi: “Qardaşlar! General Əlayi, Rəşid, Şəmxani və Möhsin Rzayi buradadır”. Cavad Sərraf və mən yan-yana dayanmışdıq. Oradaca yerdə oturduq. Əqidəvi-siyasi şöbənin işçilərindən iki-üç nəfər də vardı.

İclasın əvvəlində Hacı Məhəmməd Kövsəri ağa Rəhimə belə dedi:

-Hacı, dostları təqdi edim?

-İcazə verin özləri özlərini təqdim etsinlər.

Bir-bir özümüzü təqdim etməyə başladıq. Mahmud Əmini, Rza Yəzdi, Həsən Mühəqqiq və Əli Cəzmanidən sonra növbə mənə çatdı. Mən əlimi üzümə tərəf gətirib barmağımla dişimi göstərdim. Demək istəyirdim ki, yəni dişim ağrıyır və danışa bilmirəm. Buna görə də, ağa Rəhim özü məni təqdim edib dedi: “Seyid Əbülfəzl, Allahkərəmdən nə xəbər var?”

Möhsin Rzayi dilləndi: “Bundan niyə soruşursan?”

Hacı Məhəmməd cavab verdi: “Axı bunlar dostdurlar. Buna batalyonu təşkil etmək əmri verildikdə, gedib

onlardan icazə aldı”. Ardınca mənə tərəf çevrilərək dedi: “Hüseyn də öz qüvvələrilə əməliyyata gəlmək istəyir”.

-Onlar geoloq və kəşfiyyat peşəkarlarıdır,- deyə dilləndim. Daha sonra əməliyyat bölgəsinin havadan çəkilmiş şəklini gətirib yerə sərdilər. Şəmxani əməliyyat və onun istiqamətləri barədə izahat verdi.

Hacı Məhəmməd dedi:

-Fərz edin ki, artıq əməliyyat başlayıb. Ənsarul-Hüseyn dalğıcları çayı adlayırlar. Atəş açmadan soyuq silahla cəbhə xəttini yarırlar. Fav-Bəsrə magistralı yaxınlığında – qoşa divarlı kanalın ətrafında işi sizə təhvil verirlər. Sizsə kanaldan adlayıb Fav-Bəsrə yoluna çatmalısız. Bu mərhələdə Meysəm batalyonu ilə 27 saylı qoşunun növbəsi başlayır. Şəhadət batalyonu, Meysəm və Miqdad batalyonları da, Həbibin ehtiyat əvəzedicisi sayılır. Bizim axırıncı məqsədəmiz qoşa divarlı kanalın yaxınlığındakı təcrübə bazasıdır. İşin necəliyi və hansı planla həyata keçməsi, batalyon komandirinin bacarığından asılıdır”.

Rəşid və Şəmxani peşəkar hərbçilər idilər. Onlar düşmən rolunu oynayırdılar ki, bizim məharətimizi sınayıb, komandirliyə layiq olub-olmadığımızı anlasınlar. Düşmən mövqeyindən çıxış edib, işimizlə planımızın qüsurlarını göstərsinlər.

-Fərz edin ki, biz iraqlıyıq. Buraya 10 ədəd tank gətirmişik. Siz necə müdafiə olunmalısız? Sən buradan vursan, mən də oradan vuracağam,-deyə ağa Rəhim həmişə məni imtahana çəkirdi.

Beləliklə, komandirlər bütün fikirlərini ortaya qoydular. Növbə bizə çatanda Cavad özünü hazırladı. Yazıq fikir söyləmək istədikdə, Hacı Məhəmməd dilləndi: “Seyid, sən neçə dəqiqə danışmaq istəyirsən?”

-Mən heç danışmaq istəmirəm.

-Şükür Allaha dişin sağaldı. Hacı, bu seyid Əbülfəzl Meysəm batalyonunun komandiridir.

-Biz batalyonda şərikik.

-Necə yəni? Məgər marketdir ki, şərik olasız?-deyə ağa Rəhim dilləndi.

-Hər nədirsə, şərikik.

-Kiminlə?

-Əli Əsgərlə

Hamı güldü. Davam etdim:

-Mən oraya sağ çatsam, nə edəcəyimi özüm bilirəm.

-Çox sağ ol. Vaxtımız da yoxdur. İcazə verin növbəti mərhələni də izah edim deyə - ağa Rəhim sözə başladı.

Axırda da, Cavadın fikir söyləməyə növbəsi çatmadı. Möhsin Rzayi Məhəmməd Kövsəriyə dedi: “İndi qüvvələriniz haradadır?”

-Batalyonlardan ikisini Bəhmənşirə yollamışıq.

-Hansı batalyonları?

-Malik və Əmmarı.

Şəmxani dedi:

-İndi göndərməməli idiniz. Zəng edin qayıtsınlar.

Hacı Məhəmməd dərhal telefonun yanına getdi. O vaxt səyyar telefonlar gətirmişdilər. Onlarla uzaq məsafəni yığmaq olurdu, mən də onunla bir neçə dəfə arvad-uşağıma zəng etmişdim. Seyid Müctəba ilə Əhməd Nozad mənə göz vurub dedilər: “Bir söz de”.

-Bağışlayın, cənab Kövsərinin geri qaytardığı iki batalyon, bizimki deyil. Siz yox, hətta Səddam da burada olsaydı, onların geri qayıtmalarına imkan verməzdim.

Ağa Rəhim güldü. Davamında dedi: “Siz elə bilirsiz ki, batalyon qüvvələri heç nə bilmirlər? Onların hər biri on sənin, mənim kimiyə dərs verərlər. Mənim batalyonumda yüzlərcə batalyon komandiri var ki, sadəcə məsuliyyət

qəbul etmək istəmir. Bunlar saat yarım piyada yol gediblərsə, mən onları necə qaytara bilərəm?"

İclas gecə yarısınadək davam etdi və "Kərbəla-4" əməliyyatı rəsmi şəkildə başlandı. Qərargahdan çölə çıxdıq. Hacı Məhəmməd mənim əlimdən çox narahat və əsəbi idi. Onu başa düşürdüm. Bütün məsuliyyətlər və işlər onun üzərinə idi və o, min nəfərə cavabdeh olmalı idi. Bundan əlavə o, həm də, batalyon komandirləri ilə müharibə başçıları arasında vasitəçi idi. Hər iki tərəfi razı salmalı idi ki, döyüşlərdə problem yaranmasın. Buna görə də, ona dedim:

-Hacı, əməliyyat korlanarsa, təqsirkar qərargahdır. İşi kökündən düzəltməlisən ki, düz alınsın.

-Əl çək, sən canın. Qoy hələlik işləri həll edək. Vaxtımız yoxdur. Sabah Abadana getməlisiz ki, seyid Müctəba sizi qülləyə çıxarıb oradan təlimatlandırsın.

Gecəni qərargahda yatdıq. Ertəsi gün Abadana tərəf getdik ki, İraq cəbhələrinə qüllədən baxaq. Qüllənin də maşallah, 40 metr hündürlüyü vardı.

Həsən Mühəqqiq qülləni gördükdə başını göyə qaldırıb dedi:

-Burada seyid əvvəldə getməlidir. Yol seyidlərindir!

-Mən niyə?! Birinci batalyon Malikdir. Mən altıncı batalyonam. Məndən öncəki beş nəfər qalxsın, sonra mən qalxacam.

Həqiqət bu idi ki, o uzun və qorxulu qülləyə çıxmaq istəmirdim. Tək mən deyil, əminəm ki, heç kim çıxmaq istəmirdi.

Həsən Mühəqqiq çıxdı və ortada ilişdi. Nə yuxarı, nə də aşağı gedə bilirdi. Biz də qışqırırdıq: "Çıxa bilməyəcəksən, düş aşağı".

Yazıq nə edəcəyini bilmirdi. Beşinci adam Cəfər Möhtəşəm idi. O, çıxdıqdan sonra bir nəfər yuxarıdan uca səslə dedi: “Seyid Əbülfəzl, siz gəlməyin. Hava buludludur”.

Komandirlərin hamısı təəccüblü halda dedilər: “Bu şəxs kimdir ki, yalnız səni tanıyır?” Hava buludludursa, niyə biz aşağıda olanda demədin və bizi yuxarı çıxartdın!?

Belə deyib aşağı endilər, gözətçi də gəldi. Birdən onun Abbas Hacian olduğunu gördüm. Salamlaşıb görüşdük. Bir nəfər etiraz edib, niyə ayrı-seçkilik saldıqlarını soruşdu:

Cavabını mən verdim: “Bu mənim bəxtimdəndir!”

-Abbas, sən mənim canım, hava dumanlı idi?

-Yox, mən durbini 120 dərəcə buludlara tərəf tutdum. Bunlar nə qədər baxdılarsa duman gördülər.

Bu dəfə hövsələ ilə yenidən İraq cəbhələrinə baxıb məlumatlandırıldıq. Ardınca da, hər komandir öz mövqeyinə və qüvvələrinin yanına getdi.

Meysəm batalyonunun qüvvələri ilə Bəhmənşirdə keçirdiyimiz günlər ömrümün ən gözəl günlərindən sayılır. Axı xurma bağının da, özünəməxsus əhvalatı var! Ön cəbhəyə yaxınlığına və İraqın havadan hücum ehtimalına görə, orada gecə praktikası və hərbi təlim keçirilmirdi. Yalnız hər axşam çadırların arxasındakı qazdığımız qəbirlərin içində ibadətlə məşğul olurduq.

Hüseyn Sazur səhərədək “On beş minacat”ı oxuyur, digərləri də, bu duanın eşqinə onu əhatəyə alırdılar. Hacı Pərvazi, Bəhmənşirə bizim yanımıza gəldikdən sonra, gənclərin qəlbinə fərqli şövq və sevinc bəxş etmişdi. O, müharibənin ağsaqqallarından idi və bir neçə əməliyyatda öz məharətini göstərmişdi. Hacı azad döyüşçü olaraq Cavad Şiri ilə birgə bizim çadırların qonağı oldu. O, bir

qoşun komandiri qədər təcrübəli olsa da, məsuliyyətdən qaçırdı. Mücahidlərin yanına gəlib onlarla birgə mənəvi anlar yaşamaq istəyirdi. Tanıyanların hamısı ona məftun olmuşdu. Gənclər həmişə onu dövrəyə alıb həvəslə irfani və ürəyəyatan sözlərini dinləyirdilər.

Hacının gözəl saçı vardı. Şəxsi paltar geyindikdə daha yaraşıqlı görünürdü. Geyimi də, gənclərin zövqünə uyğun olduqda, onların qəlbində daha çox yer edirdi.

Həmin qəmli və nəmli xurma bağında, dəfələrlə gördüm ki, Əsgər gecəni yatmadan səhərədək oyaq qalıb ibadət edir, öz Allahı ilə razi-niyaz edib danışırdı. Ara-sıra çadırlara baş çəkib gənclərin üstünü örtür ki, xurma bağının rütubətində soyuqlamasınlar. Əsgər gənclərin qarşısında o qədər təvazökarlıq göstərirdi ki, utanıb özümdən xəcalət çəkirdim. Mən heç vaxt onun kimi ola bilmədim.

Bir gün gördüm ki, ləyəndə, batalyonun rabitəçisi olan Həmidin paltarlarını yuyur. Bundan xəbər tutan Həmid çox utanıb narahat oldu və yanıma gəlib etirazla dedi: “Hacı Əsgər niyə belə edir? Mən xəcalətimdən ölüb-əridim..”.

Əsgərin bu kimi işləri onu hər yerdə məşhurlaşdırmışdı. Doğrusu, fəxr edirdim ki, Allah mənə Əsgər kimi bir şəxslə birlikdə xidmət etmək nəsib edib.

Bir gün çadırda uzanıb fikrə dalmışdım. Birdən təminat bölməsinin məsulu Rza Huriya gəlib əlimin içinə bir şey qoyub dedi: “Seyid, bunu ye!”

Baxdım ki, pendir kimi ağ yumşaq bir şeydir. Bir az dadına baxdım. Çox dadlı və şirin idi. Allaha qurban olum, nələr yaradıb! Bunu haradan tapdın?-deyə soruşdum.

-Xurma ağacının başından. Xurmanın yetişdiyi yerdən qopardım bunu, adına da xurma pendiri deyirlər. Xurma

bu pendirdən düzəlir. Ağacın pendiri olmasa, xurma vermir. Bir ovuc bundan yesən, iki qutu xurmaya bərabərdir!

-Sən xurma ağacına necə dırmandın?

-İraqlıların mövqeyini görmək üçün ağacların başını kəsmişdilər. Mən də gedib nizə başlığı ilə bunları qopardım.

Xurma pendirinin hamısını yedim. Doğrudan da dadlı idi. Amma bunu da deyim ki, səhərədək bədənim qaşındı və yata bilmədim.

Yavaş-yavaş gənclər hər şeyə bələd olur, ağaclara dırmanaraq xurma pendiri qoparıb yeyirdilər. Çox isti təbiətli və enerjiverici idi. Onlar tez-tez çimərliyə də gedirdilər, mənsə döyüşçülərin Bəhmənşirə getmələrinə çox da razı deyildim. Eşitmişdim ki, döyüşçülərdən bir neçəsi Kərxə çayında boğulmuşlar. Özüm də tapşırmışdım ki, üzməyi bacarmayanları suya buraxmasınlar.

Dekabr ayının 20-i taqımların başçılarını toplayıb Əsgərin köməyi ilə qərargahda deyilənləri onlara da, çatdırdıq. Qərara alınmışdı ki, taqım başçıları dəstələrin başçıları ilə döyüşçüləri məlumatlandırıb yavaş-yavaş ön cəbhəyə yollansınlar.

Əməliyyat günü yaxınlaşdıqca, qərargahda deyilənlərin, kəşfiyyat qüvvələrinin dedikləri ilə fərqli olduğunu anlayırdıq. Üstəlik iş başına getdikdə, hər şey başqa cür olurdu.

Həmin vaxtlarda ən müsbət hal kəşfiyyat qüvvələri ilə dost olmağımız idi. Biz, Hüseynullah Kərəmin peşəkar kəşfiyyatçı taqımı ilə əlaqədə idik. Bu əməliyyatda qərargahın işindən baş açmaq üçün, bu məsələni çox incələdim. Hətta Şəhadət batalyonu da bu imtiyaza malik deyildi.

Dekabr ayının axırıncı günlərində hal-əhval tutmaq üçün evə zəng etdim. Anam dedi ki, dünən Fatiməni xəstəxanaya apardıq. Ertəsi gün yenə evə zəng etdim. Bu dəfə anam bir oğlumun dünyaya gəldiyini dedi.

-Mübarəkdir, adını Səccad qoyun.

Baxmayaraq ki, bölgədən çıxmaq hamıya qadağan idi və hamı ön cəbhəyə getməyə hazırlaşırdı. Amma mən heç vaxt özümü bu qaydalarla uyğunlaşdıra bilmədim. Əgər getmək istəsəydim, göydən daş da yağsaydı, gedəcəkdim. Odur ki, həmin gün Tehrana yollandım.

Evə çatdıqda gördüm ki, Tofiq məscidinin pişnamazı Hacı Sidqi baş çəkməyə gəlmişdir. O, bir qədər söhbət etdikdən sonra dedi:

-Bu uşaq, həzrət Həmzənin şəhadət günündə dünyaya gəlmişdir. İnşallah ki, şücaətlidir. Adını Həmzə qoyun".

Biz də razılaşıb uşağın adını Həmzə qoyduq. Ertəsi günə kimi evdə qaldım. Günorta yeməyini də evdə yedim. Qarnım və bağırsaqlarım yaralandıqdan sonra, həkim köpverici və yumurtalı yeməkləri qadağan etmişdi. Amma könlümə ev qayğanağı düşmüşdü. Özümü saxlaya bilməyib doyunca qayğanaq yeyib yola düşdüm.

Bölgəyə qayıtdıqda artıq batalyon əməliyyata hazır vəziyyətdə idi. Cəbhə xəttini yarmalı olan batalyonlar Ərvənd çayına doğru gedirdilər. Meysəm batalyonu, yola düşmə komandası gələnədək Ərvəndin sahilindəki çadırlarda qaldı.

Əməliyyatın birinci gecəsi, Əsgərlə birgə məlumat əldə etmək üçün Ərvəndin yanındakı xətt yaran qüvvələrin yanına getdik. Bir neçə dalğıc taqımı qaranlıqda hücum komandasını gözləyirdi. Xurma ağaclarının arxasından onların kölgələri görünürdü. Hər şey öz qaydasında idi.

İkinci gecə, Meysəm batalyonunun növbəsi idi ki, hücum edib xətti möhkəmləndirsin. Əmmar, Malik, Həbib və Həmədanın Ənsarul-Hüseyn batalyonları hazır vəziyyətdə idilər ki, dalğıclar xətti yardıqdan sonra, onlar da hücum edib işi davam etdirsinlər. Dalğıcların işi çox həssas və həyəcanlı idi. Hərəkətlərini dalğa ilə tənzim etməli idilər.

Gecə yarısı "Məhəmməd Rəsulullah" rəmzi ilə hücum komandası verildi və dalğıclar suya atıldılar. Təəssüflər olsun ki, yarım saatdan sonra, hazır vəziyyətdə olan iraqlılar dalğıcları DŞK ilə qarşıladılar. Onlar gözümüzün önündə bir-bir şəhid olurdular. Səhər saat üçə kimi sağ qalan bir neçə nəfər geri qayıtdı. Bütöv bir batalyonun qüvvələri ya şəhid oldular, ya da əsir düşdülər. İraqın amansız atəşindən məlum idi ki, öncədən əməliyyat barədə xəbərləri varmış. Buna görə də, əməliyyat yarımçıq dayandırıldı.

Amma mən, əsgərlər həvəsdən düşməsinlər deyə, Allahın məsləhəti bu imiş dedim. Bəlkə də, hücum etsəydik, hamımız məhv olacaqdıq.

Səhərə yaxın çadırlara qayıdıb döyüşə hazır olan qüvvələrə əməliyyatın dayandığını dedik. Qanları qaraldı və narahat oldular. Öz məşuquna qovuşmaq istəyindən məhrum olmuş insanlar kimi hamısı qəm dəryasına qərq oldu.

Ertəsi gün xəbər yayıldı ki, casuslar əməliyyatı ifşa edib, İraqı məlumatlandırıbmışlar. Döyüşçüləri Dokuhəyə yolladıq və Əsgərlə Tehrana baş çəkmək qərarına gəldik. Hüseyn batalyonun başı üstə qaldı, biz isə Tehrana doğru yola düşdük.

# On beşinci fəsil

Əsgərin iki yaşında İlahə adlı qızı var idi və onun üçün çox darıxırdı. Buna görə də, birlikdə Əndimeşkə getdik, şəhərdə bir qədər gəzib hədiyyələr aldıq. Əlbəttə, hədiyyə almaq xüsusiyyəti məndə yox idi. Əsgər bacısı uşağına narıncı rəngdə köynək-şalvar aldı. Həmin gün Səfər əminin yeməkxanasında yemək yedik. Əsgər çox yeyən idi. Yeməyi çörəyin arasına qoyub tez-tez yeyirdi. Hətta plovu da, çörəklə yeyirdi. Həmişə yemək vaxtı zarafat edib adamı güldürürdü. O gün ondan bacısının yeddi uşağının olduğunu öyrəndim və dedim ki, İmam Zamana (ə.f) əsgər lazımdır. Mən də bacımla çox səmimi idim. Uşaqlıqda da, birgə oynayardıq. Mənim dərs yazmaqdan heç xoşum gəlmirdi. Odur ki, ona həmişə bir az pul verərdim ki, mənim dərslərimi yazsın. Bir dəfə o qədər əl-ayağıma dolaşıb məni incitdi ki, ölü bir böcəyi üstünə atdım, o, da çox qorxdu və qışqırdı.

Əsgər öz ailəsini çox istəyirdi. Lazım gələndə bacısına maddi yardım da edirdi. Hətta onun cehizi üçün çox pul vermişdi. Ana-atasına hörmət edərdi. Onların yanında

başını qaldırmaz və sözləri üstə söz deməzdi. Xüsusilə də, anasını çox istəyirdi və mən hər dəfə bu ana-oğul arasında eşq dolu əlaqənin olduğuna şahid olmuşdum.

Bir gün həmin məzuniyyət günlərində ailəmlə birlikdə Əsgərin evinə getdik. Bizim ailəvi get-gəlimiz vardı. Xanımlar bir-biri ilə səmimi idilər. Əsgərin atasının evi Tehranın qədim evlərindən idi. Böyük həyəti, həyətində hovuzu, aşağıda və yuxarıda 2x2 olmaqla 4 otağı vardı. Əsgərlə ailəsi yuxarı mərtəbədə yaşayırdılar.

Əsgər evlərinin həyətinin divarına gözəl xəttlə yazmışdı: "Ya Mehdi ədrikni". Evlərinin girişində, qapının üstündə quşlar üçün gözəl bir yuva tikmişdi. Çox ürəyi yumuşaq və rəhmli idi. Cəbhədə şir kimi qorxusuz və şücaətli idisə, yüz onun qədər də, məhəbbətli və mərhəmətli idi. O qədər ki, onu vəsf etməyə acizəm. Quşların yuvasına bir işıq qoymuşdu ki, yuvaları həmişə işıqlı və isti olsun. Deyirdi ki, quşlar bizim evimizdə qürbət hissi keçirməməlidirlər. Bu Allahın verdiyi bir eşq idi ki, Əsgərin qəlbindən saçılırdı. Bu qüdrət və heybəti Allah ona qəlblərə nüfuz etməkdən ötrü vermişdi. Bazarda işləyənlər və minbərə çıxanlardan tutmuş dini heyətdəkilər, məhəllə uşaqları - hamı onun xasiyyətini bəyənir və onu çox istəyirdi. Elə mən özüm də, onun uca ruhuna aşiq və heyran idim, hələ də heyranam.

Həmin günlərdə qərara gəldik ki, onunla ailəvi İmam Rzanın (ə) ziyarətinə gedək. Bilet aldıq və qərarlaşdığımız gün Fatimə ilə birgə aeroportda Əsgər qardaşı gözlədik. Bir-iki saat yubandıqdan sonra, gəlib çıxdı. Amma tək və narahat şəkildə! Ondan niyə tək gəldiyini soruşdum.

-Xəstə idi, gələ bilmədi - deyə cavab verdi.

Narahat oldum. Özlüyümdə düşündüm ki, səfərə bu vəziyyətdə getmək yaxşı deyil. Odur ki, dedim:

-Əsgər can, görünür, səninlə bu səfərə çıxmaq qismət olmadı. Biz birlikdə, sən tək gəzsən, yaxşı olmaz. Allaha xoş getməz. İnşallah növbəti səfərə birlikdə çıxarıq.

Əsgər xəcalətlə başını aşağı salıb dedi:

-Seyid, mən səninlə getmək istəyirəm. Amma bəlkə bir daha qismət olmaya.

-Qəm yemə qardaş, onsuz da axırı ölümdür.

-Hə, bel bağlamamalıyıq. Beləsi daha yaxşıdır.

Sonra da, getdi və bir daha birgə Məşhədə getməyimiz qismət olmadı.

Kərxəyə qayıtdıqda qüvvələr əməliyyata hazır idilər. Oradan Əsgər və Hüseyn Sazurla birgə Hürr briqada döyüşçülərinin yanına getdik. Burada başqa bir əməliyyat haqda danışırdılar. Amma deyilənlər yalnız bir ehtimal idi və kəşfiyyat qüvvələri bunu çox da ciddiyə almadılar. Bir-iki gün Hüseyn və kəşfiyyat qüvvələrinin yanında qaldıq. Kəşfiyyatçılardan biri dedi:

-Məndə bir xəritə var, "Kərbəla-4" əməliyyatının sxemi idi. İndi ki, əməliyyat ləğv edildi, ona baxa bilərsiz, onsuz da faydasızdır.

-O əməliyyatın planlarını bilmək, mənim üçün də maraqlı idi.

-Belə olmaz. Bir balıq qonaqlığı verməlisiz.

-Yaxşı, razıyam.

Ardınca Əsgər, Nasir Şərifi, Cabbar və digərləri ilə Əhvaza gedib Şəmşiri kababxanasında əla balıq plov yedik. Dostlar bir qədər "Kərbəla-4" əməliyyatı barəsində izahat verib niyə baş verməməsini də dedilər.

Günorta yeməyindən sonra, Kərxəyə bu fikirlə gəldik ki, qərargah razılıq versə, döyüşçüləri məzuniyyətə göndərək. Son dəqiqədə Hacı Məhəmməd xəbər yolladı ki, döyüşçülər hazırlaşsınlar və bütün məzuniyyətlər ləğv

edilsin. Özü də dedilər ki, əməliyyat ləğv edildiyi üçün İraq öz qüvvələrini məzuniyyətə göndərəcək və nəticədə cəbhə xətti boşalacaq. Odur ki, hücum edib özümüzə yer etmək üçün indi ən yaxşı fürsətdir.

Məzuniyyətlər ləğv edildikdən sonra, Əsgərlə birgə Hacı Məhəmmədin yanına gedib gördük ki, qərargahda əməliyyat haqda danışılır, yəni hər şey qaydasındadır. Oradaca təlimatlandırıcı iclas keçirildi. Hacı Məhəmməd xəritəni açdı. Gördük ki, Hürr batalyonu qüvvələrinin dediklərini deyir və əməliyyat ərazisi həmin "Kərbəla-4" əməliyyatının bölgəsidir, lakin daha kiçik və məhdud bir yerdə.

Mən xəritənin üzərindən Hürr qüvvələrindən öyrəndiyim məlumatı açıqladım və hər şey daha da aydın oldu. Hacı Məhəmməd dinləyib fikir söyləyirdi. Həmin iclasda Karun düşərgəsinə gediş tarixi barəsində də danışıldı.

İclas tamamlandı. Çadırlara qayıdarkən məharətli bələdçi olan Rza Məhəmmədini göndərdik ki, Karundakı çadırların mövqeyini nəzərdən keçirsin. Rza getdikdən sonra Mürtəza Behzadi və Hüseyn Babayi gəlib dedilər:

-Seyid, and veririk cəddinə, Rzanı bura qədər gətirmisiz, daha bundan sonrasını aparmayın. O, 4 ailəyə baxır. Özünün 3 uşağı var, bacısının əri ölüb, onun da 3 uşağı var. Anası və iki qardaşının da xərcini o verir. Rza evin böyüyüdür. Onunla danış və Tehrana qayıtması üçün razı sal!

Rza Karun düşərgəsindən qayıtdıqdan sonra, onu çağırdım, amma ağzımı açmağa imkan verməyib dedi:

-Seyid, başımı kəsmək istəsən kəs, amma anan Fatiməyə (s) xatir, mənə Tehrana qayıt sözünü demə.

Nə deyəcəyimi anlamışdı. Zirək idi. Təxmin etmişdi ki, dostları onun ailə durumundan mənə danışıb. O qədər yalvarıb-yaxardı ki, axırda qalmasına razılıq verdim.

Əlbəttə, varlığı işin gedişatı üçün lazım idi və mən də getməsini istəmirdim. Rza inqilab və müharibənin qədim mübarizlərindən idi. Bir dünya təcrübəsi vardı. Şah vaxtı hava qüvvələrinə üzv olub təlim görmüşdü. Hərbi istedadı da əla idi. İnqilabdan sonra, hərbi təlim kursunu "İmam Hüseyn (ə)" bazasında keçirmiş və tərifnamə almışdı. Bir müddət Həmzə və Tövhid bazalarının təlim komandiri olmuşdu. Hərbi danışığı və məlumat ötürməsi əla idi. Bir neçə dəfə yaralandığından bədənində güllə və qəlpə yeri vardı. Odur ki, çox rahat batalyon komandiri ola bilərdi.

Kərxə düşərgəsinə qayıtdıqda, orada yalnız iki çadır və qüvvələrdən bir neçəsi qalmışdı, digərləri Karun sahilinə getmişdilər. Bu məsələyə görə çox da təəccüblənmədim. Qüvvələrin yerdəyişməsi Hüseynin işi idi ki, o batalyonda ixtiyar sahibi idi. Günorta namazını Kərxə çadırlarında qılandan sonra, taktika bazasına qayıtdıq.

Yanvar ayının 8-ci axşamı kəşfiyyat taqımı gəlib Hacı Məhəmmədlə qüvvələri əməliyyat yerinə necə aparacaqları barədə danışırdılar. Onlar Hacı Məhəmmədə deyirdilər ki, İraq 3 metr dərinliyi olan balıq kanalının şərq hissəsinə su buraxıb. Oradan nə dalğıc keçə bilər, nə də qayıqla getmək mümkündür. Çünki qayıqların altı palçıqda ilişir. Suyun ortasına da beton səngərlər qoyaraq durbinlə baxır, gecə də olsa, tərpənən hər canlını DŞK ilə vururlar. Gecə və gündüzün hansı saatında getsən üç böyük qayığın DŞK və pulemyotla orada gəzdiklərini görə bilərsən.

Axırda qərara alındı ki, əməliyyat Beşbucaq, Kotsavari və Boyian bölgələri tərəfdə keçirilsin. Yəni 25 saylı

Kərbəla, 27 saylı Məhəmməd Rəsulullah və 41 saylı Sarəllah qoşunları bu üç mehvərdə üç qərargahın nəzarəti altında əməliyyat keçirsinlər. Tehranın 27 saylı qoşunu balıq kanalını keçməli, üç yolun müdafiəsini öz öhdəsinə almalı idi. Çünki üç yol, üç qoşunun qarşılaşacağı yer idi. İraq üç yolu ələ keçirsəydi, qoşunların üçünə də qarşı qətlam törədirdi. Bu üç yolun bir tərəfi Zovci kanalı və Şələmçəyə, bir tərəfi Nuniha və Ərvənd çayına, digər tərəfi isə qüvvələrin Bəsrə-Tənuməyə getmələri üçün beşbucaq bölgəsinə gəldikləri körpüyə çatırdı. Həmin gecə, yəni yanvar ayının 8-i, xətti bir daha görmək üçün 41 saylı Sarəllah qoşunundan bir taqım xəttə getdi və biz döyüşçülərin yanına - Karun düşərgəsinə qayıtdıq.

Yanvar ayı olsa da, hava çox da soyuq deyildi. Yalnız yağış şiddətlə yağdıqda hər tərəfi duman bürüyür və hava rütubətli olurdu. Bəzilərinin qalın paltoları vardı, bəziləri isə jaketlə gəzir, özü də soyuqdan qorxmurdular.

Oranın ön cəbhəyə yaxınlığına və düşmənin Ərvəndlə Karun çayına hakim olmaq istəyi vəziyyəti ağırlaşdırırdı. Xüsusilə də, qüvvələr get-gəl etmək üçün icazə alıb nəzarətlə getməli idilər. Həmişəki kimi orada da mən arxa cəbhə ilə qərargahın arasında əlaqə yaratmışdım. Əsgərlə Hüseyn isə batalyona nəzarət etməyi öz öhdələrinə almışdılar.

Ertəsi gün, xətt yaran qüvvələr yola düşüb şəhid Səfəvi yolunda olan Əhvaz-Xürrəmşəhr yolunun arasındakı sərhədlə 6 km məsafəsi olan Çəmran arxa cəbhə mövqeyinə getdilər. Orada təxminən 30-40 anbar, içində də qoşun əşyaları vardı. Bunlar azuqə, silah-sursat, nəqliyyat cihazları və yük maşınları idi. Hətta su və yanacaq anbarlarını da oradaca yerin altında yerləşdirmişdilər. Əməliyyatın başlanğıcı da 42 saylı

Sarəllah və Mazandaranın 25 saylı Kərbəla qoşunları ilə idi.

Axşam saat 9-10 radələrində batalyon komandirlərindən bir neçəsi kəşfiyyat qüvvələri ilə birgə qayıqlara mindilər. Onlar gedib bir çıxış yolu tapıb gəlməli idilər.

Gecə yarısı qayıtdılar. Gördüm ki, hamı təlaş və iztirab içində kəşfiyyatdan qayıtmayan iki kirmanlı kəşfiyyatçı haqda danışırlar. Yaxınlaşıb sual verdim. Dostlar dedilər ki, Kirmanın Zərənd bölgəsindən olan iki nəfər kəşfiyyat taqımından ayrılıb qabağa gediblər. Özü də hələ qayıtmayıblar. Onların gecikməsi batalyonu bir-birinə vurdu. Komandirlər həddən artıq narahat idilər. Əsəbləri pozulmuşdu və onların əsir düşərək əməliyyatın ifşa olduğunu düşünürdülər. Zahirdə sadə görünən bu məsələyə görə əməliyyatı bir gecə ertələmək məcburiyyətində qalacaqdılar.

Yanvarın 9-cu gecəsi səma ayın işığı ilə aydınlaşdı və iraqlıların yatdığını düşünən Sarəllah qoşununun xətt yaran taqımı hücuma keçdi. Əməliyyatın rəmzi “Ya Zəhra (s)” idi. Döyüşçülər plan üzrə irəliləyirdilər. Düşmənin xəbərsizliyindən kifayət qədər bəhrələnib qoşa kanala qədər, yəni Bəsrə-Tənumənin ən yaxın bölgəsinədək getdilər.

Meysəm batalyonunun qüvvələri hər baxımdan hazır vəziyyətdə idilər. Təchizat, silah-sursat, hər nə lazımdırsa götürmüşdülər və özləri də əhval-ruhiyyə baxımdan çox yaxşı idilər. Həmin gecə hansı birinin üzünə baxırdımsa, şəhadət nurunu görürdüm. Qəlbləri Allah eşqi ilə dolmuşdu.

Gecə yarısı, 27 saylı qoşundan Əmmar batalyonu hücuma keçdi və şiddətli döyüşə başladı. Səhər saat 5-də

Malik və Həbib batalyonu döyüş meydanına girdi. Saat 7-8 arası üç yolda döyüşün ən qızğın zamanı idi. Orada o qədər şəhid verdik ki, adı "ölüm, ya da şəhadət" üç yolu qaldı.

Yanvarın 10-a kimi bütün mina meydanları zərərsizləşdirildi, keçidlər açıldı və əməliyyat çox yaxşı irəlilədi. Planlar istədiyimiz kimi alındı. 25 saylı Kərbəla qoşunu da, meydana girib İraqın öncədən balıq kanalına tikdiyi körpünün üstündə döyüşürdülər. Düşmən elə bir vəziyyətdə idi ki, o qədər maneələrə rəğmən, yalnız irəliləyişimizin qarşısını almaq istəyirdi.

Səhərə yaxın qərargahda idim. Hacı Məhəmməd məni səsləyib dedi: "Seyid, sənin növbəndir. Qüvvələrini yola sal".

Hüseynlə danışıb qüvvələri hücum nöqtəsinə aparmaq qərarına gəldikdən sonra, Əsgərlə bir motosikletə minib üç yola doğru getdik. İkimizin də ayağı yaralandığı üçün piyada gedə bilmədik. Üç yolun başında sola dönüb motosikleti yerə uzatdıq. Əsgər motosikletin simlərini ayırdı ki, kimsə götürüb sürüb getməsin.

Beşbucağa daxil olduq. Möhsün Dinşuari fitlə qüvvələri yönləndirirdi. Bizi görən kimi fit çalıb: "Şəhərin cənublu balaları cənnətə getməyə gəliblər!"-deyə səslədi.

Telekommunikasiya məsulu Hüseyn Behişti məni görən kimi çağırdı:

-Seyid! Döyüş bölgəsinə girirsiz. İndi deyin görək siz üç nəfərdən hansı biriniz batalyonun komandiridir? Çünki əməliyyat kodunda bunu qeydə almalıyıq.

-Hacı Hüseyn, bu eşq qafiləsidir və biz üçümüz də bu karvanın itləriyik. Kim birinci hürsə, batalyonun komandiri odur!

Hamı gülməkdən qəşş etdi, gülüş səsimiz aləmi götürdü.

Qabağa gedəndə gördük ki, İraq balıq kanalının istehkamı ilə körpünün arasında suyun üstündə yol düzəldib. Təəccübləndim ki, suyun üstündə necə maşın yolu düzəldə biliblər?! Sonra bildik ki, bura su buraxmadan öncə, yerdən 4-7 metr hündürlükdə bu yolu tikiblər. Soruşun nə ilə? Qalın və yoğun su boruları ilə! Boruları qoyub üstünə torpaq tökərək yol düzəldib, sonra da iki tərəfindən suyu buraxıblar. Beləliklə, suyun ortasında yol düzəlib. Suyu da Ərayiz və Casim çaylarından gətiriblər. Yolun kənarlarına daş düzmüş, üstünə simli tor çəkərək belə möhkəm bir sel bəndi düzəltmişdilər. Suyun içi tikanlı məftillər, partlayıcı tələlər və minalarla dolu idi. Qayığın altı onlara dəysəydi partlayacaqdı. Tikanlı məftillərin üstünə 50 metrdən bir DŞK səngəri yerləşdirmişdilər. Bütün bunları etsələr də, döyüşçülərimiz hamısını geridə qoyub irəliləyə bilmişdi. Hətta ən önəmli olan qoşa divarlı kanalı da, ötmüşdülər. Yoldan keçdikdən sonra, çox sevindik. Gördük ki, Əmmar və Malik qüvvələri qoşa divarlı kanala yapışıb yolun çoxunu gediblər. Əməliyyat elə uğurla irəliləmişdi ki, yaxın zamanda Bəsrədə olacağımızı zənn edirdik. Döyüşçülər həqiqətən də, yaxşı vuruşmuşdular. Artıq məqsədimizə çatmaq üzrə idik.

İrəlidə üç yoldan bir az qabaqda atəşin şiddəti çoxaldı, buna görə də, tez-tez yerə uzanmaq məcburiyyətində qalırdıq. Orada Nüsrət Əkbərini gördük. Ona güllə dəydiyindən al-qana boyanmışdı. Huşsuz vəziyyətdə xərəkdə uzanmışdı. Biz də bu səbəbdən artıq onun şəhid olduğunu düşündük. Məlumat almaq üçün kəşfiyyat komandiri olan Seyid Müctəbanı axtarırdıq. O, hər şeyi

bilirdi və bizə yetərli məlumat verə bilərdi. Bir neçə metr irəlidə, at nalı şəklində bir istehkam vardı. İstehkamın üstündə Qasim Sadiqini gördüm. Ondan Müctəbanın harada olduğunu soruşdum.

-İndicə bir gülləyə tuş gəldi. Oradadır deyə, əli onu göstərdi. Gedib gördüm ki, güllə Seyid Müctəbanın düz alnının ortasına dəymişdi. Rabitəmiz yox idi ki, Seyid Müctəbanın şəhid olduğunu bildirək. Çarəsiz qalıb onu oradaca buraxdıq ki, yaralıları daşımağa gələnlər aparsınlar.

Bir neçə metr irəlidə Səid Süleymanini gördük. Bizdən qüvvələrimizin harada olduğunu soruşdu.

-Arxa cəbhəyə çatıblar və yavaş-yavaş əsas yerə gəlirlər.

-Bir az gözləyin, görək bura necə olacaq.

Əsgər də, mən də daha ətraflı məlumat öyrənmək üçün, bir az da irəliyə getdik. Ön cəbhənin ortasında batalyon komandirlərini gördük. Əmmar batalyonunun komandiri Rza Yəzdi istehkama söykənmişdi. Rza Bəxtiyarinin ağzına güllə dəymiş, qan içində bir tərəfə yıxılmışdı. Əhməd Nozad yorğun və toz-torpaq içində silahının darağını dəyişirdi.

Oradaca öz-özümə, qüvvələri necə yerləşdirəcəyimi planlaşdırdım. Sağ-sol və eniş yoxuşları incələdim ki, necə müdafiə olunmağımızı müəyyənləşdirim. Həmin əsnada atəş şiddətləndi. İraq istehkamı geri almaqdan ötrü təzyiq göstərirdi. Birdən gördüm ki, Həbib batalyonunun döyüşçüləri qabaqdakı istehkamdan geriyə doğru qaçırlar. Nə olduğunu anlamadım. Ordu ilə könüllülərin fərqi məhz budur; müharibənin qızğın vaxtı olsa da, bir neçə nəfər qaçdıqda, hamı qayıtmaq istəyəcək. Taqım başçıları onların ardınca qaçıb qışqırırdılar. Döyüşçüləri bir araya

toplayıb yol göstərmək istəyirdilər. Bir qədər də dözsəydilər, işin nəticəsi yaxşı olacaqdı. Geri çəkilmək mənasız idi. Amma atəş mənalı-mənasızın fərqində deyil, gəlib yandırır.

Tanklar döyüşçüləri qabaqlarına qatıb, at nalı şəkilində olan istehkamda özlərinə yer etdilər. İstehkamın arxasında bir neçə tərəfə dağılışdılar. Lülələri döyüşçülərimizə tərəf idi və atəş açırdılar. Özü də, hər nəfərə bir güllə! Əllahu-əkbər! Yolun üstündə də, DŞK səngəri düzəltmişdilər. Onlar üçüncü dərəcəli qüvvələrini DŞK səngərində saxlamışdılar ki, döyüşçülər yola çıxdıqda onları vursunlar. Növbəti mövqeyə ikinci dərəcəli qüvvələri yerləşdirmişdilər. Arxasında da nə qədər RPG vursan, təsir etməyən möhkəm sel bəndi vardı. Orada Əsgərə dedim:

-İndi bir komandir gəlməlidir ki, istehkam düzəldib tankların qarşısını alsın.

-Bu atəşdə kim gələ bilər? Dəli qanlı bir hərbçi lazımdır!- deyə Əsgər cavab verdi.

Əsgərlə söhbətləşərkən dostlar xəbər verdilər ki, Hacı Məhəmməd Meysəm qüvvələrinin gəldiyini bildirib. Səhər saat təxminən 11 idi. Qayıdarkən gördük ki, İraq üç yolu bağlayıb və döyüşçülərimizi qayçılamasına bir şey qalmayıb. Əsgərdən soruşdum:

-Burada bu qədər iraqlı yox idi. Bunlar birdən-birə haradan çıxdılar?

Düşmən tankları Həbib batalyonunun geri qayıtdığı yola şiddətli atəş yağdırırdı. Elə bir vəziyyət yaranmışdı ki, nə irəliləmək mümkün idi, nə də geri çəkilmək. İrəliləsəydik onlar üç qoşunu qətliam edəcəkdilər. Buna görə də, Səid Süleymanini görən kimi dedim:

-Səid can, mənim döyüşçülərim Həbib qüvvələrinin belə qayıtdıqlarını görsələr, öz ruhiyyələrini əldən verəcəklər. Bir şey fikirləş!”

-Nə etmək olar?

-İndi Hüseyn, batalyonu gətirir, döyüşçülərin hamısı onun sözünə baxır. O, necə davranacağını yaxşı bilir. Amma mən nigaranam, qorxuram ki, iş başlanmazdan qabaq korlansın.

Bir az geridə - üç yolun yaxınlığında gördüm ki, Hüseyn qüvvələri sıra ilə gətirir. Həmin anda İraq tərəfdən şiddətli atəş yağmağa başladı. Hüseyn əlindəki mikrofonla tez-tez deyirdi: “Yerə uzanın!”

Döyüşçülər hər minaatan mərmisinin partlayışı ilə yerə uzanır və yenidən ayağa qalxırdılar. Hüseynin yanına gedib dedim:

-Bir şey fikirləş, bunlar indi Həbib batalyonunun qüvvələri ilə qarşılaşacaqlar. Onlara üzləşsələr, nəzarət əlimizdən çıxacaq. Sonra da, toplamaq mümkün olmayacaq!

Hüseyn yüksək səslə əmr verdi: Qardaşlar! Silahlarınızın süngüsü ilə istehkamın ortasında tülkü yuvası qazın. Əmr gələnədək orada qalın!

Döyüşçülərin başı səngər qazmağa qarışdı, Həbib qüvvələri də yavaşca gəlib onların yanından keçdilər. Hüseyn atəşin altında mikrofonu Purəhmədin əlinə verib dedi:

-Bu vəziyyətdə ən güclü həll yolu Allahı yad etməkdir.

Rza Purəhməd xanım Zəhradan (s) danışdı və ürəklər təsəlli tapdı.

Mən də fürsəti uyğun görüb qüvvələri ayağa qaldırdım. Halları dəyişmişdi. Eşq cuşa gəldikdə kiminsə ürəyində qorxu olsa da, büruzə vermirdi. Qəlblər Allahın zikri ilə

aram oldu. Bəqi və Fədək taqımlarını at nalının sol tərəfinə, Neynəva ilə Kövsər taqımlarını da sağ tərəfə göndərdim.

Artıq döyüşün zirvə nöqtəsi idi. İraqla nəticəni məlum etməyə getmişdik. Üç tərəfdən də, hücumla qarşılaşdıq. Qan su yerinə axırdı.

Mikrofonu götürüb döyüşçülər arasında yeriyə-yeriyə rəcəz oxuyur, ruhiyyələrini yüksəltməyə çalışırdım. Bilmirəm bunu Allah üçün edirdim, ya özüm üçün?! Qorxduğumu gizlədib dik dayandım. Özüm də fəryad edirdim ki, ayağa qalx, oturma! Çünki vaxtımız yoxdur.

İstehkamları arxada qoyub irəliyə getdim ki, Məhəmməd Kövsəri ilə danışım. Bir saat sonra, döyüşçülər yorulduqda hansı batalyonun onlarla yerini dəyişəcəyini düşünürdüm. Hacı Məhəmməd gələn kimi dedi:

-Bir taqımını da, at nalının kənarında dayandırmalısan ki, iraqlılar üç yolu ələ keçirməsinlər. Diqqətli ol! Bu üç yol çox önəmlidir. Üç qoşunun canı həmin üç yola bağlıdır.

Oradan rabitə vasitəsilə Hüseyn Tahiri ilə əlaqə saxladım ki, üç yolu qorumalarını tapşırım. Hüseynlə məsafəmiz təxminən 500 metr olardı.

Hüseynə zəng edib xəbərdar etmək istədim.

-Süleyman 2, Süleyman 2.

-Süleyman 2, eşidirəm.

-Mahmud Julidənin taqımını at nalının yanına göndər. Üç yolu qorusunlar.

-Süleyman 2, baş üstə!

Mahmud Julidənin mövqeyini müəyyən etdikdən sonra, arxayın oldum. Yarım saat sonra, yenə əlaqə saxladım ki, Hüseyndən bir məlumat ala bilim.

-Süleyman, Süleyman 2, Süleyman..

Cavab gəlmədi. Bir neçə dəfə çağırdıqdan sonra, bir nəfər cavab verdi:

-Süleyman 2, Süleymanı diş ağrısı tutub. Dişindən qan gəlir.

Tez üç yola getdim. Gördüm ki, minaatan mərmisi düz döyüşçülərin arasına düşüb. Hüseyn yerindəcə şəhid olub, taqım başçısı da yaralanıb. Əkbər Sərpuşanın üzünə qəlpə dəydiyindən, o da qan içində idi.

Dünya gözümdə qaraldı, ixtiyarsız ağlamağa başladım. Hüseyn batalyonun sütunu idi. O, döyüşçüləri iş başına aparmalı idi. Bundan böyük müsibət ola bilməzdi. Döyüşçülərləköməkləşib Hüseynin cəsədini Toyotanın arxasına qoyduq. Yaralıları da mindirib maşını yola saldıq. Amma Əkbər Sərpuşan getmədi. Onun yarasını sarğı ilə bağladılar. Nə qədər israr etsəm də, qayıtmağa razı olmadı.

Əkbərdən əlavə, yaraları yüngül olanların hamısı qaldı. Onlar Əkbərin dözümlülüyünü görüb ayağa qalxdılar, yüksək ruhiyyə əldə etdilər. Hamısı silahlarını götürüb işlərinin ardınca getdilər.

Mahmudun taqımından qalanları topladıq. Mürtəza Behzadi onları qorumaq üçün at nalı istehkamının arxasına topladı. Həmin gün günortadan sonra, saat 4-ə kimi İraq döyüşçüləri başımıza atəş yağdırdı. Onlar günorta saat 5-dən sonra, sürətlə geri çəkilməyə başladılar. Piyada qüvvələri geri çəkilsə də, əvəzinə 200 ədəd T-72 tankı gəlib, bizi oradan çıxartmaq istəyirdi. Sərrast atışlarla istehkamları dağıdırdılar.

Qürub vaxtı döyüşçülərin bəziləri, qazdıqları çuxurda yerləşmək məcburiyyətində qaldılar. Tanklar at nalı

istehkamının 150 metrliyinədək gəldilər. Bundan artıq irəliləməyib, yerlərində manevr edərək atəş açırdılar.

Axşam namazından qabaq, bir raket gəlib düz at nalı istehkamına dəydi. Mahmud Julidə və Həsən Babayi çox ağır yaralandılar. Rza Məhəmmədi də yerindəcə şəhid oldu.

Mahmuda yüzdən çox qəlpə dəymişdi. Qarnı, ayağı, üzü... Hamı şübhəsiz onun şəhid olduğunu düşünürdü. Atəş kiməsə rəhm etmirdi, hər yeri dağıdaraq, batalyonu bir-birinə vurdu.

Qürub vaxtı o qiyamət qopmuş səhrada oturmuşdum və sanki Kərbəlanı gözlərimlə görürdüm. Pəhləvanlar batalyonu gözümün önündə məhv olurdu. Ətrafım yaralı, əl-ayağı kəsilmiş şəhidlərlə dolu idi.

Batalyonun atası olduğumu iddia edirdim, amma o vahiməli atəşdə əlim heç yerə çatmırdı. Döyüşçülərim gözümün önündə gül kimi dərilirdilər və mən tamaşaçı kimi oturub izləyirdim.

Bu fikirlərə qərq olmuşdum ki, Əsgər gəldi. Qəlpə çənəsinə dəydiyindən üzü qan içində idi. Gözləri hər şeyi iki görürdü. Çəfiyəsini yuvarlayıb üzünə tutmuşdu. Özü də pərişan və halsızca yanıma oturdu.

-Sənə güllə dəyməməli idi, Əsgər qardaş. Ayağa qalx, geriyə get. Burada qalma!

-Bir şey deyil. Davam etdirə bilirəm.

-Döyüşçülər səni görsələr, ruhdan düşəcəklər. Onlar öz komandirini yaralı görməməlidirlər.

Yazıq Əsgər heç vaxt sözüm üstə söz deməzdi. O qədər həyalı insan idi ki, heç nə demədən ayağa qalxıb getdi.

Bir saat keçdi. Ayağa qalxıb döyüşçülərin arasından yavaşca keçdim ki, istehkamın o biri tərəfinə gedim. Birdən bir qəlpə gəlib qoluma dəydi. Qəlpə dəyən qolum

indiyə qədər iki dəfə yaralanmışdı. Qəlpə qolumun arxasına dəyib dəlmişdi. Oturub çəfiyəni yaranın üstünə qoydum. Amma qan təzyiqlə axırdı və bir dəqiqə içində paltarlarım al-qana boyandı. Nə halda olduğumu xatırlamıram. Ağrı hiss etmirdim. Bədənim isti idi. Orada insan öz ağrısını unudur. Başımı qaldırıb hava qaraldıqca atəşi azalan İraq cəbhəsinə baxırdım.

Atəşin şiddətli vaxtında döyüş meydanının igidlərindən olan Əli Zakani gəlib çatdı. O vəziyyətdə şücaətli, ixlaslı və idarəçilik bacarığı olan birinin gəlib çatması, çox dəyərli idi. Hədsiz dərəcədə yorğun idim, amma Əli Zakanini gördükdə rahat oldum. Ratsiyanı ona verdim. Zakanini Allah göndərmişdi. Demək olar ki, mənim, şəhid olan Hüseyn Tahiri və yaralanan Əsgərin işləri onun öhdəsinə qaldı. Dostlardan ayrılmaq çətin idi, lakin dərdimizin yeganə dərmanı Allaha təvəkkül etmək idi.

Qəm-kədər içində və yaralı halda istehkama söykənmişdim ki, qaranlıqda bir nəfərin mənə doğru gəldiyini gördüm. Uzaqdan ağ əmmaməsi olan bir ruhani olduğunu düşündüm. Yaxınlaşıb qalınlaşmış xırıltılı səslə dedi:

-Bu Seyid Əbülfəz kimdir?!

-Onunla nə işin var qardaş?-deyə soruşdum.

-Deyirlər ki, yekəxanalıq etməkdən ötrü cəbhəyə gəlib!

-Nə üçün gəldiyi sənə qalmayıb, boş-boş danışma?

-Deyirlər özü də yalnız bir nəfərdən söz eşidir, adı Əsgər Ərsəncanidir. Amma ona Ələsgər deyirlər.

-Ələsgər burda yoxdur.

-Deyirlər ki, sən onun şagirdisən!

Birdən ayağa qalxıb üzünə diqqətlə baxanda gördüm ki, Əsgərin özüdür! Üzünü sarğı ilə bağlayıblar. Ona görə də,

onu tanımamışam. Üzünün sarğısı qana boyanmışdı. Gözləri halsız görünürdü. Görən kimi ondan soruşdum:

-Əsgər, sənsən?!

-Hə, mənəm.

-Necə qayıtdın? Niyə qayıtdın?

-Səhiyyə şöbəsinin motosikletini götürdüm. Simlərini qurdalayıb işə saldım. Buradan uzaqlaşmağa ürəyim gəlmədi.

Əsgər mərd bir lotu olduğunu sübut etdi. Onun gəlişi ilə ruhlandım. Ondan elə məhz bunu gözləyirdim. Ən pis anda arxa-dayağım oldu.

Qollarımı açıb dedim:

-Gəl, Əsgər can. Gəl bir səni qucaqlayım. Bir neçə saatdır ratsiyadan deyirəm ki, bir traktor göndərsinlər. Zənnimcə, iraqlılar buranı almaq üçün yenə hücuma keçəcəklər. Bu tərəfdə canlı insan divarı dayanıb, bir neçə RPG silahı ilə. O tərəfdən isə, heç bir şey təsir etməyən polad tanklar. Düşmən 100 metrdən bir istehkamların arasını boş saxlayıb ki, tanklar onun hər iki tərəfində rahat hərəkət edə bilsinlər.

Əsgərin halı pis olsa da, səhərədək səngərdə yanımda qalıb döyüşü idarə etməkdə və yeni qüvvələr gətirtməkdə mənə yardım etdi.

Nəhayət, gecə yarısı bir traktor gəlib çıxdı və darmadağın olmuş istehkamları möhkəmləndirib bir-birinə yapışdırdı. Bundan sonra, bizim müdafiə xəttimiz nisbətən yaxşılaşdı. İraqın atəşi də bir qədər səngidi. Amma mənim qəlbimdə olan atəş və narahatçılıq hələ soyumamışdı. Necə bir iztirabım olduğunu yalnız Allah bilirdi. Bilirdim ki, tanklar sabah əks-hücum etməkdən ötrü gəliblər. İndi atəşləri dayansa da, özlərini sabaha hazırlayırlar. Bunları düşünərkən səsgücləndiricidən gələn bir səs mənim fikrimi

yayındırdı. Ayağa qalxıb istehkamın arxasından öz cəbhəmizə boylandım. Səs oradan gəlirdi. Heyrət içində Hacı Bəxşinin maşınını gördüm. Şələmçə düzənliyinin ortasında heç nədən xəbərsiz üç yola doğru gedirdi.

Maşın, arxasında gizləndiyimiz balıq kanalının 200 metrliyinə çatdı. Hacı Bəxşi döyüşçülərin yanına adətən bu şəkildə gələrdi. Şirniyyat, yemək-içmək, mərsiyə və gözəl sözləri onların əhval-ruhiyyələrini yüksəldirdi. O, çox mənəviyyatlı və təcrübəli bir kişi idi, varlığı bir çoxları üçün nemət idi. Düşünürdü ki, Şələmçə də Fav kimidir və adəti üzrə, mikrofonda rəcəz oxuya-oxuya ön cəbhəyə doğru gəlirdi. Birdən bir mərmi gəlib düz onun maşınına dəydi və bir anda partlayıb yandı. Hacı Bəxşi çölə atıldı və gözümüzün önündə maşında oturan iki sərnişin diri-diri odda yanmağa başladı. Alov maşından çölə çıxır, həmin iki nəfər də xilas olmaq üçün çalışırdılar. Sərnişinlərdən biri əli ilə odu söndürmək istəyirdi, amma bacarmadı. Alov qələbə çaldı və hər ikisi şəhid oldu. Biz də baxa-baxa qaldıq və əlimizdən heç bir iş gəlmədi.

Həmin gecə səhərədək oyaq qaldıq. Zikr deyib dua etdik. Hərdən maşında yananların səhnəsi gözümün önündə canlanırdı. Səhərə yaxın ağlıma gəldi ki, cəsur döyüşçülərdən ibarət taqımlardan batalyonun fədai dəstələrini təşkil edim. Bunlardan Neynəva taqımının başçısı Hüseyn İsmayıl, Fədək taqımının başçısı Mahmud Ata, Bəqi taqımının başçısı isə Əsgər Qudərzi oldu. Hər birinə RPG, iki qumbaraatan dəstəkçi və qumbara verdim. Qərara gəldik ki, sabah bunlar döyüşçülərdən 100 metr irəli gedib səngər düzəltsinlər, hamıdan öncə atəş açıb özlərini fəda etsinlər. Onlar düşmənin başını qatan kimi, digər döyüşçülər hücuma keçəcəkdi.

Gözlədiyimiz kimi ertəsi gün səhər çağı İraq tankları işə salındı və atəş yağdırmağa başladı. Əsgər Qudərzinin dəstəsi işə başlayan kimi iki tankı partlatdılar. Beləliklə, yavaş-yavaş tankların yolunu kəsdilər. Əsas məqsəd tankların tırtılını zədələmək və ya benzin bakını partlatmaq idi.

İraq qüvvələri günortaya kimi istehkamların başlanğıcını hədəf seçmiş, dayanmadan atəş açırdı. Taqımlardan birinin başçısı Məhəmməd Cəfəri ratsiyadan bildirdi ki, tankların arxası düşmən döyüşçülərilə doludur.

-Narahat olmayın! Siz döyüşə davam edin. Allah özü yardım edəcək.

Səhərdən arxasında olduğum istehkamdan aşağı enib durbinlə baxıb gördüm ki, doğrudan da, iraqlılar tankların arasından gəlirlər. Dəqiqə başı da istehkama minaatanla atəş açırdılar.

Torpaq, yolun ətrafındakı suyu canına çəkmişdi və yer bataqlıq kimi idi. Mərmi bataqlığın ortasına dəydikdə yüzlərcə balıq yolun ortasına səpələnirdi. Məcid Ramazanla Hacı İbadianın cənazələri balıqların ortasına düşüb qalmışdı.

Hacı Məhəmmədlə əlaqə saxladım və İraqın piyada qüvvələrinin macərasını ona danışdım. Cavab verib dedi:

-Şəhadət batalyonunu meydana gətirəcəyik.

-Nə edək, onları gətir, amma bir mərmi dəydikdə üçünün yerinə altısı şəhid olacaq. Bizim artilleriyamız olmalıdır.

-Məncə alınacaq.

-Bizim döyüşçülərimiz var. Hələlik bunlar davam edirlər. Bu iş piyada döyüşü ilə mümkün deyil. İraqlılar üstümüzə tanklarla gəlirlər.

Biz danışıb qurtarmamış, atəş bir qədər də şiddətləndi. Ratsiyanı orada buraxıb gəldim və gördüm ki, döyüşçülər aciz qalıblar. Tanklar istehkamın yüz metrliyində get-gəl edib atəş yağdırırdılar. Buna görə də, döyüşçülərimiz şoka düşmüşdülər. Düşmənin piyada qüvvələri tankların arxasından çıxıb istehkama qalxdılar. Boyları iki metrə çatırdı, hamısı da boynuyoğun! Biz tərəfdə isə uşaqların hamısının boyu bir metr yarım ola, ya olmaya. Əlbəyaxa döyüş başlandı.

Mürtəza Behzadi ilə başqa birisi qışqırdı:

-Seyid, seyid! Gəldilər, gəldilər! Nə edək?!

-Mən nə deyim?! Nə edim? Məgər sən təlim məşqçisi deyilsən?! Məgər döyüşməyə gəlməmisən?! Müharibədir, nə etməyə gəlmisən? Qüvvələrini göndər qabağa döyüşsünlər. Sən də get onların yanlarında dayanıb yol göstər.

Allah məni bağışlasın, eynilə bu şəkildə başlarına qışqırıb onları silkələdim. Ardınca da ratsiyanı götürüb istehkamın üstünə, döyüşçülərin yanına getdim ki, məni görüb ruhlansınlar. Gördüm ki, döyüşçülər iraqlılara hücum çəkib onları gah bıçaqla, gah da qumbara ilə cəhənnəmə göndərirlər. Dostlardan biri qumbarayla bir iraqlını özü ilə birgə partlatdı.

15-20 dəqiqə əlbəyaxa döyüş davam etdi və 5-6 şəhid verdik. Allahın köməyi ilə iraqlılar qaçdılar, tanklar da geri qayıtdılar. Döyüşçülər RPG silahlarını götürüb onları qovurdular. Sanki möcüzə baş vermişdi. Orada iraqlıları çoxlu sayda itkiyə məruz qoyduq. Öndə gedən taqım 12 ədəd tank partlatdı, amma özlərindən 2-3 nəfəri şəhid oldu.

Şəhadət batalyonu gəldikdə, onları üç yolun sol tərəfinə göndərdik. Öz qüvvələrimizi də, sağ tərəfə apardıq ki, bir

az dincəlsinlər. Şəhadət batalyonu bizim ehtiyat batalyonumuz idi, amma bölgəni bizim kimi tanımırdılar. Cavad Sərrafla müavinləri məlumat almaq üçün mənim yanıma gəlmək istəyirdilər, amma bədbəxtçilikdən bir minaatan mərmisi düşdü və hamısı yerindəcə şəhid oldular. Şəhadət batalyonu başsız qaldı və Cavadın müavini olan Əkbər Atifi komandalığı öz öhdəsinə götürdü. Əkbər yanımıza gəldi. Biz də ona yetərli məlumat verib və bu bir-iki gündə başımıza nələrin gəldiyini danışdıq. Şəhadət batalyonu da, işə başladıqda sonra, vəziyyət bir qədər yaxşılaşdı. Onlar təzə gəlmişdilər, enerjili olduqlarından işi daha yaxşı idarə edirdilər. Bizim qüvvələr çox da döyüşə girişmədilər. O döyüşdə şəhadət batalyonunun döyüşçülərindən 5-6 nəfəri əsir alındı. Bizim qüvvələrdən də bir neçə nəfər itdi və başlarına nə gəldiyi bilinmədi. Amma iraqlılar geri çəkildi. Əlbəttə, bu ən önəmli məsələ idi.

Axşamüstü Tav raketləri olan Zülfüqar briqadasının qüvvələri gəldi. Onlar çatan kimi, tankların canına düşdülər. Yarım saat sonra, Bəqi və Fədək taqımları İraqın təzyiq göstərdiyini bildirdi. Durbinlə baxanda gördüm ki, 4 tank eynilə oyuncaq kimi bir-birinə yapışmış halda sel bəndindən üzü yuxarı gəlirlər. Deyəsən sağ tərəfdən bizi qayçılamaq istəyirlər. Üç yoldan at nalına tərəf gedərkən istehkamın sağ tərəfinə baxırdım və birdən nalə səsi eşitdim. Səs gələn tərəfə getdim. Gördüm ki, Müctəba Cavadzadə bir tərəfə düşüb. Sağ böyrünə qəlpə dəymiş və bir ovuc qədər dəlik açılmışdı. Üzü, başı toz-torpaq və qan içində idi. Ona tərəf gedib əlimi başının altına qoyub dedim: “Müctəba can, bir şey olmayıb. İndicə xilasedicilər gələcək”.

Amma öz aləmində idi. Gözlərini yumub inildəyirdi. Axırda qırıq-qırıq səslə dedi:

-Qanımla... Qanımla yazmaq istəyirəm.. Ya Zəhra yazmaq istəyirəm...

-Müctəba, nə olub?!- deyə soruşdum.

-Seyid, narahat olma. O dünyada sənə şəfaət edəcəyəm!

Sonra əlini böyrünə tərəf aparıb yarasına əl çəkdi. Əli qana boyandı. Son sözü "Ya Zəhra! ya Zəhra!" oldu. Sözünü bitirən kimi nərə çəkib şəhid oldu.

Xilasedicilər gəldikdən sonra, mən ayağa qalxdım. Düşmən hələ də atəş açır, ratsiyadakı dostlar isə şəhidlərin adını sayıb deyirdilər: "Filankəs və filankəs getdi.".

Bir az aralıda Əhməd Firuz qan içində yerə yıxılmışdı. Əhməd Hafizin şeirlərini əzbər bilirdi. Axşamlar çadırda oturub şeir məclisi qurardıq. Hacı Məhəmmədlə əlaqə saxlayıb soruşdum:

-Hacı, nə xəbər var? Sağ tərəfi ələ keçirirlər. Məgər 25 saylı Kərbəla batalyonu orada deyil?

-Onlarla əlaqəmiz kəsilib.

-Əsgər, nə edək? Düşmən yaxınlaşır.

-Özünü göstər, seyid!

Ayağa qalxdım. Tankların lüləsi istehkamın sağ tərəfində idi. RPG silahını əlimə aldım. Həzrət Zəhranı səsləyərək dedim: "İlahi, mənim döyüşçülərimin məğlub olmasına imkan vermə!"

Nişan alıb atəş açdım. Xoşbəxtlikdən mərmi tankın lüləsinə girib partladı. Döyüşçülər ruhlandılar. RPG qumbaraatanalar işə başladı, tankların dördünü də vurub 18 nəfəri əsir aldıq. Düşündüm ki, indi bu qalmaqalda əsirləri hara aparaq? Geri göndərə bilməzdik.

Döyüşçülər yorğun olduqlarını büruzə vermirdilər. Döyüşməyə halları qalmamışdı, amma hələ də ayaq üstə

idilər. Artıq 3 gün idi ki, düz-əməlli yemək yeyib, yatmamışdılar. Amma Allah tərəfi yaxşı dözdülər. İşin ora gəlib çatması üçün, bütün batalyonlar yardım etdilər. Tankları partlatdıq. Amma İraq üçün birinci günlə, dördüncü günün arasında heç bir fərq yox idi. Hətta atəşi daha çoxalmışdı. Qarşımdakı tankları məhv edirdim, başqa tanklar göndərirdilər. Əlində RPG qumbaraatanı olan fədailər yorğun-arğın vəziyyətdə özlərini istehkamın arxasına atdılar. Hüseyn İsmayıl o qədər RPG vurmuşdu ki, qulağının ətrafı və boynu qana boyanmışdı. Şübhə yox idi ki, qulağının pərdəsi yırtılmışdı.

Döyüşçülər Hüseyni gördükdə cana gəlirdilər. Buna görə də, Hüseyni Şələmçə pələngi adlandırırdılar. Doğrudan da, o, bu ada çox layiq idi. Nə qorxu bilərdi, nə də yorğunluq. Hüseyn kimilərdən Meysəmdə çox vardı. İraqlıların canına qorxu salan məhz bu aslanlar idi.

Ratsiya ilə əlaqə saxlayıb yaralıları daşımaq üçün maşın göndərmələrini istədim. Dedilər ki, körpü bağlandığından təcili tibbi yardım maşınının gəlməsi üçün yol yoxdur. Körpünün üstündə o qədər yanmış Toyota, tank və silah-sursat vardı ki, hətta adam da keçə bilməzdi, qaldı ki, təcili tibbi yardım maşını. Günorta vaxtı traktor gəldi və körpünün üstündə nə vardısa, hamısını çevirib kanala tökdü. Yaralıların sayı 100 nəfər olardı.

Təcili tibbi yardım maşınları gəldi və bütün yaralıları maşına yığıb apardılar. Sanki orada Allah kiminsə şəhadətə layiq olub-olmadığına baxmırdı, hamı bir ucdan şəhid olurdu.

Yaralılara nəzər salarkən, gözüm məhəlləmizdə yaşayan Abbas Şukuhiyə sataşdı. Qoluna qəlpə dəymişdi. O, Meysəm batalyonunun qoçaqlarından sayılırdı. Xırda cüssəli olsa da, ədəb-mərifəti hər şeyə bəs idi. Ona fikir

vermişdim. Çox yaxşı döyüşürdü. Döyüşə girişdikdə, qarşısını heç nə ala bilməzdi. Özü də həmişə Əsgərə deyirdi: “Biz Bağbisim məhəlləsinin uşaqları və Təyyibin məhəllə dostlarıyıq, heç vaxt namərdlik etmərik”.

Abbası təcili tibbi yardım maşınına mindirdilər. Əsgər qabağa gedib başını maşının pəncərəsindən içəri salıb dedi:

-Çox bilmiş! Təyyib demişdi ki, Xomeyni həzrət Zəhra (ə) balasıdır. Heç vaxt onu tək qoymaram. Sən isə bu seyidi tək qoyub aradan çıxırsan, özü də belə bir mərəkədə!

-Hacı Əsgər, yaralıyam.

-Yara nədir?! Noxud boyda qəlpə dəyib. Aradan çıxıb Tehrana getmək istəyirsən?

Abbas heç nə demədi. Yalnız Əsgərə baxdı. Sonra da, maşın yola düşdü və getdilər.

Bir neçə dəqiqə sonra, Abbas geri qayıtdı. Ayaq üstə dura bilmirdi. Başından da qan axırdı. Üzümü Əsgərə tutub dedim:

-Hacı Əsgər, gördün, Abbas qayıtdı!

-Sizə demişdim ki, biz namərdlik etmərik -deyə Abbas dilləndi.

Üç yola doğru getdi. Müvazinətini itirmişdi, yol yeriyə bilmirdi. Dalınca yaşlı bir kişi gəlib dedi: “Mən həmin təcili tibbi yardım maşınının sürücüsüyəm. Siz bu uşağa nə dediniz ki, yolun ortasında məni təhdid edib maşını saxlamağı tələb etdi! Mən dayanmayıb yoluma davam etdim. Düşündüm ki, cavandır, bədəni istidir yaralandığını anlamır. Birdən əsəbiləşib başı ilə maşının şüşəsinə sındırdı.

Bu macəra da belə gəlib keçdi. Axşam azanında istehkamın arxasında çəkmə ilə oturmuş halda namazımı

qıldım. Namazdan sonra, Hacı Məhəmməd məni çağırdı. Yanına getdim. Hacı səngərdə oturmuşdu. Simasından da aydın idi ki, ən azı döyüşçülər qədər vuruşub. Əlbəttə, onun məsuliyyəti hamıdan ağır idi, çünki bir neçə batalyonu idarə etməli idi. Məni görən kimi dedi:

-Baş qərargahdan bildirdilər ki, burada qalmaq lazımdır, bir qədər də irəliləyib iraqlıların yerinə keçməliyik. Bunlar gec-tez üç yolu ələ keçirəcəklər. Siz bir şey etməlisiz...

-Hacı! Hara gedək? Əməliyyatın ilk gecəsi olduqda kəşfiyyat qüvvələri yol açır. Biz də ardınca hücuma keçirik. İndi isə iki gündür ki, buradayıq. Döyüşün üçüncü gecəsidir. Əldən düşmüş döyüşçülərlə nə etmək mümkündür?! Bizim getməyimiz faydasızdır.

-Əmr yuxarıdan gəlib. Bu gecə hücuma keçməlisiz.

-Biz bunu etməyəcəyik!

-Siz bu qədər iddianızla hələ əməliyyata başlamamısız, yalnız müdafiə olunmusuz.

-Bizi dəyərləndirmənizi istəmirik. Əgər müdafiə idisə, 4 yerin müdafiəsi idi. Kor deyildik, camaatın uşaqlarının nə etdiyin gördük. Başqa batalyonlar hücum etsinlər.

-Yox, onlar daha heç nə etmirlər. Siz dillərə düşmüsüz, siz bir şey edin.

-Şəxsən mən heç nə etməyəcəyəm.

-Bu bir əmrdir.

-Mənə nə edəcəksən ki?! Kişisənsə, özün nəsə et. Mən bir könüllü döyüşçüyəm. Bu qədər korpus keşikçisi var. Onları göndər, onlar nəsə etsinlər. Mən bu əmri yerinə yetirməyəcəyəm.

-Əsgər, buna bir söz de!

Əsgər əsəbiləşərək dedi:

-Bu əmrin icrasının bir faydası olmalıdır. Seyidin nəsə deyib-deməməsi mühüm deyil. Burada bizi qeyri-mümkün işin dalınca göndərirsiz!

Mübahisə uzanırdı. Hacı Məhəmməd nə qədər israr etdisə, razı olmadım. Axırda dedim:

-Get, gör oradan nə xəbər ala biləcəksən. Bu gecə qüvvələrimin oraya getməsinə icazə verməyəcəyəm. Sən get, hamıya de ki, seyid qorxub! Eybi yoxdur.

Hacı Məhəmməd əsəbiləşdi. Ənsarul-rəsul batalyonunun komandiri Cəfər Möhtəşəmə zəng etdi. Bizim əvəzedicimiz olan Şəhadət batalyonu dağıldığı üçün döyüşə bilməzdi. Odur ki, Hacı, Cəfəri çağırıb dedi:

-Siz hücuma keçməlisiz.

-Meysəmin 700 döyüşçüsü var. Biz isə yalnız 200 nəfərik - deyə Cəfər cavab verdi.

-Onlar döyüşdən imtina etdilər!

Bir neçə dəqiqə sonra, Cəfər və Ənsar batalyonunun qəhrəman taqım başçısı olan Purəhməd ilə Hacı Əmini gəldilər. Hacı Məhəmmədlə aramızda olan həmin macəra indi də Purəhmədlə Cəfər arasında təkrarlandı. Elə buna görə də Cəfərə dedim:

-Məsləhət sənindir, sən məndən daha çox bilirsən. Amma məncə bu işi görməyin.

Hacı Məhəmmədlə qərargah kadrları cəmi 20 nəfər olardılar. Mübahisənin axırında onlar qələbə çaldılar. Hacı Məhəmməd onlara dedi:

-Tez hazırlaşın! Hücum etməlisiz.

Purəhməd qüvvələri buraxılış nöqtəsi olan at nalının arxasına apardı. Biz beş nəfər istehkamın arxasından qaldıq. Mən, Məhəmməd Kövsəri, Əkbər Atifi və Cəfər Möhtəşəm sıra ilə istehkamın başında dayanmışdıq. Hacı Məhəmməd mənim əlimdən əsəbi idi. Üzündən qəzəb

yağırdı. Yaralılar istehkamın digər tərəfinə atılmışdılar. Onları nə yanımıza gətirə bilirdik, nə də orada buraxıb gedə bilirdik.

Purəhmədin qüvvələri qaranlıqda yavaş və səssizcə irəliləyib bir anda hücuma keçdilər. Təxmin etdiyim kimi oldu. Sıra ilə dayanan tanklar projektorlarını yandırdılar və düzənlik bir anda gün kimi işıqlandı. Düz 200-dən çox tank vardı, eynilə kinolardakı kimi!

Onların atəş açması ilə döyüşçülər xəzan görmüş yarpaqlar kimi töküldülər. Bir az geridə olanlar yerə uzandılar ki, heç olmasa, tank mərmilərinə tuş gəlməsinlər.

Bir neçə dəqiqə sonra, Purəhməd at nalı istehkamının yanından bizim yanımıza gəldi. Bıçaq vursaydın, qanı çıxmazdı! Çox hiddətlənmişdi. Məni bir qədər danladıqdan sonra, dedi:

-Elə bilirsən çox ağıllısan, hə?!"

-Yalandan hay-küy salma. Mən Cəfərə demişdim ki, bunu etməyin, indi vaxtı deyil.

-Yaxşı, aranı qızışdırma daha.

-Qızışdırmaq nədir?! İraqlıların düzənlikdə bizi gözlədikləri məlum idi. Siz ki, bunu bilməliydiz...

Mübahisə bir saat nəticəsiz davam etdi. Komandir olmaq belədir - ən ağır məsuliyyət və dəqiqə başı əsəblərin pozulması.

Gün çıxana kimi sağ qalanlar və yaralılar sürünərək geri qayıtdılar. Xilasedicilər də ağır vəziyyətdə olanları istehkamın arxasına apardılar. Cəfər Möhtəşəm təcrübəsinə əsasən, axırıncı taqımı göndərmədi. Yalnız iki taqımla hücuma keçdi. Bu da səhərə kimi davam etdi.

Səhər İraq tanklarının sırası dəyişdi. Nə olacağı aydın idi. Tanklar düzənlikdə bizi gözləyirdilər. Həmin gün

həzrət Zəhranın (s) şəhadət günü idi. Hüseyn Sazuru çağırıb dedim:

-Hüseyn, Aşura ziyarəti oxu!

Hüseyn oradaca istehkamın arxasında oturub Aşura ziyarəti oxudu. Biz də onu əhatəyə alıb doyunca ağlayaraq, mənəvi cəhətdən rahatlaşdıq. Həmin anda yeni gələn və cəbhə xəttini bizdən təhvil almaq istəyən İmam Hüseyn (ə) batalyonunun qüvvələri sol tərəfimizdə əyləşərək bizimlə birgə dua oxudular. Batalyon komandirləri isə, onları çağırıb gəlməməklərinin səbəbini soruşurdular.

Artıq Şəhadət üç yolunun adı dillərə düşmüşdü. Bu yolun macərası hər yerdən fərqlənirdi. Bura elə bir qətlgah idi ki, ora ayaq basıb baş verən müsibətləri görənlər qəribə hal tapıb həzrət Zəhranı (s) xatırlayırdılar. Dünən gecəyə kimi danışıb gülmək səslərini eşitdiyimiz gənclər, bura çatdıqda səssiz-səmirsiz fikrə dalıb, qəm dəryasına qərq olurdular.

Səhər saat 10-11 arası Səid Süleymani gəldi. Ondan Hacı Məhəmmədin harada olduğunu soruşdum: Səid dedi:

-Bir neçə gündür ki, yatmayıb və əsəbləri pozulub. Purəhməd, Nüsrət və Qəriblə də mübahisəsi oldu. Mən də onu məcbur etdim ki, gedib bir az istirahət etsin.

Bunu eşidəndə çox əsəbiləşdim.

-Məgər biz adam deyilik?! Bizim yerimizi niyə kimsə ilə dəyişmirsiz?

-Döyüşçümüz yoxdur.

İmam Hüseyn (ə) batalyonunu göstərib dedim:

-Bəs bunlar nədir?

-Bunları Şələmçə düzənliyinə döyüş üçün aparacağıq.

-Bizim yalnız iki taqımımız qalıb. 170 nəfər şəhid vermişik. 200-300 nəfər də yaralı var. Qalanlar cəmi 130-140 nəfərdir ki, onların da yarısı xırda qəlpə yarası alıblar.

-Görək necə olur.

Gecə yarısı bir nəfər gəlib dedi:

-Seyid, Səid Süleymani Hacı Məhəmmədlə danışır. Deyəsən Meysəm batalyonununu geri göndərmək istəyirlər. Səid Süleymani deyir ki, Meysəmin yerinə hansı batalyon gəlsə, dözməyib geri çəkiləcək.

Yenə Səid Süleymaninin yanına getdim. Səngərdə oturub ratsiya ilə danışırdı. Nə edəcəyimi bilirdim. Özümü itirməyib onun başı üstündə dayanıb dedim:

-Bax, Səid can! Saat 02:30-a kimi yerimizi dəyişməlisən. Əks təqdirdə biz saat 02:30-da xətti tərk edəcəyik. Sən məni tanıyırsan, tərk edəcəyəm dedimsə, demək bu işi görəcəyəm. Sən bilirsən ki, iraqlılar...

Sözümü kəsib dedi:

-Məsələni niyə bu qədər mürəkkəbləşdirirsən?

-Biz heç kəsi, heç bir işə məcbur edə bilmərik. Qoy sənə necə vəziyyətdə olduğumuzu izah edim. De görüm, o üç batalyon nə isə bir iş görə bildilər?!

-O üç batalyondan Salman və Ənsarı özün gördün ki, nə bacarırlarsa, hamısını etdilər. Qaldı Kumeyl, o da döyüşür. Miqdad, Həbib və Əmmar batalyonları səhərədək döyüşüblər. Siz buraya gələndə onlar getdilər. Özün də gördün.

-25 saylı Kərbəla qoşunu düzgün davransaydı, belə olmazdı. Vaxtında istehkam qurmaq lazım idi. Mən kəşfiyyat üçün gələndə qüvvələr qoşa divarlı kanala çatmışdılar və iş bitmək üzrə idi. Amma gördüm ki, Kumeylin döyüşçüsü qalmayıb. Qalanlar da bacarmırdılar..

Səid başını qaldırıb, cavab vermək istədikdə, düşmən mövqeyindən elə bir atəş açdılar ki, mən müharibə boyu belə bir şey görməmişdim. Sanki tufan qopdu, hər şeyi yerlə-yeksan etdi.

Səid başını qaçırıb səngərin çuxurunda çömbəldi. Mən də tullanıb istehkama yapışdım. Səidlə məsafəmiz bir metr də olmazdı. Amma onu nə qədər çağırdımsa, atəşin şiddətindən eşitmədi. Çətinliklə yerimdən qalxıb atəş altında üç yola doğru qaçdım. Ağlıma gəlmədi ki, Səidin yanına gedim və nə baş verdiyini bilim. Onu yaddan çıxarmışdım. Buna görə də, döyüşçülərin çoxunun yığışdığı yerə getdim.

Beşinci gün, saat 3 radələrində Həbib və Əmmar batalyonu cəbhə xəttini bizdən təhvil almağa gəldi. Qayda üzrə döyüşçülərimdən bir taqım toplayıb yük maşını ilə geri göndərdim. Atəşin şiddəti azalmışdı. Sanki İraq işin bitdiyini anlamışdı. Dostlar deyirdilər ki, ölüm üç yolundan kim sağ qayıtsa, heç vaxt ölməz. Onun heykəlini düzəldib şəhərin meydanına qoymaq lazıdır!

Döyüşçüləri toplayarkən Rza Fərəci məni çağırdı. Gedib gördüm ki, səngərə bir raket düşüb. Abbas Şukuhi ilə Mahmud Ruhullahi şəhid olmuşdular. Abbasın bədəni parça-parça olmuşdu. Nə başı bilinirdi, nə də ayağı. Bir kisə götürdüm. Onun bədəninin tikələrini toplayıb kisəyə yığdım. Kisənin başını düyünləyib iki nəfərə verdim ki, geriyə aparsınlar.

Döyüşçülərin üst-başı al-qan və toz-torpağa bulaşmışdı. Gözləri yuxusuzluqdan, ağlamaqdan və dostların ölümündən qana dönmüşdü. Rza Məhəmmədinin cənazəsi 3-4 gün idi ki, kanalın yanına düşüb qalmışdı.

O bəlalı bölgədə elə bir yer qalmamışdı ki, döyüşçülərin qanına boyanmamış olsun. Hara baxsaydın,

yalnız qan görərdin. Bu qanlı vadidə ölüm-itim adi bir şey olmuşdu.

Döyüşçülər deyirdilər ki, istehkamların arxa tərəfinə qüvvələri daşımaq üçün iki yük maşını gəlib. Bunu eşidəndə təlimat verib dedim: "Kimin qayıtmağa taqəti varsa, qayıtsın".

Həbib və Əmmar batalyonları ilə yer dəyişməyimiz səhərə kimi davam etdi. Əsgərlə mənim vəziyyətim yaxşı deyildi. Əsgərin üzü göyərib-şişmiş, mənim də əlim keyimişdi. Bununla belə yenə də, öz döyüşçülərimizin hamısının getməsini gözlədik. Sonra da, birgə piyada geriyə doğru yola düşdük. Yolun yarısında batalyonun motosikletçisi bizi aparmağa gəldi. Minib arxa cəbhədə Çəmran dayaq nöqtəsinə getdik. Həmişəki kimi, Əsgər döyüşçülərin yanına, mənsə qərargaha getdim. Orada bir nəfər od qalayıb üstünə çaydan qoymuşdu. O qədər yorğun və halsız idim ki, mənə salam verənin kim olduğunu anlamadım. Təyəmmüm edib, bir yerdə iki rükət namaz qıldım. Ardınca da ocağın yanına gedib beş gündən sonra, ilk dəfə çəkmələrimi ayağımdan çıxardım. Ayaqlarımı hiss etmirdim, yorğunluqdan nə baş verdiyini duya bilmirdim. Övladı ölən ata kimi idim. Qəlbimdə dünyanın qəm-kədəri toplanmışdı. Ürəyim dözmürdü. Döyüşçülərin başına gələn müsibətlər məni dəli olmaq həddinə gətirib çıxarmışdı. Bilmirəm özümlə danışırdım, ya sayıqlayırdım. Ağlamaqdan boğulurdum ki, birdən bir səs eşitdim: "Həzrət Zəhra (ə) balası ilə çay içmək necə də gözəldir".

Çay deyən kimi dönüb baxdım. Gördüm ki, danışan qoşunun təsərrüfat işləri üzrə məsulu Şirazidir. Elə bir çay süzdü ki, dadı uzun illər damağımdan getmədi. Bir neçə gün idi ki, çay içməmişdim. Çox dadlı idi, yorğunluğumu

azaltdı. Sonra da, vəziyyəti öyrənmək üçün qərargaha baş çəkdim və günortadan sonra Karundakı düşərgəyə getdim. Orada olanda dostlar dedilər: "Radio elan edib ki, sabah Vəliəsr bazasında Əlirza Nuri, Cavad Sərraf, Cavad Vasififər, Hacı İbadian, Hüseyn Tahiri və Məcid Ramazaninin yas mərasimi keçiriləcək".

Batalyonu Əsgərə tapşırıb Hüseyn Əzizi, Davud Niyazi, Məhəmməd Cəfəri və başqa neçə nəfərlə maşına minib Tehrana yollandıq. Üç nəfər qabaqda, üç nəfər də arxada oturdu. Dekabrın soyuğunda, maşının içində adyala bürünsək də, faydası yox idi. Qolum üşüdükdə daha çox ağrıyırdı. Özü də çiyinimdən aşağı tərəfi tərpədə bilmirdim. Tibb şöbəsinə gedib yaramı sarıtdıra bilməmişdim.

Səhər saat 9-10 arası Tehrana çatdıq. Şuş meydanında qiyamət qopmuşdu. Camaat Hüseyn Tahirinin cənazəsini aparırdı. Biz də onlara qoşulub Behişti Zəhra məzarlığına getdik. 26-cı hissədə Əsgər Kolahduz, Nasir Şərifi, Abbas Hadi, Şeyx Mehdi, Əmir Müxbir və bir çox əziz dostumu gördüm. İynə atsaydın, yerə düşməzdi. Bir çox döyüşçülər bizdən öncə toz-torpaqlı paltarlarla mərasimə gəlmişdilər. Mikrofonu əlimə götürüb mərasim iştirakçılarına Hüseyn Tahirinin qəhrəmanlıqlarından danışmağa başladım. Hüseyn iki ay idi ki, evlənmişdi. Amma həyat yoldaşının yanında, hətta 5 gün də qalmadı. O, Meysəm batalyonunun sütunu idi.

Hüseynin həyat yoldaşı gərgin hissə qapılmışdı. Nə ağlayır, nə də danışırdı. Yalnız mat-məəttəl camaata tamaşa edirdi. Mərasimdə iştirak edənlərə xatırlatdım ki, Meysəm batalyonu hələ də ön cəbhədədir və döyüşür. Hələ də döyüşçülərimiz Hüseynin eşqinə Meysəm bayrağının enməsinə icazə verməyiblər. Biz böyük igidlər

itirdik. Bəqi taqımı onlarca hücumun qarşılığını verdi. İmam Hüseyn (ə) bazasının qüvvələri kişi kimi döyüşdülər. Yadullah Əlayi ilə Məhəmməd Qazağinin dəstəsi hücumların qarşısında dağ kimi dayandılar. Məhdəvi ilə hacı Səməndərin dəstəsi düşmənlə əlbəyaxa döyüşə girişdilər. Sadiqi, Talibi, Hacı Rəzəvi, Əxəvan Şirazi, Əmir Qudərzi, Cavadniya, Hüseyn Məclisi, Pursaleh və Nəccar bombardman altında qəhrəmanlıq dastanı yaratdılar. Neynəva taqımı öz başçılarının əldən versələr də, geri çəkilmədilər. Mahmud Julidə öz dostları Hüseyn İsmayili, Möhsün Təqvayi, Aştiyani, Azərnuş, Şəmsian, Novruzi, Fərəci, Əbdi, Əminulriaya, Münfərid, Rüstəmi, Hüseyn Başi, Əbdülbaqir Ustadağa və Mahmudi ilə yadaşlarda əbədi qalacaq fədakarlıqlar göstərdilər. Fədək taqımı Əkbər Sərpuşan və Əli Sünbüləkarın başçılığı ilə Şələmçəninin tarixini öz qanları ilə yazdılar. Həsən Səriri, Hüseyn Cəlilzadə, Cəfər Kazimi, Abbas Müqəddəsi, Müctəba Tavangər, Mahmud Lətifian və Rza Əhmədpurun adları bizim başucalığımız oldu. Bunlar Fədək sahibinin qəlbini sevindirdilər. Kövsər taqımının silah-sursat məsulu Möhsün Əbulqasimi nəyi vardısa, hamısını bu yolda fəda etdi. Hacı Əli Parsa, Əmir Turabi və Seyid Xəzrayi öz vəzifələrini lazımınca yerinə yetirdilər. Əli Bəradəran, Rza Huriya, Höccət Sadiqi, Hacı Mədəni və Hacı Hüseyn Zakani canla-başla təlaş edib, düşmənə ibrət dərsi verdilər. Məhəmməd Əli Cəfəri, Həmid Meşki, Məhəmməd Allahsifət, Məcid Bağban, Abbas Purəhməd və Əsgər Ərsəncani də bu yolda əziz canlarından keçdilər. Biz bu gecə bütün döyüşçülərimizin yerinə, Meysəm şəhidləri üçün məhəllə məscidində yas mərasimi keçirəcəyik..”.

Dəfn mərasimindən sonra, evə baş çəkdim. Evdə sakitlik idi. Yuxarı mərtəbəyə qalxıb gördüm ki, Fatimə otaqda oturub. Otağın ortasına bir ləyən qoymuşdu, tavandan damlayan su həmin ləyənə axırdı. Salamlaşıb, tavanın niyə belə olduğunu soruşdum:

-Hər qış Hacı Ələmdar gəlib damdan qarları təmizləsə də, artıq bu ev köhnəlib. Düz-əməlli su yolu yoxdur.

-Nə olsun? Birini gətirərdin düzəltsin.

-Özüm bilərəkdən düzəltdirmirəm. Bu su damlaları, nəmli və soyuq otaq mənə cəbhə, səngər və döyüşçüləri xatırladır. Özümü səngərdə hiss edirəm. Bu halda qalmağı çox istəyirəm. Odur ki, düzəltdirmədim.

-Allah eləməsin, birdən tavan uçub başınıza tökülər!

Danışa-danışa gördüm ki, Fatimə narahat və fikirlidir. Başqa şeylər haqda düşünür və sanki mənim dediklərimi dinləmir. Bilirdim ki, o kasıbçılıqdan gileylənməz. Yəni onu narahat edən başqa bir şey var. Ondan narahatçılığının səbəbini soruşdum:

-Mən daha məscidə getməyəcəyəm -deyə cavab verdi.

-Niyə?

-Məsciddə hamı məni barmaqla göstərib deyir ki, bunun yoldaşı camaatın balalarını aparıb qırdırır.

-Başa düşmək istəyənlər başa düşür. Bunlar hamısı boş sözdür. Sən bu sözləri vecinə alma.

Fikrini yayındırıb, narahatçılığını aradan qaldırmaq istəyirdim. Bu, da müharibənin problemlərindən biri idi!

Ertəsi gün, Mahmud Julidəyə baş çəkmək üçün yeni Pastor xəstəxanasına getdim. Sanki Allah-Taala Mahmudu təzədən həyata qaytarmışdı. O vaxtlar belə olanda o kəslərə canlı şəhid deyirdilər. Bir gözünü çıxarmışdılar, ayaqları işdən düşmüşdü, qəlpə onurğasına dəydiyindən bütün bədənini iflic etmişdi. Budunun sümüyü sınmış,

bağırsaqları yırtılmışdı. Bəzən oyanıb astadan inildəsə də, əslində özündə deyildi.

Batalyonun çaparı Həmid Meşkininin ağciyəri zədələndiyindən, həmin otaqda yatırdı. Əlinə bir şar vermişdilər, davamlı olaraq şişirdib-boşaldırdı. Mahmudun müavini Hüseyn Babayi də bir az aralıda yatırdı. O, da bir növ canlı şəhid idi. Bədənində sağ bir yer qalmamışdı. Onun da vəziyyəti Mahmuddan yaxşı deyildi.

Ertəsi gün səhər tezdən cəbhəyə qayıtdım. Döyüşçülər Karun düşərgəsində idilər. Əsgər məni görcək dedi:

-Seyid, sən yox idin, batalyon başsız qalmışdı. Bu iki gün müddətində burada 10 dəfə dava-dalaş düşüb. Hamının əsəbləri pozulub. Bir neçə gündür ki, yatmayıblar. Ya bir-birinin köynəklərini yırtırlar, ya da oturub ağlayırlar. Ən yaxın dostları şəhid olduğundan dərdlidirlər. Sağ olanlar da, ya əsəb xəstəsidir, ya kimyəvi şüalanmaya məruz qalıb. Cəbhəni tərk edib, getməyi öz qeyrətlərinə sığışdırmayanların hamısı buradadır; onlar qəlpə yarası alsalar da, geri qayıtmayıblar.

-Bunların mərdlikləri imkan verməyib ki, aradan çıxıb getsinlər. Amma daha döyüşə bilməzlər. Həm fiziki, həm də ruhi baxımdan vəziyyətləri yaxşı deyildi. Gəl bu gecə hamısını məzuniyyətə göndərək.

-Bir neçə nəfəri təminat bölməsinə göndərdim ki, döyüşçüləri aparmaq üçün maşın gətirsinlər. Dedilər ki, maşın yoxdur. Yalnız Əmmar batalyonunu aparmaq üçün günortadan sonra, saat 5-də maşınlar gələcək. Maşın tapsaydım, mən bunları dünən Tehrana göndərərdim. Bir qədər fikirləşib dedim:

-İndi onlara elə kələk gələcəyəm ki, seyidin kim olduğunu bilsinlər.

Gedib Əmmar batalyonunun plakardasını gizlincə götürdüm. Əmmar kəlməsinin üstünə “Meysəm” yazdım. Günortadan sonra, saat 5-də döyüşçüləri sıraya düzüb saylarını yoxladıqdan sonra dedim:

-Baxın, mən sizi özbaşına məzuniyyətə göndərirəm. Sabah tezdən Tehrana çatacaqsız. Ertəsi günə kimi dincəlin. Növbəti gün isə, göydən daş da yağsa, cəbhədə olmalısız.

Döyüşçüləri minik maşınlarına mindirib yola saldıq. Əmmar qüvvələri axşama kimi maşın yolu gözləyib davamlı deyirdilər: “Ay Allah, niyə maşın gəlmədi?!”

Məhəmməd fədakarlıq edib 3-4 nəfərlə birgə çadırları qorumaq üçün qaldı. Mən də Əsgərə qoşulub qərargaha getdim.

Ertəsi gün İraq təyyarələri Karun düşərgəsini bombardman etdilər. Xoşbəxtlikdən çadırlar boş idi və heç bir itkimiz olmadı. Hacı Məhəmməd ratsiya ilə zəng vurub soruşdu:

-Nə qədər itkiniz oldu?

-Heç nə qədər. Hamını məzuniyyətə göndərmişik.

-Niyə göndərdiniz?! Kim dedi özbaşınalıq edəsiz?!

Məzuniyyətdən sonra, Hacı Məhəmmədi görmək üçün qərargaha getdik. Salam verib oturduq. Hacı Məhəmməd salamımın cavabını vermədi. Əsəbi idi. Bıçaq vursaydın, qanı çıxmazdı. Hacı Əsgərə baxıb dedi:

-Kim sənə icazə verdi ki, döyüşçüləri Tehrana göndərəsən?!

-Mən icazə verdim! -deyə sözə başladım.

Aramızda mübahisə yarandı. Axırda Hacı üzünü Əsgərə tutub dedi:

-Hazırlaşın, müdafiəyə getməlisiz. Döyüşçülərinizi toplayın. İraq üç yolu Həmzə batalyonundan alıb. İndi

Kumeyl batalyonu müdafiə xəttindədir, mövqeyi onlardan təhvil alın. Bundan sonra biz əmrləri yalnız sənə deyəcəyik.

-Mən seyidlə gəlmişəm, seyidlə də gedəcəyəm. Əgər Seyid getsə, mən də sabah tezdən gedəcəyəm. Hətta yalnız mən yox, bütün Meysəm batalyonu gedəcək. Döyüşçülər özbaşına çıxıb getsəydilər, deyəcəkdiz ki, batalyonu idarə edə bilmirsiz.

-Deməli birgə qərar çıxardırsız?!

Hər ikimiz qərargahdan çıxdıq. Mən Hacı Məhəmmədin cavabını verə bilərdim, amma daxilən ona haqq qazandırırdım. O, öz vəzifəsini yerinə yetirirdi və bilirdi ki, belə döyüşmək mümkün deyil. Döyüşçünün vuruşmağa taqəti qalmayıbsa, bütün əziyyətlər hədərə gedəcək. Amma hamı da mənim kimi özbaşınalıq etsəydi, daha nizam-intizam pozular, qərargah dağılardı. Mənim məqsədim itaətsizlik etmək deyildi. Mən ağır itkilərin qarşısını almaq istəyirdim, lakin o zaman heç kim məni başa düşmədi.

Əsgərlə birgə batalyonumuzun yerləşdiyi mövqeyə getdik ki, qüvvələri qaydasına salaq. Üç yolda aldığımız zərbədən sonra, 250 döyüşçümüz qalmışdı. Lakin onların da çoxunun yüngül yaraları vardı. Tərslikdən yeni qüvvəmiz də yox idi. Mənim də çiynim sarğılı olduğundan vəziyyətim çox da yaxşı deyildi.

Qərara gəldik ki, ağır itkilərin qarşısını almaq üçün, taqımları bir-bir müdafiə xəttinə göndərək. Xətti möhkəmləndirmək üçün birinci Neynəva taqımını göndərdik. Başçıları Əsgər Ərəs və Qulam Qəlyaf idi. Müdafiə xətti bir az pis yerdə idi. Taktika qərargahı beşbucağın girişində təşkil olunmuşdu. İraqlılar üç yolu geri aldıqdan sonra, qüvvələr qərargahın yaxınlığına kimi

geri çəkildilər. Biz taktika qərargahından bir az qabaqda müdafiə səngəri yaratdıq. İraq kəşfiyyatçıları davamlı olaraq gəlib araşdırırdılar və yeri gəldikdə bizi itkiyə də məruz qoyurdular. Tamamilə göz qabağında idik. Onlar da bizim nişanın önündə idi. Get-gəl etmələrini görürdük. Hər gün tanklarının düzülüşünü dəyişirdilər. Bir gün yan-yana, ertəsi gün sıra ilə düzürdülər. Növbəti gün isə birini qabaqda, digərini arxada saxlayırdılar. Buldozerləri gecə-gündüz istehkam qazırdılar və istehkamlarını enli və uzun, ya da iki tərəfdən darama çəkirdilər. Döyüşçülərə dedim ki, səngərləri su kənarında qazsınlar və tavanları qısadırsa, rahat olmaları üçün uzatsınlar. Bizim istehkamlar elə də hündür deyildi ki, onun ətəyində gizlənək. O qədər atəşə məruz qalmışdı ki, uçub-dağılmışdı və döyüşçülər də vacib iş üçün əyilmiş vəziyyətdə get-gəl edirdilər. İraqlılar hündürdə olduqları üçün, bizi rahat nəzarətdə saxlaya bilirdilər. Bir minaatanla da gündə bir neçə dəfə səngərlərin ətrafına atəş açırdılar.

Üç yolun başında qüvvələri dəstələrə bölüb sol tərəfə düzərək xətti möhkəmləndirdik. Mən, Əsgər və Əli Zakani işləri öz aramızda böldük. Həmişə bir nəfər xətdə döyüşçülərin başı üstə qalırdı. Yerləşdikdən sonra, su kənarında böyük bir səngər düzəldib üstünü qum kisələri ilə möhkəmləndirdik. İçinə minaatanın düşməməsi üçün də qum kisələrindən qabağına divar hördük.

Bir gün günortadan sonra, saat 2-də iraqlı kəşfiyyatçılar bizim gözətçilərdən birini əsir aldılar. Onu sürüyərək apararkən səngərdəki döyüşçülər bu işdən xəbər tutdular və onları güllələbaran etdilər. İraqlılardan biri arxadan gülləyə tuş gəlib yerə yıxıldı. Gözətçimizə də güllə dəydi, döyüşçülərimiz gedib onu gətirdilər. Mən hər neçə gündə, bir dəfə səngərlərə baş çəkirdim. Döyüşçülər öz

komandirini gördükdə təskinlik tapır. Səngərlərə gedib onlarla söhbətləşir, ruhiyyələrini yüksəldirdim. Onlara lətifə, nağıl, şeir və hekayələr danışırdım və birlikdə deyib-gülürdük. Üzlərinə baxdıqda nə hisslər keçirdiklərini anlayırdım. Öz dostlarına və ya ana-ataları üçün darıxdıqlarını ayırd edə bilirdim. Axı bəziləri yeniyetmə cavanlar idilər və buna görə də, dözümləri az idi. Onları vaxtında geri göndərirdik. Təminat bölməsi səhərlər yemək gətirirdi. Çünki o saatlarda gün işığı iraqlıların gözünə düşürdü və bizi yaxşı görmürdülər. Bir dəfə də axşam maşınların işığını söndürüb yemək gətirdilər.

Dörd-beş gündən bir döyüşçülərin yerini dəyişirdim ki, dincəlsinlər və müdafiədə oturub gözləmək onları yormasın. Özləri də həmişə mənə deyirdilər ki, hər axşam bizim yanımıza gəl, səni görəndə hər şeyi unuduruq. Əsgər də hərdən döyüşçülərə baş çəkirdi, amma çox az danışardı. Həmişə göz yumar, danışılması lazım olanları mənim öhdəmə buraxardı. Özü də deyərdi ki, nəyin necə deyilməsini sən məndən yaxşı bilirsən. O, mənəvi sükutu və sakitliyi ilə döyüşçülərin mənəviyyatını yüksəldir və təsəlli verirdi. Ən dəcəl döyüşçülər də onun yanında sakit olardılar.

Bir gün döyüşçülərdən biri soruşdu:

-Bataqlığa düşən bu balıqları bişirib yemək olarmı?

-Balıq quraqlıqda çırpındıqdan sonra yeməyi halal olur - deyə Əsgər dedi.

Hüseyn İsmayili, Hafiz və Mövlananın bəzi şeirlərini əzbər bilirdi. Birgə səngərdə oturub şeir yarışması keçirərdik. Haradasa, bir beyti səhv oxusaydım, Hüseyn tez anlayar və zirəkliklə səhvimi deyərdi. Biz çox tez-tez

zarafat edib, bir-birimizə sataşardıq. O, da hazırcavablıqda məndən geri qalmırdı.

Hüseyn əvvəllər dəniz donanma qüvvələrindən olmuşdu və Meysəm batalyonunda ən peşəkar döyüşçülərdən sayılırdı. Son zamanlarda hərbi işlərdən uzaqlaşmağa çalışırdı. Adamlara çox da qaynayıb-qarışmırdı. Daha çox şeir və şairliyə maraq göstərirdi. O vaxtı eşitdim ki, onun bir qızı da var. Hüseyn nə qədər təcrübəli və şücaətli olsa da, təvazökar hərbçi idi.

Bu minvalla günlər ötürdü. Beşinci gün müdafiə başladı və iki həftə Hacı Məhəmməd yerimizi başqa batalyonla dəyişmədi. Sanki bizdən intiqam alırdı! Əməliyyatdan 37-38 gün keçmiş və həzrət Zəhranın (s) təvəllüdünə iki-üç gün qalmışdı ki, qərargaha Hacı Məhəmmədin yanına getdim. Üç yol macərasından sonra, təzəcə barışıb danışmağa başlamışdıq. Amma ikimiz də bir-birimizlə soyuq rəftar edirdik. Hacıya dedim:

-Biz 15 gündür ki, müdafiədəyik. 2 şəhid və 7-8 yaralımız var. Niyə yerimizi dəyişmirsiz? Qüvvələrim yorulub.

-Hələlik orada qalmalısız.

Əsgərə dedim:

-Mən hacı ilə kəllə-kəlləyə gəlmək istəmirəm. Sən get və de ki, biz iki gün sonra, təvəllüd münasibətilə şənlik mərasimi keçirmək istəyirik. Batalyon qayıtmalıdır.

Əsgər gedib mesajımı hacıya çatdırdı. Hacı Məhəmməd "Görüm nə olur" –deyə cavab verdi. Ertəsi gün yenə Əsgəri göndərib dedim:

-Get ona de ki, sabah bizi geri göndərməsən, özümüz buranı tərk edəcəyik. Əvəz çıxaraq bizi burada 15 gün saxlamağın da, qalsın qulluğunda...

Ardınca Rza Huriya, Həsən Ərsəncani və Davud Niyazini də şirniyyat almaq üçün Əhvaza göndərdim. Onlara tapşırdım ki, Karuna gedib çadırları bir-birinə yapışdırsınlar, mərasim üçün hazırlıq görsünlər. Ertəsi gün səhər Əmmar batalyonu yerini bizimlə dəyişməyə gəldi. Qüvvələrindən 20 nəfər Toyota ilə ön cəbhəyə gəldilər ki, biz onlara lazımi məlumatları verək. Günortadan sonra 5-ə kimi Əmmar batalyonu ilə tamamilə yerimiz dəyişildi və axşam azanına bir saat qalmış Karun düşərgəsinin çadırlarında yerləşdik. Namazdan sonra mərasim keçirdik, amma necə? Səsi gözəl olan bütün məddahlarımız ya şəhid olmuş, ya da yaralanmışdılar. Həmin axşam, Davud Dehqani, Hacı Bayeqani, Hüseyn Sazur, Yadullah Əlayi və Əsgər Ərsəncani şənlik mahnıları oxudular. Şənliyin ortasında Mehdi Şərifi gəlib dedi ki, sabah səhər həkimlər Mahmud Julidənin ayağını kəsəcəklər. Bu söz şənliyi bir-birinə vurdu. Döyüşçülər Mahmudu çox istəyirdilər, ona bağlı idilər. Mahmud həm komandir idi, həm də batalyonun gözəl səsli Əhli-beyt (ə) məddahı idi. Mən də 20 dəqiqə çıxış etdim. Mərasim gecə yarısına kimi davam etdi. Səhər çağı bir nəfər məni çağırdı. Çadırdan çıxanda gördüm ki, qarşımda əmmaməli bir tələbə dayanıb. Məni görən kimi soruşdu:

-Siz batalyonun komandirisiz?

-Yox, komandir Hacı Əsgərdir.

Əsgər dilləndi:

-Yox, özü komandirdir!

-Anlamadım, xülasə bu batalyonun komandiri kimdir?

-Buyur, biz ikimiz də batalyonun komandiriyik.

-Dünən bu batalyonun döyüşçüləri rəqs edəndə siz buradaydız?

-Rəqqasların başçısı elə bu kişidir.

-Bu işiniz şəri baxımdan düz deyil.

-Heç də elə deyil. Biz yalnız Əhli-beyt (ə) üçün şeir oxuyub əl çaldıq.

-İşlərinizin haram olmadığını sübut edin.

-Mən niyə sübut etməliyəm? Sənin problemin var. Bura mənim ərazimdir. Mənim batalyonumdur. Sən sübut et ki, haramdır.

-Mən deyirəm ki, haramdır.

Birdən əsəbiləşib ona dedim:

-Halal və ya haram, bu işin sənə nə dəxli var? Bir də ayağını buraya qoysan, Allaha and olsun...

Tələbə əsəbiləşdi. Gəldiyi yolla geri qayıtdı. Əslində niyyəti xeyir idi, bizi hidayət etmək məqsədilə gəlmişdi.

Növbəti gün Məhəmməd Allahsifət həmişəki kimi fədakarlıq edib batalyonun başı üstə qaldı. Mən də Hüseyn Sazur və Əsgərlə birgə Tehrana qayıtdım. Məhəmməd Allahsifət komandir idi. İnqilabdan öncə hərbi təlim görmüşdü və öz işində bacarıqlı idi.

Mahmudun görüşünə getmək istəyirdik. Gecə saat 12-də Tehrana çatdıq. Fevral ayının əvvəli idi və hava olduqca soyuq idi. Küçələrdə qar vardı. Əsgəri Bağbisim prospektinə evinin önünədək çatdırdıq. Hüseyn məni də evimizə qədər apardı. Evin işıqları yanmırdı. Qapını döymədim. Yatmış olduqlarını düşündüm. Xırda daş götürüb pəncərəyə vurdum. Fatimə xanım gəlib qapını açdı.

Ertəsi gün Əsgərin anası Tofiq məscidində məni görüb dedi:

-Ağa Seyid, niyə Əsgərimi qapının ağzında qoyub getmisiz?! Sübh namazına durduqda, bayırda səs eşitdim. Qapını açıb gördüm ki, Əsgər pillədə oturub. Soyuqdan donmuşdu. Sobanın yanına gətirdim. Soruşdum ki,

haradaydın, niyə qapını döymədin? O, da dedi ki, gecə yarısı seyidlə gəldik. Siz yatmışdınız deyə qapını döymədim. Gözlədim ki, namaz vaxtı oyanıb qapını açasız.

Əsgər anasının hörmətini belə saxlayırdı. Bu, hələ Əsgərin etdiklərinin yüzdən biri idi. Onun ata-anasına etdiyi hörmət dillər əzbəri idi.

Qolum o qədər ağrıyırdı ki, axırda dözməyib klinikaya gedib həkimə göstərdim. Güllə dəyən yerin şəklini çəkib dezinfeksiya etdilər. Yaranın başı bitişdiyi üçün əməliyyat etmədilər. Yalnız antibiotik yazdılar ki, şişi yatsın və ağrısı azalsın.

Bir gün qədim dostum Məhəmməd Teymurinin evinə getdim. Məclis idi, mən də mücahidlərlə birgə iştirak edirdim. Orada Hacı Həsəni gördüm və şənlikdəki əl çalmaq məsələsini ona danışıb İmamdan şəri hökmünü soruşmasını istədim. İmam Xomeyni mənim sualımın cavabını bir beyt şeirlə vermişdi:

***Bu eşq əhli dostlarımıza de ki,***
***Əhli-beyt (ə) qapısını çaldıqda məni də dua etsinlər.***

Mahmudun görüşünə gedəndə mənə dedilər ki, onun ayağı kəsilməsə də, ömürlük əlil arabasında gəzməli olacaq. Vəziyyəti heç də yaxşı deyildi. Batalyona qayıtdıqda Hacı Məhəmməd dedi: "Döyüşçülərinizi məzuniyyətə göndərə bilərsiz".

Novruz bayramından on gün keçənədək Həmzə, Şəhadət və Meysəm batalyonları məzuniyyətə getdilər. Meysəm batalyonundan yalnız Hüseyn İsmaili gəlmədi. Yanına gedib səbəbini soruşdum. Cavab verdi ki,

Tehrandan üz döndərib, şəhər həyatının əsiri olmaq istəmir.

Tehrana çatdıqda dostlardan biri xəbər gətirdi ki, Hacı Qasim Şələmçədə şəhid olub. Təəccübdən yerimdəcə quruyub qaldım. Hacı Qasim Şələmçəyə necə gəlmişdi ki, mənim bundan xəbərim yox idi?! Necə olmuşdu ki, onu görə bilməmişdim?! Bu çox ağır dərd idi. O, mənim həm ağsaqqalım, həm də mürşidim idi. Bu andan ustadsız və mürşidsiz qaldım. Həmin axşam bir maşını kirayə edib məhəllə dostlarımla Hacı Qasimin Kərəcdəki evinə yollandıq. Evinin önünə qara lövhələr vurmuşdular və üstündə də Hacı Bəxşinin yanan maşınının şəkli vardı. Dedilər ki, Hacı Qasim də o maşında imiş! Sanki belim sındı, dünya gözlərimdə qaraldı. Məni ağlamaq tutdu. Dizlərim süstləşib halsız oldu, oradaca yerə oturdum. Gedişini qəbul edə bilmirdim. Boynumda çox haqqı vardı. Bilirdim ki, Qasim özünü cənnətdən ucuza satmaz. Elə, şəhadət məqamına da nail olmalı idi. Həmin anda Hacı Qasimin şəhadət səhnəsi kino kimi gözlərimdə canlandı. Bütün işləri və davranışları yadıma düşdü. Onun uca ruhunu və nə qədər mərifətli olduğunu yalnız Allah bilirdi. O, həmişə pak yaşadı, qaydasız döyüşlərdən sonra, ön cəbhəyə az gəlməsinə baxmayaraq, cümə namazı qərargahında və cəbhəyə yardım işlərində gecə-gündüz fəaliyyət göstərmişdi. Hər dəfə onu müxtəlif vədlərlə aldatmağa çalışsalar da, şücaətlə böhrandan faydalanan bazar dəllallarını, fəsad yaradanları ifşa etmiş, Kərəcdəki rüşvətxor və korrupsionerlərə qarşı mübarizə aparmışdı. O, çox adamların qorxduğu bahaçılıqla mübarizə qərargahı yaratdı. Qasim elə adam idi ki, haram tikə yeməzdi və naşükürlük etməzdi. Zatında kiməsə pislik

etmək xüsusiyyəti də yox idi. Heç kim o vaxt Qasimi layiqincə tanımadı.

Qasimin şəhadəti onu sevənlərin hamısı üçün çox çətin idi. Onun gedişinə inana bilmirdim. Allah bilir ki, o günlərdə necə qəm-qüssə və qürbət hissləri yaşadım. Hacı Qasimin şəhadətindən 40 gün sonra, üçüncü övladı dünyaya gəldi. Yoldaşı şir kimi qorxmaz bir qadın idi. Tək başına Hacı Qasimin üç yadigar övladını böyütdü.

1987-ci ilin aprel ayının 4-də Hacı Məhəmməd xəbər yollayıb məni cəbhəyə çağırdı. Tək başıma cəbhə bölgəsinə və Taktika qərargahına getdim. Hacı məni görən kimi dedi:

-Seyid, bu dəfə Şələmçə düzənliyindən başqa yerdə əməliyyat keçirmək istəyirik. Gilan qoşunu üç batalyonunu gətirəcək. Biz də Şəhadət, Həmzə və Meysəm batalyonu ilə hücuma keçəcəyik.

-Mən Şələmçə ərazisinin ovcumun içi kimi tanıyıram. Bu işə varam -deyə cavab verdim.

-Dünən Sarəllah qoşunu hücuma keçərək balıq kanalının cənub hissəsində olan yarım dairə istehkamları adlayıb. Bu axşam da Seyyidüş-şühəda qoşunu döyüşməlidir. Əməliyyat “Kərbəla-8” adını daşıyır. Biz onların işini davam etdirəcəyik.

Hacı Məhəmmədlə bir qədər bölgələr barəsində danışdıqdan sonra, Tehrana Əsgərin yanına qayıtdım. Ona dedim:

-Qərargahdan gəlirəm. Qarşımızda önəmli bir əməliyyat var. Ehtimal ki, çox sayda yeni qüvvələrimiz olacaq. Əgər qüvvələr sabah Dokuhəyə getsələr, yemək istəyəcəklər. 300 nəfərin qarnını necə doyuracağıq?

Əsgər dedi:

-Əvvəl Rza Huria ilə Əli Bəradəranı tapıb yemək dalınca Dokuhəyə göndərək. Bunlar işgüzardırlar və belə şeyləri bacarırlar.

Əsgərlə birlikdə Rza Hurianın evinin önünə getdik. Rza həm pəhləvan, həm idmançı, həm də voleybol üzrə gənclərin milli komandasının üzvü idi. Özü də məktəbdə müəllim işləyirdi. Məni nə vaxt görsəydi, İbrahim Hadi barədə danışmağımı istəyirdi. Çünki İbrahimin xətri onun üçün çox əziz idi. Məni gördükdə qucaqladı və salamlaşıb söhbətləşdik.

-Batalyon bölgəyə gedir. Ərzağımız yoxdur. Sənin dalınca gəldik ki, gedib işləri qaydasına qoyasan.

–Seyid, mənim canım həzrət Zəhranın (s) balasına qurban olsun, amma bir problem var.

-Nə olub?

-Mən anamla sağollaşmalıyam!

-Ana nədir, ay bala?! 300 nəfər sabah əməliyyatda olmalıdır. Təminat işi başsız qalıb.

-Siz maşında oturun, çayınızı içənədək mən gələcəyəm.

Əsgərlə birlikdə maşının içində oturduq. Rza bizə sinidə bir çaynik çay gətirdi, sonra da gedib bir-bir qonşu evlərin qapısını döydü. Anasını tapmayıb dedi:

-Seyid, mən gələ bilmərəm. Gərək anamı görüm və onunla sağollaşım. Siz gedin, mən sabah tezdən özümü Dokuhəyə çatdıracağam.

-Gəl gedək, heç nə olmaz.

-Yox, özünüz bilirsiz ki, ananın hörmətini saxlamaq vacibdir.

Mən ədəb və mərifətin bu dərəcəsinə heyran qalmışdım. Özlüyümdə düşünürdüm ki, şəhid olmaq hər insana qismət olmur. Bu zirvəyə yüksəlmək üçün çoxlu

maneələrdən keçməlisən. Bilmirəm mənim maneəm nədir ki, ilişib qalmışam?

Əsgərə dedim ki, yolüstü Quma gedib Həsəni[1] də, özümüzlə aparaq. Əsgər çox sevindi. Uzun müddət idi ki, qardaşını görməmişdi. Quma getdik, deyəsən gecişmişdik, Həsən Tehrana getmişdi.

O vaxtlar Səddam artıq bir çox şəhərləri bombardman etməyə başlamışdı. Hər axşam bir şəhəri bombardman edirdi.

Həsənin anası şam yeməyinə kotlet bişirmişdi. Bizə də kotletdən yemək qismət oldu. Bir az söhbət etdik. Təzəcə şam yeməyinə başlamışdıq ki, düşmən qırıcıları şəhəri üç dəfə bombalandı. Yeməyimiz də, haram oldu!

Gecə vaxtı Əsgərlə yola düşüb, ertəsi gün Dokuhəyə çatdıq. Öncə təminat bölməsinə getdik ki, Karun düşərgəsinə günorta yeməyi göndərmələrini deyək. Çünki qüvvələrin Dokuhədə yubanmasını istəmirdim. Onları birbaşa Karuna aparmaq istəyirdim.

Biz Karuna çatanda, döyüşçülərin də, iki yük maşını oraya çatdı. Qərargahda işləyən Mustafa Kaşani məni səsləyib dedi:

-Seyid, bura gəl. Hacı Məhəmmədin səninlə işi var.

Baş qərargahın çadırına gedib ratsiya ilə Hacı Məhəmmədlə danışdım. O dedi:

-Nə vaxt qərara alındı ki, sizin qüvvələr bu gün gəlsin?!

-İki taqım gəlib, qalanı da gələcək.

---

[1] Həsən Ərsəncani Əsgərin böyük qardaşı idi. O, da Meysəm batalyonuna çox gəl-ged edirdi. Həsən, də Nəsr-7 əməliyyatında şəhid oldu.

-Düşmən qüvvələri döyüşçülərin zəhmətlə saxladıqları yeri almaq istəyir. Beşbucağın sol tərəfinə keçib, bizə tərəf gəlirlər. Bizə yeni qüvvə lazımdır.

-İnşallah bir saata çatarlar.

-Siz hələlik bir taqımınızı göndərin. Bunlar daha dözə bilmirlər.

Maşınlar bir-bir gəlib döyüşçüləri düşürürdülər. Nə qədər gözlədimsə, batalyonun kadrının maşını gəlmədi.

Qüvvələri toplayıb bir taqım hazırladıq, amma komandiri yox idi. Onları əməliyyat barəsində məlumatlandırıb, hər şeyi öz qaydasına qoymaq lazım idi. Taqımı Əli Zakaninin komandalığı altında ön cəbhəyə göndərdik. Qərara alındı ki, bu dəfə qüvvələr Doveyci çayından beşbucağın solundakı yola girsinlər. Həmin əməliyyata beş toyota döyüşçü yola salındı. Günortadan sonra, saat 3-də Fəllah adlı bir döyüşçü üz-gözü göyərmiş və qan içində bizim yanımıza gəldi. O, da gəlib çıxmaq bilməyən batalyon kadrının maşınında imiş. Salam verdi. Ondan nə olduğunu soruşdum.

-Yolda qəzaya düşdük.

-Nə ilə? Necə?

-Batalyonun bütün kadr üzvləri maşında idi - Hüseyn Sazur, Rza Huriya, Əli Şahbazi, Cavad Məclisi, Hüseyn Məclisi və s. Dokuhəni adlayıb, Əhvaza yaxınlaşırdıq. Hüseyn Sazur “Xəmsətə-əşr” ziyarəti oxuyurdu. Sürücü rol arxasında yuxuladığından maşın döngədə aşdı.

Bu müsibətin içində bircə bu çatmırdı. Əsgər və Əkbər Sərpuşanla birgə bir toyotaya minib Əhvaza - birbaşa xəstəxanaya getdik. Gördüm ki, Həmid Turabi, Əxəvan Şahbazi, Hacı Cavad Məclisi və Hüseyn Sazur qol-qıçları sınmış halda yerə uzanıblar. Yol polisinə müraciət etdim. Dedilər ki, maşında olanlardan 6-7 nəfəri şəhid olub.

-Cənazələri haradadır?

-Morqda

Bu, döyüş əməliyyatından da, pis bir hadisə idi. Morqa getdik. Daha özümdə deyildim. O günkü halımı necə izah edəcəyimi bilmirəm. Onlar ən yaxşı qüvvələrim idilər. Morqun qapısını açdıqda - Hüseyn Məclisi, Xosrov Şadmani, Höccət və cəbhə yoldaşım olan Sadiqinin cəsədini orada gördüm. Sadiqi peşəkar qumbaraatan idi. Morqdan çıxıb yenə yaralılara baş çəkdim. Bu arada Rza Huriya yox çıxmışdı. O, da qəzaya uğrayan maşında gəlməli idi. Tehranda qalması da mümkün deyildi. Əsgərlə birgə yenə uşaqları saydıq. Nə yaralıların arasında idi, nə də şəhidlərin. İlahi! Görəsən haradadır? Başına nə bəla gəlib?

-Yəqin ki, aşan maşının altında qalıb və xilasedicilər onu görməyiblər - deyə Əsgər dilləndi.

Maşına minib qəza baş verən yerə getdik. Oranı yaxşıca axtardıq, amma Rzanı tapa bilmədik. Ertəsi gün səhərədək Rzanı axtardıq. Demək olar bütün xəstəxanaları gəzdik. Sonda məlum oldu ki, Rza da yaralıların arasında olub, xəstəxanaya çatdırıldıqdan sonra, orada dünyasını dəyişib. Əsgər dedi:

-Mən ön cəbhəyə qayıdıram, sən istəyirsənsə, Tehrana get və yas mərasimlərində iştirak et.

-Bu nə bəladır, Əsgər qardaş!

Hətta bir küncdə oturub doyunca ağlamağa da vaxtım yox idi. Bir tərəfdən əməliyyat olmadıdır, digər tərəfdən də dostların cənazəsi burada qalıb.

Ertəsi gün səhər dostların cənazəsi Behişti Zəhra məzarlığının 26-cı hissəsində dəfn edildi. “Cənablar” onları şəhid saymadıqlarından, şəhidlər xiyabanında dəfn

etmək istəmirdilər. Çox çətinliklə də olsa qardaşları şəhidlər xiyabanında dəfn etdik.

Günortadan sonra, tez hərbi bölgəyə qayıdıb, birbaşa Hacı Məhəmmədin yanına getdim. Hacı məni görən kimi sorğu-suala tutdu:

-Haradasan?! Hazır vəziyyətdə olun, siz hücuma keçməlisiz.

-Biz gedə bilmərik.

-Yenə başladın?!

-Yox, taqımların başçıları yol qəzasında şəhid olublar. Mənim qüvvələrim sabah tezdən çatacaqlar.

-Yaxşı, hələlik Seyyidüş-şühəda qüvvələri döyüşür. Görək onlar nə edəcəklər.

Axşam saat 11-də, Səid Süleymani, Mahmud Əmini və kəşfiyyat qüvvələrindən biri ilə, əməliyyat məntəqəsini yaxından görmək üçün Tokmedadi bölgəsinə getdik. Orada bir qədər irəli getdikdə sonra, qəribə bir səhnə ilə rastlaşdıq. Ön cəbhədə Seyyidüş-şühəda qüvvələri döyüşməli olduqları halda, orada heç kim yox idi. Səngərlərin çoxu boş idi. Yalnız az sayda Seyyidüş-şühəda döyüşçülərindən səngərlərdə qalmışdılar. Digər tərəfdə də, iraqlılar rahat şəkildə özləri üçün gəzişirdilər.

-Burada yeni nə xəbər var?-deyə onlardan soruşduq.

-Dünən hücuma keçdik və bir neçə şəhid verib geri qayıtdıq. Sağ qalan döyüşçülərin də çoxu buranı tərk etdilər. Daha döyüşçümüz yoxdur.

Kəşfiyyatdan sonra, qərargaha qayıtdıq. Dostlar deyirdilər ki, düşmənə üzbəüz hücum etmək yerinə, kənarlardan hücuma keçək. Hərə bir fikir söyləyirdi – biri deyirdi olar, o biri deyirdi olmaz. Mübahisə yarandı, sonda ortaq bir nəticəyə gəldik!

Qərara alındı ki, bizdən öncə gələn qüvvələr və Çəmran arxa cəbhəsində olan Mahmud Əmini hücuma keçsin ki, iş dayanmasın. Məqsəd balıq kanalına yapışan ay şəklində olan istehkamları qorumaq idi. İstehkamları ələ keçirərək qısa yola, oradan da Bəsrə magistralına çıxmaq istəyirdik. O gecəni səhərədək qərargahda qaldım.

Mahmud səhər saat 5-də batalyonunu yola saldı. Səhər saat 9 olardı ki, Mahmud ratsiya ilə xəbər verdi ki, İraq əks-hücuma keçib. Bunu da vurğulayım ki, həmin gün axşamüstünə kimi Əmini ağanın üçüncü taqımı da, döyüş meydanına daxil oldu və var-gücləriliə vuruşdular.

Həmzə batalyonunun döyüşçüləri - Şələmçə İraq ərazisi olduğundan - oranı yaxşı tanımırdılar. Buna baxmayaraq, canla-başla döyüşdülər. Mat-məəttəl baxırdıq. Həmzə batalyonunun qüvvələri döyüşün əvvəlində ağır zərbəyə məruz qalıb irəliləyə bilmədilər. Hacı Mahmudun özünəməxsus cəsurluq və şücaəti vardı. Əməliyyat zamanı göydən başlarına minlərlə mərmi yağsaydı da, dayanmazdılar. Doğrudan da, Hacı Mahmud, Müctehidi və Həmzə batalyonunun bütün igidlərini təqdir etmək lazımdır. Saat 10 radələrində Meysəm qüvvələri Fatimeyi-Zəhra cəbhəsinin qərargahına çatdılar. Altı ədəd BTR-50 gətirdik. Döyüşçüləri mindirib Tokmedadinin qərb hissəsinə yolladıq. Yolda BTR-in üçünün tırtılı qırıldı. Xarab olan texnikanın döyüşçülərini o biri iki BTR-ə yerləşdirdik. Tokmedadinin qərbi Şələmçənin cənubu hissəsi və Nuni bölgəsi idi. Fatimeyi-Zəhra qərargahından Nunilər və ya balıq kanalının yanındakı ay şəklində olan səngərlərədək 2-3 km yol vardı. Ora piyada getmək mümkün deyildi. Hücum nöqtəsinə çatdıqda, saat 02:15 idi. Orada Səidlə hücuma keçib-keçməmək barədə 15 dəqiqə mübahisə etdik. Səid dedi:

-Daha bəsdir, siz bura axşam saat 12-də çatmalı idiniz. Amma...

-Sən hamıya deyərsən ki, saat 12-də çatıblar. Bu kimə maraqlıdır axı?!

-Bu, artıq mənlik deyil. Heç kim buranı ala bilməz! Siz gecə saat 12-də burda olmalıydınız.

-Ay bala! Axı bu nə sözdür danışırsan?!

-Sən məsuliyyəti öhdənə götürürsün?

-Nə məsuliyyət, özümün sağ qalıb-qalmayacağım məlum deyil.

-Özün bilərsən.

Döyüşçüləri cərgəyə düzüb, daha cəsur olanları sıranın əvvəlinə təyin etdim. Məhəmməd Qasimi və Əli Zakaninin başçılığı ilə Neynəva taqımı, Məhəmməd Cəfəri və Əmir Çizərin başçılığı ilə Bəqi taqımı və İbrahim Kaşaninin başçılığı ilə Fədək taqımları təşkil olundu. Qaranlıq bir yerdə taqım komandirlərini bir araya toplayıb xəritəni onlara izah etməyə başladım. Fənər Əsgərin əlində idi. O, həmişəki kimi sakitcə məni dinləyir və lazım olduqda sözümü tamamlamaq üçün nəsə deyirdi. Fənəri xəritənin üzərində gəzdirirdi. Bir anlıq fənərin işığı Abbas Purəhmədin sinəsinə düşdü. Abbasla Məcid Bağban bizim çaparımız idi. Məşhəddən təzə gəlmişdilər. Əsgər, Abbasın sinəsini göstərib dedi: “Seyid, Abbasın sinəsinə bax”. Baxıb gördüm ki, köynəyinin sol cibinə balaca bir bayraq tikib. Üstünə də “Sənə qurban İmam Rza (ə)” yazılmışdı. Abbasdan köynəyinin üstündəki yazının nə olduğunu soruşdum.

-Bu İmam Rzanın (ə) ziyarətgahına təbərrük olmuş bayrağıdır.

Əsgər gecənin qaranlığında və əməliyyata bir az qalmış İmam Rzaya (ə) aid bir şeir oxudu. O şeir Əhli-beytin (ə)

pak ürəkli və yanıq qəlbli məddahı Qulaməli Rəcəbinin idi:

*“Hərəminin quşlarına qurban, İmam Rza,*
*Lütf və kəráminə qurban, İmam Rza.*
*Səni tanıdığım həmin gündən,*
*Allahın rəhməti altındayam mən.*
*Demisən ki, ziyarətimə gələnə,*
*Lazımı olsa, gələrəm köməyinə..”.*

Əsgərin gözəl şeiri bizi bir anlığına İmam Rzanın (ə) hərəminə apardı...

Sonra Neynəva taqımını Tokmedadinin aşağı, Fədək taqımını isə yuxarı hissəsinə göndərdim. Bəqi taqımını ehtiyat üçün burada saxladım. Özüm Səid Süleymani və Hüseyn Behişti ilə birgə istehkamın arxasında, digər tərəfi rahat görə biləcək bir şəkildə dayandım. Döyüşçülər səssiz-səmirsiz yola düşdülər. Onlara tapşırmışdı ki, hətta çəkmələrinin səsi belə eşidilməsin. Orada Rza Mirkamalini gördüm. Rza batalyonumuzun çox səfalı gənclərindən idi. Əhli-beyt (ə) aşiqi olan Rzanın, Rübabə və Əliəsgər adlı iki övladı vardı. Eşq əhli olanın həyat tərzi, o birilərindən fərqli olur! Aşiqlərin hər bir işi Allaha, Əhli-beytə (ə) olan eşqindən irəli gəlir, yol getməsi, paltar geyinməsi, hətta nəfəs alması və s...

Rza o gecə hərbi paltar geyinmişdi. Köynəyinin cibinin üstünə “Ya Fatimeyi-Zəhra” tikmişdi. Özü də, boy-buxunlu və dik yeriyən biri idi. Təəccüb edirdim ki, bu vəziyyətdə - döyüşçülərin yer dəyişmə qalmaqalında - necə vaxt tapıb çəkmələrini mazlamışdı. Boynuna da yaşıl ipək dəsmal bağlamışdı. Yanıma gəlib təbəssümlə astadan salam verdi.

-Aleykum salam. Rza qardaşım, necəsən? Görüşəmi gedirsən?

-Seyid, mənə bir xeyirli dua et.

-Axı mən kiməm ki, sənə xeyir-dua verəm?

-Sən seyidsən, pak ürəklisən.

-Allahdan nə istəyirsən?

-Ya şəhid olum, ya da sağ qayıdım. Əsir düşmək və ya yaralanıb əlil olmaq istəmirəm.

-Niyə?

-Bu il məhəllə dostlarımdan biri ilə mərcləşmişik. 72 Kərbəla şəhidlərinin eşqinə. Sağ qayıdıb sözümü yerinə yetirmək istəyirəm. 72 göyərçin hazırlamışam. Sən də, həmin gün inşallah dama gələrsən.

-Çox gözəl. Mən də bir zamanlar belə şeylərin həvəskarı idim. İnqilabdan öncə belə işlərə daha çox marağım vardı, amma inqilabdan sonra, maraq dairəm dəyişdi. Başqa aləmə qədəm qoymağıma baxmayaraq, hələ də göyərçinlərimi çox istəyirəm. Sərvər adlı bir quşum var. Ona heyranam. Başına da and içirəm.

-Siz də mərcləşərdiz?

-Bəli, mən və qardaşım Seyid Baqir. May ayında çayxanaya gedib adam axtarardıq. O vaxt dəmirçi Mahmudun 400 göyərçini vardı. Bu işin aşiqi idi. Heç kim onunla bacara bilməzdi. Eyni anda üç nəfərlə mərcə girər, üçünü də məğlub edərdi. Sonra da, məhəllənin bütün məharətli quşbazlarının qarşısında qürrələnərdi. Onun rəqibi yalnız İrəc Zaği idi.

Mənim sözlərimdən sonra, Rza gözəl bir təbəssüm etdi. Artıq getmək vaxtı idi. Rzanı qucaqlayıb alnından öpdüm.

-Biz Allahın məsləhətinə razıyıq. Allah nə istəsə, o olsun.

Gecə saat təxminən üç olardı. İraq cəbhəsində sakitlik idi. Anlamışdılar ki, Həmzə qüvvələrinə yağdırdıqları atəşdən sonra, biz heç nə etməyəcəyik. Az sayda yuxulu əsgəri su kənarına düzmüşdülər ki, səhər hücuma keçib xəttimizi alsınlar. Taqımların hücum nöqtəsinə gəlişindən yarım saat keçirdi. Bu an bir güllə atılmaqla döyüş başladı. Mən bir səngərdə döyüşü yönəltməklə məşğul idim. Ratsiyayla Əmir Çizəriyə zəng edib dedim:

-İsmayıl 1, İsmayıl 1! Döyüşə tək niyə başladın? Qərara alınmışdı ki, birlikdə başlayaq.

-Bizim göyərçinlərdən biri rəqibin damına çıxıb.

Bir nəfəri göndərdim ki, orada nə baş verdiyini öyrənsin. Bir qədər sonra, həmin şəxs xəbər gətirdi ki, kəşfiyyat qüvvələri yolu səhv göstərdiyindən, Hüseyn İsmayili minaya düşüb. O, sıra başçısı olduğundan, hamıdan 100 metr irəlidə gedərkən minaya düşüb. Qabaqda getməyini səbəbi də, atəşi birinci o açmalı idi. Düz mina meydanının ortasında ilişib qalıb. Nə irəliyə gedə bilir, nə də ki, geriyə qayıda bilir. Minaya düşən ayağı bir dəridən sallanmışdı. İraqlılar da səngərlərindən çıxıb istehkamın üstünə gəlmişdilər. Amma qaranlıq olduğundan, hər iki tərəf bir-birini görmürdü. Fikirləşirdilər ki, hansısa bir heyvan minaya düşüb. Havaya 2-3 ədəd işıqlandırıcı fişəng atdılar. Bu an Hüseyn bıçağını çıxarıb dəridən sallanan ayağını kəsib kənara atdı. Ayaq ayrı bir minanın üstünə düşüb partladı. Fişənglər atılanda hər yer işıqlanırdı. Əli Zakani qolundan yaralanmışdı. Ön sırada olan 10-15 igidimiz şəhid oldular. Qalan döyüşçülər isə irəliləyib o biri tərəfə keçdi və şücaətlə döyüşüb üstünlüyü ələ aldılar. İraqlılar gözlənilməz hücuma məruz qaldıqlarından, yerlərindəcə donub qalmışdılar. Bunu da vurğulayım ki, elə döyüşün

əvvəlində qorxaraq əllərini başlarına qoyub təslim olurdular. Hava işıqlananda gördük ki, 200 əsir gətiriblər. Aralarında yataq paltarında olan 4 zabit də vardı. Səhərə yaxın bir nəfərin sürünə-sürünə gəldiyini müşahidə etdim. Ona doğru gedəndə, Hüseyn İsmayili olduğunu gördüm. Yaralanaraq çoxlu qan itirməsinə baxmayaraq, özünü bizə çatdıra bilmişdi. Həm fiziki baxımdan güclü idi, həm də ruhən.

Hüseyni xəstəxanaya göndərdim. Fikrim hələ də, hacıda qalmışdı. Tez-tez onun dediklərini xatırlayırdım:

"Diqqətli olun, istehkamın digər tərəfini ələ keçirməsinlər. Çünki kənardan hücum edə bilərlər".

Həmin günün səhəri televiziyadan gəlib mən və Əsgərdən müsahibə aldılar. Jurnalist soruşdu:

-Sizcə, qələbənizə səbəb nə oldu?

-Mənə elə gəlir ki, qələbəmizin əsas səbəbi Abbasın sinəsindəki bayraqdır!

-Saxla, saxla! Cənab! Canlı yayımdayıq. Axı bayraq qələbə səbəbi ola bilməz.

-Yaxşı.

Yenə sualını təkrarladı:

-Sizcə döyüşçülərin qələbə səbəbi nə idi?

-Bayraq!

Müsahibəçi bayrağın adını eşidən kimi canlı yayımı saxlayırdı. Üç dəfə sözümü kəsdi.

-Sən məndən qələbənin səbəbini soruşursansa, mən də deyirəm ki, bayraqdır. Özün cavab verəcəksənsə, məndən niyə soruşursan? Buyur, Bismillah! Axı yalan nəyə lazımdır?! Bu qələbə Allahın lütfü və kərəmi idi. Heç kim hara getdiyini, sağdan və ya soldan döyüşməli olduqlarını bilmirdilər. BTR-50-in də hansı səbəbdən xarab olduqlarını heç kim bilmədi!

Zavallı jurnalist kiminlə söhbət etdiyini hələ anlamamışdı! Müsahibə macərası da belə gəlib-keçdi. Yaralıları aparmağa gələnlər, şəhidləri də aparırdılar. Bir neçə saat idi ki, qəhrəman Rza Mirkamalinin cəsədi balıq kanalının kənarında düşüb qalmışdı. Şirin və əbədi yuxuya getmişdi. İpək dəsmalı da belindəydi.

Davud Dehqani, Hacı Səməndər, Abbas Purəhməd, Höccət Şəmsian, Mahmud Bəhrami, Hüseyn Rzapur, Mehdi Qənaəti də Allahın rəhmətinə qovuşdular. Bəziləri isə - Məhəmməd Qasimi, İbrahim Kaşani, Rza Fərəci, Məcid Bağban, Mahmud Tahir Əfşar, Mehdi Zimam və Əli Filsuf kimilər də yaralanıb qanları ilə Şələmçədə tarix yazdılar.

Şəhidlər aparıldıqdan sonra, atəş bir az səngidi. Ehtiyat qüvvə olan Bəqi taqımını da, müdafiədən ötrü orada saxladıq. Günortadan sonra, radioda elan etdilər ki, Bəsrənin cənub-şərqində 27 saylı qoşunun mücahidləri, Həmzə, Meysəm və Şəhadət batalyonunun igidləri böyük bir əməliyyat keçirərək, general Abdul və bir neçə zabiti əsir götürmüşlər.

Günortadan sonra, təxminən saat 3-də Hacı Məhəmmədə dedim ki, mənim döyüşçülərim səhərə kimi döyüşüblər. Çox yorğundurlar. Ardınca da soruşdum:

-Şəhadət batalyonunu göndərməyəcəksən?

-Qürubadək səbr edin.

Mənim döyüşçülərim istehkamın ətəyinə sərilmişdilər. Bəziləri hətta oturduqları yerdə yatmışdılar. Güllələr də ardıcıl şəkildə istehkama endirilirdi. Onlara dedim ki, səngərlərinizə girin və çölə çıxmayın.

Arxasında olduğumuz istehkam İraqın idi. Onun görünüşü diqqətimi çəkdi. Aypara şəkilində dərin və uzun bir görüntüsü vardı. Güllə gəldikdə istehkamın arxasına

dəyər və itki olmazdı. Döyüşçülər aypara hissəsində və istehkamın dərinliyində gizlənərək özlərini qoruyurdular. İki tərəfi də elə idi ki, onu qorumaq rahat idi. Bizim istehkamlar isə tam fərqlidir; yastı, həm də alçaq. Buna görə də arxasından əyilərək keçmək lazımdır.

Qürub vaxtı hava qaralana yaxın Şəhadət batalyonunun qüvvələri gəlib ön cəbhəyə yerləşdilər. Düşmən bir az atəş açdı, lakin irəliləyə bilməyib geri çəkildi. Meysəmin lotu və pəhləvan döyüşçüləri burada da özlərini doğrultdular. Şəhadət batalyonu ilə yer dəyişərkən Səid Süleymaniyə dedim:

-Hacı Məhəmmədi çağır. İşim var.

-Nə işin?

-Düşmən nəsə bir plan cızır.

-Mənə de, mən çatdıraram.

-Yox. Özünə deməliyəm.

Səid ratsiyayla Hacı Məhəmmədlə əlaqə saxlayıb dedi ki, bir vəziyyət yaranıb və mütləq gəlib görməlisiz. Bir saatdan sonra, Hacı Məhəmməd bir nəfərlə gəlib çıxdılar. Salamlaşıb hal-əhval tutduqdan sonra, nələr baş verdiyini soruşdu. Onu sorğu-suala tutdum:

-Hacı, dünən yox idin.

-Əhsən.

-Əhsən nədir? Əhsəni futbolda qol vurana deyirlər!

-Bizi utandırma, seyid!

Düşündüm ki, ona bundan artıq əziyyət etmək düzgün deyil. İkimiz də yorğun və əldən düşmüş vəziyyətdə idik. Belə də olmalı idi. Neçə gün idi ki, ac-susuz və yuxusuz ora-bura qaçmışdıq. İkimizin də, dərdi eyni idi. Yaxınlaşıb hacıyla bir az zarafatlaşıb deyib-güldük. Hacı Məhəmməd dedi:

-Döyüşçülərini geri çək.

Gecə yarısı ön cəbhədə sakitlik olduğundan, Əsgərlə qərara gəldik ki, şəhidləri ön cəbhədən çıxaraq. Həm də, sabah döyüşçülərlə ədəvat qüvvələri get-gəl edərkən şəhidlərin cəsədləri ayaq altında qalmasın. Ona görə də, Əli Bəradəranla əlaqə saxlayıb maşın və iki nəfər təminatçı qüvvəsi göndərməsini istədim. Ön cəbhə düşmən snayperçilərinin nəzarəti altında idi. Yarım saat sonra, Əli Bəradəran bir neçə nəfərlə gəlib döyüşçülərin köməyilə şəhidlərin cəsədlərini istehkamın arxasına apardılar. Şəhid olanların çoxu Bəqi və Fədək taqımlarından idi. Şəhidləri maşının arxasına yığdıq. Xəcalət çəkə-çəkə məzlum şəhidləri maşından aşmamaları üçün kəndirlə bağladıq. Həmin anda təcili tibbi yardım maşınının sürücüsü olan Möhsün Mədəninin atası da yaralıları aparmaqdan ötrü maşınla ön cəbhəyə gəldi. Maşını istehkamın arxasında saxlayıb bizə yaxınlaşdı. Əsgər məni səsləyərək dedi:

-Seyid, Möhsünün atası gəlir!

Baxıb gördüm ki, Hacı Mədəni istehkama yaxınlaşır. Cəld çəfiyəmi Möhsün Mədəninin cəsədinin üzünə atdım. Neynəva taqımı ikinci kanalda döyüşmüşdü və Möhsün Mədəni də onun üzvü idi. Hacı Mədəniyə dedim:

-Hacı, bura niyə gəlmisən?

-Yaralıları aparmaq üçün.

-Dərhal buranı tərk edin. Hər an iraqlılar əks-hücuma keçə bilərlər.

Tez bir zamanda, Əsgərin köməyi ilə yaralılardan dördünü hacının maşınına mindirdik və ayrı iki maşınla da Meysəm batalyonunun fəxrləri olan şəhidləri Fatimeyi-Zəhra qərargahına yola saldıq. Bir müddət sonra, Qar meydanındakı Səccadiyyə zorxanasında "Kərbəla-5" və "Kərbəla-8" şəhidlərinin anım mərasimi təşkil etdik. Mən

şəhidlərin hər birinin eşq dolu macərasından danışıb, atalarına təqdir və təşəkkür edirdim. Özümdən ixtiyarsız - Möhsün Mədəninin üzünə çəfiyəmi sərmək macərasını da danışdım. Hacı Mədəninin bu hadisədən xəbərsiz olduğunu bilmirdim.

Şəhid və yaralıları yola saldıqdan sonra, dostlardan bir neçəsilə beşbucağın arxa cəbhəsi olan, yəni Çəmran qərargahına qayıtdım. Səhər vaxtı, Əsgər dostlarla Fatimeyi-Zəhra qərargahına getdi. Mən isə, Taktik qərargahı ilə Xürrəmşəhrin asfalt edilmiş yolunun yaxınlığında tikilən istirahətgahda qaldım. Sübh namazını qılandan sonra, divara söykəndiyim halda məni yuxu aparıb. Yuxudan Məhəmməd Allahsifətin səsinə oyandım:

-Seyid, dur! Təcili qərargaha get. Hacı Məhəmmədin səninlə işi var.

Tez durub qərargaha getdim. Əkbər Atifi tez-tez nəsə deyirdi:

-İraqlılar kütləvi hücuma keçib istehkamı alırlar! Döyüşçüləri də əsir götürürlər.

Hacıya dedim:

-Dəstəkçi qüvvələr hardadırlar?!

-Rza Yəzdiyə zəng etdim. Əmmar batalyonundan döyüşçü yığır ki, ön cəbhəyə aparsın. Batalyonların döyüşçüləri məzuniyyətə gediblər. Sayları çox azdır.

-Bəs indi biz nə etməliyik?

-Heç nə. Sizin qüvvələr öz vəzifələrin yerinə yetiriblər.

Çölə çıxdım. Məhəmməd Allahsifətin motosikletinə minib Əsgərlə, Əmir Çizərinin dalınca getdim.

Səhər saat 11-də arxa cəbhə çadırlarına çatdım. Dostlar yatmışdılar. “Ayağa qalx!” komandası verib hamısını oyadıb, vəziyyəti onlara danışdım.

-Əslində, ön cəbhəyə getmək sizin vəzifəniz deyil. Kim istəsə burda qala bilər, kim də istəsə Tehrana gedə bilər. Lakin bunu da bilməlisiz ki, düşmən genişmiqyaslı hücuma keçib və ön cəbhədəki qardaşlarımız meydanda tək-tənha qalıblar. Mən, Əsgər və Əmirlə birlikdə gedəcəyəm.

Bir saat sonra, bir neçə toyota gəldi və sözlərimizdən təsirlənən döyüşçülər maşınları doldurdular. Maşınların yanına getdikdə, gördüm ki, bir nəfər başına çəfiyə atıb və səssizcə bir kənarda oturub. Kim olduğunu bilmək üçün əlimi atıb çəfiyəsini çəkmək istəyəndə, birdən biləyimdən yapışıb xırıltılı səslə dedi:

-Seyid, mənə soyuqlamışam.

Elə bu anda bizdən bir az aralıda dayanan Əsgər məni səslədi. Yanına getdim. Əsgər qəmli baxışlarla mənə baxıb dedi:

-Yadındadır, şəfa xəstəxanasına gəlmişdin. Mənə dedin ki, gəl Meysəm batalyonunu təşkil edək, mən də dedim Bismillah?!

-Hə, yadımdadır.

-Yadındadır ki, dedim bir şərtim var?

-Hə, sənin şərtin...

Sözümü kəsib dedi:

-Mənim şərtim bu idi ki, komandirin kim olduğu bilinməsin. Yadındadır, mən həmişə ayaq altında yatırdım?

-Bunları unutmaqmı olar?

-Həmişə sən danışmısan, mən qulaq asmışam. İndi mən danışacağam, sən dinləyəcəksən.

-Əlbəttə, buyur, mən həmişə sənin əmrini dinləməyə hazıram. Nə etmişəmsə də, hamısını səninlə məsləhətləşdikdən sonra etmişəm.

-And iç.

-And içirəm!

-İndi biz ikimizdə ön cəbəyə getsək və bizə nəsə olsa, Meysəm batalyonu başsız qalacaq. Hüseyn şəhid oldu, iş bacaranların da çoxu yaralanıb. Batalyon yenə dağılacaq. Sən bu gün ön cəbhəyə getmə, Məşhədi.

-Yaxşı, qardaşlığımıza xatir gəlməyəcəyəm.

Əsgər mənimlə sağollaşıb yola düşdü, maşınlar da onun arxasıyca.

Onlar getdikdən sonra, bir nəfər gəlib dedi:

-Seyid, başına çəfiyə çəkənin kim olduğunu bilirsənmi?

-Yox.

-Hacı Qənaətinin oğlu idi. Özünü tanıtmaq istəmirdi.

-Axı niyə belə etdi?! O evin tək oğul idi. Getməməli idi.

Yarım saat sonra, mən də motosikletə minib ön cəbhəyə getdim. Dünən döyüşçülərin ələ keçirdikləri və sonradan itirdikləri aypara istehkamının yaxınlığında motosikletdən düşdüm. Şiddətli atışma səsi gəlirdi. Döyüşçülər atəş altında can-başla döyüşürdülər. İraqlılar davam gətirməyib sürətlə geri çəkilmiş və istehkam yenə bizim əlimizə keçmişdi. Döyüşənlərdən 15-20 nəfəri bizim, 15-20 nəfəri də Şəhadət batalyonunun qüvvələrindən idi. Bir az da irəliyə getdim. Əsgər qaçaraq döyüşü yönləndirirdi: “Get! Vur! İstehkama yapış!”

Başı döyüşə qarışmışdı. Məni görən kimi dayanıb soruşdu:

-Məgər sən söz verməmişdin, seyid?!

-O söz o vaxtın idi! İndi yeri deyil!

İki-üç saat vuruşduq. Döyüşçülər istehkamı geri aldıqdan sonra, ön cəbhəni möhkəmləndirib müdafiə xətti yaratdılar. Mən döyüşün axırına çatmışdım, elə də çox

vuruşmadım. Atəş tam dayanmamışdı, ara-sıra atırdılar. Şəhadət batalyonunun qüvvələri deyirdilər:

-İlk hücuma keçən Əsgər Ərsəncani oldu. Çox təcrübəli döyüşçüdü. Əgər sabahadək davam gətirsək, Əmmar batalyonunu ön cəbhəyə göndərəcəklər.

Artıq istehkam bizim əlimizdə idi. Ön cəbhədə sakitlik yarandı. Döyüşçülər səngərlərə söykənib dincəlirdilər. Bir neçə nəfər də, durbinlərlə iraqlıları izləyirdi. Əsgərlə birlikdə kanalın yanına gəldik. Göy üzü qara və ulduzlarla dolu idi. Bir yerdə dayandıq. Göyə baxırdım, birdən Əsgər boynundakı döyüşçü kodunu daşıyan metal boyunbağısını qopararaq əlində tutdu. Mən Əsgərin bu işindən təəccüblənib nə etdiyini soruşdum. İndiyə kimi onu bu vəziyyətdə görməmişdim. Qeyri-adi bir halda dedi:

-Şəhadət də bir növ şan-şöhrətdir! Bu şan-şöhrətin əsiri olmamaq üçün, ad-sansız ölmək istəyirəm.

Əvvəl ciddi olmadığını düşündüm. Mənəviyyatdan danışmaq Əsgərin həmişəki adəti idi. Əsgər özünü islah etdiyini bilirdim, amma dünyadan bu qədər qopduğu ağlıma gəlməmişdi. Gözüm onda idi. Metal boyunbağısını balıq kanalına atdı. Narahat olub dedim:

-Ay Əsgər, niyə belə etdin? Sənə bir şey olsa, bu boyunbağının vasitəsilə tanıyacaqdılar. Niyə atdın?!

-Ona bağlı olmaq istəmirəm. Seyid, bir şey et! Əgər səhər İraq əks-hücuma keçsə, döyüşçülərin döyüşməyə taqətləri qalmayıb. Get Hacı Məhəmmədlə danış.

O, bu sözlərlə məni söhbətdən yayındırmaq istəyirdi. Ürəyimə dammışdı ki, ona nəsə olacaq. Heç vaxt onu belə nurlu və mənəviyyatlı görməmişdim. Birgə istehkamın arxasına qayıtdıq. Uzaqdan bir neçə işıqlandırıcı fişəngin atıldığını gördüm. Saat 3-4 arası olardı, Məhəmməd Allahsifətin motosikletinə minib arxa cəbhədəki qərargaha

getdim. Hacı Məhəmməd yatmışdı. Dəstəmaz alıb, bir qədər Allahla razü-niyaz etdim. Sübh namazını qıldıqdan sonra, Hacı Məhəmməd oyandı. Ön cəbhə ilə döyüşçülərin vəziyyətini ona izah etdim. Hacı dedi: “Əlaqə saxladım, qüvvələr gəlirlər”.

Onunla danışarkən, ardıcıl atəş və minaatan səsləri şiddətləndi. Ona dedim:

-Hacı, qüvvələrim döyüşə başlayıblar. Mən getməliyəm.

Məhəmməd Allahsifət motockiletini işə salıb qaz verirdi. Arxasına mindim və ön cəbhəyə qayıtdıq. Gün çıxmışdı, gördüm ki, döyüşçülərdən bir neçəsi axsaya-axsaya üst-başları qanlı və toz-torpaqlı halda geri qayıdırlar.

-Nə olub?

-Namərd iraqlılar qaranlıqda hücuma keçmişdilər.

Onlardan biri kənardakı istehkamı əli ilə göstərib dedi:

-Hacı Əsgər oradadır. Bizə dedi ki, siz gedin, mən iraqlıların qarşısını alacağam!

Əsgərə olan məhəbbətimdən o, döyüşçünün sözünü axıra kimi dinləməyib getdim. Əsgərin pulemyotla iraqlıların qarşısını kəsdiyi istehkama tərəf qaçdım. Yanında oturub istehkama yapışdım və avtomatla atəş açmağa başladım. Əsgər bir anlıq mənə baxıb, yenə döyüşü davam etdirdi. İki dizim üstə qalxıb atış açırdım. Gün çıxmışdı, iraqlıların kölgələri görünürdü. Yenə də qalxıb atəş açmaq istədikdə, güllə qolumdan dəydi. Bundan öncə də, bu qolumdan bir neçə dəfə yaralanmışdım. Bədənimin yarısının iflic olduğunu hiss etdim. Silahı buraxıb istehkama söykəndim. Qolumdan qan şiddətlə axırdı. Bu anda uca boylu Məhəmməd Qazaği gəldi. Əynində hərbi paltar vardı. Mənə dedi:

-Seyid, bir saatdır ki, sizi axtarıram.

-Qardaş, get. Get Əsgərin yanına, ona kömək lazımdı. İraqlılar onu mühasirəyə alıblar. Doğrudan da, Məhəmməd Qazaği döyüşdə 10 nəfərə bərabər idi. Buna görə də, təkbaşına bir neçə iraqlı ilə döyüşürdü. Həmin anda pulemyotla düşmənin qarşısında dayanıb vuruşmağa başladı. Onun boy-buxunu mənə Hüseyn Tahrini xatırladırdı. İkisinin də boyu, ürəyi və xasiyyətləri eyni idi. Boylanıb Əsgərin olduğu mövqeyə baxanda, onun orada olmadığını gördüm. Bir az irəli getdikdə isə, güllə dəydiyini və istehkamın bir tərəfinə düşdüyünü gördüm. Düşmənin atəşi o qədər güclü idi ki, oraya gedib ona yardım edə bilmirdim. Əsgər cansız halda yerə düşmüşdü. Pulemyotu da yanında idi. İraqlılar qabaqdakı istehkamı artıq ələ keçirmişdilər.

Dəhşətli bir səhnə yaranmışdı. Əsgərlə təxminən 30 metr məsafəm vardı. Amma sanki bir-birimizdən minlərlə km uzaq idik. Yerimdən qalxıb yanına gedə bilmirdim. Ola bilsin həmin anda öz canım daha əziz olmuşdu! Bir anlıq gözümü yumdum və huşdan getdim. Bir neçə dəqiqə sonra ayıldım. Əsgər yadıma düşdü. Qalxıb baxanda onu orada görmədim. Nə qədər göz gəzdirdimsə, Əsgəri görə bilmədim. Deyəsən iraqlılar onu aparmışdılar, pulemyotu da yox idi. Düşündüm ki, yaralı olduğundan ya əsir düşüb, ya da mərmi tikə-tikə edib. Ağlıma min cür fikir gəlirdi. Yenə ayağa qalxıb arxaya baxmaq istəyəndə, bir qəlpə başımın dərisini qopardı. Canıma dəhşətli yanma və ağrı hissi doldu. Başım gicəlləndi və yerə yıxıldım.

Aləm bir-birinə dəymişdi. Bir neçə nəfər yüksək səslə ərəbcə danışır və qışqırırdılar. Başım şişmişdi və onların səsləri başımda əks səda verirdi. Bir neçə dəqiqə sonra, tam ayıldım və gördüm ki, kanalın yanına düşmüşəm.

İraqlılar yanımdan keçdilər, amma mənə fikir vermədilər. Hələ döyüş davam edirdi. Düşmən bizi geri çəkilməyə məcbur edirdilər. Aypara istehkamını ələ keçirmişdilər, digərlərini də almaq istəyirdilər. Bir az qalxıb kanalın kənarından tutub sürünə-sürünə aşağı getdim. Kanalın içində su yox, palçıq vardı. Dizə kimi palçığa batdım və tərpənə bilməyib oradaca oturdum. Hələ də başımdan qan axırdı. Üzüm və boynum qana boyanmışdı.

Bir az ətrafıma baxdım. Ürəyimdə özümə "əhsən" dedim. Kanalda kiminsə olması heç kimin ağlına gəlməzdi. Yaxşı pənahgah tapmışdım. Həmin anda bir nəfərin də məndən 20-30 metr aralıda palçıqda oturduğunu gördüm. Onu çağırmaq istədim, lakin fikirləşdim ki, birdən iraqlı olar. Palçığın içində əlbəyaxa olmağa halım yox idi.

O biri qolumla araxçınımı çıxarıb başımın yarasının üstünə qoydum. Qarşı tərəfə baxıb, ürəyimdə onu çağırıb-çağırmamağı düşünürdüm.

Həyatın işinə bax... Tərpənmək istədikdə bir az da palçığa batırdım. Palçıq saqqız kimi əl ayağıma yapışmışdı. Daha dözə bilməyib, hər şeyi gözə alıb həmin şəxsi çağırıb, kim olduğunu soruşdum.

-Əmirəm, Əmir Rəhimi!

Çox sevindim. Ona dedim:

-Əmir! Bura gəl! Mən seyidəm!

İkimiz də palçıqda çabalamağa başladıq. Ayağımızı qaldırdıqca, daha da çox palçığa batırdıq. Salavat çəkərək, Allahdan yardım istədim və yavaş-yavaş Əmirə yaxınlaşdım. Ona çatdıqdan sonra soruşdum:

-Əmir, mən yaralanmışam. Buradan necə xilas ola bərik? Nə edək?

-Seyid, mənim də ayağıma qəlpə dəyib. Sən həm məndən arıq, həm də daha yüngülsən. Şalvarını soyunsan, palçıqdan çıxa bilərsən.

-İkimiz də sinəyə kimi palçığa batmışıq. Şalvarı necə çıxarmaq olar?!

-Hə, mümkündür. Kəməri və düyməni açsan, çıxacaq. Sağ olan əlinlə çiynimə söykən və özünü yuxarı çək.

Əmir əyilib çiynini yaxınlaşdırdı. Əlimi onun çiyninə söykəyib var gücümlə özümü yuxarı dartdım.

Kanalın dərinliyi təxminən iki metr olardı. Əmirə söykəndim. Barmaqlarımın ucu kanalın çölünə çatırdı. Əmir şalvarımı çəkib əynimdən çıxartdı. Tək əllə kanalın qırağından yapışıb özümü çölə atdım. Bir neçə dəqiqə yerdə uzanıb dincəldim. Hələ də iraqlıların səsi eşidilirdi. Vəziyyətim yaxşı deyildi. Amma bilirdim ki, istehkamı ələ keçirib, bizi də mühasirəyə alıblar.

Bir anlığa palçıqda ilişib qalan Əmir yadıma düşdü. Qalxıb oturdum. Fikirləşirdim ki, ağır çəkili Əmiri o palçığın içindən necə çıxara bilərəm? O, mərdlik edib mənim kanaldan çıxmağıma yardım göstərdi. Salavat çəkib, Allaha sığınıb ətrafa göz gəzdirdim. Gözümə bir neçə cırılmış paltar sataşdı. Bilmirəm iranlıların idi, ya iraqlıların. Fərq etməzdi, paltarları bir-birinə möhkəm düyünləyərək qalın bir kəndir düzəltdim. Yaralı qolumla, çox çətinliklə paltarların bir başını ayağıma bağlayıb, digər başını kanalın içinə ataraq Əmirə dedim:

-Əmir, kəndirdən yapış.

-Məgər bir əlinlə məni yuxarı çəkə biləcəksən?

-Narahat olma. Allah özü yardım edəcək.

Kanalın ağzında yerə uzandım və var-gücümlə torpaqdan möhkəm yapışdım. Əmir də şalvarını çıxarmış və nisbətən yüngülləşmişdi. Yavaş-yavaş özünü yuxarı

çəkdi. Əmir yuxarı qalxdıqca, mən torpağın üstündə sürüşürdüm və bütün bədənim ağrıyırdı. O, ağır olduğundan məni kanala doğru çəkirdi. Az qalırdı kanalın içinə düşm, sonda Əmir kanaldan çıxa bildi. İkimiz də yaralı, qanlı və palçıqlı bədənlə kanalın ağzında yerə sərildik. Sanki bir anlığa hər şeyi unutduq. Bir qədər sonra özümüzə gəldik. Neçə saat kanalda qaldığımızı bilmirəm.

Təxmin etdik ki, Tokmedadi arxamızda, biz isə öz cəbhəmizlə üz-üzəyik. Yəni aypara istehkamından uzağıq. Allaha şükür etdik ki, atəşin altında deyildik.

Özümə gəldikdən sonra, yenə Əsgər yadıma düşdü. Axırıncı dəfə qayıdıb Əsgərin olduğu yerə baxdım. Amma onu tapa bilmədim. Ürəyim Əsgərin yanında qalmışdı. Arzu edirdim ki, kaş bir az taqətim olaydı və heç olmasa onun cəsədini tapaydım. Amma əfsuslar, əfsuslar olsun...

İraqlılar öz döyüşçülərinin cəsədlərini apara bilməmişdilər. Bizim şəhidlərdən də döyüş meydanında qalanlar vardı. Təəssüflər olsun ki, onları aparmağa heç kim yox idi. Əmir bu vəziyyətdə mənimlə gedə bilməyəcəyini söylədi. Əlimi qoltuğuna keçirib onu qaldırdım. Bir-birimizə söykənmiş halda, axsaya-axsaya arxa cəbhəyə doğru getməyə başladıq. Gün çıxmağa az qalmış, Fatimeyi-Zəhra qərargahına yaxınlaşırdıq. Artıq yeriyə bilmirdik. Qalan yolu sürünə-sürünə, dua edə-edə gedirdik. Uzaqdan bir toyota göründü. Sürətlə gəlirdi, toz-torpaq qaldırmışdı. Bizi görən kimi, maşını dayandırdı. Sürücüsü maşından düşüb su qumqumasını bizə uzadıb dedi:

-Mən Sarəllah diviziyasının üzvüyəm.

Bizi maşının arxasına mindirib sahə xəstəxanasına apardı. Xəstəxana çarpayısına uzanan kimi məni yuxu apardı. Ertəsi gün axşam azanının səsinə oyandım.

Yuxudan ayılanda əynimdə şalvar vardı. Bədənimin hər yeri ağrıyırdı, hələ də yorğun idim. Harda olduğumu soruşdum. Dedilər ki, bura Əhvazdan 40 km aralıda olan İmam Hüseyn (ə) xəstəxanasıdır.

Həmin gecəni də orada qalmalı oldum. Səhəri gün Əmir yanıma gəlib dedi:

-Mən ön cəbhəyə qayıdıram.

Yaralarımı sarıyıb, başıma tikiş atdılar. Qolumu da sarğıya bağlayıb dedilər ki, güllə və ya qəlpənin harada olduğunu bilmək üçün Əhvaza gedib şəkil çəkdirməlisən. Əlim şişib balış boyda olmuşdu. Həkimlərə dedim:

-Mən komandirəm. Müalicəyə vaxtım yoxdur. Batalyonum ön cəbhədə başsız qalıb. Qayıtmalıyam.

Xəstəxanadan paltar alıb geyindim. Bir ambulans gəlib Əmirlə məni qərargaha - Hacı Məhəmmədin yanına apardı.

Hacı Məhəmmədlə hal-əhval tutub söhbətləşdik. Bizim üçün meyvə suyu gətirdilər. Söhbət əsnasında Əsgərin şəhadət macərasını ona danışdım. Hacı Məhəmməd çox narahat oldu. Lakin bütün fikri-zikri əməliyyat olduğundan, o haqda çox danışmadı.

-Əmmar batalyonu artıq döyüş meydanındadır. Aypara istehkamlarından bir-neçəsini itirdik. Amma Əmmar batalyonu bir qədər arxada müdafiə xəttini möhkəmləndirib. Qalan döyüşçülərə geri qayıtmaq əmri verdim.

Əməliyyatın planlaşdırma üzvlərindən biri bizi Toyota ilə Çəmran qərargahına çatdırdı. Meysəm batalyonunun döyüşçülərindən bir neçəsi orada sərgərdan vəziyyətdə qalmışdı. Onları toplayıb Toyota ilə Kərxə düşərgəsinə getdik. Ağır əməliyyatdan sonra, batalyon kadrlarından 10 nəfər qalmışdı və bir neçə korpus keşikçisi ki, mərdlik

edib getməmişdilər. Bir neçə nəfərə də hesablaşma vərəqəsi verib şəhərlərinə yola saldım.

Cəmi on nəfər qalmışdıq. Çadırlar hamısı demək olar ki, boş idi. Tək qaldığımdan, qəm-qüssə qəlbimi bürümüşdü. Küçəmizin uşaqları yadıma düşdü. O küçənin dəyərli qalması üçün çox canlar fəda oldu. Əqdəs xanımın oğlu, Zəhra xanımın oğlu... Onların cavabını necə verəcəkdim? Can dostum Əsgər yadıma düşdü. Əsgərin itən cəsədini necə tapa bilərdim? Onun ayrılığına necə dözə biləcəkdim? Anasına və ailəsinə nə deyəcəkdim? Əsgər ən yaxın və ən səmimi dostum idi. Mən isə bu eşq karvanından geri qalmışdım... Bu yüklərin altında əzilirdim. Az qala ürəyim partlayacaqdı. Taqətim tükənmişdi. Övladını itirən valideyn kimi idim. Başımı boş qalan çadırın dirəyinə vurdum. Kaş mən də ya şəhid, ya da əsir düşəydim, bu çadırları boş görməyəydim. Əlahü-əkbər bu hicrana, bu qəmə!

Bir həftə çox pis əhval-ruhiyyədə çadırlarda qaldıq. Bir yerə yığışır, dostlarımızı xatırlayaraq ağlayırdıq. Onları nə qədər çox istədiyimi yalnız Allah bilirdi. Bu eşqi həyatımda heç vaxt duymamışdım. Komandir olandan sonra, döyüşçülərimə çox bağlanmışdım. Sanki nəsə itirmişdim və Meysəm batalyonunun çadırlarını bir-bir axtarırdım. Mən arif deyildim, amma aşiq idim. Meysəmin mənəvi fəzası məni özü ilə aparırdı, səfası məni özündə qərq edirdi. Təşkil etdiyimiz bu batalyonda kimsənin hətta ayağına belə bir daş dəyməsini istəmirdim. Amma nə etmək olar, müharibənin amansız qanunları var. Top-tüfəng heç kimi tanımır. Döyüşçüləri bir-bir xatırladıqca, qəlbim od tutub yanırdı. Sağ qalanların hamısı bu qəm-qüssənin atəşindən yanırdılar. Dünyadan qopmaq üçün cəbhəyə gəlmişdik, lakin dostlara bağlanmışdıq...

Əsgərin sözü yadıma düşdü. O, deyirdi ki, bu döyüşçülər ya şəhid olacaq, ya da sağ qalacaqlar. Onlarla elə davranmalıyıq ki, bir gün bizi görəndə üz çevirib getməsinlər. Onlara yardım edə bilmiriksə, heç olmasa, problem də yaratmayaq.

Əsgərin daha bir dəyərli cümləsi yadıma düşdü: "Mən heç vaxt İmam Hüseyn (ə) eşqini, heç nəylə dəyişmərəm..".

Doğrudan da, dəyişmədi. Ləyaqəti və arzusu olduğu şəhidlik məqamına yüksəkldi. Əsgər kimi ola bilmədiyimə görə heyfslənirdim. O, dünyada heç nəyin əsiri deyildi. Odur ki, Allah-Taala bu məqamı ona qismət etdi.

Bir neçə gün sonra, xəbər verdilər ki, Haşimi Rəfsəncani qolf binasına gəlib komandirlərlə görüşmək istəyir. Onun görüşünə getdim. Komandirlərin hamısı yerdə dairəvi şəkildə oturmuşdular. Rəfsəncani də yerdə oturmuşdu. Bir-bir özümüzü təqdim etdik - Əmmar batalyonunun komandiri Rza Yəzdi, Salman batalyonunun komandiri Nüsrət Qərib, Həmzə batalyonunun komandiri Mahmud Əmini, Həbib batalyonunun komandiri Həsən Mühəqqiq, Malik batalyonunun komandiri Salehi, Ənsar batalyonunun komandiri Cəfər Möhtəşəm və s.

Adlarımızı bir-bir dedikdən sonra, Haşimi Rəfsəncani Hacı Məhəmmədə dedi:

-Zəhmət olmasa siz çölə çıxın. Bəlkə dostlar nə isə xüsusi bir şey demək istəyirlər. Siz burada olsanız, deyə bilməyəcəklər.

Ağa Kövsəri heç nə demədən, ayağa qalxıb otaqdan çıxdı. Sonra ağa Rəfsəncani bir-bir adlarımızı çağırıb dedi: "Əmmar batalyonunun komandiri ağa Yəzdi, buyurun... Meysəm batalyonunun komandiri Seyid, buyurun..". Bütün batalyonların və komandirlərin adlarını əzbərdən

bilirdi. Çox güclü yaddaşı vardı. Mən Meysəm batalyonunun əməliyyatları və onun çatışmazlıqları haqda danışdım.

Haşimi Rəfsəncani dedi:

-Sizin nə dediyinizi anlayıram. Düz buyurursuz, amma bizim döyüşməkdən başqa çarəmiz yoxdur. Ya təslim olmalıyıq, ya da döyüşüb onları geri çəkilməyə vadar etməliyik. Dünyanın əksər ölkələri onları dəstəkləyir. Bizə silah satmırlar. Sizin sözləriniz düzdür, amma bir az məlumatınız azdır. İnşallah, bu haqq mübarizəmizdə mütləq bir uğurumuz olmalıdır.

Deməyə çox sözüm vardı. Fikirləşirdim ki, ağa Haşiminin düşüncəsi digərləri ilə fərqlidir. Demək istəyirdim ki - heç olmasa, bir dəfə döyüşçüləri dinləyin, onlara bir şərait yaradın və s... Deməyə çox sözüm vardı, amma hamısı ürəyimdə qaldı...

Çadırları Dokuhəyə aparıb ordan da, Tehrana qayıtdıq.

# On altıncı fəsil

On-on iki günü dava-dərmanla keçindim. İlk günlər motosikletə minə bilmirdim və hər yerə piyada gedir, ya da dostlarım məni aparırdılar. Get-gedə vəziyyətim yaxşılaşdı və yaralarım tamam sağaldı. Ondan sonra motosikletlə "Meysəm" batalyonundan şəhid olanların işləri ilə maraqlanmağa başladım. Şəhid olanların, yaralananların və cəsədləri döyüş məntəqəsində qalanların adları və saylarını qeydə aldım. Hüseyn İsmailini soraqlayarkən "Bəqiyətəllah" xəstəxanasında yatdığını dedilər. Həmin ərəfədə Əli Bəradəranla birgə iki dəfə Hüseynə baş çəkə bildim. Getdikcə onunla görüşüm azaldı və iş axtardığını, hal-hazırda motosikletlə sərnişin daşıdığını eşitdim. Hətta bir dəfə eşitdim ki, siqaret satmaqla dolanır. Həmişə onun fikrində olsam da həyat bir daha bizi görüşdürmədi. Təəssüflər olsun ki, Şələmçə aslanı və "Kərbəla-5" və "Kərbəla-8" əməliyyatları qəhrəmanının sərgüzəşti belə bitdi.

Dostlarla qərara gəldik ki, "Meysəm" şəhidləri üçün matəm mərasimi təşkil edək. Beləliklə, şəhid ailələrinə

xəbər verdik və "Sədriyyə" məscidində böyük mərasim keçirdik. Əməliyyatdan 25 gün keçirdi və hamının dərdi hələ təzə idi. Bədəndəki yaralar sağalsa da ürəkdəki yaralar sağalmırdı. Kimi görürdümsə, dərdim təzələnir, o igidlik və rəşadətlər yadımdan çıxmırdı. Bu savaş haqla batilin qarşılığı idi. Bütün batalyonlar İraqın icad etdiyi cəhənnəmin müqabilində mərdliklə davam gətirdilər. Ələsgərin cəsədi Şələmçədə qaldı. Əməliyyatla bölgənin şəraitini nəzərə alarkən sağ qalması qeyri-mümkün idi. Odur ki, Məhəmədiyyə məscidində onun şəhadəti münasibətilə yas mərasimi təşkil etdik. Həmçinin Rza Mirkamali üçün də yas keçirildi. Məhəllə məscidinin könüllü üzvlərindən Rzapur və Dehqani də qurban getdi və yalnız qardaşım oğlu Seyid Hüseyn Kaziminin cənazəsi geri qayıtdı. Bacarıqlı və qeyrətli bir gənc idi və rahat həyat şəraitindən keçərək vətənin müdafiəsi uğrunda özünü Allaha tapşırdı. Hərçənd bir sıra laqeyd insanlara heç təsiri olmadı. Şələmçə bizim qohum-əqrəbadan iki igidi – "Əmmar" batalyonundan Seyid Mustafa Hadianı və "Malik" batalyonundan seyid İbrahim Şahmuradini alaraq tayfamızın adını ucaltdı. Hər dəfə "Meysəm"in qüvvələri ilə üzləşərkən “Nə vaxt cəbhəyə qayıdacağıq?” – deyə verilən sualları ilə qarşılaşır, onların hər zaman döyüşə hazır olduqlarını hiss edirdim.

Şəhidlərin yas mərasimindən sonra diviziyadan xəbər gəldi ki, ölkənin qərbində yeni əməliyyat gözlənilir. Şəhid Cəfər Cəngruyun şəhadətinin il dönümü gecəsində iştirak edən əksər qüvvələrin qarşısında elan etdim ki, diviziya Kuzəran düşərgəsində yerləşib və istəyənlər cəbhəyə qayıda bilərlər.

1987-ci il 21 iyulda özüm də Kuzərana gedib, batalyonun yenidən təşkili işlərinə başladım və ilk

mərhələdə "Bəqi" və "Fədək" taqımları qaydaya düşdü. Qüvvələr artdıqca "Neynəva" taqımı da bərpa oldu və "Meysəm"in sayı 200 nəfərə çatdı. Yavaş-yavaş düşərgədə hərbi təlim məşqləri yola düşdü və Əmir Çizəri, Qasim Kargər və Məhəmməd Cəfəri kimi təcrübəli zabitlər təlimləri üzərinə götürdülər. Təlimlərə daha çox yeni qüvvələr cəlb edilirdi. Başım batalyonla diviziya arasında rabitə işlərinə qarışdığından səhər toplanışları və təlimlərə nəzarət edə bilmirdim. Taktiki manevr düşərgəsi dağın ətəyində yerləşirdi. Qabaqkı kimi yenə Məhəmməd Kövsəri ilə əlaqə saxlayırdım. Onunla görüşərkən vəziyyətin nə yerdə olduğunu soruşdu. Dedim: "Sizə söz verdiyim gündən sonra artıq tərkibi yüz nəfərdən ibarət iki taqım hazırdır”. Sözüm tam qurtarmamış ayağa qalxıb, ratsiya ilə nə isə danışandan sonra gəlib, yanımda əyləşdi. Mən də davam edərək "Neynəva" taqımının da bərpa edildiyini xəbər verərkən yenə qalxıb, ratsiya ilə bir qədər danışandan sonra dedi: "Seyid, batalyonu müdafiə əməliyyatına hazırla!" Soruşdum: "Harada?" "Şələmçədə!" – deyə cavab verdi. Narahat halda dedim: "Ora niyə? Məgər deməmişdin ki, əməliyyat ölkənin qərbindədir?! Mən də qüvvələrimi o məntəqəyə uyğun hazırlamışam! Onlar neçə vaxtdır ki, təlim alırlar. Hətta çoxu əvvəl ezamiyyətə razı deyildi, yaralı idilər. Amma razı olandan sonra əngəl törətmək yaxşı deyil!" Dedi: "Yenə gileygüzar başladı!" Mən də dedim: "Məgər belə danışmamışdıqmı? İndi sözünün üstündə durmalısan! Yığdığım döyüşçülərdən heç kim müdafiə məntəqəsinə gedən deyil! Elə isə özün korpus üzvlərini başına toplayıb, batalyon təşkil elə və müdafiəyə göndər!" O da dedi: "Ay canım, mən lazım gələndə deyirəm əməliyyat olacaq, gəlməyəndə, deyirəm yoxdur! Sən niyə tutduğunu

buraxmırsan?! Səsimi bir az da qaldıraraq dedim: "Əşi, bir dayan! Mənim qüvvələrim od-alovun içindən çıxıblar, əməliyyatdan başqasına razı deyillər! Belə isti havada bu qədər könüllü qüvvəni dartıb, hara aparım?! Müdafiə yəni heç nə, otur gözlə! Hər sutkası həbs kimi keçir, lənətə gəlmiş günü axşam olmaq bilmir, adam bezir! Bütün gün ərzində səngərə soxulub gözləməlisən ki, axşam olsun! Bu uzun-uzadı durğunluq döyüşçünü tamam ruhdan salır! Qüvvələrimin çoxu kəşfiyyat-əməliyyat qrupunun üzvləri olub, diviziyanın təcrübəli döyüşçüləri sayılır..”. O, bir qədər susandan sonra sözünə belə davam etdi: "Ay seyid, niyə sənin xasiyyətin hamıdan fərqlənir?! Səninlə dil tapmaq mümkün deyil, a kişi!" Qısası, yalnız əlbəyaxa olmadıq. Bir-iki saat mübahisədən sonra sağolsuz əsəbi halda qərargahdan çölə çıxdım və yanımdakı iki-üç nəfər dostumla maşına minib, Kuzərana doğru yollandıq.

Yolda maraq üçün mərcləşib ciyər kababı yeməyi qərara aldıq. Doğrusu, onlar zarafata salaraq mənim könlümü almaq istəyirdilər. Xudmani bir ciyər kababxanası tapıb, içəri girdik. Kababçıya 14 şiş ürək, 14 şiş ciyər və 14 şiş də böyrək kababı sifariş verdik. Kababçı 20-30 şiş çəkəndən sonra əldən düşərək “A bala, bunları hara aparırsınız?” – deyə soruşdu. Dedim: "Mərcə girmişik ki, görək, kim çox yeyə biləcək!" Yeməkdən sonra yaxınlıqdakı çayda çimdik və axşamüstü batalyona qayıtdıq.

Ertəsi gün qərargahın ştab rəisi Cavad Hökmü batalyonumuza gəldi, mənimlə xüsusi görüşərək dedi: “Seyid, fikrinlə razıyam və bunları da tanıyıram. Amma hacı Məhəmməd deyir ki, seyid yenə bizə qarşı çıxır, işimizə mane olur! Qoşundan getməlidir! Biz nə deyiriksə, hər dəfə əks mövqedən çıxış edir. Seyidin iki yolu var; ya

bizi dinləməli, ya da..". Bu vaxt mən də "İkincisi daha gözəldir, qardaş! Elə isə xudahafiz! Mən haqq uğrunda cəbhəyə gəlmişəm və nahaq söz də beynimə girmir! İndiyədək kiminsə önündə də gözü kölgəli deyiləm!" – deyə cavab verdim. Sonra üzümü dostlara tutaraq dedim: "Qardaşlar, mən daha Tehrana qayıdıram!"

Elə həmin gün neçə nəfərlə birgə Tehrana qayıtdım. Yolda dostlarla deyib-gülsəm də, içimdə tufan idi. Fikirləşirdim ki, hacı Məhəmməd də haqlıdır, bəlkə də "Kərbəla-5" əməliyyatından sonra bacarığında şübhə yaranıb, hər nə deyirsə, etiraz etməyim düz deyil. Ona xüsusi hörmətim vardı, işgüzar adam idi, evində oturub əmr verməzdi və həmişə iş başında olardı. Bununla belə, o cür hazırlıqlı qüvvənin müdafiə məntəqəsində vaxt keçirməyinə heyfim gəlirdi. Sanki təzə traktorun əkin sahəsi olmayan yerdə qalıb pas atmasına bənzəyirdi. Bəlkə o da çıxılmaz vəziyyətdə imiş. Hər halda hərə mənim kimi bir hava çalsa, aləm bir-birinə qarışar və işlər pozular... Elə bu fikirlərdə ikən birdən dostlardan biri "Seyid, narahat olma!" – dedi. Mən də "İnşallah xeyirdir. Əsas odur ki, dinin bayrağı həmişə dalğalansın və dostların da məqsədi elə budur. Amma nədənsə bu məsələdə mənim təklifimə məhəl qoymadılar". – deyə cavab verdim.

Tehrana qayıtdıqdan bir müddət sonra eşitdim ki, "Meysəm"i "Miqdad" batalyonuna qatıblar və bəzi təcrübəli döyüşçüləri komandir təyin ediblər. O vaxt tehranlı qüvvələrin başına başqa hadisə də gəldi və hər iki diviziyada yaranan anlaşılmazlığa görə, çoxları cəbhəni tərk edərək geri qayıtdılar.

Bir gün Hüseyn Allahkərəm mənimlə görüşərək "Komandir Şamxani tehranlı qüvvələrdən ibarət çevik əməliyyat briqadası təşkil etməyi tapşırıb. Sənin fikrin

nədir və necə adlansın?” – deyə məsləhət istədi. Mən də dedim: "Yaxşı fikirdir və adı “əl-Zəhra” olsun!" Doğrusu, Allahın işi idi. Beləliklə, məddah seyid Əlini "Vəliəsr" hərbi hissəsinə dəvət etdik və beş gün rövzə məclisləri təşkil olundu. Beləcə, "Meysəm" və "Hürr" batalyonlarının əksər döyüşçüləri bir yerə toplandı və yenidən eşq macərası başladı.

Hərbi təlimlər Sorxe-Hisar meşələri və yüksəkliklərində keçirilirdi. Ora qabaqlar şahın ov məntəqəsi sayılırdı və ceyran, maral, dağ keçisi və s. heyvanlarla dolu olardı.

Daha sonra Şamxani "əl-Zəhra" ilə "Rəsulullah-27" qoşunlarının birləşməyini məsləhət gördü və Hüseyn Allahkərəmlə Məhəmməd Kövsərini barışdıraraq onlara “Gedin probleminizi həll edin!” – dedi. Neçə gün sonra Hüseyn qoşunların birləşməyi və diviziyanın təşkili barədə məlumat verdi və özü də komandir canişini təyin edildi. Həmçinin mənə də birinci əməliyyatdan sonra "Meysəm" batalyonunun yenidən bərpasına söz verdi.

Mavut yüksəkliklərində keçirilən "Beytül-Müqəddəs-2" əməliyyatından sonra Tehrana qayıtdım və cəbhə ilə get-gəlim azaldı. Bunun səbəbi işlərdə yaranan qarışıqlıqlar idi. Hüseyn müəyyən səbəblər üzündən diviziyadan ayrıldı və ondan sonra mən də digər həmkarlarla sıx əlaqəm olmadığım üçün hər hansı məsuliyyəti üzərimə götürmək istəmədim. Amma cəbhə dostlarımla daim əlaqədə idim və yeni xəbərləri mənə çatdırırdılar.

1988-ci il iyul ayının 21-i idi və evdə radionu dinləyirdim. Birdən İmamın 598 nömrəli qətnaməni imzaladığı və təqribən müharibənin sona yetdiyi barədə məlumat verildi. Belə görünürdü ki, İraqla qarşılıqlı atəşkəsə dair razılıq yaranıb. Bu gözlənilməz xəbərdən

sonra yerimdəcə donub qaldım. Heç kim bunu gözləmirdi. Məhəllənin məscidinə baş çəkəndə, gördüm, hamı hönkür-hönkür ağlayır. Özüm də çox narahat olmağıma baxmayaraq dedim: "Məsələnin başqa tərəfindən xəbəriniz yoxdur! Nə bilmək olar, yəqin iqtisadiyyatla bağlıdır!" Dostlar isə "Elə isə daha tez sülh edə bilərdilər!" – deyə cavab verdilər. Bir anlıq müharibənin bütün çətinlikləri, itirdiyim dostlar film kimi gözümün önündən gəlib keçdi və yadıma bir beyt düşdü:

*Ey könlümün yarı, bütün dostlar unudulsa da,*
*Elə günüm olmasın ki, səni unudaraq keçirim!*

Özümü mücahidlərin, yaralıların, qəlbi sınıq qazilərin, şəhid və itkin düşənlərin ailələrinin dərdinə şərik bilirdim. Odur ki, mən də nisgilli dostların kənarında oturaraq ürəyimi boşaltdım. Həqiqətən o günlər sürəkli əzabla keçdi...

Halım düzəlincə bir qədər çəkdi. Bir gün başımı qatmaq üçün "Malik Əştər" qərargahına yollandım. O gün həmkarlığa dair prezidentlik aparatından məktub aldım. Ümumiyyətlə, hərbi sahədən ayrılıb, güzəranımı keçirmək istəyirdim. Məktubu lazımı orqana təhvil verəndən sonra özləri əlaqə yaradacaqlarını bildirdilər. Neçə gündən sonra zəng edib, idarəyə çağırdılar və qəbul şöbəsinə getdim. İçəridə səliqəli geyinmiş iki-üç nəfər oturmuşdu və məlum idi ki, üzlərinə müharibənin tozu belə qonmayan adamlar idilər. Bəri başdan yersiz sorğu-suallar başladı: "Hansı bölgədə vuruşmusuz? Məqsədiniz nə idi? və s". Mən də bəri başdan "Heç yerdə! Yaralarım da bıçaq izidir! Məktubu da tanışlıqla almışam!" – deyərək özümdən çıxdım.

– Niyə kinayə ilə danışırsan?

– Axı, kağızda 78 ay müharibədə olduğum qeyd edilibsə, demək, əbəs yazılmayıb! Tutaq ki, Pir Əli bəndi bölgəsində olduğumu desəm, biləcəksiz haradır?

– Xeyr.

– Kani-səxt, Şələmçə, Əli Gerehzədin hara olduğunu bilirsiz?

– Xeyr, bilmirik.

Qarşı tərəf mat-məəttəl qalıb, utanaraq “Sabahdan gəl, işə başla!” – dedi.

İşsiz qalmamağım önəmli olsa da, öz azadlığım daha mühüm idi. Hərçənd azad döyüşçü olub, əlimdə heç bir sənəd, əmr və s. olmaması indiyədək mənə çox problemlər yaratmışdı. Hər halda göstəriş və inzibat altında yaşamaq istəmirdim. Dövlət adamları kimi səhərdən masa arxasında oturub, axşam da eyni saatda evə qayıtmaq mənlik deyildi. Bir tikə çörək qazanıb, başımı dini mərasim və zorxana ilə qatmaq, günümü şəhid ailələri və dostlarla keçirmək istəyirdim. Bunlar mənə hər şeydən mühüm idi. Odur ki, onlara “Məni motorpol[1] şöbəsinə göndərin”. – dedim.

İyul ayının əvvəlləri idi və ilk dəfə işə çıxmaq istəyirdim. Həmin əsnada dostlardan biri zəng edərək münafiqlərin ölkənin cənub-qərbindən ərazilərimizə basqın etdiyini və İslamabadla Kərəndi ələ keçirəndən sonra Kermanşaha doğru irəlilədiklərini xəbər verdi və mənə də ”İstəyirsənsə, sən də gəl!" – dedi. Elə axşamüstü Mahmud Tahirəfşarı, Əli Bəradəranı və Mahmud Ətayini şəxsi paltarla məscidin qarşısından götürüb, birbaşa maşınla İslamabada yollandım. Ertəsi gün günortadan sonra İslamabadda batalyonların düşərgə saldığı məntəqəyə çatdıq. Bizə dedilər ki, əməliyyat iyulun üçü

---

[1] Baş nazirliyin nəzdində nəqliyyat-xidmət işləri şöbəsi.

başlayıb və şəhər münafiqlərin əlinə keçib. Onlar özlərinə elə arxayındırlar ki, axşamlar küçələrdə gəzişərək axtarış aparırlar. Gəlişimiz əməliyyatın dördüncü gecəsinə düşürdü. Artıq "Həmzə", "Miqdad" və "Müslim" batalyonlarının qüvvələri lazımı nahiyələrə ezam edilirdilər. Bizə dedilər ki, hələlik gözləyin və axşamüstü uçan iki helikopterlə yola düşərsiz. Fürsətdən istifadə edib, "Meysəm"in keçmiş döyüşçüləri ilə görüşdük və əksəri komandir vəzifələrinə yüksəlmişdi.

Qürubadək səbrimiz tükəndi. Daha helikopterlərin hərəkətini gözləmədik və maşınımıza minib, yola düşdük. Soruşa-soruşa gəlib, İslamabadın üçyol ayrıcına çatdıq. Axşam Siracı gördüm. O, "Miqdad" batalyonunun komandiri, Əmir Çizəri də müavini və Mahmud Əmini isə diviziya komandiri idi. Orada Məhəmməd Kövsərini görsəm də ona yaxınlaşmadım. Çünki başı başqa birisi ilə söhbətə qarışmışdı. Bizi "Müslim" batalyonuna qatdılar. Komandiri Qasim Kargər və müavini də Mənsurpur idi. Mənsurpur sadə və mərifətli bir cavan olduğundan yanında keçən söz-söhbətlərə etina etmədən asudə işləmək olardı. Bu əməliyyatda mənimlə bərabər Abbas Müqəddəsi, Höccət Ali, Əli Fəxxar, Kazim Maqsudi, Abbas Qaffari, Səid Səffari, Rza Cəmşidi, Məcid Təla, Zücaci, Əta Bəhirayi, Əli Əbdülməliki və Abbas Xurşidi kimi döyüşçülər də iştirak edirdi. Yola düşərkən cərgədə arxadan bir nəfər tanış gözümə dəydi. Dostlardan biri onun Qulaməli Rəcəbi olduğunu söylədi. Yaman sevindim. Qulaməli Əhli-beyt (ə) şairi və məddahı idi. Ona xüsusi məhəbbətim vardı. Ürəyə yatan səsi və misilsiz şeirləri hələ də yadımdadır. Arxadan səsləyərkən mənə tərəf dönüb, əlini yelləyərək gülümsədi. Ucadan dedim: “Xoş gəlmisən! Amma niyə gec?” O da "Canım

sənə və anan Fatiməyə (s) qurban! Həmişə xörəyin qazmağı dadlı olar! Mən qazanın dibini yeməyə gəlmişəm!” – deyə cavab verdi.

Nəhayət, cərgə ilə yola düşdük və İslamabadın üçyol ayrıcından şərqə doğru yönələrək alçaq bir təpəyə çatdıq. Bir dəstəni təpədə yerləşdirəndən sonra özümüz həmin nahiyədə müdafiə mövqeyi seçdik. Təpənin o biri tərəfini ucalan Qalaca dağı ilə geniş düzənlik əhatə edirdi və düzənlikdən cənuba doğru Həsənabadla Çarzəbər yerləşirdi. O vaxtadək ən şiddətli döyüşlər Çarzəbərdə gedirdi. Ötən əməliyyatlardan fərqli olaraq daha burada minalanmış sahələr, keçilməz maneələr və tikanlı məftillər, istehkamlar və kəşfiyyatdan xəbər yox idi. Qarşımızdakı coğrafi şəraiti nəzərə alarkən məlum idi ki, düşmənin İslamabad yolu səmtindən hücum ehtimalı çoxdur. Ağıllarına gələn münasib yol elə bu idi və bunu elastik taktika adlandırmışdılar. Belə ki, birbaşa düz yolla irəliləyərək beş ardıcıl mərhələdə Tehrana çatmağı nəzərdə tutmuşdular. Yəni işlərində heç bir hərbi və strateji nizam-intizam deyilən şey yox idi.

Gecə əməliyyata başlamaq üçün əvvəlcə qaranlıq vəziyyətdən baş açmalı idik. Təxminən yüz metr irəlidə bir BMP dayanmışdı. Hər halda ehtiyatsızlıq etmək olmazdı. Döyüşçülər təcrübə və yaşıma hörmət olaraq mənimlə məsləhətləşirdilər. İşin nə yerdə olduğunu bilmək istəyən Əhməd Şabani məndən icazə alıb, irəli getdi. O, irəlilədikcə arxada bizim həyəcanımız artırdı. Müharibədə belə hallar heç vaxt adiləşmir. Adam hətta yüz dəfə gecə əməliyyatında iştirak etsə belə, yenə stress keçirməli olur. Silahımızı hazır vəziyyətdə saxlayaraq nəfəsimizi sinəmizdə həbs etdik. Düzənliyin ucu-bucağı məlum deyildi və hər an qəfil atəşə məruz qala bilərdik. Ehtiyat

üçün qüvvələri bölərək üç tərəfdən mövqe seçməyi tapşırdım. Axır, Əhməd BMP-yə yaxınlaşandan sonra gülümsər səslə qışqırdı: “Seyid, boşdur!" Hamı qəşş edərək güldü və mən də ona “Ay Əhməd, bunu işarə ilə bildirməli idin!” – söylədim.

Pərakəndə şəkildə asta-asta irəliləmək istəyərkən hücumun şahidi olduq. Nizamlı mövqe tutunca yolu sıra ilə dolduran hərbi maşın və texnika qatarı peyda oldu. Məlum idi ki, başqa batalyonların təzyiqi nəticəsində yolları Çarzəbər səmtindən bağlanan münafiqlər İslamabad-Kermanşah şosesinə doğru geri çəkilərək bizimlə qarşılaşmışdılar. Ağır silah və DŞK ilə təchiz edilən maşınlar ardıcıl surətdə atəş açaraq irəliləyirdilər. Təxminən saat on iki radələrində qızğın döyüş başladı. Əgər bizim də DŞK-mız olsaydı, təpənin üstündən amanlarını kəsərdik. Yaxşı müdafiə xətti təşkil etsək də ağır silah-sursatımız yox idi. Yarım metr çökəyi olan şosenin kənarları bizim səngər və pənahgahımız sayılırdı. Elə ilk qarşıdurmada Mənsurpur çiynindən yaralandı. Yarasını bağlayandan sonra mənə yaxınlaşıb, öz rabitə əsgərinə “Seyidlə həmkarlıq elə!” – deyərək göstəriş verdi. Ondan sonra "Müslim" batalyonunun komandirliyi mənim öhdəmə düşdü. Ratsiyanı əlimə alıb, əməliyyata rəhbərliyə başladım. Taqım komandirləri ilə tez-tez əlaqə saxlayaraq lazımı tapşırıqları verirdim. Həqiqətən hamı layiqincə vəzifəsini yerinə yetirirdi. Məsələn, cılız Abbas Müqəddəsinin gözündə əsla qorxu yox idi. Cəmi on nəfərlə yolun o tərəfinə keçərək gecənin yarısı neçə əsirlə geri qayıtdı.

Döyüşdən bir-iki saat keçməsinə baxmayaraq hələ də ratsiya əlimdə idi və “Əhsən! Əhsən! Atəş açın! Ya

Heydər!” – deyərək qüvvələr ürək-dirək verirdim. Bu zaman Əmir Bəradəran mənə yaxınlaşaraq dedi:

– Seyid, əsirləri gətirmişəm. Onlarla nə edim?

– Kimləri gətirmisən?

– Əsirləri, əsirləri!

Başımı qaldırıb onlara baxdım. Qabaqda dayanan gənc bir qadın diqqətimi cəlb etdi. Heç nədən çəkinmədən iti baxışlarını mənə zilləmişdi. İrəli gəlib, bir kəlmə kəsincə dərhal əlindəki qumbaranı çəkərək gözümün içinə baxa-baxa qulağının dibinə tutdu və yalnız “Əmir, uzan!” – deyə bildim. Partlayışla birgə yerə atıldım və neçə saniyədən sonra iradəmi toplayıb, ayağa qalxdım. Cəld toz-torpağın arasından keçərək irəli cumdum. Əmir dalğaya məruz qalmışdı və səndələyə-səndələyə gəzirdi. Bizdən bir nəfər və əsirlərdən də ikisi yaralandılar və qızın da başı parça-parça olmuşdu. Əyninə qəribə paltar geyinmişdi və qolundakı parçanın üzərinə “Azadlıq ordusu” yazılmışdı. Döyüşçülər əsirlərlə yaxşı davranırdılar və bu rəhbərimizin əmri idi.

Gecənin bir aləmi bir-birimizə o qədər yaxınlaşdıq ki, əlbəyaxa döyüşlər başladı. Münafiqlərdə rəhm deyilən şey görünmürdü və təəccüblü də deyildi. Çünki ən müasir silahlarla təchiz edilmişdilər, qürur və azğınlıqlarının həddi-hüdudu yox idi. Səhərə yaxın yolun üstü hər iki tərəfin cənazələri ilə doldu idi. Amma yavaş-yavaş üstün gələrək yolu ələ keçirdik.

Onlar qənd fabrikinin arxasınadək geri çəkildilər və ertəsi gün günortaya kimi yolu DŞK ilə atəşə tutdular. İşimiz düyünləndi və qüvvələrin hərəkətinə imkan verilmədi. Açıq sahədə təchizatsız və səngərsiz heç bir iş görmək mümkün deyildi və pənah yerimiz bircə yolun kənarı boyu uzanan çökəkliklər idi. Bir az irəlidə qənd

fabriki ilə yolun arasında neçə kənd evi vardı. Yardım gəlincə ağır yaralıları ora göndərdim.

Günortadan sonra ratsiya ilə mühüm xəbər verildi: "Nəbi-əkrəm və İslamabad yerli qoşunları arxa tərəfdən münafiqləri mühasirəyə alıblar və iş başa çatıb! Münafiqlər təchizat və texnikanı atıb sizə doğru qaçırlar!" Bu təbii idi və onların başqa yolu yox idi. Mühasirəni yarmaq istəyən düşmən hədəfsiz atəş açaraq bizə tərəf gəlirdi. Çarəsiz qalıb, kəndin evlərini tərk edən yaralı qüvvələrimiz (Mahmud Tahir-Əfşar, Höccət Ali, Məhəmməd Ruhullahi, Tusizadə və s.) gözümüzün önündə qırıldılar. Onlar heç kimə aman vermədən evləri qumbara ilə partladırlar.

Axşamüstü Mahmud Əmini, Cəfər Möhtəşəm və Əhməd Kuçəki vəziyyətlə tanış olmaq üçün bizim cəbhəyə baş çəkdilər. Artıq kənd batalyonun arxa cəbhəsinə çevrilmişdi. Növbəti əməliyyatla bağlı yığıncağımız oldu və qərara alındı ki, axşam hava qaralandan sonra işə başlayaq. Amma qüruba yaxın xəbər gəldi ki, İslamabad qüvvələrimizin əlinə keçib və münafiqlər yolun şimal səmtindən qaçaraq dağlara çəkilirlər.

Ertəsi gün səhər artıq münafiqlərdən səs-səmir çıxmırdı və onlar rəsmi şəkildə məğlubiyyəti qəbul etmişdilər. Münafiqlərin başçısı Məsud Rəcəvi də öz dəstəsi ilə sərhəddən qaçaraq yenidən İraqa qayıtmışdı. Qırılanların çoxu gənc qadın və cavanlar idi. Şəxsiyyətləri ilə maraqlanarkən ciblərindən Finlandiya, Hollandiya, Belçika və s. ölkələrə mənsub təyyarə biletləri tapıldı. Görünürdü ki, onlar bu əməliyyat üçün dünyanın hər yerindən adam toplayıblar. Xam xəyallarla İranı neçə gündə fəth edəcəyini güman edənlərin aqibəti belə bitdi. Bu əsnada Məhəmməd Kövsəri də peyda oldu.

Salamlaşarkən dedi: "Biz sənin evində yatdığını güman edirdik! Amma ratsiya arxasından “ya Heydər” səslərin gələndə bildik ki, buradasan!" Zarafatla "Mən də sizin elə bu gün səhər çatdığınızı heç kimə deməyəcəyəm!" – deyə cavab verdim. İkimiz də gülüşərək bir-birimizi qucaqladıq. Orada Məhəmməd bir söz dedi ki, həqiqətən qızıl suyu ilə yazılmağa dəyərdi: “Seyid, dava-dalaşımız da Allaha görə olub!”

Əməliyyat başa çatdıqdan sonra neçə nəfərlə birgə Dokuhəyə qayıtdım. Doğrudan da müharibənin birdəfəlik bitdiyinə və daha üzərimizdə heç bir məsuliyyət olmadığımıza inana bilmirdik. Neçə günü orada – bir gün Dez səddində çimməklə, bir gün də seyid Məhəmməd Qübanı ziyarət etməklə keçirdik. Mahmud Tahir-Əfşar, Məcid Təla, Əli Zücaci və Qulaməli Rəcəbinin dəfn mərasimi xəbəri gələndən sonra Tehrana qayıtdım və həmişəlik qalmalı oldum.

O gündən etibarən hər dəfə "Behişti-Zəhra" şəhidlər xiyabanının 26-cı bölməsində çərçivələr arasından gedən dostları seyr edərkən köhnə dərdlərim baş qaldırır: "Kimlərlə birgə döyüşdüm? O əziz günlər harada qaldı? Necə misilsiz insanları itirdik..”. Mənə 26-cı bölmə ən yaxın dostların xatirə diyarı və yadigarıdır.

Bəzən fiziki və ruhi halım pisləşir, ağrılarım artır və məcburi surətdə dava-dərmanla keçinməli oluram. Kimyəvi-zəhərli qazlar nəticəsində ciyərlərimdə iltihab əmələ gəlir, şiddətli baş-ayaq ağrıları, qarın sancılarına məruz qalıram. Belə hallarda "Sasan" xəstəxanası mənim yataq yerim olur. Bu xəstəxana kimyəvi qazlarla zəhərlənən yaralıların görüş məkandır. Kontuziyaya görə, daim sakitləşdirici əsəb dərmanları içirəm ki, ən azı, dilim söz tutsun. Dərmansız hər cüzi hadisə məni yaman

hiddətləndirir. Şəhərin qalmaqalı və həyatı ürəyimi çox sıxır. Əsəb pozuntularımın çoxu "Kərbəla-5" əməliyyatının yadigarıdır.

Hərdən keçmişə dalaraq başımı göyərçinlərimlə qatıram. Qabaqlar məhəllənin səmasında dövr edib, tayı-bərabəri olmayan quşlarım artıq qocalmışdı və daha qanad çalmağa halları yox idi. Bəlkə onlar da mənim kimi yorulub əldən düşmüşdülər. Mənə təskinlik verən yeganə şey döyüşçü dostlarla rabitəni qorumaq, şəhidləri yad edib xatirələrini yaşatmaq idi; ondan başqası maraqlı deyildi. Hər halda o günlər bütün şirinliyi, ağrı-acıları ilə belə ötüb keçdi.

Bir gün Mahmud Julidəni görməyə getdim. O, "Kərbəla-5" əməliyyatından sonra doqquz ay yataqda yatdı. Canı sanki bir ipdən asılıb qalmışdı. Daha sonra əlil arabasına oturdu və bir daha cəbhəyə gedə bilmədi. Görüşdüyümüz gün onu da çox narahat və qəmgin gördüm. Yaralarından şikayətlənən deyildi. Dərdi başqa idi və ikimiz də eyni şeyi istəyirdik. Bir-iki saat oradan-buradan danışdıq. Sonra məhərrəm ayı bəhanəsi ilə döyüşçü dostlarla bir yerə yığışıb, dini mərasimlərin təşkili və Ərbəinə dair tədbirlər keçirməyi qərara aldıq. Ertəsi gündən başlayaraq mərasimlər olduqca möhtəşəm keçdi və Ərbəində lap qiyamət oldu. Tehranın əksər məhəllələrindən dəstələr bizim mərasimə qoşularaq böyük izdiham yaratdılar və sanki ikinci dəfə əyani olaraq "Kərbəla-5" nümayiş edildi.

Ərbəindən sonra yığıncaqları "Şəhidlər" məscidində keçirməyə başladıq. Bura görüş qərargahı, müharibə və şəhidlərin xatirəsini yaşadan məkanımız idi. Şəhid ailələri öz övladlarının ətrini gəlib, burada duyurdular. Aramızda səmimi birlik hökm sürürdü. Hələ cəbhənin səfası yerində

idi, şəhərin, o cümlədən, müasir dövrün təmtərağı üzərinə kölgə salmamışdı və siyasət-məqam afəti qəlblərə nüfuz etməmişdi. Yəni hələ ki, əsil məhəbbət hakim idi...

1989-cu il iyunun 4-ü İmam Xomeyninin vəfat xəbəri ölkəni matəmə qərq etdi. Bu ağır xəbər məscidin mikrofonundan elan ediləndə, hamımız şoka düşdük. Pərvanə kimi eşq atəşində alışıb yanırdıq. İmam Xomeyni hamının, xüsusilə, döyüşçülərin ürəyi sayılırdı. Onun bütün həyatı örnək idi. Hər nəyi vardısa, hamısını xalqa bəxş edib getdi. Xoşbəxtlikdən, yoldaşım Fatimə və oğlum Səidlə Tehran Cümə məscidində təşkil edilən "İmamla son vida mərasimi"ndə iştirak edə bildik. O gecə səhərədək gözümüzü İmamın cənazəsindən ayırmadıq. Vəfatdan neçə gün sonra Şəhidlər məscidində neçə min nəfərin iştirakı ilə möhtəşəm matəm mərasimi keçirdik.

Belə hallarda keçmiş döyüşçülərin növbə ilə şəhid ailələri ilə görüşü kimi faydalı tədbirlər dərdimizin məlhəmi idi. Görüşlərin təşkili mənim öhdəmə düşürdü. İki silindrli iri motosikletimlə qısa zamanda işləri yoluna qoyurdum. Ayda bir dəfə kollektiv şəkildə şəhid ailələrindən birinə baş çəkir, hal-əhval tutmaqla şəhidləri yad edirdik. Belə görüşlər bizim kimi müharibə iştirakçılarına daha maraqlı keçirdi. Növbəti görüş ramazan ayının sonuncu gecəsi (26.04.1990) misilsiz döyüşçü şəhid Həsən Bəhməninin evində təşkil olunacaqdı. Həmin gün səhər hacı Qənaəti xəbər yolladı ki, əvvəl "Behişti-Zəhra" şəhidlər xiyabanının 26-cı bölməsində şəhidlərin xatirəsinə həsr edilən mərasimdən sonra ora yığışacağıq.

Günortadan sonra Fatimə ilə Həmzəni motosikletin tərkinə mindirib, Behişti-Zəhraya yollandım. Azana bir az qalmış xiyabana çatdıq. Qadınlarla kişilərin solonu ayrı

idi. Orucumuzu elə orada açdıq. İftardan sonra dəstəmaz almaq üçün çölə çıxdım. Kranının kənarında bir qadın əyləşmişdi. Əvvəlcə nə edəcəyimi bilmədim. Axır, öskürüb, “ya Allah” – deyərək irəli getdim. Yaxınlaşarkən gördüm ki, Fatimədir. Dedim:

– Burada niyə oturmusan?

– İçimdə qəribə fırtına var!

– Bəlkə, nə isə yemisən, pis təsir edib?

– Ürəyim sıxılır, nigaranam! Gəl, evə qayıdaq!

O vaxtadək yoldaşımı elə narahat və pərişan görməmişdim. Dedim: “Hara? Gör nə qədər yol gəlmişik! Hələ məclis başlamayıb!” Dedi: "Soruşma Əbülfəzl! Gedək!" İsrar edərkən mən də əsəbiləşərək dedim: “Sənə bu gecə nə oldu, axı?!” Çarəsiz motosikleti işə saldım və Həmzəni önümə mindirdim. O da həmişə qabaqda oturub, roldan tutmağı xoşlayırdı. Yolda Fatimə narahatçılığımı aradan qaldırmaq üçün deyirdi: “Nə olar ki! Əvəzində evə bir az tez çatarıq”.

Cənub avtovağzalı yaxınlığında salınan körpünün inşaat işlərinə görə, prospekt bərbad vəziyyətdə idi. Maşınlar iç-içə girirdi və hərə bir tərəfdən keçmək istəyirdi. Sürəti azaldaraq qarışıqlığın arası ilə bir təhər irəliləməyə başladım. Yolun kənarına atılan dəmir dirəklərin yanından keçəndə, birdən bir yük maşını qaz verərək sürətini artırdı və sağ tərəfdən məni ötmək istəyərkən arxa təkəri motosikletimə dəyərək istiqamətini dəyişdi. Bu vaxt rolu idarə edə bilmədim və nə qədər çalışsam da saxlamaq mümkün olmadı. Axır, sağa-sola dönəndən sonra birlikdə yerə yıxıldıq. Dərhal ayağa qalxaraq özümü ələ aldım. Uşaq ağlayırdı və əlləri qanamışdı. Öz əlimin içindən də qan gəlirdi. Tez Fatimənin halı ilə maraqlandım. Əlimlə başını qaldırarkən

gördüm ki, qan gəlir. Neçə dəfə səslədim, amma cavab vermədi. Sadəcə yarıaçıq gözləri ilə mənə baxırdı. Camaat bizi dövrəyə aldı. Köməkləşərək onu qarşımızda dayanan peykan maşınına mindirdik. Maşına minəndə hələ də ağlayan Həmzənin başını sığallamağa başladım. Yolda Fatimə bir anlıq yarımçıq qalxaraq dərin yuxudan ayılmış kimi "Əssəlamu əleyki ya Fatimətəz-Zəhra!" – deyib, yenidən gözlərini yumdu. Mən də özünə gəldiyini düşünərək sevincək halda dedim: "Ay xanım, deyəsən, özünə gəldin!" Ondan səs çıxmadı. Sanki heç məni görmür və səsimi eşitmirdi. Xəstəxanaya çatanda artıq canını tapşırmışdı. İçəridə dostlardan Mustafa Təqvayini gördüm. Onunla görüşüb, baş verənləri danışdım. O da şərbət gətirib, təsəlli verəndən sonra bizi evə apardı. Həmzəni evə göndərib, özüm məscidə yollandım. Dostlar məscidin önündə məni gözləyirdilər və təzəcə şəhid Bəhməninin evindən qayıtmışdılar. Gecikməyimin səbəbini soruşdular. Heç nə deyə bilmədim. Halım yaxşı deyildi. Özümü məscidin divarına söykəyərək yerə oturdum. O anda qəlbimdəki təlatümə heç nə təskinlik verə bilməzdi. Özümdə deyildim və harada olduğumu bilmirdim. Sanki hamısı bir yuxu idi. Bu hadisənin niyə məhz Fatimənin başına gəldiyi, niyə indi, niyə bu qədər insanın arasından ona üz verdiyi barədə içimdən tez-tez suallar doğurdu. Mən cəbhənin uzun ayrılıqlarından sonra onun əvəzini çıxmaq, nisgilini azaltmaq istəyirdim... Haçandan-haçan Rza Fərəcinin "Seyid, harada idin? Gec gəldin! Bəs, Fatimə xanım hanı?" – səsinə özümə gəldim. Dedim: "Daha yoxdur! Rəhmətə getdi!" Yazıq duruxaraq soruşdu: "Necə? Zarafat edirsən? Necə yəni rəhmətə getdi?!" Dedim: "Əcəli bu gecəyə düşdü! İçimdən gələn səs deyir ki, getməli idi!" Yavaş-yavaş dostlar başıma toplaşdı. O

gecə ruhani seyid Əli möizə etməli idi və məscidə girərkən onu da agah etdilər. Seyid məni bir qədər süzəndən sonra dedi:

"Bəli, qismətdən qaçmaq əbəsdir!

Saqi nə süzürsə, eyni lütfdür!

Elə isə bunu Allahın lütfü san! Onu səndən almaqla yerinə göz yaşı bəxş edib. Allah sevdiyi bəndəsinin qəlbini qırıb, içinə qəm salar. Yoxsa çoxları kimi sənin də qabını doldurardı. Bu dərgaha yaxın olana bəla qədəhindən daha çox süzərlər!"

Ertəsi gün yas mərasimi təşkil edildi və həyat yoldaşımı elə "Behişti-Zəhra"da torpağa tapşırdıq. Həmin gün neçə şəhid cəsədi gətirilmişdi və döyüşçülərlə birgə şəhid ailələri də gəlmişdilər. Yəni əməlli-başlı qiyamət oldu.

Neçə gündən sonra eşitdim ki, yük maşınının sürücüsünü həbs ediblər. Başım qarışıq olduğundan bu məsələ ilə maraqlana bilmədim. Yas mərasiminin üçü və yeddisi də çox möhtəşəm keçdi. Neçə şəhidin dəfn mərasimi ilə eyni vaxta təsadüf etdiyindən "Behişti-Zəhra"da təlatüm baş verirdi. Fatimə özü cəbhəçilərə xüsusi hörmət bəsləyirdi və mənəvi islahı üçün çox zəhmət çəkirdi. Həqiqətən qayğıkeş və imanlı bir ana, vəfalı həyat yoldaşı idi. Həm zahiri, həm də batini gözəl idi. Onun səciyyələrindən nə qədər desəm, az olar. Hamı deyirdi ki, Fatimə xanım məhəllənin nümunəvi qadınıdır. Xeyirxah işlərinin sayı-hesabı yoxdur. Son anları da gözəl təəssüratla keçdi və nəhayət, Xanım Zəhra (s) başı üstə gəldi. Arzuladığı kimi ömrünün axırınadək arxa cəbhədə cəbhəçilərin dayağı oldu. Hamı gəlib baş sağlığı verirdi. Onlar ətrafımda olduğu müddətdə təzə yaralanmış şəxs kimi heç nə hiss etmirdim. Amma mərasimdən sonra başıma nə gəldiyini anlayarkən dözmək olduqca çətin idi.

Daha özümü tənha hiss edirdim. Müharibə aramıza fasilə salsa da, qəlblərimiz həmişə yaxın idi və dünyasını dəyişəndən sonra ona nə qədər bağlı olduğumu anlamağa başlayırdım.

Yeddisi gecə mərasimdən evə gec qayıtdım. Uşaqlar həyətdə hovuzun kənarında yatmışdılar. Başları üstə oturan çox kədərli görünürdü. Məni görən kimi soruşdu:

– Əbülfəzl! Ana qurban, necəsən?

– Nə deyim?

– Uşaqlar barədə fikrin nədir?

– Bu eynilə atanın sərgüzəştinə bənzəyir! Daha mənim sizdən başqa heç kimim yoxdur!

– Bir rübaidə belə deyilir:

*Hətta yuxuda belə ayrılığı duysaydım,*
*Daha doğru olardı onsuz ayrı qalsaydım.*
*Ayrılıq düşən zaman bilinər qədir-qiymət,*
*Taleni dəyişərdim əgər diri olsaydım!*

Fatimə ilə necə ömür sürdüyünüzü mən də bilirəm. Sizin həyatınız tamamilə fərqli idi. Amma uşaqları mənə tapşırmaq istəyirsənsə, şərtim var!

– Nə şərt?

– Sabah get, sürücünün təqsirindən keç, həbsdən azad olsun!

– Baş üstə.

Ertəsi gün məhkəməyə gedib dedim: “Mən daha şoferin təqsirindən keçirəm!” Prokuror kağıza nə isə yazıb məmura verdi və o da dərhal əllərimi qandallayaraq məni həbsə saldı. Səbəbini soruşarkən dedilər: “Belə görünür ki, müttəhimlə əlbir olaraq yoldaşını qətlə yetirmisən!” Bəxtimdən bir gecəni də "Qəsr" həbsxanasında dələduzlarla keçirməli oldum. Ertəsi gün səhər dost-tanış və qohumlar məni həbsdən çıxardılar. Prokurora "Ay

canım, bu nə iş idi, gördün?! Yəni yaxşılığa yer yoxdur?! – deyə etiraz edərkən "İncimə! Axı, bir həftədən sonra gəlib, güzəştə getməyin şübhəli idi”. Dedim: "Bu, anamın son istəyi idi!" O da dedi: "Həbsxana belə adamların yeri deyil. Üç övladı var və yoldaşı da hər gün bura gəlib ağlayır”.

Əlqərəz, bu itkidən sonra hər həftə cümə axşamı tək-tənha "Behişti-Zəhra"ya gedir və şəhidləri yad edirəm. Şəhidlər bölməsi və yoldaşımın məzarı dostlardan mənə yadigar qalan və yorğun qəlbimə təskinlik verən son ocaq sayılır. Bu qəm mənim daimi munisim, ayrılmaz sirdaşımdır. Hər dəfə onların şəkillərinə tamaşa edəndə, gözümün önündən o keşməkeşli günlərin saf və səmimi xatirələri ötüb keçir. Cəbhə və səngərdə duyduğum səfalı rabitəni həyatda bir daha heç yerdə və heç vaxt hiss etmədim. Daha onlardan yalnız xatirə qalıb. Müharibə insanı tam dəyişir, bəzilərinin səbrini tükədərək dözüm və taqətini əlindən alırsa, bir çoxlarının dözüm və səbrini artırır. Əslində ora insanların ilahi sınaq meydanıdır. Hər halda bu meydana şücaətlə girən, istər sağ, istər şəhid, həqiqətdə qalibdir.

Taleyə boyun əyərək uşaqları anama tapşırdım və onun sayəsində böyüdülər. Bir qədər asudə olandan sonra 2000-ci ildə yenidən evləndim.

Cəbhəçilərlə rabitə, mürşidim hacı Qasimin yadigarı olan vilayət aşiqləri mərkəzinin təşkili, şəhid ailələri ilə görüşlər, köhnə dostlarla sıx əlaqə və s. mənim sönməz amalımdır. Nəfəsim gedib-gələnədək bu yoldan dönən deyiləm. Yeganə arzum Allah qarşısında üzümün ağ olmasıdır. Bu, rəhmətlik atamdan mənə qalan irsdir. Sanki elə uşaq ikən əlindən tutub, karvansaraya getdiyim vaxtlardan zərrə-zərrə vücuduma təlqin edibmiş...